**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# M A G İ S T R A N T
dövri-elmi jurnal

**ISSN 2788-696**

**2023 №1(7)**

**B A K I**

**Baş redaktor:**
**Asəf D.Zamanov**
fizika-riyaziyyat elmləri doktoru, professor
ADPU-nun elm və innovasiyalar üzrə prorektoru
(ADPU, Bakı, Azərbaycan)

**Redaksiya heyəti:**
**Arif Ş.Şəkərəliyev**
iqtisad elmlər doktoru, professor
(ADİU, Bakı, Azərbaycan)
**Bəhlul İ.Ağayev**
biologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Bəhram H.Əliyev**
riyaziyyat elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əbülfət Q.Pələngov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əhməd Ş.Abdinov**
fizika-riyaziyyat elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Ələkbər Ə.Əliyev**
texnika elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Əli Z.Zalov**
kimya üzrə elmlər doktoru, dosent
(ADPU, Bakı, Azərbaycan)
**Əmir İ.Əliyev**
hüquq üzrə elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**Fərrux A.Rüstəmov**
pedaqoji elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Gülnaz A.Abdullazadə**
fəlsəfə elmlər doktoru, professor
(BMA, Azərbaycan)
**Hikmət Ə.Əlizadə**
pedaqoji elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**İsa N.İsmayılov**
pedaqogika üzrə elmlər doktoru, dosent
(ADPU, Bakı, Azərbaycan)
**İlham Ə.Şahmuradov**
biologiya elmləri doktoru, professor
(AMEA, Bakı, Azərbaycan)

**ADPU**-Azərbaycan Dövlət Pedaqoji Universiteti
**BDU**-Bakı Dövlət Universiteti
**ADNSU**-Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
**BMA**-Bakı Musiqi Akademiyası
**ADİU**-Azərbaycan Dövlət iqtisad Universiteti
**YTU**-Yıldız Teknik Universiteti. İstanbul, Türkiyə

**Mahirə N.Hüseynova**
filologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Məhəmməd A.Abduyev**
Coğrafiya üzrə elmlər doktoru
(ADPU, Bakı, Azərbaycan)
**Mübariz M.Əmirov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Müsavər A.Musayev**
fizika üzrə elmlər doktoru, professor
(ADNSU, Bakı, Azərbaycan)
**Müseyib İ.İlyasov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Namiq Q.Şıxalıyev**
kimya üzrə elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**Nazim Ə.İmamverdiyev**
geologiya-mineralogiya üzrə elmlər doktoru, professor, (BDU, Azərbaycan)
**Oqtay B.Sultanov**
tarix elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Ramiz İ.Əliyev**
psixologiya elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Sevinc B.Quliyeva**
filologiya üzrə fəlsəfə doktoru
(ADPU, Bakı, Azərbaycan)
**Surxay C.Əkbərov**
texnika elmləri doktoru, professor
(YTU, İstanbul, Türkiyə)

**Məsul katib:**
***Natəvan F.Həsənova***
***(ADPU, Bakı, Azərbaycan)***

**Təsisçi:** Azərbaycan Dövlət Pedaqoji Universiteti – (Bakı, Azərbaycan)

**Dövlət qeydiyyatı:**
«MAGİSTRANT» dövri-elmi jurnalı 29.01.2021-ci ildə Azərbaycan *Respublikası* Ədliyyə Nazirliyində Mətbu nəşrlərin dövlət qeydiyyatı reyestrinə daxil edimişdir.
Qeydiyyat: № 4328

# MÜNDƏRİCAT


## FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ

**G.B.Həbibullayeva**
ABŞ-ın Milli Arxiv və Sənədlər İdarəsində (Nara) tətbiq olunan müasir informasiya texnologiyaları........................................................4

**S.V.Əliyeva**
I-II siniflərdə "ölçmə" məzmun xəttinin öyrədilməsi metodikası və qarşıya çıxan çətinliklərin aradan qaldırılması yolları........................................................15

**N.T.Ələsgərli**
Riyazi oyunların növləri........................................................22

**S.Y.Laçınov**
İbtidai siniflərdə kütlə və onun ölçü vahidləri ilə şagirdlərin tanış edilməsi................29

## TƏBİƏT ELMLƏRİ

**A.M.Məsimova**
Biologiya dərslərində şagirdlərin idrak fəaliyyəti........................................................35

**H.X.Əliyeva**
Biologiya fənninin tədrisində müşahidələrin aparılması ilə şagirdlərdə tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi........................................................42

**S.Ə.Məmmədzadə**
VI sinif biologiya dərslərində şagirdlərin bilik və bacarıqların qiymətləndirilməsində test üsulundan istifadə........................................................49

**A.V.Abdullayeva**
Ümumtəhsil məktəblərinin VI siniflərində biologiya dərslərinin illüstrasiyalar əsasında təşkili........................................................55

**N.C.Qədirova**
Ümumtəhsil məktəblərinin VII sinfində biologiyadan qeyri-standart dərslərin təşkili imkanları........................................................61

**Ş.N.Niftaliyeva**
Bakalavr təhsil pilləsi üzrə - biologiya müəllimlərinin hazırlığında informasiya-kommunikasiya texnologiyaları bacarığının formalaşdırılması metodologiyası..........66

**F.M.Vahabova**
Coğrafiya fənninin VII və VIII siniflərdə tədrisində diyarşünaslıq materiallarından istifadə şagirdlərin bilik keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi..............................72

**Z.M.Əsədzadə**
Xəritə anlayışının işarə, informasiya, model, mətn, dil və obraz anlayışları ilə əlaqəsi........................................................77

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

**E.E.Məmmədov**
Filmlərin reklamının əsas yolları........................................................81

**S.M.Əskərov**
Qarabağın turizm potensialı və regionda turizmin inkişafı məsələləri........................87
**Z.C.Məhərrəmova**
Gəncə rəssamlarının yaradıcılığında mənzərə janrının bədii cəhətləri........................97
**G.R.Bağırlı**
Azərbaycan təhsil müəssisələrində tələbələrlə effektiv əks əlaqənin qurulmasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin təcrübəsi............................................105
**H.A.Mamedovi**
Sovet hakimiyyəti dövrünədək Azərbaycanda musiqi təhsili....................................110
**A.X.Dadaşlı**
Sahibkarlar orta məktəbdə yetişdirilir.......................................................................116
**H.M.Rəhimli**
Müstəqillik dövründə Azərbaycanda bədən tərbiyəsinin inkişaf yolları....................122
**A.İ.Əlizadə**
Könüllülük fəaliyyəti və onun həyatımızdakı rolu..................................................126
**Ç.R.Quliyeva**
Peşə səriştəsi strukturunda müasir musiqi müəllimin informasiya mədəniyyəti........132
**E.İ.Quliyev**
Əhalinin məskunlaşması..........................................................................................138
**Ü.P.İmanova**
Türk xalqlarının ortaq bədii dəyərləri......................................................................144
**N.S.Şahverdiyeva**
Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun bərpası və idarəetmə xidmətinin təşkili.............................................................................................152
**N.N.Məmmədova**
Universitet elmi nəşrlərinin keyfiyyət göstəricilərinin artırılması yolları.................157

**PEDAQOJİ-PSİXOLOJİ ELMLƏR**
**A.C.Abbasova**
Məktəbəqədər yaşlı uşağların sosiallaşmasında tolerantlıq mədəniyyəti..................165
**A.B.Yaralıyeva**
İnkluziv bağçada zəif görən uşaqların senso - motor çatışmazlıqlarının qaldırılması istiqamətində görülən işlərin əsas xüsusiyyətləri.....................................................170
**X.A.Soltanova**
Məktəbəqədər yaşlı uşaqların məktəbə fiziki hazırlığının əhəmiyyəti......................176
**F.Ə.Qasımova**
Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişafında nağılların əhəmiyyəti..................182
**R.M.Muradova**
İbtidai siniflərdə müəllimliyin tərbiyəvi fəaliyyətinin məzmunu..............................188
**R.İ.Əhmədli**
Şagirdlərin fiziki hazırlığının mahiyyəti, əsas xüsusiyyətləri və əhəmiyyəti............194
**Ü.İ.Vəliyeva**
Gənclərin təhsilə marağının artırılmasında məktəb-ailə münasibətlərinin rolu..........201
**S.S.Tağızadə**
Məktəbəqədər yaşlı uşaqların intellektual qabiliyyətinin inkişafı.............................207

**A.E.Abdurahmanlı**
İbtidai siniflərdə qeyri-standart məsələlər həllinin bəzi xüsusiyyətləri......................212
**H.İ.Bəxtiyarov**
Ümumtəhsil məktəblərinin X-XI siniflərində Azərbaycan tarixi dərslərində şagirdlərdə idraki fəallığın inkişaf etdirilməsinin tədqiqi vəziyyəti............................................217
**Z.A.Nəzərli**
Tarix müəlliminin pedaqoji səriştəsi və akmeoloji kompetensiyanın inkişaf etdirilməsinin zəruriliyi.............................................................................................222
**A.Ə.Ziyadxanova**
Təhsilin səviyyələri üzrə strateji planlaşdırmanın mahiyyəti: yerli və xarici tədqiqatçıların yanaşmaları...............................................................................227
**X.S.Seyidli**
Oxu dərslərində ibtidai sinif şagirdlərinin rabitəli nitqinin inkişaf etdirilməsi...........233
**H.S.Əliyeva**
Ailədaxili konfliktlərin sosial-psixoloji səciyyəsi.....................................................238
**V.V.Kərimova**
Keyfiyyətli təhsil cəmiyyətin əsas tələbi kimi..........................................................243
**N.Z.Ağaverdiyeva**
Təhsildə monitorinqin keçirilməsinin əsas xüsusiyyətləri.........................................248
**O.Ə.Həsənli**
"Azərbaycan dili" fənn kurikulumunun fəlsəfi-psixoloji əsasları..............................253
**R.İ.Şirəliyev**
Monitorinq təhsil sisteminin tərkib hissəsi kimi.......................................................259
**K.S.Qocayev**
İngilis dilinin tədrisində dərs planının rolu...............................................................264
**G.M.Aydın**
Məktəbəqədər yaşlı uşaqların idrakının inkişafı və təlimi haqqında nəzəriyyələr......270
**T.Y.İbrahimova**
Ümumtəhsil məktəblərində tədrisin təşkilində keyfiyyət anlayışı.............................277
**T.S.Allahyarova**
İnklüziv təhsilin metodoloji məsələləri.....................................................................283
**Z.B.Əliyeva**
Orta məktəblərdə həyati bacarıqların formalaşdırılmasının vacibliyi və həyati bacarıqların formalaşdırılması zamanı yaranan problemlərin səbəbi.........................288
**N.Ə.Şərayeva**
İbtidai sinif şagirdlərində təhliletmə qabiliyyətinin inkişaf etdirilməsi yolları...........294
**N.İ.Ağayeva**
Pedaqoji monitorinqin təhsilin keyfiyyətinin yüksəldilməsində əhəmiyyəti..............299
**H.A.Atakişiyeva**
Təhsil müəssisələrində təlim-tərbiyə fəaliyyətinin planlaşdırılması..........................304

**G.B.Həbibullayeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
***hebibullayevagozel@gmail.com***

# ABŞ-IN MİLLİ ARXİV VƏ SƏNƏDLƏR İDARƏSİNDƏ (NARA) TƏTBİQ OLUNAN MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARI

***Xülasə***

*Amerika Birləşmiş Ştatlarında istər Milli Arxiv və Sənədlər İdarəsində (NARA), istərsə də digər arxiv təsisatlarında informasiya texnologiyalarının tətbiqindən danışmazdan öncə, müasir dövrün aktual mövzularından olan informasiya texnologiyalarının nə olduğuna qısa nəzər yetirmək lazımdır. İnformasiya texnologiyası dedikdə, məlumat (informasiya) ehtiyatlarından istifadə olunması proseslərinin ağırlığını azaltmaq, onların etibarlığını və operativliyini çoxaltmaq məqsədilə informasiyanın toplanması, emalı, saxlanılması, ötürülməsini təmin edən və texnoloji zəncirdə birləşdirən metodlar, istehsal prosesləri və texniki-proqram vasitələrinin məcmusu başa düşülür. Dünyada ilk dəfə informasiya texnologiyaları XX əsrin 60-cı illərində ABŞ-da meydana gəlmiş, XX əsrin ikinci yarısında ilk informasiya sistemləri yaradılmağa və təkmilləşməyə başlanılmışdır. İnternetin inkişafı, yeni-yeni proqram vasitələri və sistemlərin yaradılması, qloballaşma XX əsrin 90-cı illərindən informasiya texnologiyalarının inkişafının daha da sürətlə getməsinə əlverişli şərait yaratmışdır. Müasir dövrdə informasiya texnologiyalarının bir çox elm sahələrində, eləcə də arxivşünaslıq sahəsində tətbiqi son dərəcə mütərəqqi əhəmiyyət kəsb edir. Məhz bu baxımdan məqalə bu problemin tədqiqinə həsr olunmuşdur.*

# СОВРЕМЕННЫЕ ИНФОРМАЦИОННЫЕ ТЕХНОЛОГИИ ПРИМЕНЯЕМЫЕ В НАЦИОНАЛЬНОМ УПРАВЛЕНИИ АРХИВОВ И ДОКУМЕНТАЦИИ США

***Резюме***

*Прежде чем говорить о применении информационных технологий в Соединенных Штатах Америки либо в Национальном управлении архивов и документации (NARA), либо в других архивных учреждениях, необходимо кратко рассмотреть, что такое информационные технологии, каковы актуальные темы современности. Под информационными технологиями понимается совокупность методов, производственных процессов и технических и программных средств, обеспечивающих сбор, обработку, хранение, передачу и соединение информации в технологическую цепочку в целях снижения веса процессов использования информационных ресурсов, повышения их надежности и эффективности. Впервые в мире информационные технологии появились и усовершенствовались в США в 60-х годах XX века. Развитие сети Интернет,*

*создание новых программных средств и систем, глобализация создали благоприятные условия для того, чтобы развитие информационных технологий пошло еще быстрее, начиная с 90-х годов XX века. В современное время применение информационных технологий во многих областях науки, а также в области архивоведения имеет чрезвычайно прогрессивное значение. Именно с этой точки зрения и посвящена статья изучению данной проблемы.*

# MODERN INFORMATION TECHNOLOGIES APPLIED IN THE NATIONAL ARCHIVES AND RECORDS ADMINISTRATION (NARA) OF USA

***Summary***

*Before talking about the application of information technologies in the United States of America, either in the National Archives and Records Administration (NARA), or in other archival institutions, it is necessary to take a brief look at what information technologies are, which are the relevant topics of the modern era. Information technology means a set of methods, production processes and technical and software tools that provide information collection, processing, storage, transmission and connecting in a technological chain in order to reduce the weight of the processes of using information resources, increase their reliability and efficiency. For the first time in the world, information technologies appeared and improved in the USA in the 60s of the XX century. The development of the Internet, the creation of new software tools and systems, and globalization have created favorable conditions for the development of information technologies to go even faster since the 90s of the XX century. In modern times, the application of information technologies in many fields of science, as well as in the field of archival science has extremely progressive importance. It is from this point of view that the article is dedicated to the study of this problem.*

***Açar sözlər:*** *ABŞ, arxiv işi, Milli Arxiv və Sənədlər İdarəsi, informasiya texnologiyaları, ERA layihəsi*

***Ключевые слова:*** *США, архивное дело, Национальное управление архивов и документации, информационные технологии, проект «ERA»*

***Key words:*** *USA, archiving, National Archives and Records Administration, information technology, ERA project*

***Normativ baza.*** ABŞ hazırda elektron sənəd dövriyyəsinin normativ-hüquqi məsələlərinin tədqiqi və tənzimlənməsi sahəsində dünya liderlərindən biridir. Elektron kargüzarlıq (ofis işi) sahəsində ABŞ-ın əsas qanunvericilik aktları aşağıdakılardır:

1. 1950-ci ildə qəbul olunmuş Federal Sənədlər haqqında qanun;
2. 1984-cü ildə qəbul olunmuş Milli Arxivlər və Sənədlər Xidməti haqqında qanun;

3. 24 yanvar 2000-ci il tarixli "Beynəlxalq və daxili ticarət münasibətlərində elektron imzalar haqqında" qanun.

Federal sənədlər və milli arxiv-sənəd xidməti haqqında qanunlara əsasən, federal hökumət orqanlarının sənədlərinin idarə edilməsinə nəzarət etmək və elmi, tarixi və praktiki dəyərə malik sənədlərin lazımi qaydada qorunmasını təmin etmək ABŞ-ın Milli Arxivinin əsas məsuliyyət daşıdığı məsələlərdir. ABŞ-ın Milli Arxiv idarəsinə məxsus bütün sənədlər toplusu 34 binada ümumi həcmi 81200 kubmetr olan 8 milyard vərəqdən çox kağızdan ibarətdir. Sənədlərin təşkili səviyyələrinin iyerarxiyası (yəni, onların təsnifatı və sistemləşdirilməsi) Azərbaycan arxivlərindəki adlandırmadan fərqlənir və bu şəkildədir: *item* (məqalə) - *file unit* (fayl bloku) - *series* (arxiv seriyası) - *record group* (sənədlər qrupu) - *collection* (sənədlər kolleksiyası).

ABŞ konstitusiyası, İstiqlaliyyət bəyannaməsi, Hüquqlar haqqında Bill və başqaları kimi ən dəyərli unikal sənədlər Vaşinqtonda Milli Arxivin mərkəzi binasında yerləşdirilir və demək olar ki, hər gün ziyarətçilərin üzünə açıqdır. (7, s.58)

ABŞ-da sənədlərin idarəetmə konsepsiyası 1970-1980-ci illərdə rəsmiləşdirilib. Həmin dövr, sənədlərin ən vacib idarəetmə resursu olan sənədləşdirmə işinin təşkilində yeni mərhələ kimi nəzərdən keçirilə bilər. Sənədlərlə işi idarəetmənin səciyyəvi cəhəti müvafiq iqtisadi prinsiplər nəzərə alınmaqla müxtəlif mülkiyyət formaları və fəaliyyət miqyasına malik təşkilatlarda, idarələrdə və müəssisələrdəki sənədlərin əldə edilməsi, istifadəsi və saxlanması üçün səmərəli sistemin təşkil edilməsindən ibarətdir. Beləliklə, "sənədlərin idarə edilməsi" anlayışı bütövlükdə müəssisənin idarə edilməsinin səmərəliliyinə birbaşa təsir göstərə bilən idarəetmə funksiyalarından biri kimi şərh olunur. Bununla belə, bir sıra amerikalı tədqiqatçılar qeydlərin idarə edilməsinin sənədlərlə işin təşkilinin təkamülünün yeni mərhələsi olması fikrini şübhə altına alırlar. Beləliklə, C.Sanfordun fikrincə, sənədlərin idarə edilməsi yeni bir ixtira deyil. Yalnız sənədlərlə işləmək üçün ənənəvi olaraq qurulmuş alqoritmin yeni reallıqlara uyğunlaşdırılması: yəni, müasir ofis avadanlıqlarından, sənəd dövriyyəsi sahəsində elektron kommunikasiya sistemlərindən və şəbəkələrindən istifadə mövcuddur.

Amerika ənənəsindəki "sənəd" (document) termini "qeyd" (record) terminindən əhəmiyyətli dərəcədə fərqlənir. Federal Sənədlər Qanununa görə, sənəd "qeyd olunma üsulundan və xüsusiyyətlərindən asılı olmayaraq, bir təşkilat tərəfindən fəaliyyətinin sübutu kimi yaradılan və ya alınan və bu məlumatın müəyyən bir müddət ərzində saxlanmasını tələb edən dəyərə malik olan qeydə alınmış məlumatdır." (2, s.3-4) Qeyd, üzərində sabitlənmiş məlumatlar olan maddi daşıyıcı obyekt mənasını daşıyır. Bir və ya bir neçə qeyd bir sənədin tərkibinə daxil ola bilər. Buna görə də "sənəd" anlayışının

mənası xüsusi informasiyanın xüsusiyyətləri ilə əlaqələndirilir, bu zaman "qeyd" termini "yazılmış informasiya" kontekstində başa düşülə bilər. (4,s.110)

Sənəd idarəetməsi anlayışının yaranması ilə eyni vaxtda 1970-ci illərdə ABŞ-da yeni bir anlayış olan informasiya menecmenti anlayışı yaranır. Amerikalı mütəxəssislərin şərhində informasiya menecmenti sənəd idarəetməsi sahəsində informasiya cəmiyyətinin formalaşmasının nəticəsi və praktiki baxımdan prinsipcə yeni sahədir.

İnformasiya menecmentinin vahid konsepsiyasının yaranması idarəetmə sahəsində informasiyanın oynadığı rolun yenidən nəzərdən keçirilməsi ilə əlaqədardır. Bu konsepsiyanın mühüm xüsusiyyəti informasiyanın ən mühüm təşkilati resurs kimi tanınmasıdır. İnformasiya axınları əhəmiyyətli olmaqla yanaşı, elmi, iqtisadi və siyasi inkişaf proseslərində mütəxəssislərin araşdırma və diqqət obyektinə çevrilmişdir. Eyni zamanda, informasiya menecmentinin sənəd idarəetmə proseslərində keyfiyyət dəyişikliklərini təmin etməyə imkan verdiyini nəzərə alsaq, o, sənəd idarəetmə sistemi ilə biləvasitə əlaqəlidir. İnformasiyanın menecmenti konsepsiyasına görə informasiya fəaliyyəti geniş mənada idarəetmə funksiyaları (planlaşdırma, təşkil, əlaqələndirmə, nəzarət) ilə bağlıdır. ABŞ-da sənədlərlə işin təşkili ənənəsində "sənəd idarəetməsi" anlayışı "informasiya sistemi" anlayışına çox yaxındır. Sənəd idarəetməsinin vəzifəsi idarəetmə fəaliyyəti prosesində yaradılan fərdi sənədlərə çıxışı təmin etməkdir. İnformasiya texnologiyalarının inkişafı fonunda sənəd dövriyyəsinin elektron sistemi xüsusi önəm kəsb etməyə başlayır.

Sənədlərin idarə edilməsi kontekstində geniş istifadə olunan digər anlayış "məlumatların idarə edilməsi", daha dəqiq desək, "verilənlər bazasının idarə edilməsi"dir. Verilənlər bazası idarəçiliyinin mərkəzində sənəd idarəetməsi dayanır. Xüsusilə, təşkilatın iqtisadi səmərəliliyini artıra bilən, biznes proseslərini rasionallaşdıra bilən və müəssisənin inkişaf dinamikasına müsbət təsir göstərən sənədlər dəyərlidir. Beləliklə, Azərbaycan və ABŞ sənəd idarəet-məsi sahəsində istifadə olunan anlayışlarda əhəmiyyətli fərqlər mövcuddur. "Sənəd", "arxivlərin idarəedilməsi", "sənəd dövriyyəsinin təşkili" anlayışları Azərbaycan arxiv terminologiyasına da yaxındır. "İnformasiya menecmenti" və "verilənlər bazasının idarəedilməsi" kimi anlayışlar isə, Azərbaycan arxiv mütəxəssisləri tərəfindən demək olar ki, hazırlanma mərhələsindədir.

**ABŞ-da elektron sənəd dövriyyəsinin idarə edilməsi və avtomatlaşdırılmış axtarışın təşkili.** ABŞ Milli Arxivi 1970-ci ildən elektron qeydləri qəbul etməyə başlamışdır. Bu tip sənədlərə xüsusi maraq isə, XX əsrin 90-cı illərinin əvvəllərində əhəmiyyətli dərəcədə artmışdır. Bunun səbəbi federal məhkəmə tərəfindən baxılan işlərdə Ronald Reyqan və Corc Buşun

prezident-lik dövrünə (1981-1993) aid sənədlərin istifadə olunması idi. Məhkəmə qərarında qeyd olunub ki, e-poçt mesajlarının çap olunmuş nüsxələri onların elektron formada olan orijinallarından əsaslı şəkildə fərqləndiyindən, orijinallar da idarəetməyə, həmçinin qorunmağa tabedir (6, s.76).

"Beynəlxalq və daxili ticarət münasibətlərində elektron imza haqqında" Qanunun 104-cü maddəsinə əsasən, elektron sənəd "yaradılan, saxlanılan, qəbul edilən və ya elektron vasitələrlə göndərilən sənəd"ə deyilir. (7, s.58) Qanun elektron kağız sənədlə elektron imza və əlyazma imzası arasında ekvivalentliyi müəyyən edir ki, bu da müqavilələr bağlamaq, pul köçürmək, arxiv saxlamaq və s. yalnız kompüter texnologiyasının və internetin köməyi ilə, bütün əlaqəli sənədlərin kağız üzərində təkrarlanmasına ehtiyac olmadan həyata keçirilməsinə şərait yaradır.

NARA Elektron Sənədlər Fondunun məzmunu 4 milyarda yaxın sənəddən ibarətdir. Arxiv ABŞ Dövlət Departamentindən hər il bir neçə milyon diplomatik sənəd, Pentaqondan isə eyni tezlikdə skan edilmiş təxminən 50 milyon rəsmi sənəd qəbul edir. 2009-cu ilə qədər ABŞ Milli Arxivləri hər il təxminən 1 milyard fayl alırdı (7, s.58).

Amerika Birləşmiş Ştatları ənənəvi sənədlər növlərini saxlayan arxivlərdə avtomatlaşdırılmış məlumat axtarış sistemlərinin hazırlanması və istifadəsində liderdir. Beləliklə, 1948-ci ildə NARA mütəxəssisləri fond yaradan şöbələrin adları ilə ayrıca TOMOB C təsnifatının maqnit lentində B Formasında qeydə alınmış arxivə bələdçi buraxmışdılar. 70-ci illərdə bir sıra axtarış sistemləri hazırlanmış və tətbiq edilmişdir: SPINDEX-II məqsədi müxtəlif növ sənədlər üçün təlimatların hazırlanmasını sadələşdirmək idi; NARA A-I, sənəd qruplarının yerləşdirilməsinin topoqrafik indeksini tərtib etmək və arxiv seriyalarının təsvirlərini standart formatda bir fayla inteqrasiya etmək üçün yaradılmışdır. NARA-I sistemi hər il 6000 sənəd seriyasının təsviri ilə yenilənirdi. 1980-ci illərdən etibarən 1966-cı ildən ABŞ Konqres Kitabxanasında istifadə olunan biblioqrafik MARC Formatından təsvirlərin tərtibində fəal şəkildə istifadə olunur. 1990-cı illərin əvvəllərində NARA-nın əsas binasında işləyən işçilər 200 avtomatlaşdırılmış iş yerindən ibarət şəbəkədən istifadə edə bilərdilər. Bütün sistem 468 giriş panelindən ibarət idi və onun əsas yaddaşının tutumu 170 MB, disk saxlama qurğuları 4,8 GB idi. (1, s.114) Rəqəmsal informasiyanın optik disklərdə (ODISS) saxlanması və çevrilməsi layihələrinin həyata keçirilməsi istiqamətində də intensiv işlər aparılmışdır. Arxiv avtomatlaşdırılmış informasiya-axtarış sistemlərinin inkişafında təsvir və məlumatların təqdimat formatlarının unifikasiyasına xüsusi diqqət yetirilmişdir. Xüsusilə, arxiv seriyalarının təsvirləri üçün xüsusi bir format yaradılmışdır – GSA 6710 A.

1972-ci ildə Vaşinqtonda Milli Arxivdə Elektron Arxiv Sənədləri Mərkəzi yaradıldı. 1996-cı ilə qədər onun 41 işçisi və illik büdcəsi təxminən 2,25 milyon ABŞ dolları idi (3, s.76). Elektron sənədlər mərkəzdə bircins, bir-biri ilə əlaqəsi olmayan məlumatlardan ibarət düz fayllarda saxlanılır, məzmunu cədvəl şəklində təqdim olunur. Əsas formatlar: ASCII və EBCDIC. Məlumat 9 yollu yarım düymlük maqnit lentlərdə və ya 3480 maqnit kasetində saxlanılır. Hər bir faylın iki ehtiyat nüsxəsi var. Pentaqon üçün avtomatlaşdırılmış qeydlərin idarə edilməsi sisteminin tərtibatçıları komandasına NARA Elektron Qeydlər Mərkəzinin mütəxəssisləri daxil idi. 1997-ci ildə ABŞ Müdafiə Nazirliyi sənəd idarəetməsinin avtomatlaşdırılması proqramı üçün əsas tələblərin siyahısını tərtib edən DoD 5015.2 - STD standartını buraxdı. Bu standartın 2002-ci ildə yaradılmış ikinci versiyası NARA tərəfindən Federal agentliklər tərəfindən istifadə üçün tövsiyə olunur. 2008-ci ildə nəşr olunan üçüncü nəşrə elektron sənədlərin daimi saxlanması üçün ABŞ Milli Arxivinə verilməsini tənzimləyən qaydalar əlavə edilib.

NARA federal qurumlarda elektron sənədlərin idarə edilməsi üçün DoD 5015.2 standartının tələblərinə uyğunluq sertifikatından keçmiş proqramlardan istifadə etməyi tövsiyə edir. ABŞ Milli Arxivləri və Müdafiə Nazirliyi arasında 1997-ci ildə bağlanmış müqaviləyə əsasən, kommersiya proqram təminatı tərtibatçıları öz proqram məhsullarını DoD 5015.2 – STD standartının əsas funksional tələblərinə uyğun sınaq üçün təqdim etmək üçün ödənişli imkana malikdirlər. Testdən uğurla keçən proqramlar iki il müddətində etibarlı sertifikat alır.

NARA mütəxəssisləri, nəinki Müdafiə Nazirliyi ilə birgə layihələr həyata keçirir, həm də dövlət orqanlarında elektron sənədlərin yaradılması, saxlanması, istifadəsi və yerləşdirilməsinə həsr olunmuş hüquqi və tənzimləyici sahədə öz inkişaflarını həyata keçirirlər. Federal qurumlarda sənədlərlə işləmək üçün Milli Arxivin əsas tələbləri üçün ABŞ Məcəlləsinin 44-cü fəsli və Federal Qaydalar Məcəlləsinin 36-cı fəslinə baxın. Məcəllənin 36-cı fəslinin 36-cı hissəsinin 1234-cü məzmunu federal orqanların elektron sənədlərinin yaradılması, saxlanması, istifadəsi və yerləşdirilməsi proseslərinə tətbiq olunan qaydaları müəyyən edir.

NARA üçün prioritet istiqamətlər kimi elektron hökumətin sənəd dövriyyəsi proseslərinə və bu sahədə normativ-hüquqi bazanın formalaşdırılmasına böyük diqqət yetirilir. Elektron hökumət konsepsiyasına əsasən, informasiya-kommunikasiya texnologiyaları müxtəlif səviyyəli hakimiyyət orqanlarının öz aralarında, əhali və özəl şirkətlər arasında qarşılıqlı əlaqə proseslərinə tətbiq edilməlidir. ABŞ-da 24 e-hökumət təşəbbüsündən biri olan "Elektron Hökumət Sənədlərinin İdarə Edilməsi" Milli Arxiv idarəsinin mütəxəssisləri tərəfindən hazırlanmışdır. Bu layihənin məqsədi dövlət

orqanlarında elektron uçotun idarə edilməsinə istiqamət verməkdir. Bu proqram çərçivəsində NARA indi təkcə maqnit lentində və ya optik diskdə deyil, həm də istənilən digər növ daşıyıcılarda qeydə alınmış müxtəlif növ və formatlı elektron sənədləri saxlanması üçün qəbul edir.

Federal idarələrdə elektron sənədlərin idarə edilməsi üçün normativ-metodiki bazanın formalaşdırılması sahəsində Milli Arxivin fəaliyyəti XXI əsrin əvvəllərində əhəmiyyətli dərəcədə intensivləşdi. NARA-nın 1997-2007-ci illər üçün strateji planında bütün federal qurumların və onların bölmələrinin Milli Arxiv qaydalarına uyğun olaraq sənəd dövriyyəsinə verilməsi vəzifəsi elan edildi və onların istifadə etdiyi avtomatlaşdırılmış uçot sistemlərinin yarısının NARA-nın tələblərinə uyğun olaraq təkmilləşdirilməsi nəzərdə tutulurdu (8, s.239).

**ERA layihəsi.** 2003-cü ildə Milli Arxivlərin mütəxəssisləri belə qənaətə gəldilər ki, elektron sənədlərin federal arxivini (Electronic Archives Records) yaratmaq lazımdır. Bu layihəni həyata keçirmək üçün 2005-ci ildə ABŞ Arxivinin Elektron Qeydlər Arxivləri Məsləhət Komitəsi yaradıldı. Eyni zamanda, aerokosmik və informasiya texnologiyaları tədqiqat və inkişaf şirkəti "Lokhid Martin" ERA sistemi üçün proqram təminatının hazırlanması üzrə tenderin qalibi olub. Konqresin qərarına əsasən, sistemin yaradılması üçün 317 milyon dollar məbləğində maliyyə vəsaiti ayrılıb.

2008-ci ilin dekabrında "Prezidentin İcra Aparatı" (Executive Office of the President) modulunun istifadəyə verilməsindən sonra sistemin artımı tətbiq olunmağa başladı. 2009-cu ilin yanvar ayından prezident kiçik Corc Buş administrasiyanın elektron sənədləri ERA sisteminə daxil olur və bir il sonra ona indeksləşdirilmiş və tədqiqatçılar üçün əlçatan olan təxminən 250 milyon elektron sənəd, 220 milyon e-poçt mesajı, ümumi həcmi 81 TB olan 4 milyon rəqəmsal fotoşəkil daxil edilmişdir. 2010-cu ildə elektron arxivdə 66 000 sorğu yerinə yetirilmişdir. ERA-nın üçüncü artımı 2009-cu ilin dekabrında iki hissədən ibarət olan "ABŞ Konqresinin elektron sənədləri" modulu işə salındıqdan sonra həyata keçirilməyə başlandı: elektron sənədlərin qəbulu və saxlanması. Bu modulun məqsədi NARA Qanunvericilik Arxiv Mərkəzini, Nümayəndələr Palatasının katibinin və ABŞ Senatının katibinin ofislərini idarə etmək idi. 2010-cu ilin aprel ayından Milli Arxivin əməkdaşları "Online Public Access" modullarını və "Transformation Framework Prototype" konvertasiyasını quraşdırır və sınaqdan keçirir.

NARA əməkdaşlarının planına əsasən, "Online Public Access" prototipi əsasında Milli Arxivin vahid axtarış sistemi yaradılmalı idi. Sayt hazırda mövcud verilənlər bazalarını birləşdirməli idi: Arxiv Araşdırma Kataloqu (Archival Research Catalog; ARC), Arxiv Məlumat Bazalarına Giriş (Access to Archival Databases; AAD), Archives.gov və Elektron Sənədlər

Arxivi (Electronic Records Archive; ERA). Bu layihə federal hökumət sənədlərinə onlayn girişi asanlaşdırmaq üçün nəzərdə tutulmuş federal Açıq Hökumət Planı (Open Government Plan) proqramının bir hissəsidir. Milli Arxiv İdarəsinin əməkdaşları ictimaiyyətin rəyini, işlənib hazırlanmaqda olan axtarış mexaniz-minin fəaliyyətini nəzərə alır.

2012-ci ilin yanvar ayına qədər "ERA" Elektron Sənədlər Arxivində Konqres, prezident administrasiyası və federal departamentlərin sənədləri də daxil olmaqla 131 TB elektron sənəd var idi. Sistem sənədlərin orijinal formatlarında saxlanması, bəzi digər formatlara çevrilməsi, PREMIS standartının 2.2-ci versiyasına uyğun olaraq XML metadatalarının mənimsənilməsini və saxlanmasını təmin etmək, Onlayn İctimai Giriş modulu vasitəsilə elektron sənədlərə çıxışı təmin etmək üçün geniş imkanlara malikdir. OPA ERA sistemində saxlanılan kağız sənədlərin 75%-nin, artefaktların 77%-nin, elektron sənədlərin 95%-nin arxiv təsvirlərini özündə əks etdirən kataloqdur. Tədqiqatçılar üçün bir milyona yaxın unikal fayl mövcuddur. OPA sistemi arxivlərin və bütün prezident kitabxanalarının yerləşdiyi bütün NARA portalında axtarış aparır.

ERA sistemi Federal İdarələrin sənədləri ilə bağlı tapşırıqları yerinə yetirməyə qadirdir. Hazırda Milli Arxiv bu funksiyaya yüksək prioritet verir. Bu addım Prezident Barak Obamanın 28 noyabr 2011-ci il tarixli Hökumət Sənədlərinin İdarə Edilməsi üzrə Memorandumunda sənədlərin idarə edilməsi proseslərində islahatların aparılmasını nəzərdə tutduğu vaxta təsadüf edir. 24 avqust 2012-ci il tarixli direktivə əsasən bu islahat çərçivəsində bütün fəaliyyətlərin həyata keçirilməsi üçün konkret müddətlər müəyyən edilmişdir. NARA mütəxəssisləri 2020-ci ilə qədər daimi saxlama müddəti olan elektron sənədlərin federal qurumlardan Milli Arxivə elektron kanallar vasitəsilə ötürülməsi prosesinin başa çatacağını gözləyirdilər. Lakin, həmin ildə bütün dünyanı bürüyən məlum COVİD-19 pandemiyası bütün sferalar kimi, bu sahəyə öz mənfi təsirini göstərmiş və nəticədə, hələlik bu gözlənti özünü doğrultmamışdır. Çevik XML metaverilənlər kataloqu müxtəlif qeydlərin və onlar haqqında məlumatların uzunmüddətli saxlanmasını təmin etmək üçün PREMIS elementlərini əhatə edən ERA sisteminə daxil edilmişdir. ERA-ya da daxil olan Transformation Framework modulu lazım olduqda formatların vaxtında dəyişdirilməsini (çevirilməsini) dəstəkləməyə imkan verir. E-mail mesajlarının seçilməsi, saxlanması və axtarışı sisteminin 2017-ci ilə qədər universal şəkildə tətbiq edilmişdir. Kağız sənədlərin rəqəmsallaşdırılması prosesi federal qurumların məsuliyyətindədir. Hər bir qurum uçotun idarə olunması proseslərini tənzimləyən qanun və qaydaların icrasına nəzarət etmək üçün məsul şəxs təyin edir. Sənədlərin idarə edilməsinə cavabdeh olan işçilər NARA təlim sertifikatı almadan öz vəzifələrini yerinə yetirə bilməzlər.

Federal departamentlərin bütün işçiləri üçün maarifləndirici proqramlar tətbiq edilmişdir.

NARA mütəxəssisləri informasiya-kommunikasiya texnologiyalarının inkişaf edən sahəsində dəyişiklikləri və formatların sayının artırılmasını təmin etmək məqsədilə elektron sənədlərin, metaverilənlərin ötürülməsini və elektron poçt mesajlarına vaxtında cavab verilməsini tənzimləyən təlimatları mütəmadi olaraq nəzərdən keçirir və yeniləyir. Əvvəlcə NARA Elektron Sənədlər Arxivinin elektron sənədlərlə işləmək üçün bütün proseslərin avtomatlaşdırılmış şəkildə icrasını təmin edə bilən universal sistemə çevriləcəyi güman edilirdi. İnkişaf şirkəti Lokhid Martin müştərinin bütün tələblərini yerinə yetirmək üçün xüsusi həllər tapa bilmədi. İndiyə qədər yalnız ilk iki artımlı ERA modulu tam istifadəyə verilib, üçüncü və dördüncüsü qismən funksionaldır. Nəticədə, gözlənilən nəticələrin olmaması, inkişafa həddən artıq maliyyələşdirmə və həyata keçirilməsində gecikmələr NARA-nı Lokhid Martin ilə müqaviləni ləğv etməyə məcbur etmişdir. ERA sistemi elektron sənədlərin və metaverilənlərin mənimsənilməsi və mühafizəsi proseslərini təmin edə bilir.

Bundan sonra Milli Arxivin mütəxəssisləri ABŞ-ın federal agentliklərində qeydlərin idarə edilməsi üçün ERA sistemini tətbiq etməyə başladılar. Bu qərar "Dövlət Sənədlərinin İdarə Edilməsi haqqında" 28 noyabr 2011-ci il tarixli Memorandumla müəyyən edilmişdir və 31 dekabr 2019-cu il tarixinədək federal agentliyin elektron formatlarında daimi saxlanılan sənədlərin elektron rabitə kanalları ilə NARA-ya ötürülməsini qarşıya məqsəd qomuşdur. ERA sisteminin inkişafına təsir edən ən mühüm amillərdən biri maliyyələşmə idi. Amerikalı mütəxəssislərin bu layihənin dəyərini hesablamaqda səhvə yol verdiyini iddia etməyə heç bir əsas yoxdur. Bəşəriyyət tarixində indiyədək heç vaxt yaradılmayan proqram təminatının tədqiqi, hazırlanması, sınaqdan keçirilməsi və tətbiqi üçün nə qədər vaxt və səy tələb olunacağını təxmin etmək demək olar ki, mümkün deyil. NARA mütəxəssisləri yeni müqavilənin bağlanması ilə bağlı hələ heç nə deməyiblər. Aydındır ki, bu gün təkcə ABŞ-da deyil, bütün dünyada tarixi sənədlərin rəqəmsal formatda saxlanması Amerika arxivçilərinin öz layihələrini nə dərəcədə reallaşdıra biləcəklərindən asılıdır.
(5, s.262-270).

ERA bu gün elektron formatda yaradılmış müxtəlif qeydləri arxivləşdirmək üçün nəzərdə tutulmuş kompleks məlumat idarəetmə sistemidir. Yeni elektron qeyd formatları və onlara daxil olmaq üçün alətlər daim inkişaf etdiyindən, ERA ABŞ hökumətinin və ictimaiyyətinin ehtiyaclarını ödəmək üçün inkişaf edir. Elektron arxivin strukturu aşağıda əyani şəkildə göstərilmişdir:




Amerika Birləşmiş Ştatlarının Milli Arxivi hazırda federal agentliklərdən sənədlərin arxivləşdirilməsi sistemini dəyişdirir. İndi bu prosesdə ERA – "Elektron sənədlərin arxivi" sistemindən istifadə olunur. ERA təkcə elektron sənədlərin saxlanması sistemi deyil. Onun köməyi ilə indi mətn sənədlərinin daimi arxiv anbarına köçürülməsi gündəlik həyata keçirilir. ERA bu prosesin aylarla çəkə biləcəyi kağız əsaslı sistemi əvəz edib. ABŞ-ın federal hökumət qurumları sənədləri uzunmüddətli saxlama üçün ötürmək və onlara istənilən vaxt daxil olmaq üçün beş il ərzində ERA sistemindən gündəlik əməliyyatlarda istifadə etməyi planlaşdırırlar.

Beləliklə, son onilliklərdə, xüsusilə XXI əsrin əvvəllərindən başlayaraq, dünyanın inkişaf etmiş ölkələri içərisində ilk yerlərdə qərar tutan Amerika Birləşmiş Ştatlarında həm Milli Arxiv və Sənədlər İdarəsi (NARA), həm də digər bir çox arxiv təsisatlarında informasiya texnologiyalarının tətbiqi məqsədilə əhəmiyyətli addımlar atılmış, müxtəlif layihələr hazırlanmışdır. Müasir dövrdə informasiya texnologiyalarının bir çox elm sahələrində tətbiqinin son dərəcə mütərəqqi əhəmiyyət kəsb etdiyini nəzərə alsaq bunun arxivşünaslıq sahəsi üçün faydalı olması qənaətinə gəlmək olar.

***Ədəbiyyat***

1. *Афанасьева Л.П. Автоматизированные архивные технологии. Москва, РГГУ, 2005, 407 с.*
2. *Cox R. J. Closing an era: Historical perspectives on modern archives and records management. - Greenwood Publishing Group, No. 35, 2000.*
3. *Вальберг Х. Электронные документы в архивах // Отечественные архивы, № 1, 2004.*
4. *Ларин М.В. Управление документами на основе международного стандарта ИСО 15489-2001. Москва, ВНИДАД, 2005, 110 с.*
5. *Левченко Л.Л. Обеспечение сохранности электронных документов в Национальном Архиве Соединённых Штатов Америки // Вестник архивиста, № 3, 2013.*

6. *Рысков О.И. Об основных направлениях деятельности зарубежных архивных органов в области исследования и нормативного регулирования работы с электронной документацией // Секретарское дело, № 3, 2005.*
7. *Рысков О.И. Основные направления деятельности национальных архивов США и Соединенного Королевства Великобритании и Северной Ирландии в области управления электронными документами правительственных учреждений // Отечественные архивы, № 3, 2004.*
8. *Стратегический план Национального архива США на 1997-2007 гг. // Вестник архивиста, № 6, 2001.*

**S.V.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sabinaliyeva55@gmail.com***

# I-II SİNİFLƏRDƏ "ÖLÇMƏ" MƏZMUN XƏTTİNİN ÖYRƏDİLMƏSİ METODİKASI VƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏRİN ARADAN QALDIRILMASI YOLLARI

***Xülasə***

*Məqalədə təhsil sahəsində ibtidai siniflərdə riyaziyyat fənni üzrə ölçmələr məzmun xəttinin öyrənilməsi zamanı qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yollarından bəhs olunur.*

*"Ölçmələr" məzmun xəttinin öyrədilməsinin pedaqoji-psixoloji əsasları, mövzunun kurikulumda yeri, mövzu ilə bağlı ibtidai sinif riyaziyyat proqramlarının təhlili, baş verən dəyişikliklərin əhəmiyyəti və şagirdlərin təlim prosesində mövzunun öyrədilməsinin vacibliyi öz əksini tapmışdır.*

*Müasir dövrdə riyaziyyat dərslərində əsas məqsəd kimi şagirdlərin inkişafını təmin edən təlimin aparılması durur. Belə ki, fəal təlim metodları və müasir texnologiyaların köməyi ilə şagirdlərə "ölçmə" məzmun xəttinin öyrədilməsi metodikası və qarşıya çıxan çətinliklərin aradan qaldırılması yolları həm nəzəri, həm də praktik yollarla bacarıqların formalaşdırılması əsas prioritet kimi nəzərdə tutulmuşdur. İbtidai sinif üzrə ölçmələr məzmun xəttinin əhəmiyyəti mühümdür.*

*I-II siniflərdə "ölçmə" məzmun xəttinin öyrədilməsi metodikası və qarşıya çıxan çətinliklərin aradan qaldırılması yolları əhəmiyyəti, rolu, mövqeyi və gələcək nəsillər üçün mahiyyəti üzrə təsnifi tədqiq olunmuşdur. Həmçinin mövzunun təhlili aparılaraq vacib nəticələr əldə olunmuşdur.*

# МЕТОДИКА ОБУЧЕНИЯ СОДЕРЖАТЕЛЬНОЙ ЛИНИИ «ИЗМЕРЕНИЕ» В I-II КЛАССАХ И ПУТИ ПРЕОДОЛЕНИЯ ВОЗНИКШИХ ТРУДНОСТЕЙ

***Резюме***

*В статье обсуждаются трудности, возникающие при изучении содержательной линии измерений по математике в начальных классах в сфере образования и пути их преодоления.*

*Педагогико-психологические основы обучения содержательной линии «Измерения», место предмета в учебной программе, анализ программ начальной школы по математике, связанных с предметом, значимость изменений и значение преподавания предмета в процессе обучения ученики отражаются.*

*В современное время основной целью занятий по математике является обучение, обеспечивающее развитие учащихся. Таким образом, с помощью активных методов обучения и современных технологий, методики обучения студентов содержательной линии «измерение» и путей преодоления*

*возникающих трудностей формирование умений как в теоретическом, так и в практическом плане рассматривается как основной приоритет. Важность измерения линии содержания в начальной школе важна.*

*В I-II классах изучалась методика обучения содержательной линии «измерение» и способы преодоления трудностей, ее значение, роль, положение и ее классификация для будущих поколений. Также была проанализирована тема и получены важные результаты.*

## METHODS OF TEACHİNG THE "MEASUREMENT" CONTENT LİNE İN GRADES I-II AND WAYS TO OVERCOME THE DİFFİCULTIES ENCOUNTERED

***Summary***

*The article talks about the difficulties encountered during the study of the content line of measurements in mathematics in primary classes in the field of education and ways to overcome them.*

*The pedagogical and psychological basis of teaching the "measurements" content line, the place of the subject in the curriculum, the analysis of elementary school mathematics programs related to the subject, the importance of the changes and the importance of teaching the subject in the learning process of students have been reflected.*

*In modern times, the main goal of mathematics classes is to provide training that ensures the development of students. So, with the help of active learning methods and modern technologies, the methodology of teaching students the "measurement" content line and the ways of overcoming the encountered difficulties, the formation of skills in both theoretical and practical ways is considered as the main priority. The importance of content line measurements for primary school is important.*

*In classes I-II, the methodology of teaching the "measurement" content line and the ways of overcoming the difficulties, its importance, role, position and its classification for future generations were studied and important results were obtained by analyzing the topic.*

***Açar sözlər:*** *təhsil, qabiliyyət, riyazi, ölçmə, məzmun xətti, kəmiyyət və ölçü vahidləri*

***Ключевые слова:*** *образование, способности, математика, измерение, содержательная линия, количество и единицы измерения*

***Key words:*** *education, ability, mathematical, measurement, content line, quantity and measurement units*

Riyaziyyatın ibtidai kursu öz məzmununa görə inteqrativdir və bu, ibtidai siniflərdə riyaziyyat təliminin məqsədlərindən istifadədən irəli gəlir. Belə ki, I-IV siniflərin riyaziyyat kursuna hesab materialı ilə yanaşı, cəbr-həndəsə, fizika, astronomiya, təbiətşünaslıq elementləri də daxil edilmişdir və

bu elementlərə aid olan anlayışlar, təriflər, qaydalar və xassələr əsasən intuitiv səviyyədə şagirdlərə öyrədilir. Bu elm sahələri də bilavasitə kəmiyyətlərlə əlaqədardır və riyaziyyat elminin də predmeti kəmiyyətlər və onların ölçülməsidir. Bu səbəbdən də I-II siniflərdə "ölçmə" məzmun xəttinin öyrədilməsi metodikası və qarşıya çıxan çətinliklərin aradan qaldırılması yolları mühüm əhəmiyyət kəsb edir.

Məzmun xətti – fənn üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasını təmin etmək üçün müəyyən edilən məzmunun zəruri hesab edilən hissəsidir. Məzmun xətləri şagirdlərin öyrənəcəyi məzmunu daha aydın şəkildə təsvir etmək üçün müəyyən olunur və onu sistemləşdirmək məqsədi daşıyır. Dünya təcrübəsinin öyrənilməsi və təhlili əsasında riyaziyyat təliminin aşağıdakı məzmun xətləri təyin edilmişdir:

- Ədədlər və əməllər;
- Cəbr və funksiyalar;
- Həndəsə;
- Ölçmələr.

İbtidai siniflərdə uzunluq, sahə, kütlə, tutum (həcm), vaxt, sürət kimi kəmiyyətlər öyrədilir. Şagirdlər bu riyazi anlayışları öyrənməli və tətbiq etməlidir. Belə ki, şagirdlər bu kəmiyyətlər haqqında konkret təsəvvürlər əldə etməli, onların ölçü vahidləri ilə tanış olmalı, kəmiyyətləri ölçməyi bacarmalı, ölçmə nəticələrini müxtəlif ölçü vahidləri ilə adlı ədədlər şəklində ifadə etməyi, kəmiyyətlərin adlı ədədlər üzərində ədədi qiymətləri üzərində hesab əməllərini yerinə yetirməyi bacarmalıdırlar. (4)

Ölçmələr müvafiq olaraq ölçü vahidləri və alətlər vasitəsilə kəmiyyətlərin lazımi dəqiqliklə ölçülməsi və qiymətləndirilməsi ölçmələr məzmun xəttinin daxil edilməsi qayda və üsullarını öyrənib həyata keçirir. Bu məzmun xətti aşağı siniflərdə şagirdlərdə sadə ölçü alətlərindən, xətkeşdən istifadə etmək vərdişlərinin yaranmasına xidmət edir.

Yuxarı siniflərdə isə bucaqların, sahələrin, həcmlərin ölçülməsi, müvafiq ölçü vahidlərindən istifadə edilməsi, ölçü vahidləri arasındakı əlaqələrin başa düşülməsi, bunların məsələlərin həlli üçün tətbiqi təmin olunur.

Şagird ölçməyə məna vermək üçün vahidlərdən ölçü sistemləri və alətlərdən istifadə edir, müvafiq üsullardan və düsturlardan istifadə etməklə nələrin və necə üsulla ölçülə bilən olmasını müəyyən edir, ölçmələrdə xətaların mümkünlüyünü başa düşür və onların qiymətini müəyyənləşdirir, təqribi ölçmələr aparır. Bu üsullarla ibtidai sinif şagirdləri həm nəzəri, həm də praktik yollarla mövzunu mənimsəyir, eyni zamanda bu istiqamətdə bilik, bacarıq və vərdişlərə yiyələnmiş olurlar. Belə ki, bu bacarıqların formalaşdırılması əsas məsələlərdəndir. İbtidai sinif üzrə ölçmələr məzmun xəttinin əhəmiyyəti mühümdür.

I-II siniflərdə “ölçmə” məzmun xəttinin öyrədilməsi metodikası və qarşıya çıxan çətinliklərin aradan qaldırılması yolları hər bir müəllim üçün vacib məsələlərdəndir. (6)

Təcrübələrə əsaslanaraq söyləyə bilərik ki, “kəmiyyət” anlayışını bəzən ibtidai sinif müəllimləri də tam dəqiqliyi ilə izah etməkdə çətinlik çəkirlər, ancaq 4 il ərzində məktəbdə həmin kəmiyyətləri tədris edirlər. Azərbaycan dilində “kəmiyyət” sözü bilavasitə “miqdar”, “qiymət” mənasında işlədilir. Lakin kəmiyyət real aləmdə mövcud olan obyektlərin ümumiləşdirilmiş xassəsini ifadə edir, mənasını əks etdirir. Əşya və hadisələrdən qiymətləri “böyükdür”, “kiçikdir”, “bərabərdir” münasibətləri ilə ifadə olunanlar kəmiyyət hesab olunur. Bu, “hər bir kəmiyyətin qiymətini tapmaq üçün onu ölçmək lazımdır” mənasını ifadə edir. (2)

İbtidai sinif şagirdləri kəmiyyətlər və ədədlər üzrəində ölçmələr mövzusunu tam dərk etməlidirlər. Ölçmələrin nəticələri ədədlə ifadə olunur. Alınan ədədin bu və ya digər kəmiyyətə aid olması kəmiyyətin ölçüldüyü vahidin həmin ədədin sonunda yazılması ilə müəyyən olunur.

Hər bir kəmiyyətin onu başqa kəmiyyətdən fərqləndirən mühüm və əsas əlaməti olur. Kəmiyyəti ölçmək üçün qəbul edilmiş ölçü vahidi tətbiq edilir. Eyni bir kəmiyyət müxtəlif ölçü vahidləri ilə ölçülə bildiyindən, onun qiymətləri və nəticələri də müxtəlif ola bilər, məsələn, 2 m və ya 20 dm və ya 200 sm.

Məlum olduğu kimi bu ədədlərin hər üçü eyni bir kəmiyyətin, yəni obyektin qiymətini özündə əks etdirir. Kəmiyyətlərin ibtidai siniflərdə öyrədilməsinin əhəmiyyəti məhz bu səbəblərdəndir.

Belə ki, şagirdlərin qazandıqları riyazi bilik və vərdişlər bilavasitə həyatla əlaqəlidir, onlar təhsilin ibtidai pilləsindən etibarən əsas kəmiyyətləri öyrənməklə, təhsilin sonrakı mərhələlərinə hazırlanırlar, kəmiyyətlərlə tanışlıq – şagirdlərin fəza təsəvvürlərini inkişaf etdirir. Şagirdlər kəmiyyətləri ölçməyi öyrənməklə, onlar həyat üçün zəruri olan praktik bilik və vərdişlər qazanırlar, bu anlayışları dərindən öyrənirlər, həmçinin bu kəmiyyətləri öyrənməklə şagirdlərin ədəd və hesab əməlləri haqqında təsəvvürləri genişlənir və dərinləşir. (5)

I-IV siniflərdə kəmiyyətlər ayrıca bir bölmə və ya mövzu kimi tədris olunmur. Bu mövzu hesab materialı ilə mənfi olmayan tam ədədlər və kəsr ədədlərlə bilavasitə əlaqəli şəkildə tədris edilir. Riyaziyyatın ibtidai kursu əsasən konsentrik şəklində qurulduğuna görə öyrədiləcək kəmiyyətlər də həmin düzülüş prinsipinə tabe edilmişdir. Məsələn, uzunluq, vaxt kəmiyyətlərinin I sinifdən başlayaraq IV sinfə qədər tədris edilməsi vacibdir.

Kəmiyyətlər haqqında ilk təsəvvürlərin verilməsi mühüm məsələdir. Şagirdlər kəmiyyətlər və ölçmələr haqqında ilk təsəvvürləri hələ

məktəbəqədərki dövrdə qazanmağa başlayırlar. Həmin təsəvvürləri sistemə salmaq və inkişaf etdirmək üçün I sinfin riyaziyyat proqramına hazırlıq mərhələsi başlığı altında material daxil edilmişdir. İbtidai sinif şagirdləri hər bir pillədə ardıcıl şəkildə bu anlayışları öyrənirlər.

Şagirdlər ibtidai siniflərdə təhsil prosesində əşyaları sayma və miqdarına, əşyaların rənginə, formasına, ölçüsünə və digər əlamətlərinə görə müqayisə edilməsi qaydalarını öyrənir, istiqamət bildirən fəza təsəvvürlərinin, vaxt təsəvvürlərinin formalaşdırılması üsullarını dərk edir və əşyaların tutduğu yerinə görə sayma, yəni sıra sayı hesablanmasını mənimsəyirlər. (6)

Uşaqlar məktəbəqədərki dövrdə cisimlərin kütləsi, hərəkət sürəti haqqında aşkar qeyd edilməsə də, bu kəmiyyətlər haqqında müəyyən intuitiv təsəvvürlərə malik olur. Ona görə də riyaziyyat təlimi prosesində həmin təsəvvürlərə istinad edərək, yeni təsəvvürlər yaradılır və inkişaf etdirilərək anlayış səviyyəsinə qədər çatdırılır. İbtidai siniflərdə əsas kəmiyyətlərin demək olar ki, bütün siniflərdə tədris edildiyini nəzərə alaraq, hər bir kəmiyyətin təlimi məsələlərini konkret və ayrıca mənaları nəzərdən keçirilir. (3)

Ölçmə bəhsi çox geniş mənaya malik bir bölmədir. I-II sinif şagirdləri bu biliklərə yiyələnərək, eyni adlı kəmiyyətləri müqayisə edir, təhlilini aparır, müqayisəsinin nəticəsini şərh edir. Şagirdlər eyni adlı kəmiyyətlərin müqayisəsinin nəticəsini mənimsəyirlər. Hadisələrin vaxtını müqayisə edir, həmçinin əşyaları uzunluğuna, kütləsinə, hadisələri vaxta görə müqayisə edirlər.

Hər bir fənn fənlərlə inteqrasiya edilərək şagirdlərə öyrədilir və müəyyən xüsusiyyətlərə malik olur. Belə ki, riyaziyyat fənni informatika, həyat bilgisi, dil fənləri və digər fənlərlə inteqrasiya olunaraq şagirdlərə öyrədilir. (1)

İbtidai siniflərdə riyaziyyat fənni vasitəsilə öyrədilən biliklər nəticəsində şagirdlər:

- Kütlənin, uzunluğun, tutumun, vaxtın müqayisəsinin nəticəsini şərh edir;
- Kütlənin, uzunluğun, tutumun, vaxtın, perimetrin, sahənin müqayisə-sinin nəticəsini şərh edir;
- Əşyaların uzunluqlarını müqayisə edir;
- Tutum anlayışını şərh edir;
- Eyni sahəyə malik olan müxtəlif ölçülü fiqurlar haqqında şərhlər verir;
- Əşyaların kütləsini müqayisə edir;
- Qabların tutumunun müqayisəsini aparır;
- Qabların tutumlarını müqayisə edir;
- Standart və şərti ölçü vahidlərindən istifadə edir;

- Ölçü vahidlərindən və alətlərindən istifadə edərək kəmiyyətləri ölçür;
- Ölçü vahidlərindən və alətlərindən istifadə edərək kəmiyyətləri ölçür;
- Ölçü vahidlərindən və alətlərindən istifadə edərək kəmiyyətləri ölçür;
- Uzunluğun ölçülməsində şərti ölçü vahidlərindən istifadə edir;
- Şərti ölçü vasitələrindən istifadə etməklə ölçmələr aparır;
- Kəmiyyətlərin vahidləri arasındakı əlaqələrdən hesablamalarda istifadə edir;
- Uzunluğu, kütləni, tutumu, perimetri, sahəni, bucağı müvafiq vahidlər və alətlərin köməyi ilə müəyyənləşdirir; (4)
- Verilmiş parçanın uzunluğunu ölçür;
- Müvafiq alət və vahidləri seçməklə uzunluğu, kütləni və tutumu ölçür;
- Ölçmənin dəqiqliyini artırmaq üçün daha kiçik vahidlərdən istifadə edir;
- Eyni adlı kəmiyyətlərin vahidləri arasındakı əlaqədən hesablamalarda istifadə edir;
- Uzunluğu verilmiş parçanı çəkir;
- Vaxtı saat və dəqiqə ilə təyin edir;
- Çoxbucaqlının tərəflərinin uzunluqları cəmini hesablayır;
- Vaxtı saat, dəqiqə və saniyə dəqiqliyi ilə təyin edir;
- Tam saatları müəyyən edir;
- Pul vahidlərindən hesablamalar və mübadilə zamanı istifadə edir;
- Vaxtı və vaxt aralığını müəyyənləşdirir;
- Pul vahidlərindən məsələ həllində istifadə edir;
- Pul vahidlərindən (manat, qəpik) hesablamalarda istifadə edir;
- Kəmiyyətlərin ölçülməsinə aid məsələləri həll edir;
- Uzunluq, kütlə, tutum, perimetr, sahə, bucaq ölçmələrinə dair məsələlər həll edir;
- Əşyanın kütləsini tərəzinin köməyi ilə kiloqramla ifadə edir;
- Sürət anlayışını başa düşdüyünü nümayiş etdirir;
- Tutumun ölçülməsində standart və şərti ölçü vahidindən istifadə edir.

İbtidai riyaziyyat kursunda "ifadə, bölmə, vurma, hasil, cüt ədəd, perimetr, birrəqəmli ədəd, santımetr və s." anlayışların tərifi müxtəlif üsulla öyrədilir. (4)

İbtidai siniflər "ölçmələr" mövzusunda onun metodikasını birləşdirən köməkçi tapşırıqlar şagirdlərin riyazi-metodiki bilik, bacarıq və vərdişlərinin

tətbiqi məqsədini nəzərdə tutur. Həm də göstərilən tip tapşırıqlar öyrənilən nəzəri materialın ibtidai riyaziyyat kursu ilə əlaqəsini açmağa imkan verir. Müstəqil iş üçün bu məzmunda tapşırıqlar vermək mümkündür.

Təhsil sahəsində aparılan islahat fəndaxili və fənlərarası rekrusiv əlaqələri əsas tutur. Məqalədə ali pedaqoji universitetlərdə tədris olunan riyaziyyatın ibtidai kursu ilə məktəbin ibtidai riyaziyyat kursunun əlaqəli tədrisi geniş şəkildə şərh edilir və aktuallığı aydın göstərilir.

Yeni tədris planı və fənn kurikulumuna əsasən Ali məktəblə orta məktəbin ibtidai riyaziyyat kursları arasında rekursiv əlaqəli tədrisi mühümdür. Məqalədə konkret nümunələr əsasında əlaqələrin imkan və yolları izah edilir. Məqalədən həm ali məktəb müəllimləri, həm də orta məktəbin ibtidai sinif müəllimləri praktik işlərində istifadə edə bilərlər.

İbtidai məktəbdə riyaziyyat dərslərində informasiya kommunikasiya texnologiyalarından istifadə etməklə ölçmələri daha aydın şəkildə şagirdlərə mənimsətmək olar. Bu, şagirdlərdə qeyd olunan imkanların inkişafına təsir edir. Məqalədə şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişafı əsas məsələ kimi, təlim prosesində ölçmələr kimi vacib bir anlayışdan istifadə aktuallıq təşkil edir. Belə mühüm və vacib anlayışları öyrədərkən ibtidai siniflərdə riyaziyyat dərslərinin tədrisində şagirdlərin marağını oyatmaq, onların inkişafını əsas tutmaqla müxtəlif tipli didaktik çalışmalardan, innovasiya texnologiyalarından necə istifadə edilməsi yolları mühüm hesab olunur. (1)

İbtidai məktəbin riyaziyyat kursu məzmunu etibarilə praktik xarakter daşısa da, məhz xüsusi seçilmiş məsələ və misallar həlli vasitəsilə burada həm də nəzəri elementlər verilir. Riyaziyyat təliminin təhsil məqsədini həyata keçirmək üçün tədris materialını həm maraqlı, həm də müyəssər etmək lazımdır. Təlimin elmilik və müyəssərlik prinsipləri məhz həmin məqsədlərin həyata keçirilməsinə xidmət edir.

Riyaziyyat dərslərində müxtəlif materiallar işlətməklə belə mövzuların mənimsədilməsi mühüm əhəmiyyət kəsb edir. Riyaziyyat təlimi zamanı, ümumilikdə, tədris prosesində şagirdləri ən çox fəallaşdıran metodlara üstünlük vermək lazımdır.

***Ədəbiyyat***

1. *Azərbaycan respublikasinin ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu). Bakı - 2013*
2. *Azərbaycan Sovet məktəbində riyaziyyatın tədrisinə dair, B., Azərnəşr, 1964.*
3. *Ağayev B.A., Riyaziyyatın tədrisi metodikası, B., Azərnəşr, 1961.*
4. *Tahirov B.Ö., Namazov F.M., Əfəndi S.N., Qasımov E.A., Abdullayeva Q.Z., Riyaziyyatın tədrisi üsulları. Bakı, 2007*
5. *Həmidov S.S. Riyaziyyatın tədrisi metodikası (I-IV siniflər), Bakı: ADNA, 2008.*

**N.T.Ələsgərli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***elesgerlinergiz2000@gmail.com***

# RİYAZİ OYUNLARIN NÖVLƏRİ

***Xülasə***

*Riyaziyyat dərslərinə tətbiq edilən oyun zamanı məqsəd sadəcə oynamaq, şagirdlərə əyləncəli təlim mühiti yaratmaq olmamalı, oynayarkən müəyyən bacarıqların qazandırılması ön planda tutulmalıdır. Ən təsirli şəkildə tədris etmənin yolu eyni oyun növündən deyil, müxtəlif tərz oyun fəaliyyətlərindən təlim zamanı istifadəyə geniş yer verməkdir. Oyun vasitəsilə uşaqlar dünya haqqında müəyyən suallara cavab tapır, yeni ideyalar formalaşdırır və öyrəndiyi anlayışları praktiki olaraq tətbiq etməyi öyrənir, problem həll etmə və düşünmə qabiliyyətlərini inkişaf etdirə bilirlər. Buna görə də, təlim zamanı icra edilən riyazi oyunun növünün mövzuya, öyrədilməsi nəzərdə tutulan riyazi anlayışlara və qazandırılması hədəflənən riyazi bacarıqlara müvafiqliyinin təmin edilməsi olduqca vacib məsələdir.*

# ВИДЫ МАТЕМАТИЧЕСКИХ ИГР

***Резюме***

*Во время игры, применяемой на уроках математики, целью должна быть не просто игра, создание веселой учебной среды для учащихся, а приобретение определенных навыков, в то время как игра должна быть на первом плане. Наиболее эффективным способом обучения является не использование однотипной игры, а использование различных видов игровой деятельности в процессе обучения. Через игру дети находят ответы на определенные вопросы об окружающем мире, формируют новые идеи и учатся применять изученные понятия на практике, развивают навыки решения проблем и мышления. Поэтому очень важно убедиться, что тип математической игры, проводимой во время обучения, соответствует теме, математическим понятиям, которые необходимо преподавать, и математическим навыкам, которые необходимо приобрести.*

# TYPES OF MATHEMATİCAL GAMES

***Summary***

*During the game applied to mathematics lessons, the goal should not be just to play, to create a fun learning environment for students, but to acquire certain skills while playing should be in the foreground. The most effective way to teach is not to use the same type of game, but to use different types of play activities during training. Through the game, children find answers to certain questions about the world, form new ideas and learn to apply the learned concepts in practice, develop problem-solving and thinking skills. Therefore, it is very important to ensure that the type of*

*mathematical game performed during training is relevant to the topic, the mathematical concepts to be taught and the mathematical skills to be acquired.*

***Açar sözlər:*** *riyazi oyun, növ, inkişafetdirici, öyrədici, yaradıcı, rollu oyun, kəşfetmə, tədris*

***Ключевые слова:*** *математическая игра, сортировка, развивающая, обучающая, творческая, ролевая игра, открытие, обучение*

***Key words:*** *math game, sort, developmental, educational, creative, role play, discovery, teaching*

Təlim oyunları şagirdlərin dərsə marağını artırmaqla yanaşı, şagirdlərin dünyagörüşünün genişlənməsinə, anlama bacarıqlarının artmasına, praktik fəaliyyət üçün zəruri olan bacarıq və vərdişlərin, eyni zamanda əməkdaşlığın, kollektivçiliyin formalaşmasına kömək edir. Həmçinin şagirdlərin diqqət, yaddaş, nitq, mühakimə yürütmə, qərarvermə bacarıqlarının inkişafına müsbət təsir göstərir. Oyun prosesində şagirdlər özləri də hiss etmədən müxtəlif tapşırıqları yerinə yetirir, tədqiqatçı rolunda olur, şifahi hesablamalar aparır, məsələlər həll edirlər ki, bu da onların bilik və bacarıqlarının artmasına kömək edir. Oyunlar şagirdlərdə qələbə qazanmaq həvəsini, marağını oyadır. Uşaqlar oyunun qaydalarına əməl etməklə vaxtdan səmərəli istifadə etməyi, cəld hərəkət etməyi, tapşırıqları dəqiq əməl etməyi öyrənirlər. Oyunlar zamanı şagirdlərdə özünənəzarət, özünüqiymətləndimə bacarığı formalaşır, onlar yoldaşlarının fikirlərini nəzərə almağı, təmkinli və məsuliyyətli olmağı öyrənirlər. Ən əsas da təlim nəticələri zəif olan, utancaq xarakterli şagirdlər oyun zamanı həvəslənərək təlim prosesinə qoşulur ki, bu da onlarda müzakirə etmək, fikrini sərbəst ifadə etmək bacarığını inkişaf etdirir.

Riyaziyyat ən çətin fənlərdən biridir, lakin didaktik oyunların və məşqlərin daxil edilməsi dərsdə fəaliyyət növlərini daha tez-tez dəyişdirməyə imkan verir və bu, tədris materialının məzmununa emosional münasibətin müsbət yöndə dəyişməsinə, əlçatanlığın və maarifləndirmənin reallaşmasına kömək edir. İbtidai sinif şagirdlərinə riyaziyyatı öyrətmək əyləncəli oyunlar, tapşırıqlar istifadə etmədən düşünmək müasir dövr üçün mümkünsüzdür. Eyni zamanda, sadə əyləncəli riyazi materialın rolu şagirdlərin yaşa bağlı qabiliyyətlərinin hərtərəfli inkişafını və mədəni tərbiyəsinin formalaşdırılmasını mümkün qılır (3). Riyazi oyunlar sayəsində müəllimlər şagirdlərin zehni fəaliyyətini gücləndirmək, riyazi materiala maraq göstərməsini, heyran olmasını təmin etmək və oynayaraq öyrənmək, təlim zamanı əyləndirmək, eyni zamanda zehni, riyazi təsəvvürlərini inkişaf etdirmək, genişləndirmək və dərinləşdirmək, əldə edilmiş bilik və bacarıqları möhkəmləndirmək, onları başqa fəaliyyətlərdə (gündəlik həyatda) tətbiq etmək kimi imkanlar əldə edə bilirlər.

İbtidai sinif təliminə inkişafetdirci nöqteyi-nəzərindən yanaşıldıqda 6-12 yaş aralığındakı şagirdlərin oyun zamanı əsas məqsədinin öyrənməkdən daha çox oyun oynamaq olduğu hesab olunması ilə bağlı bir sıra fikirlər ortaya atılmışdır. Bu vəziyyət ibtidai siniflərdə oyunlardan istifadənin azalmasına səbəb olmuşdur.

Rubin (1983) oyunda istifadə olunan məqsədlər, materiallar, qaydalar və digər oyun elementləri kimi müxtəlif meyarlara görə oyunun müəyyən edildiyini bildirmişdir (7, s.69) Rubin (1998) oyunun xüsusiyyətləri ilə bağlı qeyd etmişdir (6, s.704):

- Oyun təkrarlanan, başqaları tərəfindən idarə olunan və mükafatlandı-rılan fəaliyyətdir. Mükafatlandırma nəticəsində oyunçularda daxili motivasiya-lar yaranır.
- Oyun qaydaları rəhbər tutularaq rəqabətli mühit yaradılır.
- Oyunda uşaqlar obyektlərə özləri məna yükləyir, bu obyektlərin əsl mənalarından daha çox "bununla nə edə bilərəm?" sualını verirlər.
- Oyunda reallıqla (metafora) sıx bağlı olmayan elementlər var. Obyektlər və fəaliyyətlər yeni mənalar qazanır, onlar köhnə xüsusiyyətlərindən və kontekstlərindən çıxarılır, fərqli şəkildə qəbul edilir və yeni forma alırlar.

(7 s. 69)

Məktəbə yeni gələn şagird özlüyündə bir şəxsiyyətdir. Hər uşaq fərqli bir xaraker nümayiş etdirir. Ailədən, mühitdən aldıqları bilik və təcrübələr onlarda fərqli xarakter formalaşdırır. Müəllim bu fərqli xüsusiyyətlərə malik uşaqları ayrı-ayrılıqda tanımalıdır, uşaqların maraq göstərdiyi fəaliyyətlərə müvafiq olaraq təhsil və təlim fəaliyyətlərini təşkil etməlidir.

Oyun insan həyatının, xüsusilə uşaqlıq illərinin bir hissəsi kimi qəbul edilir. Oyunla uşaq topladığı enerjini xərcləyə, özünü istədiyi kimi ifadə edə bilir və bu yolla onun psixomotor bacarıqları inkişaf etməyə başlayır, beləliklə o, ətraf mühiti kəşf edir.

Oyun bir fəaliyyət olaraq əyləndirmək məqsədi daşımaqla yanaşı öyrədici funksiyanı da yerinə yetirir. Ümumiyyətlə, oyunlar məqsədinə görə bir sıra növlərə ayrılır. Tədris zamanı müəllimlərin ən çox müraciət etdiyi oyun növü öyrədici oyunlardır. Öyrədici oyunlar şagirdin fiziki, zehni və mənəvi inkişafına müasbət yöndə təsir göstərən, onlarda yaxşı davranış və vərdişlər formalaşdıran fəaliyyətlərdir. Öyrədici oyunlar tədris və ya təlim məqsədləri üçün digər tədris metodlarına alternativ olan, təhsil fəaliyyətini tamamlayan və ya zənginləşdirən vasitələrdir.

Elmi ədəbiyyatda müxtəlif oyun yanaşmaları nəticəsində ortaya çıxan oyun növləri vardır. Bu oyunlar idraki, sosial, yaradıcı və manipulyasiya oyunları olaraq təsnifləndirmək olar.

İdraki oyun – bu oyunda uşaqlar əşyalar, obyektlər və rollar yarada bilirlər. Hər hansı bir şeyi təmsil edən əşyanı istifadə etsələr də, onun orijinal məna və istifadə məqsədinə sadiq qalırlar. Belə ki, kiçik yaşlı məktəblilər idraki oyun zamanı əşyaların və rolların həm real, həm qeyri-real, xəyali istifadəsini həyata keçirirlər, eyni zamanda bunu şüurlu şəkildə yerinə yetirirlər. Smilanski və Şefatya (1990) Piagetin idraki oyun nəzəriyyəsindən faydalanaraq idraki oyunları (5, s.26):

- Funksional oyun (qum oyunu),
- Tikinti oyunları (kub və blok oyunları),
- Dramatik oyunlar (yanğınsöndürən, oğru-polis oyunları),
- Sosial-dramatik oyunlar (həkim, ev),
- Qaydalı oyunlar (idman oyunları) da daxil olmaqla 5 müxtəlif oyun şəklində təsnif etdilər.

Yaradıcı oyun – xəyal etmə prosesinin nizamlandırdığı, təqlid xaricində reallaşan kəşfetmə prosesi kimi müəyyən edilə bilər. Yaradıcı şagirdlər yeni, orijinal, unikal olanı ortaya çıxarmaq üçün sıradan olanı görməzlikdən gəlirlər. Bu zaman, oyuna daxil olan obyektləri, əşyaları, hadisələri fərqli məqsədlər və vəzifələrdə istifadə edəcəkləri oyun prosesinə qatılırlar.

Sosial oyunlar – Sosiallaşma prosesi şagirdin digərləri ilə münasibət qura bilməsini, uyğunlaşmanı tələb edir. Sosial oyunlarda uşaqlar yaşıdlarının rəftar, duyğu və düşüncəsiylə bağlı verbal və ya qeyri-verbal ünsiyyət bacarıqlarını inkişaf etdirə bilirlər. Yaşıdları ilə oynayarkən onların öz düşüncələrindən fərqli olan fikirlərə sahib olduqlarını kəşf edirlər. Bu düşüncələri uşaq ya mənimsəyir, ya da fərqli yanaşmanı öz düşüncəsinə uyğun şəkildə formalaşdıra və qəbul edə biləcəkləri sosial atmosfer kəşf edirlər. Paylaşma və koordinasiya yolu ilə şifahi resurslar öyrənildiyindən, uşaqların sosial və koqnitiv inkişafını təmin etmək mümkün olur.

Manipulyasiya oyunları – oyun materialları uşaqların müxtəlif oyun proseslərinə qatılmasını təmin edir. Oyun materialları həm təqlid, demonstrasiya kimi izaha əsaslanan oyunları, həm də verbal olmayan manipulativ, sturuktural və əşya oyunlarını dəstəkləyir. Riyaziyyat dərslərində istifadə olunan xüsusi manipulativlərə onluq kublar, həndəsi fiqurlar misal ola bilər.

Bu oyunların xaricində bir çox oyun növünə rast gəlmək mümkündür. İstifadə məqsədinə, istifadə olunan materiallara, inkişafetdirmə xüsusiyyətlərinə və yerinə yetirilən fəaliyyətlərinə görə oyunlar təsnifləndirilə bilər. Bu xüsusda Huges 14 fərqli oyun növündən söz açmışdır (8, s.43):

1. Simvolik oyun,
2. Hərəkətli oyunlar
3. Sosio-dramatik oyunlar,

4. Sosial oyunlar,
5. Yaradıcı oyunlar,
6. Dramatik oyunlar,
7. Riskli oyunlar,
8. Keşfetmə oyunlar,
9. Xəyali oyunlar,
10. Ustalıq oyunlar,
11. Əşyavi oyunlar,
12. Rollu oyunlar,
13. Təkrarlama oyunları,
14. Təqlid oyunları.

Fərqli növlərdə qarşımıza çıxan oyunlar uşaqların demək olar ki,bütün davranışlarına təsir göstərən bir xüsusiyyətə sahib olduğundan təlim zamanı hədəflənən nəticələr əldə etmək olduqca asandır. Təlim mühitində oyunlardan istifadə edərkən inkişaf psixologiyası, sosialoji, iqtisadi və tətbiq ediləcək sahə kimi fərqli disiplinlərin diqqətə alınması gərəklidir. Oyunla təlim prinsiplərinin effektiv şəkildə istifadə olunduğu bir tədris proqramı isə oyunun inkişafetdirici mühitin ən üst səviyyəsində olan bir təlim atmosferi təqdim edə bilir. Bu cür oyunlara misal olaraq aşağıda verilmiş bir neçə oyun növünü nəzərdən keçirək:

Xal toplama oyunu – Müəllim şagirdləri 5-6 nəfərlik qruplara ayırır. Bütün şagirdlərə riyazi suallar paylayır. Hər qrupdan neçə şagird tapşırığı doğru həll edərsə, o qrup o qədər xal toplayar. Sualları cavablandırarkən şagirdlər sinif yoldaşından kömək istəyə bilər. Bu yolla şagirdlər əməkdaşlıq bacarıqlarına yiyələnir. Oyunun sonunda xallar toplanır, ən yüksək xala sahib qrup qalib elan edilir.

Ulduz toplama oyunu – Müəllim şagirdlərə iş vərəqləri paylayır. İş vərəqlərindəki tapşırıqların cavablarını cəmlədikdə lövhədə asılmış rəqəmlərdən biri alınır. Əgər şagird bütün tapşırıqları doğru yerinə yetirib, sonda düzgün cavabları toplayıbsa, lövhədən asılmış rəqəmi və ulduzu götürür. Qruplardan hansı daha çox ulduza sahibdirsə, o qalib olur.

Komanda turniri oyunu - Şagirdlər 6 nəfərlik qruplara ayrılır. Bütün qruplara riyazi məsələ qurmaları üçün kağızlar paylanılır. Hər qrupdan bir nəfər yazıçı seçilir. Bir nəfər yazarkən digər 5 nəfər məsələ qurmalıdır. Ən çox məsələ quran və qurduqları məsələni həll edən qrup qalib hesab olunur.

Xəzinəni tap oyunu - Şagirdlər sinifdə toplanır. Müəllim bir başlama xətti müəyyən edir. Sinifdə müəllim tərəfindən bir əşya gizlədilir. Şagirdlər müəllimin təlimatları ilə 5 addım irəli, 2 addım geriyə kimi xəzinənin axtarışına başlayırlar. Verilən təlimatlarla ən qısa zamanda xəzinəni tapan şagird qalib elan olunur.

Şagirdlərarası yarış oyunu – Müəllim şagirdlərə vurma cədvəli ilə bağlı öncədən ev tapşırığı verir və öyrənmələrini tələb edir. Sonrakı dərs şagirdlər müəllimin göstərişi ilə iki sırada düzülürlər. Müəllim ən öndəki şagirdə vurma cədvəlindən bir sual verir. Hansı şagird ilk öncə cavab versə, sonra cavab verəni oyundan xaric edir. Oyundan xaric olan şagird sıranın ən axırına gedir. Beləliklə, oyunun qalibi müəyyən olunana qədər oyun davam edir.

Lövhəyə qaçdı oyunu – 1, 2, 3 ilə nömrələnmiş kartlar şagirdlərə paylanılır. Eyni rəqəmli kartlara sahib olan şagirdlər birlikdə qrup əmələ gətirir. Lövhə müəllim tərəfindən 3 hissəyə ayrıldıqdan sonra, arxası maqnitli kartlara yazılmış suallar və onlara uyğun həndəsi fiqurlar lövhəyə yapışdırılır. Şagirdlərə oyun üçün müəyyən olunmuş zaman elan edilir (2, s.10). Oyun üçün ayrılmış müddət ərzində qrup üzvü onlara ayrılmış hissədən kartları götürür və sualı oxuduqdan sonra məsələnin həlli üçün lazım olan həndəsi fiquru da götürür (Məsələn, bərabərtərəfli üçbucaq). Tapşırığın həllini həmin kartın üzərinə yazdıqdan sonra isə kartı və fiquru stollarının üstündəki kiçik qutulara yığırlar. Hər bir qrup üzvü bir tapşırığın həllini yazıb bitirən kimi lövhəyə qaçaraq digər kartı və ona uyğun fiquru götürüb yenidən tapşırığı həll etməyə başlayır. Vaxt tamam olana qədər bu proses davam edir. Vaxt tamam olduqdan sonra isə müəllim əvvəl götürülən kartların sayına görə hansı qrupun daha çox tapşırıq həlli yazdığını müəyyənləşdirir. Qruplar cavabları yoxlamaq üçün qutuları bir-biriləri ilə dəyişirlər. Müəllim tapşırıqların həllini izah edir. Hər bir qrup digər qrup üzvlərinin yazdığı tapşırıqları yoxlayır. Qrup liderləri balları hesablayırlar. Müəllim hansı qrupun daha çox düzgün cavab almağına əsasən qalib qrupu müəyyən edir (2, s.10).

Məsələn,bu təlim oyunundan:

"3.1.3 Üçbucağın və dördbucaqlının perimetrini, düzbucaqlının və kvadratın sahəsini hesablayır",

"3.1.4 Üçbucağın, paraleloqramın sahəsini hesablayır" və ya

"3.1.4 Paralelepipedin və kubun həcmini hesablayır" standartlarının reallaşdırılması zamanı istifadə etmək olar (2,s.11).

Bu oyun zamanı şagirdlərə müəyyən vaxt təyin olunduğuna görə onlar tapşırıqları mümkün qədər tez yerinə yetirməyə çalışırlar ki, bu da onlarda sürətli düşünüb yazma bacarığını inkişaf etdirir. Eyni zamanda tapşırıqların qrup formasında axtarılıb tapılması, problemlərin birgə həll edilməsi şagirdlər arasında qarşılıqlı əlaqəni, məsuliyyəti və əməkdaşlığı artırır.

Belə nəticəyə gəlmək olar ki,

- ➢ Uşaqların inkişafı baxımından oyunların əhəmiyyəti göz ardı edilməyəcək qədər vacibdir.
- ➢ Hansı riyazi oyunun hansı mövzu üzrə istifadəsinin daha əlverişli olacağını müəyyən etmək müəllimin öhdəsinə düşür.

➢ Doğru müəyyən edilmiş və təlim məqsədinə xidmət edən oyunların tətbiqi nəticəsində şagirdlərin idraki, emosional və psixomotor bacarıqları formalaşmağa başlayır.

➢ Tədris zamanı müraciət edilən oyunlar şagirdlərə oyun formatından istifadə imkanı verərək kurs mövzularını daha asan öyrənmələrinə kömək edir.

➢ Riyazi oyunlar tədris proqramına daxil olan anlayışların şagirdlər tərəfindən daha sürətli dərk edilməsinə imkan yaradır.

➢ Oyunlar şagirdlərin məntiq yürütmə kimi bacarıqların inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır.

➢ Oyunlardan təlim mühitində maksimum dərəcədə istifadə etmək lazımdır.

***Ədəbiyyat***

1. *Abbasov N.R. İbtidai siniflərdə riyazi oyunlar, əyləncəli məsələlər və riyazi testlər. Bakı: "Qarant", 2001.*
2. *Hüseynova E. M., Əliyeva N. S., Haqverdiyeva A.C., Riyaziyyat fənninin oyunlar vasitəsilə tədrisi (Metodik vəsait). Bakı, "Avropa" nəşriyyatı, Bakı-2019, 44 səh.*
3. *Bantova M.A., Vel'tyukova G.V., Polevşcikova A.M. Metodika prepodavaniya matematiki*
4. *Naçal'nykh klassov, M.: Prosveşçeniye, 1973.*
5. *Smilanski S., 1990, Pomoş' v igre: sredstvo sodeystviya kognitivnomu, sotsial'no-emotsional'nomu i akademiçeskomu razvitiyu detey mladshego vozrasta.*
6. *Rubin, K. H. (1998). Some "good new" and some "not so good news" about dramatic play. Play as a medium for learning and development, 58-62.*
7. *Rubin K. N., Fein G. G., Vandenberg B. (1983). Play. In E.M.Hetherington (Ed.) & P.H.Mussen (Series Ed.), Handbook of child psychology: Vol. 4.Socialization, personality, and social development (pp. 698-774). New York: Wiley.*
8. *Hughes, B., & Melville, S. (1996). A Playworker's Taxonomy of Play Tips. Play Education. Organisation.*

**S.Y.Laçınov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***senanlacinof@gmail.com***

# İBTİDAİ SİNİFLƏRDƏ KÜTLƏ VƏ ONUN ÖLÇÜ VAHİDLƏRİ İLƏ ŞAGİRDLƏRİN TANIŞ EDİLMƏSİ

***Xülasə***

*Məqalədə ibtidai siniflərdə şagirdlərin kütlə və onun vahidləri ilə tanış edilməsi və şagirdlərə kütlə və onun ölçülməsi ilə bağlı məsələlərin izah edilməsi, kütlə ölçü vahidləri, bu vahidlər arasındakı əlaqələr, bu əlaqələrin şagirdlərə öyrədilməsi ilə bağlı məsələlər qeyd edilmişdir.*

# ЗНАКОМСТВО УЧАЩИХСЯ С МАССОЙ И ЕДИНИЦАМИ ЕЕ ИЗМЕРЕНИЯ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Резюме***

*В статье затрагиваются вопросы, связанные с ознакомлением учащихся с массой и ее единицами в начальных классах и разъяснением учащимся вопросов, связанных с массой и ее измерением, и обучением учащихся взаимосвязям между единицами измерения массы и этими единицами.*

# FAMİLİARİZATİON OF STUDENTS WİTH MASS AND İTS MEASUREMENT UNİTS İN ELEMENTARY GRADES

***Summary***

*The article deals with introducing students to mass and its units in elementary grades, explaining the issues related to mass and its measurement to students, and teaching students the relationship between mass units and these units.*

***Açar sözlər:*** *kütlə, ölçmələr, kəmiyyət, həcm, tutum, kiloqram, qram, sentner, tərəzi, ton, riyaziyyat, dərs, əyanilik, təlim, litr*

***Ключевые слова:*** *масса, измерения, количество, объем, вместимость, килограмм, грамм, центнер, шкала, тонна, математика, урок, визуализация, обучение, литр*

***Key words:*** *mass, measurements, quantity, volume, capacity, kilogram, gram, centner, scale, ton, math, lesson, visualization, training, liter*

İnsanların həyatında böyük rol oynayan bacarıq və vərdişlərdən biri də kəmiyyətlərin ölçülməsidir. İnsanların bu bacarıq və vərdişlərə sahib olması üçün işlər hələ uşaqlıq zamanlarından başlanılır. İnsanların kəmiyyətlərin ölçülməsi ilə bağlı bacarıq və vərdişlərin yaradılması üçün işlərin görülməsi ibtidai sinif riyaziyyat kursunun əsas məsələlərindən biri kimi qəbul edilir. İbtidai sinif riyaziyyat kursunun əsas məzmun xəttlərinə baxıldıqda görə bilərik ki, bu məzmun xəttlərindən biri də ölçmələr məzmun xəttidir. Ümumilikdə baxsaq görərik ki, riyaziyyatın dörd məzmun xətti vardır. Bu məzmun xəttləri aşağıdakı kimidir:

1. Ədədlər və əməllər,
2. Cəbr və funksiyalar,
3. Həndəsə,
4. Ölçmələr,
5. Statistika və ehtimal.

İbtidai siniflərdə kəmiyyətlər və onların ölçülməsi məsələləri ölçmələr məzmun xəttinin daxilində öyrədilir. Ölçmələr məzmun xəttinin nəticələri onun alt standartlarında qeyd olunur. Məzmun xəttinin standartları, yəni əldə olunmalı olan təlim nəticələri hər bir sinif üzrə müxtəlif olur. Ölçmələr məzmun xəttinin alt standartları aşağıdakı kimi qeyd oluna bilər:

4.1 kəmiyyətlər,

4.2 ölçü vahidləri və alətlər.

Ölçmələr məzmun xətti üzrə aşağıdakılar təmin olunur:

- ölçü vahidi və kəmiyyətlərin ölçülməsi haqqında təsəvvürlərin yaranması;
- kəmiyyətlərin vahidləri arasında əlaqələrin yaranması;
- kəmiyyətlərin (uzunluq, sahə, kütlə, zaman, tutum və s.) qiymətini hesablama və ölçü alətləri ilə (xətkeş, palet, tərəzi, saat, menzurka və s.) onları ölçmə bacarıqlarının formalaşması;
- perimetr və sahə anlayışları haqqında təsəvvürlərin yaranması, çoxbucaqlının perimetri və düzbucaqlının sahəsini hesablama bacarıqlarının formalaşması.

İbtidai siniflərdə ölçmələr məzmun xətti üzrə şagirdlər aşağıdakı bilik və bacarıqlara yiyələnirlər:

- Seçilmiş şərti ölçü vahidinin verilmiş kəmiyyətdə neçə dəfə yerləşdiyini müəyyənləşdirməklə ölçmə əməliyyatının mənasını başa düşür, vahidlər arasında əlaqə yarada bilir.
- Kəmiyyətlərin ölçülməsində və müqayisəsində uyğun ölçü vahidləri və alətlərindən düzgün istifadə edir və bu biliklər əsasında riyazi və praktik çalışmaları yerinə yetirir.

• Perimetr və sahə anlayışlarını başa düşür, bu biliklərdən praktik işlərin və çalışmaların yerinə yetirilməsində istifadə edir.

Bu məzmun xəttlərinin hər biri öz aralarında əlaqələnir. Bu məzmun xəttlərinin belə əlaqəli olması riyaziyyat kursunun inteqrativ kurs olması ilə əlaqədardır. İbtidai sinif riyaziyyat kursunda şagirdlər ölçmələr məzmun xətti təliminə aid olan mövzular ilə tanış edilərkən ədədlər və əməllər məzmun xəttinə inteqrativ şəkildə yerinə yetirilir. Biz bu inteqrativ imkanları nəzərə almaqla ölçmələr məzmun xətti təliminin şagirdlər tərəfindən daha rahat şəkildə mənimsəməsinə şərait yarada bilərik.

İbtidai sinif riyaziyyat kursunda şagirdlər bir çox kəmiyyət və onların ölçülməsi qaydaları ilə tanış edilir. Bu kəmiyyətlərə uzunluq, kütlə, həcm, sahə və zaman kimi kəmiyyətlər aid edilir. Kəmiyyət deyildikdə bu termin azərbaycan dilində “qiymət” mənasında işlənilir. Kəmiyyət real aləmdə mövcud olan obyektlərin ümumi xassələrini ifadə edir. Kəmiyyət hesab olunan əşya və hadisələr “kiçikdir”, “böyükdür” və “bərabərdir” anlayışları ilə ifadə olunur. Kəmiyyətin qiymətinin təyin edilməsi üçün onun ölçülməsi lazımdır. Ölçmə nəticəsi ədədlə ifadə olunur.

İbtidai siniflərdə ölçmələr məzmun xəttinin bir hissəsini şagirdlərə kütlə və həcm kəmiyyəti ilə tanış edilməsi və bu kəmiyyətlərin şagirdlərə öyrədilməsi məsələsi təşkil edir. Buna görə də ibtidai siniflərdə bu mövzuların öyrənilməsinə geniş yer ayrılır.

Şagirdlər ibtidai sinifdən daha əvvəl bu və ya digər kəmiyyətlər haqqında çox da geniş olmayan intuitiv təsəvvürlərə malik olurlar. Şagirdlər ibtidai sinifdə təhsil almağa başlayarkən onların leksikomunda “ağırdır”, “yüngüldür”, “eynidir” kimi terminləri müşahidə etmək olur. Qeyd etmək lazımdır ki, belə ölçmənin dəqiqliyi şübhə altındadır. Şagirdlərdə eyni materialdan hazırlanan cisimlərin ölçüsünə baxıb hansının daha ağır, yüngül və ya eyni olduğunu demək vərdişləri yaranır. Şagirdlərə hələ I sinifdən cisimlərin kütlələrinə görə müqayisə olunması haqqında çalışmalar verilir.

Bəzi müəlliflər öz yazılarında qeyd edirlər ki, kütlə təsəvvürünün yaradılması və onun cismin digər xassələrindən asılı olub-olmadığını müəyyənləşdirmək üçün müxtəlif çalışmalardan istifadə etmək olar:

1. Eyni material, forma, amma müxtəlif ölçülü cisimlərin kütləsinə görə əllə müqayisə olunması;
2. Eyni formalı, ölçülü, amma müxtəlif materiallı cisimlərin kütlələrinin müqayisəsi;
3. Eyni material, amma müxtəlif cisimlərin kütlələrinin müqayisəsi.

Şagirdlərə kütlə vahidlərinin öyrədilməsi zamanı onlara müxtəlif kütlə vahidləri haqqında məlumat verilir. Şagirdlərə öyrədilən kiloqram, qram kimi vahidlər əvvəlcədən şagirdlərə məlumdur. Bu vahidlər öyrədilən zaman

şagirdlərin ədədlər məzmun xəttində hansı ədədlərin nömrələnməsi haqqında məlumatlı oluğunu nəzərə almaq lazımdır. Şagirdlərin kütlə anlayışını dərk edərkən yaşadıqları çətinlikləri nəzərə almaq, onları əyani vasitələrdən istifadə etməklə kütlə vahidlərinə alışdırmaq lazımdır. Müəllim sinifə uşaqlara tanışlıq üçün 1 kq-lıq əşyalar gətirir. Sonra isə həmin əşyaları şagirdlərin iştirakı ilə 1 kq-lıq çəki daşları ilə müqayisə edir.

Şagirdlərə digər kəmiyyətlərin ölçülməsi zamanı istifadə olunan cihazlar kimi kütləni də ölçmək üçün istfadə olunan cihaz - tərəzi haqqında məlumat verilir. Müəllim bu zaman keçilən digər kəmiyyətlərin ölçülməsində istifadə olunan cihazları şagirdlərin bir daha yadına salır. Müəllim sözə başlayarkən şagirdlərdə maraq yaratmaq üçün qeyd edir: "Biz bilirik ki, məsafəni ölçmək üçün xətkeş, ölçü lenti, metrik xətkeş istifadə oluduğu kimi kütlənin də ölçülməsində tərəzidən istifadə olunur". Şagirdlər müəllim tərəfindən tərəzi ilə yaxından tanış edilir, onların növləri haqqında məlumat verilir. Şagirdlər müəllim tərəfindən sinifə gətirilən tərəzi vasitəsilə ölçmə işlərini yerinə yetirirlər. Şagirdlər tərəzinin bir gözünə kütləsi ölçülən əşyanı, digər tərəfə isə çəki daşlarını yerləşdirirlər. Bununla belə, onlar tərəzidə çəkmə vərdişlərinə yiyələnirlər.

Müəllim tərəzinin növləri - elektron və avtomat tərəzilər haqqında məlumat verir. Onların quruluşunu və iş prinsiplərini uşaqlara açır. Bu zaman müəllim mütləq şəkildə şagirdləri tərəzi və çəki daşları ilə tanış etməlidir. Məktəb təcrübəsi göstərir ki, bəzən müəllimlər bu tip məsələlərə ötəri yanaşırlar. Bu da şagirdlərdə bəzi qaranlıq məqamların qalmasına və mövzunun tam qavranılmamasına gətirib çıxarır.





Müəllim şagirdləri tərəzi və onun növləri ilə tanış etdikdən sonra tərəzi ilə kütlənin ölçülməsi qaydaları ilə yaxından tanış edir. Müəllim şagirdlərin iştirakı ilə kütlənin ölçülməsi prosesini əyani şəkildə göstərir.

Müəllim şagirdlərə kütlənin gözəyarı və əllə ölçülməsinə aid çalışmalar verməlidir. Çalışmalar bu tipdə ola bilər. Məsələn: Tərəzinin bir gözündə bir qabın içində portağal, digər gözündə isə 1kq çəki daşı var, qabın 1kq olduğunu bilərək, portağalın kütləsini tapın.

Şagirdlərə öyrədilən digər bir kəmiyyət də tutum anlayışıdır. Tutum anlayışı şagirdlərə öyrədilərkən litr haqqında məlumat verilir. Mayelərin ölçülməsi zamanı litrdən istifadə olunması, 1 litr suyun 1kq olması haqqında əyani məlumatlar verilir, ayrıca bəzi mayelərin, məsələn neftin 1 litrinin 1kq olmaması kimi təsəvvürlər şagirdlərə onların iştirakı ilə müəllim tərəfindən əyani şəkildə göstərilir. Müəllim sinifə müxtəlif mayelər (su, yağ, neft, kerosin və s.) gətirərək onları 1 litrlik qablarda sərgiləyir, sonra isə onları tərəzidə ölçür. Alınan nəticələr müəllimin rəhbərliyi ilə sinifdə müzakirə olunur. Müəllim mayelərin tutumlarının ölçülməsi üçün istifadə olunan cihazı şagirdlərə əyani olaraq göstərib onun haqqında ətraflı məlumat verir. Müəllim şagirdlərə tutumun ölçülməsi üçün üzərində bölgüləri olan (litr ilə) qab haqqında məlumat verir. Şagirdlərə bu zaman belə bir məsələ vermək olar: "İki qabda eyni ölçüdə meyvə şirəsi vardır, bir qabdakı meyvə şirəsindən 5 litr digər qaba əlavə olundu, qablar arasındakı fərqi tapın".

Bu zaman məsələnin həllində əyani vasitələrdən istifadə oluna bilər. Belə məsələlər şagirdlərdə daim maraq yaradır. Şagirdlərə kütlənin digər vahidləri haqqında məlumat verilir. Şagirdlərə kütlənin digər bir vahidi - qram haqqında məlumat verilir. Qram haqqında təsəvvürlərin yaradılması üçün müəllim qramlıq əşyalardan istifadə edə bilər.

Qeyd etmək lazımdır ki, 1 kub sm suyun kütləsi 1 q-dır. Bu zaman deyə bilərik ki, 1 litr suyun kütləsi 1000 qramdır. Şagirdlər tərəzidə çəkmə zamanı müşahidə edirlər ki, 1 kq = 1000q-dır.

İbtidai siniflərdə ölçmələr məzmun xəttinin riyaziyyatın digər məzmun xətləri ilə inteqrativ şəkildə öyrədilməsi məsələsini daha əvvəldə qeyd etmişdik. Kütlə vahidləri də şagirdlərə öyrədilərkən ədədlər məzmun xəttinə aid olan nömrələmə məsələsi nəzərə alınmalı və təlimin təməl prinsipi olan ardıcıllıq və sistematiklik prinsipi nəzərə alınmalıdır. Ümumiyyətlə, təlimin prinsipləri özünü hər bir fənnin təlimində göstərir. Təlimin prinsiplərini nəzərə almadan keçilən dərs heç vaxt düzgün qurula bilməz. Şagirdlər 1000 dairəsində ədədlərin nömrələnməsini öyrəndikdən sonra onlar yeni kütlə vahidləri - sentner və ton anlayışları ilə tanış olurlar. Müəllim şagirdlərə bu anlayışları daha asan öyrətmək üçün həyatın özündən misallar çəkir. Məsələn, sahədən yığılan buğda 1 tondur (1000 kq), bir qutu alma 1 sentnerdir (100 kq).

Şagirdlərə kütlə, ölçü vahidləri öyrədildikdən sonra onlar arasındakı münasibətlər göstərilir. Şagirdlər həmin münasibətləri bir cədvəl halında əzbərləməyə çalışırlar. Müəllim tərəfindən şagirdlərə adlı ədədlərin çevrilməsi və xırdalanmasına aid, adlı ədədlər üzərində əməllərə aid məsələlər həll etdirilir.

***Ədəbiyyat***

*1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IX siniflər) Bakı, ARTPİ, 2013, 430 səh.*
*2. Adıgözəlov A.S., Əhmədov İ.Q. İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi metodikası, Bakı, mütərcim 2001, 312 səh.*
*3. Həmidov S.S., Məcidova A.Ə. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası ( ümumi və xüsusi metodika), Bakı – ADNSU – 2016, 410 səh. 4*
4. *https://kayzen.az/blog/fizika/25590/k%C3%BCtl%C9%99-v%C9%99-onun-%C3%B6l%C3%A7%C3%BClm%C9%99si.html*
5. *https://az.wikipedia.org/wiki/K%C3%BCtl%C9%99_vahidl%C9%99ri*

**A.M.Məsimova**
**Lənkəran Dövlət Universiteti**
***aysunmasimova@gmail.com***

# BİOLOGİYA DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN İDRAK FƏALİYYƏTİ

***Xülasə***

*Müasir dövrdə orta ümumtəhsil məktəblərində biologiya dərslərində qarşıya qoyulan əsas məqsəd şagirdlərə təkcə bilik vermək deyil, həm də idraki maraq və qabiliyyətlərin inkişafını təmin etməkdir. İlk növbədə şagirdlərdə idrak fəaliyyətinin inkişaf etdirilməsi müasir pedaqoji elm və praktikanın ən aktual problemlərindən biridir. Yeni vəzifələrin yaranması elm və texnikanın sürətli inkişafı ilə bağlıdır. Şagirdlərin inkişaf və təhsilinin nəticəsi bir fəaliyyət olaraq öyrənmə keyfiyyətindən asılıdır. Tədqiqat işində orta ümumtəhsil məktəblərində biologiya dərslərində idrak fəaliyyətinin şagirdlərdə biliklərin mənimsənilmə keyfiyyətinə təsirinin imkan və yolları öyrənilmişdir.*

# ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧЕНИКОВ НА УРОКАХ БИОЛОГИИ

***Резюме***

*В современное время основной целью уроков биологии в средних общеобразовательных школах является не только предоставление учащимся знаний, но и обеспечение развития познавательных интересов и способностей. Прежде всего, развитие познавательной активности студентов является одной из актуальнейших проблем современной педагогической науки и практики. Появление новых задач связано с бурным развитием науки и техники. Результат развития и воспитания учащихся зависит от качества обучения как деятельности. В исследовательской работе изучались возможности и пути влияния познавательной деятельности на качество усвоения знаний у учащихся на уроках биологии в средних общеобразовательных школах.*

# STRENGTHENING THE COGNITIVE OF STUDENTS IN THE LESSONS OF BIOLOGY

***Summary***

*In modern times, the main goal of biology lessons in secondary schools is not only to provide students with knowledge, but also to ensure the development of cognitive interests and abilities. First of all, the development of students' cognitive activity is one of the most urgent problems of modern pedagogical science and practice. The emergence of new tasks is associated with the rapid development of science and technology. The result of the development and education of students depends on the quality of learning as an activity. In the research work, the possibilities*

*and ways of the influence of cognitive activity on the quality of mastering knowledge of students in biology lessons in secondary schools were studied.*

***Açar sözlər:*** *idrak fəaliyyəti, yeni texnologiyalar, təhsil, pedaqogika*
***Ключевые слова:*** *познавательная деятельность, новые технологии, образование, педагогика*
***Key words:*** *cognitive activity, new technologies, education, pedagogy*

Yeni texnologiyaların inkişafı şəraitində ümumtəhsil məktəblərinin əsas inkişaf istiqaməti təhsilin keyfiyyətinin yüksəldilməsi, tədris sisteminin təkmilləşdirilməsi yolu ilə hər bir şagirdin şəxsiyyətinin inkişafına şərait yaradılmasıdır. Yeniləşən dünyada idrak fəaliyyətini aktivləşdirmədən, şagirdlərdə praktik vərdişləri inkişaf etdirmədən müəllim üçün qarşısında duran vəzifələrin həllində uğur qazanmaq çox çətindir. Şagirdlərin yaradıcı təfəkkürünün mühüm şərti onların ümumi düşüncə mədəniyyətinə malik olmasıdır. Buna görə də, sinifdə təhsil fəaliyyəti ilk növbədə şagirdlərin idrak fəaliyyətinin inkişaf etdirilməsinə yönəldilməlidir. Bunun üçün şagird mənimsədiyi materialı təhlil etmək, nəticə çıxarmaq, təsnif etmək, müqayisə etmək bacarığına malik olmalıdır. Apardığımız müşahidələr göstərir ki, bir çox məktəblərdə şagirdlərin biologiya üzrə biliklərinin keyfiyyətinin aşağı olmasının səbəbi, əsasən təlim zamanı öyrənən tərəfdə idraki fəaliyyətin aşağı olmasıdır, bu halda dərsdə şagirdlərin fəallığı yalnız müəllimin təqdim etdiyi hazır biliyin qavranılmasına yönəlir və nəticələri anlamaq, yadda saxlamaq, tətbiq etmək və yoxlamağa az vaxt ayrılır. Bilik və bacarıqların mənimsənilməsinin yuxarıda göstərilən bütün mərhələlərini müəllimin rəhbərliyi altında olsa da, hər bir şagirddə idrakı fəliyyətin inkişafına yönəldilməlidir.

Şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsi üçün hissi qavrayış, nəzəri təfəkkür və praktik fəaliyyətin vəhdətinə nail olmaq lazımdır. Bunun üçün şagirdlərdə təhsil prosesində və sosial münasibətlərində (bədii-estetik fəaliyyətlər, ünsiyyət), idrak fəaliyyətində və ya tədrisdə kompleks yanaşma tələb olunur. Bu zaman fəal idarə olunan proses bütün şagirdlərə dərin və möhkəm biliklər vermək, əks əlaqəni artırmaq məqsədi daşıyır. O, şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınmasını, tədris prosesinin modelləşdirilməsini, onun proqnozlaşdırılmasını, aydın planlaşdırılmasını, hər bir şagirdin öyrənilməsi və inkişafının fəal idarə olunmasını nəzərdə tutur. Təlim prosesində şagird passiv və aktiv idrak fəaliyyəti göstərə bilər. Şagirdlərin idrak fəaliyyəti anlayışına müxtəlif yanaşmalar mövcuddur. İlkin yanaşmada idrak fəaliyyətinin aktivləşdirilməsi üçün bilik və bacarıqların mənimsənilməsi zamanı zəruri olan əqli və ya fiziki əməyin şüurlu, məqsədyönlü yerinə yetirilməsi nəzərdə tutulur. İkinci yanaşmada isə idrak fəaliyyətində şagirdlərin biliyin mənimsənilməsi

təşəbbüskarlığı, səmərəli münasibəti, həmçinin öyrənməyə maraq, müstəqillik və iradi səylərin təzahürü ön plana çıxarılır. Birinci halda diqqət müəllim və şagirdlərin müstəqil fəaliyyətinə, ikinci halda, isə əsasən idrak fəaliyyəti konsepsiyasında şagirdlərin marağı, müstəqilliyi və iradi səyləri ön plana çıxarılır. Bildiyimiz kimi şagirdlərin təlim prosesinə münasibəti adətən fəallıqla xarakterizə olunur. Fəaliyyət (öyrənmə, mənimsəmə, məzmun və s.) şagirdin onun fəaliyyətinin subyekti ilə "təmas" dərəcəsini (intensivliyini, gücünü) müəyyən edir. Biologiya dərslərində qeyd etdiyimiz yanaşma özünü daha qabarıq göstərir. Orta ümumtəhsil məktəblərində biologiya dərslərində fəaliyyət strukturunda aşağıdakı komponentlər fərqlənir:

- təlim tapşırıqlarını yerinə yetirmək istəyi;
- müstəqil fəaliyyət arzusu;
- tapşırıqların icrası şüuru;
- sistemli təlim;
- şəxsi səviyyələrini yüksəltmək istəyi.

Şagirdlərin fəaliyyətinin idarə edilməsi ənənəvi olaraq aktivləşdirmə adlanır. Aktivləşdirmə şagirdləri enerjili, məqsədyönlü öyrənməyə həvəsləndirmək, passiv və stereotip fəaliyyətini, tənəzzülü və zehni işdəki durğunluğu aradan qaldırmaq üçün daim davam edən bir proses kimi müəyyən edilə bilər. Aktivləşdirmənin əsas məqsədi şagirdlərin fəaliyyətinin formalaşdırılması, tədris prosesinin keyfiyyətinin yüksəldilməsidir. Öyrənmənin aktivləşdirilməsi ideyaları alimlər tərəfindən pedaqogikanın müstəqil elmi intizam kimi rəsmiləşdirilməsindən xeyli əvvəl onun formalaşması və inkişafının bütün dövrü ərzində ifadə edilmişdir. Şagirdlərin tədris-idrak fəaliyyətinin artırılması prinsipləri, eləcə də tədris metodlarının seçimi təhsil prosesinin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilməlidir. Ümumi yanaşmaları ayırmaq olar: təlim prosesində şagirdin təfəkkür və idrak qabiliyyətlərinin aktivləşdirilməsi; şagirdlərin öyrənmə motivasiyasının və idrak maraqlarının inkişafı; məktəblilər tərəfindən tədris materialının mənimsənilməsi barədə məlumatlı olmaq istəyi.

İlk növbədə problemlilik prinsipi əsas prinsip kimi qəbul edilməlidir. Təlim problemləri təlimdə fəal rol oynayır ki, onun mahiyyəti şagirdləri fərdi axtarış və tədqiqat fəaliyyətinə yönəldən təlim fəaliyyəti prosesində belə situasiyaların praktiki və nəzəri maneələri aradan qaldırmaqdan ibarətdir (2). Biologiya dərslərində ardıcıl olaraq daha mürəkkəb tapşırıqlar və ya suallar vasitəsilə şagirdin təfəkküründə elə problemli vəziyyət yaratmaq lazımdır ki, bunun üçün şagird müəllimin köməyi ilə fəal şəkildə yeni biliklər formalaşdırmağa məcbur olsun və nəticədə idrak fəallığı artsın. Beləliklə, şagird yeni bilikləri müəllimin hazır tərtibatlarında deyil, özünün fəal idrak fəaliyyəti nəticəsində alır. Təlimin əsas vəzifələrindən biri bacarıqların, o cümlədən yeni

biliklərin tətbiqi bacarığının formalaşdırılması və təkmilləşdirilməsidir. Növbəti prinsip təhsil və idrak fəaliyyətinin praktiki tapşırıqların təbiətinə maksimum mümkün adekvatlığını təmin etməkdir. Bu tip yanaşma həmişə şagirdlərin peşə hazırlığının tərkib hissəsi olmuşdur (3).

Şagirdlərin təhsil və idrak fəaliyyətinin təşkilində qarşılıqlı öyrənmə prinsipi daha az əhəmiyyət kəsb etmir. Nəzərə almaq lazımdır ki, təlim prosesində şagirdlər bir-birlərini öyrədə, bilik mübadiləsi apara bilərlər. Uğurlu özünütəhsil təkcə nəzəri baza deyil, həm də öyrənilən hadisələri, faktları, məlumatları təhlil etmək və ümumiləşdirmək bacarığı tələb edir. Nəticədə bu şagirdlərdə biliklərin istifadəsinə yaradıcı yanaşma bacarığı, özünün və başqalarının səhvlərindən nəticə çıxarmaq bacarığı, bilik və bacarıqların tətbiqi bacarıqlarının inkişafına səbəb olur (5).

Biologiya dərslərində şagirdlərin təhsil və idrak fəaliyyətinin yaradıcı, kəşfiyyat xarakterli olması və mümkün olduqda təhlil və ümumiləşdirmə elementlərinin daxil olması çox vacibdir. Bu və ya digər hadisənin və ya problemin öyrənilməsi prosesi bütün əlamətlərə görə tədqiqat xarakteri daşımalıdır. Bu, təhsil və idrak fəaliyyətinin gücləndirilməsinin digər mühüm prinsiplərinin inkişafına səbəb olur. Hər hansı bir təhsil prosesi üçün fərdiləşdirmə prinsipi vacibdir. Öyrənmək üçün bu prinsip müstəsna əhəmiyyət kəsb edir, çünki o, bir çox psixofizik xüsusiyyətlərə malikdir:

- şagirdlərin tərkibi (qruplaşma);
- təhsil prosesinə uyğunlaşma;
- yenini qavramaq bacarığının formalaşması və s.

Bütün bunlar biologiya dərslərində hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə alacaq yeni tədris forma və üsullarından istifadəni tələb edir. Təhsil prosesində eyni dərəcədə vacib olan özünü idarəetmə və özünü tənzimləmə mexanizmidir, yəni öz-özünə öyrənmə prinsipinin həyata keçirilməsidir. Bu prinsip hər bir şagirdin öz bilik və bacarıqlarını artırmaq və təkmilləşdirmək, müstəqil əlavə mənbələrdən istifadə etmək, məsləhətlər almaqla şəxsi fəal istəyi əsasında onun tədris və idrak fəaliyyətini fərdiləşdirməyə imkan verir. Güclü fəaliyyətin başlanğıcında əsas şey məcburiyyət deyil, şagirdin problemi həll etmək, nəyisə öyrənmək, sübut etmək, etiraz etmək istəyi olmalıdır. Biologiyanı öyrənmək təkcə flora və faunanın növ tərkibi ilə tanış olmaq, ayrı-ayrı nümayəndələri tanımaq demək deyil. Bu, çoxlu sayda anlayış və təriflərin, qanunların və qanunauyğunluqların öyrənilməsidir. Belə işi maraqlı və həyəcanlı, eyni zamanda elmi və idraklı etmək, şagirdlərin fəallığını, fənnə marağını artırmaq - müəllimin əsas vəzifəsidir (4). Bu və ya digər tədris metodunu seçərkən, ilk növbədə, məhsuldar nəticə əldə etməyə çalışmaq lazımdır. Eyni zamanda, şagirddən yalnız əldə edilmiş biliyi dərk etmək, yadda saxlamaq və təkrar istehsal etmək deyil, həm də onunla işləmək, praktik

fəaliyyətdə tətbiq etmək, inkişaf etdirmək tələb olunur, çünki öyrənmə məhsuldarlığının dərəcəsi əsasən bilikdən asılıdır. Apardığımız müşahidələr göstərir ki, ümumi təhsil səviyyəsində biologiyanın öyrənilməsi aşağıdakı məqsədlərə nail olmağa yönəldilmişdir:

- təbiət və ona xas olan nümunələr haqqında biliklərin inkişafı;
- canlı orqanizmlərin quruluşu, həyat fəaliyyəti və ətraf mühit haqqında;
- biososial varlıq kimi insan haqqında;
- insanların praktik fəaliyyətində biologiya elminin rolu haqqında;
- canlı təbiəti tanımaq üsulları haqqında;
- canlılar aləminin proses və hadisələrini, öz orqanizminin həyatını izah etmək üçün bioloji bilikləri tətbiq etmək bacarığına yiyələnmək;
- biologiya və ekologiya sahəsində müasir nailiyyətlər, sağlamlıq və risk faktorları haqqında məlumatlardan istifadə etmək;
- bioloji cihazlar, alətlər, məlumat kitabçaları ilə işləmək;
- bioloji obyektlərin və öz orqanizminin vəziyyətinin müşahidələri, bioloji təcrübələr aparmaq;
- canlı orqanizmlərin müşahidəsi, bioloji təcrübələr, müxtəlif məlumat mənbələri ilə işləmək prosesində idrak maraqlarının, intellektual və yaradıcılıq qabiliyyətlərinin inkişafı;
- vəhşi təbiətə, öz sağlamlığına və digər insanların sağlamlığına müsbət dəyərli münasibətin formalaşdırılması;
- təbiətdə davranış mədəniyyəti;
- əldə edilmiş bilik və bacarıqlardan gündəlik həyatda istifadə edərək bitkilərə, ev heyvanlarına qulluq etmək, öz sağlamlığının qayğısına qalmaq, özünə və başqalarına ilk tibbi yardım göstərmək;
- təbii mühitə, öz orqanizminə, digər insanların sağlamlığına münasibətdə fəaliyyətlərinin nəticələrinin qiymətləndirilməsi;
- ətraf mühitdə davranış qaydalarına, sağlam həyat tərzi normalarına, xəstəliklərin, xəsarətlərin və stresslərin, pis vərdişlərin qarşısının alınmasına riayət etmək.

Göründüyü kimi, biologiya dərslərində şagirdlərin idrak marağını inkişaf etdirmək üçün bioloji tapşırıqlardan istifadə edmək lazımdır. Düzdür, idrak vəzifəsi yoxdursa, düşüncə işi yoxdursa, təlim prosesində tapşırıqların qoyulması şagirdlərin fəallığını artırmaz. Şagirdlər hadisəni tədqiq edir, onun həlli yollarını axtarır, müxtəlif fərziyyələr irəli sürür, sübutlar gətirir və bu, şübhəsiz ki, məktəblilərin zehni fəaliyyətinin aktivləşməsinə, məntiqi təfəkkürün, idrak müstəqilliyinin inkişafına və nəticə etibarı ilə şəxsiyyətin formalaşmasına kömək edir və biologiyaya idrak marağının inkişafına səbəb olur. Biologiya dərslərində yeni texnologiyalara uyğun metodikanın əsas komponenti inkişaf etdirici tədrisdir. Əsas məqsəd hərtərəfli inkişaf etmiş

şəxsiyyət formalaşdırmaqdır. Bunun üçün müəllim yenilikçi və yaradıcı olmalıdır. Hazırkı tədris prosesində bir çox yeni pedaqoji texnologiyalar tətbiq edilir. Fənnlə maraqlanmaqla yanaşı, şagirdi tərbiyə etmək, ciddi düşünmək və müstəqil axtarış aparmaq üçün kifayət qədər üsullar mövcuddur. Müasir dövrdə şagirdin müxtəlif fəaliyyət növləri, o cümlədən özünüqiymətləndirmə bacarığı vasitəsilə gələcək karyerasını seçə bilməsi üçün şərait yaratmaq lazımdır.

Müasir dövrün aktual məsələlərindən biri də həyatın yaxşılaşdırılmasına töhfə verən rəqabət qabiliyyətli şəxsiyyətin formalaşdırılmasıdır. Bununla əlaqədar olaraq hər bir müəllimin şagirdə qarşı aşağıdakı tələbləri həyata keçirilməsinə səy göstərməlidir (1). Bu tələblərə aşağıdakılar daxildir:

- aktiv fəaliyyət,
- sosial məsuliyyət,
- geniş təfəkkür diapazonu,
- savadlılıq,
- idrak fəaliyyətinə marağın üstünlüyü.

Yuxarıda qeyd olunan şəxsi qabiliyyətlər öz-özlüyündə inkişaf etmir, pedaqoji şərait tələb edir. Hər bir fərdin idrak fəaliyyəti davam edən prosesdir. Məhz buna görə də məktəbdə şagirdlərin təhsili gələcək özünütəhlil və özünütəhsilinin inkişafı üçün əsasdır. Şagirdlərin davamlı təhsilə hazırlanmasının səmərəli yollarının tapılması aktual problemlərdən biridir. Şagirdin sinifdə hər bir fənnə idrak marağının dərk edilməsi fəal axtarış və tədqiqat kimi keyfiyyətlər yaradır. Şagirdlərin fənnə marağını artırmaqla onların fəal yaradıcılıq qabiliyyətlərini artırmış olarıq. Müəllimin əsas vəzifəsi uşaqları idrak fəaliyyəti ilə işləməyə öyrətməkdir. İdrak marağının əsasını düşünmə prosesi təşkil edir. İdrak marağı öyrənmə prosesinin çox vacib elementidir. Bütün fəaliyyətlərin zehni, fiziki, psixoloji və yaradıcı fəaliyyətini formalaşdırmağa kömək edir. Ümumtəhsil müəssisələrində biologiyanın öyrənilməsi həyatın qanunauyğunluqları haqqında biliklərin inkişaf etdirilməsini, planetin flora və faunasının müxtəlifliyinin öyrənilməsini, orqanizmlərin bir-biri ilə və ətraf mühitlə qarşılıqlı əlaqəsini, ekoloji təhsil və tərbiyənin formalaşdırılmasını nəzərdə tutur. Hazırda bioloji biliklərin səviyyəsi kifayət qədər yüksəkdir, ona görə də deyə bilərik ki, "Biologiya" fənninin öyrənilməsi və mənimsənilməsi onların dünyagörüşünün və ətraf aləmə münasibətinin formalaşması üçün əsasdır. Bioloji bilik insan-təbiət qarşılıqlı əlaqəsinin elmi prinsiplərinə əsaslanan anlayışlar məcmusudur, ekoloji düşüncə tərzidir. Yer kürəsində həyatın, nadir bitki və heyvanların populyasiyalarının qorunub saxlanılması, su və quru ekologiyasının qorunub saxlanılması yalnız dünya əhalisinin bioloji savadlılığı ilə mümkündür.

Məktəb biologiya fənni bioloji tədqiqatın müxtəlif üsullarının öyrənilməsini və sonradan mənimsənilməsini əhatə edir. Orta ümumtəhsil

məktəblərində biologiyanın tədrisi zamanı müşahidə, faktların əlaqələndirilməsi, eksperiment, tədqiqat subyektlərinin və obyektlərinin müəyyən edilməsi, müqayisə etmək və öz fikrini sübut etmək bacarığının inkişafı idrak fəaliyyəti ilə korelyativ əlaqə təşkil edir (6). Öyrənmə ağıl, iradə, təxəyyül və yaddaşın böyük səyini tələb edən gərgin, mürəkkəb fəaliyyətdir. Pedaqoji prosesin bütün mühüm xassələrini (ikitərəflilik, şəxsiyyətin hərtərəfli inkişafına diqqət, məzmun və prosessual aspektlərin vəhdəti) əks etdirən təlim eyni zamanda özünəməxsus keyfiyyət fərqlərinə malikdir. Gerçəkliyi şagirdin şüurunda əks etdirən mürəkkəb və çoxşaxəli, xüsusi təşkil olunmuş proses olmaqla təlim müəllimin idarə etdiyi konkret idrak prosesindən başqa bir şey deyildir. Şagirdlər tərəfindən bilik və bacarıqların tam mənimsənilməsini, onların əqli gücünün və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsini təmin edən müəllimin rəhbər roludur.

***Ədəbiyyat***

1. *Abbasov A.N., Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.s.358*
2. *Abbasov M.Ə., Təlim və tərbiyənin vəhdəti şəraitində kiçikyaşlı məktəbli şəxsiyyətinin formalaşdırılması problemi: Bakı, 2005.*
3. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlətin Strategiyası // Kurikulum, 2013, № 5*
4. *Nəzərov A., "Müasir təlim texnologiyaları" fənni üzrə proqram. Bakı, 2010 S.103*
5. *Feyziyev C.Ə., İbrahimov F.N., Bədiyev S.R. Didaktika. Bakı: Mütərcim, 2011 S.655*
6. *Belyasova N.A. Biology: Textbook. Vyshayshaya shk., 2017.-443 p.*

**H.X.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***helimezeynalova839@gmail.com***

# BİOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ MÜŞAHİDƏLƏRİN APARILMASI İLƏ ŞAGİRDLƏRDƏ TƏDQİQATÇILIQ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ

***Xülasə***

*Məqalədə, Ümumtəhsil məktəblərində biologiya fənninin tədrisi zamanı şagirdlərin tədqiqatçılıq bacarıqlarını inkişaf etdirmək məqsədilə müşahidələrin təşkilindən istifadənin səmərəliliyi əks olunmuşdur. Materialın müşahidə aparılaraq tədris edilməsinin üstünlükləri qeyd olunur. Müşahidələrin təşkili ilə bağlı müəllimlərə tövsiyyələr verilir.*

# РАЗВИТИЕ ИССЛЕДОВАТЕЛЬСКИХ НАВЫКОВ СТУДЕНТОВ ЧЕРЕЗ НАБЛЮДЕНИЯ ПРИ ПРЕПОДАВАНИИ БИОЛОГИИ

***Резюме***

*В статье отражена эффективность использования организации наблюдения в целях развития исследовательских умений учащихся при обучении биологии в общеобразовательной школе. Отмечаются преимущества наблюдательного обучения материалу. Даны рекомендации учителям по организации наблюдений.*

# DEVELOPMENT OF STUDENTS' RESEARCH SKILLS THROUGH OBSERVATIONS IN THE TEACHING OF BIOLOGY

***Summary***

*İn the article, the effectiveness of using the organization of observations in order to develop students' research skills during the teaching of biology in general schools is reflected. The advantages of observational teaching of marerial are mentioned. Recommendations are given to teachers regarding the organization of observations.*

***Açar sözlər:*** *tədqiqat, müşahidə, təcrübə, biologiya, tədris, bacarıq*

***Ключевые слова:*** *исследование, наблюдение, опыт, биология, обучение, мастерство*

***Key words:*** *research, observation, experience, biology, training, mastery*

Ümumtəhsil məktəblərində tədris olunan fənlərin əsas vəzifələrindən biri də, şagirdlərin hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasıdır. Biologiya fənn kurikulumunda, şagirdlərin məntiqi təfəkkürünün, fənlə bağlı həyati bacarıqlarının inkişaf etdirilməsi, inteqrativlik, sadədən mürəkkəbə doğru inkişaf, yeni texnologiyalardan istifadə məsələləri nəzərdə tutulur. Günümüzdə reallaşdırılmaqda olan fəal və ya interaktiv təlimin əsas məqsədlərindən biri də, müəllim-şagird, müəllim-müəllim və müəllim-valideyn qarşılıqlı əlaqəsini təmin etməkdir. Məhz belə təlimdə müəllim şagirdlərə müəyyən biliklər verməsi ilə bərabər həm də onlara öyrənməyi öyrətmək, əldə etdiyi informasiyalardan istifadə etmək bacarığını aşılamalıdır. Müəllim və şagird təlim prosesində bərabərhüquqlu üzvlərdir və müəllim bələdçi rolu ilə şagirdlərdən fərqlənir. Sinifdə hər bir şagird özünü bərabərhüquqlu şəxsiyyət kimi dərk edir, yoldaşlarını şəxsiyyət kimi görür və özünə, onlara hörmət etməyə başlayır. Bu cür təlimdə şagirdlər qarşılıqlı hörmət, əməkdaşlıq mühitində fəaliyyət göstərirlər.

Təlimdə müəllimin rolu böyükdür. Müəllim diskussiyanı idarə edir, köməkçi suallar verir, şagirdlərdə tənqidi fikirləri, öz-özünə nəzarəti, özünüqiymətləndirməni, müstəqilliyi və s. keyfiyyətləri üzə çıxarır və inkişaf etdirir.

Təcrübələr göstərir ki, təfəkkür fəaliyyətinin, fərqli fikirlərin müzakirəsi şagirdlərdə müzakirə etmək və düzgün nəticə çıxarmaq qabiliyyətini möhkəmləndirir. Dərsdə "səni öyrədirəm" yox, "biz birlikdə öyrənirik" prinsipi müəllim və şagirdlər arasında tərəfdaş, yoldaşlıq, hörmət, məhəbbət hisslərini formalaşdırır. Şəxsiyyətyönümlü təlim şagirdlərin idrak, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətlərini və fənlərə marağını artırır. Nəticədə, təlim-tərbiyə prosesində şagirdlərin fəallığını yüksəldir, psixoloji gərginliyi azaldır.

Şagirdlərin tədqiqat aparması müasir dərsin ən böyük üstünlüklərindən biri olmaqla bərabər, həm də onların axtarıcılıq bacarıqlarını inkişaf etdirir. Bu məqsədlə şagirdlərdə tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi məsələsi böyük əhəmiyyət kəsb edir. Şagirdlərdə yaradıcı təfəkkürün və tədqiqatçılıq qabiliyyətinin düzgün istiqamətdə inkişafı gələcəkdə onları böyük uğurlara aparıb çıxara bilər. Ancaq nəzərə almaq lazımdır ki, hər şagirdi tədqiqatçılığa, axtarışa cəlb etmək düzgün deyil. Tədqiqatçı şagird müstəqil olmalıdır. Şagird öz düşündüyünü sərbəst deməli, səhv olacağından çəkinməməlidir. Müstəqillik şagirdin gələcəkdə sərbəst söz, fikir demək qabiliyyətini üzə çıxarır. Bu da, fənlərin tədrisində tədqiqatçılıq imkanlarına geniş yol açır.

Şagirdlərin tədqiqatçılıq bacarıqlarının formalaşmasına kömək edən yollar və vasitələr aşağıdakılardır:

1. Canlılar üzərində müşahidələrin aparılması;
2. Şagirdlər tərəfindən təqdimat və layihələrin hazırlanması;

3. Eksperiment və ya təcrübələrin qoyulması;
4. Tanınmış alim və mütəxəssisləri tədqiqatçılıq qabiliyyəti olan şagirdlərlə işə cəlb etmək;
5. Şagirdlərin elmi cəmiyyətlərdə, intellektual klub və dərnəklərdə təmsil olunmasını təmin etmək;
6. Tədqiqatçılıq bacarığı ilə fərqlənən şagirdlərdə elmi məruzə ilə çıxış etmək, referatlar hazırlamaq, birgə elmi layihələrdə iştirak etmək vərdişləri formalaşdırılmasına əlverişli şərait yaratmaq;
7. Müəyyən edilmiş istiqamətlərdə sadə elmi araşdırmalar aparmaq, kiçikhəcmli məruzə, tezis, referat və hesabatlar hazırlamaq və s.

Biologiya dərsliklərində tədqiqatçılıq bacarıqlarının aşılanması imkanlarına malik mövzular yetərincədir. Həmin mövzuları müəyyən etmək üçün məzmun xətlərinə diqqət yetirmək əsas şərtdir. Biologiya fənni üzrə aşağıdakı məzmun xətləri müəyyən edilmişdir:

1. Canlıların quruluşu və müxtəlifliyi
2. Bioloji proseslər
3. İnsan və onun sağlamlığı
4. Canlılar və ətraf mühit

Canlıların quruluşu və müxtəlifliyi məzmun xətti üzrə şagirdlər canlıları cansızlardan fərqləndirmək, biologiyanın öyrəndiyi elm sahələrini, canlıların təşkil səviyyələrini, sistematik kateqoriyaları, canlıların funksional və inkişaf vahidi olan hüceyrənin quruluşu və kimyəvi tərkibini, hüceyrəsiz quruluşa malik olan virusların xüsusiyyətlərini müəyyənləşdirmək məqsədilə praktik təcrübələr apararaq nəticələr əldə etmək bacarığına yiyələnirlər.

Bioloji proseslər məzmun xətti üzrə şagirdlər canlılar aləmini cansızlardan fərqləndirən qidalanma, tənəffüs, maddələr mübadiləsi qıcıqlanma, böyümə, çoxalma, inkişaf, hərəkət və onların səbəblərini, irsiyyət, dəyişkənlik və onun qanunauyğunluqlarını izah edir, bakteriyalar, göbələklər, bitkilər və heyvanlara xas həyati prosesləri müqayisə etmək bacarığına yiyələnirlər. Müşahidə, eksperiment və tədqiqatlar aparmaqla canlılarda gedən həyati prosesləri öyrənir və bu proseslərə təsir edən amilləri (fiziki, kimyəvi, coğrafi, tarixi) təcrübi yolla, riyazi hesablamaların köməyi ilə təhlil edirlər.

İnsan və onun sağlamlığı məzmun xətti üzrə şagirdlər insanın psixi xüsusiyyətləri, sosial mahiyyəti ilə tanış olur, insan orqanizminin bəzi funksional anormallıqları, onu doğuran səbəblər və onların aradan qaldırılma yollarını, sağlam həyat tərzinə nail olmaq, xəstəliklər, zədələnmələr zamanı özünə və ətrafındakılara ilk yardım göstərmək, reproduktiv sağlamlığı qorumaq bacarığına yiyələnmiş olurlar.

Canlılar və ətraf mühit məzmun xətti üzrə şagirdlər canlıların bir-biri ilə və cansız aləmlə qarşılıqlı münasibətlərini müəyyənləşdirir, təbiətlə təmasda

olmaq və ondan istifadə mədəniyyətinə, ekoloji amillər və bu amillərin qarşılıqlı əlaqələri haqqında biliklərə yiyələnirlər. Əldə olunmuş bilik və bacarıqlar qlobal və regional ekoloji problemləri doğuran səbəbləri araşdırmağa imkan yaradır.

Öncədən qeyd olunduğu kimi şagirdlərdə tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi imkanları ikinci məzmun xətti olan "Bioloji proseslər"– də daha çoxdur. Müəllim tədqiqatçılığı inkişaf etdirə biləcək belə mövzuları qabaqcadan müəyyən etməli, şagirdlərin fəaliyyətini planlaşdırmalıdır. Tədqiqat işini (laboratoriya, praktk iş, təcrübə, müşahidələrin aparılması və s.) təşkil edən müəllim bir sıra şərtlərə əməl etməlidir. Beləki, iş üçün lazımlı resursları hazırlamalıdır. O, tədqiqatın gedişini şagirdlərə izah etməli, problemin həllini mövzunun izahından əvvəl və ya sonra həyata keçirəcəyini qərarlaşdırmalıdır. Müəllim mövzuya uyğun tədqiqat işini şagirdlərin yaş və bilik səviyyəsinə uyğun təşkil etməli, şagirdlərin müstəqil olaraq təcrübələri aparmasına, canlı obyektləri sərbəst müşahidə etməsinə və nəticələrin çıxarılmasına şərait yaratmalıdır.

Biologiyanın tədrisində şagirdlərin tədqiqatçı kimi yetişməsinə zəmin yaradan yollardan biri də, canlılar üzərində müşahidələrin aparılması, onlar arasında oxşar və fərqli əlamətlərin müəyyən edilməsidir. Müşahidə şagirdlərdə intellektual təsəvvürləri formalaşdırır. Müəllim tədris olunacaq mövzu ilə bağlı əyaniliyi hazırlayır və onları şagirdlərin müşahidə etməsi üçün imkan yaradır. Tədris prosesində müşahidə iki cür həm təbii obyekt və hadisələr: bitki, heyvan, faydalı qazıntılar, torpaq və s. üzərində, həm də simvolik olaraq fotolar, şəkillər, kinolar, heykəllər, xəritələr, disklər və başqaları üzərində təşkil oluna bilər. Məhz sadalanan vasitələrin üzərində müşahidələrin aparılması şagirdlərdə müəyyən obyekt və ya hadisə haqqında dəqiq təsəvvür yaradır, xarici quruluş və xüsusiyyətlər haqqında məlumat ötürülməsini təmin edir. Təbiət obyektləri üzərində müşahidə qısamüddətli və ya uzunmüddətli olur. Əgər müşahidə konkret proseslərin üzərində aparılarsa, buna qısa müddətli müşahidə (sinifdə şəkil, texniki vasitələr üzərində və s.), şagirdin təbiət hadisələri ilə birbaşa əlaqəsi ilə təşkil edilən müşahidələr isə uzunmüddətli olur. Uzunmüddətli müşahidələrə, toxumun cücərməsi, çiçəyin açılması, quşların yuva qurması, arıların bal qoyması, kəpənəyin dolayı yolla çoxalması kimi prosesləri misal göstərə bilərik.

Müşahidə çox mürəkkəb proses olmaqla yanaşı, həm də, çox şüurlu sürətdə təşkil olunmuş qavrayışdır. Müşahidə həmişə qarşıya müəyyən məqsəd qoymaqla bağlıdır. Bunun üçün ilk növbədə obyektin müəyyənləşdirilməsi və onda hansı cəhətlərin şagirdlərə öyrənilməsi dəqiqləşdirilməlidir.

Yeni proqramın tələbinə görə təbiət hadisələri üzərində müşahidə aparmaq sinif şagirdlərinin gündəlik idrak fəaliyyətinin ayrılmaz hissəsi

olmalıdır. Müşahidə olmadan şagirdlər səma, torpaq, su, bitkilər, bərk cisimlər, insanların əmək alətləri, əmək fəaliyyətləri və s. haqqında lazımi bilik əldə edə bilməzlər. Müşahidə zamanı şagirdlərin fəallığını təmin etmək də zəruridir. Onların fəallığı, əsasən, iki şəkildə özünü büruzə verir: bunlardan biri fikri fəallıqdır. Fikri fəallıq prosesində müxtəlif müqayisələrdən, tutuşdurmalardan, ümumiləşdirmələrdən geniş istifadə edilir. Hərəki fəallıq zamanı isə şagird cisimlə əməlli surətdə təmasda olmağa meyil edir; məsələn, əgər müşahidə obyekti mexanizmdirsə, onu hərəkətə gətirməyə, işləmə prinsipini öyrənməyə, onun hissələrinin, bu hissələr arasındakı münasibəti və s. müəyyən etməyə çalışır.

Bioloji proseslərə dair mövzuların şagirdlərə müşahidə metodu ilə öyrədilməsi yüksək səmərə verir. Məsələn 6-cı sinifdə “Bitkilərin havadan qidalanması. Fotosintez” mövzusu şagirdlərə şifahi şərh metodu ilə nə qədər səmərəli tədris olunsa da, həmin mövzunu ona dair təcrübə və müşahidələr aparılmadan mənimsəmək və dərk etmək qeyri mümkündür. Dərslikdə həmin mövzudakı “İşıqda nişastanın əmələ gəlməsi” təcrübəsi asağıdakı kimi verilir:

Təchizat: otaq bitkisi (məsələn, primula və ya ətirşah), qara kağız, lampa, spirt məhlulu, qaynar su, yod məhlulu, Petri fincanı, pinset.

Hazırlıq: Bitkini 2-3 gün qaranlıqda saxlayın. Sonra onun bir yarpağını hər iki tərəfdən qara kağızla elə örtün ki, onun yalnız müəyyən hissəsi görünsün (qara kağızı yarpağın üzərinə bağlamazdan qabaq hər hansı bir fiqur da kəsmək olar). Bitkini 8-10 saat günəş və ya lampa işığında saxlayın.

İşin gedişi: Tədqiq olunan yarpağı qoparın və qara kağızı çıxarın. Onun hansı hissəsində nişastanın yarandığını müəyyən etmək üçün əvvəl qaynar suya salın. Sonra yarpağı spirtə salın. Müşahidələrinizi qeyd edin. Yarpağı suda yuyun və üzərinə zəif yod məhlulu əlavə edin.

Nəticəni müzakirə edək: Yarpağın işıqda olan hissələri ilə kağızla örtülü hissəsi necə fərqlənir? Bunu necə izah edə bilərsiniz? Şagirdlərə işıqda tənəffüs ilə yanaşı fotosintezin getməsi və üzvi maddə nişastanın yaranması, qaranlıqda isə yalnız tənəffüs prosesinin getməsi nəzəri məlumatları verilmiş olsa da, nəticə olaraq müşahidə yolu ilə həmin məlumatlar onların beyninə həkk olunmuş olur. Qaranlıqda isə sadəcə üzvi maddənin sərf olunması həqiqətini dərk edirlər.

Misal olaraq göstərmək olar ki, müəllim biologiya 8-ci sinifdə tədris olunan “Həşəratların müxtəlifliyi və təbiətdə rolu” dərsinə dair müşahidə təşkil edə bilər. Beləki pulcuqqanadlılar dəstəsinin nümayəndəsi olan kəpənəyin dolayı yolla çoxalması prosesini sinifdə göstərmək olar. Müəllim çoxalmanı həm video şəklində nümayiş etdirər, həm də, kəpənəyi, pupu, onun sürfəsini sinifə gətirib şagirdlərə göstərə bilər. Sonda şagirdlər belə nəticəyə gəlir ki,

kəpənəklər dörd inkişaf mərhələsi keçirirlər: yumurta, sürfə, pup və yetkin mərhələ. Yumurta – inkişafın ilk mərhələsidir. Kəpənəklər müxtəlif miqdarda yumurta qoyurlar. Sürfə – sərbəst həyat tərzi keçirir. Aktiv qidalanır və sonrakı mərhələ üçün ehtiyat qida maddəsi toplayır. Bir neçə dəfə qabıq dəyişərək böyüyür. Yetkin fərd – pupdan çıxan yetkin fərd bir neçə gündən sonra cinsi yetkinliyə çatır və çoxalmağa başlayır. Çoxalmadan asılı olaraq bir neçə gün (və ya həftə) yaşayır. Pup – sonuncu qabıqdəyişmədən sonra sürfə pupa çevrilir. Pup aktiv qidalanmır və hərəkət etmir. Bu dövrdə sürfənin orqan və toxumaları dəyişilərək yetkin fərdə oxşayır.

6-cı sinif şagirdlərində tədqiqat bacarıqlarının inkişaf etdirilməsi üçün bitkinin gövdəsinin böyümə və inkişafına dair bir neçə təcrübə aparmaq faydalıdır. Məsələn, müəllim tumurcuğun inkişafının müşahidə edilməsi təcrübəsini qoya bilər. Bunun üçün iki şüşə qabın içərisinə su tökülür. Çin qızılgülünün 2-3 cavan budaqları suya qoyulur. Suyun içərisində olan hissədən tumurcuqları qoparıb ehtiyyatla yarırıq. Alınan obyekt böyüdücü şüşə altında gözdən keçirilir. Bir neçə gündən sonra gövdə üzərində qalan tumurcuqlar da müşahidə edilir. Onları yarıb hissələrində nə kimi dəyişikliklərin olduğu müəyyənləşdirilir. Kəsiklərdə tumurcuqların şişməsi pulcuqların açılması nəzərə çatdırılır. Tumurcuğun inkişafını nəzərdən keçirir, müşahidə nəticələrini qeyd edirlər.

Şagirdlər yeni ikinci təcrübədə gövdədə suyun və mineral maddələrin hərəkəti müşahidə edilir. Məktəbin şəraiti, mövzunun tədrisində vaxt nəzərə alınaraq təcrübə başqa variantda təşkil edilir. Limon bitkisindən 9-11 sm uzunluğunda çilik, bənövşə, qloksiniya çiçəkləri, iki kiçik şüşə, ağ və qırmızı mürəkkəb götürülür, şüşəyə təmiz su tökülür, tünd qırmızı rəng alınana qədər ona qırmızı boyaq və ya qırmızı mürəkkəb əlavə edilir. İki-üç bənövşə gülü çiliyinin saplağı və ucu kəsilərək çiçəyi şüşədəki qırmızı suya qoyulur. 4-5 saatdan sonra ağ ləçəklərdə damarların qırmızı rəng aldığı aydın nəzərə çarpır. Şagirdlər bunun səbəbini araşdırır və suyun bitkidə hərəkəti ilə izah edirlər. Eyni qayda ilə qloksiniya bitkisinin cavan budağı kəsilir, rəngli suya qoyulur. 10-15 dəqiqədən sonra budaq işığa tutulur, ona diqqətlə baxılır, qırmızı suyun damarlarla yuxarıya doğru hərəkəti müşahidə edilir. Şagirdlər prosesi müşahidə edir və nəticə çıxarırlar ki, su bitkinin gövdəsi ilə yuxarıya hərəkət edir, buna səbəb kök təzyiqinin olmasıdır.

Müəllim fəal təlim metodlarının tədqiqatçılıq metodları qrupuna daxil olan texnikalardan istifadə etməklədə sadə müşahidələr təşkil edə bilər. Məsələn, biologiya 6-cı sinifdə tədris olunan ibtidai yosunları keçərkən xlomidimonada və xlorellanı müqayisəli təhlil etmək üçün venn diaqramından istifadə edir. Bu zaman xlorella və xlomidimonadanın rəsmlərini (elektron və ya plakat) şagirdlərə göstərir və tapşırır ki, şəkillərdəki canlıları müşahidə edib,

müqayisəli təhlil aparsınlar və onlar arasındakı oxşar və fərqli cəhətləri venn diaqramında yazsınlar. Bu misal bir daha sübut edir ki, istər tam istərsədə sadə qısamüddətli müşahidələr tədqiqatın vacib tərkib hissəsidir.

Biologiyanın tədrisində şagirdlər belə təcrübələr aparmaqla, alınan nəticələrin səbəblərini araşdırır, təhlil edir və tədqiqatçılıq bacarıqları əldə edirlər. Dərslərdə müxtəlif fəaliyyət işlərinin təşkili canlılarda baş verən bioloji proseslərin şagirdlər tərəfindən dərindən dərk olunmasına, onların yaxından müşahidə edilməsinə imkan yaranır. Bu isə təlimin keyfiyyətinə əsaslı təsir göstərir, şagirdlərdə tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir.

***Ədəbiyyat***

1. *Orucov F.M. "Biologiya dərslərində şagirdlərdə tədqiqatçılıq bacarığının inkişaf etdirilməsi yolları", Bakı 2011*
2. *"Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənni üzrə təhsil proqramı (kurikulumu)" Bakı, 2013*
3. *Hacıyeva H. "Biologiyanın tədrisi metodikasından mühazirələr"*
4. *Seyidli Yaşar və b. Biologiya 6 Bakı, 2017*
5. *Seyidli Yaşar və b. Biologiya 7 Bakı, 2017*
6. *Məmmədova N. Biologiya 8 Bakı, 2017*
7. *İnternet araşdırmaları*

**S.Ə.Məmmədzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mammadovr00@gmail.com***

# VI SİNİF BİOLOGİYA DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN BİLİK VƏ BACARIQLARIN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ TEST ÜSULUNDAN İSTİFADƏ

***Xülasə***

*Məqalədə test üsulunun yaranma tarixi və testlərin müxtəlif növləri nəzərdən keçirilmişdir. Eləcə də Azərbaycan Respublikasının ümumi orta və tam orta təhsil müəssisələrində şagirdlərin bilik və bacarıqların qiymətləndirilməsində əsas üsul kimi testlərdən istifadə olunduğuna toxunulmuşdur. Təhsildə testlərin müsbət və mənfi cəhətləri dəyərləndirilmişdir. VI sinif Biologiya fənninin tədrisi zamanı şagirdlərin bilik və bacarıq səviyyələrini yoxlamaq məqsədilə istifadə oluna biləcək test nümunələri verilmişdir.*

# ИСПОЛЬЗОВАНИЕ ТЕСТОВОГО МЕТОДА В ОЦЕНКЕ ЗНАНИЙ И УМЕНИЙ УЧАЩИХСЯ НА УРОКАХ БИОЛОГИИ VI КЛАССА

***Резюме***

*В статье рассмотрена история метода испытаний и различные виды испытаний. Также было отмечено, что тесты используются в качестве основного метода оценки знаний и умений учащихся в общеобразовательных средних и полных средних учебных заведениях Азербайджанской Республики. Оценены положительные и отрицательные стороны тестов в образовании. Приведены примеры тестов, которые можно использовать для проверки уровня знаний и умений учащихся при преподавании предмета «Биология» в VI классе.*

# USİNG THE TEST METHOD İN THE EVALUATİON OF STUDENTS' KNOWLEDGE AND SKİLLS İN VI CLASS BİOLOGY CLASSES

***Summary***

*The history of the test method and different types of tests were reviewed in the article, also, it was mentioned that tests are used as the main method for evaluating students' knowledge and skills in general secondary and full secondary educational institutions of the Republic of Azerbaijan. The positive and negative aspects of tests in education have been evaluated. Examples of tests that can be used to check the knowledge and skill levels of students during the teaching of VI class Biology subject are provided.*

***Açar sözlər:*** *test, biologiya, qiymətləndirmə, summativ, uyğunluğu müəyyənləşdirən test, şəkilə əsaslanan test*
***Ключевые слова:*** *тест, биология, оценка, сумматив, тест на соответствие, тест-рисунки*
***Key words:*** *test, biology, assessment, summative, matching test, picture test*

Təhsil sistemində təlimin keyfiyyətinin müəyyənləşdirilməsində mühüm göstərici şagirdlərin təlim nailiyyətləridir. Qiymətləndirmə isə onu həyata keçirən əsas etibarlı vasitədir. Təlim prosesinin inkişaf etdirilməsində, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsində də qiymətləndirmə bir mexanizm kimi əvəzolunmaz bir mövqe tutur.

Müasir qiymətləndirmə sistemi təhsildə müsbət dəyişikliklərin aparılmasına, "şagirdin təlim nəticələri" haqqında etibarlı məlumata malik olmağa, fənn kurikulumlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılmasına, məntiqi təfəkkür vərdişlərinin inkişafına təkan verir.

Qiymətləndirmənin həyata keçirilməsi üçün müasir tələblərə cavab verən ən etibarlı vasitə son illərdə dünyanın əksər ölkələrində daha geniş tətbiq edilən test üsulundan istifadə olunmasıdır. Test üsulu ilə bilik və bacarıqların qiymətləndirilməsi daha keyfiyyətli, obyektiv və ədalətli üsulu olub, bərabər şərt qoymaqla subyektivliyi praktik olaraq aradan qaldırır.

"Test" ingilis sözü olub yoxlama, sınaq, ölçü, meyar deməkdir. Test müəyyən zaman dilimi daxilində, çətinlik dərəcəsi getdikcə artan tapşırıqların şagirdlərin bilik və bacarıqların ölçmə vasitəsidir. Testlər ənənəvi qiymətləndirmə formalarını istisna etmir, lakin onlarla birlikdə tədris prosesini inkişaf etdirməyə imkan verir, çünki nəzarətlə eyni vaxtda onlar şagirdlərin biliklərindəki boşluqları müəyyənləşdirir, biliklərin yoxlanmasına sərf olunan vaxtı azaldır və fərdi öyrənmə tempini müəyyən etməyə kömək edir.

Testlərin yaranma tarixi eramızdan əvvəl III əsrə təsadüf edir. Belə ki, qədim zamanlarda Şərq ölkələrində dövlət məmurların işə alınmasında intellekt əsaslı yoxlama sınaqlardan istifadə olunub. İlk dəfə 1864–cü ildə Böyük Britaniyada şagirdlərin bilik və bacarıqların qiymətləndirilməsində istifadə olunub. Testologiya - test nəzəriyyəsi və praktikası haqqında elmdir. Testlər pedaqoji və psixoloji olmaqla iki yerə ayrılır. Pedaqoji test məktəblərdə tədris olunan fənlərdən şagirdlərin bilik bacarıq səviyyələrini yoxlamaq məqsədilə istifadə olunur. Pedaqoji testin inkişafı amerikalı psixoloq E.Tordnike bağlıdır. Tordnike pedoqoji ölçülərin banisi hesab olunur. Psixoloji testlər isə insanların intellektual səviyyələrini ölçmək üçün istifadə olunur. Psixoloji testlərin banisi A.Binedir.




Azərbaycan Respublikasının ümumi orta və tam orta təhsil müəssisələrində şagirdlərin tədris olunmuş materialın mənimsəmə səviyyəsini yoxlamaq məqsədilə qiymətləndirmədən istifadə olunur. Qiymətləndirmə 3 əsas istiqamətdə aparılır: *məktəbdaxili, milli və beynəlxalq*. Təhsil müəsissələrində məktəbdaxili qiymətləndirmə summativ *(KSQ, BSQ, YSQ)*, formativ və diaqnostik qiymətləndirmə olaraq 3 qrupa ayrılır.

*Diaqnostik qiymətləndirmə* təlimin müəyyən bir mərhələsində şagirdin bilik və bacarıqlarını ilkin səviyyəsini müəyyənləşdirmək məqsədilə aparılır. İlkin səviyyənin müəyyənləşdirilməsi müəllimlərə dərsin planlaşdırılmasında yardımçı olur.

*Formativ qiymətləndirmə* ənənəvi qiymətləndirmədən fərqli olaraq konkret gündəlik rəqəmlər əvəzinə rum rəqəmləri yazılır ki, şagird nailiyyətləri daim izlənilsin.

*Summativ qiymətləndirmə* də şagirdlərin bilik və bacarıqlarını müəyyən bir tədris vahidi üzrə qiymətləndirilir. Summativ qiymətləndirmənin nəticəsində yarımillik və illik qiymətlər yazılır. Summativ qiymətləndirmədə şagird nailiyyətlərini, bilik və bacarıqlarını qiymətləndirmək məqsədi ilə əsasən testlərdən istifadə olunur.

Test üsulunun müsbət və mənfi cəhətləri vardır.

Müsbət cəhətlər:

- *Test qiymətləndirmənin daha obyektiv və ədalətli üsuludur. Bütün şagirdlərin qarşısında bərabər şərt qoymaqla, subyektivliyə son qoyur.*
- *Test tədris materialında mühüm anlayışların mənimsəmə səviyyəsini aşkara çıxarır.*
- *Testlər tədris vahidini təşkil edən mövzuların hər birini qiymətləndirməyə imkan verir.*
- *Bütün şagirdlərə eyni şəraiti yaradır.*
- *Eyni vaxtda qiymətləndirmə aparılırmasını təmin edir ki, buda şagirdlərdə bütün dərslərə vaxtında hazırlaşmaq üçün motivasiya verir.*
- *Şagirdlərlə işin fərdiləşməsinə imkan yaradır.*

- *Tədris vaxtına qənaət olunur.*

Mənfi cəhətlər:

- *Cavab seçimi təsadüfü ola bilər, müəllim şagirdin cavabını hansı əsaslarla verdiyini bilmir.*
- *Test şagirdlərin şifahi və yazılı nitqinə mənfi təsir göstərir.*
- *Keyfiyyətli testin tərtibi uzun vaxt tələb edir.*

VI sinif dərsliyi 4 fəsil, 8 tədris vahidi və 54 mövzudan ibarətdir. Hər tədris vahidinin sonunda müəllim şagirdlərinə kiçik summativ qiymətləndirmə (KSQ), yarım il sonunda isə böyük summativ qiymətləndirmə (BSQ) keçirilir. Biologiyanın tədrisində aşağıdakı test tapşırıqlarından istifadə olunur:

**1. Ümumiləşdirici test tapşırıqları**

Hüceyrə haqqında səhv mülahizəni seçin.

a) Hüceyrələr nüvə, sitoplazma və qlafdan təşkil olunmuşdur.
b) Hüceyrəsiz orqanizmlərə eukariotlar deyilir.
c) Plastidlər yalnız bitki hüceyrələrində olur.
d) Vakuolun içərisində hüceyrə şirəsi vardır.
e) Rəngsiz plastidlər leykoplastlar adlanır.

**2. Ardıcıllığı müəyyənləşdirən test tapışırıqları**

Mitoz bölünmə mərhələlərinin düzgün ardıcıllığını tapın.

1. 
2. 
3. 
4. 
5. 
6. 

a) 3,4,1,5,2,6
b) 2,1,3,4,5,6
c) 2,4,1,5,3,6
d) 6,4,3,1,2,5
e) 5,6,2,1,4,3

**3. Uyğunluğu müəyyənləşdirən test tapşırıqlar**

Uyğunluğu müəyyən edin.

- **Əsas kök**
- **Əlavə kök**
- **Yan kök**

- **Gövdə**
- **Rüşeym kökcüyü**
- **yarpaqlar**
- **Əsas kök**
- **Əlavə kök**

a)



b)



e)



c)



d)



**4. Hesablama tələb edən test tapşırıqları**

| Başlanğıc bakteriya sayı | Zaman | Əlverişli şəraitdə yaranan nəsil sayı |
|---|---|---|
| 3 | 3 saat | n |

a) 9 b) 10 c) 8 d) 12 e) 2

**5. Şəkillərə əsaslanan test tapşırıqları**
5 rəqəmi ilə işarələnmiş qatı tapın.




a) Mantar
b) Floema
c) Oduncaq
d) Özək şüaları
e) Qabıq

**6. Terminlərə əsaslanan test tapşırıqları**
Uyğunsuzluğu müəyyən edin.

a) "Bios" – həyat
b) "Mykos" – göbələk
c) "Zoon" – heyvan
d) "Oikos" – bitki
e) "botane" – göyərti

Belə demək olar ki, məktəblərdə şagirdlərin biologiya fənninin tədrisi zamanı əldə etdiyi bilik və bacarıqlarını qiymətləndirilməsində testlərin əvəz olunmaz rolu var. Test üsulunun əsas üstün cəhəti yalnız bir neçə mövzunu deyil, bütün tədris vahidini əhatə edir. Test üsulu həmçinin vaxt itkisinin qarşısını alır. Biologiyada istifadə olunan testlər şagirdlərdə biologiya fənni üzrə lazımlı biliklərin qiymətləndirilməsini təmin edir. Testlərin bir qismi isə şagirdlərin təxəyyül və təfəkkürünün inkişaf etdirilməsində böyük rol oynayır. Bu tipli testlər şəkil, diaqram və cədvəllərlə olan test tapşırıqlarıdır. Şagirdlərin bu tipli test tapşırıqlarını həll etməsi onlarda obyektləri tanımağa və onlar arasında əlaqə yaratmaq, eləcə də müşahidə etmək qabiliyyətlərini nə dərəcədə formalaşdığını yoxlamaq üçün ideal vasitədir.

***Ədəbiyyat***

1. *Аванесов В.С. Тест как педагогическая система / Аванесов В.С Педагогические измерения. – 2007. - №1*
2. *Аванесов В.С. Композиция тестовых заданий. – М., Центр тестирования, 2002.*
3. *Аванесов В.С. Теоретические основы разработки заданий в тестовой форме. – М., 2005.*
4. *Челышкова М.Б. Теория и практика конструирования педагогических тестов: учебное пособие / М. Б. Челышкова. - М. : Логос, 2002.*
5. *Azərbaycan Respublikasının ümumtəhsil sistemində qiymətləndirmə konsepsiyası. Bakı "Kurikulum" jurnalı, 2009, №2, səh. 138 – 150*

**A.V.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aynuraabdullayeva1999@gmail.com***

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN VI SİNİFLƏRİNDƏ BİOLOGİYA DƏRSLƏRİNİN İLLÜSTRASİYALAR ƏSASINDA TƏŞKİLİ

**_Xülasə_**

*Məqalədə ümumtəhsil məktəblərinin altıncı siniflərində biologiya dərslərində illüstrasiya materiallarından istifadə etməklə dərslərin təşkili açıqlanır. İllüstrativ materiallardan istifadə böyük üstünlüyə malikdir. Dərslikdə istifadə olunan illüstrasiyalar şagirdlərin fikirlərində çatışmayan halqaları doldurur. Qeyd olunur ki, altıncı siniflər istənilən mövzunu tədris edən zaman müxtəlif, rəngarəng illüstrasiyalardan düzgün istifadə etmək imkanları genişdir. Məqalədə altıncı sinif biologiya dərslərində istifadə olunan illüstrasiyalarla bağlı nümunələr göstərilir və izah olunur.*

# ОРГАНИЗАЦИЯ УРОКОВ БИОЛОГИИ В VI КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ НА ОСНОВЕ ИЛЛЮСТРАЦИИ

**_Резюме_**

*В статье описывается организация уроков с использованием иллюстративных материалов на уроках биологии в шестом классе общеобразовательной школы. Большое преимущество имеет использование иллюстративных материалов. Иллюстрации, использованные в учебнике, заполняют пробелы в представлениях учащихся. Отмечено, что при обучении шестиклассников какому-либо предмету имеется множество возможностей правильно использовать разные, красочные иллюстрации. В статье показаны и объяснены примеры использования иллюстраций на уроках биологии в шестом классе.*

# ORGANIZATION OF BIOLOGY LESSONS IN VI CLASSES OF GENERAL EDUCATION SCHOOLS BASED ON ILLUSTRATIONS

**_Summary_**

*The article describes the organization of lessons using illustration materials in biology lessons in the sixth grade of secondary schools. The use of illustrative materials has a great advantage. The illustrations used in the textbook fill the gaps in the students' ideas. It is noted that when the sixth graders teach any subject, there are many opportunities to use different, colorful illustrations correctly. The article shows and explains examples of illustrations used in sixth grade biology lessons.*

***Açar sözlər:*** *kurikulum, illüstrasiya, dərslik, fəaliyyət, obyekt, tədris, əyani, audiovizual, rəsm*

***Ключевые слова:*** *учебный план, иллюстрация, учебник, деятельность, предмет, обучение, наглядность, аудиовизуальность, рисование*

***Key words:*** *curriculum, illustration, textbook, activity, object, teaching, visual, audiovisual, drawing*

Müasir dövrümüzdə bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də inkişaf özünü qabarıq şəkildə göstərir. Təhsil sahəsində bu inkişafın əsas səbəblərindən biri ölkəmizdə kurikulumun (proqram) tətbiq olunmasıdır. 90-cı illərin axırlarından başlayaraq kurikulum (proqram) ölkəmizdə tətbiq olunur. Bu proqram əsasında keçirilən dərslər öz aktuallığına görə seçilir. Biologiya dərslərində əyani materiallardan, illüstrasiyalardan istifadə imkanları daha genişdir. Belə bir sual qarşıya çıxır. İllüstrasiya nədir?

"İllüstrasiya" latın sözü olan "illustratio" sözündən götürülüb, mənası "təsviri incəsənət, işıqlandırma, əyani təsvir" kimi qeyd olunur. "İllüstrasiya" sözünün mənşəyi Orta İngilis dilindəndir ("maarifləndirmə, mənəvi və ya intellektual maarifləndirmə" mənasında). İllüstrasiya – kitab, jurnal, dissertasiya və s. kimi olan nəşrlərdə mətnlə bağlı şəkillər, hər hansı bir kitabın mətni ilə əlaqədar olan və eyni zamanda bu mətnin izahına kömək edən şəkil, mətni adətən müşaiət edən və onu tamamlayan təsvirdir. Yəni bunlar fotoşəkil, rəsm, sxem, xəritə və s. ola bilərlər.

İllüstrasiyalar, əsasən, kitabda təsvir olunan obyektləri nümayiş etdirmək (botanika illüstrasiya), texniki sənədlərdə addım-addım təlimatları göstərmək (texniki illüstrasiya) üçün xidmət göstərir. Eyni zamanda dərslikdə verilən mürəkkəb anlayışları, mətnlə təsvir edilməsi bir qədər çətin olan obyektləri aydınlaşdırmaq üçün uyğun illüstrasiyalardan istifadə edə bilərik.

İllüstrasiyalar öyrənmədə təsirlidirsə, onların mürəkkəbliyi də müəyyən dərəcədə olmalıdır. İddia oluna bilər ki, diaqram nə qədər dəqiq olsa, bir o qədər mürəkkəb olacaqdır. Adətən, yaxşı illüstrasiya yaxşı nəsrə çox bənzəyir. Belə ki, yaxşı illüstrasiyadan daha çox insan yaxşı nəsri tanıya bilir. Şifahi savadın öyrədilməsinə xeyli səy sərf olunur, lakin vizual savadlılıq azdır.

İllüstrasiya növlərinin təsnifatı ilə bağlı müxtəlif fikirlər vardır. Məsələn, bəzi pedaqoqlar illustrasiyaları beş növə qruplaşdırmışdır: dekorativ, təmsil, təşkilati, şərh və transformasiya. Eyni zamanda müəllim illüstrasiyaları funksional qruplara ayıra bilməklə, sinifdə illüstrasiyadan necə istifadə edəcəyini və ya dərsliyin müəllifləri illüstrasiyaların kitaba nə dərəcədə daxil edildiyini müəyyən edə bilər.

Dərsliyin illüstrasiyaları şagirdlərin fikirlərində çatışmayan halqaları doldurur. Eyni zamanda illüstrasiyalar dərslikdə olan mətnin daha dərindən və

şüurlu mənimsənilməsi üçün lazım olan obrazları məhz cəlb etməyə imkan verir. İllüstrasiyalar şagirdlərin ideya dairəsini zənginləşdirir, bununla yanaşı, dərslikdə təqdim olunan tədris materialının şüurlu mənimsənilməsinə kömək edir, əqli fəaliyyətin fəallığını artırır. Aparıcı illüstrasiyalar vardır ki, bunlar əsas mətni (məntiq diaqramları və s.) əsasən əvəz edərək, tədris materialının məzmununu açıq şəkildə ortaya qoyur. Ekvivalent illüstrasiyalar isə əsas mətnlə bərabər tədris materialının daha dərin və effektiv mənimsənilməsinə xidmət edir. İllüstrasiya ilə mətn arasındakı əlaqə forması illüstrasiyalardan istifadəni şərtləndirən ən mühüm şərtdir. İllüstrasiya ilə mətn arasındakı əlaqənin xarakteri hər bir illüstrasiya növünün didaktik imkanlarını açır və onlardan istifadə metodologiyasını əsaslandırmağa imkan verir.

İllüstrasiyalar şagirdlərin zehni fəaliyyətinin aktivləşməsinə kömək edir və tədris olunan materialın mənəvi təsirini artırır. Demek olar ki, hər bir ümumtəhsil məktəblərinin biologiya kursu dərsliklərdən istifadə edir. Biologiya dərsliklərinin tədqiqi isə illüstrasiyaların biologiyanın öyrənilməsinə təsirinin qiymətləndirilməsi üçün yaxşı başlanğıc nöqtəsidir.

İllüstrasiyalar biologiya öyrənmə təcrübəsinin vacib bir hissəsinə çevrilmişdir. Adətən biologiya dərsliklərində, tədris audiovizual mediasında və hətta sinif otağının divar örtüklərini əhatə edən qrafiklər, diaqramlar, sxemlər, fotoşəkillər, illüstrasiyalar var. Son dövrlərdə illüstrasiyalar həm tədris, həm də öyrənmə strategiyalarında çox geniş istifadə olunur. Bunuda qeyd etmək lazımdır ki, illüstrasiyaların işlənib hazırlanması və istifadəsi biologiyanın öyrənilməsinin başa düşülməsinə və irəliləməsinə əhəmiyyətli dərəcədə kömək edə bilər.

Biologiyanin tədrisinin ilk mərhələlərində obyektlərin və proseslərin tanınması üçün illüstrasiyalardan istifadə etmək məqsədəuyğundur. Biologiya dərsliklərində fiqurlarda təsvir olunan obyektlərin adları verilir. Rəsmlər üçün olan tapşırıqlarıda diqqətlə nəzərdən keçirmək lazımdır.

İllüstrasiyalarla işləmək təbii obyektləri nümayiş etdirmək və praktik tapşırıqları yerinə yetirmək səmərəliliyini artıracaq. İllüstrasiyalardan işləyərkən ən çox məlumat əldə etmək üçün şagirdlərə onların başlıqlarından, simvollarından istifadə etməyi öyrətmək vacibdir. Müasir dövrdə dərsliklərdə verilən rəqəmlərə diqqət yetirməmək mümkün deyil, onlardan tədris prosesində geniş istifadə edilməsi məqsədəuyğundur. Buna əsasən də şagirdlərə rəsmlər, simvollarla işləmək bacarığının öyrədilməsi xüsusilə vacibdir. Bu onlar üçün bir o qədərdə çətin deyil.

Biologiya dərslikləri illüstrasiyalarla zəngindir. Məsələn, altıncı siniflərdə istənilən mövzunun tədrisi zamanı, mövzumuza uyğun illüstrasiyalardan istifadə etmək imkanımız vardır. Bu dərslikdə müxtəlif mövzulara uyğun rəngarəng rəsmlərdən, sxemlərdən və s.-dən geniş istifadə

olunmuşdur. Çünki, bununlada mövzunun mətnində verilən anlayışlar illüstrasiyalarla daha da zənginləşir. Altıncı sinifdə dərslər daha çox biologiyaya aid olan ümumi məlumatlardan və bitkilər üzərində qurulur. Bitkilərin müxtəlif orqanları, insan üçün əhəmiyyətləri, zərərləri və s. haqqında məlumat verilir. Nümunələrlə izah edək:

Altıncı sinifdə **"Çiçək qrupları"** mövzusunu tədris edən zaman, dərsin motivasiya mərhələsində bir sıra illüstrasiyalardan istifadə edə bilərik. Məsələn:

**Motivasiya:** Lövhəyə üzərində müxtəlif çiçək qruplarına uyğun çiçəklərin rəsmləri olan plakatlar asılır. Bir plakatda sadəcə sadə çiçək qrupuna uyğun, digərində isə mürəkkəb çiçək qrupuna aid olan rəsmlər qeyd olunmuşdur. Məsələn, rəsmlərdən üçünü göstərək.


**Quşəppəyi**


**Yasəmən**


**İnciçiçəyi**

Daha sonra şagirdlərə belə bir sual verilir ki, sizcə, bu çiçəklərin fərqi nədir? Bu çiçəklərin oxşarlığı nədir?

Beləliklə, motivasiyamızı rəsmlərdən istifadə edib, qurarkən şagirdlər sadə və mürəkkəb çətir qruplarının bir-birindən fərqini və yaxud oxşarlığını aydın bir formada ayırd edə bilərlər.

Altıncı sinifdə **"Yarpağın xarici quruluşu. Yarpaqların düzülüşü"** mövzusuna dərsimizi təşkil edən zaman illüstrasiyalardan istifadə edə bilərik. Belə ki, **motivasiya** mərhələsində şagirdlərə bir tabloda üzərində sadə və mürəkkəb yarpaqlara nümunələr digərində isə yarpaq damarlanmasına uyğun tablolar göstərilir. Sual verilir. Bunların bir-birindən fərqi nələrdir?

Şagirdlər gördükləri lələkvari, barmaqvari, üçər yarpaqları eyni zamanda paralel, qövsvari, torvari damarlanmanıda bir-birindən fərqləndirməyi bacarırlar. **"Dərman bitkiləri"** mövzusuna uyğun dərs təşkil edən zaman şəkillərdən istifadə edərək motivasiya mərhələsini qura bilərik. Bu zaman rəsmlərdə mədəni dərman və zəhərli dərman bitkilərin şəkilləri tablolarda göstərilir. **Dərman bitkisi** kimi: itburnu, nanə, kəklikotu; **Zəhərli dərman bitkisi** kimi: dəlibəng, murdarça, quşüzümü verilir. Şagirdlərə sual verilir. Bu bitkiləri biz nə üçün istifadə edirik? Bunların bir-birindən fərqi nələrdir?



**İtburnu**



**Murdarça**

Bu zaman şagirdlər rəsmləri diqqətlə nəzərdən keçirdikdən sonra onlar artıq bir plakatda dərman məqsədi ilə istifadə olunan bitkilərin digərində isə insan üçün zərərli olan bitkilərin rəsmin olduğunu aydınlaşdırırlar.

Qeyd edilən mövzularla yanaşı altıncı sinif biologiya dərsliyində bir sıra mövzuların tədrisində dərsin müxtəlif mərhələlərində illüstrativ materiallardan istifadə etmək imkanı genişdir. Müəllim hər hansı mövzunu tədris edən zaman o mövzuya uyğun illüstrativ materialdan istifadə etmirsə, bu mövzunun mətni şagirdlərə tam aydın olmur. Şagirdlərin idrak fəaliyyətinin rəsmlərdə çətinləşməsi suallara cavab tapmaq, hekayə tərtib etmək, illüstrasiyalardan müstəqil bilik mənbəyi kimi istifadə etmək tapşırıqları asanlaşdırılır.

Biologiya dərslərində obyektlərin rəsmini çəkdikdə idrak fəaliyyətinin artırılmasında və təfəkkürün inkişafında rolu böyükdür. Çünki hər hansı bir obyektin və yaxud onun orqanlarının, şəklini çəkən zaman şagird onu daha yaxşı qavramış olur. Eyni zamanda şagirdlərin intellektual bacarıqlarının formalaşmasında da böyük rol oynayır. Şagirdlər rəsmlərdə təsvir olunan obyektləri müqayisə etmək, təhlil aparmaq qabiliyyətlərini də özlərində formalaşdırırlar. Şagirdlərin müstəqillik dərəcəsi artır. Bununla belə hər bir dərslikdə vizual aydınlığın xüsusiyyətlərini nəzərə almaq lazım olduğunu başa düşürlər.

İllüstrativ materialı seçmək müəllimdən də böyük zəhmət tələb edir. Əksəriyyət müəllimlər keçdiyi dərsdə mövzuya uyğun illüstrasiyalardan istifadə edə bilmir. Bunun üçün də müəllimlərimizdə də müxtəlif bacarıqlar olmalıdır. Eyni zamanda rəngarənglik yaratmaq üçün estetik zövqün olması da vacibdir.

Dərsi təşkil edən zaman sadə illüstrasiya seçimi ilə məhdudlaşmamalıyıq. Fikrimcə, bu problemə tədris materialının təqdim edilməsinin kompozisiya və məntiqi qanunauyğunluqları nəzərə alınmaqla tədris materialının strukturları olması mövqeyindən baxmalıyıq.

Dərslik illüstrasiyalarından səmərəli istifadə edilməlidir. Verilən illüstrasiyalar adi hal kimi qəbul edilməməlidir. İllüstrasiyalar artan mürəkkəbliyi ilə şagirdlərə yeni nəsil vizual məlumatı şərh etməkdə kömək

edir. Onuda qeyd etmək lazımdır ki, müəllimlər şagirdlərə başa düşülən şəkilləri çatdırmaq məcburiyyətindədirlər.

Sonda onuda qeyd etmək istərdim ki, biologiya dərslərində müxtəlif illüstrasiyalardan istifadə olunması dərsin təşkili zamanı müəllimə çox böyük köməklik göstərir. Bəzən müəllimin sözlərlə çatdıra bilmədiyi ifadələri, o düzgün seçdiyi rəsmlərdə şagirdə daha dolğun çatdırır. Bu zaman şagirdlər bilikləri daha tez mənimsəyir, uzun müddət yaddaşlarında qalır, geniş məlumat bazası yaranır. Biologiya dərsləri maraqlı, axıcı, şagirdlər isə fəal və öyrənmək həvəsi yüksək olur.

***Ədəbiyyat***

1. *Xoşqədəm İbrahimova. Biologiya kursunda məsələ həllinin texnologiyası. Ali məktəblər üçün dərs vəsait . Bakı:2022.*
2. *Akif Əliyev, Əlişah Gərayev, Könül Mahmudova. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Biologiya fənni üzrə təhsil proqramı (Kurikulum). Bakı:2013*
3. *Gülşən Hacıyeva. Biologiyanın tədrisi metodikası. Bakı: ADPU, 2018*
4. *Yaşar Seyidli, Xumar Əhmədbəyli , Nailə Əliyeva. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün Biologiya fənni üzrə dərslik. Bakı:2017*
5. *Сивоглазов Владислав Иванович. Педагогические условия использования иллюстраций учебника для развития мышления учащихся 5-8 классов (На материале биологии и естествознания) : Дис. ... канд. Пед. Наук : 13.00.01 : Москва, 2000 140 с. РГБ ОД, 61:01-13/968-2*

**N.C.Qədirova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***qedirovanermin3@gmail.com***

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN VII SİNFİNDƏ BİOLOGİYADAN QEYRİ-STANDART DƏRSLƏRİN TƏŞKİLİ İMKANLARI

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəblərinin VII sinfində biologiyadan qeyri-standart dərslərin təşkili imkanları araşdırılır. Qeyri-standart dərslər standart strukturu olmayan improvizə olunmuş dərslərdir. Qeyri-standart dərslər sayəsində şagirdlər yaradıcılıq qabiliyyətlərini və müstəqil düşünmə bacarıqları əldə edirlər. Qeyri-standart dərslər şagirdlərdə fənnin öyrənilməsinə marağı artırır, təfəkkürün müxtəlif formalarını inkişaf etdirir, düşüncələrini müstəqil olaraq ifadə etməsinə və əsaslandırmasına, sinif qarşısında sərbəst çıxış etməsinə kömək edir. Məqalədə VII sinif biologiya dərslərində qeyri-standart dərsin təşkili ilə bağlı elmi-metodik tövsiyələr verilir.*

# ВОЗМОЖНОСТИ ОРГАНИЗАЦИИ НЕСТАНДАРТНЫХ УРОКОВ В 7 КЛАССЕ ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЫ

***Резюме***

*В статье рассматриваются возможности организации нестандартных уроков биологии в VII классе общеобразовательной школы. Нестандартные уроки представляют собой импровизированные уроки без типовой структуры. Благодаря нестандартным урокам ученики приобретают творческие способности и навыки самостоятельного мышления. Нестандартные занятия повышают интерес учащихся к изучению предмета, развивают разные формы мышления, помогают им самостоятельно выражать и обосновывать свои мысли, свободно выступать перед классом. В статье даны научно-методические рекомендации по организации нестандартных уроков в классах биологии VII класса.*

# POSSIBILITIES OF ORGANISING NON-STANDARD LESSONS IN THE SUBJECT OF BIOLOGY IN THE VII CLASS OF GENERAL EDUCATION SCHOOLS

***Summary***

*The article examines the possibilities of organizing non-standard biology lessons in the VII grade of general education schools. Non-standard lessons are improvised lessons without a standard structure. Thanks to non-standard lessons, students acquire creativity and independent thinking skills. Non-standard lessons*

*increase students' interest in learning the subject, develop different forms of thinking, help them express and justify their thoughts independently, and speak freely in front of the class. In the article, scientific and methodical recommendations are given regarding the organization of non-standard lessons in VII grade biology classes.*

***Açar sözlər:*** *biologiya, tədris, forma, standart, qeyri-standart, nümunə, dərs, motivasiya*
***Ключевые слова:*** *биология, обучение, форма, стандарт, нестандарт, образец, урок, мотивация*
***Key words:*** *biology, teaching, form, standard, non-standard, sample, lesson, motivation*

İnsanın bir şəxsiyyət kimi formalaşmasında təhsilin rolu əvəzsizdir. Sürətlə inkişaf etməkdə olan elmin əsaslarını bilən, ümumi mədəniyyətə malik, müstəqil şəkildə düşünməyi bacaran, çevik qərarlar verə bilən, yaradıcıllıq qabiliyyətinə malik gənc nəslin yetişməsi təhsilin başlıca vəzifəsidir.

Bütün bunları reallaşdırmaq üçün şagirdlərdə dərsə qarşı maraq oyatmaq, onların dərslərdə fəallığını təmin etmək əsas məsələlərdəndir. Bu səbəbdən xüsusilə son dövrlərdə dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycan təhsilində də qeyri-standart dərslərin təşkili aktual məsələ kimi təhsilimizin qarşısında durur.

Bildiyimiz kimi standart dərslər 7 mərhələli dərslərdir. Həmin mərhələlər aşağıdakılardır:

1. Motivasiya, problemin qoyulması (Tədqiqat sualı);
2. Tədqiqatın aparılması;
3. İnformasiya mübadiləsi;
4. İnformasiya müzakirəsi və təşkili;
5. Nəticə və ümumiləşdirmə;
6. Yaradıcı tətbiqetmə;
7. Qiymətləndirmə və ya refleksiya.

Standart dərsin ilk sövqedici mərhələsi motivasiyadır və dərsin vacib komponenti hesab edilir. Motivasiya qurulan zaman onun yeni biliklə arasındakı əlaqə də nəzərə alınır, buna müvafiq yönəldici suallar, tapşırıqlar verilir.

Motivasiya sayəsində şagirdlərdə:

- Mövzuya qarşı maraq artırılır;
- Təlimin uzunmüddətli fəallığına şərait yaradılır;
- Dərs boyunca şagird fəallığı yüksək olur;
- Şagirdlərin şəxsi maraqlarının öyrənilməsinə imkan yaranır;
- Şəxsiyyətlərarası münasibətlərin inkişafına sağlam zəmin hazırlayır.

Motivasiya mərhələsi şagirdləri düşünməyə sövq edən suallarla, müxtəlif sxem və şəkillərlə, tapmacalar, atalar sözləri və ya şeirlərlə, eyni zamanda şagirdlərə "sürpriz" sayılan və onların marağının artmasına səbəb olan mövzuya uyğun əyani vəsaitlərlə təşkil olunur. Motivasiya mərhələsinin təşkili müəllimin öz şəxsi yaradıcıllığından asılıdır. Düzgün qoyulmuş motivasiya dərsin 50%-ni təşkil edir.

Motivasiya mərhələsi tədqiqat sualının verilməsi ilə nəticələnir. Tədqiqat sualı dərsin əsas məqsədini təşkil edir və dərsin sonunda yenidən tədqiqat sualına qayıtmaq zəruridir.

Dərsin 2-ci mərhələsi tədqiqatın aparılması mərhələsidir. Bu mərhələdə şagirdlərə irəli sürülmüş problemin həllinə məqsədyönlü şəkildə çatması üçün müxtəlif çalışma və tapşırıqlar verilir. Şagirdlər bu tapşırıqları 4 fərqli formada yerinə yetirə bilər: Bütün siniflə birgə - kollektiv iş, qruplarla iş, cütlərlə iş və fərdi iş.

Tədqiqatın aparılması mərhələsində dərsin məqsədinə və tədqiqat sualına uyğun iş üsulu seçilir. Bu üsul və metodlardan istifadə edərək şagirdlər tapşırıqlarını istər fərdi, istər kiçik qruplarda, istərsə də kollektiv şəkildə yerinə yetirirlər. Nəticədə təqdimat hazırlayıb gördükləri işləri təqdim edirlər.

Dərsin 3-cü mərhələsi informasiya mübadiləsi mərhələsidir. Bu zaman şagirdlər tədqiqatın aparılması mərhələsində yerinə yetirdikləri tapşırıqları təqdim edirlər. Bu mərhələdə yeni bir tələbat - həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır.

İnformasiyanın müzakirəsi mərhələsində əldə edilmiş informasiya sistemləşdirilir və şagirdlərin hazırladığı təqdimatlar arasındakı əlaqə üzə çıxarılır. Müəllim təhsilalanlara yönləndirici suallar verərək onları aşkar edilməmiş məsələlərə doğru istiqamətləndirir. Bu sayədə mövzu tam əhatə olunur.

Nəticə və ümumiləşdirmə mərhələsində şagirdlərlə birgə mövzu ilə bağlı konkret nəticəyə gəlinir və ümumiləşdirmə aparılır. Bu mərhələyə bəzən "Körpülərin salınması" mərhələsi də deyilir. Bunun səbəbi müəllimin şagirdlərlə birgə əvvəlki mərhələdə öyrəndikləri bilik və bacarıqları bu mərhələdə bütöv bir ideya halına salmasıdır.

Yaradıcı tətbiqetmə mərhələsində şagirdlər dərs boyu qazandıqları bilik və bacarıqları tətbiq edirlər. Bu sayədə bilik möhkəmlənir və onun praktik əhəmiyyəti daha aydın olur. Bu mərhələdə şagirdlər mövzu ilə əlaqəli müxtəlif yaradıcılıq işləri ilə məşğul olurlar. Dərs müddətində bitirə bilmədikləri işləri isə evdə tamamlayaraq növbəti dərsdə gətirib təqdim edirlər.

Qiymətləndirmə və ya refleksiya mərhələsində şagirdlərin dərs zamanı əldə etdiyi nailiyyətlərin müvafiq meyarlar üzrə qiymətləndirməsidir. Meyarlar

isə məqsədə uyğun müəyyən edilir. Refleksiya isə dərsin ən sonunda aparılır. Müəllim dərs sonunda refleksiyadan istifadə edərək dərsinin nə dərəcədə uğurlu olduğunu, qoyulmuş məqsədə hansı şəkildə çatdığını anlayır.

Qeyri-standart dərslər standart strukturu olmayan improvizə olunmuş dərslərdir. Bir çox pedaqoji və metodiki ədəbiyyatlarda sadalanan qeyri-standart dərs formaları izah edilir: dərs-oyunlar, dərs-müsabiqə, dərs-seminar, dərs-konfrans, dərs-emalatxana, dərs-məhkəmə, inteqrasiya edilmiş dərslər, simulyasiya fəaliyyətinə əsaslanan dərslər, şagirdlərin təxəyyülünə əsaslanan dərslər və s.

Qeyri-standart dərslər sayəsində şagirdlər dərs zamanı öz yaradıcıllıq qabiliyyətlərini və müstəqil düşünmə bacarıqlarını reallaşdırmaq imkanı əldə edirlər. Belə dərslər şagirdlərdə fənnin öyrənilməsi marağının artmasına, təfəkkürün müxtəlif formalarının inkişaf etməsinə, biliklər arasında əlaqə qurmasına, düşüncələrini müstəqil şəkildə dilə gətirməsinə və əsaslandırmasına, sinif qarşısında sərbəst çıxış etməsinə, axıcı nitq söyləmə bacarığının inkişaf etməsinə kömək edir.

Müəllim dərs müddətinin hər zaman daha səmərəli keçməsinə, şagirdlər üçün maraqlı olmasına diqqət yetirməlidir. Buna görə də müəllim daim yeni metod və texnologiyaları araşdırıb dərsə tətbiq etməyə səy göstərməlidir. Bu səbəbdən qeyri-standart dərslərin yeri danılmazdır. Xüsusilə, biologiyanın tədrisində qeyri-standart dərsləri müxtəlif formalarda təşkil etmək imkanları genişdir. Qeyri-standart dərslərdən istifadənin effektivliyi ondan ibarətdir ki, şagirdlərin fəaliyyəti müxtəlif formalarda təşkil olunur. Eyni zamanda öyrənilən material sadəcə dərslikdəki mətnlə tamamlanmır. Bu da şagirdlərin qazanacaqları bilik və bacarıqların inkişafına kömək edir.

Ölkəmizdə məktəblərdə qeyri-standart dərslərin təşkilinə az əhəmiyyət verilir. Bir sıra müəllimlər qeyri-standart dərslərin təşkilində çətinlik çəkirlər. Lakin, bu günün şagirdləri qeyri-standart dərslərdə həvəslə iştirak edirlər. Onlar belə dərslərdə yüksək fəallıq göstərdiyindən yaradıcı fəaliyyətə qoşulurlar. Xüsusilə, biologiya dərslərində müəllim müxtəlif yarış oyunları, bioloji oyunlar, səhnəciklərdən, mövzuya müvafiq olaraq dərs-seminarlar, dərs-konfranslardan istifadə edir.

Qeyri-standart dərsin təşkili üçün müəllimlər də bir çox bacarıqlar nümayiş etdirir:

- O, daim öz üzərində işləyir, yaradıcılığını inkişaf etdirir;
- Qeyri-standart dərsin növlərini, təşkil qaydalarını öyrənir;
- Belə dərslərdə sinfin idarəetməsinin çətinliyini dərk edir;
- Qeyri-standart dərsin mövzuya uyğunluğunu, şagirdlərin yaş və bilik səviyyəsini nəzərə alır.

Bütün qeyd olunanlar əsasında biologiyadan VII sinifdə təşkili mümkün olan bir dərs nümunəsini nəzərdən keçirək:

VII sinif dərsliyində VII və VIII tədris vahidində xordalılar tipinin sinifləri verilmişdir. Şagirdlər həmin mövzuları öyrəndikdən sonra belə bir qeyri-standart dərsin keçirilməsi məsləhət bilinir:

- Qeyri-standard dərs simulyasiya fəaliyyətinə əsaslanır.
- Dərsin əsas məqsədi xordalılar tipinə mənsub olan heyvanların xüsusiyyətlərinin oxşar və fərqli cəhətlərinin təsvir edilməsidir.
- Resurslar kimi A4 vərəqlərdən, rəngli karandaşlardan, markerlərdən istifadə edilir.

*Tapşırıq:*

- Xordalılar tipinə aid olan heyvanlar öz mühitlərindən fərqli mühitdə yaşasa onlarda hansı əlamətlər dəyişəcək? Rəsmini çəkərək təsvir edin.
- Təsəvvür edin timsah şimal qurşağında yaşayır. Sizcə o necə görünəcək?
- Əgər pələng uça bilsəydi o hansı əlamətlərə sahib olardı?
- Qartal suyun altında yaşamağa başlasa o necə görünərdi?
- Balıq cəngəlliklərdə yaşasa onda hansı dəyişikliklər baş verərdi?
- Qurbağa yalnız suyun altında yaşasaydı hansı əlamətlərə sahib olardı?

Şagirdlər xəyallarında həmin heyvanları necə görmək istəyirlərsə, o şəkildə təsvir edirlər. Bu zaman onlar öz təxəyyüllərini işə salır və nəticədə gərçəkdə mövcud olmayan heyvanların təsvirini yaradır. Çəkib bitirdikdən sonra müəllim digər heyvanı təsvir etmələrini istəyir. Hamısının rəsmini çəkdikdən sonra şagirdlər təqdimata hazırlaşır.

Şagirdlər öz işlərini təqdim etdikdən sonra ümumi siniflə birlikdə rəsmlər üzərində müzakirə aparılır. Şagirdlərin təsəvvüründə adı çəkilən heyvanların yeni şəraitlərdə hansı xüsusiyyətləri qazandıqları və hansı əlamətlərini itirdikləri barəsində fikir mübadiləsi edilir.

Nəticədə dərs boyu şagirdlərdə dərsə qarşı böyük maraq, ruh yüksəkliyi hiss olunur. Şagirdlər xordalılar tipinin ayrı-ayrı siniflərinə mənsub olan heyvanların hansı əlamət və xüsusiyyətlərə malik olduğunu, eyni zamanda oxşar və fərqli cəhətlərini müəyyən edir. Həmçinin şagirdlər dərs boyu öz xəyal güclərindən istifadə etdiyi üçün onlarda yaradıcı təfəkkür də inkişaf edir.

***Ədəbiyyat***

*1. Seyidli.Y, Əhmədbəyli.X, Əliyeva.N Biologiya 7, Bakı 2018*
*2. Rüstəmov.F, Paşayev.Ə, Pedaqogika, Bakı 2010*
*3. Hacıyeva.H, Qafarova.P, Biologiyanın tədrisi metodikasının elmi əsasları, Bakı 2021*
*4.М.С.Баева, Нестандартный урок, их виды. Образовательный портал «Справочник» 2022*

**Ş.N.Niftaliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***shefeqniftaliyeva@gmail.com***

# BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ - BİOLOGİYA MÜƏLLİMLƏRİNİN HAZIRLIĞINDA İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI BACARIĞININ FORMALAŞDIRILMASI METODOLOGİYASI

***Xülasə***

*Məqalədə biologiyanın səmərəli və effektiv tədrisi biologiya müəllimləri üçün əvəzsiz köməkçi vasitələrindən biri də informasiya-kommunikasiya texnologiyalarından (İKT) bəhs edilmişdir. İnformasiya texnologiyaları sayəsində təhsil sistemi 21-ci əsrin bacarıqları ilə inkişaf etməkdə olan, dünyaya uyğunlaşa bilən fərdlərin yetişdirilməsində mühüm rol oynamasına toxunulmuşdur. Bu yolla təlim prosesinin daha uğurlu alınmasının səbəbi nəzərdən keçirilmişdir. Biologiya müəllimləri təlim nəticələrinə uyğun olaraq tədris materialları hazırlamağı, bundan əlavə təhsilalanları tədris materiallarından əlavə məlumatlardan da istifadə etməklə təlim prosesinin effektli alınmasına nail ola bilər. Hər nə qədər İKT vasitələrindən istifadə təlimi uğurlu edən səbəblərdən biri kimi olsa da, bəzən biologiya fənnini tədris edən müəllimin peşə-ixtisas bilikləri mənbəsi məlum olmayan anlayışlardan ibarət olmamalıdır.*

# ТЕКСТ НАУЧНОЙ РАБОТЫ НА ТЕМУ «МЕТОДИКА ФОРМИРОВАНИЯ НАВЫКОВ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ БИОЛОГИИ БАКАЛАВРИАТА»

***Резюме***

*В смамье информационно-коммуникационные технологии (ИКТ) упоминаются как один из незаменимых инструментов эффективного и действенного обучения биологии для учителей биологии. Благодаря информационным технологиям система образования стала играть важную роль в обучении людей, способных адаптироваться к развивающемуся миру с навыками 21 века. Таким образом, рассматривалась причина сделать тренировочный процесс более успешным. Учителя биологии могут подготовить учебные материалы в соответствии с результатами обучения, а учащиеся могут добиться эффективного учебного процесса, используя дополнительную информацию из учебных материалов. Хотя использование средств ИКТ является одной из причин, делающих обучение успешным, иногда источник профессионально-специальных знаний учителя биологии не должен состоять из неизвестных понятий.*

# THE METHODOLOGY OF FORMATİON OF İNFORMATİON AND COMMUNİCATİON TECHNOLOGİES SKİLLS İN THE PREPARATİON OF BİOLOGY TEACHERS AT THE BACHELOR'S LEVEL OF EDUCATİON

***Summary***

*The article information communication technologies (ICT) are mentioned as one of the indispensable tools for effective and efficient teaching of biology for biology teachers. Thanks to information technology, the education system has been touched to play an important role in training individuals who can adapt to the developing world with 21st century skills. In this way, the reason for making the training process more successful was considered. Biology teachers can prepare teaching materials according to the learning outcomes, and the students can achieve an effective learning process by using additional information from the teaching materials. Although the use of ICT tools is one of the reasons that make training successful, sometimes the source of professional-specialized knowledge of a teacher teaching biology should not consist of unknown concepts.*

***Açar sözlər:*** *İKT, informasiya, kommunikasiya, texnologiya, rəqəmsal, telekommunikasiya, bacarıq*

***Ключевые слова:*** *ИКТ, информация, коммуникация, технологии, цифровой, телекоммуникации, навык*

***Key words:*** *ICT, information, communication, technology, digital, telecommunications, skill*

**Giriş.** Dünya təcrübəsi göstərir ki, bu günümüzdə informasiya-kommunikasiya texnologiyalarından istifadə tədris prosesinin vacib faktoruna çevrilmişdir. Dünyada o, cümlədən ölkəmizdə İKT-nin sürətli inkişafı nəticəsində insanlarda informasiya bolluğu, uzaq və yaxında olan insanlar arasında qarşılıqlı əlaqə, ölkələr arasında sıx qarşılıqlı münasibət yaratmağa imkan verir. Halhazırda pedaqoji təmayüllü ali təhsil universitetlər kontekstində müəllim hazırlığı sistemində ən mühüm vəzifələrdən biri onların rəqəmsal texnologiyalar sahəsində bilik, bacarıq və qabiliyyətlərinin formalaşdırılmasıdır. İnformasiya texnologiyalarının inkişafı, kompüter texnologiyasının imkanlarının durmadan artması və onun insan həyatının bütün sahələrinə nüfuz etməsi təhsil sahəsində informasiya kommunikasiya texnologiyalarından istifadəni zəruri edir. Ali təhsil sistemində baş verən dəyişikliklər bilavasitə informasiya və telekommunikasiya texnologiyalarından intensiv şəkildə istifadə edən müasir cəmiyyət, gələcək nəslin bu problem ilə qarşılaşmamalarını tələb edir. Bu nəzəri cəhətdən kifayət qədər böyük həcmdə biliyə və öz sahəsində kifayət qədər pedaqoji təcrübəyə malik, informasiya

cəmiyyətinin dəyişən şərtlərinə tez uyğunlaşa bilən bacarıqlı mütəxəssislərə ehtiyacı artırır. Məlum olduğu kimi biologiya fənninin tədris prosesi şəkillər, videolar, 3D animasiyalar, audioviziual görüntülər vasitəsilə əyani formatda təşkili təhsil prosesinin keyfiyyətini yüksəltməyə imkan verir. Azərbaycan Respublikasının Təhsil Qanununun Maddə.9; 9.1 bəndində də (Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil və peşə standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, təhsilalanların hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir. Bu məsələyə əsaslanır. Pedaqoji ixtisaslı kadr hazırlığı aparan universitetlərdə təhsilalan tələbələrin gələcək peşə fəaliyyətlərində informasiya kommunikasiya texnologiyalarından (İKT-dən) istifadə etmək bacarığının inkişaf etdirilməsi artıq vacib faktora çevrilmişdir. Biologiya fənnini tədris edən müəllimlər informasiya kommunikasiya bacarığının formalaşdırılması peşə-ixtisas bilikləri ilə yanaşı İKT sahəsindəki bacarıqlar da mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Təhsil Qanununun Maddə.11; 11.1.1 (təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstər mək, ünsiyyət yaratmaq, məntiqi, tənqidi və yaradıcı düşünmək bacarığını formalaşdırmaq) bəndinə əsasən Azərbaycanın hər bir gələcək biologiya müəllimi bu sahədə yetərli bilik və bacarıqlara yiyələnməlidir. Beləliklə, bu problem hazırda da xüsusilə aktual məsələlərdən biridir, çünki uzun müddətdir ki, müəllimlər ənənəvi texnologiyalara yönəlmiş müasir təhsil sistemi, təhsilin informasiyalaşdırılması kontekstində gələcək müəllimlərin İKT bacarığının formalaşması üçün işlənmiş mexa-nizmlərə hələ də tam malik deyillər. Bununla yanaşı, informasiya-kommunikasiya bacarığının formalaşdırılması üçün metodoloji, nəzəri, texnoloji səviyyələrdə bir sıra aspektlərin aydınlaşdırılmasına hələ də ehtiyac var.

Təhsilə dair normativ hüquqi sənədlərin tələblərinin təhlili göstərir ki, hazırda gələcək müəllimlər üçün İKT hazırlığı səviyyəsində həyata keçirilən proqrama yenidən baxılması çox vaxt arxaik vasitə və texnologiyaların öyrənilməsindən fərdi təhsilin layihələndirilməsi bacarıqlarının əldə edilməsinə keçidin zəruriliyini ortaya qoyur. Gələcək müəllimin ümumi pedaqoji İKT bacarığının onun peşəkar İKT bacarığının tərkib hissəsi kimi formalaşması müasir pedaqoji nəzəriyyələrdə az işlənmişdir. Təhsil prosesində bütün iştirakçıların informasiya qarşılıqlı əlaqəsi peşəkar pedaqoji fəaliyyətin vacib, qaçılmaz faktorudur. İnformasiya qarşılıqlı əlaqəsi nəticəsində tədris prosesinin məhsuldarlığı artır, təhsil keyfiyyətini yüksəldir, təhsilalanların (şagirdlərin,

tələbələrin) öyrənmə, məntiqi, tənqidi, yaradıcı qabiliyyətlərinin yüksəlməsi müşahidə olunur.

**Tələbələrə - gələcək biologiya müəllimlərinə kompüterdən istifadə edərək tədris prosesini modelləşdirməyi öyrətmə metodologiyası**

İnsanın həyat və peşə fəaliyyətinin şərtlərini keyfiyyətcə dəyişən informasiya cəmiyyətinin inkişafı gələcək mütəxəssislərin informasiya-kommunikasiya bacarığının (İKT bacarığının) formalaşması əsasında yeni şərtlərə hazırlanması problemini aktuallaşdırmışdır. Təhsil sistemində rəqəmsal inqilabın hazırkı mərhələsi elektron-informasiya-təhsil mühitinin (EIE) interaktiv imkanları hesabına tədris prosesinin sürətlə inkişafı ilə xarakterizə olunur. Gələcək mütəxəssis nəinki lazımi informasiya və proqramlaşdırma texnikasına yiyələnməli, ilk növbədə o, öz intellektual və yaradıcı potensialını qorumaq və inkişaf etdirmək üçün informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməyi nəzərə alaraq, peşəkar qərarlar qəbul etməlidir. Təhsildə şəxsiyyətyönümlü komponentin rolunun xarakterik olması ilə özünəməxsus informasiya texnologiyalarına sahib olan mütəxəssislər, peşəkar şəkildə özünüinkişafına hazır olmaları üçün əlverişli şərait yaratmaqla həyata keçirilməsi təlim prosesində pedaqoji dəstəyinin mühüm rolunu vurğulamaq lazımdır. Universitetin tədris prosesində gələcək mütəxəssislərin informasiya-kommunikasiya bacarı-ğının formalaşması probleminin inkişaf dərəcəsini qiymətləndirərək, bu fenomenlə bağlı tədqiqatların çoxşaxəli olduğunu qeyd edirik.

Müasir dünyada informasiya cəmiyyətinə keçid mərhələsinə uyğun gələn dinamik dəyişikliklər insan həyatının bütün sahələrində informasiya-kommunikasiya texnologiyalarından (İKT-dən) istifadə sahəsində bacarıqların formalaşdırılması nəzəriyyəsi və praktikasına yeni yanaşmaların axtarılmasını zəruri edir. Təhsilin informasiyalaşdırılması hazırda təhsil sahəsində dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi elan edilir. İKT təhsilin keyfiyyətinin yüksəldilməsində unikal rol oynaması, faktiki olaraq göz önündədir, çünki onların hazırkı inkişaf səviyyəsi müəllim və tələbələrin təhsil, peşə məlumatlarına çıxış imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir, təhsil müəssi-səsinin idarə edilməsini təkmilləşdirir, onun və bütövlükdə təhsil sisteminin səmərəliliyini artırır, milli təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasını asanlaşdırır, təhsil, elm və mədəniyyət sahəsində beynəlxalq məlumat mənbələrinə çıxışı xeyli dərəcədə asanlaşdırır. Müasir informasiya cəmiyyəti, rəqəmsal sənayenin inkişafı, sürətlə yenilənən yüksək texnologiyalı kompüter vasitələrinin və kommunikasiya sistemlərinin təhsil sahəsində fəal tətbiqi şəraitində müəllimlərin hazırlığına yeni tələblər qoyulur. Müasir ali təhsilin əsas vəzifələrindən biri informasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətlə yayılması və təhsilin informasiyalaşdırılması şəraitində tələbələri

gələcəyin rəqəmsal iqtisadiyyatına hazırlamaqdır. İnformasiyalaşdırma təhsilin inkişafında əsas prioritet istiqamətdir. Müasir cəmiyyətin çağırışlarına və informasiya əsrinin reallıqlarına cavab olaraq ortaya çıxan yeni müəllim peşələri üçün xüsusilə aktual olan müxtəlif profilli gələcək müəllimlərin hazırlanması üçün yeni tələbləri aktuallaşdırır.

Cəmiyyətin və təhsilin informasiyalaşdırılmasının yeni mərhələsinin təzahürlərindən biri də yeni peşələrin meydana çıxmasıdır. Müəllim hazırlığı profili "Tərbiyəçi" təhsildə yeni peşələr atlasının siyahısına daxil edilib. Təhsil dedikdə, tələbələrin fərdi xüsusiyyətlərinin və təhsil ehtiyaclarının əhəmiyyəti, təhsil mühitinin açıqlığı və fərdi təhsil mühitinin (PLE) formalaşması, elektron təhsil və distant təhsil texnologiyalarının inkişafı nəzərdə tutulur. Müasir cəmiyyətdə təhsildə vəziyyətin dəyişməsinə təsir edən əsas dəyişiklik onun inkişafının sürətləndirilməsidir. Nəticədə, son onilliklərdə avadanlıq və istehsal texnologiyası köklü şəkildə yeniləndi. Müasir istehsalın əsas tendensiyası ondan ibarətdir ki, savadlı, hərtərəfli inkişaf etmiş, əqli və fiziki əməyi birləşdirməyi bacaran mütəxəssislərə tələbatı artır. Bu yaxınlara qədər ənənəvi olaraq müəyyən bir peşənin əsası hesab edilən bilik, bacarıq və qabiliyyətlər artıq uğurlu peşəkar fəaliyyətə hazırlığı təmin edə bilməz. Deyə bilərik ki, kompetensiyaya əsaslanan yanaşma yeni iqtisadiyyatın və insan resurslarının formalaşmasına yeni yanaşmanın nəticəsidir.

Bu günün mütəxəssisi yüksək texnologiyalı emal prosesləri, mürəkkəb istehsal avadanlıqları, o cümlədən informasiya-kommunikasiya texnologiyaları (İKT) ilə məşğul olur. Bu, ondan nəinki proseslərin mahiyyətini və işin görülməsinin ən rasional yolunu seçmək bacarığını, həm də qərarları vaxtında, tez və əsaslı şəkildə qəbul etmək, emal etmək, saxlamaq, ötürmək üçün İKT vasitələrindən istifadə etmək bacarığını tələb edir. Buna görə də, yüksək texnologiyalı istehsalda mütəxəssisin peşəkar bacarığının əsas tərkib hissəsi artıq informasiya-kommunikasiya texnoloji bacarığıdır. Peşəkar bacarıqda informasiya bacarığının inkişafı problemi yenilikdən uzaqdırsa, o zaman yüksək səviyyədə bir mütəxəssisin İKT bacarığının formalaşdırılması problemi yenilikdən uzaqdır. Nəticədə təhsil mühiti köhnə metodların və pedaqoji texnologiyaların effektivliyini dəstəkləyir, artırır və ənənəvi təhsil nəticələrindən yüksək nəticələrə nail olmağa yönəlir. Eyni zamanda, məktəblilərin tədrisi sahəsində təhsilin informasiyalaşdırılması, onların informasiya mədəniyyətinin əsas elementlərinin formalaşdırılması, habelə bunun üçün pedaqoji kadrların hazırlanması məsələlərində ən intensiv tədqiqatlar aparılır. Eyni zamanda, peşə-ixtisas təhsilinin informasiyalaşdırılmasının təhsil sahəsində konkret proses kimi öyrənilməsi məsələlərinə çox az diqqət yetirilir, gələcək mütəxəssislərin İKT bacarığının

formalaşdırılması məsələlərinə nəzəri olaraq baxılır, praktiki olaraq diqqət edilmir.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, “İKT-lə zəngin təhsil mühiti” konsepsiyasının mahiyyəti müəyyən edilib, məzmunun pedaqoji təcrübədə fəal istifadəsi və pedaqoji elmdə tərifin olmaması ilə əlaqədar formalaşdırılıb.

Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, “İKT-lə zəngin təhsil mühiti” konsepsiyasının məzmunu müasir yüksək texnologiyalı təhsilin tələbləri nəzərə alınmaqla gələcək mütəxəssislərin İKT-bacarıq komponentlərinin strukturu və məzmunu dəqiqləşdirilmiş; təhsil mühitində peşə-ixtisas təhsilində İKT-bacarığının formalaşmasına töhfə verən əsaslandırılmış təşkilati-pedaqoji şərait; təhsil mühitinin İKT ilə zənginləşməsi; təhsil məzmununun peşəkar yönümlü olması; tədris-istehsalat tapşırıqları vasitəsilə biologiya fənninin standart və qeyri-standart öyrənilmə texnologiyası ilə həyata keçirilir; təhsil mühitində biologiya üzrə fənnin standart və qeyri-standart hazırlığına təşkilati-metodiki dəstək göstərir; peşə təhsilinin nəzəriyyəsi və metodologiyasına töhfə verən təşkilati-metodiki təminat prosesinin struktur və məzmunu açıqlanmışdır.

Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, yüksək texnologiyalı təhsil prosesində gələcək mütəxəssisin peşə fəaliyyətinin operativ və praktik komponentinin modelləşdirilməsi prosesində peşə-ixtisas təhsili tələbənin İKT bacarığının formalaşdırılması metodologiyasının işlənib hazırlanmasındadır.

Tədqiqatın nəticələrinin etibarlılığı metodikanın, fəlsəfənin, pedaqogikanın, psixologiyanın konseptual müddəalarına əsaslanmaqla təmin edilir; İKT bacarığının mahiyyəti və strukturunun nəzərdən keçirilməsinə inteqrativ yanaşmanın ilkin nəzəri müddəaları, metodik yanaşmada informasiya kommunikasiya texnologiyası bacarığının formalaşmasının dərk edilməsi, təhsilin informasiyalaşdırılması sahəsində praktiki tədqiqatların əsasları, təhsildə İKT-dən istifadə prosesi; onun vəzifələrinə, mövzusuna, tədqiqatın məqsədinə adekvat olan nəzəri və empirik tədqiqat metodları kompleksinin məqsədəuyğun birləşməsi; pedaqoji eksperimentin ardıcıl aparılması və burada müəllifin şəxsi iştirakı, nəticələrin işlənməsi üçün statistik metodlardan istifadə olunur.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının Təhsil Qanunu, Bakı 2009, Azərbaycan müəllimi qəzeti №35, 11 sentyabr 2009*
2. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası/ 24 oktyabr 2013 Azərbaycan müəllimi qəzeti №35, 25 oktyabr 2013*
3. *Əliyeva Z. “Müəllim hazırlığının problemləri” Az məktəbi jurnalı, №1, 2010, s-43*

**F.M.Vahabova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***vahabova241997@gmail.com***

# COĞRAFİYA FƏNNİNİN VII VƏ VIII SİNİFLƏRDƏ TƏDRİSİNDƏ DİYARŞÜNASLIQ MATERİALLARINDAN İSTİFADƏ ŞAGİRDLƏRİN BİLİK KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ

***Xülasə***

*Elmi məqalədə coğrafiyanın əsas tərkib hissəsini təşkil edən "Diyarşünaslıq" haqqında məlumatlar, onun prinsipləri, müasir coğrafiya fənn kurikulumu üzrə tətbiq edilməsi haqqqında məlumatlar qeyd edilmişdir. Məqalədə həmçinin "Diyar" anlayışı, şagirdlərdə diyar anlayışının formalaşdırılırması barədə məlumatlar yer alır. Orta məktəblərdə coğrafiya fənninin tədrisində diyarşünaslıq prinsiplərinə əməl edilməsi vacibliyi göstərilir. VII və VIII siniflər üzrə coğrafiya fənn kurikulumuna əsasən diyarşünaslıq işləri tələb edən mövzulardan bəhs edilmişdir.*

# ИСПОЛЬЗОВАНИЕ КРАЕВЕДЧЕСКИХ МАТЕРИАЛОВ В ОБУЧЕНИИ ГЕОГРАФИИ В СЕДЬМЫХ И В ВОСЬМЫХ КЛАССАХ КАК СРЕДСТВО ПОВЫШЕНИЯ КАЧЕСТВА ЗНАНИЙ УЧЯЩИХСЯ.

***Резюме***

*В научной статье представлена информация о землеведении, которое является основным компонентом географии, его принципах и применении в современной учебной программе по предмету географии. В статье также содержится информация о понятии страны и формировании у учащихся представления о стране. Показана важность соблюдения принципов краеведения в обучении географии в общеобразовательной школе для седьмого и восьмого классов.*

# THE USE OF LOCAL HİSTORY MATERİALS İN THE TEACHİNG OF GEOGRAPHY İN THE SEVENTH AND EİGHTH GRADES AS A MEANS OF İMPROVİNG THE QUALİTY OF STUDENTS' KNOWLEDGE

***Resume***

*The scientific article presents information about land surveying, which is the main component of geography, its principles and application in the modern curriculum on the subject of geography. The article also contains information about the concept of*

*the country and the formation of students' ideas about the country. The importance of observing the principles of geography in teaching geography in the secondary school is shown for the seventh and eighth grades.*

***Açar sözlər:*** *diyar anlayışı, diyarşünaslıq prinsipləri, şagird fəaliyyəti*
***Ключевые слова:*** *понятие край, принципи краеведение, студенческая деятельность*
***Key words:*** *meaning of area, principles of area study, student activity*

Bölgədə şagirdin gördüyü obyektlərin coğrafiya dərsinə gətirilməsi "Diyarşünaslıq"dır. Diyarşünaslıq öz kəndinin, rayonunun, şəhərinin coğrafiyasının öyrənilməsi deməkdir. "Diyarşünaslıq məktəb coğrafiya təhsil sisteminin bir komponentidir" deyə bilərik. Diyarşünaslıq bir elm kimi XVII əsrdə yaranmış və sonrakı dövrlərdə bir neçə coğrafşünas alimlərin əsəsrlərində ondan bəhs edilmişdir. Y.Kamenskinin "Böyük Didaktika" əsərində diyarşünaslıq ideyaları verilmişdir. F.Studitski dərsliyində də diyarşünaslıq ideyalarını görmək olur. D.D.Semyonovun "Müəllimlər üçün pedaqoji qeydlər" metodik vəsaitində diyarşünaslığa dair fikirləri görmək mümkündür. Azərbaycanda "Diyarşünaslıq" elminin təməli 1920-ci ildə Bakıda Azərbaycan Tarix Muzeyinin yaradılması ilə qoyuldu.

Diyarşünaslıq fəaliyyəti özündə müəllim və şagird fəaliyyətini əhatələyir. Müasir interaktiv dərs üsullarına əsasən şagird bacarıqlı tədqiqatçı olub, coğrafi bilik və bacarıqlarını diyarın tədqiqatı zamanı tətbiq etməlidir. Diyarşünaslıq işləri zamanı şagirdlər qrupla komanda şəklində işləməyi, verilən tapşırıqları düzgün yerinə yetirməyi, göstəriciləri qeyd edib, statistik şəkildə təqdim etməli və bütün bu prosesdə çöl şəraitində təhlükəsizlik qaydalarına əməl etməlidirlər. Bir sözlə desək, "Diyarşünaslıq" üzrə praktiki işlər zamanı şagird tədqiqatçıya çevrilir. Müəllim isə məktəbin yerləşdiyi ərazini və şagirdin yaşadığını tədqiq edərək öz fəaliyyətini yerinə yetirmiş olur.

Diyarşünaslıq materialları ən yaxşı təbii əyani vəsaitdir. Diyarşünaslıq materialları coğrafiya kabinetində saxlanılır və hər il əldə edilmiş diyarşünaslıq praktiki işləri üzrə yeni materiallar kabinetdə növbəti tədris ili üçün vəsait olaraq saxlanılır. Bu vəsaitlərin artması və yenilənməsi vacibdir. Çünki diyarın təbiətində, əhalisində il ərzində dəyişikliklər baş verir. Bunları nəzərə alaraq müəllimlə diyarşünaslıq işlərini müntəzəmliliyini daim diqqət mərkəzində saxlamalıdırlar.

Diyarşünaslıq fəaliyyətinin nəticələrində elmilik prinsipi mütləq gözlənilməlidir. Məsələn VII və VIII sinif şagirdləri praktiki işlər zamanı nümunələrin götürüldüyü ərazi haqqında ətraflı coğrafi-elmi məlumatlar qeyd etməlidirlər (məsələn: ərazinin relyefi, səth örtüyünün xarakteri, iqlimi və s.). Diyarşünaslıq fəaliyyəti sayəsində öz doğma diyarının öyrənilməsi ilə

şagirdlərdə vətənpərvərlik hissi yüksəlir. Öz doğma diyarına sevgi, ona hörmət, rəğbət, şagirdlərin milli-mənəvi dəyərlərə söykənən ruhda tərbiyə edilməsi, diyarın təbiətinə mühafizəkarcasına yanaşma diyarşünaslığın pedaqoji prinsiplərinə daxildir. Həmçinin bunlarla yanaşı bu prinsiplər arasında şagirdlərin qabiliyyətlərinin aşkar edilməsi və hərtərəfli inkşaf etdirilməsi, şagirdlərdə müstəqil və kollektiv arasında fəaliyyət göstərmə bacarığının formalaşdırılması, istənilən şəraitə adaptasiya olma bacarığını yaratmaq, müşahidə qabiliyyətini inkşaf etdirmək və s. yer alır.

Müasir interaktiv dərslərin əsas məqsədi şagirdlərin biliyi müstəqil əldə edə bilməsi bacarığının formalaşdırılmasıdır. Məhz bununla əlaqəli olaraq "Diyarşünaslıq" daha mühüm əhəmiyyət kəsb edir. Çünki müasir coğrafiya fənn kurikulumuna əsasən şagird özü müşahidə aparmalı, müşahidələrini təhlil edib müəyyən nəticə əldə etməlidir. Məsələn: VII sinif "Təbiət" məzmun xətti üzrə alt standartlara əsasən şagird hava elementlərinə dair sadə hesablamalar aparmalıdır. Bunun üçün o gün ərzində havanı müşahidə etməli və göstəriciləri qeyd edib sonda nəticə əldə etməlidir. Məsələn: sutkalıq temperatur amplitudasının hesablanması. Həmçinin həftə ərzində küləyi müşahidə edərək külək gülü qrafikini qura bilərlər. Həmçinin küləyin istiqamətini ölçmə bacarığı da şagirdlərə diyarşünaslıq fəaliyyəti zamanı öyrədilir. Məsələn: ağacların, əşyaların əyilmə istiqaməti, barmağını isladaraq havaya tutmaq və s. üsullar. Eləcə də 8-ci sinif üzrə "Təbiət" məzmun xətti üzrə hidrosfer haqqında biliklərin öyrənilməsi zamanı suyun duzluluğu və temperaturunun hesablanması kimi praktiki fəaliyyətə şagirdlər cəlb olunmalıdır. Məsələn bu mövzunun praktiki fəaliyyətdə öyrənilməsi zamanı şagirdlər bilikləri müstəqil əldə edərək mövzunu daha yaxşı anlamış olacaqlar. Məsələn: fənn müəllimi şagirdlərlə Xəzər dənizi sahillərinə ekskursiya təşkil edə bilər və yaxşı olar ki, ekskursiya üçün səhər saatlarında gedilsin, çünki bu halda şagirdlər suyun temperaturunu gün ərzində bir neçə dəfə- səhər, günorta və axşam saatlarında ölçə biləcəkdir. Həmçinin həmin vaxtlara müvafiq olaraq suyun duzluluğunu da hesablamaq olar. Həmçinin əgər keçən ildə bu ekskursiya təşkil edilmiş və bu işlər həyata keçirilmişdirsə, o zaman nəticələrin müqayisəsinə də baxmaq maraqlı olar.

Həmçinin, VIII sinifdə keçirilən "Biosfer" bölməsi də praktiki fəaliyyət tələb edir. Məsələn: müxtəlif rayonlara gəzinti-ekskursiya təşkil edərək onları həmin ərazilərin torpaq-bitki örtüyü ilə tanış etmək olar. Bu zaman şagirdlərə həmin ərazidə yerləşən ağac bitkiləri; kol bitkiləri; çöl bitkiləri; çəmən bitkiləri; yarımsəhra bitkilərindən nümunə toplamağı və ya onların fotoşəkillərini çəkərək adlarını və bəzi xüsusiyyətlərini qeyd etməyi (məsələn təbabətdə istifadə olunurmu, hər hansı efir yağı varmı, bəzək bitkisi kimi istifadə etmək olarmı və s.) tapşıra bilərik. Daha sonra eyni tapşırığı şagirdlər digər bir rayonda yerinə yetirə bilərlər. Beləliklə, onlar artıq 2 fərqli ərazinin təbii

şəraitindən asılı olaraqbitki örtüyünün, onların xüsusiyyətlərinin necə dəyişdiyini görmüş, bilmiş olurlar.

Ümumiyyətlə, yeni müasir interaktiv dərs quruluşunun əsas tələbi dərslərdə praktiki fəaliyyətlərin çox olmasıdır. Coğrafiya fənni isə xüsusilə çöl şəraitində, müşahidələr, ölçmələr aparılaraq, ərazilərə baxış keçirilərək öyrənilməlidir. Coğrafiyanın tədrisini diyarşünaslıq fəaliyyətsiz təsvir etmək qeyri-mümkündür. Diyarşünaslıq elmi-praktiki əhəmiyyət daşıdığı kimi, həm də tərbiyəvi məqsədə malikdir: şagirdlər təbiəti, təsərrüfatı, cəmiyyəti öyrənməklə bacarıqlar əldə edib, təfəkkürü, baxışları, təbiətə münasibəti dəyişir və şəxsiyyət kimi formalaşaraq öz doğma diyarına mühafizəkarcasına yanaşmağı öyrənir.

Diyarşünaslığın elmi məqsədi isə şagirdlərin öz diyarının təbiətini, tarixini, etnoqrafiyasını, toponimikasının, incəsənətini, ədəbiyyatı və sənətkarlığını və s. öyrənməsidir.

Bütün bu məqsədlərin yerinə yetirilməsi müasir coğrafiya fənn kurikulumunun interaktiv dərs metodları ilə və diyarşünaslıq fəaliyyəti ilə birgə həyata keçirilməsi sayəsində mümkündür. Hazırda diyarşünaslıq fəaliyyətinin həyata keçirilməsi üçün coğrafiya kabineti və meydançası həmçinin diyarşünaslıq işləri zamanı istifadə oluna biləcək müəyyən ölçmə, hesablama və s. alətlər lazımdır və həmçinin İKT avadanlıqları da zəruridir. Qeyd olunmalıdır ki, müasir informasiya əsrimizdə gündəlik o qədər yeniliklər baş verir və bütün bu baş verənlər, dəyişmələr coğrafiyaya birbaşa və ya dolayı yolla təsir edir. Bu yeniliklərdən biri də interaktiv, fəal dərs metodlarıdır ki, onlar da coğrafiyanın artıq yeni üsullarla tədrisini tələb edir. Corğafiya müəllimindən yüksək bacarıqlar, diyarşünaslıq işlərinin təşkilini tələb edir.

Coğrafiya fənn kurikulumunda müasir coğrafiya müəllimlərinin qarşısında duran başlıca vəzifələrdən biri kimi şagirdlərdə mövzular üzrə bilik keyfiyyətinin yüksəldilməsi məqsədilə onları praktik fəaliyyətə cəlb etməkdir. Praktik fəaliyyəti həyata keçirmək üçün ilk olaraq doğma diyardan başlamaq olduqca əhəmiyyətlidir. Beləliklə, şagirdlər həm doğma diyarları haqqında biliklər, faydalı məlumatlar əldə etmiş olurlar, həm də mövzuları daha rahat, asan mənimsəyə bilirlər. Ümumiyyətlə, diyarşünaslıq materiallarından istifadə gənc nəslin təlim-tərbiyəsində olduqca vacibdir.

***Ədəbiyyat***

1. *M.Verdiyeva - Coğrafiyanın tədrisində diyarşünaslıq prinsipi (Magistrantlar üçün dərs vəsaiti) Bakı 2021.*
2. *Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Coğrafiya fənni üzrə dərsliyin Metodik Vəsaiti, Bakı 2018.*

3. Z.Eminov, Q.Səmədov, A.Əliyeva – Ümumtəhsil məktəbləri üçün 8-ci sinif Coğrafiya fənni üzrə Metodik Vəsait, Bakı 2019
4. Dünyabəyim Əfəndiyeva, Dürdanə Ələsgərova – Diyarşünaslıq, Bakı 2014
5. www.academic.ru
6. www.e-derslik.edu.az
7. www.anl.az
8. www.kurrikulum.az

**Z.M.Əsədzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***zahirmhresd@gmail.com***

# XƏRİTƏ ANLAYIŞININ İŞARƏ, İNFORMASİYA, MODEL, MƏTN, DİL VƏ OBRAZ ANLAYIŞLARI İLƏ ƏLAQƏSİ

***Xülasə***

*Məqalədə xəritədə işarə, informasiya, model, mətn, dil və obraz anlayışları nəzərdən keçirilmişdir. Anlayışların əsas vəzifələri və nə məqsədlə istifadə edilməsi haqqında məlumat verilmişdir. Həmçinin məqalədə xəritənin perspektiv və ideal köməkçi vasitə olduğu daha yaxşı göstərilmişdir.*

# СООТНОШЕНИЕ МЕЖДУ ПОНЯТИЕМ КАРТЫ И ПОНЯТИЯМИ ЗНАКА, ИНФОРМАЦИИ, МОДЕЛИ, ТЕКСТА, ЯЗЫКА И ИЗОБРАЖЕНИЯ

***Резюме***

*Карта рассматривает знаки, информацию, модели, тексты, языки и изображения. Сообщалось об основных функциях понимания и о том, для какой цели оно используется. В статье также показано, что карта является прогностическим и идеальным помощником.*

# THE RELATİONSHİP BETWEEN THE CONCEPT OF MAP AND THE CONCEPTS OF SİGN, İNFORMATİON, MODEL, TEXT, LANGUAGE AND İMAGE

***Summary***

*The map examines signs, information, models, texts, languages, and images. It has been reported on the basic functions of understanding and what purpose it is used for. The article also showed that the map is a predictive and ideal helper.*

***Açar sözlər:*** *işarə, informasiya, model, mətn, dil ve obraz*

***Ключевые слова:*** *знаки, информация, модели, тексты, языки, изображения*

***Key words:*** *signs, information, models, texts, languages, and images*

Bölgədə şagirdin gördüyü obyektlərin coğrafiya dərsinə gətirilməsi “Diyarşünaslıq”dır. Diyarşünaslıq öz kəndinin, rayonunun, şəhərinin coğrafiyasının öyrənilməsi deməkdir. “Diyarşünaslıq məktəb coğrafiya təhsil

sisteminin bir komponentidir" deyə bilərik. Diyarşünaslıq bir elm kimi XVII əsrdə yaranmış və sonrakı dövrlərdə bir neçə coğrafşünas alimlərin əsəsrlərində ondan bəhs edilmişdir. Y.Kamenskinin "Böyük Didaktika" əsərində diyarşünaslıq ideyaları verilmişdir. F.Studitski dərsliyində də diyarşünaslıq ideyalarını görmək olur. D.D.Semyonovun "Müəllimlər üçün pedaqoji qeydlər" metodik vəsaitində diyarşünaslığa dair fikirləri görmək mümkündür. Azərbaycanda "Diyarşünaslıq" elminin təməli 1920-ci ildə Bakıda Azərbaycan Tarix Muzeyinin yaradılması ilə qoyuldu.

Diyarşünaslıq fəaliyyəti özündə müəllim və şagird fəaliyyətini əhatələyir. Müasir interaktiv dərs üsullarına əsasən şagird bacarıqlı tədqiqatçı olub, coğrafi bilik və bacarıqlarını diyarın tədqiqatı zamanı tətbiq etməlidir. Diyarşünaslıq işləri zamanı şagirdlər qrupla komanda şəklində işləməyi, verilən tapşırıqları düzgün yerinə yetirməyi, göstəriciləri qeyd edib, statistik şəkildə təqdim etməli və bütün bu prosesdə çöl şəraitində təhlükəsizlik qaydalarına əməl etməlidirlər. Bir sözlə desək, "Diyarşünaslıq" üzrə praktiki işlər zamanı şagird tədqiqatçıya çevrilir. Müəllim isə məktəbin yerləşdiyi ərazini və şagirdin yaşadığını tədqiq edərək öz fəaliyyətini yerinə yetirmiş olur.

Diyarşünaslıq materialları ən yaxşı təbii əyani vəsaitdir. Diyarşünaslıq materialları coğrafiya kabinetində saxlanılır və hər il əldə edilmiş diyarşünaslıq praktiki işləri üzrə yeni materiallar kabinetdə növbəti tədris ili üçün vəsait olaraq saxlanılır. Bu vəsaitlərin artması və yenilənməsi vacibdir. Çünki diyarın təbiətində, əhalisində il ərzində dəyişikliklər baş verir. Bunları nəzərə alaraq müəllimlə diyarşünaslıq işlərini müntəzəmliliyini daim diqqət mərkəzində saxlamalıdırlar.

Diyarşünaslıq fəaliyyətinin nəticələrində elmilik prinsipi mütləq gözlənilməlidir. Məsələn VII və VIII sinif şagirdləri praktiki işlər zamanı nümunələrin götürüldüyü ərazi haqqında ətraflı coğrafi-elmi məlumatlar qeyd etməlidirlər (məsələn: ərazinin relyefi, səth örtüyünün xarakteri, iqlimi və s.). Diyarşünaslıq fəaliyyəti sayəsində öz doğma diyarının öyrənilməsi ilə şagird-lərdə vətənpərvərlik hissi yüksəlir. Öz doğma diyarına sevgi, ona hörmət, rəğbət, şagirdlərin milli-mənəvi dəyərlərə söykənən ruhda tərbiyə edilməsi, diyarın təbiətinə mühafizəkarcasına yanaşma diyarşünaslığın pedaqoji prinsiplərinə daxildir. Həmçinin bunlarla yanaşı bu prinsiplər arasında şagirdlərin qabiliyyətlərinin aşkar edilməsi və hərtərəfli inkşaf etdirilməsi, şagirdlərdə müstəqil və kollektiv arasında fəaliyyət göstərmə bacarığının formalaşdırılması, istənilən şəraitə adaptasiya olma bacarığını yaratmaq, müşahidə qabiliyyətini inkşaf etdirmək və s. yer alır.

Müasir interaktiv dərslərin əsas məqsədi şagirdlərin biliyi müstəqil əldə edə bilməsi bacarığının formalaşdırılmasıdır. Məhz bununla əlaqəli olaraq "Diyarşünaslıq" daha mühüm əhəmiyyət kəsb edir. Çünki müasir coğrafiya

fənn kurikulumuna əsasən şagird özü müşahidə aparmalı, müşahidələrini təhlil edib müəyyən nəticə əldə etməlidir. Məsələn: VII sinif "Təbiət" məzmun xətti üzrə alt standartlara əsasən şagird hava elementlərinə dair sadə hesablamalar aparmalıdır. Bunun üçün o gün ərzində havanı müşahidə etməli və göstəriciləri qeyd edib sonda nəticə əldə etməlidir. Məsələn: sutkalıq temperatur amplitudasının hesablanması. Həmçinin həftə ərzində küləyi müşahidə edərək külək gülü qrafikini qura bilərlər. Həmçinin küləyin istiqamətini ölçmə bacarığı da şagirdlərə diyarşünaslıq fəaliyyəti zamanı öyrədilir. Məsələn: ağacların, əşyaların əyilmə istiqaməti, barmağını isladaraq havaya tutmaq və s. üsullar. Eləcə də 8-ci sinif üzrə "Təbiət" məzmun xətti üzrə hidrosfer haqqında biliklərin öyrənilməsi zamanı suyun duzluluğu və temperaturunun hesablanması kimi praktiki fəaliyyətə şagirdlər cəlb olunmalıdır. Məsələn bu mövzunun praktiki fəaliyyətdə öyrənilməsi zamanı şagirdlər bilikləri müstəqil əldə edərək mövzunu daha yaxşı anlamış olacaqlar. Məsələn: fənn müəllimi şagirdlərlə Xəzər dənizi sahillərinə ekskursiya təşkil edə bilər və yaxşı olar ki, ekskursiya üçün səhər saatlarında gedilsin, çünki bu halda şagirdlər suyun temperaturunu gün ərzində bir neçə dəfə- səhər, günorta və axşam saatlarında ölçə biləcəkdir. Həmçinin həmin vaxtlara müvafiq olaraq suyun duzluluğunu da hesablamaq olar. Həmçinin əgər keçən ildə bu ekskursiya təşkil edilmiş və bu işlər həyata keçirilmişdirsə, o zaman nəticələrin müqayisəsinə də baxmaq maraqlı olar.

Həmçinin, VIII sinifdə keçirilən "Biosfer" bölməsi də praktiki fəaliyyət tələb edir. Məsələn: müxtəlif rayonlara gəzinti-ekskursiya təşkil edərək onları həmin ərazilərin torpaq-bitki örtüyü ilə tanış etmək olar. Bu zaman şagirdlərə həmin ərazidə yerləşən ağac bitkiləri; kol bitkiləri; çöl bitkiləri; çəmən bitkiləri; yarımsəhra bitkilərindən nümunə toplamağı və ya onların fotoşəkillərini çəkərək adlarını və bəzi xüsusiyyətlərini qeyd etməyi (məsələn təbabətdə istifadə olunurmu, hər hansı efir yağı varmı, bəzək bitkisi kimi istifadə etmək olarmı və s.) tapşıra bilərik. Daha sonra eyni tapşırığı şagirdlər digər bir rayonda yerinə yetirə bilərlər. Beləliklə, onlar artıq 2 fərqli ərazinin təbii şəraitindən asılı olaraqbitki örtüyünün, onların xüsusiyyətlərinin necə dəyişdiyini görmüş, bilmiş olurlar.

Ümumiyyətlə, yeni müasir interaktiv dərs quruluşunun əsas tələbi dərslərdə praktiki fəaliyyətlərin çox olmasıdır. Coğrafiya fənni isə xüsusilə çöl şəraitində, müşahidələr, ölçmələr aparılaraq, ərazilərə baxış keçirilərək öyrənilməlidir. Coğrafiyanın tədrisini diyarşünaslıq fəaliyyətsiz təsvir etmək qeyri-mümkündür. Diyarşünaslıq elmi-praktiki əhəmiyyət daşıdığı kimi, həm də tərbiyəvi məqsədə malikdir: şagirdlər təbiəti, təsərrüfatı, cəmiyyəti öyrənməklə bacarıqlar əldə edib, təfəkkürü, baxışları, təbiətə münasibəti dəyişir və şəxsiyyət kimi formalaşaraq öz doğma diyarına mühafizəkarcasına yanaşmağı öyrənir.

Diyarşünaslığın elmi məqsədi isə şagirdlərin öz diyarının təbiətini, tarixini, etnoqrafiyasını, toponimikasının, incəsənətini, ədəbiyyatı və sənətkarlığını və s. öyrənməsidir.

Bütün bu məqsədlərin yerinə yetirilməsi müasir coğrafiya fənn kurikulumunun interaktiv dərs metodları ilə və diyarşünaslıq fəaliyyəti ilə birgə həyata keçirilməsi sayəsində mümkündür. Hazırda diyarşünaslıq fəaliyyətinin həyata keçirilməsi üçün coğrafiya kabineti və meydançası həmçinin diyarşünaslıq işləri zamanı istifadə oluna biləcək müəyyən ölçmə, hesablama və s. alətlər lazımdır və həmçinin İKT avadanlıqları da zəruridir. Qeyd olunmalıdır ki, müasir informasiya əsrimizdə gündəlik o qədər yeniliklər baş verir və bütün bu baş verənlər, dəyişmələr coğrafiyaya birbaşa və ya dolayı yolla təsir edir. Bu yeniliklərdən biri də interaktiv, fəal dərs metodlarıdır ki, onlar da coğrafiyanın artıq yeni üsullarla tədrisini tələb edir. Corğafiya müəllimindən yüksək bacarıqlar, diyarşünaslıq işlərinin təşkilini tələb edir.

Coğrafiya fənn kurikulumunda müasir coğrafiya müəllimlərinin qarşısında duran başlıca vəzifələrdən biri kimi şagirdlərdə mövzular üzrə bilik keyfiyyətinin yüksəldilməsi məqsədilə onları praktik fəaliyyətə cəlb etməkdir. Praktik fəaliyyəti həyata keçirmək üçün ilk olaraq doğma diyardan başlamaq olduqca əhəmiyyətlidir. Beləliklə, şagirdlər həm doğma diyarları haqqında biliklər, faydalı məlumatlar əldə etmiş olurlar, həm də mövzuları daha rahat, asan mənimsəyə bilirlər. Ümumiyyətlə, diyarşünaslıq materiallarından istifadə gənc nəslin təlim-tərbiyəsində olduqca vacibdir.

***Ədəbiyyat***

1. *Allahverdiyev H.H, Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası, Bakı 1991.*
2. *H.H Sadıxlı, H.E Coğrafiyanın tədrisi metodikası, Bakı 1976.*
3. *Budaqov B.E, Apoyev E.F, Azərbaycan Respublikasının coğrafiyası, Bakı 1991*

**E.E.Məmmədov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
***Elkhan_el@yahoo.com***

# FİLMLƏRİN REKLAMININ ƏSAS YOLLARI

***Xülasə***

*Gələcək filmin tamaşaçılarına təsir etməkdə reklamın əhəmiyyəti onun hər hansı bir məhsulun bazarında olmasının zəruriliyini vurğulayır. Kino sənayesindəki reklamlar ən yaxşı göstəricidir ki, hər şeyə özünəməxsus bir məna verməkdə müəyyən bir bacarıqla bu mənanı filmdən tutmuş diş ipinə qədər hər şeylə sata bilərsiniz.*

*Yekun olaraq, etiraf etmək lazımdır ki, film ideyasının yarandığı andan dünya yayımının sonuna qədər reklam dəstəyinə ehtiyac təsdiqlənir. Lakin bu, o halda lazımdır ki, kino sənəti əsəri kütləvi tələbat məhsulu hesab edilsin, onun satışından, onun istehsalına xərcləndiyindən qat-qat artıq gəlir əldə edə bilərsiniz. Film öz spesifikliyinə görə kütləvi tamaşaçı istəklərinə cavab vermirsə, uzunmüddətli kreativ reklam kampaniyası ona qazanc gətirsə də, tamaşaçı sevgisini gətirməyəcək.*

# ОСНОВНЫЕ СПОСОБЫ РЕКЛАМЫ ФИЛЬМОВ

***Резюме***

*Значение, которое реклама имеет во влиянии на аудиторию будущего фильма, подчеркивает необходимость её присутствия на рынке любых товаров. Реклама в киноиндустрии - лучший показатель того, что при определённом умении придаваться всему уникальный смысл, можно продать этот смысл с чем угодно - от фильма до зубной нити.*

*Подводя черту, следует признать, что необходимость рекламного сопровождения с самого рождения идеи фильма вплоть до конца мирового проката - подтверждена. Но, нужна она только в случае, когда произведение киноискусства рассматривают как продукт массового спроса, на продаже которого можно заработать во много раз больше, чем было затрачено на его производство. В случае, если фильм не отвечает в силу своей специфики, желаниям массовой аудитории, длительная креативная рекламная кампания обеспечит ему прибыль, но не принесет любовь зрителей.*

# MAIN WAYS OF ADVERTISING MOVIES

***Summary***

*The importance that advertising has in influencing the audience of a future film emphasizes the need for its presence in the market of any product. Advertising in the film industry is the best indicator that with a certain amount of skill in giving everything a unique meaning, you can sell that meaning with anything from a movie to dental floss.*

*Summing up, it should be recognized that the need for advertising support from the very birth of the idea of the film until the end of the world distribution is confirmed. But, it is needed only in the case when a work of cinema art is considered as a product of mass demand, on the sale of which you can earn many times more than was spent on its production. If the film does not meet the desires of the mass audience due to its specificity, a long-term creative advertising campaign will provide it with profit, but will not bring the love of the audience.*

Filmi uğura, pula və milyonlarla tamaşaçı qazanmağa aparan reklam strategiyalarının sehri haqqında danışacağıq. Filmin reklamı bütün növ informasiya kanalları, reklam kampaniyaları, bütün növ kütləvi informasiya vasitələri (çap, televiziya, internet), kinoteatrlarda kampaniyalar ilə aparılır. Bundan əlavə, reklam üçün xüsusi PR tədbirləri keçirirlər. Bütün mümkün kanallarda effektiv mövqe tutmaq üçün filmə "reklam forması" verilir və bunu aşağıdakı kimi təsnifləşdirə bilərik:

- Afişa. Bu, kinoda ən qədim və ən vacib reklam vasitəsidir. Afişa filmin üslubuna uyğun hazırlanır. Afişada, adətən, filmin əsas personajları, onların adları, filmin adı, rejissorun adı, kinostudiyanın adı, nominasiyaların yaxın planda təsviri verilir.
- Slogan. Bu, filmin fəlsəfəsini əks etdirən ifadədir. Filmin adı ilə birlikdə bütün tanıtım və məlumat materiallarında təqdim edilir.
- Tizer (ingilis dilindən tizer – "teaser") - Məhsulun tanıtımının çox erkən mərhələsində görünən, məhsul haqqında bəzi məlumatları ehtiva edən, lakin onun adını çəkməyən reklam mesajıdır. Filmin tanıtımı vəziyyətində, şəkil üzərində iş hələ tamamlanmadıqda tizerlər işə salınır. Tizer bir-biri ilə əlaqəsi olmayan, lakin qarşıdan gələn filmin ən möhtəşəm anlarından ibarət 15-30 saniyəlik videodur.
- Treyler - Film haqqında əsas məlumatları (studiya-prodüser, başlıq, şüar, premyeranın təxmini tarixi) və filmin ən möhtəşəm səhnələrini özündə əks etdirən kiçik videodur. Bəzən treylerlərdə yalnız tanıtım məqsədi ilə çəkilmiş və filmdə olmayan xüsusi kadrlardan istifadə edirlər.
- Tanıtım videosu - treylerdən onunla fərqlənir ki, əsas vurğu rejissorun, aktyorların adlarına verilir, janr qeyd olunur, elan verilir, mükafatlara namizədlər sadalanır, premyeranın dəqiq tarixi qeyd olunur.
- Bilbordlar, firewallar, supersaytlar və digər xarici reklam növlərindən istifadə edilir.
- Veb sayt. Film istehsalının ilkin mərhələsində yaradılır. Filmin çəkilişlərinin gedişi haqqında məlumat yerləşdirilir. Burada çəkiliş meydançasından kadrlar, filmin rejissorları və aktyorları ilə müsahibələr yerləşdirilir. Tamaşaçılar tərəfindən filmin müzakirəsi üçün forum açılır (Tim Burtonun "Alice Möcüzələr ölkəsində" filmində olduğu kimi). Orada tamaşaçılar ilk dəfə filmin tizerini və treylerini görə bilərlər.

- PR-hadisələr - Tez-tez film ətrafında miflər, hekayələr yaradılır, kinoteatrlarda yüksək səs-küylü aksiyalar keçirilir, ictimaiyyətin əlavə diqqəti filmə cəlb edilir.
- Cross promotion - Nüfuzlu brendin və yaxşı kommersiya potensialı olan filmin birgə təşviqi texnologiyasıdır. Brend bu halda filmin dizaynı və ya digər xüsusiyyətləri ilə bağlı yeni məhsul buraxır, reklamda filmin şüarı olan çərçivələrdən istifadə edir. Məsələn, "Karib dənizinin quldurları" filmi, "Qara mirvarinin lənəti" (2003) Fanta brendi tərəfindən fəal şəkildə təbliğ olunurdu. Bu zaman şüşə etiketləri əsas personajların fotoşəkilləri ilə bəzədilib, içki alarkən hədiyyə olaraq "pirat" kartları verilirdi və aksiya şüarı: "Yo-ho-ho və bir şüşə Fanta!" kimi təqdim edilirdi.

Film istehsalında çalışan reklamçılar və marketoloqlar son zamanlar səylərini 5 sahədə cəmləşdiriblər:

1. Proaktiv marketinq. Filmi daha effektiv təbliğ etmək üçün mütəxəssislər onun istehsalına hazırlıq mərhələsində işə başlayırlar. Kino saytı yaradılır, rejissor, prodüserlər, baş rollara namizədlər və s. haqqında məlumatlar mediaya daxil olur. Tamaşaçıları onları gözləyən tamaşaya əvvəlcədən hazırlayaraq, filmin yaradılmasında istifadə olunan unikal texnologiyalardan bəhs edilir. Film, rejissorun orijinal ideyaları, musiqi qrupları və ya ifaçıların səs yazısı (filmin hərəkətini müşayiət edən musiqi əsərləri), gələcək filmin mükafatlara nominasiyaları, filmin istehsalında iştirak edən şəxslərin şərhləri dərc edilir.

Tizerlər yayımlanmağa başlayır, daha sonra tamaşaçıların səbirsizliyini alovlandıran təsirli kadrları olan treylerlər, internet saytlarında filmin saundtreki ilə albom yerləşdirilir, gözlənilən "İlin hadisəsi"- ni elan edən açıq hava reklamı başlayır.

2. Şəxsi brend. Filmin gələcək auditoriyasının formalaşmasına mühüm təsir alətidir. Dünyanın ən çox gəlir gətirən filmi olan "Titanik"in (və ona reputasiya qazandıran) rejissoru Ceyms Kemeronun adı həmişə onun yeni "Avatar" filminin adı ilə yanaşı çəkilirdi və bir çoxları onun sübut olunmuş istedadına güvənərək dərhal filmə baxmağa qərar verirdi.

Eyni model Tim Burtonun "Alice" işində də işlənilmişdir. Qara fantaziyası ilə bütöv bir nəsli fəth edən rejissorun "qotik" obrazı filmin kassa uğurunda əsas amillərdən birinə çevrildi və bir çox pərəstişkarları üçün filmi izləmək üçün yeganə səbəb oldu. Bundan əlavə, aparıcı aktyorların hər birinin obrazı filmə əvəzsiz tanıtım xidməti göstərdi ki, bu da kino sənayesində şəxsi brendinqin üstünlüklərini vurğulayır. Tamaşaçı rejissorun və xüsusilə aktyorların adları ilə film arasında qırılmaz əlaqə yaradır. Beləliklə, gələcək layihə aktyor və rejissor obrazından asılı olur. Ona görə də ekspertlər "oduna yağ tökməyi xoşlayırlar" və mediada görkəmli kinorejissorlardan birinin mövcud imicini gücləndirəcək süjet təqdim edirlər.

Film məhsulu reklamının ən aydın yerləşdirilməsi dörd əsas marka tərəfindən təmin edilir:

- Aktyorluq
- Rejissorluq
- Studiya-prodüserin brendi
- Yayım kanalının brendi

Hollivud mütəxəssislərinin fikrincə, güclü ekran brendinin yaradılması on milyonlarla dollara başa gəlir və 2 ildən 5 ilə qədər vaxt aparır. Belə bir brend üçün əvəzolunmaz şərt aktyora və rejissora nominasiya üzrə mükafat və ya nüfuzlu mükafat (Oscar, Golden Globe, Palm Branch) verilməsidir.

Effektiv şəxsi brend aşağıdakı komponentləri tələb edir:

- Ekranda rol
- Mükafatlar və rollar üçün nominasiyalar
- Aktyorun iştirakı ilə filmlərin populyarlığı

Bəzən kinoteatrlarda yeni çıxan filmin reklamlarında filmə baxmağı bacaran müasir cəmiyyətin nüfuzlu simaları adi tamaşaçılara onu izləməyi tövsiyə edirlər. Rusiyada "Şrek" (2007) cizgi filminin üçüncü hissəsinin reklamı belə oldu. Məsləhətçinin imicindən təsirlənən insanlar cizgi filminə baxdılar və DreamWorksa layiqli kassa qazandırmağa kömək etdilər.

Təkcə ölkə daxilində deyil, həm də beynəlxalq miqyasda tanınan güclü şəxsi brenddən nəinki kino məhsullarını tanıtmaq, həm də istənilən digər məhsulu reklam etmək üçün səmərəli istifadə etmək olar. Şəxsi brend real bazar dəyərinə malikdir və mütəxəssislərin uzunmüddətli birgə işinin nəticəsidir.

3. İnternet promosyonları. Bu zaman strategiya düzgün qurularsa, yüksək nəticələr əldə etmək mümkündür.
4. Malların birgə reklamı (kross promosyon). Yuxarıda qeyd edildiyi kimi, bu texnologiya perspektivli filmin reklam kampaniyasına dəstək verməklə güclü brendin imicini yaxşılaşdırmaq üçün tez-tez istifadə olunur. Çox vaxt bu texnika MacDonalds tərəfindən tətbiq olunur, uşaqlar üçün filmlərin təbliğinə dəstək verir, xoşbəxt mövzulu yemək hazırlayır - cizgi filmi və ya film personajlarının fiquru ilə qida məhsulları dəsti təqdim edir.
5. Kinoteatrda reklam kampaniyası. Filmin hədəf auditoriyasına çatmağa gəldikdə, kino reklamı ən təsirli yollardan biridir. Kinoteatrları, bir qayda olaraq, eyni tamaşaçılar: - asudə vaxtlarını böyük ekranda filmə baxaraq keçirməyə üstünlük verən, filmlərin çeşidinə o qədər də bağlı olmayan insanlar və marağını ancaq müəyyən filmlər cəlb edə bilən insanlar ziyarət edirlər. Eyni seansda hər iki kateqoriyadan olan tamaşaçıların nümayəndələri olur və onların hamısı bu filmin janrı, aktyorları və ya rejissorunun işi ilə maraqlanmasından asılı olmayaraq qarşıdan gələn filmin reklamını görürlər.

Televiziya reklamından fərqli olaraq, film reklamı daha çox sərbəstliyə malikdir və müxtəlif məhdudiyyətlərdən daha az əziyyət çəkir. Çoxsaylı araşdırmalar təsdiqləyir ki, kinoteatrda nümayiş olunan videoların yaddaqalanlığı əhəmiyyətli dərəcədə artırır. Çox vaxt videolar tamaşaçıya filmin əvvəlində göstərilir. Bu anda, bir qayda olaraq, tamaşaçıların diqqəti tamamilə ekrana aid olur və tamaşaçı süngər kimi daxil olan məlumatları mənimsəyir.

Kino zalında nümayiş üçün nəzərdə tutulan reklam çarxının formatını televiziya ilə müqayisə etmək çətindir. İlk növbədə, bu, tamamilə fərqli texniki imkanlarla bağlıdır - ekran ölçüsü, ətraf səs və s. Dinamik və parlaq reklam tamaşaçılar tərəfindən daha çox bəyəniləcək və yadda qalacaq.

Kinoteatrda reklam təkcə videoçarxın sessiyadan əvvəl nümayişi deyil. Müasir kinoteatr insanların asudə vaxtlarını keçirdikləri kafelərdir - kimi baxmaq olar. Burada da filmlərin reklamı üçün effektiv platformalar var. Bir çox şirkətlər posterlər, səyyar stendlər quraşdırılır, bukletlər paylayır, foyedə televiziyada videolar göstərir, ziyarətçilərin şəkil çəkdirməyi xoşladığı film personajları şəklində həcmli karton konstruksiyalar yerləşdirir.

Standart təqdimat xüsusiyyətlərinə sessiya üçün biletlərin reklamı da daxildir.

Kinoteatrda qeyri-standart reklam üçün yerlər vardır. Biz sadəcə olaraq fantaziyalarımızdan istifadə etməliyik. Bir vaxtlar ABŞ-da təşəbbüskar reklamçı Mett Folkner açıqcalar şəklində reklamları tamaşaçıya yaxın yerdə yerləşdirirdi. Bu gün hər bir stul bir stəkan içki üçün yerlə təchiz edilmişdir və amerikalıların reklam platforması kimi istifadə etdiyi bu idi. Sessiyaya gələn insanlar əvvəlcədən açıqcalara baxıb, maraqlanıblarsa, özləri ilə aparırdılar.

Reklam platforması kimi kinoteatrın üstünlükləri aşağıdakılardır:

- Keyfiyyətli əlaqə. İzləyici dəyişməyəcək və reklamı qaçırmayacaq;
- Seqmentləşdirmə və hədəf auditoriyanızla işləmək;
- Elanın yüksək yaddaqalanlığı.

Mənfi tərəfi digər daşıyıcılarla müqayisədə yerləşdirmənin yüksək qiymətidir.

Reklam mütəxəssisləri kinoteatrdan kompleks kimi istifadə etməyi məsləhət görürlər: şoudan əvvəl treyler, biletlərdə reklam, popkorn (qarğıdalı) fincanları, foyedə plakatlar. Nə qədər çox kanal iştirak etsə, səmərəlilik bir o qədər yüksək olar.

Amerikanın Arbitron şirkətinin (media bazarı haqqında məlumat verməkdə ən nüfuzlu şirkətlərdən biri) 2008-ci ildə kinoteatrlarda reklamın tamaşaçıya təsirinin öyrənilməsinə həsr olunmuş araşdırmasına nəzər salaq.

Respondentlərin 94%-i filmdən əvvəl reklam filmi elanlarına müsbət yanaşır. 84%-i "Gələcək filmlərin kadrlarına baxmaq üçün teatra tez-tez getməyi xoşlayıram" ifadəsi ilə razıdır. Respondentlərin 83%-i kinoteatrın

foyesində həmişə reklam strukturlarına və afişalara diqqət yetirir. 74%-i bufetdən fəal istifadə edir, reklam fincanlarında popkorn alır.

Bu araşdırmanın göstəricilərini nəzərə alan ekspertlər film reklamına əyləncəli xarakter bağlayır, getdikcə daha çox gözlənilməz həll yolları axtarır.

Bu texnologiyaların hamısı kinematoqrafiyada uzun müddət və səmərəli istifadə olunur, lakin bəzən tamaşaçıların diqqətini yüz faiz təmin etmək üçün mütəxəssislər filmin PR dəstəyini həyata keçirən orijinal üsullar yaratmağa əl atırlar.

***Ədəbiyyat***

1. *Romodanovskaya, N. Kinoda audiovizual əsərlərin təbliği üçün marketinq strategiyasının formalaşması [Elektron resurs] / N.Romodanovskaya. – ProfiCinema. www.proficinema.ru/questions problems/articles/detail.php?ID=37049*
2. *Sergeeva, E. Rəsm "Günəşin yandırdığı-2. Gözləmə" çox da təsir edici olmayan nəticələrlə başladı [Elektron resurs] / E. Sergeeva. - Əmək. - http://www.trud.ru/article/27-04-2010/240982_pervaja_nedelja_prokata_utomlennyx_solntsem-2_okazalas_provalnoj.html*
3. *Tışçenko, A. Rus kinosu reklamının xüsusiyyətləri [Elektron resurs] / A. Tışçenko - Adme.ru. - www.adme.ru/articles/2006/05/04/6162/*
4. *Ulyanova, M. Kino bazarının marketinqinin xüsusiyyətləri və marketinq obyekti kimi kino istehsalının spesifikliyi [Elektron resurs] / M. Ulyanova - Cfin. - www.cfin.ru/press/marketing/2000-2/08.shtml*
5. *Shaughnessy, O. Competitive marketing [Mətn] / O.Shaughnessy - Sankt-Peterburq: Peter, 2002*
6. *Eriaşvili, N. Marketinq. Azad bazar sistemində marketinqin prinsipləri və texnologiyası: Universitetlər üçün dərslik [Mətn] / N. Eriaşvili. - M: Birlik, 2007*
7. *Yampolskaya, E., Ramm V. Böyüklüklə yandırılmış [Elektron resurs] / E.Yampolskaya, V.Ramm-İzvestiya.- http://www.izvestia.ru/culture/article3140182/*
8. *Yan, V. Reklam kampaniyaları [Mətn] / V. Yan. - M: Verşina, 2003*
9. *Advertology.ru. Reklamda elm [Elketron resursu]/ Advertology.ru. - www.advertology.ru*
10. *Kreakratia.ru. Kinoteatrlarda reklam [Elektron resurs] / Creakratia. - www.kreakratia.ru*
11. *LookAtMe.ru. Alisomania [Elektron resurs]/ LookAtMe. - www.lookatme.ru/flows/fashion_news/posts/83043-alisomaniya-liniya-odezhdy-disney*
12. *Composition.ru. Möcüzələr ölkəsi qalxanlarda canlanır [Elektron resurs] / Sostav.ru. - http://www.sostav.ru/news/2010/03/04/11r/*

**S.M.Əskərov**
**Bakı Avrasiya Universiteti**
***asgerov17@mail.ru***

# QARABAĞIN TURİZM POTENSİALI VƏ REGİONDA TURİZMİN İNKİŞAFI MƏSƏLƏLƏRİ

***Xülasə***

*Məqalədə Qarabağın turizm potensialı və regionda turizmin inkişafı elmi cəhətdən araşdırılıb. Məqalədə hesab olunur ki, Qarabağın turizm potensialı, əlverişli iqtisadi-coğrafi mövqeyi, zəngin ehtiyatları, flora və faunası ölkənin turizm sənayesinin inkişafında mühüm rol oynayacaqdır. Qarabağ bölgəsinin turizm potensialı bu bölgənin təbii, tarixi-mədəni obyektləri və hadisələri, habelə bu ərazidə turizm fəaliyyətinin təşkili üçün sosial-iqtisadi şəraitdən ibarətdir və Azərbaycanın ən zəngin turizm potensialına malik regiondur. Qarabağda Şuşa kimi qədim tarixə malik şəhərlər, Xocalı, Xankəndi, Xocavənd, Ağdam, Ağdərə, Hadrud kimi qədim yaşayış məskənləri və digər inkişaf etmiş rayonların olması regionun mühüm turizm potensialına malik olduğunu göstərir. Məqalədən Qarabağın turizm potensialı və regionda turizmin inkişafı, eləcə də turizm infrastrukturunun bərpası istiqamətində işlərin aparılması üçün praktiki olaraq istifadə oluna bilər.*

# ТУРИСТИЧЕСКИЙ ПОТЕНЦИАЛ КАРАБАХА И ВОПРОСЫ РАЗВИТИЯ ТУРИЗМА В РЕГИОНЕ

***Резюме***

*В статье научно исследованы туристический потенциал Карабаха и развитие туризма в регионе. В статье высказано мнение, что туристический потенциал Карабаха, выгодное экономико-географическое положение, богатые ресурсы, флора и фауна сыграют важную роль в развитии туристической отрасли страны. Туристический потенциал Карабахского региона складывается из природных, историко-культурных объектов и событий этого региона, а также социально-экономических условий для организации туристической деятельности в этом районе, и это регион с богатейшим туристическим потенциалом Азербайджан. В Карабахе есть города с древней историей, такие как Шуша, древние поселения, такие как Ходжалы, Ханкенди, Ходжавенд, Агдам, Агдара, Гадруд и другие развитые районы, что свидетельствует о том, что регион обладает важным туристическим потенциалом. Статья может быть использована на практике для проведения работ по туристическому потенциалу Карабаха и развитию туризма в регионе, а также восстановлению туристической инфраструктуры.*

# THE TOURISM POTENTIAL OF KARABAKH AND ISSUES OF TOURISM DEVELOPMENT IN THE REGION

***Summary***

*In the article, the tourism potential of Karabakh and the development of tourism in the region were scientifically investigated. The article notes that Karabakh's tourism potential, favorable economic-geographical position, rich resources, flora and fauna will play an important role in the development of the country's tourism industry. The tourism potential of the Karabakh region consists of the natural, historical and cultural objects and events of this region, as well as socio-economic conditions for the organization of tourism activities in this area, and it is the region with the richest tourism potential of Azerbaijan. In Karabakh there are cities with an ancient history such as Shusha, ancient settlements such as Khojaly, Khankendi, Khojavend, Agdam, Aghdara, Hadrud and other developed regions, indicating that the region has an important tourism potential. The article can be used in practice to carry out work on the tourism potential of Karabakh and the development of tourism in the region, as well as the restoration of tourism infrastructure.*

***Açar sözlər:*** *Qarabağ, turizm, turizm potensialı, turizm resursları, turizmin inkişafı*

***Ключевые слова:*** *Карабах, туризм, туристический потенциал, туристические ресурсы, развитие туризма*

***Key words:*** *Karabakh, tourism, tourism potential, tourism resources, tourism development*

özünəməxsus unikal coğrafiyaya və milli dövlətçilik ənənələrinə malik olan ölkələrdən biridir. Milli dövlətçilik tariximiz qədər, ölkəmizin əsas regionlarından biri olan Qarabağın tarixi və coğrafi mövqeyi də özünün fərqli cəhətləri, turizm resursları və potensialı, sosial, iqtisadi və mədəni ənənələri ilə zəngindir. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və xalqımızın misilsiz fədakarlığı və qəhrəmanlığı ilə qazanılan böyük Zəfərdən sonra Ermənistanın hərbi təcavüzündən azad edilmiş ərazilərdə, o cümlədən, Qarabağda aparılan geniş bərpa və quruculuq işləri bu bölgənin turizm potensialı və regionda turizm infrastrukturunun yaradılması və turizmin inkişafı məsələlərinin zəruriliyini ortaya qoymuşdur. Qeyd edək ki, dövlət başçısının 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yenidən bölgüsü təsdiq edilmiş, Fərmanda Qarabağ iqtisadi rayonun yaradılması zərurəti ilə əlaqədar qeyd olunmuşdur ki, Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil

olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir. (1) Post-müharibə dönəmində yaranan yeni geosiyasi və geoiqtisadi reallıqlar, həmçinin respublikamızda iqtisadi rayonların yeni bölgüsünə əsasən irimiqyaslı layihələrin hazırlanması, tədbirlərin görülməsi, bu məqsədlə dövlətimiz tərəfindən qəbul edilən qərarların tənzimlənməsi və həyata keçirilməsi istiqamətində müvafiq addımlar atılmaqdadır. Ümumilikdə ölkəmizdə turizmin inkişafı kontekstində Qarabağ iqtisadi rayonunun çox zəngin turizm potensialı olduğu üçün, bu bölgədə turizm marşrutlarının işlənib hazırlanması, bu bölgəyə böyük qayıdışdan sonra turizm sektorunun inkişaf etdirilməsi mühümdür. Ona görə də bu məqalədə Qarabağın turizm potensialı və əsas inkişaf istiqamətləri üzrə məsələnin elmi cəhətdən araşdırılmasını zəruri hesab edirik.

Qarabağın dünyanın ən qədim insan məskənlərindən, mədəniyyət ocaqlarından biri olması, həmçinin bu bölgənin əlverişli təbii-coğrafı şəraitin, şirin su qaynaqlarının, bitki və heyvanlar aləminin zənginliyinin, “Azıx”, “Tağlar” və s. kimi təbii mağaraların olması regionun turizm potensialını səciyyələndirən ən əsas amillərdir.

Elmi termin kimi ədəbiyyatlarda “turizm potensialı” təbii, tarixi, mədəni obyekt və hadisələrin, habelə müəyyən bir ərazidə turizm fəaliyyətinin təşkili üçün sosial-iqtisadi və texnoloji ilkin şərtlərin məcmusu (12, s.32) hesab edilir.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, respublikamızda turizmin inkişafını daha da sürətləndirmək, ölkənin daxili turizm potensialını dünya bazarına çıxarmaq, xarici turistlərin diqqətini turistik bölgələrə cəlb etmək məqsədilə bölgələr üzrə 7 turizm marşrutu müəyyənləşdirilmişdir. Bunlardan biri də Bakı-Qarabağ marşrutudur. Azərbaycanın daxili turizm potensialı, ilk növbədə, bölgələrin əlverişli təbii-coğrafi mövqedə yerləşməsi, zəngin flora və faunası, gözəl təbiəti ilə şərtlənir. Eyni zamanda, son illərdə ayrı-ayrı bölgələrdə müasir tələblərə cavab verən istirahət mərkəzlərinin, hotellərin inşası, yol-nəqliyyat infrastrukturunun yaradılması həm xarici, həm də yerli turistlərin bölgələrimizə marağını artırıb. (2, s.8)

Dos.dr.H.B.Soltanova qeyd edir ki, Qarabağ Azərbaycanın ən zəngin turizm potensialına malik bölgəsidir. Burada incəsənət, qədim tarix və mədəniyyət, füsunkar təbiət nümunələri turizm kompleksinin yaradılması üçün yararlıdır. (8, s.349)

Əlbəttə, Qarabağda Şuşa kimi qədim tarixə malik şəhər, Xocalı, Xankəndi, Xocavənd kimi qədim yaşayış məskənləri, Ağdam, Ağdərə və digər inkişaf etmiş rayonlar vardır. Qarabağ Azərbaycanın tərkib hissəsi kimi iqtisadi inkişaf baxımından tarixən ölkəmizin digər regionları ilə sıx əlaqələrə malik olub, müasir sənayeyə, kənd təsərrüfatına, geniş sosial struktura malik yüksək

inkişaf etmiş iqtisadi regionlarından biri olmuşdur. Bu bölgənin coğrafi mövqeyi, təbii sərvətləri və insan resursları Qarabağ iqtisadiyyatının inkişafında mühüm rol oynayır, buradakı turizm potensialı, mövcud təbii ehtiyatlar, dağ-mədən sənayesi və digər resurslar turizm üçün olduqca əlverişli mühit yaradır. 1988-ci ilədək, yəni Ermənistanın bu əraziləri işğal edənə qədər Qarabağ iqtisadi rayonu məhz bu sərvətlər hesabına mühüm inkişaf göstəriciləri əldə etmiş və bu iqtisadi nəticələr birbaşa olaraq bölgədə məskunlaşmış əhalinin yaşayış səviyyəsində və məşğulluğunda özünü göstərmişdir. Qarabağda kənd təsərrüfatı, o cümlədən, taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, pambıqçılıq və tütünçülüklə yanaşı ətlik və südlük heyvandarlıq məhsullarının istehsalında mühüm göstəricilər mövcud olmuşdur. 90-cı illərə qədər Azərbaycanda çox inkişaf etdirilən üzüm plantasiyaları Qarabağın da bütün rayonlarında, xüsusən, Fizuli və Cəbrayılda var idi. Burada təbii otlaqların zənginliyi heyvandarlığın inkişafına, əlverişli təbii-iqlim şəraiti arıçılığın inkişafına şərait yaradıb. Qarabağdakı tut bağları ipəkçiliyin və baramaçılığın inkişafına səbəb olmuşdu. Burada yüngül və yeyinti sənayesi aparıcı sahələr olmuşdu. Qarabağın bütün rayonlarında, xüsusən, Ağdam, Xankəndi, Hadrut və Şuşada şərabçılıq, müxtəlif meyvə-tərəvəz konserv sənayesi, unüyütmə, çörəkbişirmə, toxuculuq, tikiş, ipəkçilik, xalçaçılıq, ayaqqabı, gön-dəri sənayesi müəssisələri fəaliyyət göstərib, Şuşada unikal musiqi alətləri fabriki olub. Eləcə də emal sənayesi və sənətkarlıqda, xüsusən dünyaca məşhur olan xalçaçılıqda Qarabağ adı hələ o dövrdə dünya markası idi. Qarabağ özünün əvəzsiz turizm ehtiyatları və kurort sanatoriya müəssisələri, qorunan təbii-rekreasiya məkanları ilə səyahətçilərin də diqqət mərkəzində olub. Qarabağ turizm baxımından zəngin təbii ehtiyatlara və unikal iqlim şəraitinə malikdir. Ərazinin çox hissəsini Qarabağ silsiləsi tutur. Hər tərəfdən baxdıqda qala kimi yüksəklik mövqeyə malik olan Şuşa yaylası və onun ətrafındakı Daşaltı kanyonu ecazkar mənzərəyə malikdir. Qarabağın iqlimi də çox müxtəlifdir. Regionun dağətəyi ərazilərində quru subtropik, dağlıq ərazilərində isə mülayim dağ iqlimi vardır. Yağıntının miqdarı illik olaraq 300-800 mm arasında dəyişir. İşğaldan öncə bölgədə suvarma və dəmyə əkinçiliyi, bağçılıq və heyvandarlıq yaxşı inkişaf etmişdi. Ərazidən bolsulu Tərtərçay, Xaçınçay, Qarqarçay, Köndələnçay, Qunıçay və digər kiçik çaylar axır. Tərtər çayı üzərindəki Sərsəng su anbarı suvarma və enerji üçün böyük əhəmiyyətə malikdir. Qarabağın ən mühüm təbii sərvətlərindən biri meşələrdir. Burada çox güclü meşə ehtiyatları vardır. Palıd, vələs, fısdıq meşələri ərazidə ağac emalı sənayesinin inkişaf etdirilməsi üçün əlverişlidir. İşğal dövründə ermənilər digər sərvətlərimiz kimi, Qarabağ meşələrindəki nadir və qiymətli ağac növlərini talamış, ekologiyaya çoxsaylı ziyan vurmuş, geniş miqyaslı ekosid, urbisid və kulturosid cinayətləri törətmişlər. Qarabağın təbii sərvətləri

içərisində qızıl, mis ehtiyatları, polimetal filiz yataqları ermənilər tərəfindən xarici şirkətlərlə birlikdə qeyri-qanuni istismar edilmişdir.

Qarabağ bölgəsində turizmin ən perspektivli inkişafı bilavasitə Şuşa şəhəri ilə bağlıdır. Şuşa Qarabağın turizm potensialı və gələcək perspektivləri baxımından olduqca strateji şəhərdir. Respublikamızın mədəniyyət mərkəzlərindən biri kimi, tarixi-mədəni və müstəsna mənəvi dəyərə malik olması Şuşanın əhəmiyyətini daha da artırmışdır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin 07 may 2022-ci il Sərəncamı ilə Şuşa 2022-ci ildə ölkəmizin mədəniyyət paytaxtı elan edilmiş, 2022-ci il martın 31-də Türkiyə-nin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən Şuşa 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir. Bu şəhər təkrarsız gözəlliyə malik olmaqla həm də təbii qala formasındadır. Şuşa yaxınlığındakı Turşsu, Şırlan və digər mineral sular çox sayda turisti özünə cəlb edib. Eyni zamanda Şuşa şəhəri yaxınlığındakı İsa bulağı, Şuşalıların o zamankı Qarabağa gəlmiş turistlərin ən sevimli istirahət yeri olub. Azərbaycan musiqisinin beşiyi Şuşa böyük sənət ustaları Üzeyir Hacıbəyov və Bülbülün vətənidir. O zamanlar Şuşada məscid, diyarşünaslıq muzeyi, musiqi məktəbi, musiqi alətləri fabriki, pedaqoji institut, sanatoriyalar, turizm mərkəzi, böyük şair Vaqifin, Nəvvabın məzar abidələri, Şuşanın qala divarları, xan qızı Natəvanın, Mehmandarovun evi və bir sıra başqa abidələr vardı. Qədim dövr və orta əsrlərdə Azərbaycana səyahət etmiş Türk, Avropa, rus və ərəb səyyahları qədim İpək yolu üzərindəki bu dilbər güşənin ecazkar təbiətindən yazmış, insanların qonaqpərvərliyindən dərin təəssüratlar almışlar. Qarabağın müasir ifadə ilə desək, bir turizm mərkəzi kimi tanınması isə hələ XIX əsrin ikinci yarısından başlayraq Azərbaycanın neft ölkəsi kimi inkişafı ilə buraya xarici kapitalın axınından başlayır. O zamandan başlayaraq Cənubi Qafqazın görməli yerləri ilə tanış olmaq istəyən bu əcnəbilər üçün Qarabağın gözəlliyi də cazibə elementi olub. Sonrakı vaxtlarda, Azərbaycanda Sovet hakimiyyəti dövründə Qarabağ respublikamızın ən çox seçilən turizm destinasyialarından biri olub, ittifaq və xarici ölkə mənşəli turistlər üçün sevimli tanışlıq, istirahət, müalicə, ekoturizm və əyləncə məzmunlu turlara ev sahibliyi edib. Çox da uzaq olmayan bu tarixi dövrdə istər Şuşa, istərsə də bütün Qarabağ bölgəsində gəlmə turizm üzrə ciddi inkişaf nəticələri qeydə alınıb. Hələ XX əsrin 30-cu illərində Şuşada kurort məqsədilə istirahət evi, daha sonrakı dövrlərdə pansionat və sanatoriya fəaliyyət göstərib. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, əfsanəvi "Cıdır düzü" buraya səyahətə gələnlərin sevimli yeri olub. Eləcə də Xankəndi, Ağdam, Kəlbəcər ərazilərində də turistlərin mənalı asudə vaxt keçirmələri üçün imkanlar var idi. Ağdamdakı çörək muzeyi, buradakı məscid turizm baxımından çox dəyərli olub. Bu dövrdə mövcud olan sosial-mədəni infrastruktur da o zamankı turistlərin tələbatına uyğun olaraq yaradılıb və bölgənin turizm-rekreasiya

potensialı onu beynəlxalq əhəmiyyətli bir səviyyədə tanıdıb. Ötən əsrin 70-80-ci illərində isə bütün Azərbaycanda olduğu kimi onun turizm incisi Qarabağda da turizmin inkişafı ən yüksək səviyyəyə çatıb, xeyli sayda kurort sanatoriya, mədəniyyət müəssisələri, asudə vaxt mərkəzləri fəaliyyət göstərib, yerləşdirmə müəssisələrində çox sayda yataq yerləri mövcud olub. Belə ki, 1987-ci ildə Azərbaycana xarici ölkələrdən gəlmiş 50 min, SSRİ-nin müxtəlif bölgələrindən gəlmiş 250 min turistin və yerli turizm-ekskursiya bürolarının təşkil etdikləri turlara qatılan 2,5 milyon nəfər daxili turistin mühüm bir hissəsi məhz Qarabağda olub. Ancaq Ermənistanın 1988-ci ildən başlayan hərbi təcavüzü nəticəsində təkcə Qarabağda deyil, eyni zamanda buradan qaçqın salınmış insanların ölkəmizin kurort-sanatoriya müəssisələrində yerləşdirilməsi ilə bütün Azərbaycanda daxili və gəlmə turizmə ciddi zərərlər dəydi. (8, s.442)

Bu gün işğaldan azad olunmuş Qarabağın, o cümlədən Şuşanın turizm potensialı çox genişdir. Qarabağ Azərbaycanın böyük yeraltı və yerüstü sərvətlərə malik olan ən önəmli bölgəsi olmaqla yanaşı regionun mühüm müalicəvi termal suları sahibdir. Vaxtilə dünyanın müxtəlif yerlərindən həmin termal sanato-riyaya turistlər gəlir, orada müalicə alır, istirahət edirdilər. Bu baxımdan Kəlbəcər, Şuşa və Zəngilanın bu cür termal sanatoriyalarının istifadəyə verilməsi ilə həmin mərkəzlərə yerli və xarici turistlərin gələcəyi şübhəsizdir. Kəlbəcər və Laçın rayonlarının sovet dövründə turizm bölgəsi kimi tanınmasını əsas gətirərək deyə bilərik ki, bu ərazilər də yenidən Azərbaycanın turizm bölgəsinə çevriləcək. Regionda qış turizminin inkişafı üçün də olduqca əlverişli şərait var. Dəmirçidam və Zivel kəndləri, İstisu qəsəbəsi turizmin bu sahəsi üçün olduqca cəlbedici ərazilərdir. Qarabağ regionunda sağlamlıq-kurort infrastrukturunun qurulması üçün də hərtərəfli şərait var. Kəlbəcərdə məşhur termal-mineral su olan İstisu bulağı ətrafında salınmış kurortun yenidən qurulmasına başlanmasını hamımız gözləyirdik. Xalq arasında “Xotavəng” və yaxud “Xudavəng”, yəni “Tanrı məbədi” adlandırılan monastır kompleksi də Kəlbəcərdə yerləşir. Bura təbii imkanlarına, həm də tarixinə görə daim turistlərin maraq dairəsində olub. Həmçinin Laçının da turizm potensialı böyükdür. Rayon qədim Tunc dövrünə aid olan kurqanlarla zəngindir və turistlər üçün cəlbedicidir. Bundan başqa, Füzuli və Zəngilan Beynəlxalq Hava Limanları regionda turizmin inkişafında müstəsna rol oynayacaq. Əlavə olaraq, Prezidentin sərəncamı əsasında Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi Füzuli, Xocavənd və Şuşanın turistlər üçün əlçatan olmasını təmin edəcək. İşğaldan azad edilmiş ərazilərin geniş turizm potensialını nəzərə alaraq, Dövlət Turizm Agentliyi tərəfindən “Yolumuz Ağdama” və “Füzuli-Xocavənd” bir günlük tur marşrutlarının layihələri təqdim edilmişdir. Layihə sənədi əsasında Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Prezidentin Xüsusi Nümayəndəliyi ilə müvafiq əməkdaşlıq əsasında “Yolumuz Ağdama” turizm

marşrutunun təşkili ilə bağlı tələb olunan müvafiq infrastruktur işləri həyata keçirilmişdir. Dövlət Turizm Agentliyi tərəfindən Şahbulaq qalasına dair ilkin memarlıq və turizm inkişaf konsepsiyası hazırlanmışdır. (4)

Əlbəttə, Azərbaycanın Qarabağ bölgəsi turizm potensialına görə özünün zənginliyi və perspektivləri ilə seçilir. Lakin, Qarabağın turizm imkanlarından tam istifadə etmək üçün, bu gün ilk növbədə ərazidə təhlükəsizliyin təmin edilməsi, əhalinin geri qayıtması və infrastrukturun yaradılması zəruridir. Hazırda Qarabağın turizm potensialının dünyaya tanıdılması istiqamətində maarifləndirici işlərə, regionun turizm imkanlarından faydalanmaq üçün ilkin araşdırmalara başlanıb. Burada təhlükəsizliyin təmini, əhalinin geri dönüşü və infrastrukturlar tam yaradıldıqdan sonra yeni turizm məhsulları turistlərə təqdim ediləcəkdir. Birinci mərhələdə əsas istiqamət daxili turizmin təşkili olacaqdır. İlk mərhələdə regionda daha çox tarixi, mədəni xarakterli turizm, daha sonra, infrastruktur tam bərpa olduqdan sonra isə istirahət turizminin təşkili planlaşdırılır.

A.V.Drozdov ümumi turist potensialının bir hissəsi kimi iki əsas qrupunu qeyd edir: 1) təbii və mədəni landşaftlar və onların komponentləri; 2) turların (proqramların, ekskursiyaların) həyata keçirilməsi üçün vasitələr və şərtləri ayırır. (11,s.123) Qeyd edək ki, Qarabağın təbii və mədəni landşaftlarının olmasını nəzərə alaraq, bu regiona turların (proqramların, ekskursiyaların) həyata keçirilməsi mühüm və zəruridir.

İlk növbədə mütəxəssislər Qarabağda işğalın nəticəsi olaraq "Qara turizm" adlanan yeni turizmin inkişafı ilə bağlı işləri vurğulayırlar. Professor A.Musayev "Qara turizm"in mahiyyəti ilə bağlı qeyd edir ki, "bu turizmin mahiyyəti ondan ibarətdir ki, işğal olunmuş ərazilərdə dağıdılmış bütün yaşayış məntəqələri və infrastruktur həm yerli, həm də xarici turistlərə nümayiş olunacaq. Bundan başqa, atçılığın nümayiş olunması üçün turizm səfərləri həyata keçiriləcək, eyni zamanda ailə və sağlamlıq turizmi sahələri inkişaf etdiriləcək.

Qubadlının özündə də çoxsaylı tarixi abidələr mövcuddur, çox gözəl təbiətə və zəngin şirin su ehtiyatına malikdir". "Bu turizmin mahiyyəti ondan ibarətdir ki, işğal olunmuş ərazilərdə dağıdılmış bütün yaşayış məntəqələri və infrastruktur həm yerli, həm də xarici turistlərə nümayiş olunacaq. Bundan başqa, atçılığın nümayiş olunması üçün turizm səfərləri həyata keçiriləcək, eyni zamanda ailə və sağlamlıq turizmi sahələri inkişaf etdiriləcək. Qubadlının özündə də çoxsaylı tarixi abidələr mövcuddur, çox gözəl təbiətə və zəngin şirin su ehtiyatına malikdir".(5) Geniş elmi araşdırmalar və tarixi faktlar sübut edir ki, Qarabağ bölgəsi bütöv bir təbii-coğrafi resursları, vahid çay şəbəkəsini, kompleks ekoloji sistemi, bir-biri ilə əlaqəli iqtisadiyyatı və kommunikasiyanı təşkil edir. Qarabağın təbii-coğrafi mövqeyi və iqtisadi potensialı, onun digər bölgələrlə əlaqələrinin təbiiliyi, kommunika-siyası, Ağdam-Xankəndi dəmir

yolu, avtomobil yolları və elektrik təchizatı sistemi bütövlükdə Qarabağın kompleks tarazlı inkişafında güclü əsaslarını təşkil edir. Təbii ehtiyatların zənginliyi və onların turizm potensialı regionun qiymətləndirilməsində kompleks inkişafının əsas aspekti ola bilər. (7, s.75)

Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyi, zəngin sərvətləri, əvəzedilməz təbii-iqlim xüsusiyyətləri, çox zəngin flora və faunası ölkənin turizm sənayesinin inkişafında yeni həyat deməkdir. Bu bir həqiqətdir ki, bu sahələrə investisiya qoyuluşu bu sahədə iş adamları üçün böyük imkanlar yaradacaq və bu investisiyalar nəticədə, ölkə büdcəsinə kifayət qədər gəlir gətirəcəkdir. Qarabağın çoxlu mineral və termal su ehtiyatları ilə zənginliyi də regionun turizm potensialının artırılmasında mühüm amildir. Qarabağda füsunkar incəsənət nümunələri, qədim mədəniyyəti və tarix, ecazkar təbiət nümunələrinin varlığı turizm kompleksinin yaradılmasında əlverişli yerə sahibdir. Lakin rayonun 30 ilə yaxın işğal altında olması burdakı imkanlardan istifadə etməyi mümkünsüz etmişdi. Qarabağ iqtisadi zonasında olan bu əhəmiyyəti işğal olunmuş ərazilərin bərpasından sonra da bütövlükdə sosial-iqtisadi inkişafı üçün turizm də daxil olmaqla xüsusi layihələr həyata keçirilməsi planlaşdırılmaqdadır. İşğaldan azad olunmuş ərazilərin təbii-coğrafi resurslara nəzər saldıqda çoxlu turistik zonaların olduğunu görərik. Bunlardan ən əhəmiyyətliləri aşağıdakılardır:

1. Şuşa Cıdır Düzü,
2. Şuşa İsa Bulağı,
3. Tərtər Suqovuşan barajı,
4. Kəlbəcər İstisu,
5. Xocavənd Azıx Mağarası,
6. Şuşa Çətir Şəlaləsi,
7. Laçın Novlu Bulağı,
8. Qubadlı Ballı Qaya və s.

Azərbaycanın ən böyük turizm potensialına sahib olan Qarabağ regionu valehedici təbiəti ilə bütün qonaqları heyran edən, saf havası, tarixi abidələri, müalicəvi suları ilə hər kəsin dilində dastana çevrilən bu diyarımız artıq düşmən tapdağından azad olunmuşdur. Bu gün müzakirə edilən əsas mövzulardan biri isə işğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsi və regional xüsusiyyətlərinin araşdırılmasıdır. Qarabağda turizmin regional xüsusiyyətlərinə görə klasterlərin təşkilində əsas problemlərdən biri də bütövlükdə klaster yanaşması fəlsəfəsi ilə ziddiyyət təşkil edən ona daxil ediləcək müəssisələrin coğrafi məsafəsidir. Lakin azad edilmiş bölgələrdə, daha dəqiq desək, Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonalarında demək olar ki, bütün infrastruktur və müəssisələr yenidən qurulduğundan müxtəlif ərazilərdə klasterlərin yaradılması üçün böyük potensial mövcuddur. Məlum olduğu kimi, tikinti materialları və dağ-mədən ilə bağlı bəzi sənaye sahələri

istisna olmaqla, bu rayonların əsas iqtisadi fəaliyyəti turizmdir. Ümumiyyətlə, isə klasterləşdirmənin ərazidəki üstünlükləri aşağıdakı kimi sıralamaq olar: (10, s.14)

- regional investisiyaların təşviqi və iqtisadi artımı;
- dövlət və özəl sektorlar üzrə birgə daha səmərəli əməkdaşlıqların təmin olunması;
- biznesdə məhsuldarlıqların artırılması, satış, istehsal, texnologiya, təşkili və idarəetməsi, o cümlədən ticarətin liberallaşdırılması və ərazidə iqtisadi qloballaşma kimi mövzuların çeviklik və adaptasiya qazanmasına kömək etməsi;
- uyğun inkişaf variantları təqdim olunması və inkişaf prosesinin daha da asanlaşdırılması;
- xammal, xidmət və ərazidə ixtisaslı işçi qüvvəsinə olan asan və sürətli çıxışın təmin olunması.

Bir çox iqtisadi, sosial, psixoloji və mədəni faydaları olan turizm, təbii ehtiyatların həddindən artıq istifadəsi və yanlış yer seçimi nəticəsində Azərbaycanın işğaldan azad olunmuş bölgələrində təbii ərazilərin, tarixi dəyərlərin və sahilyanı ərazilərin məhvinə səbəb ola bilər. Turizm potensialının əsasını təşkil edən təbii, mədəni və tarixi dəyərlərin uzunmüddətli perspektivdə qorunması üçün görüləcək planlaşdırma işlərinin hər mərhələsində yerli əhalinin iştirakının təmin edilməsi vacibdir. Azərbaycanın işğaldan azad olunmuş bölgələrində turizmin regional xüsusiyyətlərini analiz etmək üçün öncə turizmin özünün xüsusiyyətlərini dəyərləndirmək lazımdır.(3, s.222) Eyni zamanda qeyd olunmalıdır ki, İqtisadiyyat Nazirliyi tərəfindən azad edilmiş torpaqların bərpası və yenidən qurulması üçün tarazlı, dayanıqlı inkişafının təmin olunması, ölkə iqtisadiyyatına inteqrasiyası, yüksək standartlara cavab verəcək sosial rifahın nail olunması üçün aidiyyəti dövlət qurumlarının rəyi də nəzərə alınmalıdır. Bunun üçün "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"nın layihəsi hazırlanmışdır.

Beləliklə, Qarabağın dünyanın ən qədim insan məskənlərindən, mədəniyyət ocaqlarından biri olması, bölgənin təbii potensialı, təbii mağaraların olması regionun turizm potensialını səciyyələndirən ən əsas amillərdəndir. Bu gün işğaldan azad olunmuş bütün Qarabağ regionu, o cümlədən, Şuşanın turizm potensialının çox geniş olmasını nəzərə alaraq, bu bölgəyə yerli və xarici turist axınlarının olacağı ilə bağlı nikbin proqnozlar vermək mümkündür. Qarabağ regionun turizm potensialı bu bölgənin təbii, tarixi və mədəni obyektlərinin və hadisələrin, habelə bu ərazidə turizm fəaliyyətinin təşkili üçün sosial-iqtisadi şərtlərdən ibarət olmaqla, ölkəmizin ən zəngin turizm potensialına malik bölgəsidir. Regionda incəsənət, qədim tarix və mədəniyyət, füsunkar təbiət nümunələri turizm kompleksinin yaradılması

üçün yararlı hesab edilir. Qarabağda Şuşa kimi qədim tarixə malik şəhər, Xocalı, Xankəndi, Xocavənd kimi qədim yaşayış məskənləri, Ağdam, Ağdərə, Hadrud və digər inkişaf etmiş rayonların olması isə bölgənin mühüm turizm potensialına malik olmasının göstəricisidir. Məqalədə belə nəticəyə gəlinir ki, gələcəkdə Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyi, zəngin sərvətləri, əvəzedilməz təbii-iqlim xüsusiyyətləri, çox zəngin flora və faunası regionun turizm sənayesinin inkişafında yeni həyat deməkdir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, https://president.az/az/articles/view/52389*
2. *Azərbaycanın daxili turizm potensialı, Mədəniyyət.- 2010.- 28 aprel.- S. 8-9.*
3. *Qarabağ və Şərqi Zəngəzurun İqtisadi Potensialının Sektoral Qiymətləndirilməsi, V İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların beynəlxalq elmi konfransın materialları, ISCEMR 2022, 361 səh.*
4. *Qarabağ və Şərqi Zəngəzur yenidən turizm regionuna çevriləcək, https://www.azerbaijan-news.az/az/posts/detail/qarabag-ve-serqi-zengezur-yeniden-turizm-regionuna-cevrilecek-1656624902*
5. *Qarabağ böyük turizm potensialına malikdir, http://economics.com.az*
6. *Erməni işğalı sonrası Qarabağda turizmin inkişafi məsələləri, Uluslararası Turizm, İşletme, Ekonomi Dergisi, International Journal of Tourism, Economic and Business Sciences E-ISSN: 2602-4411, 4(2): 2020, s. 33-44.*
7. *Məmmədov E.Q. "Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri. (Monoqrafiya)", Bakı: "Gənclik" Nəşriyyatı, 201, 172 səh. s.75*
8. *Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası (dərs vəsaiti), Azərbaycan dilində. Bakı: "Mütərcim", 2002.- 512 s.*
9. *Soltanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafi, Bakı, AzTU-nun mətbəəsi, 2015. S.349, 475 səh*
10. *Davuthan G., "Bölgesel Kalkınma Sürecinde Kümelenmeler: Tr31 Izmir Bölgesi Örneği". IAAOJ, Social Science, 2013, vol.2, № 1, s.11-47*
11. *Дроздов А.В. Экотуризм: определения, принципы, признаки, формы // Актуальные проблемы туризма 99. Перспективы развития туризма в южном Подмосковье. Сб. докл. и тез. сообщений научно-практ. конференции, 27 апреля 1999 г. М., 1999. С. 122-129.*
12. *Святохо Н.В. Концептуальные основы исследования туристского потенциала региона // Экономика и управление. 2007. №2. С.30-36.*

**Z.C.Məhərrəmova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***m.zuleyxa2000@gmail.com***

# GƏNCƏ RƏSSAMLARININ YARADICILIĞINDA MƏNZƏRƏ JANRININ BƏDİİ CƏHƏTLƏRİ

***Xülasə***

*Məqalədə Gəncə rəssamları olan X.Səfərova, A.Hüseynov, Ə.Məhərrəmovun yaradıcılığından bəhs edilmiş, rəssamların mənzərə janrlarındakı əsərləri təhlil olunmuşdur. Azərbaycan xalq rəssamı olan Xalidə Səfərovanın əsərləri janr müxtəlifliyi ilə seçilir. Xalidə xanımın təbiəti tərənnüm etdiyi təsvirləri isə, xüsusilə öz nikbinliyinə görə fərqlənir. Hazırda da, Gəncə şəhərində öz yaradıclığını davam etdirən Akif Hüseynovun əsərlərində portret, mənzərə, natrümort janrlarında işlənmiş işlər üstünlük təşkil edir. Rəssamın mənzərə janrında işlədiyi əsərləri boyakarlıq sahəsinin dəyərli nümunələridir. Əbülfət Məhərrəmovun əsərlərində isə realistik üslubun xüsusiyyətləri nəzərə çarpır. Onun mənzərə janrında işlədiyi tablolarında insanların gündəlik yaşam tərzləri, real həyatdan görüntülər əks olunmuşdur.*

# ХУДОЖЕСТВЕННЫЕ АСПЕКТЫ ПЕЙЗАЖНОГО ЖАНРА В ТВОРЧЕСТВЕ ХУДОЖНИКОВ ГАНДЖИ

***Резюме***

*В статье рассматривается творчество гянджинских художников Х.Сафаровой, А.Гусейнова, А.Магеррамова, анализируются работы художников в пейзажных жанрах. Жанровое разнообразие отличает творчество народной артистки Азербайджана Халиды Сафаровой. Особенно оптимизмом отличаются описания природы г-жой Халидой. И на сегодняшний день в Гяндже преобладают работы Акифа Гусейнова в жанрах портрета, пейзажа и натюрморта. Работы художника в жанре пейзажа являются ценными образцами в области живописи. В работах Абульфата Магеррамова заметны черты реалистического стиля. Его картины в жанре пейзажа отражают повседневный образ жизни людей и реальные образы.*

# ARTİSTİC ASPECTS OF THE LANDSCAPE GENRE İN THE CREATİVİTY OF GANJA ARTİSTS

***Summary***

*The article discusses the work of Ganja artists Kh.Safarova, A.Huseynov, A.Maharramov, analyzes the works of artists in landscape genres. The works of the People's Artist of Azerbaijan Khalida Safarova are distinguished by the diversity of genres. Mrs. Khalida's descriptions of nature are especially distinguished by her optimism. Akif Huseynov's works in the genres of portrait, landscape and still life dominate in Ganja. The artist's works in the genre of landscape are valuable examples in the field of painting. In the works of Abulfat Maharramov, the features of the*

*realistic style are noticeable. His paintings in the landscape genre reflect people's daily lifestyles and real-life images.*

***Açar sözlər:*** *Gəncə, rəssam, mənzərə, janr, X.Səfərova, A.Hüseynov, Ə.Məhərrəmov*
***Ключевые слова:*** *Гянджа, художник, пейзаж, жанр, Х.Сафарова, А.Гусейнов, А.Магеррамов*
***Key words:*** *Ganja, painter, landscape, genre, K.Safarova, A.Huseynov, A.Maharramov*

Təsviri sənət sahəsində Azərbaycanın böyük şəhərlərindən biri olan Gəncədə yetişmiş rəssamların da rolu böyükdür. Gəncədə yetişib ölkəmizin bir çox şəhərlərində fəaliyyət göstərən rəssam və heykəltəraşlarımız olmuşdur. Bu sıraya N.Hacıyevin, R.Hüseynovun, Ş.Şərifovun, G.Brijatyukun, X.Səfərovanın, Q.Sücəddinovun, R.Məmmədovun, F.Əliyevin və s. adlarını qeyd etmək olar. Bütün yaradıcılığını Gəncə şəhərində davam etdirən rəssamlarımızda olmuşdur. Bu rəssamlar yaratdıqları əsərlərində Gəncə şəhərinin füsunkar təbiətini, tarixi memarlıq abidələrini və şəhər mənzərələrini heyranlıqla tabloya köçürtmüşlər. Bu rəssamlardan Şaiq Məmmədov, Akif Hüseynov, Faiq Abdullayev, Saləddin Məhərrəmov və Əbülfət Məhərrəmovu qeyd etmək olar.

Bir çox rəssam kimi Əbülfət Məhərrəmovda həm yaradıcılıq, həm də pedaqoji fəaliyyətini Gəncə şəhərində davam etdirmişdir. Rəssam yetişən gənc nəslin nümayəndələrinə sənətin incə sirrlərini öyrətməklə yanaşı yaradıcılıq sahəsində də yorulmaq bilmədən çalışmaqla məşğuldur. Rəssamın yaradıcılığı olduqca genişdir. Rəssamın təsviri sənətin rəngkarlıq sahəsində mənzərə, portret, batal, natrümort janrlarındakı müxtəlif dövrlərdə yaratdığı əsərləri diqqəti cəlb edir. Belə ki, rəssam öz əsərlərində boya vasitəsi ilə realistik səhnələr yaratmışdır. Əbülfət Məhərrəmovun mənzərə janrındakı işlərinə diqqət yetirsək, görərik ki, rəssam yurdumuzun gözəlliklərini, xüsusilə qədim diyar olan Gəncə şəhərinin gözəl, füsunkar təbiətini öz rəsmlərində realistik boyalarla vermişdir. Rəssam Azərbaycanın gözəlliklərini, doğma diyarımız olan Gəncənin əvəzedilməz təbiətini öz rəsmləri ilə bizlərə çatdırmışdır. Onun qrafika və rəngkarlıq sahəsində işlərinin mövzusunu Gəncə şəhərinin təbiəti təşkil edir. Rəssam müxtəlif dövrlərdə mənzərə sahəsində gözəl və yadda qalan əsərlər yaratmışdır. Onun mənzərə əsərlərində təbiətin canlı ahəngini duymaq olur.

Rəssamın müxtəlif illərdə işlədiyi mənzərə janrındakı “Gəncə çayının sahili”, “Bakı”, “Gəncədən bir görünüş”, “Gəncəbasar”, “Xoşbulaq”, “Göygölə gedən yol”, “Göygöl”, “Bakı Limanı”, “Göl kənarı”, “Gəncə çayı”, “Qoşa Minarə”, “Kəpəzə gedən yol”, “Vüqarlı Kəpəz”, “Dağ ətəyi”, “Dağ çayı” kimi

əsərləri yurdumuzun mənzərəli təbiətindən, vətənimizin gözəlliklərindən bəhs edir.

Ə.Məhərrəmovun Gəncə şəhərini təsvir etdiyi "Gəncə çayının sahili" adlı əsərində də adından göründüyü kimi rəssam Gəncə şəhərinin çay sahilində axar çayın təsvirini vermişdir. Əsər 2007-ci ildə, kətan üzərində yağlı boya texnikasında işlənmiş, 80x100-sm ölçüsündədir. Kiçik Qafqaz dağlarından süzülüb gələn və Kür çayına tökülən dağ çayının şəffaflığını, eləcə də mavi göy üzünün, yaşıl təbiətin çaya düşən yansımasını rəssam məharətlə rəsm etmişdir. Çay sahildə yerləşən evləri rəssam incəliklə işləmiş, bizlərə şəhər sakinlərinin həyat tərzlərindən xəbər vermişdir. Rəssamın təsvirində Kiçik Qafqaz dağlarının ətəyində yerləşən, təbiətlə iç-içə Gəncə mənzərəsini görürük. Əsərdə təsvir olunan Kəpəz dağı uzaqlardan öz əzəməti ilə diqqətimizi çəkir. Təsvirdəki mavi səma, ağ pambıq buludlar bizə Gəncənin isti yay günlərindən danışır. Buludlarla əhatələnmiş mavi səmanın axan çayın üzərinə düşən yansıması əsərə başqa bir abu-hava qatmışdır. Uzaqlardan görünən vüqarlı Kəpəz dağında isə hələdə soyuq qışdan qalan qarlar görünür. Hazırda mövsümə xarakterik olaraq çayın coşğunluğunu, təbiətin oyandığını və yaşıl otların xalça kimi döşəndiyini görsəkdə, sərt qış günlərinin qarı bizə soyuq günlərin geridə qaldığını, lakin mövsüm şəklində yenə təkrarlanacağını deyir. Təsvirdən göründüyü kimi rəssam göz oxşayan, vurğunu olduğu Gəncə şəhərinin əsrarəngiz təbiətini böyük ustalıqla realistik üslubda işləmişdir.

"Gəncədən bir görünüş" adlı əsərdə rəssam Əbülfət Məhərrəmovun Gəncəyə həsr etdiyi əsərlər sırasında öz yerini alır. Əsər 60x80-sm ölçüsündə, kətan üzərində yağlı boya texnikasında işlənmişdir. Əsərdə ilk diqqətimizi çəkən nüanslardan biri bir qədər uzaqda görünən qırmızı kərpiçli tikilidir. Tikili öz rəngi ilə, fərqli memarlıq görüntüsü ilə rəsmdə diqqət mərkəzinə çevrilir. Rəssam özüdə bu tikilini əsərin mərkəzində təsvir etmişdir. Gördüyümüz bu tikili Gəncə Dövlət Kukla teatrıdır. Bina ilk dəfə 1885-ci ildə almanlar tərəfindən lüteran kilsəsi kimi tikilmiş, hazırda isə Kukla teatrı kimi fəaliyyət göstərir. Yamyaşıl ağaclar tikilini sanki öz əhatəsinə almışdır. Kukla teatrını seyr etdikdə uzaqlardan, mavi səma ilə dağ silsilələrinin arasında qalan Kəpəzin əzəmətini görürük. Əsərdəki daha bir gözəllik isə aşıb-daşan gursulu Gəncə çayıdır. Rəsmə baxdıqda təbiətin gözəl nemətlərindən olan bu dağ çayının sanki şırıltı ilə axan səsini duyuruq. Təsvir bizə böyük şəhərlərə xas olan izdihamın əksinə, sakitliyi və hüzuru xatırladır.

Əslən Daşkəsəndən olan rəssam əsərlərində öz doğma yurdunun təsvirlərinə də yer vermişdir. Ə.Məhərrəmovun "Xoşbulaq" adlı əsəri də rayonun Xoşbulaq kəndindən bir görünüşdür. Rəsmdə sağ aşağı küncdə göl kənarında, çay daşlarının arasında açan çiçəklər təbiətə yazın gəlişindən xəbər verir. Şahdağ silsiləsinin ətəyində yerləşən kənd yaşıl örpəyə bürünmüş təpələri, qarlı dağları ilə göz oxşayır. Ön planda verilən Xoşbulaq gölü dupduru

suyu ilə mavi səmanı, başı qarlı dağları, yaşıl düzənlikləri sanki bir güzgü tək özündə əks etdirir. Kətan üzərində yağlı boya ilə işlənən əsər 80x100-sm ölçüsündə icra edilmişdir.

Təbiəti təsvir etməyə doymayan rəssamın "Göygöl" adlı əsərində də Göygölün heyranedici mənzərəsini boyalarla tərənnüm etmişdir. 1139-cu ildə Gəncədə baş vermiş zəlzələ nəticəsində yaranan bu göl suyunun şəffaflığı ilə seçilir. Əsər 35x40-sm ölçüsündə, kətan üzərində yağlı boya ilə çəkilmişdir. Rəsmdə artıq saralmaqda olan ağaclar, kollar diqqətimizi çəkir, bu Göygölə qızıl payızın gəlişindən xəbər verir. Tablonun sağ hissəsində nəzərə çarpan ağacın budaqlarının və kolların təsviri bizə sərin, küləkli payız günlərindən danışır. Göygölə baxdıqda göl üzərində qayıqla gəzintidə olan insanları görürük. Göl üzərində əks olunan buludlu səma, artıq yaşıl örpəklərdən çıxıb öz yerini qızıl payıza verən təbiətin təsviri deyildiyi kimi göl suyunun necə şəffaf olmasını göstərir. Ə.Məhərrəmovun mənzərə janrındakı əsərlərinin bir çoxunda yer alan Kəpəz Göygöl mənzərəsində də öz əzəməti ilə göz oxşayır.

Gəncə şəhərində anadan olan, daha gənc yaşlarından incəsənətə maraq göstərən Azərbaycan xalq rəssamı Xalidə Səfərova (1926-2005) təsviri sənətin bir çox sahə və janrlarında əsərlər yaratmışdır. Rəssamın mənzərə sahəsində yorulmaq bilmədən yaratdığı əsərlərində böyük mənanın əks olunduğunun şahidi oluruq. Rəssamın bu qəbilədən olan əsərlərindən biri "Türk qərənfilləri" adlandırdığı əsəridir. Rəngkarlıq sahəsində yerinə yetirilmiş bu əsərdə bağda qərənfil güllərinin təsviri əks olunmuşdur. Ağ və qırmızı qərənfil güllərinin yaratdığı ahəng içərisində əsərin sol küncündə təsvir olunmuş saxsı bardaq insanın diqqətini cəlb edir. Güllərin sulanmasında da istifadə edilən bu su bardağını sanki rəssam təbiətin canlılığına simgələyir. Əsərin rəng koloriti əlvanlığı ilə diqqət mərkəzindədir. Yaşıl rənglərin arasından boylanan qərənfil güllərinin təsviri insanın diqqətini özünə cəlb edir. Təbiətin bizlərə bəxş etdiyi ecazkar gözəlliyi əks etdirən rəssam bu əsəri ilə də həmçinin insanın rolunu qeyd etməyi unutmur. Qərənfil güllərinin insanlar tərəfindən bağ və bağçalarda əkilməsini əks etdirmişdir. Bu əsər həmçinin də mənzərənin estetik prinsiplərini tamaşaçıya çatdırmaq üçün bir nəticədir. Rəssam bu əsərdə miniatür prinsiplərindən məharətlə istifadə etmişdir. Səhti kompozisiya quruluşu və rəng seçimi də buna açıq aydın nümunədir. Qərənfil güllərinin rəng koloritinin yaratdığı kontrast əsərə dinamiklik bəxş edir.

Xalidə Səfərovanın təbiət gözəlliklərini təsvir etdiyi əsərlərindən olan fərqli illərdə çəkdiyi "Süsənlər" adlı iki əsəri rəssamın təbiətə olan sevgisini göstərir. Kətan üzərində yağlı boya ilə işlənilən hər iki əsər rəng həllərinə, işlənmə xüsusiyyətlərinə görə fərqlənirlər. İlk olaraq rəssamın 1960-cı ildə işlədiyi əsərə baxsaq impersionist üslubda işlənmiş rəsmdə boyaların ahəngi göz oxşayır. Ön planda verilən bənövşəyi ağ çiçəklər açmış süsənlərlə yanaşı sağ aşağı küncdə yazın xəbərçisi olan al qırmızı lalə öz rəngi ilə seçilir.

Rəssamın təsvirində süsənlər arxasında bir qədər hündürdə daşlar üzərinə sərilmiş mavi çiçəklərin, yaşıl yarpaqların yerə yansıması daha yeni yaz yağışının yağdığı görüntüsünü verir. X.Səfərovanın 1965-ci ildə işlədiyi "Süsənlər" əsəri daha öncə işlədiyi eyni adlı əsərdən bir qədər fərqlənir. İlk əsər daha solğun rəng tonları ilə işlənsə də, bu əsərdə rəssam rənglərdən daha dolğun şəkildə istifadə etmişdir. Bu əsərdə rənglərin əlvanlığı daha aydın nəzərə çarpır. Yamyaşıl otların arasından yüksələn al-əlvan rəngə boyanmış süsənlər sanki öz aralarında gözəllik yarışına giriblər.

Təbiətin hər anını təsvir edən rəssam Xalidə Səfərovanın "Parkda payız" adlı əsəri sulu boya ilə işlənmiş qısamüddətli iş olsa da, ilk baxışdan çox şey ifadə edir. Sulu boya ilə işlənmiş təsvirdə solğun rəng tonları əsərdə hələ yarımçıq qalan işlərin olduğunu göstərir. Əsərdə sağ tərəfdə qızılı rəngə boyanmış ağaclar, sol tərəfdə isə artıq öz yaşıl donundan çıxıb çılpaq qalmış ağacın təsvirində rəssam bizə payızın hər anından söz açır.

X.Səfərovanın əsərlərində kənd mənzərələrini, insanların gündəlik məişətini, xüsusilə də zəhmətkeş qadın obrazlarını görmək olar. Rəssamın "Bağda", "Ağac altında", "Axşam", "Limon yığanlar" kimi əsərləri bunlara nümunədir. Kənd mənzərələrindən olan "Axşam" adlı əsərdə də rəssam tarlada işləyən kənd qızlarını təsvir etmişdir. Təsvirdə mavi dağlar arxasında qürub edən günəş əsərin adını tamamlayır. Xalidə Səfərovanın bir çox əsərlərində xoş ətirli çiçəklərin təsvirinə şahid olduğumuz kimi, "Axşam" əsərində də ön planda al-qırmızı lalələrin təsviri öz sözünü deyir. Çiçəklərin də təsvirindən yaz axşamı olduğunu anlayırıq. Rənglərdən daha dolğun şəkildə işləyən rəssamın bu əsərində impressionist cərəyanın təsirləri hiss olunur. Rəssam əsərdə isti və soyuq rənglərin harmoniyasını yaratmışdır. Sağ tərəfdə tarlada işləməkdən yorulan, artıq dincəlməkdə olan zəhmətkeş qızların geyimlərindəki diqqəti çəkən isti rənglər tamaşaçıda sevgi hissi oyadır.

Gəncə rəssamları içərisində öz yaradıcılığı ilə seçilən rəssamlardan biri də Akif Hüseynovdur. Əslən Goranboy rayonundan olan Akif Hüseynov öz yaradıcılığına Gəncə şəhərində davam etmişdir. 33 ildir ki, pedaqoji fəaliyyətini Gəncə şəhərində davam etdirən rəssam öz peşəkarlığı ilə sələflərinə böyük töhfə vermişdir. Rəssamın yaradıcılığında qrafika, sulu boya və yağlı boya texnikasında əsərlər yer alır. Rəssam gənc yaşlarından bu sənətə maraq göstərmişdir. Akif Hüseynovun mənzərə janrındakı əsərləri, xüsusilə, diqqəti cəlb edir. Onun mənzərə janrındakı əsərlərində təbiətin canlılığını duymaq olur. Rəssam mənzərə janrında işlədiyi rəsmlərindən danışarkən özü də qeyd edir ki, "Təbiət rəssamın nəfəsidir". Əgər mənzərə janrında işləyirsənsə, təbiəti sevməlisən, təbiətin gözəlliklərini hiss etməli, onu duymalısan. Bu xüsusiyyətləri əks etdirən əsərlərindən "Göygöl", "Göygöl mənzərəsi", "Nizami Gəncəvinin movzeleyi", "Göygöldə gəzinti", "Maralgöldə", "Göygöl-Kəpəz" kimi əsərlərini qeyd edə bilərik.

Azərbaycan rəssamlarından Tağı Tağıyev, Səttar Bəhlulzadə, Hüseyn Əliyev və başqa bir çox rəssamların təsvirində Göygöl mənzərələrini görmək olar. Eləcə də Akif Hüseynovun Göygölə həsr etdiyi əsərlərini görürük. Gözünü açandan bu heyranedici gözəlləyi görən A.Hüseynov Göygölü boyalarla tərənnüm etməkdən doymamışdır. “Göygöl” əsərində təpəliklərdə yamyaşıl ağacların gölə düşən əksini ustalıqla təsvir edən rəssamın əsəri rənglərinin al-əlvanlığı ilə seçilir. İncə və dəqiq şəkildə işlənmiş bu əsərdə daha çox yaşıl rəng üstünlük təşkil etsə də tamaşaçını yormur. Sol aşağı hissədə təsvir olunmuş qayalıq tamaşaçıya sanki bu qayalıq üzərində oturmuş Göygölün mənzərəsini seyr edir hissini verir. Göl kənarında yenicə açmış rəngarəng çiçəklər, göl üzərinə, eləcə də yaşıl təpələr ardındakı başı qarlı dağlara əks olunmuş günəşin sarı şüaları Göygölə gələn yazdan xəbər verir. Bu əsər hal-hazırda “Mirzə Şəfi Vazeh” adına muzeydə saxlanılır. Əsər 100x150-sm ölçüsündə olub, kətan üzərində yağlı boya ilə işlənmişdir.

Akif Hüseynovun “Göygöl-Kəpəz” adlı əsəri də daha bir Göygölə həsr etdiyi əsərlər sırasında öz yerini alır. Kəpəz ətəyində təsvir olunan Göygöl işlənmə xüsusiyyətinə görə Akif müəllimin digər əsərlərindən fərqlənir. Əsər hazırda Böyük Britaniyanın Təhsil Nazirliyinin Londondakı muzeyində saxlanılır. Tablo kətan üzərində yağlı boya ilə çəkilmiş, 70x80-sm ölçüsündədir.

Ölməz şair Nizami diyarı olan Gəncə şəhərinin memarlıq nümunəsi olan Nizami məqbərəsi rəssamın fırçasından yan keçməmişdir. A.Hüseynov tərəfindən qələmə alınmış “Nizami məqbərəsi” əsərini rəssam sulu boya ilə işləmişdir. Faciəvi tarixi olan Nizami məqbərəsini rəssam günbatımında işləmişdir. Əsərə baxdıqda qəmginlik hiss olunur, sanki təbiət də dahi şairin yoxluğuna ağlayır. Əsərdə sözügedən Nizami məqbərəsi 20 metr hündürlüyündə olub heykəltəraş F.İmamquliyev və Q.Sücəddinov tərəfindən yenidən tikil-mişdir.

Rəssamın Nizami məqbərəsini təsvir etdiyi daha bir əsərinə nəzər yetirdikdə görürük ki, bu əsər də tamaşaçıya qəmginlik bəxş edir. Perspektiv baxımdan daha uzaqda təsvir olunmuş məqbərəni qara buludlar öz əhatəsinə almışdır. Hər iki əsərdə də məqbərə üzərində qanad çalan quşların təsviri diqqətdən kənar qalmır. Azadlığı simgələyən bu quşlar sanki bizə şairin ölməzliyini, onun sonsuzluğunu, yaddaşlarda hələ də yaşadığını deyir.

Akif Hüseynov öz əsərlərində Qarabağ mövzusuna da toxunmuşdur. Rəssamın Qarabağ silsiləsi əsərlərinin hər biri akvarel texnikası ilə işlənmiş, 40x60-sm ölçüsündədir. Rəssam bu əsərləri ikinci Qarabağ müharibəsi başladığı zamanlarda çəkdiyini deyir. Artıq düşmən əsarətindən xilas olmağa başlayan torpaqlarımızı görən rəssam bundan ilhamlanaraq, düşmənin talan etdiyi Qarabağın təbiətini, dağıdılmış memarlıq nümunələrini, yaşayış yerlərini fırçalarında yaşatmışdır. Rəssamın bu silsilədən olan “Şuşa”, “Xudafərin”,

“Laçında bir gün”, “Dağlar ardında” kimi əsərlərindən danışa bilərik. A.Hüseynov həsrətində qaldığımız, igid oğullarımızın sayəsində geri alınmış yurdumuzun ecazkar təbiətini kağızlara həkk etmişdir. Qarabağın insanı heyran edən təbiətinə, mükəmməlliyinə vurulan rəssamın bu silsilədən olan əsərlərində bir qədər yorulmuş, kədərli, ancaq bir o qədər də gözəllik dolu olan Qarabağı görürük.

“Xudafərin” adlı əsərdə adındanda məlum olan Araz çayı üzərində salınmış Xudafərin körpüsünü rəssam boyalarla tərənnüm etmişdir. Tarixi memarlıq nümunəsi olan Xudafərin böyük və kiçik körpü olmaqla iki hissədən ibarətdir. Əsərdə Araz boyu uzanıb gedən dağlara qovuşan Xudafərin tağlarının ritmik hərəkəti ilə göz oxşayır. Əsərdəki rəng həllindən, dağıdılmış, talan olmuş tikililərdən görmək olur ki, rəssam həqiqətən də bu əsəri ikinci Qarabağ müharibəsi gedən zamanlarda qələmə almışdır.

Azərbaycanın tarixi memarlıq, incəsənət nümunələri ilə zəngin olan Laçın rayonunun təsvirləri də rəssamın Qarabağ silsiləli əsərlərindən biridir. Rəssamın “Laçında bir gün” adlı əsərinə diqqət yetirsək, əsərdə memarlığı ilə göz oxşayan körpünün rəng çalarları axar çayın şəffaf suyunu öz rənginə boyayır. Akif Hüseynovun əsərlərində bir-biri ilə kəskin fərqlənən rənglərin təsvirlərdə göz yormadan işlənməsi rəssamın bu sahədə peşəkarlığının sübutudur.

**Nəticə.** Təsviri incəsənətin bir növü olan rəngkarlıq sənətinin tarixi qədim və olduqca zəngindir. Azərbaycan rəssamlarının da bu sahədə gördükləri işlər diqqətəlayiqdir. Rəngkarlıq sahəsində rəssamlarımızın natrümort, mənzərə, portret, məişət, tarixi, batal və s. janrlarında tabloları üstünlük təşkil edir. Təbiətin gözəlliklərindən, kənd həyatının ürəkaçan görüntülərindən, səs-küylü şəhər həyatından bəhs edilən mənzərə janrı təsviri incəsənətdə böyük əhəmiyyət kəsb edir. Azərbaycan rəssamlarından T.Tağıyev, S.Bəhlulzadə, B.Mirzəzadə, T.Salahov kimi bir çox dahi fırça ustalarının tablolarında təbiəti tərənnüm edən mənzərə janrından işlər dəyərli sənət nümunələridir. Ölkəmizin ikinci böyük şəhəri olan Gəncə diyarında yetişən, yaradıcılıqları ilə incəsənətə yeni-liklər gətirən rəssamlarımız xeyli saydadır.

Öz yaradıcılıqlarında mənzərə janrına müraciət etmiş rəssamlarımızdan X.Səfərova, A.Hüseynov, Ə.Məhərrəmovun işləri, xüsusilə maraq doğurur. Mənzərə janrında işlənmiş əsərlər, xüsusilə, rəng ahəngdarlığına görə bədii estetik zövqü oxşayır. Xalidə Səfərovanın əsərlərindəki isti və soyuq rənglərin koloriti rəssamın rəng duyumundan xəbər verir. Onun əsərlərində təbiətdə mövcud olan rənglərin hər tonunu görmək olar. Rəssamın 1985-ci il Fransaya səfərindən sonra əsərlərində impressionist cərəyanın təsirləri özünü göstərir. Onun mənzərə janrındakı tabloları rənglərinin zənginliyi ilə səciyyələnir.

Ə.Məhərrəmov boyakarlıq sahəsində böyük işlər görmüşdür. Rəssamın mənzərə janrından olan işlərində daha çox doğulub boya başa çatdığı yurdunun

təsvirləri yer alır. Onun "Gəncə çayının sahilində", "Gəncədən bir görünüş", "Xoşbulaq", "Bakı", "Bakı limanı" kimi əsərlərində real həyatdan olan görüntülər tablolara məharətlə köçürülmüşdür. Təbiəti olduğu kimi təsvir edən rəssam bizə reallıqdan danışır. O sanki təbiəti boyalarla canlandırır.

Rəssam A.Hüseynov tələbələrinə bu sahənin sirrlərini həvəslə öyrədir. Boyakarlıq sahəsinə peşəkar olan Akif müəllimin mənzərə janrında işlənmiş çoxlu sayda əsərlərindən yorulmadan danışmaq olar. Əsasən də onun son illərdə işləmiş olduğu Qarabağ silsiləli əsərləri rənglərin harmoniyası, məharətlə vurulmuş fırça toxunuşları ilə aydın nəzərə çarpır.

***Ədəbiyyat***

1. *Məlikova Ş. Gəncə rəssamları. Bakı. 2013. S. 33-49*
2. *Məlikova Ş. Xalidə Səfərova və Mahmud Tağıyev. Xalq Bank. Bakı. 2011. S. 9-47*
3. *Əfəndiyev R. Azərbaycan incəsənəti. Bakı. 2007. S. 137*
4. *Qazıyev A. Rəng nəzəriyyəsinin əsasları. Bakı. 1951. S. 13*
5. *Саламзаде Э.А. Искусствознание Азербайджана. XX век. Баку: Элм, 2001, 352 с.*
6. *Тагирова М.Б. Проблемы и тенденции современной Азербайджанской живописи (1980-2000гг). Дис. ...канд. искусствовед. Баку, 2004, 203 с.*

**G.R.Bağırlı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gunay.bagirli@adpu.edu.az***

# AZƏRBAYCAN TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRLƏ EFFEKTİV ƏKS ƏLAQƏNİN QURULMASINDA AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN TƏCRÜBƏSİ

***Xülasə***

*Məqalədə universitetlərdə tələbə məmnunluğunun ölçülməsi məqsədi ilə həyata keçirilən sorğuların əhəmiyyəti, bu cür effektiv əks-əlaqənin tələbə həyatındakı rolu, eyni zamanda təlim-tərbiyyə prosesində təhsilalanların düzgün istiqamətləndirilməsinin yolları haqqında məlumat verilib. Azərbaycan Dövlət Pedaqoji Universitetində tətbiq olunan effektiv əks-əlaqənin son illər tələbələrin dərs həyatına necə təsir etməsi araşdırılıb. Eyni zamanda elektron və əyani sorğulardan istifadə etməklə tələbə və rəhbərlik arasındakı məsafəni azaltmaq və tələbələri narahat edən bütün məsələlər, o cümlədən təkliflərlə bağlı müraciəti asandlaşdırmağın müsbət tərəfləri qeyd olunub.*

# ОПЫТ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО ПЕДАГОГИЧЕСКОГО УНИВЕРСИТЕТА В ОРГАНИЗАЦИИ ЭФФЕКТИВНОЙ ОБРАТНОЙ СВЯЗИ СО СТУДЕНТАМИ В УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНА

***Резюме***

*В статье представлена информация о значении опросов, проводимых в вузах для измерения удовлетворенности студентов, о роли такой эффективной обратной связи в студенческой жизни, а также о способах рационального руководства студентами в образовательном процессе. Исследовано влияние эффективной обратной связи, применяемой в Азербайджанском государственном педагогическом университете в последние годы. При этом были отмечены положительные стороны сокращения дистанции между студентами и руководством и облегчения подачи заявок по всем вопросам, включая предложения, путем использования электронных и визуальных опросов.*

# EXPERİENCE OF AZERBAİJAN STATE PEDAGOGİCAL UNİVERSİTY İN ESTABLİSHİNG EFFECTİVE FEEDBACK WİTH STUDENTS İN AZERBAİJANİ EDUCATİONAL İNSTİTUTİONS

***Summary***

*The article provides information on the importance of surveys conducted in universities to measure student satisfaction, the role of such effective feedback in student life, as well as ways to properly guide students in the educational process. The effect of the effective feedback applied at the Azerbaijan State Pedagogical University in recent years has been studied. At the same time, the positive aspects of reducing the distance between students and the management and facilitating the application regarding all issues, including suggestions, by using electronic and visual surveys were mentioned.*

***Açar sözlər:*** *universitet, əks-əlaqə, tələbə, təhsil, qiymətləndirmə*
***Ключевые слова:*** *вуз, обратная связь, студент, образование, оценивание*
***Key words:*** *university, feedback, student, education, assessment*

Azərbaycanda ali təhsil müəssisələri özlərinin məqsədi və qarşısına qoyduğu missiyanın həyata keçirilməsi yollarının hazırlanması, eyni zamanda tətbiq edilməsi məsələsini özləri müstəqil şəkildə qəbul etdiyi qərarlar əsasında tətbiq edirlər. Qəbul edilən bu qərarların effektiv olması təhsil alanların təlim və tərbiyəsinin məsuliyyətini çiyinlərində daşıyan universitetlər üçün vacib meyardır. Məhz bu səbəbdən universitetlərdə tələbələrlə əks-əlaqənin qurulması, onlarla mütəmadi ünsiyyətdə olmaq və təhsil müddəti ərzində istər tələbənin akademik, istərsə də şəxsi problemləri yönündən ona dəstək olmaq üçün müxtəlif üsullardan istifadə etməli olurlar.

Təhsili olmayan fərd heç vaxt insan olaraq bir-birinə və bütövlükdə dünyaya qarşı məsuliyyətlərini tam dərk edə bilməz. İnsanlar olaraq, yaşadığımız cəmiyyətə diqqətlə nəzər salmalı və onu hamı üçün, yaşamaq üçün daha yaxşı bir yerə çevirməliyik. Düzgün təhsil fərdə öz şəxsi maraqlarından kənarda düşünməyi öyrədir və onlara dünyanı gələcək nəsil üçün daha xoşbəxt, daha təhlükəsiz yerə çevirmək bacarığını inkişaf etdirməyə kömək edir. Təhsil dedikdə sadəcə kitab, dəftər, mütaliə nəzərdə tutulmur. Fərdin insan olaraq formalaşmasında, onun insani keyfiyyətlərinin olduqca yüksək səviyyədə inkişafına da təhsil və təhsil alınan mühit böyük təsir göstərir.

Ölkəmizdə insan kapitalının inkişafı, gənclərin bilik və müasir bacarıqlara yiyələnməsinin təmin edilməsi Azərbaycan Respublikası prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı Üzrə Dövlət Strategiyası"nın əsas hədəflərindəndir. Bu baxımdan yeni bilikləri mənimsəyən, təkcə öyrənən deyil, həm də yetişdirən universitet modelini formalaşdırmaq ADPU-nun əsas

hədəflərindən biridir. Ümumiyyətlə, universitetlərin ilk yaranan gündən bu günə kimi hədəf və məqsədləri sadəcə bilikli vətəndaş yetişdirmək olmayıb. İnsani keyfiyyətləri yüksək bir kadr yetişdirmək təhsil müəssisələrinin ən önəmli istiqaməti hesab olunub. Məhz bu səbəbdən təhsil ocaqları sadəcə bilik verməklə kifayətlənmir, eyni zamanda fərdin daha keyfiyyətli, uzaqgörən, vətəninə, millətinə, torpağına bağlı, insani keyfiyyətləri yüksək bir şəxsiyyət kimi yetişdirmək üçün çalışır.

Həyat ən böyük təhsildir. Doğulduğumuz andan bu günə qədər hər gün həyatdan yeni şeylər öyrənir, bəzilərini həyatımıza daxil edirik. Başqa sözlə, təhsil təkcə məktəbdə öyrəndiklərimiz deyil. Təhsil insanlara bir çox mövzularda bilik verir. Dəyərləri, sosial normaları öyrədir, inancları formalaşdırır və ünsiyyətimizi gücləndirir. Həyata başqa tərəfdən baxmaq, yeni perspektivlər qazanmaq, şəxsi inkişaf baxımından özümüzü təkmilləşdirmək üçün təhsil həyati zərurətdir. Təhsilin məqsədi insana xas olan substansiyanı emal etmək və mahiyyəti inkişaf etdirməkdir.

Dünyanı qazanmağın yeganə yolu təhsildən keçir. Təhsil bir şeyin kökünə qədər düşünmək və onun arxasındakı niyyətləri və səbəbləri anlamaqdır. Həyatda ən köklü dəyişikliklərin və yeniliklərin əsasını təhsil təşkil edir. Dünyanın ən yaxşı təhsil sistemi olan ölkələrə nəzər saldıqda bu ölkələrin ən inkişaf etmiş ölkələr olduğu görünür. Dünyada ölkələrin mövqeyini təhsil müəyyən edir. Təhsilin töhfələri nələrdir? Bir ölkədə insanların rahat yaşaması və xoşbəxtliyi o ölkədəki insanların keyfiyyətli inkişafa hazır təhsil almasından asılıdır. Bundan əlavə, onların təhsil vasitəsilə əldə etdikləri bilik və bacarıqlar iqtisadi artıma töhfələri ilə düz mütənasibdir. Təhsil iqtisadiyyatın inkişafı və tərəqqisi üçün lazım olan işçi qüvvəsini yetişdirməklə istehsalata töhfə verir.

Müasir psixologiyada qeyd olunur ki, təhsilalanların rəğbətləndirmə və cəzalandırma üsulları heç də hər zaman müsbət nəticə vermir. Tələbələrlə əks-əlaqədən istifadə isə daha səmərəli hesab olunur. Onlar bu qənaətə gəlir ki, təlim və tərbiyə prosesində əks-əlaqədən istifadə etməklə təhsilalanların fəaliyyət və davranışlarını düzgün dəyərləndirmək, istiqamətləndirməni düzgün aparmaq mümkündür. Tərbiyə prosesinin psixoloji təhlili göstərir ki, insanın fəaliyyəti müəyyən psixoloji amillərlə bağlıdır: bizim fəaliyyətimiz şüurun, iradə və adətlərin, habelə hisslərin məhsuludur. İnsan şüurlu məxluq olduğu üçün onun bütün fəaliyyəti, davranışı şüurla tənzim olunur. (2) Buna görə də, ilk növbədə, şüura təsir göstərmək, onda əxlaqi təsəvvürlər, inam, əqidə formalaşdırmaq lazım gəlir.

Effektiv əks əlaqənin qurulması, bilik əldə etməyə nail olmaq üçün növbəti addımları planlaşdırmada tələbənin anlama səviyyəsini və bacarıq inkişafını müəyyən etmək məqsədi ilə nəzərdə tutulmuşdur. Bu cür geri bildirim forması tələbələrin performansında və nailiyyətlərində

təkmilləşdirməyə nail olmaq üçün ən effektiv üsuldur. Geri bildirim tələbə və ya universitet tərəfindən verilə bilər. Bu, rəsmi və ya qeyri-rəsmi, şifahi və ya yazılı, formativ və ya yekunlaşdırıcı ola bilər. Lakin ümumilikdə o, tələbəyə öz fəaliyyətini yaxşılaşdırmaq üçün xüsusi tövsiyələr verməlidir.

Beynəlxalq səviyyədə ali təhsil proqramları Boloniya prosesi ilə başlayır və təhsildə keyfiyyət, ölçmə və qiymətləndirmə prosesi kimi davam edir. Düzgün və təsirli üsullarla edilən rəy fərdin, qrupun və cəmiyyətin uğur və inkişafına müsbət təsir göstərir. Tələbə rəyi universitetin özünüqiymətləndirməsinin və təhsil keyfiyyətinin təminatı sisteminin bir hissəsidir. Universitetdəki tələbə rəyi sistemi fərdi kurslardan tutmuş ümummilli sorğulara qədər tədqiqatların müxtəlif mərhələlərini və fərqli rəy səviyyələrini nəzərə alır. Tədris fəaliyyətinin idarə edilməsində, qərarların qəbul edilməsində və tədrisin inkişafında əks əlaqə sistemli şəkildə istifadə olunur. Geribildirim prosesinin ən vacib hissələrinə nəticələr və sonrakı tədbirlər haqqında məlumat, habelə onların təsirlərinin monitorinqi və qiymətləndirilməsi daxildir.

Dünya reytinqindəki ilk 10 yeri paylaşan universitetlərdəki uğurun sirri verilən yüksək təhsillə yanaşı, tələbələrlə effektiv əks əlaqələrin qurulması da göstərilir. Belə ki, bu universitetlərdə hər bir bakalavr, magistr və doktorantura proqramı illik əsasda öz fəaliyyətini qiymətləndirir və onun cari vəziyyətinin icmalını formalaşdırır. Proqramın əks əlaqə proseslərinin funksionallığı qiymətləndirmənin bir hissəsidir. Bu qiymətləndirmə üçün Universitet Xidmətləri milli tələbə rəy sorğularının nəticələrinin, eləcə də universitet səviyyəsində tələbə rəy sorğularının təqdim olunduğu və müzakirə edildiyi fakültə üçün xüsusi rəy sessiyaları təşkil edir. Nəticə olaraq, rəhbər qrup proqramı həyata keçirmək və inkişaf etdirmək üçün növbəti ildə tələb olunan tədbirləri və resursları sadalayır.(3) Geribildirim öyrənmənin vacib elementidir və tələbələrə ixtisaslı kadr olmaq yolunda irəlilədikcə bilik və bacarıqlarını inkişaf etdirməyə kömək edir. Tələbələri güclü və zəif tərəfləri haqqında məlumatlandırmaq onlara öz fəaliyyətlərini qiymətləndirməyə və işlərinə rəhbərlik etməyə imkan verir.

Azərbaycan universitetləri arasında isə effektiv-əks əlaqələrin qurulması son illər daha da diqqət mərkəzindədir. Azərbaycan Dövlət Pedaqoji Universiteti bu istiqamətdə bir mayakdır desək, yanılmarıq. Bir neçə ildir ki, ADPU-da tələbə məmnunluğunun ölçülməsi ilə mütəmadi əyani və elektron sorğular təşkil olunur. Tələbələrin tədris, sosial-mədəni məsələləri ilə bağlı universitet rəhbərliyi tərəfindən rektor, prorektorlar və dekanlar səviyyəsində müntəzəm olaraq səmimi görüşlər təşkil edilir. Son bir ildə qlobal pandemiya səbəbiylə fəaliyyətini elektron qaydada quran ADPU-da tələbələrlə görüşlər də onlayn platformalarda keçirilir. Son aylarda keçirilən belə ümumi görüşlərdə minlərlə tələbə iştirak edib. Bundan əlavə tələbələr istənilən vaxt tələbə

təşkilatları, universitetin rəsmi saytı və ya işlək sosial media hesabları vasitəsi ilə onları narahat edən bütün məsələlər, o cümlədən təkliflərlə bağlı və ya istənilən şəxsə anında elektron müraciət edir, qısa zamanda cavab alırlar. Əlavə olaraq bu yaxınlarda ADPU Sosial Media Marketinq komandasının rəsmi teleqram kanalına əlavə etdiyi "ADPU bot" süni intellekt botu ilə tələbələr ən çox verilən suallara cavab alır, universitet haqqında zəruri məlumatları əldə edirlər. Hazırda universitetin mobil tətbiqi və əlavə ismarıc botları üzərində iş gedir.

ADPU-SMM 2020-ci ilin oktyabrından universitetin rəsmi sosial media hesablarını yenidən quraraq instaqram və tvitterdə vahid rəsmi səhifələr yaradıb, ilk dəfə universitetin rəsmi teleqram kanalını istifadəyə verib. Bir neçə ay ərzində fərqli konseptdə və operativ fəaliyyət göstərən səhifələr tələbələr arasında böyük auditoriya toplayıb. Feysbuk, instaqram, teleqram, tvitter və yutubda minlərlə real izləyici kütləsini cəlb edərək oxşar səhifələr arasında öz fərqini ortaya qoya bilib. Eyni zamanda bu platformalar üzərindən universitetin tələbələri öz təklif, rəy və şikayətlərini səsləndirmə imkanlarına sahibdirlər.

Mütəmadi keçirilən sorğular istər təhsil, istər sosial həyat, istərsə də dərsdən kənar məşğuliyyətlərin seçimi üçün tələbələrə istiqamət verir, eyni zamanda gizliliyi qorumaq şərti ilə tələbələr razı və narazı qaldıqları məqamları rahatlıqla bölüşə bilirlər.

Universitet daxili keçirilən anonim sorğuların da tələbələr tərəfindən cavablandırması universitet-tələbə arasındakı qarşılıqlı səmimiyyət və inamdan irəli gəlir. Anonimliyi qorunan tələbələrin irad və təkliflərini səmimi dilə gətirməsi də universitet üçün önəmli nüansdır.

***Ədəbiyyat***

*1. BRINKO, K.: Optimal Conditions for Effective Feedback. Paper presented at the Annual Meeting of the American Educational Research Association (Bostan, M.A. April 16-20), ED, 326-155, 1990.*
*2. CHHOKAR, J.S. and J.A. WALLIN: A Field Study of the Effect of Feedback Frequency on Performence.Jouma/ of Applied Psychology, 69, 524-530, 1984.*
*3. https://teaching.helsinki.fi/instructions/article/student-feedback-system-university*

**H.A.Mamedovi**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***abasova.humay@gmail.com***

# SOVET HAKİMİYYƏTİ DÖVRÜNƏDƏK AZƏRBAYCANDA MUSİQİ TƏHSİLİ

***Xülasə***

*Bu məqalənin kontekstində muğamın kult sferasında xüsusi növ kimi fəaliyyət göstərməsini qeyd etmək vacibdir. Dini kult musiqisinin əsasını təşkil edən muğam Azərbaycan şifahi ənənə musiqisinin məzmununu əvvəlcədən müəyyən etmişdir. Tədricən, birinci istiqamətə paralel olaraq muğamın dünyəvi yönümü formalaşmağa başladı ki, bu da sonda onun nəzərəçarpacaq dərəcədə demokratikləşməsinə səbəb oldu. Bu mövzu daxilində bir sıra tədqiqatlarda Azərbaycanda ifaçı kadrların daha peşəkar əsaslarla formalaşmasında xidmətləri olan özəl müəllimlərin rolu qeyd edilib. Evdə fərdi təhsil verən müəllimlər nəzəriyyəni də öyrədirdilər ki, bu da dərslərə daha dolğun xarakter verirdi. Lakin siniflərdə vahid tələblər yox idi, onlar musiqi ədəbiyyatı kursu keçmirdilər. Bu da özəl dərs keçən müəllimlərin işində mənfi xüsusiyyət idi.*

# МУЗЫКАЛЬНОЕ ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНЕ ДО ПЕРИОДА СОВЕТСКОЙ ВЛАСТИ

***Резюме***

*В контексте данной статьи важно отметить, что мугам функционирует как особый вид в культовой сфере. Мугам, являющийся основой религиозно-культовой музыки, предопределил содержание азербайджанской устной традиционной музыки. Постепенно, параллельно начало формироваться первое направление, светский аспект мугама, что в итоге привело к его значительной демократизации. В рамках данной темы в ряде исследований отмечена роль частных педагогов, оказывающих услуги в формировании исполнительских кадров в Азербайджане на более профессиональной основе. Педагоги, осуществляющие индивидуальное обучение на дому, также преподавали теорию, что придавало урокам более полный характер. Однако в классах не было единых требований, они не проходили курс музыкальной литературы. Это было отрицательной чертой в работе учителей, которые давали частные уроки.*

# MUSİC EDUCATİON İN AZERBAİJAN UNTİL THE PERİOD OF SOVİET RULE

***Summary***

*In the context of this article, it is important to note that mugham functions as a special kind in the cult sphere. Mugam, which is the basis of religious and cult music,*

*predetermined the content of Azerbaijani oral traditional music. Gradually, in parallel, the first direction, the secular aspect of mugham, began to form, which eventually led to its significant democratization. Within the framework of this topic, a number of studies have noted the role of private educators who provide services in the formation of performing personnel in Azerbaijan on a more professional basis. Teachers who provide individualized training at home also taught theory, which gave the lessons a more complete character. However, there were no uniform requirements in the classes; they did not take a course in musical literature. This was a negative feature in the work of teachers who gave private lessons.*

Musiqi gerçəkliyi bədii səs obrazları vasitəsilə təsvir edən və insan psixikasına təsir göstərən incəsənət növüdür. İnsanların emosional vəziyyətlərinin konkret və inandırıcı ifadəsinə nail olan bu sənət bəşəriyyət tarixində böyük ictimai-tərbiyəvi rol oynamışdır. Musiqinin söz, hərəkət və s. ilə sintez təşkil etməsi onun imkanlarının genişlənməsinə səbəb olur. Musiqidə təbiət lövhələrinə, insan portretlərinə, müəyyən dövrlərdə ölkələrin ictimai təbəqələrinin həyatını əks etdirən səhnələrinə rast gəlinir. Musiqi həmçinin dövrün emosional koloritini, ritmini, tempini, ümumbəşəri ideyaları ifadə edir. Cəmiyyətin musiqi mədəniyyətinə bir-birilə sıx bağlı olan musiqi təbliğatı, elmi tədqiqat, musiqi kadrlarının hazırlanması və s. daxildir. Musiqi cəmiyyətin tələbatına cavab verməklə insanın maddi (əmək prosesində, onunla əlaqədar adət-ənənələrdə), mənəvi (ideya, etik, estetik) kommunikativ (ünsiyyət) fəaliyyət növləri ilə təmasda olur. Şəxsiyyətin mənəvi aləmini, onun əxlaqi keyfiyyətlərinin, estetik zövq və ideallarının formalaşmasında musiqi mühüm əhəmiyyət kəsb edir. Musiqinin meydana gəlməsi barədə XIX əsrdə və XX əsrin əvvəllərində bir sıra fərziyyələr irəli sürülmüşdür. Bu fərziyyələrə görə musiqinin mənbəyini quşların oxuması, cəh-cəhi, heyvan instinktlərinin ifadəsi olan səslər, ibtidai insanların əmək ritmləri, səs siqnalları və s. təşkil etmişdir. İbtidai icma cəmiyyətində musiqi insanların əmək fəaliyyəti ilə əlaqədar yaranma prosesi keçirmiş rəqs, poeziya və s. sənət növləri rüşeym formasında mövcud olmuşdur. Səs-musiqi sisteminin ibtidai forması, tədricən təkmilləşmişdir. İbtidai icma quruluşunun dağılmağa başladığı dövrdə bədii fəaliyyət müəyyən dərəcədə əmək fəaliyyətindən ayrılmış və musiqi incəsənətin müstəqil növü kimi təşəkkül tapmışdır. Siniflərin meydana gəlməsi ilə musiqi də sinfi xarakter kəsb etmiş, professional və qeyri-professional (özfəaliyyət) musiqi növləri yaranmışdır.

Artıq məlum olduğu kimi islam dini musiqinin əyləncəli olduğunu iddia edərək bütpərəst musiqi ənənələrinə qarşı çıxırdı. İslam dininin xidmətinə qoyulan musiqiyə, məsələn, müəzzinin azan oxumasına (məscidin minarəsindən azan səslənməsi) və “Tiləva” adlanan Quranın avazla oxunmasına icazə verdilər. İslam dini milli musiqinin inkişafını ləngidərək təzyiq göstərsə də, onun ayrı-ayrı forma və janrlarının inkişafına təkan

vermişdir. Musiqinin cəmiyyət həyatında, onun insan şəxsiyyətinin mənəvi tərəfinə təsirində əhəmiyyəti ərəb xilafəti şəraitində yaşayıb-yaratmış bir çox orta əsr alimləri və xadimləri tərəfindən vurğulanır.

Dini ayinlərin tərkib hissəsi olan kult musiqisi muğam kimi janrın inkişafına xidmət etmişdir.

Azərbaycan muğamı şifahi ənənələrin peşəkar musiqisinin instrumental janrıdır. Lakin muğamı daha geniş götürsək, muğam milli düşüncə sistemidir. Azərbaycanda muğam Yaxın və Orta Şərq xalqlarının şifahi yaradıcılığının peşəkar musiqi növü kimi özünəməxsus ənənələrə malikdir. Muğamda kanon prinsipi fəaliyyət göstərir. Muğam kanonu muğam sənətinin tədrisinin əsaslandığı bir növ "bələdçi"dir. Belə ki, hər bir muğam ifaçısı xarakterik intonasiya döngələrini və ya melodik "düsturları", əlaqəli notların tonallıqlarını, ladları və onların qarşılıqlı əlaqə prinsipini bilməli, ölçüsü melodiyanın ritminə uyğun gələn poetik mətni düzgün seçməlidir.

Bu məqalənin kontekstində muğamın kult sferasında xüsusi növ kimi fəaliyyət göstərməsini qeyd etmək vacibdir. Dini kult musiqisinin əsasını təşkil edən muğam Azərbaycan şifahi ənənə musiqisinin məzmununu əvvəlcədən müəyyən etmişdir. Tədricən birinci istiqamətə paralel olaraq muğamın dünyəvi yönümü formalaşmağa başladı ki, bu da sonda onun nəzərəçarpacaq dərəcədə demokratikləşməsinə səbəb oldu.

Muğam sənətinin çiçəklənmə dövrü XIX əsrin əvvəllərinə təsadüf edir. Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdı, Sadıqcan, Bülbülcan, Səid Şuşinski kimi muğamat ustaları və bir çox başqa tanınmış ifaçılar onun əsasında yeni versiyalar, təsniflər, mahnılar yaratmışlar.

Hər bir görkəmli və hamı tərəfindən tanınan musiqiçi-ifaçının sonradan öz sənətini gələcək həvəskar nəslə ötürən tələbələri olub. Belə ki, XIX əsrdə Şuşa şəhərində, sonra Bakı şəhərində, Şamaxıda Azərbaycanda musiqi təhsilinin inkişafına töhfə vermiş varlı mülkədarların ianələri hesabına mövcud olan özəl musiqi məktəbləri açıldı.

Məşhurlar arasında Şuşa şəhərində Xarrat Qulunun təşkil etdiyi muğamçılar məktəbi və Mir Mövsün Nəvvabın Hacı Hüsü ilə birgə təşkil etdiyi və Məclisi Xanəndə adlandırılan Şuşa Məclisi böyük şöhrət qazanmışdır.

Analoji məclis XIX əsrin sonlarında ən böyük mülkədar, musiqiçi Mahmud ağa Əhməd ağa oğlu tərəfindən Şamaxı şəhərində yaradılmışdır. Bu salonda xanəndə yarışları keçirilir, onların qalibləri müəyyən edilirdi. (1, s.10)

Bakı şəhərində Məşədi Mansurov adına salon vokal sənətinin inkişafında böyük rol oynamışdır. Belə bir məclisin mövcud olmasının müsbət məqamı ondan ibarət idi ki, Azərbaycan muğamının tərbiyəvi funksiyası ilə yanaşı, milli-xarakterik xüsusiyyətləri də təkmilləşdirilirdi. Muğam ifa prosesində bir növ rəqabət nəticəsində sanki "təmizlənirdi".

Bir çox məşhur şairlər Seyid Əzim Şirvani, Xurşid Banu Natəvan, M.Ə.Bakı, M.A.Muştexidze musiqi salonlarının fəaliyyətində iştirak edirdilər.

İnqilabdan əvvəlki dövrdə mövcud olmuş xalq musiqi məktəbləri sosializmin qələbəsindən sonra Azərbaycanda musiqi təhsilinin formalaşmasında və inkişafında öz funksiyasını yerinə yetirməli oldu. Sovet dövründə ibtidai musiqi təhsilinin yüksəldiyi əsas bazalardan biri idi.

Azərbaycanın görkəmli maarif xadimləri (H.Zərdabi, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət və başqaları) Azərbaycan xalqının həyatında təkcə özlərinin deyil, həm də rus inqilabçı demokratlarının (V.Q.Belinski, N.Q.Çernışevski, V.V.Stasov, A.N.Stasov) qabaqcıl ideyalarını təbliğ edirdilər. Bunun sayəsində Azərbaycan xalqının gürcü, Dağıstan, Orta Asiya xalqları ilə iqtisadiyyatının, siyasətinin, mədəniyyətinin inkişafı, mədəni yaxınlaşması üçün obyektiv şərait yaradıldı. (1, s.11)

Azərbaycan maarifçiliyi tarixində "başlanğıc nöqtəsi" mənasını alan ən mühüm fakt 1829-cu ilə təsadüf edir: həmin ildə çar hökuməti dövlət quruluşunun əsaslarını qoyan Zaqafqaziya məktəblərinin nizamnaməsini təsdiqlədi. Nizamnaməyə əsasən, 1867-ci ildən bütün təhsil müəssisələri və internat məktəbləri genişləndirilmiş, proqramlara rəsm, gimnastika, sənətkarlıq, bağçılıq, ən əsası isə oxumaq və musiqi alətlərində (skripka, fortepiano) ifa etmək dərsləri daxil edilmişdir.

XIX əsrdə Azərbaycanda dünyəvi təhsil müəssisələrinin fəaliyyətinə dair bir sıra tədqiqatların (Q.Ə.Əhmədov, S.A.Seyidov, A.İ.İsazadə) təhlili, Müqəddəs Ninanın Gimnaziyası, Zaqatala Qadın Gimnaziyası, Qori Müəllimlər Seminariyası kimi təhsil ocaqlarında musiqi dərslərinin xarakterini müəyyən etməyə imkan verdi. Azərbaycanın orta təhsil müəssisələrində musiqinin tədrisi üsullarını, tədrisin mahiyyətini və keyfiyyətini təhlil edərkən əksər hallarda səthi, natamam və fakultativ prosesi xüsusi qeyd edilməlidir. (2, s.34)

Bu mövzu daxilində bir sıra tədqiqatlarda Azərbaycanda ifaçı kadrların daha peşəkar əsaslarla formalaşmasında xidmətləri olan özəl müəllimlərin (V.A.Voitsexovski, G.A.Lokerman, D.A.Çernomordikov, İ.Q.Xmelevski, K.A.Undrits, N.V.Borisov) rolu qeyd edilib. Evdə fərdi təhsil verən müəllimlər nəzəriyyəni də öyrədirdilər ki, bu da dərslərə daha dolğun xarakter verirdi. Lakin siniflərdə vahid tələblər yox idi, onlar musiqi ədəbiyyatı kursu keçmirdilər. Bu da özəl dərs keçən müəllimlərin işində mənfi xüsusiyyət idi.

Onu da vurğulamaq lazımdır ki, bu dövrdə Rusiyada təhsil almış və Bakıda musiqi dərsi keçən tanınmış müəllimlər arasında bir nəfər də olsun azərbaycanlının olmaması Azərbaycanda xüsusi musiqi təhsili müəssisəsinin olmamasının nəticəsi idi. Rusiya mütəxəssisləri regionda Avropa musiqi təhsilinin formalaşmasında mühüm rol oynamışlar. İttifaq respublikalarında inqilabdan əvvəlki musiqi təhsili dövrünə həsr olunmuş məşhur tədqiqatları

öyrənərək, Gürcüstanda, Özbəkistanda, Tacikistanda oxşar faktları qeyd etmək olar.

1895-ci ildə A.N.Yermolayeva tərəfindən Rus musiqi şöbəsinin filialı kimi Bakıda təşkil olunmuş musiqi məktəbi Azərbaycanın musiqi təhsili tarixində əlamətdar mərhələ olmuşdur. İndiyədək mövcud olmuş musiqi təhsilinin bütün formaları müəllimlik hüququ verən ilk xüsusi musiqi təhsili mərkəzinə çevrilmiş, musiqi məktəbinin yaranması üçün bir növ əsas olmuşdur. Məktəbin müəllimləri təkcə ümumtəhsil deyil, həm də kvartet gecələri keçirməklə həyata keçirilən bədii-tərbiyə işlərini də öz qarşılarına əsas məqsəd kimi qoyurdular. (5, s.37)

K.Səfərəliyeva, M.X.Dilbazovanın, A.N.Ermolayevanın musiqi məktəbinin fəaliyyətinə həsr olunmuş əsərlərinin təhlili, məktəbin formalaşması və inkişafı prosesinin, proqramların tədqiqinin öyrənilməsi XIX əsrin sonu, XX əsrin əvvəllərində bu musiqi təhsili müəssisəsinin Bakı cəmiyyətinin mədəni həyatındakı yerini və rolunu müəyyən etməyə imkan verdi. (4, s.6)

Sovet hakimiyyəti qurulana qədər Azərbaycanda musiqi təhsilinin mahiyyətini, formalarını və istiqamətlərini öyrənmək üçün biz regional-milli və ümumavropa yönümlülüyün əsas mənbələrini müəyyən etdik ki, onların əsasında sovet dövründə Azərbaycanda ilkin musiqi təhsili qurulmuşdu.

1920-1945-ci illər Azərbaycanda ilkin musiqi təhsilinin möhkəm formalaşması, Bakıda və respublikanın bölgələrində musiqi mədəniyyətinin əsaslarının qoyulması prosesi ilə əlamətdar olmuşdur. 1945-1961-ci illərdə Bakının bir çox yerlərində (13 uşaq musiqi məktəbi) və respublikanın ən ucqar rayonlarında (Zaqatala, Sumqayıt, Mingəçevir, Göyçay, Gəncə, Şamxor, Qazax, Fizuli, Neftçala, Lənkəran, Şamaxı) yeni uşaq musiqi məktəblərinin yaradılması və təşkilinin daha da inkişafı əsasında Azərbaycanda mədəniyyət cəbhəsi genişlənmişdi.

Tədqiqatların təhlili nəticəsində Azərbaycanda musiqi təhsilinin forma və üsullarını qiymətləndirərək qeyd edilməlidir ki, Azərbaycan musiqi alətləri təlim prosesindən kənarda qalmışdı. Lakin inqilabdan əvvəlki dövrdə Azərbaycanın dünyəvi təhsil ocaqlarında təlim yalnız Avropa musiqi alətlərində aparılırdısa, Azərbaycanda Sovet hakimiyyəti qurulandan bəri tar və kamança kimi Azərbaycan xalq çalğı alətləri Üzeyir Hacıbəyovun və Müslüm Maqomayevin təbliğat və maarifləndirmə fəaliyyəti sayəsində Avropa alətləri ilə bərabər öyrənilməyə başlandı.

Digər tərəfdən, Rus musiqi şöbəsinin filialı olan Bakı filialı Moskva və Sankt-Peterburq şəhərlərindəki mərkəzi musiqi məktəblərinin plan və modeli əsasında fəaliyyət göstərirdi və bu da məktəbdə təhsilin xarakterinə təsir edirdi.

Qeyd olunan fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, cəmiyyətin böyük təbəqələri musiqi təhsilindən kənarda qalmışdı. Çünki

onların buna imkanları yox idi. Rusiyanın tərkibinə daxil olan zaman respublika üçün mütərəqqi şərait olsa da, XX əsrin ikinci onilliyinin sonlarından etibarən təkcə Azərbaycanın deyil, Rusiyanın digər regionlarının da inkişafında ləngimə ilə nəticələnmişdi.

***Ədəbiyyat***

1. *Багирова Тамилла Али кызы «Становление и развитие детских музыкальных школ в Азербайджане (1920-1961гг.)», Автореферат, Баку-1990*
2. *Дильбазова М. Из музыкального прошлого Баку (вторая половина XIX-начало XX века). -Баку: Ишыг, 1985.*
3. *Исазаде А. Летопись музыкальной жизни Советского Азербайджана (1920-1925). -Баку: АН АзССР, 1965.*
4. *Касумова С. Из истории профессионального музыкального образования в Азербайджане. Автореф.дисс.канд.искусствовед. -Баку, 1970.*
5. *Локшин Д.Л. «Хоровое пение в русской дореволюционной и советской школе». -М.: Изд-во АПН РСФСР, 1957.*

**A.X.Dadaşlı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***dadashliaysel27@gmail.com***

# SAHİBKARLAR ORTA MƏKTƏBDƏ YETİŞDİRİLİR

***Xülasə***

*Məqalədə kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişaf etdirmək üçün məktəbəqədər müəssisələrdə, məktəblərdə və universitetlərdə tətbiq olunan "StartUP" biznes oyunundan bəhs edilir.*

# ПРЕДПРИНИМАТЕЛЕЙ ГОТОВЯТ СО СРЕДНЕЙ ШКОЛЫ

***Резюме***

*В статье рассматривается деловая игра "StartUP", которая используется в дошкольных учреждениях, школах и вузах для развития малого и среднего бизнеса.*

# ENTREPRENEURS ARE TRAINED IN HIGH SCHOOL

***Summary***

*The article talks about the "StartUP" business game used in preschools, schools and universities for the development of small and medium entrepreneurship.*

***Açar sözlər:*** *sahibkar, iqtisadiyyat, lider, texnologiya, StartUP, biznes, ünsiyyət, innovativ metodologiya*
***Ключевые слова:*** *предприниматель, экономика, лидер, технология, StartUP, бизнес коммуникация, инновационная методология.*
***Key words:*** *entrepreneur, economy, leader, technology, StartUP, busıness, communication, innovative methodology*

Ölkəmizdə bazar münasibətlərinin formalaşdığı müasir dövrdə kiçik və orta sahibkarlıq bölməsinin yaradılması və inkişaf etdirilməsi cəmiyyətin sosial və iqtisadi yeniləşməsində çox mühüm rol oynayır. Dövlət kiçik və orta sahibkarlığı dəstəkləməklə orta təbəqənin formalaşmasına nail olur. Bununla yanaşı, kiçik və orta biznesin fəaliyyət dairəsi genişləndikcə büdcə vəsaiti səmərəli formada tamamlanır, yəni dövlətin təbii enerji gəlirindən asıllığını azaldır. Beləliklə, qeyd etmək lazımdır ki, iqtisadiyyatın yenidən qurulmasının labüdlüyü obyektiv olaraq ona doğru aparır ki, ölkə vətəndaşlarının çox böyük hissəsi sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Belə şəraitdə dövlətin kiçik və orta sahibkarlığı ağıllı və məqsədyönlü formada inkişaf etməsi labüddür. Çünki, bunlar yeni iş yerlərinin yaradılmasına, işsizlik səviyyəsinin aşağı

düşməsinə, sosial gərginliyin aradan qaldırılmasına səbəb olur. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, ölkəmizdə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinə çox böyük diqqət yetirilir.

Respublikamız müstəqiliyini əldə etdikdən sonra dövlətimiz sahibkarlıq fəaliyyətinə xüsusi diqqət və qayğısını əsirgəməmişdir. Sahibkarlıq fəaliyyəti ilə bağlı yeni qanunların qəbulu və mövcud qanunların təkmilləşdirilməsi, eləcə də sahibkarlıq fəaliyyəti ilə bağlı Prezident İlham Əliyevin verdiyi sərəncamlar iş adamları tərəfindən böyük razılıqla qarşılanır. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasını uğurlu şəkildə davam etdirən Prezident İlham Əliyev respublikamızda kiçik və orta sahibkarlığın inkişafına böyük töhfələr vermişdir. Prezidentin həyata keçirdiyi iqtisadi siyasət sahibkarlığın tərəqqisinin təminində, yerli istehsal və sosial infrastrukturun yaradılmasında, güzəştli kreditlərin ayrılmasında, insan kapitalı və təbii ehtiyatlardan səmərəli istifadə yolu ilə mövcud potensialın reallaşdırılmasında, yerli və xarici investorların ölkəyə, xüsusilə, regionlara cəlb olunmasında yeni bir səhifə açılmışdır. İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə zamanın tələblərinə uyğun şəkildə aparılan islahatlar geniş vüsət alaraq, həm də sosial-iqtisadi inkişaf sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoyub. Bu kontekstdə sahibkarlığın inkişafı məqsədilə ölkəmizdə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli və rəqabətədavamlı məhsulların istehsal edilməsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.

Məlumdur ki, azad sahibkarlıq yalnız o ölkələrdə uğurla inkişaf edir ki, orada sahibkarlıq fəaliyyətlərinə, sahibkarlara, sahibkarlar təbəqəsinə dövlət tərəfindən qayğı və diqqət göstərilir. Bu da sirr deyil ki, sahibkarlar təbəqəsinin formalaşması Azərbaycanın inkişafına müsbət təsir göstərir.

Bütün dediklərimizin məntiqi nəticəsi olaraq məktəblərdə kiçik və orta sahibkarlığa maraq artırılmalıdır. Çünki, kiçik və orta sahibkarlıq fəaliyyətlərinin inkişafının ilk mərhələsi elə məktəbin özündən başlayır. Belə ki, bu günün məktəblisi gələcəyin sahibkarına namizəddir.

İndi böyüklər üçün çoxlu biznes məktəbləri və hər cür kurslar var ki, burada onlar biznes haqqında əsas və dərin biliklər əldə edə, yeni əlaqələr qura və irəliyə keyfiyyətli sıçrayış əldə edə bilərlər. Ancaq əminik ki, gələcək sahibkarların inkişafı və hazırlanması ilə əvvəlcədən məşğul olmaq lazımdır. Məktəbdən, hətta məktəbəqədər müəssisələrdən başlayaraq.

Araşdırmalar nəticəsində sahibkarlıq fəaliyyətinin səviyyəsi ilə sahibkarlıq təhsili arasında birbaşa əlaqənin olduğu sübut edilmişdir. Məktəblərdə gələcəyin iqtisadiyyatını yaradanlar yetişdirilir. Sahibkarlıq təkcə

elm deyil, həm də məntiq, düşüncə tərzi, xarici aləmlə qarşılıqlı əlaqə, sahibkarlıq ruhudur.

Sahibkarlığı öyrətmək çətindir. Bəziləri hətta bunun qeyri-mümkün olduğunu düşünür. Ancaq lazımi bacarıqları inkişaf etdirmək mümkündür və lazımdır. Məhz bu bacarıqların inkişaf etdirilməsi məktəblərdən və məktəbəqədər müəssisələrdən başlanılmalıdır.

Gənc nəslin həmişə çoxlu ideyaları olur. Yaşlarına görə, onlar həm işlərində, həm də qərarlarında ən qısa müddətdə yetkin, yaradıcı və müstəqil olmağa çalışırlar. Amma onlar ideyanı qiymətləndirmək, onun nə qədər həyat qabiliyyətli və sərfəli olduğunu başa düşmək qabiliyyətinə malik deyillər, həmçinin onu biznesə necə çevirmək barədə kifayət qədər məlumatlı deyillər.

Sahibkarlıq təfəkkürünün inkişafı üçün *biznes oyunu "StartUP"* buna kömək edəcək. *"StartUP" biznes oyunu* gələcək sahibkarların hazırlanması və inkişafı üçün nəzərdə tutulmuş bir oyundur.




"*StartUp"* ingilis dilindən tərcümədə başlamaq, işə salmaq mənalarını verir. "*StartUp"* dedikdə, mövcüd olmayan hər hansı bir ideyanın reallaşdırılması və ya daha əvvəldən mövcüd olan hər hansı bir ideyanın təkmilləşdirilməsi üçün ehtiyacı aradan qaldıran və bəzən də həmin ideyanı ehtiyac halına gətirən inkişafa meyilli təşəbbüslər başa düşülür. Ən böyük staruplara "HP", "Facebook", "YouTube", "İnstagram", "Wikipedia" və s. misal göstərmək olar.

İlk dəfə "start up" anlayışı 1939-cu ildə texnologiyanın əsas mərkəzi hesab olunan ABŞ-ın Kaliforniya ştatında San–Fransisko şəhərinin

yaxınlığında, Santa-Klare vadisində yaranmışdır. Bu ərazi hazırda dünyanın yüksək texnologiyalar mərkəzi hesab olunan **Silikon Vadisi** adlanır. Həmin il Stendford Universitetində təhsil alan tələbə dostlar William Hewlett və David Packard o zamanlar üçün kiçik və yeni hesab edilən layihələrini yaradaraq ona **Startup** adını verdilər. Zaman keçdikcə bu layihə hal-hazırda dünyanın ən nəhəng texnologiya şirkətlərindən biri olan "**HP"** şirkətinə çevrildi. Şirkətin adı qurucuların adlarının baş hərflərindən götürüldü və Hewlett-Packard (HP) adlandırıldı. HP şirkətinin başlanğıc sərmayəsi 538 dollar idi və onun ilk ofisi Palo Altoda yerləşən adi qaraj olub. Hazırda dünyanın ən böyük texnoloji startupları Silikon Vadisində yerləşir.

*"StartUP"* məktəblilərə həm biznesdə, həm də gündəlik həyatda çeviklik və dəyişkənlik öyrədir. Bu oyun biznes planları hazırlamaq, investor tapmaq, kreditlər və s. bu kimi məsələlərə yəni sıfırdan, yeni sahibkarlıq fəaliyyətinin qurulmasında qarşıya çıxa biləcək ilkin nüanslarla məktəbliləri tanış edir. Buda məktəblilərin özlərinin güclü tərəflərinə güvənmək bacarığından tutmuş, onların özlərini bazar iqtisadiyyatında dərk etmək bacarığlarına qədər gedir çıxır. *"StartUP" biznes oyunu* məktəblilər, kollec, texnikum və universitet tələbələri arasında sahibkarlıq təfəkkürünü inkişaf etdirmək üçün əvəzsiz bir biznes oyunudur. Bu oyun nəticəsində tələbələr və şagirdlər həm biznesdə, həm də gündəlik həyatda çeviklik, dəyişkənlik və tətbiqi improvizasiya bacarıqları əldə edirlər. Habelə *"StartUP" biznes oyunu* məktəblilərə və tələbələrə istənilən vəziyyətdə öz mənfəətləri üçün yenidən qurmağı öyrədir, onlara bilik və bacarıqları inkişaf etdirməyə və möhkəmləndirməyə, biznes layihəsinin inkişafı üçün yeni boşluqlar tapmağa, onu bacarıqla təqdim etməyə və satmağa, tanınmağa imkan verir.

Bu oyun şəxsi məsuliyyət, motivasiya və ideyalarını reallaşdırmaq istəyi əsasında müəyyən həyat mövqeyinin formalaşmasında əsas rol oynayır. Fürsətləri görməyi və qeyri-müəyyənlik qarşısında irəli getməyi öyrədir. Riskləri hesablamağı, səhvlərdən qorxmamağı, inamla addımlamağı və nəticədə nəticə əldə etməyi təmin edir. *"StartUP" biznes* oyununda səhvlər edə, adi və gündəlikdən kənara çıxa, fərqli bir şəkildə reaksiya verə bilərsiniz. Və nəticədə maraqlı, sıçrayışlı məhsul/xidmət əldə edə bilərsiniz. "*StartUP"* gənclərə layihələrinə müxtəlif rakurslardan baxmaq, onu hədəf auditoriyanın ehtiyaclarına uyğunlaşdırmaq və tanıtım strategiyası üzərində düşünmək imkanı verir.

Şagirdlərdə "**StartUp adi biznes fəaliyyətindən nə ilə fərqlənir?"** Sualı yarana bilər:

**1. StartUp-a kiçik kapitalla başlamaq olar.** İlk fərq ondadır ki, biznes açmaq üçün müəyyən sayda heyət olmalıdır. Heyət tam olmasa da ofis, çalışacağı bazar, gəlir götürmə yolları, ən əsası isə məhsul hazır olmalıdır. Startuplar isə kiçik bir heyətlə də başlaya bilər. Ola bilər ki, sadəcə bir insan

olsun. Ofis o qədər də vacib deyil, çünki planda hələ bir və ya bir neçə il gəlir götürmədən işləmək var. Bu hər bir startupa başlamadan nəzərə alınmalıdır. Məhsul isə yaxşı olar ki, istifadəçilərin sayını artırmaq, gələcək bazarı yaratmaq üçün pulsuz (və ya qeydiyyat qarşılığında) paylansın.

**2. İnvestor adətən startupın heyətində yer alır.** StartUp üçün ilkin kapital adətən investorun özü tərəfindən maliyyələşdirilir. Belə ki, yeni yaradılan kiçik bizneslər kredit və digər mənbələr hesabına maliyyələşirsə, startuplar isə başlıca olaraq investorun və ya sərmayə qoyan şirkətlərdən asılı olur. Çünki startupların sonda nə qədər uğur gətirəcəyini və ya nə qədər ziyanla işləyəcəyini öncədən hesablamaq çox çətindir.




Müəllim bu oyunu həm müstəqil təhsil tədbiri kimi, həm də təhsil prosesinə mükəmməl şəkildə inteqrasiya olunaraq dərs prosesində həyata keçirilə bilər.

Gələcək sahibkarlar üçün “*StartUP*” oyunu aşağıdakı keyfiyyətləri inkişaf etdirir:

- Özünü təşkil etmə və məsuliyyət;
- Müstəqil qərar qəbul etmək bacarığı;
- Liderlik bacarıqları;
- Məqsəd təyin etmək və planlaşdırmaq;
- Komandada işləmək bacarığı;
- Ünsiyyət bacarıqları;
- Bazar vəziyyətinə uyğunlaşmaq və çətin şəraitdə inamlı davranmaq bacarığı;

- Arqumentasiya və layihələrin təqdimatı bacarıqları;
- Yaradıcılıq;
- Düşüncənin çevikliyi və dəyişkənliyi.

Məktəblilər arasında sahibkarlıq düşüncəsini inkişaf etdirməklə yanaşı, "*StartUP*" məktəbdə əsas sahibkarlıq bacarıqlarının inkişafı üçün innovativ metodologiyanın tətbiqinə, müasir dizayn texnologiyalarını təkmilləşdirməyə, məktəblilərin üfüqlərini genişləndirməyə və onları gələcəyin iqtisadiyyatının meylləri ilə tanış etməyə, məşhur sahibkarların uğur hekayələrini öyrənməyə imkan verəcək.

Məktəblərdə sahibkarlıq fəaliyyətinə marağın artırılması təkcə respublikamızda yox, dünyanın bir çox aparıcı ölkələrində də əsas prioritet məqsədlərdəndir. Yuxarıda bəhs etdiyimiz biznes oyunumuz olan *"StartUP"* biznes oyunu bir çox dövlətlərin təcrübəsindən keçmiş və özünü doğrultmuşdur. Məhz bu gün suverən dövlətimizdə kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişaf etdiyi bir dövrdə "*StartUP*" biznes oyununu uşaq bağçalarında, məktəblərdə və universitetlərdə tətbiq etməklə böyüməkdə olan cavan nəslimizdə ilkin sahibkarlıq vərdişləri formalaşdırmaq mümkündür.

***Ədəbiyyat***

1. *Т.И.Кругликов «Методика преподавания технологии с практикумом» учебное пособие студентов 2010 г.*
2. *F.Əliyeva, "Müasir təlim texnologiyaları" 2014*
3. *https://donskih.ru/2018/08/rastim-predprinimatelej-so-shkoly/*
4. *https://kriptoinvest.az/2019/03/20/start-up-nedir/*
5. *https://anl.az/down/meqale/uc_noqta/2015/dekabr/466439.htm*

**H.M.Rəhimli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***hasanragimli@gmail.com***

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANDA BƏDƏN TƏRBİYƏSİNİN İNKİŞAF YOLLARI

***Xülasə***

*Məqalədə müstəqillik dövründə ölkədə bədən tərbiyəsi və idmanla bağlı siyasətindən bəhs edilir. Müstəqillik dövründə bədən tərbiyəsinin inkişaf gedişi araşdırılır. Eyni zamanda, müstəqillik qazandıqdan sonra beynəlxalq aləmdə Azərbaycan idman ölkəsi kimi tanınması və olimpiya hərəkatında iştirakı məsələləri də araşdırılır. Məqalədə eyni zamanda prezident seçildikdən sonra İlham Əliyevin bədən tərbiyəsinin inkişafı üzrə tədbirlərin həyata keçirilməsini diqqət mərkəzində saxlamışdır.*

# ПУТИ РАЗВИТИЯ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ В АЗЕРБАЙДЖАНЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ

***Резюме***

*В статье рассказывается о физкультурно-спортивной политике в стране в период независимости. Исследуется ход развития физического воспитания в период независимости. При этом также исследуются вопросы признания Азербайджана спортивной страной в международном мире и участия в олимпийском движении после обретения независимости. В то же время в статье акцентируется внимание на реализации мер, связанных с развитием физического воспитания после избрания Ильхама Алиева президентом.*

# DEVELOPMENT WAYS OF PHYSİCAL EDUCATİON İN AZERBAİJAN DURİNG İNDEPENDENCE

***Summary***

*The article tells about the physical culture and sports policy in the country during the period of independence. The course of development of physical education in the period of independence is investigated. At the same time, the issues of recognition of Azerbaijan as a sports country in the international world and participation in the Olympic movement after gaining independence are also explored. At the same time, the article focuses on the implementation of measures related to the development of physical education after the election of Ilham Aliyev as president.*

***Açar sözlər:*** *bədən tərbiyəsi, idman, müstəqillik dövründə, Azərbaycan, idman ölkəsi və s.*

***Ключевые слова:*** *физическое воспитание, спорт, годы независимости, Азербайджан, спортивная страна и др.*

***Key words:*** *physical education, sport, during independence, Azerbaijan, sports country, etc.*

Bədən tərbiyəsinin yaranması insan cəmiyyətinin tarixində ən erkən dövrə aiddir. Bədən tərbiyəsinin elementləri ibtidai cəmiyyətdə yaranmışdır. Tədricən, tarixi prosesin gedişində insanlar daha fəal və hərəkətli həyat tərzi keçirən, müəyyən fiziki hərəkətləri dəfələrlə təkrarlayan, fiziki səy göstərən tayfa üzvlərinin də daha güclü, daha möhkəm və səmərəli olmasına diqqət yetirirdilər. Bu, insanların məşq fenomenini (hərəkətlərin təkrarlanması) şüurlu başa düşməsinə səbəb oldu. Məhz məşq fenomeni bədən tərbiyəsinin əsasına çevrildi.

Mütəşəkkil bədən tərbiyəsinin formaları qədim Yunanıstanda gənclər üçün hərbi və idman məşqlərində xüsusi təlim formasında yaranmışdır, lakin müasir tarixə qədər onlar imtiyazlı təbəqələrin bir neçə nümayəndəsinin mülkiyyətində qalmış və ya hərbi təlimlə məhdudlaşmışdır (4).

Bədən tərbiyəsi sistemi – insanların fiziki təkmilləşməsini və sağlam həyat tərzinin formalaşmasını təmin edən fəlsəfi, nəzəri-metodoloji, proqram-normativ və təşkilati əsasları özündə əks etdirən bədən tərbiyəsinin ictimai təcrübəsinin tarixən şərtləndirilmiş növüdür (1).

Azərbaycanda bədən tərbiyəsi sistemi də bütün digər sahələr kimi tamamilə diqqətdən kənarda qalmışdı. Ölkədəki belə acınacaqlı vəziyyət gənclərin qeyri-sağlam həyat tərzinə, pis vərdişlərə tərəfkeşlik etməsinə öz təsirini göstərib.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkədə bədən tərbiyə hazırlığına idmana münasibət köklü şəkildə dəyişdi. Bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin istiqamətlərindən birinə çevrilmiş və bu sahənin inkişafının əsasını qoymuşdur. Müstəqil Azərbaycan beynəlxalq aləmdə idman ölkəsi kimi tanındı və olimpiya hərəkatına daxil oldu. İdmanda olan problemlərin aradan qaldırılması, idmançıların rifah halının yaxşılaşdırılması, onların gələcək qələbələri üçün stimullaşdırılması, ölkədə yeni idman komplekslərinin yaradılmasının gələcək prioritetləri müəyyən edilib (6).

Heydər Əliyev bədən tərbiyəsinin inkişafını hər bir xalqın böyük ideyalarının təcəssümü olmaqla yanaşı, dövlətin beynəlxalq nüfuzunun və mövqeyinin təntənəsi hesab edirdi. Ümummilli lider ölkəmizin dünyada tanınmasında, imicinin möhkəmlənməsində idmanın müstəsna rolunu vurğulayaraq deyirdi: "İdman və bədən tərbiyəsi insanların sağlamlığı ilə bağlı

mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada iki dəfə dalğalana bilərdi. Azərbaycanın dövlət başçısı hansısa ölkəyə səfər edəndə, idmançılarımız beynəlxalq yarışlarda iştirak edərək çempion adını qazananda belə olur. Azərbaycanın himni səsləndirilir, dövlət bayrağı qaldırılır" (2).

Ulu öndər Heydər Əliyevin fiziki hazırlıq sahəsində həyata keçirdiyi siyasət 1997-ci ildən başlayaraq yeni mərhələyə qədəm qoydu (5). İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə istənilən sahədə uğurlu seçilməsi Azərbaycanın idman həyatında mühüm və əlamətdar hadisə oldu (2). Bu tarixi seçim Ümummilli lider Heydər Əliyevin respublikada idmanın inkişafı ilə bağlı ideyalarının sürətlə həyata keçirilməsini təmin etmiş, idman sahəsində aparılan dövlət siyasətinin yeni şəraitdə həyata keçirilməsinə geniş imkanlar yaratmışdır.

İlham Əliyevin idmanın və bədən tərbiyəsinin inkişafı, Azərbaycanın dünya idman ailəsində bərabər hüquqlara malik olması istiqamətində atdığı addımlar bütün idman ictimaiyyəti tərəfindən razılıqla qarşılandı. İlham Əliyev tərəfindən qısa müddət ərzində həyata keçirilən tədbirlər öz nəticəsini verməyə başladı. İdmançılara göstərilən dövlət qayğısı ilə yanaşı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində də mühüm məsələlərə diqqət yetirilib. 2000-ci ildən başlayaraq Azərbaycanın müxtəlif bölgələrində müasir üslubda Olimpiya idman komplekslərinin tikintisinə başlanılmışdır.

İlham Əliyev prezident seçildikdən sonra da Azərbaycan xalqının fiziki-mənəvi sağlamlığı üçün əlindən gələni əsirgəməmiş, hərbi-fiziki hazırlığın inkişafı istiqamətində kompleks tədbirlərin həyata keçirilməsini daim diqqətdə saxlamış, respublikamızın idman imicini daim yüksəltməyə çalışmışdır.

Azərbaycanın bütün bölgələrində bədən tərbiyəsi üzrə idmanla məşğul olmaq üçün bütün müasir tələblərə cavab verən infrastrukturun formalaşdırılması dövlət başçısı tərəfindən mühüm vəzifələrdən biri kimi qiymətləndirilib və təbii ki, bütün bunlar gənc nəslin sağlam ruhda yetişməsinə, respublikamızda fiziki hazırlıq üzrə idmanın kütləviləşməsinə xidmət edir. Bu sahədə əldə edilmiş uğurlu nəticələr Azərbaycanda qurulan düzgün idman siyasətinin mühüm sübutudur.

Müstəqilliyin ilk illərində maddi imkanlara görə respublikamızı tərk etmiş çoxsaylı gənc idmançılar Azərbaycanın idman şərəfini və üçrəngli bayrağını ucaltmağa qayıtdılar. Respublikamızda beynəlxalq səviyyəli yarışlar təşkil olunmağa başlanmış, idmançılarımız Avropa və dünya çempionatlarında iştirak edərək idmanın müxtəlif növləri üzrə uğurlu nəticələr göstərmişlər. Yarışların davam etdirilməsi, dövlətimizin başçısı İlham Əliyev tərəfindən idmançılarımızın mənəvi və maddi dəstəyi, həvəsləndirilməsi mühüm vasitə kimi vurğulanmalıdır.

Ölkəmizdə idmanın inkişafına qayğı təkcə olimpiya idman növlərinə deyil, qeyri-olimpiya idman növlərinə də verilir və dövlət orqanları bu idman növləri ilə məşğul olan idmançıların beynəlxalq yarışlarda iştirakını daim maliyyələşdirir, onların həvəsləndirilməsi üçün müxtəlif tədbirlər görür. Bunun nəticəsidir ki, Azərbaycan idmançıları pauerliftinq, peşəkar boks, kikboksinq, final döyüşü və digər idman növləri üzrə ən yüksək nəticələr əldə ediblər.

Prezident İlham Əliyev demişdir: "Azərbaycanda olimpiya və qeyri-olimpiya idman növləri eyni hüquqa malikdir. Azərbaycanda heç bir ayrıseçkilik yoxdur və bu siyasət illərdir aparılır. Biz istər olimpiya, istərsə də qeyri-olimpiya idman növləri ilə məşğul olan idmançılara eyni münasibətlə yanaşırıq və bu, yeganə yoldur, çünki beynəlxalq yarışlarda hər bir idmançı Azərbaycanı təmsil edir, onun şöhrətini yüksəldir" (3).

Azərbaycanın dinamik inkişafı idmanın inkişafı ilə eyni vaxtda gedir. Qazanılan medallar, idman komplekslərinin tikintisi, Azərbaycanın bir idman ölkəsi kimi beynəlxalq aləmdə nüfuzunun güclənməsi birlik təşkil edir və idman sahəsindəki uğurlarımızın əsasını təşkil edir. İdmançılarımız əmindirlər ki, Prezident İlham Əliyevin ölkəmizin inkişafına xidmət edən ictimai, siyasi və mədəni xətti idmanımızın inkişafına böyük təkan verəcəkdir. İdmançılarımızın hər zaman beynəlxalq yarışlarda qazandıqları uğurlar, bayrağımızı ucaltması ölkəmizi şərəfləndirir.

Bu gün Azərbaycan Respublikası öz tarixinin şərəfli, müstəqil, inkişaf və tərəqqi dövrünü yaşayır. Ümummilli liderimiz Heydər Əliyevin milli maraqlara əsaslanaraq həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Təbii ki, fiziki hazırlıq sistemi də diqqət və qayğıdan kənarda deyil.

***Ədəbiyyat***

1. *Abıyev A. Q., Qurbanov H.H., Ramazanov A.X. Orduda fiziki hazırlığın təşkilinin nəzəri əsasları. "Adiloğlu" MMC. Bakı: 2004, 248 s.*
2. *Azərbaycan Respublikası Silahlı Qüvvələrinin fiziki hazırlığı və idmanı üzrə Təlimat, Bakı, 2000. 20 s.*
3. *Əhmədov S., Cəfərova E. Azərbaycanın orta əsrlər silahları. Bakı: Qaraağac, 2005, 154 s.*
4. *Əliyev V.H.Şahtaxtın tunc dövrü abidələri. Azərbaycan SSR, AS Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, Bakı: 1994, № 4*
5. *Forum başa çatdı... Forum davam edir... Bakı: Qızıl Aypara, 1997, 25 s.*
6. *İbrahimov N. Gənclik - müstəqil Azərbaycanın gələcəyi. Bakı: Azərbaycan, 1996, 8-11 s.*

**A.İ.Əlizadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***agshin.alizade65@gmail.com***

# KÖNÜLLÜLÜK FƏALİYYƏTİ VƏ ONUN HƏYATIMIZDAKI ROLU

***Xülasə***

*İnsanlar zamanın kifayət qədər dəyərli olduğu bir vaxtda cəmiyyətin rifahını yüksəltmək və özlərinin inkişafı üçün müəyyən fəaliyyətlər göstərməkdə çətinlik çəkirlər. Bu məsələnin hərtərəfli həlli üçün könüllülük proqramları və ya təşkilatları köməyimizə çatır. Bu gün istər sağlamlıq, istər ekoloji, istər gender və s. kimi yüzlərlə sahədə könüllülük fəaliyyəti ilə məşğul insanlar tapmaq mümkündür. Bəs bu qədər geniş bir anlayış olan "könüllülük" nədir? Biz asudə vaxtımızı könüllülüyə sərf etməklə nələr əldə edə bilərik? Məqaləmizdə siz bu suallara və könüllülük haqqında, könüllülüyün qlobal miqyasda həyatımızdakı rolundan, sosial, iqtisadi və ekoloji problemlərin həlli prosesində könüllülüyün rolundan və dünyadakı könüllü statistikaları ilə yaxından tanış olacağıq.*

# ВОЛОНТЕРСТВО И ЕГО РОЛЬ В НАШЕЙ ЖИЗНИ

***Резюме***

*Людям трудно выполнять определенные действия для улучшения благосостояния общества и для собственного развития в то время, когда время достаточно ценно. Для комплексного решения этого вопроса к нам на помощь приходят волонтерские программы или организации. Сегодня, будь то здоровье, окружающая среда. Можно найти людей, занимающихся волонтерской деятельностью в сотнях сфер. Но что такое «добровольность», такое широкое понятие? Чего мы можем достичь, добровольно посвящая свое свободное время? В нашей статье вы познакомитесь с этими вопросами и о волонтерстве, о роли волонтерства в нашей жизни в глобальном масштабе, о роли волонтерства в процессе решения социальных, экономических и экологических проблем.*

# VOLUNTEERİNG AND İTS ROLE İN OUR LİFE

***Summary***

*For some, academic success is a way to a comfortable life, for others it is a choice or a contribution to the development of science. But in any case, to achieve these achievements, first of all, it is the biggest and most important thing to adjust the time correctly. There are millions, if not billions, of educators in a world that is getting harder and harder to live by the day. They are not only engaged in science, but at the same time they relax and develop by properly valuing the free time that arises. Let's learn more about this topic in our article.*

***Açar sözlər:*** *könüllülük, könüllü təşkilatlar, asudə vaxt*
***Ключевые слова:*** *волонтерство, волонтерские организации, досуг*
***Key words:*** *volunteering, voluntary organizations, leisure time*

Könüllülük bütün dünyada sosial, iqtisadi və ekoloji problemlərin həlli üçün Könüllülük bütün dünyada sosial, iqtisadi və ekoloji problemlərin həlli üçün nəhəng bərpa olunan resursdur. Qlobal miqyasda 1 milyarddan çox insan könüllüdür, onların əksəriyyəti öz ölkələrində və icmalarında çalışır. Könüllülüyün görünən aspektləri icmalarda xidmətin göstərilməsi ilə bağlıdır. İnsanlar yoxsulluğun aradan qaldırılması, əsas səhiyyə və təhsilin yaxşılaşdırılması, təhlükəsiz su təchizatı və adekvat sanitar şəraitin təmin edilməsi, ekoloji problemlərin və iqlim dəyişikliyinin həlli, fəlakətlər riskinin azaldılması, sosial təcrid və zorakı münaqişələrlə mübarizə üçün könüllü işlərlə məşğul olurlar. Lakin könüllülük təkcə inkişaf fəaliyyətinin həyata keçirilməsi vasitəsi deyil; insanları ümumi məqsəd uğrunda bir araya gətirməklə digər müsbət nəticələr yarada bilər.

Könüllü sektor yerli və milli hökumətdən müstəqildir, özəl sektordan fərqlidir. Bu gün yüksək təhsilli şəxslərin portfeliasına nəzər salsaq qabarıq könüllü xidmətlərinin şahidi olarıq. Könüllü işin inteqrasiya nəzəriyyəsinə görə (Wilson & Musick 1997) könüllülük resurslar tələb edən məhsuldar fəaliyyətdir. Təhsil könüllü birliklərə faydalı ola biləcək şəxslər yetişdirə bilər ki, bu şəxslər könüllü iş üçün və könüllü işçi axtaran agentliklər üçün daha cəlbedici resursdur.

Sağlamlıq və rifah strategiyası kimi könüllülük də iştirakın dəyərinin tanınması getdikcə artır. Könüllü olmağın sosial təcrid və tənhalığı azaltmağa və ya məqsədyönlülük hissini təmin etməyə kömək edə biləcəyi yollar siyasətçilər arasında artan maraq doğurur. (ist. OECD, How’s Life 2017)

Könüllülük təşkilatları hazırkı dövrdə ən məşhur cəmiyyətdir. Ümumiləşdirsək, könüllülük heç bir qarşılıq gözləmədən, ətrafının, ailənin, cəmiyyətinin yaşayış səviyyəsini artırmaq üçün və ya toplumun inkişafına dəstək olmaq üçün fəaliyyət göstərən bir qrup şəxs nəzərdə tutulur. Könüllü olaraq göstərdiyiniz fəaliyyətlər nəticəsində heç bir maddi qazanc əldə etməsəniz belə həyatınıza bir çox keyfiyyətlər qata bilərsiniz. Məsələn:

1. Könüllü olaraq çalışdığınız insanlara fayda vermənin, qarşılıq gözləmədən cəmiyyətə fayda vermənin həzzini yaşayacaqsınız. Bu prosesdə siz problemlərlə düzgün şəkildə və doğru zamanda məşğul olmağı öyrənirsiniz.
2. Universitet dövründə işləmək istəyən bir çox tələbənin üzləşdiyi problemlərdən biri də təcrübəsizliyin olmasıdır. Lakin könüllü çalışdığımız qurumun professional mühiti, gərgin iş rejimində işləmək, kollektivlə ünsiyyət tələbə üçün böyük təcrübə mühitidir və bunlar tələbəni növbəti mərhələyə hazırlayır.

3. Kollektiv ilə işləmək bacarığını öyrənirik. Fərdlərin iş həyatlarında üzləşdiyi ən böyük problemlərdən biri də fəaliyyət göstərən qrupa, kollektivə uyğunlaşa bilməməkdi. Hal-hazırda işəgötürən tərəflərin diqqət etdiyi ən mühüm özəlliklərdən biri də budur.
4. Könüllülük bizə əhatə dairənizi genişləndirməyə köməklik göstərir. Yeni insanlar tanımaq eyni zamanda müxtəlif xarakterli insanlarla münasibət qurmağa, emosiyalarımızı idarə etməklə duyğusal zəkamız inkişaf edir.
5. Məzun olduqdan sonra karyeramızı hansı istiqamətdə yönləndirəcəyimizə qərar verməkdə yardımçı olur. Bir növ bizim gələcək planlarımızı şəkilləndirir.

Hər yerdə və hər gün gənclər artıq iqlim dəyişikliyi, sülh, gender bərabərliyi və iqtisadi güclənmə kimi onlara təsir edən mövzularda fəaliyyət göstərirlər. Qlobal miqyasda bir milyard insan aktiv könüllüdür və təxminən hər üç gəncdən biri könüllü olduqlarını bildirir – bütün dünyada təxminən 600 milyon gənc.

Bəs asudə vaxtlarımızda könüllülüklə məşğul olmaq istəsək haradan və ya necə başlamalıyıq?

Könüllülüklə maraqlandığınız mövzuda bizə uyğun olacaq istiqaməti müəyyən etməklə başlamalıyıq. Könüllü təşkilatlar onların tərkibində fəaliyyət göstərmək istəyən şəxslər üçün rahat və əlçatan metodlardan istifadə edirlər. Bunlar e-poçtlar, müxtəlif formalar və s.-dir. Müəssisələrə e-poçt vasitəsilə müraciət edə və ya onların internet saytındakı könüllülük formalarını doldura bilərik. Könüllülük fəaliyyətinə ehtiyacı olan təşkilatlar bu fəaliyyətlərin davamlılığı üçün vaxtaşırı görüşlər keçirəcəklər. Bu müsahibələrlə sizə uyğun vəzifəni təyin etmək daha asan olacaq. Dövrümüzdə universitetlər, icmalar və könüllü təşkilatları ilə getdikcə daha çox tərəfdaşlıq qurur. Çünki universitetlər tələbələrin təcrübə əldə edə biləcəyi yerlər axtarıb, bu təcrübələri sınaqdan keçirə biləcəyi "canlı laboratoriya"ları qurur.

Könüllülər öz fəaliyyətlərini istənilən rəsmi və ya özəl qurum və ya təşkilatla bağlı həyata keçirə və ya təşkilatdan asılı olmayaraq fəaliyyətlərini davam etdirə bilərlər. Könüllülərin hərəkətləri - həm ehtiyacı olanların ehtiyaclarını ödəməyə, həm də bu ehtiyacların formalaşmasının əsas səbəblərini aradan qaldırmağa yönəlmiş çox şaxəli prosesi əhatə edir. (Wikipedia)

Könüllülük fəaliyyətinin müxtəlif formaları var. Aşağıdakı növlərə nəzər salaq:

Könüllü fəaliyyət:

1. Rəsmi,
2. Qeyri-rəsmi formada olur.

Əgər fəaliyyət göstərdiyimiz təşkilat hər hansı özəl və ya dövlət tərəfindən təsis və təsdiq olunmuş rəsmi qurumdursa, bu rəsmi könüllülük adlanır. Burda qazandığımız vəzifə belə rəsmi statusa malikdir.

Hər hansı asılılıq olmadan fəaliyyət göstərən təşkilatlar isə qeyri-rəsmi könüllülüdür. Hesab olunur ki, qeyri-rəsmi könüllülük daha qlobal xarakter daşıyır və əhatə dairəsi daha genişdir.

Könüllülük fəaliyyəti:

1. Davamlı könüllülük
2. Daimi könüllülük

Davamlı yəni uzunmüddətli könüllülük problemin həllinə töhfə verdikləri və ya uzunmüddətli və müntəzəm olaraq layihə həyata keçirdikləri və üzərinə götürdükləri işləri tamamladıqları könüllülük formasıdır. Könüllülərin problemi həll etmək və ya bir layihəni həyata keçirmək üçün lazım olduqda xidmət göstərdiyi könüllülük forması fasiləsiz (qısamüddətli) könüllülükdü.

Könüllülük növlərindən biri də Beynəlxalq könüllülükdür. Bu, könüllülər öz ölkələrindən başqa bir ölkədə həyata keçirilən könüllü hərəkatlar vasitəsilə inkişafda mütəşəkkil iştirakçısıdır. Beynəlxalq könüllülü qeyri-formal təhsilcə mədəniyyətlər arası öyrənmə üçün mühüm olan vasitədir. Bu gün QHT-lər, universitetlər, ictimai qurumlar və təşkilatlar və inanca əsaslanan təşkilatlar gəncləri beynəlxalq səviyyədə könüllü olmağa təşviq edirlər.

Onlayn könüllülük də könüllü təşkilatın bir növüdür. Zaman və məkandan asılı olmayaraq, internet vasitəsilə fərdlərin könüllü olması onlayn könüllülükdür. Onlayn könüllülər layihənin hazırlanması və idarə olunması, dizayn, koordinasiya, informasiya texnologiyalarının inkişafı, tədqiqat, yazı, korrektə və tərcümə, təlim və rəhbərlik, məsləhətləşmə kimi fəaliyyətlərdə iştirak edə bilərlər.

Qeyri-rəsmi könüllülərin inkişafa töhfələri, onların icma xidmətlərinin göstərilməsi və böhranlara cavab tədbirlərində mühüm rolunu vurğulayan və ortaya çıxan sübutlara baxmayaraq, nəzərdən qaçırılmaqda davam edir. Tədqiqatlar eyni zamanda bərabərsizlikləri əks etdirmək və ya davam etdirmək üçün könüllülük potensialını getdikcə daha çox vurğulayır.

Çox vaxt könüllülük gənclərə öz prioritetlərini müəyyən etmək, öz gündəmlərini təyin etməyə kömək edir. Könüllülük, xüsusən gənclərin siyasi sahədə iştirak etmələri üçün katalizator ola bilər. Bu, xüsusilə gənc əhalisi olan və sürətli sosial dəyişikliyin miqrasiyaya, ənənəvi strukturların itirilməsinə və işsizliyə səbəb olan ölkələr üçün vacibdir. Eyni zamanda, gənclər öz icmalarında və cəmiyyətlərində könüllülüklə bağlı problemlər və problemlər barədə məlumat verirlər.

Könüllülər üçün əlverişli mühit dövlət, qeyri-kommersiya və özəl sektorun subyektləri (həmçinin könüllülük infrastrukturu kimi müəyyən edilir)

tərəfindən təmin edilən siyasətlər, qanunvericilik, sxemlər, orqanlar və ya proqramlar kimi alətlər dəstini əhatə edir. O, həmçinin könüllülərin və könüllü qrupların tanınması və ən uzaqda qalanlar da daxil olmaqla bütün qrupların iştirakı ətrafında normaların təşviqi kimi könüllü dəstəyin qeyri-maddi formalarından ibarətdir. Buna baxmayaraq, aşağıdakı siyahı qlobal miqyasda könüllülük infrastrukturunun icmalını təqdim edir:

Hüquqi mühit

Könüllülük üzrə milli qanunvericilik getdikcə daha çox yayılmışdır. İndi ən azı 80 ölkədə könüllülüyü təşviq edən xüsusi milli qanunlar var. Bu qanunların çoxu son iki onillikdə yaradılmışdır. Onlar əsasən hər bir ölkədə könüllülüyün əhatə dairəsini müəyyənləşdirirlər. Sübutlar göstərir ki, diqqətlə işlənib hazırlandıqda və həyata keçirildikdə, könüllülər haqqında qanunvericilik daha güclü müdafiə və təşviqlər təmin edə, insanlara könüllü fəaliyyətdə iştirak etməyə imkan verə bilər. Bununla belə, hüquqi infrastrukturun məhdudlaşdırıcı, repressiv və eksklüziv olduğu bəzi hallarda bu, könüllülük üçün mənfi nəticələrə səbəb ola bilər. Eyni zamanda, tənzimləmənin olmaması könüllülüyün müəyyən bir ölkədə baş tutmaması demək deyil. Məsələn, Qətər Dövlətində könüllülüklə bağlı hər hansı xüsusi qanunvericiliyin olmamasına baxmayaraq, könüllülüyü təşviq edən bir sıra proqram və təşəbbüslər mövcuddur.

Siyasətlər və sxemlər

İndi ən azı 50 ölkənin könüllülük üzrə müstəqil milli siyasətləri, sxemləri, strategiyaları və planları var. Bu icra mexanizmlərinin çoxu milli qanunvericiliyə əsaslanır. Bundan əlavə, digər siyasətlərə könüllülüklə bağlı komponentlər, xüsusən də gənclərin çox olduğu və işsizliyin yüksək olduğu ölkələrdə gənclər siyasəti və böhranı riskinin azaldılması siyasətləri daxil ola bilər.

Cins və daxilolma

Könüllülük üçün əlverişli mühit qadınlar və kişilər üçün bərabər faydaları təmin etmək üçün könüllülükdə iştirakın gender bərabərliyindən kənara çıxmalıdır (ist. İFRC Gender Siyasəti). Bu günə qədər olan dəlillər göstərir ki, dövlət siyasətində gender bərabərsizliyinin hər hansı tanınması, əsasən, ayrı-seçkiliyin qarşısının alınması və bərabər imkanların təmin edilməsi ilə bağlıdır. Dizayndan qiymətləndirməyə qədər könüllü müdaxilələrdə və qanunvericilik bazalarında genderin əsas istiqamətə yönəldilməsi kişilər və qadınlar arasında bərabərlik və bərabərliyi təşviq edən əlverişli mühitin təşviq edilməsi üçün vacibdir.

Digər alətlər (görünürlük, tanınma, vəkillik)

Qlobal səviyyədə könüllü qruplar 2015-ci ildən BMT-də mühüm maraqlı tərəflər kimi tanınıb və bu, DİM-lərə nail olmaq üçün “bütün cəmiyyətin” yanaşmalarına ehtiyacı əks etdirir. Hər 5 dekabr Beynəlxalq

Könüllülər Günü dünyada milyonlarla insanın verdiyi töhfəni tanıyır. Bəzi ölkələr könüllülük fəaliyyəti haqqında məlumatlılığı artırmaq üçün xüsusi gün, həftə və ya il də təyin etmişlər. Məsələn, 2018-ci il Rusiya Federasiyasında "Milli Könüllülük" İli elan edilibsə, Türkiyədə 2019-cu ildə qeyd olunub. Könüllülüyü təşviq etmək üçün digər fəaliyyətlərə akkreditasiya, sertifikatlaşdırma və təlim daxildir.

***Ədəbiyyat***

1. *Allison, L. D., Okun, M. A., & Dutridge, K. S. (2002). Assessing volunteer motives: A comparison of an open ended probe and Likert rating scales. Journal of Community & Applied Social Psychology*
2. *Arino, A., & de la Torre, J. (1998). Learning from failure: towards an evolutionary model of collaborative ventures.*
3. *Organization Science*
4. *Ashmos, D. P., Duchon, D., McDaniel, R. R. Jr., & Huonker, J. W. (2002). What a mess! Participation as a simple*
5. *Bass, B.M. (1985). Leadership and performance beyond expectations. New York: The Free Press.*
6. *Chrislip, D. D., & Larson, C. E. (1994). Collaborative leadership*
7. *United Nationals Volunteers*
8. *Wikipedia Voluntary association*
9. *reachvolunteering.org.uk*

**Ç.R.Quliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***chinararafig@gmail.com***

# PEŞƏ SƏRİŞTƏSİ STRUKTURUNDA MÜASİR MUSİQİ MÜƏLLİMİN İNFORMASİYA MƏDƏNİYYƏTİ

***Xülasə***

*Bu gün prioritet istiqamətlərdən biri təhsilin, o cümlədən musiqi təhsilin informasiyalaşdırılması ön plana çıxır. Bu, təkcə fənn sahəsinə deyil, həm də peşə fəaliyyəti ilə bağlı informasiya-kommunikasiya texnologiyalarına sərbəst yönümlü, öz peşəkar biliklərinin sərhədlərini daim genişləndirməyi bacaran, informasiya mədəniyyətinə malik olan musiqi müəllimin hazırlanmasını tələb edir.*

# ИНФОРМАЦИОННАЯ КУЛЬТУРА СОВРЕМЕННОГО УЧИТЕЛЯ МУЗЫКИ В СТРУКТУРЕ КОМПЕТЕНТНОСТИ

***Резюме***

*Сегодня одним из приоритетных направлений является информатизация образования, в том числе музыкального. Для этого необходима подготовка учителя музыки, свободно ориентирующегося не только в предметной области, но и информационно-коммуникативных технологиях, связанных с профессиональной деятельностью, способного постоянно расширять границы своих профессиональных знаний, обладающего информационной культурой.*

# INFORMATION CULTURE OF THE MODERN MUSIC TEACHER IN THE STRUCTURE OF COMPETENCE

***Summary***

*Today, one of the priority areas is the informatization of education, including music. This requires the training of a music teacher who is fluent in not only the subject area, but also in information and communication technologies related to professional activities, who is able to constantly expand the boundaries of his professional knowledge, who has an information culture.*

***Açar sözlər:*** *musiqi müəllimi, peşə sərştəsi, İKT, informasiya savadlılığı, informasiya mədəniyyəti*

***Ключевые слова:*** *учитель музыки, ИКТ, профессиональная компетенция, информационная грамотность, информационная культура*

***Key words:*** *music teacher, ICT, professional competence, information literacy, information culture*

Dövrümüzdə hər ölkənin elmi potensialının ən əsas göstəricilərindən olan informasiya-kommunikasiya texnologiyaların (İKT) inkişaf etdirilməsinin vacibliyi indiki qloballaşma dövründə daha çox hiss olunur. İKT-nin sürətlə yayılması geniş imkanlar yaradır. Son on ildə cəmiyyətin həyatında informasiya texnologiyalarının rolunda və yerində köklü dəyişiklik baş verib. Texnologiyalara və informasiyaya məharətlə və səmərəli sahib olan, fərqli, yeni təfəkkür tərzinə malik olan şəxs yaranmış problemin qiymətləndirilməsinə, fəaliyyətinin təşkilinə əsaslı şəkildə fərqli yanaşır. Təcrübə göstərir ki, informasiya texnologiyaları olmadan müasir cəmiyyəti və deməli, müasir təhsil müəssisəsini təsəvvür etmək artıq mümkün deyil. Kompüter təbii olaraq təhsil müəssisəsinin həyatına daxil olub və effektiv texniki vasitə kimi tədris prosesini əhəmiyyətli dərəcədə zənginləşdirir.

Uzunmüddətdirki, Azərbaycanda təhsil sisteminin informasiyalaşdırılması prosesi gedir. Bütün təhsil səviyyələrində informasiya kommunikasiya texnologiyaları (İKT) tətbiq olunur, texnologiyaların tədris prosesinə inteqra sıyası sürətlənir. Bu inteqrasiya prosesinin mərkəzində isə məhz müəllimlər dayanır. Məlumdur ki, İKT-dən istifadə etməklə müasir və interaktiv təhsil modelinin həyata keçirilməsi məktəbin və müəllim heyətinin qarşısına yeni tələblər qoyur. Pedaqoji heyətin İKT savadlılığını artırmadan, təlim-tədris prosesinə innovativ yanaşmasını formalaşdırmadan İKT-nin təhsil sisteminə səmərəli tətbiqinə nail olmaq qeyri-mümkündür. Təhsilin müasir texnologiyası məzmunla tədris texnologiyasının inteqrasiyasıdır.

Bu, müasir müəllimdən çeviklik və peşəkarlıq, tədrisə yaradıcı yanaşma və şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaqla sinifdə texnologiyalardan istifadə bacarığı tələb edir. Bugün prioritet istiqamətlərdən biri təhsilin, o cümlədən musiqinin informasiyalaşdırılması olub. Bu, təkcə fənn sahəsinə deyil, həm də peşə fəaliyyəti ilə bağlı informasiya-kommunikasiya texnologiyalarına sərbəst yönümlü, öz peşəkar biliklərinin sərhədlərini daim genişləndirməyi bacaran, adekvat fəaliyyət göstərə bilən musiqi müəlliminin hazırlanmasını tələb edir.

Bu gün məktəbdənkənar mühitdə mövcud informasiya vasitələrindən fəal istifadə edən şagird dərsdə onlar üçün maraqlı olanları görmək istəyir. Bunun üçün müəllimin İKT-dən yüksək istifadə etmək bacarığı olmalıdır. Həm də bu texniki təminatı lazımi materiallarla zənginləşdirməyi bacarmalıdır. İKT vasitələri təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. Buradan belə nəticəyə gəlirik ki, dərs zamanı İKT-dan istifadə etməklə:

- dərsin effektivliyi və biliklərin keyfiyyəti yaxşılaşır;
- müasir tədris məqsədlərinə yönlənir;
- şagirdlərdə motivasiyanı artırır;
- dərsləri emosional və yaddaqalan edir;
- tədrisdə individual yanaşmanı həyata keçirir.

İnformasiya texnologiyalarının təhsildə sistemli tətbiqi zamanı əldə edilən nəticələr göstərir ki, informasiya texnologiyaları təhsildə mühiti tam dəyişdirir, dərs prosesinin yeni mərhələyə qalxmasına imkan yaradır. İnformasiya–kommunikasiya texnologiyalarının geniş və hərtərəfli tətbiqi nəticəsində insan fəaliyyəti, bütövlükdə cəmiyyət dəyişikliklərə məruz qalır, tamamilə yeni reallıqlar, dəyərlər, sosial-psixoloji mühit formalaşır. Son illər təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə əsas istiqamətlərdən biri olmuşdur.

İnformasiyanın sürətlə artması təhsil sistemi üçün bir sıra problemlərin yaranmasına səbəb oldu. Onlardan biri, məsuliyyəti ən çox müəllimin çiyninə düşən təhsil biliklərinin seçilməsi, strukturlaşdırılması və təqdim edilməsi ilə bağlıdır. Müəllimlərin təkcə fundamental biliklər, pedaqogika və psixologiya sahəsində deyil, həm də informasiya sahəsində yenidən təlim alması olduqca aktuallaşır. Artıq yeni nəsil müəllimlərindən öyrətdikləri konkret fənnin struktur məzmununa və məqsədinə uyğun, uşaqların individual xüsusiyyətlərini nəzərə alan, şagirdlərin harmonik inkişafını mümkün edən informasiya texnologiyaları seçib tədrisdə tətbiq etmək tələb olunur. Müasir müəllim öz fənnini tədris etməklə yanaşı, həm də təhsil müəssisəsinin mühim fəaliyyət istiqamətlərində İKT-nin tətbiqi üzrə praktik işləri təşkil etməli, onları əlaqələndirməli və səmərəli istifadə etməlidir.

Əgər əvvəllər kompüterdə işləməyi bacarmaq xüsusi savad hesab olunurdusa, artıq bu, indi ümumi savad sayılır. Kompüteri bilməyən üçün təhsil almaq, elmi yaradıcılıqla məşğul olmaq çətindir.

E.Dyson yazır ki, informasiya aləmində insanlara təkcə məlumatın özü deyil, həm də onu emal etmək və şərh etmək bacarığı lazımdır. Cəmiyyətimizin mürəkkəbliyi və "rəqəmsal əsr"in imkanları fərdlərə müvafiq tələblər qoyur.

Müəllimin informasiya axtarışı texnologiyasına, informasiyanın analitik və sintetik emalı metodlarına, böyük həcmli informasiya ilə səmərəli iş üsullarına malik olmasından asılı olaraq, təhsilalanların tədris materialın öyrənilməsinin səmərəliliyi asılıdır.

Gələcək musiqi müəlliminin peşə səriştəsi strukturunda informasiya mədəniyyəti mərkəzi yer tutmalıdır. Şəxsiyyətin informasiya mədəniyyətinin əsasını informasiya səriştəsinə yiyələnməsi təşkil edir. İnformasiya səriştəsinin tərifinə iki əsas yanaşma mövcuddur.

Bunlardan birincisi informasiya ilə işləmə prosesində kompüter texnologiyasından istifadə ilə bağlıdır, yəni texniki komponentə, xüsusən texniki vasitələrdən (kompüter, verilənlər bazası, elektron daşıyıcılar və s.) istifadəyə üstünlük verilir.

Bu halda informasiya səriştəsinin formalaşdırılması prosesi informasiyanın toplanması, saxlanması, emalı və ötürülməsi üçün texniki

vasitələrdən istifadə etmək bacarığının formalaşması kimi başa düşülür. İkinci yanaşmada informasiya səriştəsi insanın inteqrativ keyfiyyəti kimi şərh olunur. Bura informasiyanın seçilməsi, mənimsənilməsi, emalı, texnoloji vasitələrdən mümkün istifadə etməklə müxtəlif fəaliyyət sahələrində optimal qərarların qəbul edilməsi, proqnozlaşdırılması və həyata keçirilməsi daxildir.

O.İ.Mironovanın fikrincə, informasiya səriştəsi informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə (peşəkar problemlərin həllində, təlim prosesində, gündəlik həyatda) informasiya fəaliyyətini səmərəli yerinə yetirmək bacarığı kimi müəyyən edilir ki, bu da informasiya səriştəsinə və mövcud biliklərə malik olmağı nəzərdə tutur. Əldə edilmiş təcrübəni nəzərə alaraq, öz fəaliyyətlərini müstəqil təşkil etmək imkanı ilə, özünə nəzarəti həyata keçirmək və onların həyata keçirilməsində öz rolunu və məsuliyyətini dərk etməklə müvafiq vəzifələri həll etməyə hazır olmaq.

İnformasiya səriştəsinin formalaşmasının ilkin səviyyəsi informasiya savadlılığıdır. T.P.Xilenko belə hesab edir ki, informasiya savadlılığı nəzəri biliklər toplusunu, eləcə də informasiyanı səmərəli tapmaq, qiymətləndirmək, müxtəlif fəaliyyətlərə və münasibətlərə uğurla daxil edilməsi üçün istifadə etməyə imkan verən praktiki tətbiq bacarıqlarını ehtiva edir. İnformasiya savadlılığın əsasını nəzəri biliklər və informasiya bacarıqları təşkil edir. İnformasiya bacarıqları dedikdə, təhsil alanların əldə etdikləri biliklərin əsasında informasiya ilə hərəkətlərin yerinə yetirilməsi üsullarını başa düşəcəyik.

Elmi-metodiki ədəbiyyatda informasiya bacarıqlarının iki qrupu fərqləndirilir - informasiya-axtarış və informasiya-analitik bacarıqları. İnformasiya axtarışı bacarıqlarına aşağıdakılar daxildir:

- müxtəlif mənbələrdə, o cümlədən internetdə məlumat axtarmaq bacarığı;
- dərslikdə, lüğətdə, istinad ədəbiyyatında axtarış bacarığı;
- mətnlə işləmək bacarığı, müxtəlif formalarda təqdim olunan məlumatlarla işləmək bacarığı (mətn, şəkil, cədvəl, diaqram, sxem);
- məlumatı kağızda (albom, dəftərdə və s.) elektron daşıyıcılarda (disk, VSB-toplayıcı) nizamlanmış quruluş (məqalələr, şəkillər, cədvəl, diaqram, sxem və s.) şəklində saxlamaq bacarığı.

İnformasiya-analitik bacarıqlara aşağıdakılar daxildir:

- təhlil olunan obyekti (hadisəni) təsvir etmək bacarığı;
- obyektləri (hadisələri) müqayisə etmək, təsnif etmək bacarığı;
- anlayışlara müstəqil şərh vermək bacarığı;
- şəkil, sxem, alqoritm, cədvəldən məlumat almaq bacarığı;
- informasiyanı bir formadan digərinə köçürmək bacarığı (informasiyanın kodlaşdırılması və dekodlaşdırılması);
- mətndə açıq şəkildə verilən məlumatları, faktları tapmaq bacarığı;

- mətndə olan əsas hadisələri tərtib etmək və onların ardıcıllığını müəyyən etmək;
- informasiyanı əlifba, say parametrləri (artım və azalma) üzrə tənzimləmək;
- mövcud məlumatların həqiqiliyini şübhə altına almaq, əldə olunan məlumatların etibarsızlığını aşkar etmək və bu boşluqları doldurmaq yollarını tapmaq.

Gələcək musiqi müəlliminin informasiya mədəniyyəti anlayışının əsas xüsusiyyətləri:

- musiqi- pedaqoji vəzifələrin qoyulması və həlli, peşəkar və şəxsi inkişafı üçün zəruri olan məlumatların axtarışı, təhlili və qiymətləndirilməsini həyata keçirmək qabiliyyəti və motivləri;
- musiqi- pedaqoji fəaliyyətin təkmilləşdirilməsi üçün informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək qabiliyyəti və motivləri;
- musiqi müəlliminin musiqi- pedaqoji fəaliyyət məkanında istiqamətlənməsinə imkan verən dəyərlər sistemi;
- musiqi- pedaqoji vəzifələrin həllinə, peşəkar fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş informasiya fəaliyyətinin fəallığı.

Bu xüsusiyyətlərə əsaslanaraq, deyə bilərik ki, gələcək musiqi müəllimin informasiya mədəniyyəti peşəkar və şəxsi keyfiyyətidir ki, bu da informasiya-kommunikasiya texnologiyaları vasitəsilə musiqi-pedaqoji vəzifələrin həllinə və peşəkar fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş musiqi-pedaqoji fəaliyyət məkanında istiqamətlənməyə imkan verən dəyərlər sistemin, bilik və bacarıqların məcmusudur.

Gələcəyin musiqi müəllimin "informasiya mədəniyyəti" konsepsiyasının strukturu aşağıdakı komponentlərdən ibarətdir: koqnitiv, motivasiyon-dəyər, davranış.

Koqnitiv komponent informasiya mühiti haqqında biliklər, kompüter savadlılığı, informasiyaya ehtiyacı ifadə etmək bacarığı, lazımi məlumatı axtarmaq, məlumatı emal etmək və məlumat ötürmək bacarığı ilə təmsil olunur. Motivasiya-dəyər komponenti informasiya motivlərinin formalaşmasını, informasiya mühitinin obyekt və hadisələrinə dəyər münasibətini göstərir.

Davranış komponenti informasiya fəaliyyətinin fəallığını, məlumatın tənqidi qiymətləndirilməsini, müxtəlif fəaliyyət sahələrində məlumatdan istifadəni əks etdirir. İnformasiya mədəniyyətinin bütün komponentləri bir-biri ilə bağlıdır, bir-birinə birbaşa təsir göstərir.

Təəssüf ki, dövlət təhsil standartlarında "Musiqi müəllimliyi" ixtisası üçün proqramlarda "informasiya mədəniyyəti" termini yoxdur. Hesab edirik ki, musiqi müəllimi hazırlığı proqramını mənimsəməsi nəticəsində informasiya mədəniyyəti məzunun peşə kompetensiyalarına daxil edilməlidir.

***Ədəbiyyat***

1. *Almaz Həsrət "Təhsildə İKT və informasiya mədəniyyəti" metodik vəsait. Bakı, 2016*
2. *R.Mehdiyeva. Təhsildə İKT-nin pedaqoi-psixoloji imkanları. "Azərbaycan məktəbi" 2017/5, s.97– 102*
3. *Э.Дайсон. "Жизнь в эпоху интернета". М.,1998. 398 с*
4. *Миронова О.И. Формирование информационной компетентности студентов как условие эффективного осуществления информационной деятельности //Вестник ЛНУ им. Тараса Шевченко. 2010. № 17. С. 169–180*
5. *Полат Е.С., Бухаркина М.Ю. Современные педагогические и информационные технологии в системе образования. М.: //Академия, 2010.*
6. *Тараева Г.Р. Компьютер и инновации в музыкальной педагогике. Книга 1: Стратегии и методики. — М.: Издательский дом «Классика XXI», 2007. — 128 с*
7. *Хиленко Т.П. Педагогические условия формирования информационной компетентности младших школьников // Начальная школа плюс до и после. 2013. № 3. С. 87–91.*

**E.İ.Quliyev**
**Azərbaycan Dövlət Pedoqoji Universiteti**
***eldeniz.quliyev.17@mail.ru***

# ƏHALİNİN MƏSKUNLAŞMASI

***Xülasə***

*Məqalədə əhalin məskunlaşması, onunla bağlı anlayışlar öz əksini tapmışdır. Bu məqalədə əhalinin tarixən məskunlaşma formaları, tiplərə bölünmə, həmçinin şəhər və kənd məskunlaşması, onların formaları qeyd olunmuşdur. Şəhər və kənd məskunlaşmasının fərqləri aşkarlanmış, fərqlər izah olunmuşdur. Bununla yanaşı əhalinin məskunlaşmasına təsir edən amillər, onun xüsusiyyətləri haqqında danışılmışdır.*

# РАССЕЛЕНИЕ НАСЕЛЕНИЯ

***Резюме***

*В статье отражено перемещение населения и связанные с ним понятия. В статье упоминаются исторические формы перемещения населения, деление на типы, а также городские и сельские поселения и их формы. Определяются различия между городскими и сельскими поселениями и определяются различия. объяснил. При этом обсуждались факторы, влияющие на расселение населения и его особенности.*

# SETTLEMENT OF THE POPULATİON

***Summary***

*The settlement of the population and the concepts related to it are reflected in the article. In this article, the historical forms of settlement of the population, their division into types, as well as urban and rural settlement, their forms are mentioned. The differences between urban and rural settlement are revealed and the differences are explained. At the same time, the factors affecting their settlement and its characteristics were discussed.*

***Açar sözlər:*** *xutor, stantitsa, viselki, dispers, ekistik*
***Ключевые слова:*** *хутор, станица, выселки, рассредоточенный, экостик*
***Key words:*** *khutor, stanitsa, viselki, dispersed, ekistik*

“Məskunlaşma” termini çox mürəkkəb anlayışdır. Əhalinin tarixən məskunlaşması və yerdəyişməsi, onun hansısa yeni əraziləri tutması prosesi və bu proses nəticəsində məskunlaşmış yerlər məcmusu məskunlaşma adlanır. Əhalinin məskunlaşması - yaşayış məntəqələri şəbəkəsinin yerləşməsi ilə əlaqədar olaraq əhalinin ərazidə yerləşdirilməsidir. Məskunlaşma sosial-

iqtisadi, coğrafi və demoqrafik amillərlə xarakterizə olunur. Yer üzərində insan məskəni olan hər hansı bir ərazini yaşayış məntəqəsi adlandırmaq olar.

İnsanların əsas məskunlaşma formaları bəzi bölgələrdə sıx, digərlərində isə seyrək şəbəkəni formalaşdıran daimi yaşayış məntəqələri - şəhərlər və kəndlərdir. Məskənlərin şəhər və kənd yerlərinə ayrılması üçün müxtəlif bölgülər mövcud olmuşdur. Əsasən tarixən ictimai-ərazi əmək bölgüsü əsas götürülmüşdür. Bu, ilk olaraq sənaye və ticarətin əkinçilik əməyindən ayrılmasına gətirib çıxarmışdır. Bununla da, iki əsas məskən tipinin - şəhər və kənd məskənlərinin inkişafı şərtlənir.

**Şəhər məskənləri** – bir və yaxud bir neçə müxtəlif xalq təsərrüfatı funksiyalarını icra edən yaşayış məntəqələridir. Buraya sənaye, nəqliyyat, təşkilat-təsərrüfat, mədəni, siyasi və inzibati istirahətin və müalicənin (kurortlar) təşkili funksiyaları aiddir. Şəhər məskənlərinin müəyyənləşdirilməsi üçün əhalinin sayı, məşğulluğu, müxtəlif ölkələrin və bölgələrin yerli xüsusiyyətləri nəzərə alınmalı, yaşayış məntəqəsinin iqtisadi və mədəni əhəmiyyəti kimi əlamətlər məcmu şəklində əsas tutulmalıdır.

**Kənd məskənləri** – buraya əsasən, sakinləri ərazicə hissələrə bölünmüş, kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan kiçik yaşayış məntəqələri aiddir. Kənd məskənlərinə müxtəlif adlar verilmişdir: məsələn, Rusiyada kənd -xutor, stantitsa, viselki və s. adlandırılır. Digər ölkələrdə də kənd məskənlərinə spesifik adlar (aul, qışlaq, şenlik və s.) işlədilir. Bu adlar müəyyən dərəcədə kənd məskənlərinin funksional spesifikliyini əks etdirir, lakin buna baxmayaraq kənd məskənlərinin elmi tipologiyasından danışmaq olduqca çətindir. İctimai əmək bölgüsünün əsas funksiyalarına görə, kənd məskənlərinin iki böyük tipi fərqləndirilir. Buraya kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı məskənləri aid edilir. Həmçinin aqrosənaye qəsəbələri də bu tipə aid edilir.

"Kənd təsərrüfatı" və "qeyri-kənd təsərrüfatı" anlayışları kənd məskənləri tipinin istehsal istiqamətlərini konkretləşdirir. Kənd təsərrüfatı məskənləri-sakinləri başlıca olaraq, kənd təsərrüfatı əməyi ilə məşğul olan məskənlərdir. Qeyri-kənd təsərrüfatı məskənləri-sakinləri kənd təsərrüfatı sahəsində çalışmayan, ərazicə bölünmüş meşə təsərrüfatı, nəqliyyata qulluq, rekreasiya ehtiyatlarının istismarı və s. kimi funksiyaların yerinə yetirilməsində iştirak edən yaşayış məntəqələridir. "Aqrosənaye qəsəbəsi" anlayışı əvvəlki iki tipin əlamətlərini özündə əks etdirir. Qəsəbənin özü kənd yerində, ilk növbədə, kənd təsərrüfatı xammalını emal edən sənayenin inkişafı əsasında təşəkkül tapır.

Aydın məsələdir ki, əhalinin məskunlaşma tiplərinin dəyişməsinin səbəbi, hər şeydən əvvəl, əsas inkişaf qanunauyğunluqları və ictimai-iqtisadi formasiyaların dəyişməsidir. Məskunlaşmanın özü istehsal üsulunun mühüm

xarakteristikasıdır. Bununla da, o hakim istehsal münasibətlərindən və ictimai-iqtisadi formasiyanın məqsədlərindən irəli gəlir.

Lakin bəzi əsərlərdə irəli sürülən nəzəriyyəyə görə, tarixi perspektivdə urbanizasiya və məskən şəbəkəsinin mürəkkəbləşməsi prosesi köç – kənd – kiçik şəhər – böyük şəhər – aqlomerasiya – meqapolis sxemi üzrə baş vermiş və verməkdədir.

Hər ictimai formasiyanın özünəməxsus tarixi məskunlaşma tipi mövcud olmuşdur.

I tip – "dispers (dağınıq) qəbilə məskunlaşması" adlandırmaq olar. Bu, oturaq həyata keçidin üstünlük təşkil etdiyi və daimi məskənlərin yayıldığı ibtidai icma quruluşu dövrünə aiddir. Bununla yanaşı, uzun müddət ərzində, nadir hallarda isə bugünədək gəlib çıxan və yalnız müvəqqəti yaşayış yerləri yaratmış köçəri çoban qəbilələri də olmuşdur. Bu qəbilələrə məskunlaşma üçün bir-birindən xeyli uzaqda olan kiçik məskənlər xasdır.

II tip – "antik polis" (şəhər) üçün dəniz və çay sahillərində yerləşən, bəzən, hətta 1 milyonadək əhalisi olan iri, şəhər – dövlətlər səciyyəvidir. Əhalinin hərəkəti, miqrasiya, əsasən, hərbi yürüşlərlə məhdudlaşmışdır.

III tip – "feodal kəndi"dir. Burada kiçik kənd məskənləri üstünlük təşkil edirdi. Şəhərlər isə elə də böyük deyil. Əhalinin mütəhərrikliyi aşağıdır (hər hansı digər səbəblərlə - müharibələr, dini təqiblər və s.).

IV tip – "urbanizasiyalı məskunlaşma" yüksək dərəcədə şəhərləşmiş, bir sıra (xüsusilə şəhər-kənd) cəhətdən qütbləşmiş məskunlaşma formasıdır. Bu tipdə iri şəhərlərin, ən yüksək mərhələdə isə aqlomerasiyaların, meqapolislərin mövcudluğu, əhalinin yüksək mütəhərrikliyi nəzərdə tutulur. Məskunlaşmanın dağınıqlığı prosesinə keçid yüksək mütəhərrikliyin nəticəsidir.

Yeni - V tip məskunlaşma gələcəkdə əhalinin çox yüksək mütəhərrikliyinin onun ərazidə daha bərabər şəkildə bölgüsünə aparan müxtəlif funksional tipli məskənlərdə həyat şəraitinin və sivilizasiya nemətləri bölgüsünün bərabərliyinin təmin ediləcəyi məskunlaşma demək olacaqdır.

Dünyada mövcud məskunlaşmanın bütün müxtəlifliyini nəzərdən keçirək. Onun bir neçə əsas formasını fərqləndirmək mümkündür. Onların hər birinə istehsalın təşkilinin müəyyən məkan tipi uyğun gəlir.

1. Ayrıca həyəti – mülkü olan **dispers** (dağınıq) kənd məskunlaşması insanları təbii ehtiyatlara (əkinçilik üçün baza olan torpaq fondu, təbii bitki örtüyü, ovçuluq yerləri və s.) daha da yaxınlaşdırır. Bunlardan əldə edilən maddi nemətlər onlar üçün təsərrüfatın əsasıdır. Belə pərakəndə məskunlaşmaya ABŞ-da homsted zonasındakı pərakəndə formalar, malikanələr, xutorlar və s. nümunə ola bilər.

Torpaq payları kiçik həcmli olduqda təkhəyətlilər sıxlaşma mərkəzli və səpələnmə zonalı qrup formasını xatırladan silsilə dağınıq məskunlaşma forması yarada bilərlər. Bəzən təkhəyətli məskunlaşma istehsal şəraitindən

meşə mühafizəsi (meşəbəyilər), nəqliyyat (yol nəzarətçisi postları), qaz-neft kəməri nəqliyyatı (vurma stansiyaları), hidrometeoroloji xidmət (stansiyalar, postlar), rabitə və s. irəli gəlir.

2. **Dağınıq-qrup** kənd məskunlaşması. Burada insanlar artıq ayrı-ayrı mülklərdə yerləşmir, bir qrupda toplanırlar. Bu qruplar, adətən, istifadə etdikləri ərazidə az və ya çox dərəcədə bərabər halda səpələniblər və hər biri, sanki müəyyən təbii ehtiyatlar (şum yerləri, heyvandarlıq üçün otlaqlar və s.) sahəsində lokallaşırlar. Onlardan istifadə, birinci halda olduğu kimi, təsərrüfat həyatının əsasıdır. Kənd məskunlaşması dünyanın əksər ölkələrində - Çində, Hindistanda, Avropanın, demək olar ki, bütün ölkələrində, Afrkada və s. kənd məskunlaşmasının ən üstün forması hesab olunur.

Kənd məskunlaşması ayrı-ayrı mülklərin formalaşması ilə başlamışdır. Lakin, dağınıq-qrup halında məskunlaşma bəşəriyyət üçün tarixən əzəli olmuşdur. Arxeologiya elmi aşikar şəkildə göstərir ki, insanlar hələ tarixəqədərki dövrlərdə qruplaşaraq düşərgələr yaratmışlar. Axı cəmiyyətin qəbilə quruluşu kollektiv istehsal formaları (yığıcılıq, ovçuluq, əkinçiliyin rüşeymləri) ilə uzlaşmışdır. Buna görə də qrup halında məskunlaşma təbii idi.

3. **Şəhər qrup məskunlaşması** ticarətin və sənətkarlığın əkinçilikdən və maldarlıqdan ayrılması ilə təşəkkül tapmağa başlamışdır. İlk şəhərlər hələ çox uzaq keçmişdə yaranıb xeyli dəyişikliklərə məruz qalsalar da, bu ayrılmanın əsası-ərazi əmək bölgüsü indiyədək əhəmiyyətini saxlamaqdadır. Bir sıra tarixi dövrlər ərzində kənd həyatının təsərrüfat əsasını insan tərəfindən yönəldilən və idarə edilən bioloji proseslərin istehsalda istifadə edilməsi olmuşdur. Kənd məskunlaşması daha çox ərazicə təşkilatı həmişə “sahə” olan kənd təsərrüfatı əkinçiliyi, yaxud heyvandarlıqla qırılmaz surətdə bağlı idi. Əhali cəmləşməsi zonasının şəhər məskənləri qonşu ərazi ilə daha mürəkkəb ərazi əmək bölgüsü ilə bağlıdır, həm də bu ərazi bəzən xeyli geniş olmuşdur.

Şəhərlinin əmək fəaliyyəti yeri və yaşadığı yer çox zaman eyni yaşayış məntəqəsində olur. Qeyri-əkinçilik əmək növləri əhalini məhdud ərazidə cəmləşdirməyə vadar etmişdir. Şəhərin ətraf yerlərlə əlaqəsi dəyişmişdir. O, qonşu vilayətlərdən xammal və yanacağın gətirilməsindən, hazır məhsulun satışından asılı vəziyyətə düşmüşdür. Beləliklə, şəhərin ətrafla əlaqəsi digər yaşayış məntəqələri vasitəsilə həyata keçirilməyə başlamışdır.

Əvvəlki tarixi dövrlərdə məlum olmayan yeni qrup məskunlaşma forması – tərkibinə həm şəhər, həm də kənd yaşayış məntəqələri daxil olan aqlomerasiya meydana gəlmişdir. Aqlomerasiya yaradan məskənlər öz aralarında müntəzəm əmək səfərləri, mədəni-məişət və istehsalın kooperativləşdirilməsi üzrə əlaqələrdə birləşmişlər. Onlar tez-tez ümumi istehsal-sosial infrastrukturuna və bir-birilə qovuşmaq meylinə malik olurlar. Bunların arasında gecələmə qəsəbələrini, yaylaq və s. ayırd etmək mümkündür.

“Şəhər” anlayışı tərifinin əsas xüsusiyyəti, əlbəttə, problemə hansı mövqedən yanaşmaqdan asılıdır. Ən ümumi şəkildə şəhər əhalisinin mütləq əksəriyyəti kənd təsərrüfatında deyil, sənaye, ticarət, xidmət, elm və mədəniyyət sahələrində çalışan iri yaşayış məntəqəsidir. Müasir şəhərlərin aşağıdakı səciyyəvi xüsusiyyətlərini ayırd etmək olar:

**İqtisadi** - əhalinin kənd təsərrüfatı ilə deyil, başqa sahələrdə məşğul olması;

**Ekistik** - əhalinin xeyli hissəsinin nisbətən böyük olmayan ərazidə cəmləşməsi və bununla da yüksək əhali sıxlığının formalaşması;

**Demoqrafik** - əhalinin təkrar istehsalının və onun strukturunun spesifik şəhər xüsusiyyətlərinin formalaşması;

**Memarlıq** – səciyyəvi şəhər memarlıq – planlaşdırma mühitinin yaranması;

**Sosioloji** – şəhər həyat tərzinin formalaşması;

**Hüquqi** – şəhərlər, bir qayda olaraq, bitişik ərazinin inzibati mərkəzləridir.

Şəhərin bu və ya digər cəhətdən əlverişli inkişaf dərəcəsi onun iqtisadi-coğrafi mövqeyi ilə müəyyənləşdirilir.

Sosioloqlar şəhərin “sosial məkan”, “şəhər həyat tərzi” strukturunda onun spesifik əlamətlərinin axtarılıb tapılmasını təklif edirlər. Bu hər şeydən əvvəl şəhər sakinlərinin arasında potensial qarşılıqlı insani fəaliyyətin ölçüsü kimi dəyərləndirilən əlaqələrin artmasında öz ifadəsini tapır.

Ədəbiyyatlarda şəhər həyat tərzinin aşağıdakı xarakteristikasına rast gəlmək olar: əhalinin mütəhərrikliyinin artması: öz mühitini seçmək, habelə ondan asanlıqla təcrid olunmaq sərbəstliyi; iş vaxtını tənzimləmək və asudə vaxtı planlaşdırmaq imkanı; ailənin dezinterqrasiyası: ailənin və ev təsərrüfatı həcminin azalması.

**Məskunlaşmanın regional xüsusiyyətləri**.

Müasir əhali tərkibinin və məskunlaşmış yerlərin formalaşması və inkişafında hər bir qitənin, ayrıca dövlətin, konkret regionun özünəməxsus məkan xüsusiyyətləri var. Onlar cəm halda əhali məskunlaşmasının xarakterinə təsir göstərən sosial, iqtisadi və təbii şəraitlə müəyyən edilir.

Əhalinin məskunlaşması cəmiyyət həyatının bir çox sahələrini özündə əks etdirən mürəkkəb sosial-iqtisadi prosesdir. Ona görə də əhali məskunlaşması bir çox elmlərlə: demoqrafiya, sosiologiya, əhali coğrafiyası, geosiyasət, tarix, şəhərsalma və s. elmlər tərəfindən öyrənilir. Demoqrafiya əhalinin məskunlaşdığı ərazidə təbii və mexaniki artımı, sayının dinamikasını, yerləşməsini və yerdəyişməsi proseslərini tədqiq edir. Sosiologiya cəmiyyətin məkanca təşkili formasının öyrənilməsinə yönəlmişdir. Coğrafiya əhalinin məskunlaşmasını təbii mühitlə qarşılıqlı əlaqədə işıqlandırır. Geosiyasət məskunlaşmanın spesifikasını xarici, siyasi amillərlə bağlı izah edir. Tarixi-

coğrafi yanaşma cəmiyyətin müxtəlif inkişaf mərhələlərində məskunlaşmanın formalaşmasının xarakterini açmağa imkan yaradır. Şəhərsalma yanaşması istehsalın, kommunikasiyaların, iqtisadi, memarlıq-tikinti, mühəndis-texniki amillərin və şəraitin optimal yerləşdirilməsi yolu ilə konkret regionun ərazisindən (ərazi ehtiyatlarından) səmərəli istifadə olunması axtarışlarına istiqamətlənmişdir. İnsan məskənlərinin ümumi formalaşma və təkamül prosesini öyrənən ekistika (ingiliscə Ekistics, yunanca Oikia – ev, mənzil sözündən) elmi tədqiqatların xüsusi istiqamətidir.

Məskunlaşma dedikdə, adətən, əhalinin ərazidə yerləşməsi və yenidən yerləşməsi və onun nəticəsi – məskənlər şəbəkəsi anlaşılır. Əhalinin məskunlaşmasına onun yerləşməsi, yaşayış yerlərinin qarşılıqlı funksional ərazi əlaqələri və əhali miqrasiyaları aiddir. Ümumiləşdirilmiş şəkildə desək, əhalinin məskunlaşması onun ərazicə təşkilidir. Onun tərkibinə həm əhalinin yerləşməsi, həm də ona immanent şəkildə xas olan bütün əlaqələr sistemi aiddir.

Əhalinin məskunlaşması konkret ərazinin sosial-iqtisadi mənzərəsini əks etdirir. Sosial-iqtisadi inkişafın xüsusiyyətlərinə görə əhalinin məskunlaşması barədə, əksinə, əhalinin məskunlaşmasına görə, ərazinin sosial-iqtisadi vəziyyəti haqqında fikir yürütmək mümkündür. Əhali məskunlaşmasının çoxsaylı sosial-iqtisadi amillərinə istehsalın xarakteri, məhsuldar qüvvələrin inkişaf səviyyəsi və yerləşmə xüsusiyyətləri, habelə əhalinin gəlir səviyyəsi, infrastruktur təminatı və s. sahələrdə bölgələrarası fərqləri aid edə bilərik. Əhalinin ölkə ərazisində məskunlaşması prosesinin inkişafını sosial-iqtisadi amillərdən əlavə, daha iki amil qrupu, təbii və demoqrafik müəyyən edir.

Təbii amillərə – relyef, iqlim, yer, torpaq və digər təbii ehtiyatları aid etmək olar. Məhsuldar qüvvələrin inkişafı nə qədər yüksəkdirsə, təbii amillərin birbaşa təsiri də bir o qədər azdır. Lakin əhali məskunlaşmasının təhlilində onlara etinasızlıq göstərmək olmaz.

Demoqrafik amillər qrupuna, hər şeydən əvvəl, miqrasiya proseslərində regional fərqlər, habelə əhalinin təbii təkrar istehsalı proseslərinin intensivliyindəki fərqlər aiddir.

Əslində, əhali məskunlaşmasının inkişafı haqqında yalnız bütün əsas amillər kompleks şəkildə götürüldükdə tam təsəvvür əldə etmək mümkündür. Həm də, nəzərə almaq lazımdır ki, bu və ya digər amilin təsiri zaman etibarilə dəyişə bilir.

***Ədəbiyyat***

1. *Vüsət Əfəndiyev, Saleh Nağıyev "Əhali Coğrafiyası", Bakı 2006*
2. *Əsgərova Mehriban, Abdullayev Əsədulla "Siyasi və Iqtisadi coğrafiya", Bakı 2018*
3. *Z.N.Eminov "Coğrafiya", Bakı 2004.*

**Ü.P.İmanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ulka.azmik@gmail.com***

# TÜRK XALQLARININ ORTAQ BƏDİİ DƏYƏRLƏRİ

***Xülasə***

*Türk xalqları bütünlükdə dünyanın ən qədim, eyni zamanda ən zəngin və qədim maddi mədəni mədəniyyətə malik olan xalqlarıdır. Türklər yürüş etdikləri ərazilərdən öyrənmiş və ya öz mədəniyyətini yaymağı bacarmışlar. Azərbaycan tarixini də qədim türk mədəniyyətindən ayırmaq heç də mümkün deyil.*

# ОБЩИЕ ХУДОЖЕСТВЕННЫЕ ЦЕННОСТИ ТЮРКСКИХ НАРОДОВ

***Резюме***

*Тюркские народы – древнейшие народы мира, и в то же время они обладают богатейшей и древнейшей материальной культурной культурой. Турки учились в районах, где они прошли или сумели распространить свою культуру. Невозможно отделить историю Азербайджана от древней тюркской культуры.*

# COMMON ARTİSTİC VALUES OF TURKİSH PEOPLES

***Summary***

*The Turkic peoples are the oldest people in the world, and at the same time they have the richest and oldest material cultural culture. The Turks learned from the areas where they marched or managed to spread their culture. It is impossible to separate the history of Azerbaijan from the ancient Turkish culture.*

***Açar sözlər:*** *Türk xalqları, ümumtürk abidələri, "Kitabi Dədə Qorqud", mədəniyyət və s.*

***Ключевые слова:*** *Тюркские народы, общетюркские памятники, «Китаби Деде Горгуд», культура и др.*

***Key words:*** *Turkic peoples, all-Turkic monuments, "Kitabi Dede Gorgud", culture, etc.*

Tarixən bütün türk xalqlarının taleyində əsrlər boyu ortaq cəhətlər çox olub. Azərbaycanlılar, türklər, özbəklər, qırğızlar, türkmənlər və başqa türk xalqları qardaş xalqlar kimi ən çətin şəraitdə belə, həmişə bir-biri ilə yaxınlaşmağa meyl ediblər. Əsrlər boyu müxtəlif uzaqgörən, dövlətlərin tarixi maraqlarına xidmət edən dövlət idarəçilərinin ayrı-ayrı siyasəti, eyni soy-kökdən olan bu xalqlar və eyni zamanda adi insanlar arasında dostluq münasibətləri hökm sürmüşdü.

Son zamanların ən mühüm hadisələrindən biri də 2021-ci il martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının ən yüksək səviyyədə qeyri-rəsmi toplantısı olmuşdur. Əslində epidemioloji vəziyyətə görə Sammit əvvəlcə türk sivilizasiyasının beşiyi olan Türküstan şəhərində keçirilməsi nəzərdə tutulsa da, məlum səbəblərə görə videokonfrans vasitəsilə keçirilib. Sammitin yekunu olaraq türk dövlətlərinin mədəni dəyərləri haqqında Bəyannamə qəbul edilmişdir ki, bu, türk xalqlarını sıx bağlayan amildir.

Tarixən də türk xalqlarının çoxlu ortaq cəhətləri olmuşdur. Onlar eyni etnogenetik və etnolinqvistik ailəyə, eyni islam konfessiya birliyinə mənsub olmuşlar. Ortaq mənəvi dəyərlərə malikdirlər. Uzun əsrlər boyu onlar ərazidən asılı olmayaraq bir-biri ilə birbaşa təmasda yaşamışlar. Milli-mədəni adət-ənənələrin, dillərin, tarixi hadisələrin oxşarlığı türk xalqlarının şifahi, yazılı poetik yaradıcılığının-ədəbiyyatının, mədəniyyətinin böyük bir qismində özünü göstərmişdir.

Məsələn, "Kitabi Dədə Qorqud" qədim türk ədəbiyyatının ən böyük abidəsidir. Dədə Qorqudun adı Qazaxıstanda kifayət qədər çox tanınır. Qızılorda vilayətində ona abidə ucaldılıb, çünki bu, ortaq türk abidəsi və türklərin əcdadıdır. Qazax ədəbiyyatında Qorqud baba obrazı var. Hətta Dədə Qorqudun ölümdən necə qaçması haqqında Qazax ədəbiyyatında əfsanə qorunub saxlanılıb. Bunu Muxtar Auezov öz əsərlərində əks etdirib.

Dastanın Azərbaycan variantında kitab on iki boydan ibarətdir. Bu dastanı oğuz dilləri qrupuna daxil olan türk-Azərbaycan-türk-türkmən xalqlarının ortaq kitabı da adlandırmaq olar. Oğuz tayfalarının qəhrəmanlıq dastanı bütün Orta Asiyanın və Orta Şərqin bütün ərazisində, Qara dəniz bölgəsində geniş yayılmışdı. Amma Oğuznamə dastanı ən çox Azərbaycan, Türkiyə, Türkmənistan, Qazaxıstan xalqları arasında tanınır. Qorqud ata obrazı da, ümumiyyətlə, dastanın boyları ayrı-ayrı türk xalqlarının ədəbiyyatında bir çox alimlərin tədqiqat obyektinə çevrilib. Xüsusilə, tanınmış Azərbaycan yazıçısı, türk ədəbiyyatında Dədə Qorqud fenomeninin tədqiqatçısı Anar Rzayevi xüsusi qeyd edə bilərik.

Bundan başqa, Qırğız xalqının qəhrəmanlıq eposu olan "Tonyukuk" əsərini də bəzi türk xalqlarının ortaq abidəsi kimi qeyd edə bilərik. Bu əsər bir neçə variantda olmaqla türklərin şifahi xalq yaradıcılığında qəhrəmanlıq nağılı kimi mövcuddur. Qazax ədəbiyyatında "Er-Tostik" adı ilə tanınan əsər əslində nə ideoloji yönümə, nə mövzusuna, nə də baş qəhrəmanların, obrazlarının xüsusiyyətlərinə görə qırğız variantından fərqlənmir.

"İr-Tuşluk" adı altında bu nağıl Tümen tatarları arasında da mövcuddur. Onların bir çox qəhrəmanlarının adları da oxşardır. Bütün eyniadlı əsərlərdə, demək olar ki, ayrı-ayrı türk xalqlarının ədəbiyyatında janr fərqinə baxmayaraq, eyni epizodlar, personajların oxşar xüsusiyyətləri var. Onu da qeyd etmək lazımdır ki, real həyat faktlarının bədii əsərlərdə əksini nəzərə

alsaq, türk xalqlarının bir-birinin həyatındakı yeri və rolu, oxşar məsələlərin çoxluğu diqqətdən qaçmır. Bu isə ortaq bədii dəyərlərin mövcudluğundan xəbər verən əsas məsələdir.

Türk xalqlarının bədii ortaq cəhətlərindən danışdıqda diqqət çəkdiyimiz ilk məqam kimi bədii ədəbiyyatı nümunə göstəririksə, bu barədə deyə bilərik ki, qazaxların, qırğızların, özbəklərin və qaraqalpaqların nağılları janr baxımından müxtəlifdir, ancaq eyni süjet və mövzulara malikdir. Əsas personajların xüsusiyyətləri - onlarda oxşardır: düşmənlər əjdahalar və digər şər qüvvələrdir, at obrazları yaxşı dostlardır. Bütün bunlar təkcə qazaxların və qırğızların deyil, digər türk xalqlarının da folklorunun ortaq olması fikrini əsaslandırır.

Türk xalqlarında ortaq dəyərlərdən danışdıqda qeyd etmək lazımdır ki, bu xalqlar arasında daha çox qazaxların və qırğızların adət-ənənələri, ortaq dəyərləri mövcuddur. Hər iki xalqın əsərlərində çox vaxt ortaq qəhrəmanlara rast gəlinir. Məsələn, qırğız qəhrəmanlıq dastanı "Manas"da baş verən hadisələr, qəhrəmanlar qazax xalqının əsərlərində də özünü göstərməkdədir.

Sözsüz ki, yuxarıda da qeyd etdiyimiz kimi, türk xalqlarının bir-biri ilə əlaqələri, birinin digər türk xalqlarının mədəniyyətinə qarşılıqlı təsiri, xüsusən, xalq dastanlarında aydın şəkildə özünü göstərirdi. Məsələn, "Alpamış" eposunun versiyalarının müxtəlif xalqlar arasında oxşarlığı xüsusi diqqətə layiqdir. Xüsusən, qazaxlar, özbəklər və qaraqalpaqlar arasında təsvir edilən hadisələr "Konrat" tayfası ilə bağlıdır. Bu versiyalar Alpamışın Konrat nəşrinə əsaslanır. Xalqların hər biri tam versiyalarında qədim süjeti qoruyub saxlasa da, şifahi poetik ənənələrinə uyğun olaraq onu müəyyən dəyişmələrə uğradırdı. Təsadüfi deyil ki, Alpamış eposunda Konratlara basqına Tayşa, yəni Tayşik xan rəhbərlik edir. Məhz bu ad (tayji) qazax və özbək xalqlarında "Alpamış" cunqar fatehlərinə qarşı qalibiyyətli və qəhrəmancasına mübarizənin xatirəsi kimi Qazaxıstanın cənubunu və Daşkənd vahasını ələ keçirmiş Xuntayişinin xatirəsidir. Alpamış həm qazax, həm qaraqalpaq, həm də özbək xalqlarının şüuruna doğma torpağın müdafiəçisi və nəcib, qoçaq bir batırın ideal obrazı kimi daxil olmuşdur. Xalq şifahi ənənələr vasitəsilə öz məişəti, tarixi, dini inancları, mədəniyyəti və s. arasındakı ortaq bədii dəyərləri qoruyub saxlamışlar.

Belə ki, folklor əsərlərində türk xalqlarının həyatının təsvirində çoxlu tematik oxşarlıqları, obrazlı analogiyaları, bədii vasitələrin vəhdətini müşahidə etmək olar. Xalqların şifahi poetik yaradıcılığında hadisə motivlərinin vəhdəti izlənilir, xalqların ümumi istəkləri, arzu və düşüncələri nümayiş etdirilir. Həyatın, sosial problemlərin, qəhrəmanlıq xarakterlərinin tarixi mənzərələri milli poetik ənənələrlə sıx əlaqədə açılmışdır.

Mərkəzi Asiya Cənubi Qazaxıstan, xüsusən Çimkent, Türküstan, Sayram rayonları, Sırdərya çayı hövzəsi, Sarısu, Karatau ətrafı, Kazıqurt qazax

bədii ənənəsinin geniş inkişaf etdiyi ərazilər olmuşdur. Qazax akınları və nağılçıları - cırçı, özbək baxşıları və şairləri qonşularının folklorunu, dastan əsərlərini bir-birindən mənimsəmişlər.

Məşhur özbək müğənnisi Erqaş Jumanbulbuloğlu ("Ergaş shoir, baxşi Erqaş") qazax folklorunun bir çox əsərlərini, xüsusən Munlyk-Zarlık, Qız-Jibek və s. əsərlərini istedadlı akın Maylıxoca Sultan ocaqulundan (1835-1898) götürmüşdür. Səmərqənd vilayətinin Nur-Ata yaxınlığındakı özbəklərin Kurqon kəndi öz növbəsində özbək folklorunun, bədii mədəni ənənələrinin mərkəzi, Qazax xalq akınlarının Maylıxoca, Şadi, Nurəli, Arip və başqalarının gəldiyi ərazi idi.

Ümumiyyətlə, xalqlar arasındakı ortaq dəyərlər dedikdə əsas məsələ kimi mədəniyyətlərarası əlaqələri qeyd etmək lazımdır. Çünki bir xalqın əsas adət-ənənəsi, xüsusiyyətləri digər xalqın həyatına təmas edirsə bu, ilk növbədə məhz dildən-dilə keçən şifahi ədəbiyyatın nəticəsi ola bilər. Burada dastan yaradıcılığı və aşıq ədəbiyyatının daha mühüm rolunu qeyd etmək lazımdır. Qazax və Qırğızıstan mədəniyyətləri arasında da əlaqələrin parlaq səhifələrindən biri qazax və qırğız akınlarının dostluğu və sıx əlaqəsidir. Qazax şairləri Suyumbay, Şaşubay, Şoje, Jambil, Kenen Azərbayev və qırğız akınları Kataqan, Kalmırza, Toktoqul, Osmonikul və başqa bir sıra bu kimi sənətçilərin ünsiyyətdə olması, tez-tez öz aralarında deyişmələr aparması da məlum məsələlərdəndir. Jambil Qırğızıstanın məşhur akini Kataqanı da tanıyırdı, Suyumbayın Kataqanla deyişlərini əzbər bilirdi, akın Naymanbayın ifasında "Manas"dan bir parça, qırğız akınlarının ən sevimli parçası idi. Jambil və Toktoqul təkcə şəxsi dostluq və yaradıcılıq yaxınlığı ilə bağlı deyildi. Hər iki akın uzun ömür və yaradıcılıq yolu keçmiş, qazax və qırğız xalqlarının həyatında iki əsrin ayrıcında baş verən bir çox tarixi hadisələrin şahidi olmuşdur. Onların həyat müşahidələri işlərində öz əksini tapır.

Şifahi xalq yaradıcılığına aid olan əsərlərində, xüsusən də türkdilli xalqların epik şeirlərində bir çox oxşar mövzuları, obrazlı bənzətmələri, xalq məişəti obrazlarında bədii vasitələri və s. xalq dastanlarında epik ümumiliyi janrların - nağılların, əfsanələrin, tapmacaların, atalar sözləri və məsəllərin ümumiliyi də gücləndirirdi. Bundan başqa, qazaxların və özbəklərin şifahi xalq yaradıcılığının bəzi janrlarında (məsələn, atalar sözləri və məsəllər) təkcə məzmun və ideya yaxınlığına deyil, həm də şifahi komponentlərin adekvatlığına rast gəlmək olar.

Ortaq bədii dəyərlərin daha çox əks olunduğu folklordan sadə bir nümunəyə diqqət etsək, dediklərimizi əsaslandıra bilərik. Məsələn, özbəklər arasında "Düşpan kuldırıb deyir, dos zhylatyp deyir" (Düşmən qeyri-səmimi danışar, dost qərəzsiz danışar) qazax atalar sözünün "Duşman kuldirib deyir, dust açıtib deyir" forması, Azərbaycan dilində isə "düşmən yalan söylər, dost acı söylər" versiyası  mövcuddur. Belə misallar çoxdur. Ona görə də bu atalar

sözlərini və məsəlləri hansı xalqdan - qazaxların, azərbaycanlıların, yoxsa özbəklərin yaratdığını öyrənmək çətindir, hətta bəzən də mümkün deyil.

Qazaxıstanın cənubunda, Daşkənd və Xorəzm ərazilərində yaşayan qazaxlarla özbəklərin məhz həyat tərzinin, sosial-iqtisadi həyatının ümumiliyinə görə tapmacalar, atalar sözləri və məsəllər arasında belə bir ümumilik var. Məsələn, kənd təsərrüfatına keçidlə qazaxlar da özbəklər kimi müxtəlif məhsullar becərməyə başladılar. Bu proses də onların folklorunda öz əksini tapmışdır. Bir çox qazax tapmacaları, atalar sözləri və məsəlləri əkinçilik, bostançılıq və bağçılıq mövzularına həsr edilmişdir. Darı, qarğıdalı, buğda, arpa, yerkökü, soğan və başqa bitkilər haqqında saysız-hesabsız şeirlər, əsərlər yaradılmışdır.

Şərqin qədim klassiklərinin, o cümlədən özbək klassiklərinin əsərlərinin az-çox dəqiqliyi ilə şifahi təkrarı özündə əks etdirən nağıllar xalq arasında xüsusilə populyardır. Məsələn, qədim Şərqin klassik əsərlərindən biri olan "Yusif və Züleyxa", "Leyla və Məcnun", "Fərhad və Şirin", "İsgəndərnamə", "Koroğlu" və başqalarından milli ifadəsini tapmış çoxlu parçalar, demək olar ki, bütün türk xalqlarının ədəbiyyatında nisbətən fərqli adlarla və müxtəlif variantlarda mövcuddur. Bu cür əsərlərin məzmunu və süjet xətti bəzən də bu böyük əsərləri yaradan xalqların, şairlərin tərcümeyi-halları rolunu oynayır, əfsanə şəklində dildən-dilə ötürülür. Özbəklər və Şərqin digər xalqları arasında geniş yayılmış "Sultan Hüseyn və onun vəziri Mir Əli" əfsanəsi qazaxlara "Bakirə hökmdar və qara qul" nağılı şəklində tanınır. Hər iki nağılda "Hansı ot ən pisdir, quşlar və insanlar arasında ən pis kimdir?" suallarına tam cavabı - qara qul verir.

Onu da qeyd edək ki, öz növbəsində qazax nağıllarını da qonşu xalqlar, xüsusən də özbəklər götürüblər. Azərbaycanda da qazax nağılları sevilərək oxunur və müxtəlif janrların məzmun baxımından formalaşmasına səbəb olur. M.O.Auezov qeyd edir ki, "Aldar Kosa haqqında əfsanələr təkcə qazaxlar arasında mövcud deyil, onlar qonşu qardaş xalqlar arasında: qırğızlar, özbəklər, qaraqalpaqlar, türkmənlər arasında yaşayırlar, burada Aldar şən yoldaş, ağıllı və fırıldaqçı kimi çıxış edir. Bəzi xarakterik xüsusiyyətlərə, ərazi adlarına, personajlara, adət-ənənələrə əsasən, güman etmək olar ki, bu nağılların süjetlərini qazax folklorundan özbəklər götürüblər. Lakin nəzərə almaq lazımdır ki, qazax və özbəklərin bir-birindən aldıqları bu cür nağılları yeni mühitə, yeni vəziyyətə uyğun olaraq çox vaxt yeni məzmun, yeni forma alırdı. Onlar işlənmiş, bu və ya digər xalqın həyat şəraitində yenidən düşünülmüş, milli rəng almışdır. (8,59)

Türk xalqlarının ortaq bədii dəyərləri yalnız ədəbiyyatda deyil incəsənətin bəzi başqa növlərində də özünü göstərməkdədir. Qeyd etmək lazımdır ki, xüsusən ərazi baxımından bir-birlərinə daha yaxın olan türk ölkələrində ortaq dəyərlər, ümumtürk ideyaları daha qabarıq şəkildə özünü

göstərir. Məsələn, Türkiyə-Azərbaycan münasibətləri digər türk dövlətləri ilə olduğu kimi dostluq və qardaşlıq münasibətləri bütün dünyada örnək göstəriləsi dövlətlərarası sivil əlaqədir. Bunun səbəbi təbii ki, eyni boydan, soydan gəlməsi, eyni zamanda Xəzərin qərb sahillərində yerləşən türk dünyasının iki qüdrətli dövləti olmasıdır.

Eyni zamanda Qazaxlarla özbəklərin mədəni, iqtisadi-siyasi əlaqələri də dediyimiz fikri təsdiqləyə bilər. Bu cür əlaqələr ədəbiyyatda və onların mahnı yaradıcılığında da öz izlərini qoyub. Xüsusilə qazax və özbək ritual mahnıları bir-birindən az fərqlənir. Qazaxlar arasında "Jar-zhar", özbəklərdə "Yar-yar", "Betaşar" və başqa toy mahnıları qazaxlarla özbəklərin mənəvi qohumluğundan aydın şəkildə xəbər verir. Qazax çölünün ucsuz-bucaqsız genişliklərində azadlıq arzusu ilə dolu "Leyla və Məcnun", "Fərhad və Şirin", "Tahir və Zöhrə" haqqında ümumtürk motivli bədii əsərlər də geniş yayılıb. Qazax mühitində mahnı şəklində bir çox özbək əfsanələri mövcud olmuşdur. Dombranın müşayiəti ilə oxunan mahnılar şifahi danışıqdan daha anlaşıqlı idi. Bu, möhkəm ənənəyə çevrilib.

XIX əsrdə bir sıra qəhrəmanlıq janrları və dastanları "Sırım batır", "İsatay-Məhəmbət", "Bəkət batır", "Jankoja", "Dosan", "Suranşı batır", "Karmış batır", "Baluan Niyaz" və s. - onlar qazaxların çarizmin cəzalandırıcı qoşunlarına qarşı mübarizəsini, Kokand və Xivə xanlarının basqınlarını tərənnüm etməklə XIX əsr hadisələri fonunda doğulmuşlar.

Bu cür qaçaq dastanları təxminən eyni dövrlərdə Azərbaycan ərazisində baş verən ictimai-siyasi prosesləri özündə əks etdirən bir çox qaçaqçılıq dastanlarının da meydana gəlməsinə şərait yaratmışdır.

Ç.Vəlixanov ilk dəfə 1856-cı ildə "Manas" qəhrəmanlıq poemasını qırğız dastançısının ağzından eşitmiş və qələmə almışdır. O, süjet xəttini açıqlamış və çox maraqlı faktı vurğulamışdır ki, noqay əfsanələri qırğızlara məlumdur. Ç.Vəlixanov Türküstan xalqlarının bütün adət-ənənələrində, əfsanələrində, şeirlərində noqayların yer almasını heç də az qəribə görmürdü. O, məsələn, yazır ki, "Manas" eposunda noqayların da "Daşkənd", "Asan-Kaiqi" adları çəkilir. Digər əsərində alim bu hadisəni izah edərək, noqay dedikdə Türküstan ərazisində yaşamış bütün köçəri tayfaları nəzərdə tutduğunu, süjetlərin, qəhrəmanların ümumiliyinin bu xalqların tarixi talelərinin ümumiliyindən qaynaqlandığını vurğulayır. Beləliklə, Ç.Vəlixanovun səyahət oçerkləri türk xalqalarının münasibətləri və ortaq dəyərləri haqqında müstəsna elmi dəyərə malikdir.

Vəlixanov qeyd edib ki, qırğızların əfsanələri qazaxlarınki qədər rəngarəng və çoxsaylı deyil, lakin qırğız xalqının bir sıra gözəl əfsanələri və "Manas" dastanı var. Vəlixanov qırğızların həyatında epik faktlarla tarixi hadisələr arasında uyğunluğun qurulmasına xüsusi yer ayırır, bunun qırğız xalqının tarixini əks etdirdiyini qeyd edir.

Böyük İpək Yolunun fəaliyyət göstərməsi nəticəsində tarixdə ilk dəfə olaraq intensiv və müntəzəm dünya iqtisadi əlaqələri prosesində mədəniyyətlərin yaxınlaşması tendensiyası yarandı. Böyük İpək Yolunun bütün marşrutu boyunca mədəni komponentlərin tədricən birləşməsi baş verirdi. Təbii ki, belə bir prosesi Şərqdən qərbə doğru sıralanan türk ellərinin həyat və məişətində daha çox özünü göstərirdi. Böyük İpək Yolu, sanki türk xalqlarının mədəniyyət və incəsənət, bilik və ideyalar, adət-ənənələr sahəsində tədricən mədəni mübadilənin də aparıldığı bir kanala çevrilirdi.

Məlumdur ki, İpək Yolu boyunca təkcə malların özləri deyil, həm də onların istehsalı və mövcudluğu haqqında məlumatlar yayılmışdır. Və hər şeydən əvvəl, xalq yaradıcılığı ilkin olaraq həm maddi, həm də mənəvi mədəniyyət olan insanın əmək fəaliyyəti ilə bağlı olmuşdur.

İstənilən xalqın mədəniyyəti etnosdan başlayır və etnosda xalqın mədəniyyəti, adət-ənənələri, həyat tərzi formalaşır. Etnos tarixi hadisələrin diaxronik ardıcıllığı ilə formalaşır və mövcud olur.

İki min yarım ildən çox əvvəl indiki Qazaxıstan ərazisində Saka dövlətləri mövcud idi. Bunlar öz unikal sivilizasiyasını, heyvanlardan gözəl sənət nümunələri yaradan qazaxların uzaq əcdadlarıdır. Onlar artıq yazı bilirdilər və ölkəmizin ilk dövlət ərazisini yaratdılar. Bunlar sənətkarlıqla, əkinçiliklə məşğul olan, məskənlərdə yaşayan, Böyük Çöl genişliklərində gəzən tayfalar idi. Eramızdan əvvəl I minilliyin əvvəllərində bəşəriyyətin texnoloji tərəqqisinin ən böyük hadisəsi bu sivilizasiyanın formalaşmasında böyük rol oynamışdır.

Altayın prototürk tayfaları od və dəmir filizini kəşf edərək dəmir məmulatları icad etdilər. Atlı-köçəri sivilizasiyasının yeni dinamik qüvvəsi - Çin, Hindistan, İran, Misir, Babilin böyük qədim oturaq sivilizasiyalarının naməlum dünyasına sürətlə qaçdı və bununla da Avrasiyanın sivilizasiyalar-arası dialoq tarixində görünməmiş dönüşü əvvəlcədən müəyyənləşdirdi.

Qədim türklərdə qayaüstü müxtəlif rəsmlərin təsviri də eyniylə bəzi türk xalqlarının tarixində, mədəniyyətində xüsusi yer tutur. Qazaxıstanda, Türkmənistanda, Azərbaycanda rast gəlinən bu cür təsvirlər özündə müxtəlif dövrlərin gündəlik həyat və məişətini, tarixini əks etdirir.

Petroqliflər - Qazaxıstan ərazisində hər yerdə olan qayaüstü təsvirlər də saka təsviri sənətinin abidəsidir. Adətən onları iti metal alətlərlə tünd patina ilə örtülmüş qayaların üzərində döyürdülər. Qaya təsvirləri müxtəlif yollarla yaradılmışdır: siluetin bütün sahəsinin nöqtəli döyməsi, xətti kontur, oyma xətlər, cilalama və s. şəklində rast gəlinir. Bəzən eyni təsvir iki və ya üç fərqli texnika ilə həkk olunurdu. (3) Şəkil 1.

1896-cı ildə Kopenhagen Universitetinin professoru, istedadlı filoloq Vilhelm Tomsen (1842-1927) Orxon-Yenisey abidələrinin oxunmasına və qədim türklərdən qalan yazıların tərcüməsinə həsr olunmuş kitab nəşr

etdirmişdir. Və elə həmin il qədimi əsərlərin böyük həvəskarı və antik dövrün tədqiqi həvəskarı V.A.Kallaur Qazaxıstan və Qırğızıstanda, Talas vadisində Qırğız silsiləsinin gözəl qıvrımları ilə əhatə olunmuş türk runik yazılarını tapır.

Müasir tədqiqatçıların əksəriyyətinin fikrincə, qədim türklərin yazıları Yaxın Şərq xalqlarının istifadə etdiyi bəzi ən qədim əlifbalara qədər gedib çıxır. Ancaq qədim türk rünlərinin mənşəyi məsələsi hələ ki, həll edilmiş hesab edilə bilməz. Qazaxıstan Elmlər Akademiyasının tanınmış alimləri K.Baypakov və S.Acıqalinin rəhbərlik etdiyi arxeoloqlar tərəfindən uzun illər ərzində Semireçya ərazisində aparılan qazıntılar qədim şəhər və yaşayış məskənlərinin tapıntıları ilə yanaşı, qiymətli əşyaların da tapılması ilə nəticələnmişdir. Buradakı zərgərlik məmulatları və hərbi texnika, müxtəlif materiallardan hazırlanmış əşyalar üzərində rune yazılar mövcud idi. Ən maraqlısı isə odur ki, bu yazıların yaşı qədim türk runlərinin yaşını min il üstələyir. Bu da türklərin ən qədim dövrlərdən ortaq yazı mədəniyyəti olması faktını meydana gətirir.

Bundan başqa, türk xalqlarında meydana çıxmış və inkişaf etmiş bəzi mədəniyyət nümunələri müxtəlif yollarla bütün Asiyanın və Avropanın digər ölkələrinə də yayılırdı. Qərbi Asiya mənşəli bəzi təsviri motivlərin Orta Asiya vasitəsilə İskit dövrünün Altay və Cənubi Sibir sənətinə daxil ola bilməsi ehtimalı öz təsdiqini tapır. Bu, Cənubi Uralın Savromat abidələrindəki bəzi təsvirlərə də eyni dərəcədə aiddir.

***Ədəbiyyat***


1. *Mustafayev A.H. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiq) Bakı, "Bakı universiteti" nəşriyyatı 2009*
2. *Tağıyeva R. Azərbaycan xalçası. Rzayev N.İ. Əsrlərin səsi. Bakı, 1974.*
3. *Rzayev N.İ. Əcdadların izi ilə. Bakı, 1992.*
4. *Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983.*
5. *Müciri Cəfər. Azərbaycan xalçaçılığın texnoloji üsulları. Bakı, 1987.*
6. *http://unec.edu.az/application/uploads/2018/12/Az-rbaycan-dekorativ-t-tbiqi-s-n-t-sah-l-rinin-kompozisiya-x-susiyy-tl-rinin-t-hlili.pdf*
7. *http://portal.azertag.az/az/node/1281*

**N.S.Şahverdiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***nuranashah96@gmail.com***

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA İNFRASTRUKTURUN BƏRPASI VƏ İDARƏETMƏ XİDMƏTİNİN TƏŞKİLİ

***Xülasə***

*İşğal olunmuş torpaqlar müzəffər ordu tərəfindən ərmağan olunan azadlıqlarının sevincini yaşadıqları bir vaxtda növbəti addım həmin ərazilərin dirçəldilməsinə yönəldilmiş yenidənqurma, reinteqrasiya tədbirləri oldu. Prezident İlham H. Əliyev tərəfindən bir sıra fərman və sərəncamlar imzalandı. Həmin fərman və sərəncamlarla tanış olduqda görürük ki, onlar yalnız azad olunmuş torpaqlara deyil, bütöv Azərbaycan Respublikası ərazisinə şamil edilmişdir. Diqqət cəlb edən bu önəmli məqam göstərir ki, görülən tədbirlər bütöv və vahid Azərbaycanın inkişafına xidmət edəcəkdir. Bu məqalədə bizim məqsədimiz həyata keçirilən həmin tədbirlərin bəziləri ilə tanış olmaqdır.*

# В КАРАБАХСКОМ И ВОСТОЧНОМ ЗАНГЕЗУРСКОМ ЭКОНОМИЧЕСКИХ РАЙОНАХ ОРГАНИЗАЦИЯ УСЛУГ ПО ВОССТАНОВЛЕНИЮ И УПРАВЛЕНИЮ ИНФРАСТРУКТУРОЙ

***Резюме***

*В то время, когда оккупированные земли пользовались свободой, дарованной победоносной армией, следующим шагом были меры по реконструкции и реинтеграции, направленные на возрождение этих территорий. Для этого Президентом Ильхамом Г.Алиевым был подписан ряд указов и распоряжений. Когда мы знакомимся с этими указами и распоряжениями, то видим, что они распространялись не только на освобожденные земли, но и на всю территорию Азербайджанской Республики. Этот важный момент, привлекающий внимание, свидетельствует о том, что принимаемые меры послужат развитию единого и единого Азербайджана. В этой статье наша цель — познакомиться с некоторыми из этих реализованных мер.*

# KARABAKH AND EASTERN ZANGEZUR ECONOMİC REGİONS ORGANİZATİON OF İNFRASTRUCTURE RESTORATİON AND MANAGEMENT SERVİCES

***Summary***

*At a time when the occupied lands were enjoying the freedom granted by the victorious army, the next step was the reconstruction and reintegration measures*

*aimed at the revival of those territories. For this, a number of decrees and orders were signed by President Ilham H. Aliyev. When we get acquainted with those decrees and orders, we see that they were applied not only to the liberated lands, but to the entire territory of the Republic of Azerbaijan. This important point that attracts attention shows that the measures taken will serve the development of a whole and unified Azerbaijan. In this article, our goal is to get acquainted with some of those measures implemented.*

***Açar sözlər:*** *reinteqrasiya, ivestesiya, infrastruktur, kommunikasiya, nəqliyyat, Su elektrik stansiyası, Rəqəmsal İdarəetmə Mərkəzi, Təhsil Şöbəsi*

***Ключевые слова:*** *реинтеграция, инвестиции, инфраструктура, связь, транспорт, Гидроэлектростанции, Центр цифрового управления, Департамент образования*

***Key words:*** *reintegration, investment, infrastructure, communication, transport, Hydroelectric power stations, Digital Management Center, Department of Education*

Yeni bölgünün aparılmasında başlıca məqsəd Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin ölkə iqtisadiyyatına reinteqrasiyasını təmin etmək, bununla yanaşı digər iqtisadi rayonların, xüsusilə, Aran və Gəncə-Qazax iqtisadi rayonları üzrə həyata keçirilməsi nəzərdə tutulan planlaşdırma işlərinin səmərəliliyini yüksəltmək, iqtisadi idarəetmənin çevikliyini artırmaq durur. Fərmanda əsas diqqət iki iqtisadi rayonun – Qədim Qarabağ bölgəsinin bərpa edilməsi və sürətli inkişafını təmin etmək məqsədiylə Qarabağ iqtisadi rayonunun, Ermənistanla sərhəddə, Zəngəzur yaylasının şərqində isə tarixən eyni təbiətə, mədəni irsə malik Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılmasına yönəldilmişdir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun ərazisi birlikdə 14723.5 $km^2$-dir. Qarabağ iqtisadi rayonu özündə Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları, Şərqi Zəngəzur iqtisadi rayonu isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarını birləşdirir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən yenidənqurma işlərinin bəziləri ilə tanış olaq.

**Elektrik enerjisinin təchizatı ilə bağlı tədbirlər:** Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq azad olunmuş ərazilərdə elektrik enerjisinin təmin olunması, həmin ərazilərin ən qısa zamanda Respublikanın ümumi enerji sisteminə qoşulması üçün işlər həyata keçirilmişdir. Bunun üçün görülən tədbirlərdən biri Rəqəmsal İdarəetmə Mərkəzinin yaradılması olub. Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər edərək “Qarabağ” Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak ediblər. Daha sonra Qarabağ və Şərqi Zəngəzurda 9 rəqəmsal yarımstansiya tikilərək

istismara verilmişdir. Qarabağda elektrik enerjisinin istehalı məqsədiylə kiçik 4 SES yenidən qurulub istifadəyə verilmişdir. Bunlar Laçında yerləşən "Güləbird", Tərtərdə yerləşən "Suqovuşan-1", "Suqovuşan-2", Kəlbəcərdə yerləşən "Kəlbəcər-1" kiçik seslərdir. 2022-ci ilin fevralında Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyasını işə salmışdır. "Bu, işğaldan azad edilmiş torpaqlarda xalqın istismarına verilən ən birinci elektrik stansiyasıdır və bunun olduqca böyük əhəmiyyəti, dərin rəmzi mənası var. Biz bu torpaqlara qayıdırıq. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilərin uzun illər ərzində qanunsuz şəkildə istismar etdiyi və dağıdaraq yararsız hala saldığı bütün su elektrik stansiyalarını yenidən bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində beş su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik" -deyə dövlətimizin başçısı bildirib.

2022-ci il iyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının (KSES) açılışında iştirak edib.

"Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılış mərasimi 2022-ci il oktyabrın 3-də dövlət başçısının rəhbərliyilə baş tutmuşdur.

Beləliklə, işğaldan azad edilən ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Vətən müharibəsində Qələbədən sonra ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" və "Kəlbəcər-1" Kiçik Su Elektrik stansiyaları tikilib istifadəyə verilib.

Eyni zamanda enerji təminatını yaxşılaşdırmaq üçün "Cəbrayıl" enerji qovşağının yaradılması əmri verilib. May ayının 26-da "Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban Əliyeva iştirak ediblər. 19 oktyabr 2022-ci ildə İlham Əliyev 330/110 kilovoltluq "Cəbrayıl" Qovşaq yarımstansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.

**Təhsil sahəsində görülən tədbirlər:** Regionun infrastrukturunun yaradılmasında görülən növbəti işlərdən biri Təhsil Şöbələri əsasında Regional Təhsil İdarələrinin yaradılması olmuşdur. 20 dekabr 2021-ci il Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamda nəzərdə tutulurdu ki, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təsdiq edilməsi

haqqında" və "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" sərəncamlarında dəyişiklik edilsin.

Beləliklə, yeni sərəncama əsasən təhsil şöbələrinin əsasında regional təhsil idarələri yaradılıb. Burada da əsas diqqət işğaldan azad olunmuş ərazilərə yönəldilmişdir. Kəlbəcər, Laçın, Cəbrayıl, Qubadlı və Zəngilan rayon təhsil şöbələrinin əsasında Şərqi Zəngəzur Regional Təhsil İdarəsi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayon təhsil şöbələrinin əsasında Qarabağ Regional Təhsil İdarəsi yaradılıb.

**İşğaldan azad olunmuş ərazilərdə hava limanları:** Füzuli Beynəlxalq Hava Limanı – Azərbaycan Füzuli rayonu ərazisində inşa olunan beynəlxalq hava limanı. 16 oktyabr 2021-ci ildə Azərbaycan Baş Nazirinin sərəncamı ilə hava limanına beynəlxalq status verilmişdir.

Hava limanı nəzərdə tutulduğu kimi qısa müddətdə inşa edilərək, istifadəyə verildi. Belə ki, 5 sentyabr 2021-ci ildə ilk böyük sınaq uçuşu təşkil edildi. 2021-ci il oktyabrın 26-da isə hava limanının rəsmi açılışı olmuşdur. Açılışda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər. Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğanın və Türkiyənin dövlətinin rəsmilərinin olduğu Türkiyənin bir nömrəli təyyarəsi, elə Ankara - Füzuli hava xətti ilə uçuş edərək, birbaşa Füzuli Beynəlxalq Hava Limanına enmişdir.

Zəngilan Beynəlxalq Hava Limanı — Azərbaycanın Zəngilan rayonu ərazisində, 2021-ci ilin aprel ayında tikintisinə başlanılan beynəlxalq hava limanıdır. Zəngilan Beynəlxalq Hava Limanı İkinci Qarabağ müharibəsində işğaldan azad edilmiş ərazilərdə inşa edilən ikinci beynəlxalq hava limanı olacaq. 20 oktyabr 2022-ci il saat 13:03 tarixində Zəngilan hava limanının açılışı olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Laçın Beynəlxalq Hava Limanı — Laçın rayonu ərazisində inşa olunması nəzərdə tutulmuş beynəlxalq hava limanından üçüncüsüdür. Hava Limanının təməli Prezident İlham Əliyev tərəfindən 2021-ci il avqustun 16-da qoyulub. 2024-cü ildə tikintinin başa çatdırılacağı planlaşdırılır. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 20 oktyabr 2022-ci il tarixli Azərbaycan səfərini başa vurarkən gecə təyyarədə jurnalistlərə verdiyi açıqlamasında bu ifadələri səsləndirib: - "Mən inanıram ki, Azərbaycanın investisiyaları ilə Qarabağ qısa müddət ərzində regionun parlaq ulduzuna çevriləcəkdir." "Azərbaycanlı qardaşlarımız işğaldan azad etdikləri ərazilərdə başladıqları tikinti və yenidənqurma işlərini sürətlə davam etdirir. Ötən il Şuşa və Füzuliyə səfər zamanı buradakı işlərlə tanış olmuşduq. Bir il sonra Qarabağın gəldiyi nöqtəni görmək, gündən günə inkişafını müşahidə etmək bizi çox məmnun etdi", - deyə R.T.Ərdoğan bildirib.

9 oktyabr 2021-ci ildə işğaldan azad olunmuş Hadrut qəsəbəsində yeni məscidin təməl qoyma mərasimi baş tutmuşdur. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocavənd rayonunun Tuğ kəndi və Hadrut qəsəbəsinə səfər edərək Hadrut qəsəbəsində yeni məscidin təməlini qoydu. Məlumatlara əsasən qəsəbənin yerli əhalisi üçün inşa ediləcək məscidin minarəsinin hündürlüyü 26 metr olacaq. 250 nəfərin eyni vaxtda ibadətini mümkün edən məscidin ikinci mərtəbəsində qadınların ibadət etməsi üçün xüsusi ayrılmış otaq yerləşəcək. Məscidin fasadında isə xüsusi bəzək elementlərindən istifadə olunacaq.

**Qarabağda nəqliyyat yolları:** İşğaldan azad edilmiş ərazilərin bərpası üçün atılan ilk addımlardan biri də avtomobil yollarının tikintisi idi. Zəfərdən dərhal sonra təsdiq edilmiş "Böyük Qayıdış" proqramında Qarabağın dirçəlişinə aparan birinci mərhələ yeni yol-nəqliyyat infrastrukturunun tikintisi və yaradılışdır. Bu, Qarabağa Cənubdan, Şərqdən və Şimaldan nəqliyyat layihələrini həyata keçirməyə, həmin xətlər üzrə hərəkət etməyə imkan verəcək. Tərtər rayonundakı Talış və Suqovuşan kəndlərinə gedən yollar yenidən qurulmağa başlanıldı. Həmin yolların yenidən qurulmasına döyüşlər gedən zamanlardan başlanılıb. Həmin yol Tərtər şəhərindən Suqovuşan kəndinə qədər çəkilmişdir. Yolun Suqovuşan kəndindən Talış kəndinə qədər uzanan hissəsi 7,5 km-dir. Yol 2 geniş zolaqdan ibarət idi, asfalt-beton örtüyünün eni isə 9 metr təşkil edirdi. Daha sonrakı mərhələdə isə Çaylı kəndi ilə Talış kəndini birləşdirən 8 km yol çəkilib, Talış kəndi ilə Naftalan şəhəri arasındakı yeni yolun tikintisi planlaşdırılır və həmin yol 22 km uzunluğunda nəzərdə tutulmuşdur. Yolların Tərtər şəhəri ilə birləşdirilməsi turizm məqsədli daşımalar və logistik səfərlərdə iştirak edənlər üçün alternativ yol olacaq, nəticədə onlar Naftalandan Talış və Suqovuşana səfər edə biləcəklər. Toğanalı–Kəlbəcər Suqovuşan–Talış, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolları bu layihələr çərçivəsindədir. Cənab Prezidentin "Zəfər Yolu" adını verdiyi, qısa zaman ərzində tanınan Füzuli-Şuşa yolu qəhrəman döyüşçüləri Qarabağın mərkəzinə, xüsusən də Şuşa şəhərinə aparmışdır. Və bu məqsədlə Prezidedent İlham Əliyev tərəfindən həmin yola "Zəfər Yolu" adı verilmişdir.

***Ədəbiyyat***

1. *https://sherg.az/gundem/198008*
2. *https://president.az/az/articles/view/56196*
3. *https://president.az/az/articles/view/57627*
4. *https://news.milli.az/politics/1019395.html*
5. *https://sia.az/az/news/economy/930688.html*
6. *https://ikisahil.az/post/men-shushaya-qelebe-yolu-ilegelmishem*

**N.N.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***Scastye723@gmail.com***

# UNİVERSİTET ELMİ NƏŞRLƏRİNİN KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN ARTIRILMASI YOLLARI

***Xülasə***

*Universitet və institutların elmi uğurları onların imicinin formalaşdırılmasında əhəmiyyətli rol oynayır. Universitetlərin tərkibində yaradılan Nanoaraşdırmalar Elmi-Tədqiqat Mərkəzinin də universitet elmi nəşrlərinin keyfiyyət göstəricilərinin artırılmasında xüsusi rolu var. Pandemiya dövrünün məhdudiyyətlərinə baxmayaraq, səmərəli fəaliyyət göstərən universitetlər ard-arda seminarlar, dəyirmi masalar keçirdilər. Mərkəzin əməkdaşlarının əsasən onlayn keçirilən respublika və beynəlxalq konfrans, seminar və simpoziumlarda iştirakı, yüksək impakt faktorlu məqalələrinin Web of Science və digər nüfuzlu xülasələndirmə və indekslənmə bazalarına daxil olan jurnallarda nəşri bunun bariz nümunəsidir.*

# ПУТИ ПОВЫШЕНИЯ КАЧЕСТВЕННЫХ ПОКАЗАТЕЛЕЙ ВУЗОВСКИХ НАУЧНЫХ ИЗДАНИЙ

***Резюме***

*Научные достижения университетов и институтов играют важную роль в формировании их имиджа. Особую роль в повышении качественных показателей вузовских научных изданий играет созданный в вузах Наноисследовательский центр. Несмотря на ограничения периода пандемии, эффективно работающие вузы один за другим проводили семинары и круглые столы. Ярким примером тому является участие сотрудников центра в национальных и международных конференциях, семинарах и симпозиумах, проводимых преимущественно в онлайн-режиме, публикация статей с высоким импакт-фактором в Web of Science и других авторитетных обобщающих и индексирующих базах данных.*

# WAYS TO INCREASE THE QUALITY INDICATORS OF UNIVERSITY SCIENTIFIC PUBLICATIONS

***Summary***

*Scientific achievements of universities and institutes play an important role in shaping their image. The Nano-Research Center established within universities has a special role in increasing the quality indicators of university scientific publications. Despite the restrictions of the pandemic period, the universities, which are operating efficiently, held seminars and round tables one after another. A clear example of this is the participation of the center's employees in national and international*

*conferences, seminars and symposia held mainly online, the publication of articles with a high impact factor in Web of Science and other authoritative summarizing and indexing databases.*

***Açar sözlər:*** *universitet, elmi nəşr, keyfiyyət, ali təhsil, reytinq*
***Ключевые слова:*** *вуз, научная публикация, качество, высшее образование, рейтинг*
***Keywords:*** *university, scientific publication, quality, higher education, rating*

Hazırda ali təhsilin qarşısında çətin vəzifələr durur. Formal olaraq bu, hökumətin universitetlərin beynəlxalq reytinqlərində layiqli yer tutmaq tələbində ifadə olunur. Əslində söhbət eyni vaxtda iki məqsəddən gedir:

1) tələbənin öyrənmə keyfiyyətinin yüksəldilməsi;
2) rəqabətqabiliyyətli müəllimlərin hazırlanması.

Aparılan tədqiqatlar laboratoriya şəraiti ilə bağlıdır. Eksperimental tədqiqatlar olmadan bu elmin inkişafından danışmaq mümkün deyil. Lakin hər dövrün öz xüsusiyyətləri var. Pandemiya dövründə də mövcud şəraitə uyğunlaşmağa çalışan universitetlər dünyada aparılan yeni tədqiqatları bir daha araşdırdı, elmi-tədqiqat işlərinin planlaşdırılmasını apardı və ilkin işlərə başladılar. Həmin işlərin nəticəsini yaxın zamanda görmək mümkündür.

Xüsusilə magistrantların dissertasiya işləri və tələbələrin buraxılış işlərinin xarakteri dəyişib. Burada əsas ağırlıq icmal xarakterli işlərə verilib. Pandemiya bitəndən sonra planlaşdırılan eksperimental işlərə bütün kollektivlə birgə davam ediləcək. Onu da qeyd edək ki, indiyədək daha çox materialşünaslıqla məşğul olmuş və ayrı-ayrı materialların fiziki, kimyəvi xüsusiyyətləri öyrənilmişdir. İndiyə qədər toplanan təcrübə və alınan nəticələr nanomateriallar əsasında fərqli, müasir qurğuların yaradılması sahəsində işlər aparmağa imkan verir.

Müasir reallıqlar şəraitində hər bir ölkənin iqtisadi inkişaf templəri, rəqabətqabiliyyətliliyini ölçən ən mühüm parametrlərdən biri də elm və təhsilin inkişafından, elmi məhsulların kommersiyalaşdırılması intensivliyindən, dünya təhsil sistemində milli universitetlərin tutduğu yerdən birbaşa asılıdır.

Milli universitetlərin dünya reytinqlərində mövqeyini şərtləndirən mühüm amillərdən biri universitet alimlərinin elmi-tədqiqat məhsulları və onların dünyanın nüfuzlu indeksli jurnallarda yer tutması ilə bağlıdır. Universitetlərin dünyada nüfuzu həm də alimlərimizin elmi məhsullarının dünya miqyasında tanınması və onlara edilən istinadların sayı ilə də ölçülür.

Təhsil Nazirliyinin 2014-cü ildə Thomson Reuters (indiki Clarivate Analytics) elmi bazası ilə səmərəli əməkdaşlığının nəticəsi olaraq ötən illər ərzində ali məktəblərimizin elmi publikasiya aktivliyi yüksələn xətlə inkişaf etmiş, Azərbaycan regionda lider mövqeyə çıxmışdır. Fevralın 3-də isə Təhsil Nazirliyinin dünyanın ən böyük elmi-analitik bazası olan Niderlandın Elsevier

korporasiyası ilə Niyyət Protokolu imzalaması bir daha alim və tədqiqatçılarımızın əldə olunan uğurlarının davamlı inkişafının təmin ediləcəyinə böyük ümidlər verir. Elsevier-in Mərkəzi Asiya və Azərbaycan üzrə regional direktoru Aliyə Ospanova da "Azərbaycan müəllimi" qəzetinə verdiyi müsahibəsində bu sahədən əminliklə danışır.

Niyyət Protokolu dünyanın ən böyük elmi şirkəti ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında mühüm strateji əlaqələrin yaradılmasının əsasını qoyur. Bu sənəd Azərbaycanın ali təhsil müəssisələrinin ScienceDirect və Scopus-a çıxışını təmin etməklə ölkə universitetlərinin elmi potensialının inkişafına sərmayə qoymağı, habelə ali məktəblərin beynəlxalq QS (World University Rankings), THE (Times Higher Education) reytinqlərinə daxil olmasına dəstək verir.

Elsevier bu gün ayrı-ayrı ölkələrdə və universitetlərdə elmin inkişaf səviyyəsinin müəyyənləşdirilməsində əsas rol oynayır. Bu təşəbbüsün bir hissəsi olaraq, korporasiyamız üçün Azərbaycanın əhəmiyyətini nəzərə alaraq, beynəlxalq elmi jurnallarda nəşrlərin və sitatların sayını artırmaqla Azərbaycan alimlərinin rəqabət qabiliyyətini yüksəltmək mümkündür (2,s.90).

Universitet reytinqlərinin hər birinin öz metodologiyası var, buna görə elmi potensial Scopus verilənlər bazasındakı nəşrlərin və ya sitatların sayı ilə ölçülür. Əlbəttə ki, Scopus-a giriş olmadan nəticələrin əldə edilməsini müntəzəm ölçmək və hətta reytinqə daxil olmaq barədə danışmaq çox çətin idi. Bu vacib razılaşmanın bir hissəsi olaraq, Elsevier elmi bazalardan istifadə vasitələrinə lazımi təminat verməklə yanaşı, həm də hər bir universitetdə diqqət mərkəzində olmaqla, genişmiqyaslı təlim keçirmək üçün öhdəlik götürüb. Elsevier ölkənin aparıcı ali təhsil müəssisələrindən olan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin bazasında tədris mərkəzi yaradıb. Ölkənin hər bir universiteti, o cümlədən regionlardakı ali məktəblər bu sahədə maarifləndirici kursların keçirilməsi üzrə işlərini davam etdirməlidir.

Scopus dünyanın ən nüfuzlu elmi-analitik reytinq platformasıdır ki, bu da müəlliflərin, alimlərin, jurnalların, təşkilatların reytinqini, ölkələrin reytinqini tərtib etməyə imkan verir. Scopus-a necə daxil olmaq barədə danışsaq, yerinə yetirilməli olan əsas vəzifə elmi məqalə yazmaqdır. Reytinqdə inkişaf etmək üçün vacibdir ki, bu elmi məqalə kifayət qədər sitat qazansın, digər müəlliflər ona istinad, ondan bəhs etsinlər.

Milli bir elmi jurnalın Scopus-a girməsi hər bir ölkənin qürurudur. Layihəmizin bir hissəsi olaraq Scopus-un beynəlxalq tələblərinə uyğunluğunun öyrənilməsi məqsədi ilə Azərbaycanın elmi jurnallarının redaktorları üçün bir sıra ustad dərsləri keçirilməlidir.

İlk növbədə universitetlər başa düşməlidirlər ki, hər hansı bir universitetin inkişaf etmiş tədqiqat potensialı olan bir müəssisəyə çevrilməsi zamanın tələbidir. Biz artıq əsas diqqətini yalnız tədrisə yönəltmiş bir

universitet ola bilmərik. Bu, ilk növbədə, elmin inkişafına diqqət göstərən ali məktəb strategiyasının transformasiyasıdır. Prioritetlərin düzgün seçilməsi və əsas effektivlik göstəricilərinə (KPI - key performance indicators) nail olunduğu təqdirdə ali məktəbin göstəricilərinin yaxşılaşması qaçılmazdır.

Scopus-a daxil olmaq üçün jurnalın beynəlxalq standartlara cavab verməli olduğunu başa düşmək lazımdır. Bu, həm məcburi texniki uyğunluq, həm ekspert rəyi və təbii ki, qəbul edilmiş nəşrlərin keyfiyyətidir. Düşünürəm ki, bu gün jurnalların statusunu müəyyənləşdirməklə Azərbaycan jurnallarının auditini aparmaq lazımdır.

Son 5 il ərzində Scopus-da Azərbaycan alimlərinin 6568 məqaləsi dərc edilib. Science direct-də nəşr olunan 1 məqalə Azərbaycan alimlərinə 10-a qədər sitat gətirir. Bu göstəriciyə əsasən ölkənin ən nüfuzlu ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti QS-in dünyanın ən yaxşı 1000 universiteti sırasında yer alıb.

Scopus-un indeksli jurnallarında dərc olunmaq üçün kiməsə pul ödəməyə ehtiyac yoxdur. Üstəlik, Scopus jurnalı heç vaxt müəyyən bir məbləğ qarşılığında məqalənin çap olunacağına zəmanət vermir.

Təəssüflər olsun ki, bir çox alimlər hələ də elmi məqalələrinin dərc olunması üçün bəzi şirkətlərdən istifadə etmək lazım olduğuna və yalnız bu yolla Scopusa daxil ola bilməyin mümkünlüyünə inanırlar. Burada əsas iş bütün beynəlxalq standartlara uyğun olan bir məqalə yazmaq və onu onlayn olaraq jurnalın veb səhifəsinə şəxsən təqdim etməkdir (3, s.78)

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) 2014-2019-cu illər üzrə alim və tədqiqatçıların publikasiya fəallığına dair hesabatından mühüm nəticələrinə görə bəhs etdiyimiz dövrdə OECD üzrə alimlərin təbiət elmləri üzrə publikasiya aktivliyi 55,1 faiz, mühəndislik və texnologiyalar üzrə 25,7 faiz, tibb elmləri üzrə 10,7 faiz, sosial elmlər üzrə 5,1 faiz, digər elm sahələri üzrə isə 3,4 faiz təşkil edib. Beləliklə də alimlərin təbiət elmləri sahəsində publikasiya aktivliyinin daha yüksək olmasını qeyd edə bilərik.

Məlumdur ki, bütün dünyada alimlərin fəaliyyətinin nəticələri və elmi göstəriciləri, onların yüksək reytinqli jurnallarda dərc olunan məqalələri və digər tədqiqatçıların onlara olan istinadlarının sayı ilə ölçülür. Buna görə də ali təhsil müəssisələrində elmin inkişaf etdirilməsi zəruridir, hazırda universitetlərin elmi potensialını artırmaq üçün bir sıra təkliflər hazırlanır.

Əsas elmi məlumat bazalarına abunənin təşkil edilməsi ən vacib addımlardan biridir. Təhsil Nazirliyi tərəfindən yalnız Scopus-a (elmi və analitik reytinq platforması) deyil, həm də Science Direct-ə (dünyada ən yüksək impakt faktoru olan elmi jurnallar) girişin təmin olunması çox əhəmiyyətlidir. Science Direct 196 Nobel mükafatçısından 195-nin dərc olunduğu dünyanın ən çox istinad edilən nəşridir. Science Direct platformasında azərbaycanlı alimlərin nəşrlərinin sayını artırmaq lazımdır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Elsevier korporasiyası arasında əldə olunmuş razılaşma ölkənin III və IV nəsil universitetlərinin transformasiyası üzrə bütün akademik ictimaiyyət üçün ciddi bir təkan olacaq (1, s.55).

Elmi tədqiqatların nəticələrinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasının formalarından biri də onların müxtəlif ixtisaslaşmış nüfuzlu jurnallarda çap olunmasıdır. Məqalənin nüfuzlu jurnallarda nəşri - tədqiqatçının elmi fəaliyyət sahəsinin genişlənməsi və elmi səviyyəsinin artmasının, ölkənin elmi nüfuzunun yüksəlməsi və mövqeyinin möhkəmlənməsinin təmin edilməsi deməkdir. Hazırda dünyada minlərlə jurnal nəşr olunur və nüfuzlu alimlər onların hamısını deyil, yalnız tanınmış elmi bazalarda nəşr olunanlarını izləyirlər. Belə bazalar sırasına ilk növbədə ildə on mindən çox jurnalı izləyən və qiymətləndirən Web of Science və otuz minə yaxın jurnalı izləyən və qiymətləndirən Scopus kimi beynəlxalq elmmetrik verilənlər bazaları daxildir. Adıçəkilən elmmetrik bazalara daxil olan jurnallarda elmi məqalə çap etdirmək məqalə müəllifləri ilə yanaşı, onların çalışdıqları universitet və institutların, təmsil etdikləri ölkələrin elmi nüfuzunu birbaşa müəyyən edən və son nəticədə, ölkənin inkişaf səviyyəsini göstərən əsas amillərdəndir.

Məqalələri çap etdirməkdə əsas məqsəd dünya ilə fikir mübadiləsi etmək, elmi işə maraq göstərən xarici həmkarlarla tanış olmaq, qeyri-formal qarşılıqlı əlaqələr qurmaq, beynəlxalq layihələrdə, qrantlarda, birgə nəşrlərdə iştirak etməkdir: "Tədqiqatçılar elmi nəticələrini nəşr edərək nə əldə edirlər? Nəticədə elmi fəaliyyət sahəmiz genişlənir, elmi səviyyəmiz və statusumuz yüksəlir, məqalənin nüfuzlu bazalara daxil olan elmi jurnallarda çap olunması müəllifin elmi tədqiqatlarının "görünmə" ("visibility"), "istifadə edilmə" ("availability") dərəcəsinin yüksəlməsinə təsir edir. Məqalə müəllifinin çalışdığı elmi müəssisənin reytinqi yüksəlir, həmin bazalarda ölkənin mövqeyi möhkəmlənir, məqaləni dərc etdirməklə müəllif müəlliflik hüququ, məqalənin toxunulmazlıq hüququ, məqalənin yayılması hüququ qazanır" (4, s.78)

Hər bir elmi tədqiqatın yekunu nəşrdir. Araşdırmalar zamanı əldə edilən yenilik və nəticələri beynəlxalq elmi cəmiyyətə çatdırmaq, məsləkdaşlarla bölüşmək məqsədilə onları nəşr etmək vacibdir. Məqalə dərc edildikdən sonra onun ictimaiyyətə təsirinin ölçülməsi nəticəsində tədqiqatın mövzusu ətrafında şəbəkə aktivliyini izləmək, təhlil etmək üçün imkan yaranır: istinadların sayı, keyfiyyəti, hirş indeksi və s. Məqalə - müəllifin, təşkilatın, jurnalın, ölkənin elmi prosesdə əldə etdiyi nailiyyətlərin əsas mənbəyidir. Beləliklə, məqaləni nəşr etməkdə məqsəd yalnız tədqiqatların nəşri deyil, eləcə də tədqiqat sahəsində məqalənin oxunma dərəcəsinin və məqaləyə edilən sitat (istinad) saylarının artırılmasıdır.

Yeni, orijinal nəticələrin və yeni metodların təqdim olunması üçün, nəşr olunmuş nəticələrin təkmilləşdirilməsi üçün, tədqiqat sahəsini nəzərdən keçirmək və ya müəyyən bir tədqiqat mövzusunu ümumiləşdirmək üçün elmi nəticə çap olunmalıdır. Müəyyən, spesifik bir sahədə bilik, anlayışları təkrarlamaq deyil, genişləndirmək üçün, məqalənin faydalı, maraqlı və oxunaqlı olması, oxunmayan, istifadə edilməyən, istinad olunmayan məqalənin heç bir dəyəri yoxdur. Məqalənin oxunaqlı olması üçün onun aydın, maraqlı, faydalı olması, məntiqi mülahizələrlə təqdim edilməsi, redaktorlar, rəyçilərin işin elmi mənasını asanlıqla anlaya və qiymətləndirə bilməsi vacibdir.

Nüfuzlu jurnallarda məqalə dərc etdirmək istəyən müəllif ingilis dilində onun qısa məzmununu özündə əks etdirən dolğun annotasiya və açar sözləri olan keyfiyyətli məqalə hazırlamalıdır. Məqaləni resenziyadan keçirməli, etik normalara riayət etməli, məqaləni jurnalın tələblərinə uyğun hazırlamalıdır. Məqalələrin hazırlanması və nəşr olunmasında əsas etik standartlar var. Məqalə eyni zamanda bir neçə jurnala göndərilməməlidir. Birinci jurnaldan mənfi cavab gəldikdə, onu ikinci jurnala göndərmək olar: “Plagiata görə ittiham edilməmək üçün, işinizdə istifadə edilən əsərlərə istinad edilməli, elmi etik normaların pozulmasında sizi günahlandırmağa yol verməmək üçün, tədqiqatlarınızda istifadə etdiyiniz metodları aydın təsvir edilməlidir. Müəllif jurnalın irəli sürdüyü etik tələbləri öyrənməli və onlara əməl etməlidir”

(6, s.87).

Məqalənin oxunaqlılığını artırmaq üçün müəllif cümlədə 15-dən çox sözdən istifadə etməməlidir. Hər fikri bir cümlə ilə ifadə etməyə çalışmalıdır. Cümlə nə qədər sadə və aydın şəkildə qurulsa, oxucular onu daha tez anlaya bilərlər. Nəyin vacib olduğunu müəyyənləşdirmək üçün, oxucular cümlənin sonuna diqqət yetirirlər. Ona görə də cümlələri bunu nəzərə alaraq qurmaq lazımdır.

Orijinallıq - ixtisas sahəsində, metod (üsul) və nəticələrdə yenilik, mövcud biliklərə uyğunluq, onun genişləndirilməsidir. İstinadlar yeni və münasib olmalı, fikirlər əsaslı və məntiqlə izah edilməlidir. Nəzəri və praktiki əhəmiyyəti, jurnalın qaydalarına, məqsədlərinə ciddi riayət olunmalıdır. Məqalə diqqəti çəkmək üçün deyil, əldə edilmiş yenilikləri və nəticələri oxuculara çatdırmaq məqsədilə, məqalə ixtisas sahəsində hər kəsin başa düşəcəyi dildə yazılmalıdır. Hər zaman sadə və qısa yolla izah etməyə çalışmaq lazımdır. Məqalənin adı onun məzmununu əsas açar sözlərlə lakonik ifadə etməlidir. Məqalənin annotasiyası, işin məzmunu, həcmi jurnalın tələblərinə cavab verən aydın və dolğun şəkildə tərtib edilməlidir. İstinadlar jurnalın tələblərinə uyğun, tam və düzgün şəkildə yazılmalıdır - bu onları verilənlər bazasında indeksləşdirərkən vacibdir, keyfiyyətli istinadlar - məqalənin səviyyəsinin göstəricilərindən biridir. Bütün bunlar məqaləni gözə çarpan edərək, onun daha geniş yayılmasına və sitat gətirilməsinə səbəb olacaqdır.

Məqalənin ingilis dilində yazılmış annotasiyası onun çox vacib hissəsidir. Səlis "ingilis dili" - məqalənin keyfiyyətinin ən əhəmiyyətli göstəricisidir. Tədqiqatçı məqalə yazmazdan öncə çalışdığı sahə üzrə geniş məlumata malik, öz ixtisası üzrə elmin son nailiyyətləri, müasir metodları ilə yaxından tanış olmalıdır. Tədqiqat ideyasını inkişaf etdirdikdən sonra araşdırmalara başlamaq olar.

Məqalənin hazırlanmasında müəllif üçün qoyulmuş beynəlxalq standartlar var. Məqalədə təqdim olunan tədqiqatlar etik normalara uyğun, məsuliyyətlə həyata keçirilməli və bütün zəruri hüquqi qaydalara riayət edilməlidir. Tədqiqatçılar nəticələrini açıq, dürüst şəkildə, saxtalaşdırmadan və ya məlumatların lazım olmayan manipulyasiyası edilmədən təqdim etməlidirlər. Tədqiqatçılar öz metodlarını elə aydın və birmənalı şəkildə təsvir etməyə çalışmalıdırlar ki, onların nəticələrinin başqaları tərəfindən təsdiq edilməsi mümkün olsun. Müəllif üçün qoyulmuş beynəlxalq standartlar zamanı isə tədqiqatçılar təqdim olunmuş işin orijinal olması, plagiat olmaması, başqa yerdə nəşr olunmaması tələblərinə riayət etməlidirlər. Müəlliflər təqdim edilmiş və nəşr olunmuş məqalə üçün kollektiv surətdə məsuliyyət daşımalıdırlar. Elmi məqalə hər bir həmmüəllifin işə və onun təqdimatına olan şəxsi töhfəsini düzgün əks etdirməlidir, maliyyələşdirmə mənbələri açıqlanmalıdır.

Aşağı impakt faktorlu jurnal daha əvvəl aparılan tədqiqatlara əsaslanır, əvvəlki işlərə əsaslanıb, onları tətbiq edərək yeni nəticələr alınmalıdır. Yüksək impaktfaktorlu jurnalda isə tamamilə yeni bir konsepsiya, ideya və metod tətbiqi cəhətdən əhəmiyyətli olan tamamilə yeni, orijinal nəticələrin alınması əsas götürülür: "Müəllif məqaləsini çap etdirməzdən öncə oxuduğu jurnalları nəzərdən keçirməlidir. Elsevier, Springer, Wiley, Taylor&Francis, OUP, CUP, AIP, APS, Nature, Science kimi aparıcı nəşriyyatların ingilis dilində dərc olunmuş jurnallarını oxumaq lazımdır. Bu nəşriyyatların jurnallarının əksəriyyəti yüksək sitat gətirmə göstəricilərinə malikdir (2, s.89).

Web of Science orta hesabla ildə 12 mindən çox jurnalı izləyir, SCOPUS orta hesabla 25 min jurnalı izləyir. Open Access - açıq giriş rejimində olan jurnalların sayı 12 minə yaxındır. Elm sahəsində keyfiyyətsiz nəşriyyat fəaliyyətinin son illərdə geniş yayılması "Yırtıcı" (ing. "Predatory"), "Oğurlanmış" (ing. "Hijacted") və "Saxta" (ing. "Fake") jurnalların sayının getdikcə artmasına gətirib çıxarmışdır. "Yırtıcı", "Saxta" və "Oğurlanmış" jurnalların əlamətləri ilə müəyyən etmək mümkündür. Sözügedən jurnallar öz müəllifindən müstəqil olaraq rəylərin hazırlanmasını və ya həmkarları tərəfindən resenziyanın alınmasını xahiş edir. Redaksiya agentlik xidmətləri təklif edir, məsələn, ödənişli resenziyaların hazırlanması kimi. Jurnal ən qısa müddətdə dərc etmək təklifi ilə spam göndərir. Jurnal özü haqqında mötəbər olmayan (saxta) məlumatlar göstərir. Saxta sitat gətirmə indeksləri, mövcud

olmayan və ya əhəmiyyətsiz göstəriciləri əks etdirir, ISSN-i göstərmir. Jurnal məqalənin elmi səviyyəsinin redaksiya tərəfindən artırılmasını təklif edir. Jurnal öz əməkdaşlarının, mütəxəssislərinin (ekspertlərinin), redaksiya heyətinin üzvlərinin adlarını və soyadlarını gizlədir. Jurnal sitat gətirilmələrlə bağlı manipulyasiyalar, çox sayda öz-özünə sitat gətirilmələri daxil etməklə elmmetrik göstəricilərin yüksəldirilməsi üçün xidmətlər təklif edir" (3, s.90).

***Ədəbiyyat***

1. *Alguliyev R.M., T.Kh.Fataliyev, R.Sh.Hasanova. On Necessity of the Azerbaijan Citation Index (AzCI) // PCI'2012.*
2. *Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Bülleteni (xüsusi buraxılış). Bakı: Elm Nəşriyyatı, 2013,-72 səh.*
3. *Azərbaycan Respublikası Təhsil Qanunvericiliyi Külliyyatı {Birinci nəşr). Bakı: Təhsil, 2000, - 436 səh.*
4. *İsrafılov H.A., Hacızadə E.M., Bağırzadə E.R. Magistrant referatlannın yerinə yetirilməsi üzrə metodiki tövsiyə. Bakı: ADtU-nun mətbəəsi, 2009, - 48 səh.*
5. *Magistr dissertasiyasının yerinə yetirilməsi, elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrin təşkilinə dair metodik göstərişlər toplusu / ADİU-nun rektoru i.e.d., prof., Ş.H.Hacıyevin ümumi re¬daktorluğu ilə / Bakı: İqtisad Universiteti, 2007, - 123 səh.*

.

**A.C.Abbasova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aysnabbasova382@gmail.com***

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAĞLARIN SOSİALLAŞMASINDA TOLERANTLIQ MƏDƏNİYYƏTİ

***Xülasə***

*Məqalədə məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında tolerantlıq mədəniyyətinin rolundan bəhs olunur. Eyni zamanda, tolerantlıq mədəniyyətinin formalaşmasında ailənin və məktəbəqədər müəssisənin yeri vurğulanır. Ailənin və məktəbəqədər müəssisənin qarşısında duran ən əsas vəzifələrdən biri də hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirməkdir. Tolerantlıq mədəniyyəti olmadan isə bütün bunları təsəvvür etmək mümkün deyil.*

# КУЛЬТУРА ТОЛЕРАНТНОСТИ В СОЦИАЛИЗАЦИИ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Резюме***

*В статье рассматривается роль культуры толерантности в социализации детей дошкольного возраста. при этом подчеркивается место семьи и дошкольного современности в формировании культуры толерантности. Одной из главных задач, стоящих перед семьей и дошкольным современником, является воспитание всесторонне развитой личности. А без культуры толерантности невозможно представить все это.*

# THE CULTURE OF TOLERANCE İN THE SOCİALİZATİON OF PRESCHOOL CHİLDREN

***Summary***

*The article deals with the role of the culture of tolerance in the socialization of children of preschool age. at the same time, the role of the family and preschool institution in the formation of a culture of tolerance is emphasized. One of the main tasks facing the family and the preschool contemporary is the upbringing of a comprehensively developed personality. And without a culture of tolerance, it is impossible to imagine all this.*

Şəxsiyyətin formalaşması mexanizmi və prosesi Sosiologiyada “sosiallaşma” anlayışı vasitəsilə izah olunur. Sosiallaşma, latınca-ictimai və sosialist mənalarını ifadə edir. Şəxsiyyətin inkişafı, cəmiyyətə, ictimai birliyə, kollektivə, qrupa xas olan sərvətlərin, normaların, davranış nümunələrinin öyrənilməsi və mənimsənilməsi prosesidir. Mənimsəmənin əsasında sosial keyfiyyətlərin, xüsusiyyətlərin, davranış formalarının, bacarıqların

formalaşması dayanır. Bu sosial keyfiyyət, davranış formalarından biri də tolerantlıqdır. Bəs tolerantlıq nədir? Onun sosiallaşma prosesinə nə kimi təsiri var?

Dünyada gedən qloballaşma prosesləri ikiqütblü dünyamızı birqütblü halına gətirmişdir. Dünyada yaşayan insanlar da fərqli fikirli, dünyagörüşlü, müxtəlif mədəniyyətlərə, etnik qruplara, adət-ənənələrə sahib şəxslərdir. Dinindən, dilindən, etnik mənsubiyyətindən, sosial mövqeyindən asılı olmayaraq hər bir kəsin fərqli ifadə tərzinə hörmətlə yanaşmaq, onun fikirlərinə ziddiyyət təşkil etməsinə baxmayaraq dözümlü münasibət nümayiş etdirmək tolerantlıqdır. Tolerantlıq öz dəyərlərindən uzaqlaşmaq, başqaları kimi olmaq demək deyil, əksinə başqalarını olduğu kimi qəbul etmək, fikirlərinə hörmətlə yanaşmaqdır. Daha dəqiq desək tolerantlıq fərqliliyi zənginliyə, müzakirələri inkişafa, iğtişaşları sülhə, fərdiyyətçiliyi harmoniyaya aparan ən əsas amildir. Bu söz latın dilindəki “tolerare” feilindən götürülmüş, “dözmək, tab gətirmək, fikir verməmək, səbirli olmaq, göz yummaq” kimi mənaları ifadə edir. İnsanların olduğu hər yerdə həmişə fikir müxtəlifliyi olub və olacaq. Əsas qayda bu fərqliliyə münasibətdir. Tolerantlıq fərqli fikir, inam, əqidə və dünyagörüşlərinə qarşı münasibətdə insanın mədəniyyət səviyyəsinin ölçüsüdür. Şəxsiyyətin formalaşmasında, inkişafında onu təəssübkeşlikdən uzaqlaşdıran, radikallıqdan xilas edən ictimai amildir.

Elmin və texnikanın sürətlə inkişaf etdiyi bir dövrdə yetişməkdə olan gənc nəslin tolerantlıq ruhunda tərbiyə olunması ən başlıca vəzifələrdəndir. Xüsusilə də çoxmillətli, müxtəlif mədəniyyətlərə malik xalqların yaşadığı ölkəmizdə uşaqların bu yönümdə tərbiyə olunması, sosiallaşması prioritet məsələlərdəndir. Günü-gündən çiçəklənən cəmiyyətimizdə tolerantlıq mədəniyyəti xüsusi əhəmiyyət kəsb etməklə, həm əxlaqi dəyər kimi, həm də sosial fəaliyyət kimi çıxış edir. İnsan bioloji varlıq olmaqla yanaşı, həmçinin sosial bir varlıqdır. O, fiziki inkişaf baxımından təbiət qanunlarına tabe olmaqla yanaşı özünü inkişaf etdirmə, özünü tərbiyələndirmə, özünü yönləndirmə, iradəli olmaq, fikirlərini ifadə etmək bacarığına sahibdir. Buna görə də uşaqları hələ erkən dövrlərdən etibarən tolerantlıq ruhunda tərbiyə etmək olduqca vacibdir. Tolerantlıq mədəniyyəti həyatın bütün sosial sferalarında özünü göstərən bir prosesdir. Uşağın bir şəxsiyyət kimi formalaşmasında, sosiallaşmasında tolerantlıq mədəniyyəti hələ erkən dövrlərdə yaranmağa başlayır. Lakin bu davranış mədəniyyəti öz-özünə gedən, inkişaf edən bir proses deyil. Məktəbəqədər yaşlı uşaqlarda tolerantlığın formalaşdırılmasında onları əhatə edən aləm, mühitin böyük rolu vardır. Bu mühitə ailə, məktəbəqədər müəssisə, yaxın qohumların əhatəsi, kütləvi informasiya vasitələri və s. daxildir. Məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında tolerantlıq mədəniyyətinin düzgün şəkildə aşılanması prosesi nə qədər sistemli, ardıcıl və müntəzəm şəkildə aparılarsa, o qədər yüksək nəticələr almaq

mümkün olar. Əgər biz, həqiqətən, xuliqanlıqlara, qəddarlığa, irqçiliyə, dözümsüzlüyə, nifrətə son qoymaq istəyiriksə, şüurlu şəkildə tolerantlığı modelləşdirməli və tərbiyə etməliyik. Uşaqlarımızın hələ kiçik yaşlarından evlərimizdə, məktəbəqədər müəssisələrimizdə, mərhəmət və empatiya tərbiyə etmək üçün elm tərəfindən dəstəklənən üsullardan istifadə etməliyik. Belə etsək, uşaqlara özlərindən fərqli olan insanları qiymətləndirməyə və onlara hörmət etməyə kömək edə bilərik.

Tolerant şəxsiyyətin yetişməsində ailənin rolunu danmaq olmaz. Şəxsiyyətin əsasını qoyan cəmiyyətin əsas strukturu elə məhz ailədir. Uşaq dünyaya ailədə göz açır, ailə onun həyatının əsas bir hissəsinə çevrilir. Məhz uşaq ilk tərbiyəni ailədə alır, burada ilkin sosial təcrübəyə yiyələnir, şəxsiyyət kimi formalaşır, inkişaf edir və sosiallaşırlar. Ailədə valideynlərin bir-birinə eləcə də uşağa qarşı olan münasibəti tərbiyə prosesində ən mühüm şərtlərdəndir. Ailədaxili münaqişə, şiddət, kobudluq içərisində böyüyən uşaq sosiallaşmada, özünü inkişaf etdirmədə və cəmiyyətin fəal bir üzvi olmaqda çətinlik çəkir. Sevgi, hörmət, qayğı, səmimiyyət olan mühitdə böyüyən uşaq isə şübhəsiz ki, gözəl əxlaqi keyfiyyətlərə, davranış mədəniyyətinə sahib olan bir şəxsiyyətə çevrilir. Bunun üçün də valideynlər uşağı tərbiyələndirməzdən öncə maariflənməli, özünütərbiyə ilə məşğul olmalıdırlar. Ailədə uşaqların tolerantlıq ruhunda tərbiyə olunması üçün bir sıra qaydalara əməl olunmalıdır.

1. Valideynin şəxsi nümunəsi. Yuxarıda da qeyd edildiyi kimi valideyn uşağı düzgün tərbiyə etmək üçün ilk özünü tərbiyə ilə məşğul olmalıdır. Görkəmli pedaqoq A.S.Makarenko yazırdı: “Siz uşağınızı yalnız onunla danışanda və ya onu öyrədəndə, yaxud ona əmr verəndə tərbiyələndirmirsiniz. Siz onu həyatınızın hər bir anında, hətta evdə olmadığınız zamanda da tərbiyə edirsiniz. Siz necə geyinirsiniz, başqa adamlarla və başqaları haqqında necə danışırsınız, necə sevinir, necə kədərlənirsiniz, dostlar və düşmənlərlə necə rəftar edirsiniz və s. bütün bunların uşaq üçün böyük əhəmiyyəti vardır. Uşaq sizin həyatınızın ahəngindəki ən kiçik dəyişiklikləri görür, yaxud hiss edir, sizin fikrinizin bütün dönüşləri gözə görünməyən yollarla ona çatır, siz bunları görmürsünüz". Göründüyü kimi böyük pedaqoq da böyüməkdə olan gənc nəslin tərbiyəsində ailənin şəxsi – nümunəsinin necə önəmli bir rolu olduğunu qeyd edirdi. Ailə övladına elə bir tərbiyə verməlidir ki, onun gələcəkdə hansısa bir yaşda yenidən tərbiyələndirilməsinə ehtiyac qalmasın. Elə bir övlad yetişdirilməlidir ki, o gələcəkdə cəmiyyət üçün faydalı bir şəxsiyyət olsun, cəmiyyət üçün ağır bir yükə çevrilməsin.

2. Qərəzli sterotiplərə qarşı gəlmək. Bir məsələyə, ya da bir şəxsə qarşı pis niyyət və ədavətlə, şüurlu şəkildə və qeyri-obyektiv yanaşmaya qərəz deyilir. Bir şəxsə əks arqumentlər, məsələnin doğru və əsl mahiyyəti göstərildiyi halda, o yenə fikrini dəyişmir və ilkin qərarında qalırsa, bu artıq həmin şəxsin qərəzli olduğunu göstərir. Qərəz digər insanlara və sosial qruplara, millətlərə qarşı

dözümsüz, ədalətsiz və ayrı-seçkili bir münasibət bəsləməkdir. Yaşadığımız cəmiyyət, kasta, din, milliyyət, cins və s. sterotiplər müxtəlif qərəzlərlə doludur. Bəzən valideynlər də şüursuz şəkildə uşaqların bu sterotiplərə inanmasına şərait yaradırlar. Lakin bu düzgün yanaşma deyil. Valideyn uşağa nəyin doğru, nəyin yalnış olduğunu izah etməli və uşağın düzgün yön tapmasında kömək göstərməlidir.

3. Başqalarının hüquq və azadlıqlarına hörmət hissi. İnsan haqqlarının əsas məğzi ondan ibarətdir ki, bütün insanlar eyni hüquqa malik olmalıdırlar və bu hüquqlar izahata ehtiyac duyulmadan hər kəsə aid edilir. Hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları və azadlıqları vardır. Bu hüquq və azadlıqlar şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir. Öz hüquq və azadlıqlarını bilən bir şəxs şübhəsiz ki, başqalarının da hüquq və azadlıqlarına hörmətlə yanaşacaq. Bunun üçün də azyaşlıların hələ erkən dövrlərdən etibarən insanların hüquq və azadlıqlarına hörmət hissini formalaşdırmaq ən əsas qaydalardandır.

4. Yeni məkanlar, insanlar, fərqli mədəniyyətlər haqqında öyrənmə imkanı yaratmaq. Uşaqları kitablar, mahnılar, yeməklər, eləcə də mədəni tədbirlər və bayramlar vasitəsilə müxtəlif biliklərlə zənginləşdirmək lazımdır. Bu uşaqlarda dünyagörüşünün formalaşdırılması ilə yanaşı, onda bir sıra şəxsi keyfiyyətlərin yaranmasına da səbəb olar.

5. Davranışı formalaşdırmaq və inkişaf etdirmək üçün müsbət fikirlərdən istifadə etmək. Uşaqlara göstəriş, əmr verməkdən daha çox təklif, məsləhət xarakterli ifadələr işlətmək daha məhsuldar xarakter daşıyır. Bu uşaqlarda öz həmyaşıdlarına, eləcə də böyüklərə qarşı müsbət emosional münasibətlərin yaranmasına şərait yaradar.

6. Dözülməz hərəkətlər gördükdə və ya eşitdikdə müdaxilə etmək. Başqaları ilə ünsiyyət qurmağın ən səmərəli və ən müsbət tərəflərini öyrətmək buraya daxildir. Bu uşaqlarda öz fikirlərini ifadə etməyi, müstəqilliyi və hərəkətlərinə görə məsuliyyət daşımağı formalaşdırır.

Bayaq da qeyd etdiyimiz kimi uşaqlarda tolerantlıq mədəniyyətinin formalaşması və sosiallaşmasında ailənin rolu danılmazdır. Lakin uşaq şəxsiyyətinin hərtərəfli inkişaf etməsi üçün məktəbəqədər müəssisənin də rolunu unutmaq olmaz. Şəxsiyyətin inkişaf etməsində tolerantlığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq tərbiyəçi-müəllimlər milli-mənəvi şüurun inkişaf etdirilməsinə çalışmalı, xalqımıza, mədəniyyətimizə, bütünlüklə milli dəyərlərimizə qarşı uşaqlarda böyük məhəbbət hissi formalaşdırmalı, soy-kökümüz, Azərbaycan xalqının milli-adət məhəbbət hissi aşılamalıdır. Həmçinin Respublikamızda yaşayan azsaylı xalqların dili, dini, etnik mənsubiyyəti, adət-ənənələri, yaşayış məskənləri haqqında məlumatlar verməli, uşaqlarda digər insanların hüquq və azadlıqlarına hörmət, başqalarının dərdinə şərik olmaq, empatiya qurmaq kimi keyfiyyətlər aşılamalıdır. Bu

proses həm tərbiyəçi-müəllimin nəqletməsi üsulu ilə, həmçinin müxtəlif tarixi abidələrə, teatrlara, muzeylərə, kinofilmlərə, ekskursiya və gəzintilərin təşkil olunması üsulu ilə həyata keçirilə bilər. Məsələn, Milli Azərbaycan Tarix muzeyi, Milli Azərbaycan Xalça muzeyi, Arxeologiya və Etnoqrafiya muzeyinə ekskursiyaların təşkil olunması məqsədəuyğundur. Burada uşaqlar dövlətimizin tarixi, adət-ənənələri, milli-mədəniyyət nümunələri, eləcə də azsaylı xalqların adət-ənənələri, tarixi, dili, dini haqqında əvəzsiz məlumatlar əldə edə bilər. Şübhəsiz ki, bu da azyaşlı uşaqların sosiallaşmasında, onların tolerant bir şəxsiyyətə çevrilməsində əvəzsiz rola malikdir.

Məktəbəqədər yaşlı uşaqlarda tolerantlığın tərbiyə olunmasında oyun fəaliyyəti mühüm yer tutur. Çünki oyun məktəbəqədər yaşlı uşaqların fəaliyyətinin əsasını təşkil edir. Oyun zamanı müxtəlif adət-ənənələrlə tanış olmaq, müxtəlif bayram tədbirlərinin keçirilməsi, uşaqların müxtəlif mədəniyyətlərlə tanış olmasına və mədəniyyətlərarası dialoqa əsaslanan sosiallaşmaya gətirib çıxarır. Müxtəlif ölkələrin xalq bayramlarının öyrənilməsi, xalq nağılları personajlarının rollu oyunlarda istifadə olunması, uşaqlarda müxtəlifliklərə hörmət hissinin yaranmasına, tolerantlığın tərbiyə olunmasına səbəb olur. Məsələn, mövsümi bayramlardan olan Novruz bayramının, dini bayramlarımızdan olan Qurban bayramının, yaxud da qonşu ölkələrin bayramlarının öyrənilməsi uşaqlarda müsbət emosional hisslərin formalaşmasına, müxtəlifliklərin qəbul olunmasına, daha dəqiq desək tolerantlıq mədəniyyətinin formalaşmasına gətirib çıxarır.

Böyük pedaqoq C.Lokk deyirdi ki, bütün millətin rifahı uşaqların tərbiyəsindən asılıdır. Bu da şəxsiyyət tərbiyəsi işinin cəmiyyət üçün necə əhəmiyyət kəsb etdiyini bir daha göstərir. Gələcək nəslin tolerantlıq ruhunda tərbiyə olunması, onda tolerant davranış mədəniyyətinin formalaşması, gözəl əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi cəmiyyətin inkişafına, çiçəklənməsinə gətirib çıxarar. Bu iş nə qədər sistemli, müntəzəm şəkildə həyata keçirilərsə, bir o qədər yüksək nəticələr əldə etmək mümkündür.

Beləliklə, məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında əvəzsiz rolu olan tolerantlıq mədəniyyətinin ilk olaraq ailədə təməlinin qoyulması, daha sonra məktəbəqədər müəssisədə davam etdirilməsi yalnız ailə və məktəbəqədər müəssisənin birgə səyi, əməkdaşlığı nəticəsində mümkündür.

### *Ədəbiyyat*

1. *Əmrahlı L. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. Bakı, 2006*
2. *Məmmədova K.Uşaqların davranışı və tolerantlıq mədəniyyəti. Azərbaycan məktəbi, 2014*
3. *https://www.childrensmn.org/educationmaterials/parents/article/7756/teaching-your-child-tolerance*
4. *https://www.parentcircle.com/how-to-teach-tolerance-to-children/article*

**A.B.Yaralıyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aydan.yaraliyeva@mail.ru***

# İNKLUZİV BAĞÇADA ZƏİF GÖRƏN UŞAQLARIN SENSO - MOTOR ÇATIŞMAZLIQLARININ QALDIRILMASI İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Görmə pozulması olan məktəbəqədər yaşlı uşaqlarda öyrənmə proseslərinin qavranılması olduqca yavaş olur. Məktəbəqədər təhsil şəraitində görmə pozulması olan uşaqların tədrisi prosesinin təşkili görmə qabiliyyətinin qorunmasına yardım edən, görmə qavrayışını asanlaşdıran və artan yorğunluğun qarşısını almaq məqsədilə xüsusi şərait də həyata keçirilməlidir.*

# ОСНОВНЫЕ ОСОБЕННОСТИ ПРОВОДИМОЙ РАБОТЫ ПО УСТРАНЕНИЮ СЕНСОМОТОРНОГО ДЕФИЦИТА У СЛАБОВИДЯЩИХ ДЕТЕЙ В УСЛОВИЯХ ИНКЛЮЗИВНОГО ДЕТСКОГО САДА

***Резюме***

*У дошкольников с нарушением зрения восприятие процессов обучения происходит достаточно медленно. Организация учебного процесса детей с нарушениями зрения в дошкольном образовании должна предусматривать специальные условия, способствующие защите зрения, облегчению зрительного восприятия, предупреждению повышенной утомляемости.*

# THE MAİN FEATURES OF THE WORK DONE İN THE DİRECTİON OF REMOVİNG SENSORİ-MOTOR DEFİCİTS OF VİSUALLY İMPAİRED CHİLDREN İN THE İNCLUSİVE KİNDERGARTEN

***Summary***

*In preschool children with visual impairment, the perception of learning processes is quite slow. The organization of the teaching process of children with visual impairments in preschool education should include special conditions that help protect vision, facilitate visual perception, and prevent increased fatigue.*

***Açar sözlər:*** *görmə pozulması, oyunlar, senso - motor, məktəbəqədər uşaq*
***Ключевые слова:*** *нарушения зрения, игры, сенсор - мотор, дошкольник*
***Key words:*** *visual impairment, games, sensor - motor, preschool child*

Görmənin insan həyatındakı rolu əvəz edilməzdir. Demək olar ki, insan ətraf aləm haqqında əsas informasiyanı gözlər vasitəsilə qəbul edir. Görmənin pozulması insan həyatına olduqca mənfi təsirlər göstərir. Görmənin pozulması insanın ilk öncə psixologiyasına, əqlinə, inkişafına və onun bütün gedişatına, senso-motor sistemlərinə mənfi təsiri qaçınılmazdır. Məktəbəqədər yaş dövründə uşaqların motor sahəsi fəal şəkildə inkişaf edir və təkmilləşir, hərəkətlər koordinasiyalı, çevik və inamlı olur. Bu da uşağın praktik fəaliyyət dairəsini əhəmiyyətli dərəcədə genişləndirir, uşaqlarda senso-motor sahənin inkişafını təmin edir.

Məktəbəqədər təhsilin əsas istiqamətlərindən biri olan senso–motor sahə uşağın ümumi psixi inkişafının əsasını təşkil edir və müstəqil fəaliyyət göstərməsində əhəmiyyətli dərəcədə rol oynayır. Məlumdur ki, kiçik məktəbəqədər yaşlı uşaqlar məlumatları öyrənməyə açıq olurlar. Onların yolu məsuliyyətli, çətin, sevincli olur və onlara müxtəlif görüşlər və çoxlu kəşflər gətirir. Uşaqlar nə qədər çox məlumatlara yiyələnirsə, biliklər bir o qədər zəngin olacaq və onların motor bacarıqlarını inkişaf etdirmək bir o qədər asan olacaq və bütün dünyanı öyrənməyi asanlaşdıracaq. Görmə pozulması olan məktəbəqədər yaşlı uşaqlarda öyrənmə proseslərinin qavranılması olduqca ləng olur. Məktəbəqədər təhsil şəraitində görmə pozulması olan uşaqların tədrisi prosesinin təşkili görmə qabiliyyətinin qorunmasına yardım edən, görmə qavrayışını asanlaşdıran və artan yorğunluğun qarşısını almaq məqsədilə xüsusi şəraitdə həyata keçirilməlidir.

Görmə pozulması olan uşaqlarda şəxsiyyətin formalaşması prosesləri öz səciyyəvi xüsusiyyətlərinə görə fərqlənir. Görmənin qorunmasını və inkişafını, xüsusi psixoloji və pedaqoji korreksiya vasitələrinin istifadəsini, işıqlandırma standartlarının artırılmasını, senso-motor və fiziki inkişafı düzəltmək üçün bədən tərbiyəsi tədbirləri və xüsusi oyunların həyata keçirilməsini tələb edir. O cümlədən kitablar iri hərflərlə və aydın işarəli çap edilməli, rəsmlər böyük ölçüdə olmalıdır. Sensor standartlarını mənimsəmək üçün isə hər hansı cismin və ya obyektin, onun xüsusiyyətlərini və keyfiyyətlərini diaqnostika zamanı əllərin hərəkətlərini əlaqələndirmək lazımdır. Müəllimlər uşaqlara fərqlənən rəngləri (qırmızı, sarı, mavi, yaşıl) tanımağa kömək edir. Görməsi zəif olan uşaqlara ətraf aləm haqqında məlumatlara yiyələnməsinə və qavramasına dair xüsusi təlimlər keçirilir. Daimi çox mərhələli öyrənmə təkcə uşaqların sensor təcrübəsinin zənginləşməsi ilə qalmır, həm də vizual qavrayışın inkişafı üzrə işin davamlılığını həyata keçirilməsini təmin edir.

Məktəbəqədər yaş dövründə əzələ gərginliyini fərqləndirmək qabiliyyətinin çox əhəmiyyətli inkişafı baş verir. Bunun sayəsində uşaq bəzi əlaqələndirilmiş simmetrik hərəkətləri, xüsusilə də yuxarı ətrafların hərəkətlərini uğurla mənimsəyir, lakin çarpaz hərəkətlər hələ də böyük

çətinliklər yaratmağa davam edir. 5-8 yaşa qədər olan uşaqlar ilkin şifahi göstərişlərə əsasən kifayət qədər mürəkkəb motor hərəkətləri edə bilirlər. Şifahi təlimat və hərəkətin nümayişini təmin etməklə iradi hərəkətləri yerinə yetirməyi öyrənmək prosesi aydın, əlçatan olmaqla həyata keçirilir.

Hərəkətə nəzarət, özünüidarə bacarıqlarının mənimsənilməsi və düzgünlüyünün artırılması daha uzun bir məşq prosesində və ona daha yüksək idrak proseslərinin daxil edilməsi, daxili hissləri təhlil etmək bacarıqlarının inkişafı ilə həyata keçirilir. Bunun nəticəsində əşyalarla və cisimsiz əl-göz koordinasiyasının inkişafı üçün xüsusi məşqlər, yuxarı və aşağı ətrafların hərəkətlərinin koordinasiyası, bədənin simmetrik əzələ gücünün, bədən hissələrinin inkişafı üçün fiziki məşqlər təşkil olunur. Bu, ətraf aləmə uyğunlaşmanın yaxşılaşdırılmasına və onun daha inamlı inkişafına kömək edir, uşağın fəaliyyətini, statik və dinamik dözümlülüyünü artırır.

Uşaqda hərəkətlər üç səviyyədə həyata keçirilir:

Görmə - digər insanlar tərəfindən hərəkətlərin icrasının qavranılması;

Şifahi - bu hərəkətlərin adlandırılması özünün və ya başqalarının təlimat və ya əmrlərini başa düşmək;

Motor - hərəkətlərin müstəqil icrası.

Zəif görən uşaqların motor çatışmazlıqlarının aradan qaldırılmasına və yaxud zəiflədilməsi istiqamətində görülən işlərə, əsasən, oyunlar daxildir. Aparıcı pedaqoji vasitə olan oyunun uşaqların həyatının təşkilinin əsas forma və məzmunu olduğunu, oyunun kiçik məktəbəqədər uşaqların ən sevimli və təbii fəaliyyəti olduğunu nəzərə alaraq oyun fəaliyyəti vasitəsilə uşaqların ətraf aləmi dərk etməsinə imkan verir.

Senso-motor oyunlar zamanı uşaqlarda aşağıda qeyd edilən istiqamətdə iş həyata keçirilir:

- Sensor funksiyaları olan görmə, toxunma, eşitmə, qoxu bilmə və s. stimullaşdırmaq;
- Motor bacarıqlarının inkişafı, motor fəaliyyətinin stimullaşdırmaq;
- Əzələ və psixo-emosional gərginliyin aradan qaldırılması, uşaqların istirahət və rahat rifah halına nail olunmaq;
- Uşaq fəaliyyətini artırmaq və müsbət emosional fon yaratmaq;
- Koqnitiv prosesləri: qavrayış, diqqət, hafizə, təfəkkür aktivləşdirmək.

Sensor standartların mənimsədilməsi mürəkkəb və uzun prosesdir. Körpəlik dövründə normal inkişaf etmiş uşaqlarda senso-motor inkişafın xüsusiyyətlərinə aşağıdakılar aiddir:

- Ətrafdakı obyektlərə baxış aktı tərtib edilir;
- Tutma formalaşır və əlin hərəkət orqanı kimi inkişafına səbəb olur;
- Görmə - hərəkət koordinasiyası qurulur;
- Ətrafdakı obyektlərin qavranılması, onunla hərəkət və adlandırılması arasındakı fərqləndirmə əlaqələr qurulur.

Sensor mədəniyyət əşyaların rəngini, formasını və digər xassələri haqqında ümumi qəbul edilmiş fikirləri özündə cəmləyir. Zəif görən uşağın hiss mədəniyyəti onun ətraf aləmi hərtərəfli mənimsəməsində böyük rol oynayır. Zəif görən uşaqların sensor inkişafının həyata keçirilməsi üzrə iş təşkili müəllimə imkan verir:

- Müstəqil idrak fəaliyyətinin inkişafı üçün şərait yaratmağa;
- Ən təsirli vasitələri, sensor təhsil üsulları, yenilikləri işləyib hazırlamaq və istifadə etməyə;
- Ətraf mühitə əsaslanaraq hər bir uşağın üfüqlərini genişləndirməyə;
- Məktəbəqədər yaş dövründə olan uşaqların sensor standartlarının və senso–motor inkişafının uğurlu inkişafına təkan vermək.

Zəif görən uşaqlarda sadalanan bu xüsusiyyətlər ləng inkişaf edir.

Senso-motor hərəkət və duyğuları idarə etmə qabiliyyətdir. Bu göz-hərəkət koordinasiyasıdır və senso-motor reflekslər səviyyəsində fəaliyyət göstərir. Məktəbəqədər yaş dövründə motor sahə fəal şəkildə təkmilləşir, lakin görmə pozulması olan məktəbəqədər yaşlı uşaqlarda bu proses zəif və yavaş inkişaf edir. Bu zaman hərəkətlərin koordinasiyasızlıq, çevik və inamlı olmamasından əziyyət çəkir.

Oyun oynayan zaman zəif görən uşaq toxunmağı, qavramağı öyrənir və bütün duyğu standartlarını mənimsəmiş olur. Həmçinin oyun vasitəsilə uşaq müqayisə etməyi, nümunələr qurmağı, müstəqil qərar qəbul və hərəkət etməyi öyrənir, dünyagörünüşünü inkişaf etdirir və araşdırmalar aparmaq bacarığına yiyələnir. Uşaqlar oyun prosesində yaxın ətrafdakı cisimlərə və onların xüsusiyyətlərinə maraq göstərir, onları tanımağa və adlarını öyrənməyə çalışırlar. Oyun uşaqlara:

- Zövq;
- Həyat normaları və qaydaları ilə tanışlıq;
- Həmyaşıdları ilə ünsiyyət;
- Öz emosiyalarını ifadə etmək bacarığı;
- Oyuna görə oyuncaq seçmək bacarığı (mövzu, oyun mühiti, oyun vasitələri, söz, hərəkət, yer);
- Daxili, mənəvi azadlıq (istədiyim yerdə, kiminlə istəyirəm, istədiyim qədər oynayıram) aşılayır.

Kiçik məktəbəqədər yaş dövründə olan zəif görən uşaqlar üçün oyun seçimində əsas diqqət sensor və motor oyunlara yönəldilir. Senso-motor ali psixi funksiyaların daha inkişafına zəmin yaratmasında əsasdır. Xüsusi oyunlar vasitəsilə görmə qabiliyyəti zəif olan məktəbəqədər uşağın praktik fəaliyyət dairəsini əhəmiyyətli dərəcədə genişləndirmək mümkündür.

Senso-motor inkişafa yönəlmiş hissi tərbiyə məktəbəqədər təlimin əsas vəzifələrindən biridir. Zəif görmə pozulması olan kiçik məktəbəqədər yaşlı uşağın hər hansı bir obyektlə tanış olması, onu öyrənməsi üçün həmin obyektə

əlləri ilə toxunmaq, sığallamaq, sıxmaq, vurmaq kimi motor hərəkətləri yerinə yetirmək lazım gəlir. Zəif görən məktəbəqədər yaşlı uşaqlar öz bədənləri və bədənlərinin cüt orqanları, əşyaların məkanda düzülüşü və onların sözlü təyinatları arasında qarşılıqlı əlaqəsi haqqında tam aydın təsəvvürlərə malik olmurlar. Onlarda öz bədənləri, zaman və məkan təsəvvürlərinin qeyri-sabitliyi və parçalanması da müşahidə olunur. Bu da öz növbəsində “özünə” bələdləşməyə, hərəkətləri konkret subyekt və məkan vəziyyətlərinə köçürtməyi mümkünsüz edir. Ətraf aləmin reallığını zəif görən uşaqların qavramasının özəlliyi onların bu aləmi eşitmə, taktil, dəri və digər duyğularla dərk etməsidir. Ətrafdakı cisimlərin əlamətlərini forma, həcm, məkanda yerləşməsini müəyyən etməkdə xüsusi çətinliklər yaşayır.

Görmə sistem digər duyğu sistemləri ilə sıx qarşılıqlı əlaqədə olaraq inkişaf edir. Görmənin toxunma və eşitmə qavrayışı ilə qarşılıqlı əlaqəsi böyük əhəmiyyət kəsb edir. Burada əl toxunma orqanı kimi fəaliyyət göstərir, gözlər isə onun hərəkətinə nəzarət edir və tənzimləyir.

Taktil ətraf aləm haqqında informasiyanın qəbulunda və qavramasında zəif görən uşağın gözlərini əvəz edir. Onların əli təmas vasitəsi kimi ətraf aləmdəki obyektlərin qavranılmasına nə qədər tez başlayarsa, öyrənmə müddətində bir o qədər az çətinlik çəkirlər.

Məkana bələdləşmə uşağın əli ilə tuta biləcəyi obyektlərdən başlayır. Məktəbəqədər yaş dövründə əsas hiss etməklə və tanımaqla yanaşı, uşağı bir obyektlə hərəkət etməyə sövq etmək və ondan istifadə üsulunu mənimsətmək tələb olunur. Yalnız bu formada görməsi zəif olan uşaqlar dünyanı adekvat şəkildə əks etdirməklə yanaşı tanış olduğu obyektlərin əsas xüsusiyyətlərini vurğulaya biləcəklər.

Məlumdur ki, zəif görən uşaqların əksəriyyəti rəng duyumu pozulmuş olur. Uşaqlarda qırmızı, yaşıl və mavi rənglərin qavranılması və fərqləndirilməsində çətinliklər özünü göstərir.

İnklüziv bağçada zəif görən uşaqlarda sosial-mədəni davranış bacarıqlarının formalaşdırılması qarşıya qoyulan əsas vəzifələrdən biridir. Bu proses görmə patologiyası olan məktəbəqədər yaşlı uşaqlarda müxtəlif gündəlik və sadə sosial vəziyyətlərdə, senso-motor inkişafına, həmyaşıdları və böyüklərlə ünsiyyətdə düzgün, müstəqil olmasına yönəlik bir davranışdır. Uşağın həyatının ilk günlərindən hissiyyat inkişafı müxtəlif fəaliyyətlərin uğurla həyata keçirilməsinin, müxtəlif qabiliyyətlərin formalaşmasının və uşağın məktəbə hazırlığının açarıdır. Buna görə də sensor təhsilin sistematik və ardıcıl şəkildə uşağın həyatının bütün anlarında ətraf aləm, əşya, onların xüsusiyyət və keyfiyyətlərini öyrənmək çox vacib bir prosesdir. Görmə qüsuru olan məktəbəqədər yaşlı uşaqlar senso-motor hərəkətlərini normallaşdırmağa yönəlmiş profilaktik və korreksiya inkişafetdirici işlərə böyük ehtiyac duyurlar. Bu iş tam və hərtərəfli olmalıdır. Bir sözlə, uşağın bütün zəifləmiş

funksiyalarına müsbət təsir göstərməklə onun həyatı və inkişafı üçün ən yaxşı şərait yaradılması çox vacibdir.

Zəif görən məktəbəqədər yaşlı uşaqların oyun və görmə fəaliyyəti prosesində məkan, sosial və məişət oriyentasiyası bacarıqlarının formalaşdırılması, senso–motorun bacarıqlarının inkişafı, obyektlərin təsvirlərinin zənginləşdirilməsi və tənzimlənməsi, rəng qavrayışının, diqqət və s. həyata keçirilir. Beləliklə də, görməsi zəif olan məktəbəqədər yaşlı uşaqların gələcəyə, məktəbə hazırlanmasında idrak sahəsinin inkişafı, uşaqlarda müstəqil hərəkət etməsinin formalaşdırılması, ümumi və senso-motor bacarıqlarının inkişaf etdirilməsi və uşaqların nitqinin inkişafı işləri əsas həyata keçirilməlidir.

***Ədəbiyyat***

1. *T.H.Ağayeva "Görmə funksiyalarının pozulması və onların psixokorreksiyası", Bakı. 2018*
2. *T.H.Ağayeva "Görmə funksiyalarının pozulmaları və onların psixo-korreksiyası" Bakı. 2017*
3. *D.Dostuzadə, İ.Quliyeva "Tiflopedaqogika" Bakı. 2012*
4. *Dostuzadə D.Ə. "Sağlamlıq imkanları məhdud uşaqlarla işə dair ibtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalı, 2004*

**X.A.Soltanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***dadaseva99@gmail.com***

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MƏKTƏBƏ FİZİKİ HAZIRLIĞININ ƏHƏMİYYƏTİ

**_Xülasə_**

*Məktəbəqədər yaş dövründə məktəbəqədər yaşlı uşağın ahəngdar şəxsiyyət kimi formalaşmasında fiziki tərbiyə prosesinin düzgün təşkil olunması tərbiyənin digər tərkib hissələri qədər mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrində uşaqların fiziki inkişafına, sağlamlığının qorunmasına və təhlükəsizliyinə xüsusi qayğı və diqqət göstərilir.*

*Müxtəlif xəstəliklərin qarşısını almaq üçün bədənin möhkəmləndirilməsi vacib hesab olunur. Bədənin fiziki möhkəmlədirilməsi profilaktik iş olmaqla, immun sisteminin qüvvətləndirilməsinə xidmət edir.*

# ВАЖНОСТЬ ФИЗИЧЕСКОЙ ПОДГОТОВКИ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА К ШКОЛЕ

**_Резюме_**

*Правильная организация процесса физического воспитания так же важна, как и другие компоненты воспитания в формировании гармоничной личности дошкольника в дошкольном возрасте. Особое внимание и внимание уделяется физическому развитию, охране здоровья и безопасности детей в дошкольных образовательных учреждениях Азербайджана.*

*Считается важным укреплять организм для профилактики различных заболеваний. Физическое укрепление организма является профилактической работой и служит для укрепления иммунитета.*

# İMPORTANCE OF PRESCHOOL CHİLDREN'S PHYSİCAL PREPARATİON FOR SCHOOL

**_Summary_**

*Proper organization of the physical education process is as important as other components of education in the formation of a harmonious personality of a preschool child during the preschool age. Special care and attention is paid to physical development, health protection and safety of children in pre-school educational institutions in Azerbaijan.*

*It is considered important to strengthen the body to prevent various diseases. Physical strengthening of the body is a preventive work and serves to strengthen the immune system.*

***Açar sözlər:*** *fiziki tərbiyə, fiziki sağlamlıq, pedaqoji proses, təlim-tərbiyə*
***Ключевые слова:*** *физическое воспитание, физическое здоровье, педагогический процесс, обучение*
***Key words:*** *physical education, physical health, pedagogical process, training*

Məktəbəqədər yaş dövründə məktəbəqədər yaşlı uşağın ahəngdar şəxsiyyət kimi formalaşmasında fiziki tərbiyə prosesinin düzgün təşkil olunması mühüm əhəmiyyət kəsb edir. Təhsil sistemimizə nəzər saldıqda dövlət siyasətinin əsas tərkib hissələrindən biri kimi məhz uşaqların sağlam böyüməsi və fiziki cəhətdən kamilləşməsi nəzərdə tutulduğu bariz şəkildə özünü göstərir.

İnsan həyatında 0-6 yaş aralığı inkişafın ən sürətli şəkildə baş tutduğu dövr hesab olunur, bu dövrdə uşağın tam bir şəxsiyyət kimi təşəkkül tapmasının təməlləri atılır. Bu dövrdə yaşanılan, öyrənilən hər bir şeyin əhəmiyyəti, mahiyyəti böyük hesab olunur.

Qədim türklərdə fiziki tərbiyə prosesi mühüm əhəmiyyət kəsb etmişdir. Qədim türklər at belində köçəri həyat tərzi sürməklə daima savaşlar içərisində olmuşlar. Bununla əlaqədar olaraq qədim türklər uşaqların hələ erkən yaşlarından etibarən fiziki tərbiyə edilməsinə xüsusi qayğı və diqqət göstərmişlər. Türklərin fiziki tərbiyə prosesi öz orjinallığı ilə daima seçilmiş, özünəməxsus mövqeyə malik olmuşdur. “Türk çadırda doğular, at üstündə ölər”- deyə qədim bir misal vardır. Bu qədim türk misalı şücaətin, çevikliyin, cəsurluğun, möh-kəm iradənin bizim qanımızda, ruhumuzda olduğunun təcəssümüdür.

Oğuz türklərinin bir budağı olan Azərbaycan xalqı hələ də fiziki sağlamlığa böyük əhəmiyyət verir, yetişməkdə olan nəslin fiziki tərbiyəsinə xüsusi qayğı ilə yanaşılır. Sağlamlığı bütün dünya nemətlərindən üstün sayan xalqımızın bu barədə bir sıra dəyərli Atalar sözləri də vardır: “Sağlıq-ən böyük varlıqdır”, “Neynirəm o qızıl teşti ki, içinə qan qusam”, “Hər işin başı sağlıqdır”, “Sağlıq varlıqdan irəlidir” və s.

Fiziki tərbiyə pedaqoji prosesin ayrılmaz tərkib hissəsidir. Bu proses insan orqanizmində mənfi amillərə qarşı müqaviməti artıran ən təsirli mübarizə üsuludur. Fiziki tərbiyə ilə məşğul olan kəslərdə çeviklik, elastiklik, güclülük, dözümlük, sürət, elastiklik kimi fiziki keyfiyyətlər formalaşır, bədəncə möhkəmləşirlər. Fiziki tərbiyə ilə müntəzəm məşğul olunduğu zaman ali sinir sistemi təkmilləşir, qanda maddələr mübadiləsi sürətlənir, qan oksigenlə təchiz olunur, nəfəs aparatı möhkəmlənir (4, s.370).

Qloballaşan dünyada uşaqların fiziki cəhətdən sağlam olması ən vacib və diqqətə alınması gərəkli olan məsələlərdən biridir. 2000-ci illərdə baş vermiş olan bir hadisə idmanın insan sağlamlığına xidmət edən, insan həyatına təsiri

çox böyük olan bir faktor olmasını əyani şəkildə sübut etmişdir. Cinayətkarlıq səviyyəsi çox yüksək olan bir Hindistan kəndində son dövrlərdə bu cinayətkarlığın sayı aşağı düşmüşdü. Bu hadisə dövlər rəsmilərinin marağını cəzb edir və bunu araşdırmaq üçün bir heyət təyin edilir. Dövlət rəsmiləri tərəfindən göndərilən heyətin araşdırmaları nəticəsində məlum olur ki, kənddən olan bir tələbə kəndin camaatına şahmat oyununu öyrətmişdir. Bundan sonra kəndin camaatında şahmat oyununa qarşı maraq o qədər artmışdır ki, kənddə olan hər kəs öz aralarında yarış keçirərək şahmat oynamağa başlamışlar. Bu hadisə idmanın insan psixologiyasına müsbət təsirinə dair nümunə hesab oluna bilər. Belə ki, bu hadisədən sonra kənddə olan zorakılıq, quldurluq və s. bu kimi yanlış hadisələrin sayı azalmışdır.

Azərbaycan Respublikasında məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkili “Məktəbəqədər təhsilin proqramı (kurikulumu)” əsasında təşkil olunur. Bu proqrama əsasən təlim-tərbiyə işinin təşkili 4 inkişaf sahəsi əsasında aparılır:

1. Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik
2. İdrakın inkişafı
3. Estetik və yaradıcı inkişaf
4. Sosial-emosional inkişaf

Azərbaycanda məktəbəqədər təhsil müəssisələrində uşaqların fiziki inkişafına, sağlamlığının qorunmasına və təhlükəsizliyinə xüsusi qayğı və diqqət göstərilir. Uşaq sağlamlığının möhkəmləndirilməsi və orqanizmin xəstəliklərə, viruslara qarşı müqavimət hissinin yüksəldilməsilə bağlı tədbirlər həyata keçirilir.

Məktəbəqədər təhsil müəssisələrində fiziki tərbiyə məşğələlərinin səmərəli təşkil edilməsi tərbiyəçilərin öhdəliyində duran əsas vəzifələrdəndir. Bunun üçün tərbiyəçi təlim proqramını yaxşı bilməli və təlim metodiklarından səmərli istifadə etməyi bacarmalıdır. Bununla yanaşı gərəkdir ki, tərbiyəçi uşaqların fərdi və yaş xüsusiyyətlərinə bələd olsun.

Uşaqların orqanizminin inkişafı hər yaşda fərqli getdiyi üçün onların yaş xüsusiyyətlərini bilmək fiziki tərbiyə məşğələlərinin daha səmərəli keçməsi üçün mühümdür. Bu haqda P.F.Lesqaft yazırdı: “Bizim hərəkət və təsirlərimiz cavan bədənə yalnız o zaman şüurlu və düşüncəli ola bilər ki, biz bədəndə olan dəyişikliyi bilək, onu başa düşək. Yalnız bundan sonra uşaqların fiziki və əqli inkişafına şüurlu və ciddi təsir edə bilərik. Əks halda bizim təsirlərimiz etibarsız, bəzən də zərərli ola bilər” (4, s.63).

Fiziki tərbiyə üzrə məşğələlərin aparılması məktəbəqədər təhsil müəssisələrində həftədə 3 dəfədən az olmayaraq həyata keçirilir. Uşaqların yaşına uyğun fiziki tərbiyə məşğələlərinin müddəti körpələr qrupu üçün 15 dəqiqə, orta qrup üçün 20 dəqiqə, böyük qrup üçün 25 dəqiqə, məktəbəhazırlıq qrupu üçün 30 dəqiqə təyin edilmişdir.

Məktəbəqədər təhsil müəssisələrində təşkil edilən fiziki mədəniyyət məşğələləri 3 hissədən ibarətdir:

1) Giriş hissə
2) Əsas hissə
3) Yekun hissə

Məktəbəqədər təhsil müəssisələrində fiziki tərbiyə məşğələləri müxtəlif vasitələrlə həyata keçirilir. Bu vasitələri iki qrupa ayırmaq olar:

1. Təbii və gigiyenik amillər
2. Fiziki təmrinlər

Təbii və gigiyenik amillərə düzgün yuxu rejiminin olması, təmiz havanın qəbul edilməsi, səmərəli qidalanmanın təşkili, gigiyenik şəraitin təmin olunması aid edilir.

Uşağın sağlamlığının təmin olunması üçün rejim əsas fiziki tərbiyə vasitəsidir. Uşağın sağlamlığı onun qidalanmasından, yatmasından, vaxtında oyanmasından və s. kimi fəaliyyətlərin düzgün bölüşdürülmüş vaxt ərzində növbələşdirilməsindən asılıdır. Əgər uşaq lazımi qədər yatmazsa, onun qanında spesifik hormonların yaranması dayanaraq inkişafını ləngidər. Uşağın rejimə düşməsi ondan qüvvə tələb edir, lakin düzgün qurulmuş rejim əsasında uşağın sinir sistemi möhkəmlənir, dayanıqlılığı artır. Tərbiyəçi məşğələlər zamanı uşağın yorulmamasına çalışmalıdır. Bu səbəblə, oyun və məşğələlər növbələşdirilməlidir. K.D.Uşinski öz pedaqoji əsərlərinin birində bu məsələyə toxunaraq belə qeyd edir: "Uşaq təbiətinin əsas qanununu belə ifadə etmək olar: uşaqlar dayanmadan fəaliyyət tələb edirlər və onlar fəaliyyətdən yox, onun eyniliyindən və birtərəfli olmasından yorulurlar. Uşağı oturmağa məcbur et - o, çox tez yorulacaq. Uzanması – yenə o cür, o, uzun müddət danışmaya bilmir, hər şey haqqında uzun müddət fikirləşə bilmir, lakin o bütün günü gülüb oynayır, hərəkət edir, fəaliyyətini tez-tez dəyişdirir, bir dəqiqə belə yorulmur, sonrakı günə yeni qüvvət yaratmaq üçün uşağın lazımi qədər möhkəm yuxusu olur" (6, s.169).

Uşaqların hər gün təmiz hava qəbul etməsi üçün şərait yaradılmalı, təmiz havaya çıxarılmalıdır. Gəzintiyə çıxarılmazdan öncə uşaqlar mövsümə və hava şəraitinə uyğun olaraq düzgün geyindirilməlidirlər. Təmiz hava oksigen yollarını təmizləyərək tənəffüs, həmçinin ürək-damar xəstəliklərinin qarşını alır, xüsusilə yay mövsümündə uşaqların günəşin şüaları altında D vitamini qəbul etməsi sümüklərinin möhkəmlənməsi üçün faydalıdır. Gəzintilər zamanı təşkil edilən oyunlar uşaqda xoş əhval ruhiyyə yaradaraq fəaliyyətini stimullaşdırır. Həmçinin ətrafda gördükləri uşağın marağını cəzb edərək diqqətini və görmə bacarığını inkişaf etdirir.

Sağlamlıq üçün əsas şərtlərdən biri də qidalanma rejimidir. Qida rejiminin pozulması orqanizmdə maddələr mübadiləsinin pozulmasına səbəb olaraq bir sıra xəstəliklərin yaranmasına gətirib çıxarır. Qidalanma zamanı

qidaların tərkibinə diqqət yetirilməlidir. Uşaq bol-bol tərəvəz, meyvə və yaşıllıq qəbul etməlidir. Tərkibi zülallarla zəngin olan qidalardan istifadə edilməlidir, orqanizm üçün zülalın faydası çoxdur. Karbohidratlar güclü enerji mənbəyi olduğu üçün qida rasionundan karbohidratları və yağları tamamilə çıxartmaq yanlış addımdır. Qidaların tərkibindəki faydalı maddələrin qorunması üçün yeməklərin buxarda hazırlanması daha məsləhətlidir. Bundan başqa sulu yeməklərin qida rasionuna daxil edilməsi mədə-bağırsaq, həzm sistemi üçün faydalıdır.

Fizioloqlar qida rejiminə əməl etməyin inkişafda olan uşaq orqanizmi üçün zəruri olduğunu vurğulayaraq müəyyən etmişlər ki, 3-6 yaş aralığında olan uşaqlar gün ərzində 4 dəfə olmaqla 3.5-4 saat aralıqla qidalanmalıdırlar.

Uşaq orqanizminin möhkəmləndirilməsində fiziki təmrinlərin rolu böyükdür. Məktəbəqədər yaşlı uşaqların fiziki təmrinləri, əsasən 4 qrupa bölünür:

1. Hərəki oyunlar
2. Gimnastika
3. İdman
4. Uşaq turizmi (2, s.156).

Müxtəlif xəstəliklərin qarşısını almaq üçün bədənin möhkəmləndi-rilməsi vacib hesab olunur. Bədənin fiziki möhkəmlədirilməsi profilaktik iş olmaqla, immun sisteminin qüvvətləndirilməsinə xidmət edir. Əksinə əgər fiziki tərbiyə işləri ilə məşğul olunmazsa, həm bədən passivləşər, həm də orqanizmin müdafiyə mexanizmi zəifləyər.

Fiziki tərbiyə işləri fasiləsiz, sistemli və davamlı şəkildə təşkil olunmalıdır. Əgər bu prosedurlar 2-3 ay ərzində aparılmış və sonradan davam etdirmək dayandırılmışsa, uşaq orqanizmi 5-7 gün ərzində öz möhkəmliyini itirmiş olur. Daha sonra orqanizmi möhkəmləndirmək üçün isə prosesə yenidən başlamaq gərəkli hesab edilir (1, s.19).

XVIII əsr Fransız filosofu fiziki tərbiyənin uşaq şəxsiyyətinin ahəngdar inkişafında fiziki tərbiyə məşğələlərinin vacibliyinə toxunaraq qeyd edirdi: “Siz şagirdinizdə ağıl əmələ gətirmək istəyirsinizsə, ağıl idarə edəcək qüvvəni təmin etdirin, onun bədənini təkidlə inkişaf etdirin, onun ağıllı, dərrakəli olması üçün onu möhkəm və sağlam edin” (6, s.152).

Məktəbəqədər təhsil müəssisəsində fiziki tərbiyə məşğələlərinin düzgün qurulmasının əhəmiyyəti aşağıdakılardan ibarətdir:

- Uşağa həyat tərzi üçün mühüm olan fiziki aktivliyi qazandırır.
- Əzələ qüvvəti, dözümlülük, koordinasiya, çeviklik kimi mühüm bacarıqlarını inkişaf etdirir.
- Uşağın qamətinin düzgün formalaşmasına kömək edir.
- Kiçik və böyük motorikanın inkişafına təsir göstərir.

- Mütəhərrik oyunlar keçirilən zaman yoldaşlarına hörmət etməyi, məğlubiyyət və qalibiyyəti qəbul etməyi öyrədir, tolerantlıq və işbirliyi qazandırır.
- Diqqəti mərkəzləşdirmək, problem həlletmə, yaradıcılıq və xəyal gücünü istifadə etmə bacarıqlarını formalaşdırır.
- Aqressiya hissini pozitiv istiqamətə yönləndirilməsini təmin edir.
- Mütəhərrik oyun prosesində uşağın yaşadığı sevinc, həyəcan və nailiyyət uşağın özgüvənini inkişaf etdirməsinə kömək edir.
- Uşaq verilən təlimatlara riayət etmək vərdişlərinə yiyələnər.

***Ədəbiyyat***

1. *file:///C:/Users/Dell/Downloads/fiziki-tarbiya.pdf*
2. *Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı, Nasir, 2000.*
3. *https://e-qanun.az/framework/43192*
4. *Kazımov N.M. Məktəb Pedaqogikası. VI nəşr, Bakı, Çıraq, 2011.*
5. *Quliyev B., Fiziki tərbiyənin nəzəri-metodik və praktik işlərinin əsasları. Bakı, ADPU, 2009.*
6. *Mursaqulova R.,Rüstəmova N. Məktəbəqədər pedaqogika. Bakı, 2012.*
7. *Sadıqova T. Uşaq bağçasının böyük qrupunda fiziki mədəniyyət məşğələləri. Nərgiz, 2009.*

**F.Ə.Qasımova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***Fatime.gasimova.95@mail.ru***

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN NİTQİNİN İNKİŞAFINDA NAĞILLARIN ƏHƏMİYYƏTİ

***Xülasə***

*Azərbaycan uşaq folklorunun epik növ qrupuna aid olan nağıl uydurma hadisələrə əsaslanan xalq yaradıcılığı növüdür. Mütəxəssislər nağılların 2 əsas növünü ayırd edirlər: xalq və müəllif nağılları. Folklor nağılları qədim zamanlardan bugünümüzə qədər ağızdan ağıza ötürülərək gəlib çatan nağıllardır. Müəllif nağılları isə müəyyən bir şəxs tərəfindən yazılmış tam hüquqlu ədəbi əsər hesab edilir. Məktəbəqədər tərbiyə müəssisələrində xalq nağıllarının kiçik yaşlı uşaqlara çatdırılması tərbiyəçi müəllimələrdən ustalıq və məharət tələb edir. Çalışan hər bir tərbiyəçi bilməlidir ki, onun nəql etdiyi hadisə emosional, canlı, real səsləndi-rilməlidir. Tərbiyəçi müəllimə nağılın mətnini əzbər bilməli, məqsəd və ideyasını aydın izah etməyi bacarmalı, sonra isə uşağa olduğu kimi çatdırmalıdır.*

# ЗНАЧЕНИЕ СКАЗОК В РАЗВИТИИ РЕЧИ ДОШКОЛЬНИКОВ

***Резюме***

*Сказка, относящаяся к эпической группе азербайджанского детского фольклора, представляет собой вид народного творчества, основанного на вымышленных событиях. Специалисты выделяют 2 основных вида сказок: народные и авторские сказки. Народные сказки - это сказки, которые передавались из уст в уста с древних времен до наших дней. Авторские сказки считаются полноценным литературным произведением, написанным определенным лицом. Подача народных сказок детям раннего возраста в дошкольных образовательных учреждениях требует от воспитателей мастерства и умения. Каждый работающий педагог должен знать, что история, которую он рассказывает, должна быть эмоциональной, яркой и реалистичной. Воспитатель должен знать текст рассказа наизусть, уметь доходчиво объяснить учителю его цель и идею, а затем передать ребенку как есть.*

# IMPORTANCE OF FAİRY TALES İN THE DEVELOPMENT OF SPEECH OF PRESCHOOL CHİLDREN

***Summary***

*A fairy tale belonging to the epic group of Azerbaijani children's folklore is a kind of folk art based on fictitious events. Experts distinguish 2 main types of fairy tales: folk tales and author's tales. Folk tales are tales that have been passed down by*

*word of mouth from ancient times to the present day. Author's fairy tales are considered a full-fledged literary work written by a certain person. The presentation of folk tales to young children in preschool educational institutions requires skill and skill from educators. Every working teacher should know that the story he tells must be emotional, vivid and realistic. The teacher must know the text of the story by heart, be able to clearly explain to the teacher its purpose and idea, and then pass it on to the child as it is.*

***Açar sözlər:*** *nağıl, nitq inkişafı, atalar sözü, məşğələ, nümunələr*
***Ключевое слово:*** *сказка, развитие речи, пословица, упражнение, примеры*
***Key words:*** *story, speech development, proverb, exercise, examples*

Məktəbəqədər yaşlı uşaqların ümumi inkişaf xüsusiyyətləri içərisində nitqin xüsusi və əvəzsiz rolu vardır. Nitq uşağın anadan olduğu dövrdən başlayaraq ömrünün sonuna qədər davam edən mürəkkəb bir prosesdir. Hələ körpələrin qığıldaması, əlləri ilə nəyəsə işarə etməsi və digər bu kimi hərəkətlər nitqin inkişafının ilkin əlamətləridir. (8, s.13)

Çağdaş dövrümüzün aktual mövzularından biri də məktəbəqədər yaşlı uşaqlarda nitqinin düzgün şəkildə inkişafıdır. Nitqə əsaslı şəkildə yiyələnmək isə məhz məktəbəqədər yaş dövrünə təsadüf edir. Məlumdur ki, məktəbəqədər yaş dövrü əsasən 0-6 yaşları əhatə edir. Uşaqlarda idrak proseslərinin düzgün şəkildə inkişafı nitqin də düzgün formada inkişaf etməsinə zəmin yaradır. Nitq müxtəlif yol və vasitələrlə formalaşır. İnsanın nitqinin aydın, ifadəli, səlis olması məhz bu dövrdəki inkişafla birbaşa olaraq bağlıdır. Nitqin inkişaf etdirilməsində xalq yaradıcılığı nümunələrindən olan nağılların əhəmiyyətinə diqqət çəkmək istəyirəm. Təcrübə göstərir ki, uşaq bağçalarında pedaqoji məqsədlərlə istifadə edilən folklor nümunələrindən ən xarakterik olanı nağıllardır. “1001 gecə” kitabının giriş hissəsində böyük yazıçı M.Qorki nağıllar barədə belə fikir bildirmişdir: “Dünyada elə bir şey yoxdur ki, onu öyrənmək qeyri-mümkün olsun, elə nağıl da yoxdur ki, onda didaktik material olmasın. Şəxsən deməliyəm ki, nağıllar mənim əqli inkişafıma tamamilə müsbət təsir göstərir.” (6, s.44)

Azərbaycan uşaq folklorunun epik növ qrupuna aid olan nağıl uydurma hadisələrə əsaslanan xalq yaradıcılığı növüdür. Mütəxəssislər nağılların 2 əsas növünü ayırd edirlər: xalq və müəllif nağılları.

Folklor nağılları qədim zamanlardan bugünümüzə qədər ağızdan ağıza ötürülərək gəlib çatan nağıllardır. Müəllif nağılları isə müəyyən bir şəxs tərəfindən yazılmış tam hüquqlu ədəbi əsər hesab edilir. Azərbaycanın görkəmli mütəfəkkirlərindən olan Nizami Gəncəvinin işləyərək yazdığı nağılların 1941-ci ildən etibarən nəşrinə başlanılmışdı. Nəşr olunan nağıllara

"Fitnə", "Sehrli üzük", "İskəndər və Çoban", "Xeyir və Şər" və s. nümunə göstərmək olar.

Qeyd olunanlardan əlavə, onu da vurğulamaq yerinə düşər ki, son illərdə məktəbəqədər yaşlı uşaqlar üçün müasir yazıçılar tərəfindən Azərbaycan xalq nağıllarının da nəşri təqdirəlayiq haldır. Nağıllar əsasən nəsrlə, çox nadir hallarda isə şeirlə yaradılır. Nağılların məzmununda xalqın həyatı və azadlıq uğrunda mübarizəsi, adət-ənənələri, arzu və istəkləri əks etdirilir. Nağıl uşağı əvvəlcədən qarşılaşacağı vəziyyətlərə hazırlamaqla yanaşı, eyni zamanda ona gündəlik mövcud olan problemləri necə həll etməyin yollarını da öyrədir. Nağıl vasitəsilə uşaqlar dünya və kainat haqqında məlumatlara yiyələnirlər, cəsarət və qorxaqlıq, dostluq və xəyanət, yaxşı və pis anlayışları ilə tanış olur, həmçinin həyati nümunələrdən götürülmüş reallıqlarla qarşılaşırlar. Folklorun bu növündə sonluq nikbin olur - Xeyir şərə, yaxşı pisə hər zaman qalib gəlir. Uşağa yaxşı və pis kimi insani keyfiyyətləri real həyat hadisələri ilə əlaqələndirən, sosial və əxlaqi dəyərləri təbliğ edən nağıllar uşaqların yaddaşına daha güclü təsir edərək uzunmüddətli hafizələrində qalır.

Nağıllar uşaqlara mərdlik, əməksevərlik, dostluq kimi müsbət keyfiyyətlər formalaşdırdığı kimi, qəddarlıq, lovğalıq, xəsislik, tamahkarlıq kimi də mənfi xüsusiyyətlər də aşılayır. Nağıllar uşaqların nitqini inkişaf etdirir. Onlarda rabitəli nitqi formalaşdırır, lüğət ehtiyatını zənginləşdirir, əşya və hadisələrə münasibət formalaşdırır. Məktəbəqədər tərbiyə müəssisələrində xalq nağıllarının kiçik yaşlı uşaqlara çatdırılması tərbiyəçi müəllimələrdən ustalıq və məharət tələb edir. Çalışan hər bir tərbiyəçi bilməlidir ki, onun nəql etdiyi hadisə emosional, canlı, real səsləndirilməlidir. Tərbiyəçi nağılın mətnini əzbər bilməli, məqsəd və ideyasını aydın izah etməyi bacarmalı, sonra isə uşağa olduğu kimi çatdırmalıdır. Bu ardıcıllıq gözlənildikdə uşaq dinlədiyi nağılın həqiqi olduğuna inanacaqdır. Nağılların yaratdığı müsbət emosiya və hisslər gələcəkdə onların etik və estetik inkişafında da özünü göstərir. Nağıllar mövzu və məna baxımından müxtəlifdir. Bu səbəbdən tərbiyəçi nağılları seçərkən uşaqlara aşılanacaq olan xüsusiyyətləri özündə qeyd etməli, ona əsasən hazırlaşmalıdır. İlk öncə nağıllar qruplaşdırılmalıdır. Hansı qrupa hansı nağıllar keçirilməlidirsə, onlar müəyyən olunmalıdır. Məs: Heyvanlar haqqda nağıllar, məişət nağılları, sehrli nağıllar və s.

Qruplaşdırılan nağıllar ardıcıllıq gözlənilməklə söylənilir. Bu zaman onlar hadisə və əhvalatları bütöv və tam şəkildə dərk edərək yadda saxlayırlar. Nağıl üzrə təşkil edilən məşğələlər məzmunundan asılı olaraq, aşağıdakı qaydada keçirilə bilər:

1. **Nağıla başlamazdan öncə nağıla aid şəkillər göstərmək.**
2. **Kiçik şeirlər və ya zəncirləmələr söyləmək.**

Zəncirləmələr - oyun başlamazdan öncə və ya nağıl başlamazdan öncə daxil edilir. Bu ifadələr uşaqları fəallaşdırır, onlarda maraq və həvəs, həmçinin

diqqətlilik, səbrlilik kimi keyfiyyətlər formalaşdırır. Nağıllar zamanı aşağıdakı zəncirləmələrdən istifadə olunur:

- "Altdan geyinib üstdən qıfıllandılar, üstdən geyinib altdan qıfıllandırlar";
- "Çəkib çarığın dabanını,
  Qırıb yerin damarını,
  Dağların dumanıyla
  Yolların qırağıyla,
  Dərələrdən sel kimi
  Təpələrdən yel kimi,
  Az getdilər, üz getdilər,
  Dərə, tərə, düz getdilər,
  Orda deyildim ölcəydim
  İynə yarım yol getdilər."
- "Biri var idi, biri yox idi" və s.

**3. Nağılın adını, hansı xalqa aid olduğunu söylədikdən sonra nəql etməyə başlamaq.**

Tərbiyəçi müəllimə nağılın mətni gedişində onu 1 neçə hissəyə ayırıb danışa bilər. Lakin elə etmək lazımdır ki, mətnin məznunu dəyişilməsin. Tərbiyəçi nağılı obrazların dili ilə danışmalıdır, həmçinin kiçik həcmli nağılları ifadəli və əzbər söyləməlidir. Uşaqlar tərbiyəçi müəllimənin emosiyalarından, mimikalarından müsbət və mənfi hissləri ayırd etməlidirlər. Sonra uşaqlara mətndən çıxan nəticəyə uyğun gələn atalar sözləri söyləmək olar. Nağılın sonunda tərbiyəçi söyləyir: "Göydən 3 alma düşdü, biri nağıl danışanın, biri mənim, biri də uşaqların. "Məşğələlər zamanı uşaqlar səsləndirilən, təqdim olunan nağılları dinlədikcə onlarda yeni söz və ifadələrin yaranmasına şərait yaradır, bildikləri təkrar vasitəsilə möhkəmləndirir, bilmədiklərini isə öyrənməyə başlayır, sözlərin düzgün və ifadəli səsləndirilmə şəklini öyrənmiş olurlar. Tərbiyəçi məşğələ zamanı şəkil təqdim edərək, uşaqların şəklə əsasən nağıl qurmalarını da həyata keçirə bilər. Bu üsul böyük yaşlı qruplarda təşkil edilə bilər. Belə ki, tərbiyəçi - müəllimə (Şəkil 1.) də verilmiş şəkli təqdim edir. Daha sonra təqdim olunan şəklə əsasən uşaqlara aşağıda qeyd olunan sualları verir.



- T: Uşaqlar şəkildə nə görürsünüz?
- U: Uşaqlar, çoxlu qar, ağaclar, uşaqlar, binalar.
- T: Şəkildə hansı fəsil təsvir olunub?
- U: Qış fəsli.
- T: Qış fəslində havalar necə olur?
- U: Soyuq və şaxtalı olur.
- T: Uşaqlar nə edirlər?
- U: Əylənirlər, buz üstə sürüşürlər, qar adamı düzəldirlər və s.
- T: Uşaqlar necə oynayırlar ?
- U: Onlar həvəsli və sevinclə oynayırlar.
- T: Uşaqlar nə ilə sürüşürlər ?
- U: Xizəklə sürüşürlər.
- T: Xizək nədən hazırlanır ?
- U: Xizək dəmir və ya taxtadan hazırlana bilər.

Qeyd: Müəllimə xizək haqqında daha ətraflı şəkildə də izah verə bilər.

Bu ardıcıllıqla sualları daha da artırmaq olar. Uşaqlar suallara cavab verdikcə onların psixi proseslərdən olan nitqi, təfəkkür və təxəyyül anlayışları inkişaf edir, lüğət ehtiyatı zənginləşir, sözlərin mənalarını rahat başa düşmək, sərbəst şəkildə danışmaq, əşya və hadisələrə münasibət kimi xüsusiyyətlər formalaşır. Məşğələnin gedişatı zamanı bu cür dialoqların qurulması onlarda rabitəli nitqin inkişafını artırmaqla yanaşı, nitqlərinin aydın, ifadəli, anlayışlı dildə olmasını təmin edir, digər insanlarla düzgün və səmərəli şəkildə ünsiyyət bacarıqları aşılayır.

Nağıl və hekayələrin səsləndirilməsi zamanı uşağa mətnin məzmunu ilə bağlı düzgün sual vermələri, şəkillərə baxıb, diqqətlə gördüklərini söyləmələri öyrədilir, həmçinin başqa şəkillə, başqa nağılla müqayisələr edərək məzmun uyğunluğunun tapılması da öyrədilməlidir. Bütün bunların düzgün şəkildə icrası uşaqda nağıla, ümumiyyətlə, qruplarla işə, öyrənməyə həvəs yaradacaq, həmçinin öz fikrini sərbəst şəkildə bildirməyi formalaşdıracaqdır.

***Ədəbiyyat***

1. *Əliyeva S.Ə. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafında Azərbaycan xalq nağıllarının rolu ( 1975)*
2. *Əsgərova R. Məltəbəqədər yaşlı uşaqlarda rabitəli nitqin inkişafı (Bakı,2006)*
3. *H. Cəfərli. Oyun zamanı bağça yaşlı uşaqların nitq inkişafı*
4. *Səlimxanova X. Məktəbəqədər tərbiyə müəssisələrində şifahi xalq ədəbiyyatı nümumələrinin öyrədilməsi (Maarif, 1985)*
5. *Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası (Bakı,2013)*

6. *Qədimova Ə.Məktəbəqədər təhsil müəssisələrində bədii nümunələrin öyrədilməsi (Bakı, 2008)*
7. *Развитие речи младших дошкольников в процессе ознакомления с произведениями устного народного творчества. Выпускная квалификационная работа (Екатеринбург 2019)*
8. *Valideyn və mütəxəssislər üçün uşaq inkişafı üzrə tövsiyələr (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, (Bakı,2010)*

**R.M.Muradova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***roya.muradova607@gmail.com***

# İBTİDAİ SİNİFLƏRDƏ MÜƏLLİMLİYİN TƏRBİYƏVİ FƏALİYYƏTİNİN MƏZMUNU

***Xülasə***

*Problemin mahiyyətini geniş şəkildə aydınlaşdırmağa, hər şeydən əvvəl, dünya elmində onun sistemini ciddi şəkildə öyrənməyə ehtiyac yaranır. Son illərdə təhsildə, o cümlədən ibtidai siniflərin proqramında, məzmununda böyük dəyişikliklər aparılır. Aparılan işlərin düzgün istiqamətləndirilməsi üçün bir çox yeni sənədlər toplusu işlənilir. İşlərin məqsədi işlənir və bu istiqamətdə mühüm işlər həyata keçirilir.*

*İbtidai sinif müəllimlərinin pedaqoji-tərbiyəvi fəaliyyətə hazırlanmasının əhəmiyyəti, təhsil müəssisələrində onların hazırlığında atılan addımlar, dərs fəaliyyəti, müasir dövrdə ibtidai siniflərdə müəllimin tərbiyəvi fəaliyyətinin mövcud vəziyyəti, ibtidai siniflərdə müəllimin tərbiyəvi fəaliyyətinin məzmununa verilən tələblər, ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətinin strukturu və digər məsələlər əhəmiyyətlidir.*

*Belə ki, ibtidai sinif müəllimlərinin fəaliyyətə hazırlanması, şagirdlərin bilik və bacarıqlara yiyələnmələri üçün rolu, onlarda tələb olunan bacarıqları təkmilləşdirmək üçün sinif rəhbərinin rolu  əsas götürülür.*

*Təhsildə, ibtidai siniflərdə müasir inkişaf yolları, onun metod və formalarının tətbiq edilməsində, elmi tədqiqatlarda, habelə tədris prosesində və s. istifadə oluna bilər.*

# СОДЕРЖАНИЕ ОБРАЗОВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ КЛАССОВ

***Резюме***

*Необходимо широко прояснить суть проблемы, прежде всего, серьезно изучить ее систему в мировой науке.  В последние годы произошли серьезные изменения в образовании, в том числе в программе и содержании начальных классов. Разрабатывается множество новых комплектов документов для надлежащего руководства проводимой работой. Цель работы прорабатывается и в этом направлении ведутся важные работы.*

*Значение подготовки учителей начальных классов к педагогической деятельности, этапы их подготовки в общеобразовательных учреждениях, педагогическая деятельность, современное состояние воспитательной деятельности учителя начальных классов в современную эпоху, требования к содержанию воспитательной деятельности учителя в начальных классах важное значение имеют структура воспитательной деятельности учителей начальных классов и другие вопросы.*

*Таким образом, за основу берется роль учителя начальных классов в их подготовке, роль учащихся в приобретении знаний и умений, роль классного руководителя в совершенствовании необходимых навыков.*

*В образовании современные пути развития в начальных классах, в применении его методов и форм, в научных исследованиях, а также в учебном процессе и др. может быть использован.*

# CONTENT OF TEACHER'S EDUCATIONAL ACTIVITY IN PRIMARY CLASSES

***Summary***

*There is a need to broadly clarify the essence of the problem, first of all, to seriously study its system in the world science. In recent years, major changes have been made in education, including the program and content of primary classes. Many new sets of documents are being developed for the correct direction of the work being carried out. The purpose of the work is being worked out and important works are being carried out in this direction.*

*The importance of preparing primary school teachers for pedagogical and educational activity, the steps taken in their preparation in educational institutions, teaching activities, the current situation of the teacher's educational activity in primary schools in the modern era, teacher's educational activities in primary schools. The requirements for the content of the activity, the structure of the educational activity of primary school teachers and other issues are important.*

*So, the role of primary school teachers for their preparation, students' acquisition of knowledge and skills, and the role of the class leader to improve their required skills are taken as a basis.*

*In education, modern ways of development in primary classes, in the application of its methods and forms, in scientific research, as well as in the teaching process, etc. can be used.*

***Açar sözlər:*** *təhsil, təlim, ibtidai sinif, tərbiyəvi fəaliyyət, pedaqoji ustalıq, bilik, bacarıq*

***Ключевые слова:*** *воспитание, обучение, начальный класс, учебная деятельность, педагогическое мастерство, знание, умение*

***Key words:*** *education, training, primary class, educational activity, pedagogical mastery, knowledge, skill*

Müəllim üçün təlim prosesi çox mühümdür. Belə ki, ən yaxşı qayğı şagirdləri müəllimin yaxşı nümunəsi ilə qüvvətli sürətdə cəlb etməkdir. Şagirdlərin öz müəllimləri nümunəsində tərbiyə olunmasından daha təbii şey yoxdur. İbtidai sinif müəllimləri təlim-tərbiyə işini yaxşı bacarmalıdır. Cəmiyyətin, bəşəriyyətin inkişafında müəllimlik peşəsi mühümdür. Müəllim insanlara həyata şüurlu münasibət şəkildə yanaşmağı öyrədir.

İbtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanması prosesi çox mühüm prosesdir. İbtidai sinif müəllimləri pedaqoji prosesin əsası olan dərsi təşkil edilməklə şagirdlərin inkişafında həlledici, əhəmiyyət və vacib rol oynayır. İbtidai sinif müəllimləri tərbiyəvi əhəmiyyəti təmin edən mənəvi zənginliyə, əxlaqi saflığa, fiziki kamilliyə malik olan insanlar yetişdirməyi aktual bir məsələ kimi qarşıya məqsəd qoymalıdırlar. Bu keyfiyyətləri şagirdlərdə formalaşdırmağın ən səmərəli yolu müəllimin şəxsi nümunəsidir. Bunun üçün ibtidai sinif müəlliminin şəxsiyyətini səciyyələndirən ən mühüm keyfiyyətlər onun mənəvi zənginliyi, şəxsi nüfuzu, xüsusi hörmətə malik olmasıdır. Bu keyfiyyətlər təlim prosesində şagirdlərə əxlaqi sifətlərin aşılanması üçün vacib olan vasitələrdir. Bununla yanaşı, dərin bilikliliyi, mehriban, qayğıkeş münasibətliliyi, hər şeyi bilən, bacaran əvəzsiz qabiliyyətliliyi ilə həmişə insanlar arasında seçilən və öz şagirdinin xəyalında əbədi yaşayan müəllim, həmişə ən nüfuzlu şəxsiyyət sayılmışdır. (5, səh.26)

Şagirdlər müəyyən bilik, bacarıq və vərdişlərə yiyələnməklə yanaşı, onlarda təfəkkür inkişaf etdirilir. Bu prosesin təməlini və əsasını ibtidai sinif müəllimi həyata keçirir. Yüksək səriştəyə və peşəkarlığa malik olan müəllimlər şagirdlərə proqram mövzusunu mənimsətməklə kifayətlənməyərək, onlara öyrənməyin yollarını öyrətməyə, müəyyən situasiyaları həll etmək üçün onları axtarışa, yollar tapmağa, problemi həll etmək səriştəsinə yiyələnməyə istiqamətləndirirlər.

Müəllimin hazırlığında və peşəkar fəaliyyətində diqqət yetirilən əsas məsələlərdən biri də təhsil sistemində önəmli yerlərdən birini tutan bu problemin olmasıdır. Pedaqoji fəaliyyətin səmərəliliyini, eyni zamanda, şəxsiyyət-yönümlülüyünü və nəticəyönümlülüyünü təmin edən əsas amillərdən biri də bu keyfiyyətlərin tərbiyə olunmasıdır. Müəllim peşəsini daha nüfuzlu, müəllim əməyini daha məzmunlu və daha səmərəli edən əsas amil müəllimin peşəkar olması və səriştəliliyidir.

Təlim, tərbiyə və təhsil müəllimin məqsədyönlü rəhbərliyi altında şagirdlərin sistemləşdirilmiş biliklərə, bacarıq və vərdişlərə yiyələnmələri, bu zaman onların tərbiyə olunmaları və psixoloji cəhətdən inkişaf etmələri, təkmilləşmələri prosesidir. Biliklər, bacarıqlar və vərdişlər təlimin əsasını təşkil edir. Biliklər obyektiv gerçəkliyin faktlar, anlayışlar və qanunlar formasında insan tərəfindən əks olunmasıdır.

Pedaqoji ustalığın mühüm elementlərindən biri yüksək pedaqoji texnikaya malik olmaqdır. Pedaqoji texnika təcrübədə pedaqoji əməkdaşlıq metodlarını səmərəli tətbiq etmək üçün lazım olan biliklər, bacarıqlar və vərdişlər kompleksidir. İbtidai sinif müəllimlərinin təlim-təhsil fəaliyyəti onun başlıca vəzifəsinin, yəni təhsilverici vəzifəsinin reallaşdırılmasından ibarətdir. Bu fəaliyyət gənc nəslin bəşəriyyətin min illər boyu toplamış olduğu maddi və mənəvi dəyərlərə yiyələnməsi məqsədilə təşkil edilən xüsusi fəaliyyət və idrak

prosesidir. Bu prosesin nəticəsində böyüyən nəsil elmi biliklər sisteminə, həyati bacarıq və vərdişlərə, davranış mədəniyyətinə, müxtəlif fəaliyyət növlərinə yiyələnir və böyük həyata hazırlanırlar. (1, s.110)

İbtidai sinif müəlliminin tədris fəaliyyətinə bir çox amillər təsir edir. Bunlar arasında şagirdlərin dərs zamanı hansı mövqedə olmaları mühüm əhəmiyyət kəsb edir. Belə ki, dərsin səmərəliliyi şagirdlərin bu zaman hansı mövqedə olmalarından asılıdır. Bu informasiyalar ənənəvi təlim forması zamanı şagirdlərin yalnız dinləyici kimi iştirakı ilə mənimsənilir, fəal təlim prosesində isə şagirdlərin fəallığı şəklində informasiyalar axtarılır, tapılır və ondan istifadə olunur. Birinci halda təhsialanların daha çox informasiyalarla tanış edilməsi, onlara maksimum səviyyədə biliklər verilməsi, izahat, anlatma, məlumatlandırma üstünlük təşkil edir. Bu halda müəllim informasiya ötürücüsü, transformator rolunda çıxış edərək şagirdlərə daha çox bilik aşılamağa səy göstərir.

Fəal təlim prosesində şagirdlərdə təlimə maraq yaradılması, motivləşdirmə, stimullaşdırma, şagirdlərin axtarışa cəlb edilməsi, onların pedaqoji prosesin tərəf müqabili kimi iştirakı, nitq və təfəkkürün inkişafı, müzakirə, fikir mübadiləsinə çəkilir. İbtidai siniflərlə yuxarı siniflərdə sinif-dərs quruluşu, metod və tələblər eyni olmadığı kimi dərsin tərbiyəedici məqsədində, şagird-müəllim münasibətlərində müəyyən qədər fərqli cəhətlər vardır.

Müəllimin pedaqoji fəaliyyətdə yaradıcılığı onun xüsusi pedaqoji qabiliyyətlərə malik olmasını tələb edir. Pedaqoji qabiliyyətlər müəllim-şagird münasibətlərində müəllimin əqli, emosional-iradi cəhətlərini xarakterizə edir.

Pedaqoji qabiliyyətlər ibtidai siniflərdə müəllimin tərbiyəvi fəaliyyətinin məzmununa verilən tələblər sırasında şəxsi qabiliyyətlər, didaktik qabiliyyətlər, müəllimin tədqiqatçılıq qabiliyyəti, kommunikativ qabiliyyətlər, pedaqoji təxəyyül, pedaqoji refleksiya qabiliyyəti, diqqəti paylaya bilmək qabiliyyəti, təşkilatçılıq qabiliyyəti, müəllimin elmi-idraki qabiliyyətləri və digər qabiliyyətlər daxildir.

Hər şeydən əvvəl, dünya elmində təhsil sistemini ciddi şəkildə öyrənməyə ehtiyac vardır. Son illərdə təhsildə, o cümlədən ibtidai siniflərin proqramında, məzmununda böyük dəyişikliklər aparılır. Aparılan işlərin düzgün istiqamətləndirilməsi üçün bir çox yeni sənədlər toplusu işlənilir. İşlərin məqsədi işlənir və bu istiqamətdə mühüm işlər həyata keçirilir.

Müasir təhsil sisteminə uyğun gələn yeniliklər aparmaq və təkmilləşməni tətbiq edən əsas amil Respublikamızda aparılan təhsil islahatlarının pedaqoji innovasiyalara geniş yol açmasıdır. Bu səbəbdən günümüzün ən mühüm vəzifələrindən biri müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, müəllimlərin daima öz üzərində işləmələri, işinə daha məsuliyyətli yanaşması üçün bir çox addımlar atılır.

Müəllimin fəaliyyəti həmişə əhəmiyyət daşıyır. Məqalə pedaqoqlar və gənc müəllimlər üçün əhəmiyyətlidir. Onlar bu sənət sahiblərindən öyrənməklə yanaşı, müəllim əməyinə verilən qiymətdən qürurlanırlar. Cəmiyyətin inkişafında müəllimlik peşəsi əsasdır. Həyata şüurlu münasibət göstərməkdir. Müəllim üçün onun sənəti əzizdir. Heç bir müəllim bu sənətdən doymur. Müəllim sənətini sevərək yaşadır, inkişaf etdirir.

**NƏTİCƏ.** İbtidai sinif müəllimlərinin pedaqoji-tərbiyəvi fəaliyyətə hazırlanması prosesində gənc müəllim olacaq kadrlara pedaqogika, təhsilin və tərbiyənin mahiyyəti və qanunauyğunluqlarını, təlimin prinsipləri, formaları, texnologiyaları və metodlarını, şəxsiyyətin, şagirdlərin inkişafının texnologiyası və bu yöndə atılacaq addımların perspektivləri öyrədilir və mənimsədilir.

Müasir təlim ibtidai təhsilə də öz təsirini etmişdir. İbtidai sinif müəllimlərinin pedaqoji-tərbiyəvi fəaliyyətə hazırlanması zamanı müasir təlim prosesinin incəlikləri də onlara mənimsədilir. Çünki təlim prosesi zamanı bu amil çox vacibdir. İbtidai sinif dərslərində dərsin əsas məqsədi, məzmun xətti və standartları əsas götürülür.

Təlim və tərbiyəvi tədbirlər prosesində hər bir məsələ pedaqoji prosesin səmərəliliyinə müsbət təsir edəcək hər bir imkandan səriştəli şəkildə istifadə olunmalıdır. İbtidai sinif müəlliminin təlim-təhsil fəaliyyəti onun başlıca vəzifəsinin, yəni təhsilverici vəzifəsinin reallaşdırılmasından ibarətdir. Bu fəaliyyət gənc nəslin bəşəriyyətin min illər boyu toplamış olduğu maddi və mənəvi dəyərlərə yiyələnməsi məqsədilə təşkil edilən xüsusi fəaliyyət və idrak prosesidir.

İbtidai sinif müəllimi, eyni zamanda sinif rəhbəri vəzifəsini də icra edir. Şagirdlərə bilik, bacarıq və vərdişlər aşılamaq, valideynlərinə pedaqoji təsir göstərmək, təlim-tərbiyə işinin səviyyəsini yüksəltmək, təkmilləşdirmək üçün valideynlərin qüvvələrindən istifadə imkanı sinif rəhbərlərinin vəzifəsidir. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması prosesində onlara müəllimin təşkilatçılıq fəaliyyəti onun pedaqoji fəaliyyəti ilə psixoloji təsirinin birliyindən yaranaraq formalaşması və bu pedaqoji prosesin səmərə və keyfiyyətinin yüksəldilməsinə istiqamətlənməsi öyrədilir.

Müəllim sinif kollektivinin inkişaf səviyyəsini, fənnə olan marağını, motivlərini, müəllimə olan münasibətlərini, ayrı-ayrı şagirdlərin səviyyəsini, sinifdaxili münasibətlərin təşkilini və s. kimi amilləri nəzərə almalıdır. Bunların müsbət olması müəllimin təşkilatçılıq fəaliyyətinin səmərə və keyfiyyətinin inkişafına, yüksəlməsinə təsir etdiyi kimi, aşağı səviyyəsi də müəllimin təşkilatçılıq fəaliyyətinin tam şəkildə həyata keçirilməsinə öz mənfi təsirini edir. Bu səbəbdən də təşkilatçılıq fəaliyyəti müəllimin təkcə özünü-təşkil bacarıqları ilə məhdudlaşmamalıdır, pedaqoji prosesin bütövlükdə bütün sahələrini, yönlərini və mərhələlərini əhatə etməlidir.

Müasir dövrdə ibtidai siniflərdə sinif müəlliminin pedaqoji-tərbiyəvi fəaliyyət hazırlanması çox aktual məsələlərdəndir və hər zaman öz mühüm əhəmiyyətini daşımaqdadır.

Təlim-tərbiyə prosesinin səmərəli, keyfiyyətli təşkili uşaq şəxsiyyətinin formalaşması sahəsində müəllimin fəaliyyətinə istiqamət verir. Təlim-tərbiyə prosesinin səmərəli, keyfiyyətli təşkili, təlimdə bərabər imkanların yaradılması, tərbiyə işində milli zəminə və ümumbəşəri dəyərlərə üstünlük verilməsi, təhsil sisteminin fasiləsizliyi, varisliyi, təhsildə liberallıq və inteqrasiya prinsiplərinin nəzərə alınması müəllimin fəaliyyətinin sanki kompasıdır.

Peşəkar ibtidai sinif müəllimi elə olmalıdır ki, şagirdlərdə məktəbə, dərsə və fənnə qarşı maraq yaratsın və şagirdlər məktəbə gəlməyə həvəsli olsunlar. Bu prosesi yönəldən ibtidai sinif müəllimidir. İbtidai sinif müəllimləri pedaqoji prosesin bütün incəliklərini bilirlər, onlar azyaşlı şagirdlərə öz övladı kimi yanaşır, uşaqlarla işləməkdən bezmir, əksinə bu işdən zövq alır. İbtidai sinif müəllimləri yüksək peşəkarlığa və səriştəliliyə malik olmalıdır ki, belə müəllimlərin işi, dərsləri professional, maraqlı və məzmunlu olsun. Çünki təlim ilə yanaşı, dərsin keyfiyyətinə təsir edən digər amillər də nəzərə alınmalıdır. İbtidai sinif şagirdləri onları sevir, hörmətlə yanaşır və dərslərinə də böyük maraq və həvəs göstərirlər. Belə ki, ibtidai sinif müəllimindən hər zaman öz üzərində işləmək, peşə bacarıqlarını təkmilləşdirmək, bilik, bacarıq və qabiliyyətlərini genişləndirmək, inkişaf edən dünyada müntəzəm olaraq yeniliklər axtarışında olmaq tələb olunur.

Mən belə bir nəticəyə gəldim ki, ibtidai sinif müəllimlərinin kiçikyaşlı məktəblilərin tərbiyəsi işinə hazırlanmasının xüsusiyyətləri və əhəmiyyəti böyükdür və məktəb təcrübəsi tərəfindən bu hər zaman diqqət mərkəzində olmuşdur.

Gələcək ibtidai sinif müəlliminin kiçikyaşlı məktəblilərin tərbiyəsi işinə hazırlanması prosesinin modelləşdirilməsi, gələcək ibtidai sinif müəlliminin kiçikyaşlı məktəblilərin tərbiyəsi işinə hazırlanması sisteminin yaradılmasının əsasları bu işin əsasını təşkil edir.

***Ədəbiyyat***

1. *Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Bakı: Renessans, 2000, 202s.*
2. *Ə.Ağayev Pedaqogika. Bakı, 2006*
3. *Həsənov A.Ə., Ağayev Ə.Ə. Pedaqogika. Bakı, Nasir, 2007, 496 s. 11-28 səh.*
4. *Kazımov N.M., Tətbiqi pedaqogika-İbtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə dərslik, Bakı: 2010, 328 s.*
5. *Kərimov Y.Ş. Sinif müəllimi hazırlığının məzmununun təkmilləşdirilməsi istiqamətləri. "Ümumtəhsil məktəblərinin aktual problemləri" mövzusunda elmi-praktik konfransın tezisləri, Bakı: 1996, s.26.*

**R.İ.Əhmədli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rufetehmedli14@gmail.com***

# ŞAGİRDLƏRİN FİZİKİ HAZIRLIĞININ MAHİYYƏTİ, ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ ƏHƏMİYYƏTİ

***Xülasə***

*Məqalədə şagirdlərin fiziki hazırlığının mahiyyəti, əsas xüsusiyyətləri və əhəmiyyəti araşdırılmışdır. Şagirdlərin fiziki hazırlığı, onların fiziki sağlamlığının əsasını təşkil edir, əhval-ruhiyyəsini inkişaf etdirir, zehni xüsusiyyətlərini təkmilləşdirir, bütün təhsil pillələri üçün başlanğıc nöqtəsi və dayağı rolunu oynayır. Məşqlərin elmi üsullarına, fiziki hazırlığa yiyələnmək, həyatın btün mərhələləri üçün faydalıdır. Məktəb fiziki tərbiyəsinin mahiyyətinin öyrənilməsi məktəb idmanının sadəcə, əsası deyil, həm də çətin məsələsidir. O, sağlamlığı yaxşılaşdırmaq, davamlı fiziki hazırlığı təmin etmək üçün insan tədbirləri və buna psixoloji cəhətdən hazır olmağı özündə cəmləşdirir. Məqalədə müəllifin fikirləri qeyd edilmiş, yekunda əldə edilən nəticələr ümumiləşdirilmişdir.*

# СУЩНОСТЬ, ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ И ЗНАЧЕНИЕ ФИЗИЧЕСКОЙ ПОДГОТОВКИ СТУДЕНТОВ

***Резюме***

*В статье рассматриваются сущность, основные черты и значение физической подготовки студентов. Физическая подготовка студентов является основой их физического здоровья, развивает их настроение, улучшает психические характеристики, играет роль отправной точки и опоры для всех ступеней обучения, обучения научным методам упражнений, занятия физической культурой полезны на всех этапах жизни. Изучение сущности школьного физического воспитания является не только основным, но и сложным вопросом школьного спорта. Она включает в себя меры человека и психологическую готовность к укреплению здоровья, обеспечению устойчивой физической формы. Мнения автора отмечены в статье, а полученные результаты подведены в конце.*

# THE ESSENCE, MAİN CHARACTERİSTİCS AND İMPORTANCE OF PHYSİCAL TRAİNİNG OF STUDENTS

***Summary***

*The article examines the essence, main features and importance of physical training of students. Physical training of students is the basis of their physical health, develops their mood, improves mental characteristics, plays the role of starting point*

*and support for all levels of education, learning scientific methods of exercises, physical training is useful for all stages of life. Studying the essence of school physical education is not only the main but also a difficult issue of school sports. It includes human measures and psychological readiness to improve health, ensure sustainable physical fitness. The author's opinions are noted in the article, and the results obtained are summarized at the end.*

***Açar sözlər:*** *fiziki tərbiyə, təlimat, şagird, hazırlıq*
***Ключевые слова:*** *физическое воспитание, обучение, студент, подготовка*
***Key words:*** *physical education, instruction, student, preparation*

Fiziki tərbiyəsi şagirdlərin fiziki sağlamlığının və ömür boyu aktiv həyat tərzinin əsaslarını qoya bilər. Keyfiyyətli fiziki tərbiyə şagirdlərə fiziki inkişaf və hərəkət imkanı, eləcə də şəxsi və sosial inkişaf üçün uyğun mühit təmin etməlidir (3, s.66). Fiziki tərbiyə ilə sağlamlıq arasında əlaqə var və onlar şagirdlərin şəxsi inkişafının bir-birindən ayrılmaz iki parçasıdır.

Fiziki tərbiyə və sağlamlığın yüksək standartlarını təşviq etmək üçün orta məktəblərdə onun təşkilinə xüsusilə diqqət yetirilməlidir ki, şagirdlərin gələcək inkişafına müsbət mənada əhəmiyyətli dərəcədə təsir göstərə bilsin.

Fiziki fəaliyyət enerji sərfi ilə nəticələnən skelet əzələləri tərəfindən əmələ gələn hər hansı bədən hərəkəti kimi müəyyən edilir (5, s.54).

Bu sahədə aparılan tədqiqatlar bunu deməyə əsas verir ki, fiziki fəaliyyətin və fiziki hazırlığın artırılması akademik performansı yaxşılaşdıra bilər və məktəb günündə fasiləyə, fiziki tərbiyə dərsinə və sinifdə fiziki fəaliyyətə həsr olunmuş vaxt da akademik performansı artıra bilər.

Fiziki tərbiyə Ümumi Məktəb Fiziki Fəaliyyət Proqramının əsasını təşkil edir. O, fiziki fəaliyyət və fiziki hazırlıq üçün əsas bacarıqları, bilik və davranışları inkişaf etdirmək üçün nəzərdə tutulmuş koqnitiv məzmun və təlimatı təqdim edir (7, s.43).

Son 30 ildə aparılan elmi araşdırmalar bizə öyrətdi ki, insan inkişafının ən mühüm dövrü doğumdan səkkiz yaşa qədərdir. Bu illər ərzində idrak bacarıqlarının, emosional rifahın, sosial səriştənin və sağlam fiziki və psixi sağlamlığın inkişafı yetkinlik illərində müvəffəqiyyət üçün güclü zəmin yaradır.

Oyun kiçik yaşlı uşaqların əsas bilik və bacarıqları əldə etməsinin ən mühüm yollarından biridir (9, s.32). Oyun uşaqların sağlam inkişafı üçün həyati əhəmiyyət kəsb edir. O, uşaqlara və yeniyetmələrə bir neçə aspektdən kömək edə bilər. Bu aspektləri aşağıdaki kimi göstərə bilərik:

- Əsas həyati bacarıqlarını inkişaf etdirmək;
- Onların (sosial) davranış repertuarı ilə təcrübə aparmaq;
- Alternativ ssenariləri simulyasiya etmək;

- Təhlükəsiz kontekstdə davranışlarının müxtəlif müsbət və mənfi nəticələrini həll etmək.

Oyun fərdin ən mühüm fiziki ehtiyaclarından biri hesab olunur və o, istirahət və həzz almaq qədər önəmlidir. Bu, könüllü olaraq seçilmiş, fərd üçün sevinc, məmnunluq və inkişaf təmin edən və adətən asudə vaxtı dəyərləndirmək üçün müraciət edilən bir fəaliyyət növüdür.

Croombridge, qeyd edir ki, bu barədə çox geniş əhatəli şəkildə düşünməliyik. İstirahət və fiziki hazırlıq üçün bizim asudə vaxta ehtiyacımız var (11, s.21). Deməli, biz də orta məktəblərdə və digər təhsil müəssisələrində şagirdlər üçün asudə vaxt yaratmalıyıq ki, onların fiziki sağlamlıqlarını inkişaf etdirmək baxımından münasib şəraiti olsun.

Bu gün gənclər, zorakılıq, iqtisadi problem, iş həyatının dinamikası, depressiya, psixoloji çətinliklər və xəstəliklərlə mübarizə aparırlar. Bütün iqtisadi səviyyələrdən və yaşdan olan insanlar həyatlarının qeyri-kafiliyindən, mənasızlığından və monotonluğundan necə qurtulmaq barədə ciddi düşünməlidirlər. Belə ki, onlar sevinc və xoşbəxtlik qazanmaq üçün boş vaxtlarını mənalı fəaliyyətlərdə keçirməyin yollarını tapmalıdırlar (5, s.318).

Bunu da vurğulamaq lazımdır ki, oyun və iş arasındakı ən əhəmiyyətli fərqlər hər ikisindən gələn həzz dərəcəsidir. Boş vaxtlarda müxtəlif növ aktiv fəaliyyətlərdə iştirak etmək dərin məmnunluq və gərginlikdən azad olmada fərdlərə ciddi mənada köməklik edir.

Fiziki fəaliyyət növlərini intensivliyinə görə aşağıdakı kimi qruplaşdıraraq təhlil edə bilərik:

1. Orta intensivlikli fəaliyyətlər, sakit oturduğunuz zaman etdiyinizdən dəqiqədə üç-altı dəfə çox enerji yandırmaq üçün kifayət qədər sürətli və ya kifayət qədər gərgin hərəkət etməyə imkan verən fəaliyyət növləridir.
2. Güclü intensiv fəaliyyətlər 6 MET-dən çox yandırır (1, s.19). Vannier öz araşdırmasında qeyd etdi ki, iş və oyun eyni prosesin iki müxtəlif və eyni zamanda bir-biri ilə sıx bağlı olan iki üzü kimidir: hər biri digərinin ayrılmaz hissəsidir. Biz boş vaxtımızda oynamaq və ya həyatdan zövq almaq üçün işləyirik, lakin daha məhsuldar işləyə bilmək üçün oynayırıq.

Bu gün uşaqlarımıza işləmək kimi oynamağı da öyrətmək lazımdır. Həyati vacib fiziki fəaliyyətlər vasitəsilə uşaq və böyüklər canlanır, təzələnir və yenidən yaradılır. Yaxşı ibtidai və ya orta fiziki tərbiyə proqramlarının təmin etdiyi mühüm töhfələrdən biri onların tələbələrə asudə vaxtlarından müdrik istifadə etməyə imkan verməsidir. Bu, onlara uşaqlar kimi, sonra isə böyüklər kimi daha effektiv və səmərəli oynaya biləcəkləri alətlər inkişaf etdirməyə kömək edir.

**Şagirdlərin fiziki hazırlığının sağlamlıq nöqteyi-nəzərdən əhəmiyyəti**

Fiziki fəaliyyət sağlamlığın əsasını təşkil edir və onun əhəmiyyəti, piylənmənin və artıq çəkinin qarşısını almaq və müalicə etmək üçün enerji

balansına nail olmaqdakı rolundan açıq şəkildə görə bilərik. Davamlı gündəlik fiziki fəaliyyət ürək-damar sağlamlığını, metabolik sağlamlığı, beyin və psixi sağlamlığı və əzələ-skelet sisteminin sağlamlığını yaxşılaşdırır (2, s.28).

Piylənmə bütün orqanizmin maddələr mübadiləsinə təsir edən və ürək-damar xəstəlikləri və 2-ci tip diabet riskinin artması ilə əlaqəli olan mürəkkəb bir xəstəlikdir.

Daimi fiziki məşqlər ümumi sağlamlıq baxımından bir sıra faydalı təsirlərə malikdir. Bədən kütləsinin və piylənmənin azalması məşqin əsas nəticələri olmasa da, məşq, 2-ci tip diabet və ürək-damar xəstəlikləri də daxil olmaqla, piylənmə ilə müşayiət olunan bir sıra xəstəliklərə vasitəçilik edə bilər (4, s.37).

CVD-nin inkişafına və irəliləməsinə səbəb olan bir neçə risk faktoru var, lakin ən görkəmlilərindən biri oturaq həyat tərzidir. Oturaq həyat tərzi həm piylənmə, həm də davamlı olaraq aşağı fiziki fəaliyyətlə xarakterizə edilə bilər. Ajisafe sağlamlığın mənasını aşağıdakı kimi müəyyənləşdirir:

*“Sağlamlıq, insanın optimal şəkildə yaşamasına və işləməsinə imkan verən fiziki və əqli rifah vəziyyəti kimi müəyyən edilə bilər. Sağlamlıq təkcə xəstəlik və ya zəifliyin olmaması deyil, tam fiziki, əqli və sosial rifah vəziyyətidir”* (6, s.46).

Bu gün insanın sağlamlığının yaxşılaşdırılmasında güclü idman və fitnesin mühüm roluna böyük diqqət yetirilir. Sağlamlıq və fitneslə məşğul olmaq şansını əldə edə bilən insanlar daha uğurlu həyat sürə bilirlər və bu, onların xəstəlikdən daha az zərər görməsinə səbəb olmuş olur.

Bu da aydındır ki, ürək xəstəliklərinə və onunla əlaqəli piylənmə, hipertoniya, insult və diabet problemlərinə nəzarət üzrə milli strategiya bütün yaşlarda olan insanların həyatında aktiv fəaliyyət tələb edir.

Yüksək sağlamlıq səviyyəsinə çatmaq həm fiziki rifahın, fitnesin inkişafından, həm də sağlam həyat üçün yaxşı vərdişlərin tətbiqindən asılıdır. Bu o deməkdir ki, fiziki rifahın və fiziki hazırlığın təşviqi sağlamlıq üçün lazım olan prosedurlardan biridir və bunlar fiziki fəaliyyətlərdə davamlı və müntəzəm iştirakdan irəli gəlir. Optimal fiziki hazırlığı emosional, əqli və sosial uyğunluq, eləcə də sağlam həyat vərdişlərinin inkişafı nəzərə alınmadan inkişaf etdirmək mümkün deyil (4, s.157).

Gündəlik fiziki fəaliyyətdə güclü iştirak sayəsində insanların fiziki gücü yüksələcək və gündəlik işləri daha yaxşı olacaq. Fiziki tərbiyənin sağlamlığa daha bir töhfəsi var. Bu, tələbələrə bədənlərinin imkanları və məhdudiyyətləri haqqında önəmli məqamları bilməyə kömək edir və onlara öz fiziki sağlamlıqlarını yaxşılaşdırmağın yolları barədə fikirlər verir.

Məktəblərdə fiziki tərbiyə proqramlarının ali məqsədlərindən biri də şagirdlərin müsbət sağlamlığına nail olmaqdır. Əgər bu məqsədə nail olunsaydı, nəticədə müasir cəmiyyətdə inkişafın hər mənasında səmərəliliyin

əldə edilməsinə nail olunar və bununla da sağlam təfəkkürlü şagirdlərin sayını artırmaq və onların cəmiyyətimizin gələcəyi üçün önəmini daha aydın bir şəkildə görmək mümkün olardı.

Bunu da vurğulamaqda fayda var ki, fiziki tərbiyə fəaliyyətlərinin tədrisində bədən tərbiyəçiləri sağlamlığın birbaşa tədrisinə çox vaxt ayıra bilməzlər, lakin fürsət yarandıqda sağlamlıqla bağlı öyrənməni təmin edə bilərlər.

Duruş, təmizlik, adekvat istirahət, idman, qidalanma, siqaret və spirtli içkilərin istifadəsi ilə bağlı şərhlər verilə bilər. Məktəbdə keçirilən tədris müddəti və digər nəzarət olunan dövrlər müntəzəm fiziki fəaliyyətin əsasını təşkil edən bilik, bacarıq, münasibət və dəyərlərin təşviqi üçün yeganə formal imkanlardır (8, s.55).

**Akademik bacarıqların inkişaf etdirilməsi baxımından ümumtəhsil müəssisələrində şagirdlərin fiziki hazırlığının təşkilinin önəmi**

Fiziki tərbiyə “fiziki tərbiyədir”. Bu, tələbələrin fiziki səriştəsini, hərəkət və təhlükəsizlik biliklərini, onlardan aktiv və sağlam həyat tərzinin inkişafı ilə bağlı geniş fəaliyyətlərdə istifadə etmək bacarığını inkişaf etdirmək məqsədi daşıyır. Oyun öyrənmə mərhələsi, öyrənmə isə oyun mərhələsi kimi qəbul edilə bilər. Uşaqlar müxtəlif fiziki fəaliyyətlərdə (atlama, atma, qaçış) iştirak etdikdə, onlar yeni mühitlər kəşf edəcək və onların rifahı refleksiv təfəkkürə kömək edəcək və bəlkə də buna səbəb olacaq. Hoffman və başqaları araşdırmalarında qeyd etmişdir ki: *“Oyun indi akademik cəhətdən önəmli hesab edilən təcrübələrdən yayınma deyil, ümumi öyrənmə təcrübəsinin bir hissəsi hesab olunur”* (10, s.64).

Oyun çoxşaxəli, mürəkkəb və dinamikdir, asan tərifdən qaçır. Adətən bunun universal bir fəaliyyət olduğu hiss olunur və uşaqlar çox vaxt sadəcə, bir istək və oynamaq qabiliyyətinə malik kimi təsvir olunurlar.

Merilend ştatının Təhsil Departamenti tərəfindən aparılan bir araşdırma fiziki tərbiyənin bütün təhsil prosesində mühüm rolunu vurğuladı. Araşdırma nəticəsində müəyyən edilib ki, fiziki tərbiyə, fiziki fəaliyyət vasitəsilə fərdin fiziki, əqli, sosial və emosional inkişafına töhfə verən ümumi təhsil təcrübəsinin vacib hissəsidir.

Bu gün biz uşaqlarımızı oynamağa çağırırıq ki, daha sonra, böyüklər olanda oynayarkən biliklərini artırsınlar. Uşağınızın oyununda fəal iştirak etməklə, onun öyrənməsinə və böyüməsinə kömək edə bilərsiniz. Siz övladınızla dəstəkləyici və güvənən bir münasibət qurmaq üçün imkanlar yaradırsınız və bu prosesdə onların inkişafına kömək edirsiniz. Uşağınıza oyunun gücünü açmağa kömək edəcək gücə sahibsiniz!.

İndi biz fiziki tərbiyənin həyatımızda əhəmiyyətini dərk etdik. Söz yox ki, rifahı və sağlamlığı yaxşı olan insan öz qabiliyyətlərini (məsələn, müxtəlif biliklərə yiyələnmək kimi) inkişaf etdirə bilir, nəinki rifahı və sağlamlığı

zəifdir. Andrew öz araşdırmasında qeyd edir ki, fiziki tərbiyə təhsilin tərkib hissəsi olduğu üçün onun fəaliyyəti təhsillə eyni meyarlarla seçilməli və istiqamətləndirilməlidir.

Oyun uşaq işidir. Oyun vasitəsilə uşaqlar riyaziyyat, elm, oxu, dil və savad kimi akademik bacarıqları öyrənirlər. Onlar effektiv ünsiyyət, münaqişələrin həlli, problemlərin həlli və əməkdaşlıq kimi sosial bacarıqları öyrənirlər.

Oyun vasitəsilə öyrənmə məktəbəqədər yaşdan sonra şagirdlərin iştirakını, inklüzivliyini və hərtərəfli bacarıqlarının inkişafını təşviq etmək üçün mühüm strategiya kimi ortaya çıxır.

**Mövzunun praktik əhəmiyyəti**

Mövcud sübutlar göstərir ki, riyaziyyat və oxu fiziki fəaliyyətdən ən çox təsirlənən akademik mövzulardır. Bu mövzular fiziki fəaliyyət və fiziki hazırlıqla əlaqəli olan səmərəli və effektiv icra funksiyasından asılıdır.

Şagirdlərin fiziki hazırlığı onların ən mühüm fiziki ehtiyaclarından biri hesab olunur və istirahət, həzz almaq qədər əhəmiyyətli hesab olunur. Bu, könüllü olaraq seçilmiş, fərd üçün sevinc, məmnunluq və inkişaf təmin edən və fərdin öz vaxtını səmərəli şəkildə dəyərləndirməsinə kömək edən fəaliyyətidir. Fiziki tərbiyə hərtərəfli məktəb fiziki fəaliyyət proqramının əsasını təşkil edir. O, fiziki fəaliyyət və fiziki hazırlıq üçün motor bacarıqları, bilik və davranışları inkişaf etdirmək üçün nəzərdə tutulmuş idrak məzmunu və təlimat təqdim edir.

Fiziki tərbiyə fərdlərə məmnunluq və rahatlıq gətirən sadəcə oyun vaxtı və ya asudə vaxt fəaliyyəti deyil. O, təhsilin bir aspektidir və ümumi təhsillə eyni məqsədləri bölüşür. Fiziki tərbiyə ilə sağlamlıq arasında əlaqə var və onlar bir əlaqənin iki tərəfidir. Fiziki tərbiyə sağlamlığın yüksək standartlarını təşviq etmək üsuludur və sağlamlıq da fiziki tərbiyənin tərkib hissəsidir.

Bunu da vurğulamaq lazımdır ki, rifahı və sağlamlığı yaxşı olan insan öz qabiliyyətlərini (məsələn, müxtəlif biliklərə yiyələnmək kimi) inkişaf etdirə bilir, əksinə fiziki cəhətdən passiv həyat tərzi fərdin akademik bacarıqlarının da zəifləməsinə səbəb olmuş olur.

Yaxşı rəhbərlik altında fiziki tərbiyə fəaliyyətləri minlərlə şagirdin gələcək həyatında uğur qazanması üçün əla imkan yaradacaqdır. Uğurlu fiziki tərbiyə proqramının ən mühüm amili müəllimdir. Yaxşı ixtisaslı müəllimlər məktəblərdə zəif avadanlıq və avadanlıqların öhdəsindən gələ biləcək mükəmməl liderliyi təmin edirlər.

Bunu nəzərə alaraq, güman etmək olar ki, fiziki tərbiyə müəllimlərini səmərəli peşəkar hazırlıq proqramları vasitəsilə daha diqqətli hazırlamaq lazımdır. Bu da danılmaz faktdır ki, yaxşı peşəkar hazırlıq yaxşı müəllimlər yarada bilər və səriştəli müəllimlər daha təkmil fiziki tərbiyə proqramları verə bilər.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının Peşə İxtisas Təhsili Müəssisələri üçün Fiziki Tərbiyə Fənni üzrə Təhsil Proqramı (Kurikulum) (I - III Kurslar), Bakı-2017*
2. *Ümümtəhsil məktəblərinin 9-cu sinfi üçün "Fiziki tərbiyə" fənni üzrə müəllim üçün metodiki vəsait, ARTN-2016*
3. *Acalov E., Əzizova S., Əkbərov V. "Bədən tərbiyəsi və idman tarixi" (Ali məktəblər üçün dərs vəsaiti), "Müəllim"nəşr, B,2007-ci il.*
4. *Qurbanov H.H., Əsgərov A.Y., Ramazanov.Ə.X. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası "Avrora" nəşr, 2006*
5. *Quliyev B. "Fiziki Tərbiyənin Nəzəri-metodik və Praktik işlərinin əsasları" Bakı-"ADPU" nəşriyyatı – 2009*
6. *Məmmədov A.M., Sudakov K.V., Normal fiziologiya - 2011*
7. *Nəsrullayev M.Ə.Məktəblilərin fiziki tərbiyəsi. Dərs vəsaiti. B, 2003-cü il.*
8. *Şadlinski V., Qasımov Ş., Mövsümov N. - İnsan anatomiyası atlası."Müəllim" nəşriyyatı, Bakı-2012*
9. *Adam Felman. 2020. What is good health? Medical News Today. At: https://www.medicalnewstoday.com/articles/150999.*
10. *Abidalhussain & Aboshkair Kamil. (2022). The Role of Physical Education at School. 9. 156-161.*
11. *Xiaojun Li, Discussion on the Essence of School Physical Education, International Conference on Civil, Materials and Environmental Sciences (CMES 2015).*

**Ü.İ.Vəliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ulush99@mail.ru***

# GƏNCLƏRİN TƏHSİLƏ MARAĞININ ARTIRILMASINDA MƏKTƏB-AİLƏ MÜNASİBƏTLƏRİNİN ROLU

***Xülasə***

*Bu məqalədə gənclərin dövlətin iqtisadi, siyasi, sosial həyatında oynadığı roldan bəhs edilir. Gənclərin təhsilə marağının artırılması yolları qeyd edilir. Həmçinin bununla bağlı ailənin üzərinə düşən vəzifələr məqalədə öz əksini tapır. Orta məktəbin təhsilə marağın artırılmasıyla ilə bağlı rolu işıqlandırılır. Orta məktəblə ailənin qarşılıqlı əlaqəsindən bəhs edilir. Gənclərin keyfiyyətli kadr kimi formalaşdırılmasıyla bağlı məsələlər əks olunur. Təhsilə marağın artırılmasıyla bağlı həyata keçirilməli işlər göstərilir.*

# РОЛЬ ОТНОШЕНИЙ ШКОЛА-СЕМЬЯ В ПОВЫШЕНИИ ИНТЕРЕСА МОЛОДЕЖИ К ОБРАЗОВАНИЮ

***Резюме***

*В данной статье рассматривается роль молодежи в экономической, политической и социальной жизни государства. Упоминается роль названы пути повышения интереса молодежи к образованию. Также в статье отражены обязанности семьи в связи с этим. Выделена роль общеобразовательной школы в повышении интереса к образованию. Говорится о взаимо отношениях между средней школы и семьей. Как качественный состав молодых людей отражены вопросы, связанные с его формированием. Указана работа, которую предстоит провести по повышению интереса к образованию.*

# THE ROLE OF SCHOOL-FAMİLY RELATİONS İN İNCREASİNG YOUNG PEOPLE'S İNTEREST İN EDUCATİON

***Summary***

*This article talks about the role of youth in the ecenomic, political and social life of the state. The ways of increasing the interest of young people in education are noted. Also, the article reflects the obligations of the family in this regards. The role of the school in relation to the interest in education is highlighted. The interaction between family and school is discussed. Issues related to the formation of young*

*people as quality personnel are reflected. The social work that needs to be carried out in connection with the increased interest in education is indicated.*

***Açar sözlər:*** *gənclər, təhsil, məktəb, ailə, inkişaf*
***Ключевые слова:*** *молодежь, воспитание, школа, семья, развитие*
***Key words:*** *youth, education, school, family, development*

Gənclər hər bir cəmiyyətin aparıcı qüvvəsi kimi ölkənin ictimai, siyasi və sosial həyatında mühüm rol oynayır. Gənc dedikdə-sosial yetkinlik, böyüklər dünyasına uyğunlaşan və gələcək dəyişiklikləri yaşayan sosial-demoqrafik qrup başa düşülür. Bugün ölkənin təhsil, səhiyyə, iqtisadiyyat və bunun kimi bir sıra sahələrində gənclərimiz mühüm rol oynayır. Təbii ki, bu ölkə prezidentinin gənclərlə bağlı siyasətinin uğurla yerinə yetirildiyinin bariz göstəricisidir. Ölkənin mütəşəkkil inkişafı savadlı gənc kadrlardan asılıdır və ölkə prezidenti onların yetişdirilməsinə və inkişafına xüsusi diqqət göstərir. Belə ki, 1994-cü ildə iyulun 26-da gənclərin hərtərərfli inkişafının və onların mütəşəkkil formada yetişdirilməsini təmin etmək üçün Gənclər və İdman Nazirliyi yaradıldı (1). Bununla yanaşı gənclərin inkişafı üzrə Azərbaycan Gəncliyi adı altında 2005-2009, 2011-2015, 2017-2021-ci illər üzrə Dövlət Proqramları qəbul edilmişdir. Bu dövlət proqramlarında gənclərin məşğulluğunun təmin edilməsi, onların təhsilə marağının artırılması, bir sıra sosial fəaliyyətlərə cəlb edilməsi kimi məsələlər əks olunmuşdur. 2011-ci ildə isə gənclər siyasətinin elm, təhsil kimi bir sıra sahələrə yönələn fəaliyyətinin stimullaşdırılması məqsədiylə Gənclər Fondu təsis edildi. Gənclər siyasətinin əsas istiqamətləri gənclər siyasəti haqqında Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir. Bu istiqamətlər isə gənclərin mədəni həyatda iştirakı, istedadlı gənclərə dövlət qayğısı, gənclərin fiziki inkişafı, gənclərin məşğulluğunun təmin edilməsi, gənc ailələrə dövlət yardımı və gənclər təşkilatlarına dövlət yardımıdır.

Gənclər siyasətində özünəməxsus rol oynayan məsələlərdən biri də təbii ki, yeni nəslin keyfiyyətli və savadlı kadr kimi formalaşdırılması məsələsi olmuşdur. Ümumiyyətlə gənclərin təhsili və onların təhsilə marağının artırılması bu gün ən aktual məsələlərdən biri kimi özünü göstərir. Həmçinin 2007-2015-ci illərdə ölkəmizin gənclərinin xarici ölkələrdə təhsil almasını təmin etmək üçün Dövlət Proqramı qəbul edilmişdir. Bu proqram 5000-dən çox gəncin xaricdə təhsil almasını özündə ehtiva etmişdir (2, s.10). Ölkənin öz inkişafında bu və ya digər uğurlar qazanması üçün yeni nəsli savadlı kadr kimi formalaşdırmaq lazımdır. Bunun üçün də təbii ki, onların təhsilə marağının artırılması qarşımıza qoyulan vacib işlərdən biri olmalıdır. Belə ki, ilk olaraq onu qeyd etmək lazımdır ki, gənclərimizin bir çoxunda təəssüf ki, son vaxtlar təhsilə marağın azalmasının şahidi oluruq. Gənclərimizin maariflənməsinə, təhsilə marağının azalmasına olan maneələr ilk olaraq aradan qaldırılmalıdır.

Bununla bağlı ahəngyol elminin belə bir müddəasını qeyd etmək olar: İnsan davranışının formalaşmasına təsir göstərən 4 amil var və bunlar şəxsi keyfiyyətlər, mühit, alınan informasiya və üstün tutulan dəyərlərdir. Orta, ali məktəblərdə və bir sıra təhsil ocaqlarında təəssüf ki, təhsildən yayınan, digərlərinin də diqqətini uzaqlaşdırmağa çalışan bir qrup insanlarla rastlaşırıq. Bu problemin həlli üçün 4 amili araşdırmaq və onların qarşılıqlı əlaqələrinin yaranmasına çalışmaq lazımdır ki, problem aradan qaldırılsın. Həmçinin belə bir qrup insanların olduğu ortamda bu problemin aradan qaldırılması üçün müəyyən sosioloji sorğular keçirilməli, elmi araşdırmalar aparılmalıdır. Çünki gələcəyimiz gənc, savadlı kadrlardan çox asılıdır və bu baxımdan onların təhsilə marağının artırılması hər birimizin ən əsas vəzifələrindən biri olmalıdır.

Təhsilə marağın artırılmasıyla bağlı bir sıra işlər elə məktəbə hazırlıq dövründən həyata keçirilməlidir. Belə ki, bu təhsil hər bir fərdin psixoloji, fiziki və intelektual inkişafında, məktəbə hazırlığında, özünəməxsus yüksək keyfiyyətlərin üzə çıxarılmasında, bacarıqlı və yaradıcı bir şəxsiyyət kimi formalaşmasında mühüm amil kimi qiymətləndirilir. Ölkəmizdə məktəbəqədər təhsilə xüsusilə diqqət ayrılmalıdır. Bu mərhələdə insan üçün vacib bacarıq və vərdişlərin təməli qoyulur. Məktəbəqədər təhsil zamanı uşaqlarda müəyyən kaprizlər müşahidə olunur ki, bu zaman valideyn və müəllimlər uşaq ilə düzgün davranış qaydalarını bilməli və ona riayət etməlidir (3, s.116). Təbii ki, bunun üçün məktəb və ailənin qarşılıqlı münasibətinin təşkil edilməsi ən mühüm addım sayıla bilər. Hər bir insanın şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan bu mərhələdə valideynlər müntəzəm olaraq müəllimlər ilə əlaqə saxlamalı, həmçinin daha yaxşı olar ki, məktəbdə valideynlər üçün müəyyən təlimlər keçirilsin. Çünki məktəbəqədər təhsil insanın gələcək karyerasında, hansı sahəyə yönəlməsində mühüm rol oynayır. Bu mərhələdə uşaqlar da özünə inam hissini, fikrini sərbəst şəkildə ifadə etmək bacarığını aşılamaq lazımdır. Erkən yaşlarda, məktəbəqədər təhsil mərhələsində uşağa verilən hər hansı kobud reaksiya onların psixologiyasında da silinməz izlər qoyur. Onların özünə inam hissini formalaşdırılması üçün ilk olaraq hələ körpə yaşlardan uşaqlara sən bunu bacaraqsan, sən güclüsən sözlərini təlqin etmək lazımdır. Uşaq səhv etmək qorxusuyla müəyyən addımı atmaqdan çəkinməməlidir. Təbii ki, burada valideyn və müəllim dəstəyi çox önəmli amildir. Məktəbəqədər təhsil zamanı bu problemlərin aradan qaldırılması uşağın gələcəkdə cəmiyyətinə xidmət edən özünəinamlı, savadlı bir kadr kimi formalaşmasına şübhəsiz ki, təminat verəcəkdir.

Orta məktəbdə gənclərin təhsilə marağın artırılması sahəsində valideyn və məktəbin qarşılıqlı münasibəti mühüm rol oynayır. Hər bir gəncin təməli böyüdüyü ailədə qoyulur. Onun tərbiyəsində, savadlı kadr kimi formalaşmasında ailənin rolu çox böyükdür. Ailədə valideynlər daima uşağı inkişaf etdirməlidir. Gənclərin təhsilə marağının artırılması üçün orta məktəbdə

müəllim və valideyn arasında qarşılıqlı əlaqəsini təmin etmək üçün mühüm tədbirlər həyata keçirilməlidir. Uşaqların dərsə marağının azalmasının ilkin səbəbi kimi orta məktəbdə əzbərçilik metodikasının tətbiq edilməsini göstərə bilərik. Təhsil sistemimizdə test üsulunun tətbiq edilməsi də əzbərçiliyə yol açır. Belə ki, orta məktəbdə tədris yükünün ağır olması, gənclərin lazımsız tapşırıqlarla həddən artıq yüklənməsi onların dərsləri kor-koranə əzbərləməsinə gətirib çıxarır. Fikrimcə, ilk olaraq gənclərin özünəməxsus bacarıqları, potensialı ortaya çıxarılmalı, orta məktəblərdə valideyn və müəllimlərin qarşılıqlı əlaqəsi əsasında hər bir gəncin öz potensialına, inkişafına uyğun yeni tədris planı hazırlanmalı və onların beyni lazımsız materiallarla doldurulmamalıdır. Gənclərdə düşünmə vərdişlərini formalaşdırmaq, onların hər hansısa bir məsələyə sərbəst şəkildə öz fikirlərini bildirməsini təlqin etmək lazımdır. Belə olduğu halda gənclərin təhsilə marağının artmasını müşahidə edə bilərik. Çünki özünəinamlı, sağlam düşüncəli gənc daima yeni biliklər əldə etməyə, bu və ya digər sahədə araşdırma aparmağa həvəsli olur. Yaxşı olar ki, gənclərin təhsilə marağının artırılması üçün orta məktəb dövründən müəyyən məsələylə bağlı tədqiqat aparmaq vərdişləri aşılansın. Bu gün gənclərimiz adətən hər şeyi hazır əldə etmək istəyir, hər hansı mövzuyla bağlı materialları özü araşdırmaq istəmir, bu isə acınacaqlı vəziyyətdir. Müasir dövrümüzün gəncləri hər zaman yaradıcılığa açıq və yenilikçi olmalıdır. Mövzuyla bağlı daima araşdırma etməli və yeni məsələlər ortaya qoymalıdır. Bu zaman şagirdlərdə təhsilə olan marağın artdığının şahidi ola bilərik. Həmçinin belə halda tələbə gənclərimiz universitet dövründə tədqiqat işləriylə bağlı problem yaşamaz, yenilikçi olub, məsələylə bağlı rahatlıqla müəyyən nəticələrə gələ bilərlər. Deməli gənclərimizin təhsilə marağının artırılmasını təmin etmək üçün ilk olaraq təhsildə olan problemlər aradan qaldırılmalı və bununla bağlı sosial işlər məktəb dövründən həyata keçirilməlidir.

Müasir dövrümüzdə demək olar ki, bütün məktəblərdə psixoloqlar fəaliyyət göstərir. Lakin təəssüf ki, bu psixoloqların fəaliyyəti bir çox hallarda formal xarakter daşıyır. Fikrimcə, bugünki günümüzdə məktəblərdə həyata keçirilməli ən önəmli işlərdən biri sosial iş xidmətinn fəaliyyətinin təşkil edilməsi olmalıdır. Bu xidmət vasitəsi ilə təcrübəli müəllimlər ilə söhbət edilməli, onların təklif və tövsiyələri nəzərə alınaraq məktəbdə hansı sosial işlərə daha çox ehtiyac olduğu müəyyənləşdirilməlidir. Məktəblərdə bu xidmətin təşkil edilməsi vasitəsi ilə gənclərin davranışları, geyimləri, işçilərin şagirdlərə münasibəti müşahidə olunmalıdır. Problemli gənclərin olduğu qrupda müvafiq olaraq sosioloji sorğu aparılmalı və problemlər araşdırılmalı, bununla bağlı tədbirlər həyata keçirilməlidir. Ən önəmlisi, problemli şagirdlərin ailələri ilə yaxın əlaqə qurularaq, onlara övladının böyük potensialının olduğu, lakin bu potensialın üzə çıxması üçün orta məktəblə

ailənin birgə fəaliyyətinə ehtiyac duyulduğu izah edilməlidir. Burada valideynlərin də maariflənməsi üçün xüsusi proqram hazırlanmalıdır.

Göründüyü kimi hər bir gəncin təhsilində, təhsilə marağının artırılmasında məktəb və ailənin birgə fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Həmçinin sosial işçilər tərəfindən problemli və digər şagirdlərlə ayrıca söhbət edilərək, onların psixoloji vəziyyəti müəyyənləşdirilməlidir. Bu məsələlərlə bağlı təkliflər hazırlanaraq məktəb rəhbərliyinə təqdim edilməlidir. Orta məktəbdə həm valideynlər, həm də dərs deyən müəllimlər arasında sosioloji sorğunun keçirilməsi də uğurlu addım hesab edilə bilər. Həmçinin məktəbdə gənclərin fiziki sağlamlığının hansı səviyyədə olmasını müəyyən etmək üçün pulsuz tibbi müayinə aparılmalıdır. Onlarda özünə inam hissinin yaranması, mənəvi zənginliyin, vətənpərvərliyin, mədəni davranışın və yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün üçün xüsusi tədbirlər planı hazırlanmalıdır. Həyata keçirilən bu tədbirlər öz növbəsində gənclərin hələ orta məktəb dövründən təhsilə marağının artmasına, onların savadlı kadr kimi formalaşmasına, şübhəsiz ki, təminat verəcəkdir. Yuxarda qeyd edilənlərdən belə bir qənaətə gəlmək olar ki, orta məktəblərdə sosial işçilərə və sosial iş xidmətinin faəliyyət göstərməsinə böyük ehtiyac var və bunun təşkili üçün lazımı bütün tədbirlər həyata keçirilməlidir.

Hər bir insanın həyatında peşə seçimi mühüm əhəmiyyət kəsb edir. Orta məktəbdə təhsil alan zaman gənclərimizin müvafiq sahə ilə bağlı potensialı, bacarıqları üzə çıxır. Validеynlər hələ erkən yaşlardan övladlarının hansı peşəni seçməsi və onların gələcək taleyi barədə düşünür. Ümumiyyətlə, uşağın hansı qabiliyyətlərinin olması peşə seçimində zəruri faktor olaraq orta məktəbdə müəyyən edilir (4). Çox təəssüf ki, yuxarı sinif şagirdləri bəzən peşə seçimində müəyyən səhvlərə yol verir, dostların, qohumların, validеynlərin fikirləri əsasında peşə seçimi edirlər. Peşə seçimi hər bir gəncin gələcək taleyini müəyyən edir və buna görə də peşə seçimi gəncin hansı sahəyə marağının olması, hansı sahədə özünü görməsini əsas götürərək edilməlidir. Düzgün peşə seçiminin olunması gənclərin təhsilə marağının daha da artmasında mühüm rol oynayan amil olaraq qiymətləndirilə bilər. Bunun üçün də validеyn və orta məktəbin qarşılıqlı əlaqəsinin təmin edilməsi tələb olunur. Yaxşı olar ki, orta məktəbdə bu məsələylə bağlı genişmiqyaslı tədbirlər həyata keçirilsin.

Bu gün cəmiyyətin formalaşmasında gənclərin rolu çox böyükdür. Gənclik normal formalaşırsa, deməli həmin cəmiyyətdə normal inkişaf edir (5). Gəncin düzgün peşə seçimi etməsi onun gələcəkdə cəmiyyətinə xidmət edən sağlam düşüncəli, savadlı kadr kimi formalaşmasında mühüm rol oynayacaqdır. Belə ki, orta məktəbdə validеyn və müəllimlərin dəstəyi ilə peşə və onun əhəmiyyəti barədə gənclərlə söhbətlər aparılmalı, peşə məktəblərinə ekskursiyalar, görüşlər təşkil edilməlidir. Həmçinin müvafiq təlim və

seminarların keçirilməsi də uğurlu addım ola bilər. Xüsusilə karyera planlaması məsələlərinə ciddi diqqət göstərilməlidir.

Gənclərin təhsilə marağının artırılması özü elə keyfiyyətli yeni nəslin formalaşdırılmasından başlayır. Bunun üçün də təbii ki, valideynlərin də maariflənidirilməsinə böyük ehtiyac var. Ona görə də orta məktəblərə valideynlərin maariflənidirilməsini təşkil etmək üçün müəyyən büdcə ayrılmalıdır. Valideynlər tərəfindən keyfiyyətli gənc yetişdirilə bilmirsə, orta məktəb təəssüf ki, bununla bağlı bütün məsuliyyəti öz üzərinə götürə bilmir. Deməli, ilk olaraq diqqəti ailədə gəncin keyfiyyətli formalaşmasına yönəltmək lazımdır. Bunun üçün də təhsil sistemində yeni mexanizmlərdən istifadə edilməlidir.

Nəticə olaraq onu qeyd etmək olar ki, gənclərin təhsilə marağının daha da artırılması onların özünə inamını artırmaqla yanaşı, cəmiyyətə inteqrasiya prosesini asanlaşdırır. Həmçinin müəllim və valideynlərin qarşılıqlı əlaqəsini təşkil etmək lazımdır. Bununla yanaşı, bu sahədə valideynlərində maariflənidirilməsinə böyük ehtiyac var.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının Gənclər siyasəti haqqında Qanun (2002)*
2. *Cəfərov A. İmmaməliyev E. (2012) Azərbaycanın ictimai həyatında gənclərin rolu, Bakı.*
3. *Məmmədov Ə. (2010) Ömrün uğurlu bünövrəsi, Bakı.*
4. *URL:https://kayzen.az/blog/KamileKazimova/24594/erk%C9%99n-g%C9%99nclik-d%C3%B6vr%C3%BCn%C3%BCn-psixologiyas%C4%B1.html*
5. *URL : https://celt.az/g%C9%99ncliyimiz-v%C9%99-t%C9%99hsilimiz/*

**S.S.Tağızadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***taghizadesevda25@gmail.com***

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNTELLEKTUAL QABİLİYYƏTİNİN İNKİŞAFI

***Xülasə***

*Müasir dövrdə məktəbəqədər yaşlı uşaqlar ətrafımızdakı baş verən bütün hadisələrin, daimi dəyişən məlumatların təsiri ilə inkişaf edən uşaqlar materialı tez yadda saxlayır, yeni, müasir şəraitə tez və asanlıqla uyğunlaşır, öz qabiliyyətlərini inamla inkişaf etdirir və məktəbə daha yaxşı hazırlaşırlar. Uşaqların zehni fəaliyyətinin inkişaf etdirilməsi vasitələri müxtəlifdir. Məktəbəqədər yaş dövründə uşaqların marağı, biliyə və tədqiqata ehtiyacı, müxtəlif fəaliyyətlərə marağı ən aydın şəkildə özünü göstərir. Məktəbəqədər yaşlı uşaqlarla işləməkdə bizim vəzifəmiz uşaq fəaliyyətinin bütün növlərində uşaqların yaradıcı ifadəsi üçün şərait yaratmaqdır.*

# РАЗВИТИЕ ИНТЕЛЛЕКТУАЛЬНЫХ СПОСОБНОСТЕЙ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Резюме***

*В современное время дети дошкольного возраста, которые развиваются под влиянием всех происходящих вокруг нас событий, постоянно меняющейся информации, быстро запоминают материал, быстро и легко адаптируются к новым, современным условиям, уверенно развивают свои способности и лучше готовятся к школе. Существуют различные способы развития умственной деятельности детей. Детский интерес, потребность в знаниях и исследованиях, интерес к различным видам деятельности наиболее ярко проявляются в дошкольном возрасте. Наша задача в работе с дошкольниками – создать условия для детского творческого самовыражения во всех видах детской деятельности.*

# DEVELOPMENT OF İNTELLECTUAL ABİLİTY OF PRESCHOOL CHİLDREN

***Summary***

*In modern times, children of preschool age who develop under the influence of all the events happening around us, constantly changing information, remember the material quickly, quickly and easily adapt to new, modern conditions, confidently develop their abilities and prepare better for school. There are different ways to develop children's mental activity. Children's interest, need for knowledge and research, and interest in various activities are most clearly manifested in preschool age. Our task in working with preschool children is to create conditions for children's creative expression in all types of children's activities.*

***Açar sözlər:*** *intellektual inkişaf, idrak, təlim, təhsil, məktəbəqədər dövr, istedadlı uşaqlar*
***Ключевые слова:*** *интеллектуальное развитие, познание, обучение, воспитание, дошкольный период, одаренные дети*
***Key words:*** *intellectual development, cognition, learning, education, preschool period, gifted children*

Müasir dövrümüzdə məktəbəqədər yaşlı uşaqların intellektual qabiliyyətlərinin səmərəli inkişafı aktual problemlərdən birinə çevrilmişdir. Ətrafımızdakı baş verən bütün hadisələrin, daimi dəyişən məlumatların təsiri ilə inkişaf edən uşaqlar materialı tez yadda saxlayır, yeni, müasir şəraitə tez və asanlıqla uyğunlaşır, öz qabiliyyətlərini inamla inkişaf etdirir və məktəbə daha yaxşı hazırlaşırlar. Cəmiyyət tərəfindən zəruri şəraitin keyfiyyətcə yenilənməsi ilə uşağın intellektual potensialı artır.

Əgər uşağın intellektual inkişafından danışırıqsa, söyləmək olar ki, uşağın intellektual inkişafı bilik və bacarıqların məcmusudur və bu bilikləri əldə etmək və qeyri-standart vəziyyətlərin həllində tətbiq etmək lazımdır.

Uşağın intellektual inkişafı istənilən mərhələdə sürətləndirilə, ləngidə və ya dayandırıla bilər. Böyümə zamanı uşağın intellektual inkişafına tərbiyəçilərin və valideynlərin diqqəti onun mümkün qədər çox, düzgün istiqamətdə öyrənmək istəyi ilə birbaşa bağlıdır. İntellektual uşaqlar hər şeyi mənimsəyir ətraflarında baş verənlər onları daim maraqlandırır. Bununla belə, nəzərə almaq lazımdır ki, uşağın intellektual inkişafı özünəməxsus xüsusi mərhələdən keçir və hər biri əvvəlki mərhələlərin hazırlıq mərhələsindən keçir. Uşaq daim yeni formalar və üsullar haqqında düşünür, lakin demək lazımdır ki, əvvəlki düşüncə forması heç vaxt itib getmir. İntellektual iş çox mürəkkəbdir və məktəbəqədər yaşlı uşaqların və böyüklərin yaş xüsusiyyətlərini nəzərə almaq lazımdır. İnkişafın əsas yolu problemli tədqiqatdır, oyunun təşkilinin əsas formasıdır.

İntellektual davranışın əsasını ayrı-ayrı cisimlər arasındakı mürəkkəb münasibətləri əks etdirmək təşkil edir. Bu zaman heyvan iki cisim arasındakı əlaqəni tapdığına görə bu davranış formasını intellektual davranış kimi xarakterizə edirlər. ( 1. səh.30)

Məktəbəqədər yaşlı uşaqların psixologiyası, onların intellektual və idrak sahələrinin formalaşması məsələləri D.B.Elkonin, L.S.Vıqotski, A.N.Leontievin tədqiqatlarında öz əksini tapmışdır. Tədqiqatlar göstərirdi ki, məktəbəqədər yaşlı uşaqlar elmi biliklərə əsaslanan ümumi əlaqələr, prinsiplər və qanunlar haqqında anlayışa malikdirlər. Bu dövrdə təlim təfəkkür proseslərinin fəal inkişafına yönəldilsə, intellektual inkişafa nail olmaq olar. A.V.Zaporojets, V.N.Senerenko, A.P.Usova kimi alim və müəllimlərin əsərlərində məktəbəqədər yaşlı uşaqların intellektual qabiliyyətlərinin inkişafı

üçün praktiki tövsiyələr verilir, uşaqların idrak sferasının formalaşmasına pedaqoji dəstək prinsipləri nəzərdən keçirilir.

"Oyun zamanı öyrənmək" məktəbəqədər didaktikanın əsas qaydasıdır. Bu baxımdan bütün məktəbəqədər təhsil oyun üsul və üsullarına əsaslanır. İnanırıq ki, uşaqların təhsilinə oyunların tətbiqi, şübhəsiz ki, onun effektivliyini daha da artıracaq, çünki oyun:

- uşaqlara səmərəli kömək edən müsbət emosional fon yaradır;
- materialı mənimsəməyə kömək edir;
- uşağın bilavasitə idrak-intellektual və kommunikativ fəaliyyətinə təsir göstərir;
- uşağın azad edilməsinə kömək edir, yaradıcı həllər axtarışını təşviq edir.

V.A.Suxomlinski yazırdı: "Oyunlarsız tamhüquqlu intellektual inkişaf yoxdur və ola da bilməz. Oyun nəhəng parlaq pəncərədir ki, onun vasitəsilə həyat verən ideya və konsepsiyalar axını uşağın mənəvi dünyasına daxil olur. Oyun maraq və maraq alovunu alovlandıran qığılcımdır". Uşaqların zehni fəaliyyətinin inkişaf etdirilməsi vasitələri müxtəlifdir. Uşaqla həyat situasiyalarını, onun təbiət obyektləri ilə təcrübələrini, problemli məsələləri, oyun vəziyyətlərini, müxtəlif oyunları və daha çoxunu təhlil etmək uşaqların təfəkkür çevikliyini, obraz yaratmaq və işləmək bacarığını inkişaf etdirməyə kömək edəcəkdir.

Məktəbəqədər təhsil təşkilatlarının fəaliyyətində didaktik oyunlar mühüm yer tutur. Onlardan uşaqların öyrənmə fəaliyyətində və müstəqil fəaliyyətin təşkili prosesində istifadə olunur. Didaktik oyunlar uşaq fəaliyyət-lərinin bütün mərkəzlərində mövcuddur və xüsusi simvollarla mürəkkəblik səviyyəsində fərqlənir. Erkən uşaqlıqda idrak proseslərini inkişaf etdirmək üçün oyunlara (idrak, könüllü diqqət, yaddaş) təlim prosesində vizual-obrazlı, abstrakt, məntiqi təfəkkürün inkişafı üçün oyun və tapşırıqların tətbiqini tədricən genişləndirən "Şəkilləri yadda saxla" və "Eyni şeyi tap" kimi oyunlar daxildir. Tərbiyəçilər uşaqlara tapmacaların həlli, məntiqi problemlərin həlli üçün oyunlar təklif edirlər, "Nümunəni davam etdirin", "Qruplara bölün", "Ümumi söz tapın", "Forma yaradın" və s. Uşaqlar obyektlərin əlamətlərini, təsnif etməyi, ümumiləşdirməyi, müqayisə etməyi öyrənirlər. Bu işin sistemli və davamlı şəkildə aparılması vacibdir. Yalnız bu halda məktəbəqədər uşaqların intellektual inkişafının ən yüksək nəticəsini əldə etmək mümkündür. Bu gün istedadlı uşaqlar problemi təkcə məktəblər, liseylər, kolleclər və universitetlər üçün deyil, həm də məktəbəqədər təhsil müəssisələri üçün aktualdır. Psixoloqların fikrincə, erkən uşaqlıq və məktəbəqədər yaş bacarıq-ların inkişafı üçün ən vacib dövrdür. Sübut edilmişdir ki, hər bir uşaq doğulan-dan böyük potensiala malikdir, o, əlverişli şəraitdə səmərəli inkişaf edir və uşağa inkişafda yüksək zirvələrə çatmağa imkan verir.

Uşaqların intellektual hazırlıqda bütün idrak prosesləri iştirak edir. Ən əsası təfəkkür inkişaf səviyyəsidir. Uşaqlarda bu yaşda təfəkkürün - əyani obrazlı təfəkkür növünün inkişaf etməsi onların məktəb təliminə intellektual hazırlığının əsas göstəricisidir. Əyani-obrazlı təfəkkürün inkişafının səviyyəsinin göstəricisi isə ona verilən əyani tapşırıqların həllidir. Məsələn: həndəsi fiqurları bucaqlarına görə qruplaşdırmaq, sujetli şəkilləri ardıcıllıqla düzmək, süjetli şəkillər üzrə kiçik hekayələrin tərtib olunması və s. (2 səh 44)

Məktəbəqədər yaş dövründə uşaqların marağı, biliyə və tədqiqata ehtiyacı, müxtəlif fəaliyyətlərə marağı ən aydın şəkildə özünü göstərir. Xüsusilə bu yaşda uşağın fərdi qabiliyyətlərinin üzə çıxarılması, onun öyrənmə fəallığının stimullaşdırılması, intellektual potensialının inkişaf etdirilməsi valideynlər və müəllimlər üçün vacibdir. Məktəbəqədər yaşlı uşaqların intellektual potensialının inkişafı üçün bir sıra pedaqoji şərait yaratmaq lazımdır. Uşaqlıqdakı istedadı insanın həyat yolunun sonrakı mərhələləri ilə bağlı psixi inkişaf potensialı hesab etmək olar. Uşaqlarda onun əsas xüsusiyyəti artan tədqiqat və ya yaradıcılıq fəaliyyəti, yüksək koqnitiv motivasiya və yüksək səviyyəli özünü öyrənmədir.

Bu konsepsiyanı tərtib edənlərin mövqeyinə görə, uşaqların əksəriyyətində istedad əlamətləri var: müxtəlif fəaliyyətlərdə uğur qazanmaq üçün potensial şərtlər bir çox uşaqlara xasdır və əsl heyrətamiz nəticələr uşaqların əhəmiyyətli dərəcədə kiçik bir hissəsi ilə özünü göstərir. Uşaq bağçasında işin əsas istiqamətlərindən biri istedadlı uşaqların, o cümlədən hələ istedadı olmayan uşaqların, habelə öz qabiliyyətlərinə böyük ümid bəsləyən normal qabiliyyətli uşaqların optimal inkişafı üçün daha keyfiyyətli böyümə üçün şərait yaratmaqdır. Lakin şəhər mərkəzindən kənarda yaşayan, bəzi ucqar kənd yerlərində yaşayan uşaqların istedadlarının inkişafı bir çox problemlərlə əlaqələndirilir:

- məktəbəqədər təhsildə mütəxəssis çatışmazlığı;
- aşağı sosial-mədəni şərait;
- uşaqlara pedaqoji dəstək;
- rayon məktəbəqədər təhsil müəssisələrinin kifayət qədər maliyyələşdirilməməsi və nəticədə məktəbəqədər təhsilin keyfiyyətsizliyi.

Məktəbəqədər yaşlı uşaqlarla işləməkdə bizim vəzifəmiz uşaq fəaliyyətinin bütün növlərində uşaqların yaradıcı ifadəsi üçün şərait yaratmaqdır. Bu cür yerlərdə monitorinq apararaq uşaqların fəaliyyətinə nəzarət edib, hər bir məktəbəqədər yaşlı uşağın imkanlarına dair bilikləri əsasında fəaliyyətin nəticələrini və xarakterini qiymətləndirib və bu əsasda fərdi iş planlaşdırmaq lazımdır.

Yuxarıdakıları ümumiləşdirərək vurğulayırıq ki, məktəbəqədər yaşlı uşaqların idrak və intellektual fəaliyyətini səmərəli şəkildə inkişaf etdirmək

üçün, məktəbəqədər təhsilin təşkili üçün aşağıdakı şərtləri təmin etmək lazımdır:

- uşaqlar üçün seçilmiş oyunları və dərslikləri mürəkkəblik səviyyəsinə görə fərqləndirmək;
- müxtəlif fəaliyyət növlərində getdikcə mürəkkəbləşən tapşırıqlar sistemi yaratmaq;
- əlverişli psixoloji mühitin yaradılması (əməkdaşlıq və əməkdaşlığın yaradılması, davamlı təhsildə uğur üçün şəraitin yaradılması);
- problemli və inkişaf etdirici tədris metodlarından istifadə, müasir pedaqoji texnologiyalardan istifadə (təcrübə, layihə və tədqiqat fəaliyyəti, modelləşdirmə);
- valideynlərlə qarşılıqlı əlaqə;
- düzgün təşkil edilmiş planlaşdırma sistemi. ( 3 səh.117)

Pedaqoji kollektiv təhsilə marağı artan və istedadlı uşaqlarla işin aktuallığını və əhəmiyyətini dərk etməli, təhsilin fərdiləşdirilməsi və təbəqələşməsi, təhsilin vəhdəti prinsipi əsasında istedadlı uşaqların inkişafı üçün şərait yaratmalıdır. İstedadlı uşaqların tərbiyəsi və inkişafında tərbiyəçilər çalışmalıdırlar ki, ailə ilə daim əməkdaşlıq etsin.

***Ədəbiyyat***

*1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə Ali məktəblər üçün dərslik səh.30*
*2. Musa Qəhramanov- Yaş və İnkişaf Psixologiyası, Mühazirələr səh. 44*
*3. Nazirova G.M. Features of Organization Pedagogical Process in Preschool Educational Institutions // Eastern European Scientific Journal. – Germany, Ausgabe 1-2017. Səh. 115*

**A.E.Abdurahmanlı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***afetabdurahmanli@gmail.com***

# İBTİDAİ SİNİFLƏRDƏ QEYRİ-STANDART MƏSƏLƏLƏR HƏLLİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Məqalədə şagirdlərin riyazi təfəkkürünün, qabiliyyətlərinin inkişafına təsir göstərən qeyri-standart çalışmalara yer verilmişdir. Müxtəlif fərziyyə, sınaqlara əsaslanan qeyri-standart məsələlər şagirdlərin riyaziyyat fənninə olan marağını artırır. Qeyri-standart çalışmalar həllinin bütövlükdə şagird təfəkkürünün inkişafına, uzun müddət məsələ üzərində çalışmaq, analiz və sintez, müqayisə, ümumiləşdirmə kimi qabiliyyətlərinin inkişafına göstərdiyi təsirindən danışılır. Məqalədə əsas məqsəd müxtəlif nümunələr əsasında şagirdlərin müstəqil işlərini təmin etmək, biliklərin yeni situasiyalarda tətbiqini həyata keçirməkdir.*

# НЕКОТОРЫЕ ОСОБЕННОСТИ РЕШЕНИЯ НЕСТАНДАРТНЫХ ЗАДАЧ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Резюме***

*В статью включены нестандартные занятия, влияющие на развитие математического мышления и способностей учащихся. Нестандартные задачи, основанные на различных гипотезах и тестах, повышают интерес учащихся к математике. Обсуждается влияние решения нестандартных заданий на развитие мышления школьника в целом, на развитие таких способностей, как работа над проблемой в течение длительного времени, анализ и синтез, сравнение, обобщение. Основная цель статьи - предоставить учащимся самостоятельную работу на различных примерах, применить знания в новых ситуациях.*

# SOME SPECİAL FEATURES OF SOLVİNG NON-STANDARD TASKS İN PRİMARY CLASSES

***Summary***

*Non-standard studies that affect the development of students' mathematical thinking and abilities are included in the article. Non-standard problems based on various hypotheses and tests increase students' interest in mathematics. The impact of solving non-standard studies on the development of the student's thinking as a whole, on the development of abilities such as working on the problem for a long time, analysis and synthesis, comparison, and generalization is discussed. The main goal of the article is to provide students with independent work based on various examples, to apply knowledge in new situations.*

***Açar sözlər:*** *məsələ, riyazi təsəvvür, üsul, standart, qeyri standart, riyazi təfəkkür, didaktik funksiya, tip məsələ, inkişafetdirici funksiya, xassə, fəhm, zəka*

***Ключевые слова:*** *задача, математическое воображение, метод, стандартный, нестандартный, математическое мышление, дидактическая функция, типовая проблема, развивающая функция, свойство, понимание, талант*

***Key words:*** *task, mathematical imagination, method, standard, non-standard, mathematical thinking, didactic function, typical issue, developmental issue, property, understanding, intelligence*

Ümumtəhsil məktəblərində ibtidai sinif şagirdlərinə riyaziyyatın təlimi zamanı əsas riyazi təsəvvürlərin formalaşdırılmasının mühüm vasitəsi olan qeyri-standart məsələlərin həllinə böyük əhəmiyyət verilir. İbtidai sinif müəlliminin həll edə bildiyi məsələlərlə yanaşı, dərsliklərdə konkret həll alqoritmi olmayan, lakin yaradıcı təfəkkürü inkişaf etdirən qeyri-standart məsələlərin həllinə də tez-tez rast gəlirik. Metodik ədəbiyyatda belə məsələlərə qeyri-standart və ya tip olmayan məsələlər deyilir. Bu prosesdə şagirdlərin riyazi qabiliyyətləri inkişaf edir ki, bu da kiçik məktəblilərin riyazi təfəkkürünün inkişafına və formalaşmasına böyük köməklik göstərir. Bu tip məsələlərin həllində bəzən bir neçə cavabın alınacağı da nəzərdə tutulur. Qeyri-standart məsələlərin həlli şagirdlərə imkan verir ki, onlar müxtəlif fərziyyələr, ideyalar və mülahizələr irəli sürməyi bacarsın, təfəkkürün şablon asılılığından azad olsunlar və öz biliklərinin yeni, standart olmayan situasiyalarda tətbiqinə nail olsunlar. Görkəmli pedaqoq alim L.M.Fridmanın bu məsələyə yanaşmasına görə, standart məsələlər elə məsələlərə deyilir ki, onların həlli üçün ibtidai məktəb riyaziyyat kursunda hazır qaydalardan istifadə edilir. Qeyri-standart məsələlər üçün isə riyaziyyat kursunda onların dəqiq həll proqramını müəyyən edən ümumi qaydalar və müddəalar yoxdur. Çətinliyi artırılmış məsələlərdən fərqli olaraq bu tip məsələlərin həlli üçün həmişə müəyyən riyazi həll aparatı tapmaq mümkündür. Görkəmli riyaziyyatçı pedaqoq alim L.P.Stoylova qeyri-standart məsələlərin aşağıdakı təsnifatını vermişdir. (Şəkil1.)

**Qeyri-standart məsələlər**

| | | |
|---|---|---|
| - Fərziyyəyə aid məsələlər;<br>- obyektlər arasındakı məsafə nəzərə alınmaqla hərəkətə aid məsələlər;<br>- bir istiqamətli hərəkətə aid məsələlər;<br>- tənliklər və ya verilənlərin əvəz edilməsi üsulu ilə həll olunan məsələlər;<br>- qeyri müəyyən məlumlar daxil olan məsələlər. | - Əşyaların nizamlanmasına aid məsələlər;<br>- altçoxluqların seçilməsinə və onların nizamlanmasına aid məsələlər;<br>- müxtəlif variantların sayının müəyyən edilməsinə aid məsələlər;<br>- müəyyən əlamətə görə ən yaxşı nəticənin seçilməsinə aid məsələlər. | - Fəza, zaman, funksional münasibətlərin müəyyən edilməsinə aid məsələlər;<br>- variantların aktiv seçilməsinə, fəaliyyətin planlaşdırılmasına, çoxluqların elementləri arasında oxşar və fərqli münasibətlərin müəyyən edilməsinə, “bütün”, “bəzi” “ayrı-ayrı” kateqoriyalar üzərində əməllərə aid məsələlər. |

Qeyri-standart məsələlərə daxil olan riyazi materialları, əsasən aşağıdakı xassələrlə tam xarakterizə etmək olar:

1. Qeyri-standart məsələlərin həlli üsulları qabaqcadan məlum deyildir. Onların həlli əsasən sınaq, fərziyyə və səhvlər üsuluna əsaslanır. Bu axtarışlar əsasən bir qayda olaraq axtarılan riyazi həllin tapılması qaydasını təmsil edən fərziyyə (zənn etmə) üsulu ilə bitir.
2. Qeyri-standart məsələlərin həlli öyrənilən riyaziyyat fənninə qarşı marağı artırır, şagirdləri həmişə riyaziyyat fənninə qarşı motivasiya edir.
3. Qeyri-standart məsələlərin həlli əsasən təfəkkür qanunlarına aid biliklərə tam şəkildə əsaslanmaqla aparılır.

Qeyri-standart məsələlərin həll prosesi axtarıcı olması ilə xarakterizə olunur və şagirdlərdə fəhm (fərasət) və zəka kimi keyfiyyətlərin inkişaf etdiyini üzə çıxarır.

*Fəhm*-yaradıcılığın xüsusi növünün yaranması və üzə çıxmasıdır. Onun formalaşması şəraiti analitik əməliyyatlar, ümumiləşmələr, müqayisələrin nəticəsindən səbəb-nəticə əlaqələrinin müəyyən edilməsindən, analogiyalar, əqli nəticələr aparılmasından ibarətdir.

*Zəka* – qazanılmış biliklər üzərində əməliyyat aparmaq bacarığının göstəricisidir. Aydındır ki, həm fəhm (fərasət), həm də zəka qeyri-standart məsələlərin həlli axtarışının nəticəsi kimi dərk olunmalıdır. Qeyri-standart məsələləri həll etdikdə əsasən aşağıdakı məqsədlər nəzərdə tutulur:

1) Sintez və analiz, analogiya, müqayisə, ümumiləşdirmə kimi təfəkkür əməliyyatlarının yaranması və inkişafı;
2) Yaradıcı (əqli) təfəkkürün və bütövlükdə təfəkkürün inkişafı;
3) Öyrənilən fənnə və təlim prosesinə marağın saxlanması və artması;
4) Uzun müddət oturub çalışa bilmək, canyandırmaq (səyli), idrak fəaliyyətinə malik qabiliyyətli və yaradıcı şəxslərin formalaşmaşdırılması.

Qeyri-standart məsələlər müəllimin köməyi olmadan məsələnin həll yolunu tapmaqda şagirdlərə köməklik göstərir, başqa sözlə, uşaqlara alqoritmlərin tərtibinin öyrədilməsi üçün yaxşı bünövrə yaradır, məsələ həllinin orijinal yolunun müstəqil axtarılmasında şagirdlərə yardımçı olur. Bu məsələlər təlim prosesində əsasən təlimin inkişafetdirici funksiyasını yerinə yetirir. Qeyri-standart məsələləri dərsin müxtəlif mərhələlərində tətbiq etmək daha məqsədə uyğun hesab olunur. Aşağıdakı qeyri-standart məsələ nümunəsini nəzərdən keçirək:

“Məktəb üçün sarı və qırmızı rəngdə 8 bağlama kitab alınmışdır. Hər rəngdən neçə bağlama kitab alınmışdır?”. Birinci sinif şagirdlərinin 9 ədədinin tərkibi haqqında biliklərinin möhkəmləndirilməsində bu məsələdən istifadə etmək əlverişli olar. Şagirdlərin müstəqil işlərinə istinad edərək, ardıcıl təşkil olunmuş seçim nəticəsində verilmiş məsələnin bir neçə həll üsulu tapılır. Şagirdlər 8 ədədini iki toplananın cəmi şəklində göstərərək, yalnız məsələ şərtinə uyğun olanları seçirlər: 5 sarı və 3 qırmızı, 6 sarı və 2 qırmızı bağlama kitab və s.

Aşağıdakı cədvəldə bütün həll variantları verilmişdir:

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Sarı rəngli kitab bağlaması | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 |
| Qırmızı rəngli kitab bağlaması | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |

Qeyri-standart məsələləri seçdikdə müəllimin aşağıdakı qaydaları yadda saxlaması olduqca çox faydalı və əhəmiyyətlidir:

1. Qeyri-standart məsələlərə şagirdlər tərəfindən öyrənilmiş alqoritmlər daxil olmamalıdır.
2. Tapşırıqlar bütün uşaqlar üçün anlaşılan, sadə dildə olmalıdır.
3. Mətni əyləncəli və maraqlı olan riyazi məsələlər seçmək olduqca çox zəruridir.

Bir daha qeyd edək ki, qeyri-standart məsələlər elə məsələlərdir ki, ibtidai məktəbin riyaziyyat kursunda onların həllinin dəqiq proqramını (alqoritmini) müəyyən edən ümumi qaydalar və müddəalar yoxdur. Ona görə də, belə riyazi məsələlərin həlli prosesinin xüsusiyyətlərini qabaqcadan aydınlaşdırmaq olduqca vacib və əhəmiyyətlidir.

***Ədəbiyyat***

*1. Adıgözəlov A.S., Əhmədov İ.Q. İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi metodikası. Bakı: Mütərcim, 2001, 204 s.*
*2. Həmidov S., Rəhimova M. Riyazi təfəkkürün inkişafında düşündürücü çalışmaların rolu // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1990, №1, s. 13-17.*
*3. Борейко Л.Н. Нестандартные задачи по математике в начальной школе. Ростов н /Д. Феникс, 2008, 69 с.*

**H.İ.Bəxtiyarov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***hikmet.bextiyarov.2000@gmail.com***

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN X-XI SİNİFLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRDƏ İDRAKİ FƏALLIĞIN İNKİŞAF ETDİRİLMƏSİNİN TƏDQİQİ VƏZİYYƏTİ

***Xülasə***

*Məqalədə ilk növbədə ali məktəblərdə Azərbaycan tarixinin tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin müasir rolu və imkanlarından bəhs olunur. Elmi araşdırmalar və təcrübə göstərir ki, Azərbaycan tarixi dərslərinin tədrisində idrak fəallığının inkişafının nəzərə alınması tələbələrin akademik mühitdə və gündəlik həyatda uğur qazanmasına təkan verir. Buna görə də tələbələrin idrak fəallığının inkişaf etdirilməsinə Azərbaycan tarixinin müasir interaktiv metodlarla tədrisində ciddi əhəmiyyət verilməlidir.*

# СОСТОЯНИЕ ИЗУЧЕНИЯ РАЗВИТИЯ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ УЧАЩИХСЯ НА УРОКАХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В X-XI КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

***Резюме***

*В статье, освещается современная роль и возможности развития познавательной деятельности учащихся в преподавании истории Азербайджана в школах. Научные исследования и практика показывают, что учет развития познавательной деятельности при преподавании уроков истории Азербайджана в X-XI классах мотивирует учащихся к успеху в академической среде и повседневной жизни. Современные интерактивные методы обучения важны для повышения качества обучения учащихся. Поэтому при преподавании истории Азербайджана в X-XI классах с использованием современных интерактивных методов следует уделять серьезное внимание развитию познавательной деятельности учащихся.*

# THE STATE OF RESEARCH ON THE DEVELOPMENT OF COGNİTİVE ACTİVİTY İN STUDENTS İN THE HİSTORY LESSONS OF AZERBAİJAN İN THE X-XI CLASSES OF GENERAL EDUCATİON SCHOOLS

***Summary***

*The article discusses, first of all, the modern role and possibilities of developing students' cognitive activity in teaching the history of Azerbaijan in schools.*

*Scientific research and practice show that taking into account the development of cognitive activity in teaching Azerbaijani history lessons in X-XI grades helps students to achieve success in the academic environment and in everyday life. Modern interactive teaching methods are essential to improve the educational quality of students. Therefore, when teaching the history of Azerbaijan using modern interactive methods, serious attention should be paid to the development of cognitive activity of students.*

***Açar sözlər:*** *orta məktəb, Azərbaycan tarixinin tədrisi, təlim prosesi, təfəkkürün növləri, idrak, müasir interaktiv təlim metodları*

***Ключевые слова:*** *средняя школа, преподавание истории Азербайджана, учебный процесс, типы мышления, познание, современные интерактивные методы обучения*

***Key words:*** *secondary school, teaching the history of Azerbaijan, learning process, types of thinking, cognition, modern interactive teaching methods*

Müasir məktəb müəllimi qarşısında duran vacib vəzifələrdən biri təlim sessiyalarının təşkilində yeni yanaşmaların tətbiq edilməsindədir. Bu isə ilk növbədə məktəbdə şagirdlərin tədris prosesinin müstəqillik və idrak fəaliyyətinin inkişafına yönəldilməsindən irəli gəlir. S.A.Məmmədov və R.İ.Əliyev ali məktəblər üçün hazırladıqları proqramın izahat vərəqində yazırlar: "Hər bir mövzunun məzmununa uyğun yeni təlim metodu seçilməli və tətbiq edilməlidir" (2, s. 3).

Prof.A.O.Mehrabov problemlə bağlı yazır: - Yeni təlim metodlarının tətbiqinə həm müəllimlər, həm də təhsil alanlar dərindən yiyələnməlidirlər. (1,s.39). Təhsil islahatı proqramında təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici təlim metodlarının geniş tətbiqinə diqqət verilməsi tövsiyə edilir. Metodlar içərisində fəal təlim metodları önəmli rola malikdir.

1. Fəal təlim zamanı təhsilalanlar, öyrənənlər təlim prosesinin tamhüquqlu iştirakçıları olurlar və elmin yeniliklərini, yeni bilikləri fəal axtarış və kəşflər zamanı mənimsəyirlər (3, s. 83).
2. İnteraktiv təlim – təlimin qarşılıqlı əlaqəsidir. İnteraktiv dərslərdə debat, diskussiya, əqli hücum və ya qruplarla iş, rollu oyun və s. təlim metodlarıdan istifadə edilir. İnteraktiv təlimin əsas hədəfi şagirdlər üçün idrak fəallığını inkişaf etdirə bilən rahat əlverişli öyrənmə və öyrətmə mühiti yaratmaq, onların tədris prosesində özlərini məhsuldar hiss etmələri üçün əlverişli şərait yaratmaqdır. Ən vacib məsələ isə fəal interaktiv təlim zamanı şagirdlərin yaradıcı fəaliyyəti, idrak fəaliyyətidir.
3. Fəal təlimdə yaradıcılıq böyük əhəmiyyət kəsb edir. Yaradıcılıq hər hansı bir yeniliyin yaradılmasına yönəldilmiş prosesdir. Müasir kurikulumların tələblərini əsas götürsək X-XI siniflərin Azərbaycan tarixi dərslərində təlim

prosesində şagirdlərdə də idrak fəallığının formalaşdırılması üçün aşağıdakı əlamətlər səciyyəvidir:

a) iki tərəfli xarakter;

b) müəllimlərin və şagirdlərin birgə fəaliyyəti;

c) təlimə müəllim tərəfindən rəhbərlik edilməsi;

ç) şagirdlərin təhsil-tərbiyəsini, inkişafını və formalaşmasını, plana uyğun surətdə təşkil və idarə etmək;

d) təlimdə tamlığı təmin etmək.

Beləliklə, Azərbaycan tarixi üzrə təlim prosesi – müəllimin rəhbərliyi altında tələbələrin Vətən tarixinin Azərbaycan tarixinin əsaslarını dərk etməsi prosesidir.

Araşdırmalar göstərir ki, Azərbaycan tarixi üzrə təlim prosesinin planlaşdırılması elmi – məntiqi ardıcıllıqla əsaslandıqda təlimdə keyfiyyət dəyişikliyi baş verir. Burada əsasən öyrədici mühitin yaradılması və ondan istifadə edilməsi şagirdlərin idrak fəallığının formalaşdırılmasının təşkili və ona nəzarət, dərsin 7 mərhələlərinin ardıcıllıqla planlaşdırılması və təlim fəaliyyətinin yaradıcı təşkili və ona nəzarət edilməsi məsələləri əsas götürülür.

B.J.Xanter yazır: “Təlimdə uğur qazanmaq üçün öyrənənlərin kompüter texnologiyasından istifadə vərdişlərinə yiyələnmələrinə nail olmaq lazımdır. (4, s. 87) İnteraktiv təlim qarşılıqlı əlaqəyə əsaslanır. Həllinə çalışdığımız problemin həllinə yeni təlim metodlarından istifadə etməklə nail olmaq olar. Ona görə ki, fəal təlim yaradıcı bir prosesdir və bu zaman: 1) əməkdaşlıq şəraitində yeni bilik kəşf olunur; 2) kəşf olunmuş yeni bilik əsaslandırılır. Bununla da şagirdlərdə yaradıcı, məntiqi və tənqidi təfəkkürün inkişafına motiv yaradılır. Beləliklə, interaktiv təlimin əsas məqsədi müəllim tərəfindən şagirdin özünün biliklərini kəşf edəcəyi, əldə edəcəyi və quracağı şərtləri yaratmaqdır.

X-XI siniflərin Azərbaycan tarixi dərslərində şagirdlərin idrak fəallığının inkişaf etdirilməsi onları yaradıcı öyrənməyə, özünün, gələcəyinin yaradıcısı olmağa təşviq edir. Şagirdlərin idrak fəallığının formalaşdırılması, fəallaşdırılması tədris prosesində yaradıcılıq dərəcəsinin yüksəldilməsində son dərəcə vacibdir. Şagirdlərdə idrak fəallığının tənqidi, yaradıcı, məntiqi düşüncə proseslərinə sövq etməklə təhrik etmək olar. Xarici pedaqoq və psixoloqlardan B.Lahey, L.Lefton, R.Malott, R.Plotnik və digər psixoloji nəzəriyyəçilər tənqidi düşünməyə fikirlərimizi, hisslərimizi və davranışlarımızı aydınlaşdırmaq və inkişaf etdirmək üçün düşünmək və qiymətləndirmək kimi baxırlar.

C.U.Arxanqelski ali məktəbdə təlimin nəzəriyyəsinə dair mühazirələr adlı monoqrafiyasında təlimin təşkili problemlərini araşdırmışdır (5, s. 14).

Təhsil nəzəriyyəçiləri şagirdin tənqidi düşünmək meylinin əsas amil olduğunu qəbul edirlər. Beləliklə, şagirdlər maraqlanmağa, suallar verməyə və

onlara söylənilən hər şeyə inanmamağa təşviq edilməlidir. İdrak fəallığının inkişafı yollarının əsaslandırılmasında bizim üçün metodoloji cəhətdən vacib olanı inkişaf etməkdə olan təhsilin müasir ideyalarıdır, onun məqsədi uşaqda yaradıcılıqla məşğul olmaq və ən başlıcası, tarixən cızılmış mədəniyyət sahələrinin hər hansı birində yeni fəaliyyət üsullarını yenidən qurmaqdır. İdrak fəaliyyəti pedaqoji hadisə kimi ikitərəfli qarşılıqlı əlaqədə olan prosesdir: bir tərəfdən bu, şagirdin özünü təşkili və özünü həyata keçirməsi formasıdır, digər tərəfdən, müəllimin təhsildə xüsusi səyinin nəticəsidir.

G.Loving, J.Wilson və J.Oermann tərəfindən göstərildiyi kimi idrak fəallığı bir çox təlim strategiyalarından istifadə etdikdən sonra zamanla təcrübə və qiymətləndirmə ilə inkişaf edir. Tədqiqatımız X-XI siniflərin Azərbaycan tarixi dərslərində idrak fəallığını şagirdlərdə inkişaf etdirməyi asanlaşdıran amillərə yönəlmişdir. Bu ilk növbədə yaradıcı öyrənmə mühitidir. Yaradıcı təhsil mühiti şagirdləri digər öyrənənlərlə qarşılıqlı münasibətdə necə davranmağı sərbəst seçim etməyə sövq edən mühit kimi təsvir edə bilərik. Yaradıcı mühit yeni fikirlərin formalaşdığı bir mühitdir.

Tənqidi düşünmə bacarıqlarına tədris prosesində şagirdlərdə idrak fəallığı yaratdığı üçün, həmçinin şagirdlərdə akademik mühitdə və gündəlik həyatda uğur qazanmasına kömək etdiyi üçün üstünlük verilməlidir.

Tədris prosesinin effektivliyinin ən vacib şərtlərindən biri də şagirdlərdə idrak fəallığının formalaşmasıdır. İdrak fəallığı-insanın yeni biliyə olan tələbatına əsaslanan daxili motivdir. İdrak aktivliyi xarici, təlimə əlavə bir şey deyil. Onun mövcudluğu tədris prosesinin uğurlu keçməsinin əsas şərtlərindən biri və onun düzgün təşkil olunmasının sübutudur, yoxluğu isə tədrisin təşkilində ciddi nöqsanların göstəricisidir.

Müasir pedaqogika getdikcə uşağı öyrənmə fəaliyyətinin subyekti, öz müqəddəratını təyin etmək və özünü həyata keçirməyə çalışan bir insan kimi tərbiyə etməyə xidmət edir. Fəallaşdırma zamanı konstruktivizm nəzəriyyəsi - öyrənmə nəzəriyyəsindən geniş istifadə olunur. Konstruktivizmin başlanğıcı İsvec bioloqu Jan Piajenin adı ilə bağlıdır. Hərçənd, ABŞ alimi R.Yager konstruktivizmi XVII əsr filosofu Vikonun adı ilə bağlasa da, bu sahədə J.Piajenin əsərləri konstruktivizm nəzəriyyəsinin əsasını təşkil etmişdir.
(6,s. 52)

Beləliklə, fikrimizcə, şəxsiyyətin fəallığına, o cümlədən uşağın fəallığına, öz spesifik xüsusiyyətlərinə malik sosial hadisə kimi baxmaq düzgündür. Bu, şəxsiyyətin özünün və fəallığın inkişaf etdiyi sosial mühitin dəyişməsi ilə əlaqədar dəyişə bilər. İstifadə olunan təlim metodları öyrənənlərin təlimə marağını artırmalı, onlarda sonrakı dərslərə daxili həvəs və maraq oyatmalıdır. Metod qabiliyyətlərin oyanması və hərəkətə gətirilməsi üçün müəllim tərəfindən istifadə olunan üsul və vasitələrin məcmusu olduğundan, çalışmaq lazımdır ki, dərsdə aparılan fikir mübadiləsi, çıxarılan

nəticələr axıcı olsun, şagird və tələbələrin elm öyrənməyə meyilləri artsın. Təlimdə onun həyatı üçün əhəmiyyətli yeni bilik öyrəndiyini duymayan uşaqda təlimə maraq azalır. Buradan da belə nəticəyə gəlmək olar ki, o, biliyi ona öyrətdiyimizə görə deyil, onun əhəmiyyəti, həyatdakı rolunu özü başa düşdüyünə görə öyrənməyə can atsın. Başqa sözlə desək, təlimdə ən başlıcası elmi şagirdlərə həyatlarında tələbatlarının ödəyəcəyi ən zəruri bir vasitə kimi ürəkdən sevdirmək lazımdır.

**Məqalənin elmi yeniliyi.** Ümumtəhsil məktəblərində Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində şagirdlərin idrak fəallığının inkişaf etdirilməsinin vacibliyi ilə əlaqədar səmərəli fikirlər irəli sürülmüşdür.

**Məqalənin praktik əhəmiyyəti.** Ümumtəhsil məktəblərində Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində şagirdlərin idrak fəallığının inkişaf etdirilməsi ilə bağlı tədqiqatda əldə olunan nəticələr faydalı təkliflər kimi səciyyə daşıyır.

**Məqalənin nəzəri əhəmiyyəti.** Orta məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində şagirdlərin idrak fəallığının inkişaf etdirilməsinin mühüm əhəmiyyəti vardır. Ümumtəhsil məktəblərində Azərbaycan tarixi dərslərində şagirdlərdə idrak fəallığının inkişaf etdirilməsini şərtləndirən amillərin sistemləşdirilməsi problem baxımından aktuallıq kəsb edir.

***Ədəbiyyat***

*1. Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri: Dərs vəsaiti. Bakı, 2011. 2. Nəcəfli T. Tarixin tədrisində müasir üsullar. Bakı, 2000.*
*2. Mehrabov A. və b. —Pedaqoji texnologiyalar. Bakı, 2006, 295 s.*
*3. Paşayev T. Tarixin tədrisi: tarixilik və müasirlik: Monoqrafiya. Bakı: Nurlan, 2006, 280.s.*
*4. Хантер Б.И. Мой ученики работают на компьютерах Кн. для учителя: М.: Просвещение, 1989, 224 с.*
*5. Егорова О.Л. Модульная технология обучения // Преподавание истории в школе, 2003, № 7.*
*6. Yager R.E. The constructivist learning model: Towards real reform in science education. The Science Teacher, 58(6), 1991, Pp.52-57*

**Z.A.Nəzərli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***Zehra.Nezerli1999@gmail.com***

# TARİX MÜƏLLİMİNİN PEDAQOJİ SƏRİŞTƏSİ VƏ AKMEOLOJİ KOMPETENSİYANIN İNKİŞAF ETDİRİLMƏSİNİN ZƏRURİLİYİ

***Xülasə***

*Məqalədə mövzunun aktuallığı əsaslandırılıb, tarix müəlliminin pedaqoji səriştəsi və akmeoloji kompetensiyanın inkişaf etdirilməsinin zəruriliyinin əsas şərtləri şərh edilib. Mövzu ilə bağlı müxtəlif yerli və xarici ədəbiyyatlara, metodistlərin fikir və yanaşmalarına münasibət bildirilib və onların mahiyyəti qeyd olunmuşdur. Ənənəvi təlimdən fərqli olaraq fəal təlimdə müəllimin mövqeyi, pedaqoji səriştənin inkişaf etdirilməsi işıqlandırılmışdır.*

*Tarix müəlliminin pedaqoji səriştəsi və akmeoloji kompetensiyanın inkişaf etdirilməsinin zəruriliyi hərtərəfli araşdırılaraq təhlil edilmişdir.*

# ПЕДАГОГИЧЕСКАЯ КОМПЕТЕНТНОСТЬ УЧИТЕЛЯ ИСТОРИИ И НЕОБХОДИМОСТЬ РАЗВИТИЯ АКМЕОЛОГИЧЕСКОЙ КОМПЕТЕНТНОСТИ

***Резюме***

*В статье дано обоснование актуальности темы, разъяснения основных условий необходимости развития педагогической компетентности учителя истории и акмеологической компетентности. Высказаны различные отечественные и зарубежные литературы по теме, взгляды и подходы методистов и отмечена их сущность. В отличие от традиционного обучения выделена позиция учителя в активном обучении, развитии педагогической компетентности.*

*Подробно исследованы и проанализированы педагогическая компетентность учителя истории и необходимость развития акмеологической компетентности.*

# PEDAGOGİCAL COMPETENCE OF THE HİSTORY TEACHER AND THE NEED TO DEVELOP ACMEOLOGİCAL COMPETENCE

***Summary***

*The relevance of the topic is justified in the article, the basic conditions of the necessity of developing the history teacher's pedagogical competence and acmeological competence are explained. Various domestic and foreign literatures on the subject, views and approaches of Methodists were expressed and their essence was*

*noted. In contrast to traditional training, the position of the teacher in active training, the development of pedagogical competence has been highlighted.*

*The pedagogical competence of the history teacher and the need to develop the acmeological competence have been thoroughly investigated and analyzed.*

***Açar sözlər:*** *kompetentlik, müəllim hazırlığı, Azərbaycan tarixi, akmeoloji kompetensiya, təlim, inkişaf*

***Ключевые слова:*** *компетентность, подготовка учителя, история Азербайджана, акмеологическая компетенция, обучение, прогресс*

***Key words:*** *competence, teacher training, history of Azerbaijan, acmeology competence, teaching, development*

Müasir dünyada elmi-texniki tərəqqinin və ictimai həyatın sürətli inkişafı müəllimdən öz biliyini, pedaqoji səriştəsini, ustalığını təkmilləşdirməyi və daim artırmağı tələb edir. Bu, müəllimin mühüm təlim-tərbiyə vəzifələrini müvəffəqiyyətlə həyata keçirməsinin başlıca tələblərindəndir. Müəllim, daim öz biliyini təkmilləşdirməli, özünütəhsillə müntəzəm olaraq məşğul olmalıdır. Təlimdə müsbət nəticələrin əldə edilməsi üçün psixoloji xüsusiyyətlərə dərindən yiyələnmək lazımdır. Müəllim bütün hallarda, xüsusilə də “müəllim-şagird” münasibətlərinin qurulmasında pedaqoji taktı – nəzakəti, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəblə davranmalıdır. Təlim prosesində müəllim-şagird münasibətinin düzgün qurulması, şagirdlərin təhsilə marağının artmasında, tədris olunan fənlərin sevdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Kompetent müəllim yalnız diplomlu mütəxəssis deyil, o, həm də “yaxşı əməkdaş”, “tərbiyəçi”, “yolgöstərən”, “istiqamətverən”, “bələdçi”dir. Hər bir müəllim, eləcə də tarix müəllimləri gərək öz sahəsində səriştəli olsun, geniş ümumi məlumata, pedaqoji qabiliyyət və vərdişlərə, öyrətmək keyfiyyətlərinə malik olsun.

24 oktyabr 2013-cü il tarixli “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası”nda səriştəli müəllim hazırlığı məsələlərinə xüsusi diqqət yetirilmişdir. Bu sənəddə deyilir: “Səriştə əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir”. Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri onun akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur. (1)

Günümüzdə tarix müəlliminin vacib xüsusiyyətləri – daim özünü inkişaf etdirmə, özünütəhsil, özünütənqid, fədakarlıq, erudisiya və yeni

texnologiyaların mənimsədilməsidir. Kompetensiyaya əsaslanan tədris təcrübəsi göstərir ki, müasir tədris metodlarının köməyilə ənənəvi tədrisdə əldə edilməsi çətin olan bir sıra problemləri effektiv həll etmək olar. Peşəkar pedaqoji kompetensiyaların inkişafı yalnız müəyyən bir müəllimin fərdi inkişafının vəzifəsi deyil, həm də təhsil prosesinin formalaşması üçün ən vacib şərtdir. Müəllimin peşəkar kompetensiyası əsas olaraq, təlimdən və əldə edilən təlim təcrübəsindən asılıdır (2, s 153-154).

Müasir təhsil prosesində akmeologiya kontekstində öyrənilən şəxsiyyətin daim inkişaf etdirilməsi vacibdir. Akmeologiya insan və şəxsiyyətin inkişafının xüsusiyyətlərini öyrənən, eyni zamanda bu prosesdə ən yüksək nöqtəyə çatmağın yollarını axtaran bir elmdir. Akmeoloqlar öz tədqiqatlarını psixoloji və pedaqoji elmlər sahəsində aparır, eyni zamanda biologiya, genetika, nevrologiya və digər sahələrin nailiyyətlərinə də müraciət edirlər. İlk dəfə "akmeologiya" termini 1928-ci ildə sovet psixoloqu Nikolay Rıbnikov tərəfindən istifadə edilmişdir. XX əsrin ortalarında başqa bir sovet psixoloqu Boris Ananiev insan elmləri sistemində akmeologiyanın yerini müəyyənləşdirdi. Bu tədqiqatın aktuallığı artan sosial pedaqoqlarda akmeoloji səriştənin və onun komponentlərinin inkişaf səviyyəsi ilə müəyyən edilir. Müəllim səriştəsinin formalaşması həm peşəkar ali təhsil almağı, həm də sonrakı özünütəhsil və özünü təkmilləşdirməyi əhatə edən ayrılmaz davamlı prosesdir. Bir mütəxəssisin və insanın özünü həyata keçirmə qabiliyyəti akmeoloji bilik və bacarıqlarla müəyyən edilir (2, s. 19-25).

Akmeoloji bacarıqlar peşəkar fəaliyyətdə özünü reallaşdıra və peşəkarlıq zirvələrinə çata bilən, getdikcə inkişaf edən yetkin şəxsiyyət formalaşdırır. Eyni zamanda, yüksək nailiyyətlərə, fərdin bacarıq və ya peşəkarlığının inkişafına yönəlmiş peşəkar keyfiyyətlərin formalaşmasına kömək edən qanunauyğunluqlar, mexanizmlər, şərtlər və amillərdən istifadə olunur (3, s. 469-472).

Bu gün akmeoloji tədqiqatlar əsasən rus pedaqoji və psixoloji istiqamətdə aparılır, çünki akmeoloji anlayışlar və proseslər Avropa tədqiqatçıları tərəfindən bir qədər fərqli şəkildə müəyyən edilir. Qərb tədqiqatçıları akmeologiyanı bütün təzahürlərində maksimum özünü həyata keçirmə hesab edirlər. Elmi ictimaiyyətdə akmeologiya yeni bir anlayışdır, inteqrasiyası daim mədəni çətinliklərlə üzləşir: mədəniyyətlərin bir-birinə nüfuz etməsi, mənəvi dəyərlərdəki fərqlər, fərdiliyin itirilməsi və müxtəlif mədəniyyətlərə görə spesifiklik (4, s.184-187). Amma eyni zamanda, elmi tədqiqatlar ali pedaqoji təhsildə və xüsusən də müəllimlərin hazırlanması kontekstində akmeoloji prinsiplərin tətbiqi və tətbiqinə ehtiyac olduğunu göstərir.

Akmeoloji kompetensiya yaradıcı və peşəkar aspektlərdə yüksək özünü reallaşdırmağı, həmçinin maksimum peşəkar uğur əldə etməyi təmin edir. Akmeoloji səriştənin tərkib hissələri aşağıdakılardır:

1. motivasiya və dəyər (şəxsi və peşəkar özünü təkmilləşdirməyi, habelə peşəkar fəaliyyətdə öz nailiyyətlərinə nail olmağı təmin edir; marağın mövcudluğunu və effektiv peşə bacarıqları əldə etməyi nəzərdə tutur);
2. koqnitiv (şəxsin peşəkar və şəxsi özünü təkmilləşdirmə ehtiyacının dərk edilməsini və həyat boyu öyrənmə qabiliyyətinin formalaşmasını təmin edən biliyə əsaslanır);
3. prosessual (davamlı öyrənmə bacarıqlarının və peşəkar pedaqoji bacarıqların inkişafı ilə xarakterizə olunur);
4. şəxsiyyəti əks etdirən (yüksələn müəllimin şəxsi keyfiyyətlərə və öz yüksəkliklərinə nail olmağa kömək edən əks etdirmə bacarıqlarına malik olduğunu güman edir) (5, s 334-354).

Akmeoloji kompetensiyanın inkişafı pedaqoqların peşə özünü inkişafına, peşə fəaliyyətində öz nailiyyətlərinə nail olmağa, həyat boyu öyrənmə qabiliyyətinin formalaşmasına, eləcə də təhsilin inkişafına yönəlməsini təmin edən çoxkomponentli bir prosesdir. Bu gün müəllimlər arasında akmeoloji kompetensiyanın səmərəli inkişafı müasir ixtisaslaşdırılmış təlimin və yüksək ixtisaslı mütəxəssisin formalaşmasının zəruri komponentidir.

Amerika tədqiqatları mütəxəssislərin hazırlanmasının praktiki bacarıqlar, onların tətbiqi, təcrübəsi və tələb olunan bir sıra kompetensiyalar kimi aspektlərini nəzərdən keçirmişdir (Amerika Psixoloji Assosiasiyası, 2020). Praktik bacarıqların əldə edilməsi üçün müasir standartların formalaşması kompetensiyaların - özünü inkişaf, özünü idarə etmə, öyrənmə, yaddaşın inkişafını tələb edir. Bu səlahiyyətlər təlim prosesi və onları inkişaf etdirənlərin qavrayışı ilə müəyyən edilən müsbət dinamikaya malikdir.

Kompetensiyaların inkişafı özünütənzimləmənin formalaşmasını tələb edir. Bacarıqların formalaşmasına akademik nailiyyətlər müsbət təsir edir. Ümumiyyətlə, formalaşmış səriştələr tərəqqi, şəxsiyyətlərarası davranış, psixi sağlamlıq, sağlam həyat, eləcə də peşəkar və şəxsi nailiyyətləri proqnozlaşdıra bilir. Motivasiya səriştənin tərkib hissəsi və onun inkişafının əsas amili kimi hesab edilir. Bu səriştənin inkişafı şəxsi və peşəkar inkişafı təmin edir.

Müasir dövrümüzdə yanlış bir fikir formalaşıb ki, əgər müəllim öz ixtisası üzrə yüksək biliyə malikdirsə, o əsl müəllimdir. Lakin, müəllimin pedaqoji peşəkarlığı və akmeoloji kompetensiyanın inkişaf etdirilməsinin zəruriliyi nəzərə alınmır. Düşünürəm ki, sözü gedən kompetentlik təlim prosesinin təkmilləşdirilməsi üçün bilik qədər önəmli rol oynayır. Nəticə olaraq belə qeyd etmək olar ki, tarix müəlliminin pedaqoji səriştəsi və akmeoloji kompetensiyanın inkişaf etdirilməsinin zəruriliyi təlim prosesinin təkmilləşdirilməsi üçün əsasdır. Tarixin öyrədilməsi yalnız əsas tarixi bilik və

faktların ötürülməsinə deyil, məqsədlərin həyata keçirilməsinin müxtəlif üsul və yollarının tətbiqinə yönəlmişdir. Müasir dövrümüzdə müəllim yalnız bilik verməklə kifayətlənməməlidir. O, həm də təhsil alanların şəxsi inkişafına, yaradıcı qabiliyyətlərinin formalaşmasına xüsusi nəzər yetirməlidir. Artıq təhsil sisteminin bütün pillələrində təhsilalanlara bilik, bacarıq, vərdiş, dəyər və keyfiyyət aşılayan müəllimlərin özlərinin də bu kompetensiyalara sahib olması pedaqoji prosesin müsbət inkişafını sürətləndirən ən vacib şərtlərdəndir. Peşəkar kompetensiyanın formalaşması davamlı təkmilləşmə, daha çox bilik və bacarıq əldə etmə, fəaliyyətin zənginləşdirilməsini tələb edən prosesdir. Peşə kompetensiyalarının formalaşdırılması prosesi mühitdən də çox asılıdır. Odur ki, mühit peşəkar özünüinkişafa stimul verməlidir. Peşə kompetensiyasının inkişafı elə bir dinamik prosesə çevrilməlidir ki, bu proses müəllimin fasiləsiz olaraq təkmilləşməsi ilə nəticələnməlidir.

**Məqalənin nəzəri əhəmiyyəti:** Məqalədə əldə edilən nəticələr, irəli sürülən fikir və müddəalar tarixin tədrisi metodikası elminin nəzəri məsələlərini zənginləşdirmək üçün xüsusi əhəmiyyətə malikdir.

**Məqalənin elmi yeniliyi:** Məqalədə tarix müəlliminin pedaqoji səriştəsi və akmeoloji kompetensiyanın inkişaf etdirilməsinin zəruriliyi məsələsi müəyyənləşdirilərək, ona aydınlıq gətirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti:** Məqalədə əldə edilən nəticələrdən və onun məzmunundan tələbələr, magistrantlar, ali təhsil müəssisələrində çalışan müəllimlər, tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edərək, faydalana biləcəklər.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 2013, 24 oktyabr: https://president.az/az/articles/view/9779*
2. *Musayev D.M. "Tarixin tədrisində interaktiv metodlardan istifadənin imkanları". Bakı – 2022.*
3. *Dereka, T. G. Formation of personality's acme-qualities as a component ofphysical education specialists' acmeological competence. Pedagog. Psychol. Med. Biol. Probl. Phys. Train. Sports 20, 2016, 19–25.*
4. *Rudakova, O. A. Acmeological development of the personality of a risingpsychologist as the basis of professional competence. Probl. Mod. Teach. Educ.63, 2019, 469-472.*
5. *Izmailova, D. I. Cultural problems of society in the context of moderngl obalization processes. Intern. J. Soc. Hum. Sci. 2, 2016, 184–187.*
6. *Protsenko. Acmeological competence of a rising university teacher:structure and content. Educ. Discourse 2, 2019, 334–354.*

**A.Ə.Ziyadxanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ajdan2016@mail.ru***

# TƏHSİLİN SƏVİYYƏLƏRİ ÜZRƏ STRATEJİ PLANLAŞDIRMANIN MAHİYYƏTİ: YERLİ VƏ XARİCİ TƏDQİQATÇILARIN YANAŞMALARI

***Xülasə***

*Planlaşdırma prosesinin rəsmiləşdirilməsi və təhsil müəssisələrinin rəhbərlərinin funksional öhdəliklərinə strateji xarakterli məlumatların hazırlanmasının daxil edilməsi bir çox perspektivli təkliflərin təşkilatın strategiyasının hazırlanmasında iştirak edən mütəxəssisləri diqqətindən yayınmamasını təmin edir. Strateji planlaşdırma öyrənmənin ən vacib aspektlərindən biridir. Bu, bir çox cəhətdən vacibdir: - aydın dərs məqsədləri qoymaq, onlara necə nail olmağı başa düşmək və işi retrospektivdə təhlil edə bilmək. Strateji plan təhsil təşkilatına tələbə uğuru və təşkilati məqsədlərə gəldikdə nəyə nail olmaq niyyətində olduğunu müəyyən etməyə kömək edir.*

*Məqalədə yerli və xarici tədqiqatçıların təhsil səviyyələri üzrə strateji planlaşdırma haqqında fikirləri əsasında təhsil səviyyələri üzrə strateji planlaşdırmanın mahiyyəti və məzmunu təhlil edilmişdir.*

# СУЩНОСТЬ И СОДЕРЖАНИЕ СТРАТЕГИЧЕСКОГО ПЛАНИРОВАНИЯ НА УРОВНЯХ ОБРАЗОВАНИЯ: ПОДХОДЫ ОТЕЧЕСТВЕННЫХ И ЗАРУБЕЖНЫХ ИССЛЕДОВАТЕЛЕЙ

***Резюме***

*Формализация процесса планирования и включение подготовки стратегической информации в функциональные обязанности руководителей образовательных учреждений обеспечивают то, что многие перспективные предложения не ускользают от внимания персонала, занимающегося разработкой стратегии организации. Развитие новых технологий, расширение спектра образовательных услуг, освоение новых рынков и др. Очень важно создать систему стимулирования предложений. Стратегическое планирование является одним из наиболее важных аспектов обучения. Это важно во многих отношениях — постановка четких целей обучения, понимание того, как их достичь, и возможность анализировать свою работу в ретроспективе. Стратегический план помогает образовательной организации определить, чего она намерена достичь, когда речь идет об успехах учащихся и организационных целях.*

*В статье анализируются сущность и содержание стратегического планирования по уровням образования на основе мнений отечественных и*

*зарубежных исследователей о стратегическом планировании по уровням образования.*

# THE NATURE AND CONTENT OF STRATEGİC PLANNİNG AT LEVELS OF EDUCATİON: APPROACHES OF LOCAL AND FOREİGN RESEARCHERS

***Summary***

*The formalization of the planning process and the inclusion of the preparation of strategic information in the functional responsibilities of the heads of educational institutions ensure that many promising proposals do not escape the attention of personnel involved in the development of the organization's strategy. Development of new technologies, expansion of the range of educational services, development of new markets, etc. It is very important to create a system for stimulating proposals. Strategic planning is one of the most important aspects of learning. This is important in many ways – setting clear learning objectives, understanding how to achieve them and being able to analyze your work in retrospect. A strategic plan helps an educational organization determine what it intends to achieve when it comes to student success and organizational goals.*

*The article analyzes the essence and content of strategic planning by educational levels based on the opinions of local and foreign researchers about strategic planning by educational levels.*

***Açar sözlər:*** *təhsil, stateji planlaşdırma, tədqiqat, yanaşma*

***Ключевые слова:*** *образование, стратегическое планирование, исследование, подход*

***Key words:*** *education, strategic planning, research, approach*

## GİRİŞ

Təhsil sistemi ən böyük sosial institutlardan biridir. Bu sistem sosial iqtisadiyyatın fundamental əsasları, onun siyasi və sosial-iqtisadi təşkili, ictimai həyatın mahiyyəti və dominant istiqaməti ilə bağlıdır. Təhsil sistemində strateji planlaşdırma idarəetmə obyektlərinin bu cür məqsəd və hərəkətlərinin təşviqini təmin edən, həyata keçirilməsi onların dəyişən ətraf mühit şəraitinə sürətli uyğunlaşmasını və uzun müddət səmərəli işləməsini təmin edən strateji qərarların hazırlanmasından ibarət olan idarəetmə fəaliyyətinin xüsusi bir növüdür (Sherry 2010). Bu gün təhsil sistemində strateji planlaşdırma federal, regional, bələdiyyə və yerli səviyyədə həyata keçirilir. İlk üç halda nəzarət obyekti müəyyən miqyaslı təhsil sistemi, dördüncüdə isə istənilən tipli təhsil təşkilatıdır. Bundan əlavə, federal və regional səviyyələr hökumət səviyyələridir.

Ümumiyyətlə, təhsildə strateji planlaşdırma uzunmüddətli ümumi məqsədlərin müəyyən edilməsi, sonra isə onlara nail olmaq üçün aydın və strukturlaşdırılmış yolun müəyyən edilməsi prosesidir. Qısamüddətli taktiki

planlaşdırmadan fərqli olaraq, böyük mənzərəni görmək üçün bir vasitədir. Tədrisdə bu, dərs planına qarşı illik kurikulumun qurulmasına bənzəyir.

Təhsil təşkilatının strateji planlaşdırması biznes planlaşdırılmasından fərqlidir.

Birincisi, təhsil müəssisələrinin dəyər sistemləri biliklərin yaradılması ilə yanaşı, təhsilə uzunmüddətli investisiyalar ideyası üzərində qurulur. Və bizneslər qısamüddətli maliyyə nəticələrinə diqqət yetirməyə meyillidirlər. İkincisi, öyrənmədə strateji planlaşdırma cəmiyyətin iştirakını - valideynlər, təhsil alanlar və digər maraqlı tərəfləri əhatə edir və ondan asılıdır. Təhsil sahəsində bir çox təcrübəli rəhbərlər etiraf edirlər ki, cəmiyyətin dəstəyi olmadan kurikulumların əksəriyyəti uğursuzluğa meyilli olur.

Səmərəli planlaşdırma və ünsiyyətin birləşməsi təhsil prosesində bütün maraqlı tərəflərin, o cümlədən valideynlər, müəllimlər, idarəçilər, direktorlar, şura üzvləri və s.-nin eyni məqsədlərə sadiq olmasını təmin edəcək. Strateji planın uğurla həyata keçirilməsi büdcə və vaxt resurslarının düzgün idarə edilməsini və bütün tərəqqinin ardıcıl monitorinqini tələb edir.

Təhsil təşkilatlarında strateji planlaşdırma son dərəcə vacibdir və onun aşağıdakı üstünlükləri var:

- Strateji planlaşdırma təşkilatın ümumi baxışını, missiyasını və dəyərlərini formalaşdırır. Bu, bütün maraqlı tərəflərə ümumi bir baxış istiqamətində işləməyə imkan verir. İşçilərin narazılığının əsas səbəbi (müəssisələr, qeyri-kommersiya təşkilatları və hətta məktəblər üçün) işçilərin gördükləri işin təşkilatlarına necə kömək etdiyini başa düşməmələridir. Yaxşı düşünülmüş və icra edilmiş strateji planla hər kəs öz təhsil təşkilatının məqsədləri və bu məqsədlərə nail olunmasına öz fəaliyyətlərinin necə töhfə verdiyi barədə məlumatlandırılır.
- Təhsil təşkilatını və onun kollektivini səmərəli təşkil edir. Plan işçilərin işlərinin onların məktəb və ya universitetlərinin uğur qazanmasına kömək etmək üçün daha böyük strategiyanın mühüm hissəsi olduğunu göstərməklə öhdəliyi təşviq edir (Lothar 2010).
- Strateji planlaşdırma hansı uğurun əldə edilməsinin planlaşdırıldığını və uğurun nə olduğunu müəyyən edir. Uğurlu olmaq üçün bunun nə demək olduğunu bilmək vacibdir. Strategiyası olan bir məktəb və ya universitet əsas nəticələrə doğru irəliləyişini izləyə, harada və necə yoldan çıxa biləcəyini qiymətləndirə bilər (6, s. 65).
- Strateji plan məktəb və ya universitet rəhbərliyinə idarəetmə qərarları qəbul etməyə kömək edir və gələcəyə istiqamət verir. Plan mövcud olduqda, idarəetmə daha yaxşı idarəetmə qərarlarını asanlaşdırmaq üçün izlənilə, qiymətləndirilə və dəyişdirilə bilən bir yol xəritəsinə malikdir.
- Strateji planlaşdırma ünsiyyəti və əlaqəni yaxşılaşdırır. Məktəblər və ya digər təhsil müəssisələri kimi böyük təşkilatlarda ünsiyyət vacibdir ki, hər kəs

öz məsuliyyətlərini başa düşsün və şöbələr öz səylərini effektiv şəkildə əlaqələndirsinlər (Moran 2020).

- Strateji plan müəllimlərdən tutmuş idarəçilərə qədər hər kəslə əlaqə saxlayır. Bütün işçilərə çatdırılan yaxşı həyata keçirilmiş plan onların hərəkətlərinə görə məsuliyyət tələb edir və əməkdaşlığa həvəsləndirir (Belyanova 2016).
- Strateji planlaşdırma hər bir təhsil təşkilatının bir nömrəli prioriteti olan tələbələrə diqqət yetirir. Təhsildə strateji planlaşdırma şagirdlərin və tələbələrin fəaliyyətinin yaxşılaşdırılmasına əsas verir, onlara məqsədlərinə çatmağa kömək edir (8, s. 51).

Strateji planlaşdırma prosesi gələcək inkişaf və xarici mühitin təsiri ilə bağlı qeyri-müəyyənlik şəraitində uzunmüddətli qərarlar qəbul etməyə kömək edən bir vasitədir. Strateji planlaşdırma prosesinin işi xarici aləmdəki dəyişikliklərə adekvat cavab vermək üçün yetərli həcmdə yeniliklər və dəyişiklikləri təmin etməkdir. Strategiya planlaması hər hansı bir ani hərəkət və ya sürətli nəticələrlə bitmir.

Müasir kompüter texnologiyalarının, iqtisadi və riyazi metodların və modellərin planlaşdırma sisteminə daxil edilməsi təhsil müəssisəsində planlaşdırılan işlərin orta səviyyəsini və strateji qərarların etibarlılığını əhəmiyyətli dərəcədə yüksəldə bilər. Strateji planlaşdırma geniş spektrli menecerləri və orta səviyyəli mütəxəssisləri strateji düşüncəyə cəlb etməyə yol açır (7, s.332).

Bu prosesin əməliyyat qərarlarının qəbul edilməsi prosesindən əhəmiyyətli dərəcədə fərqli olduğu görünür. Bu prosesdə alternativ həll yollarının seçilməsi ilə bağlı problemləri kökündən həll etmək lazımdır (5,s.78).

Strateji planlaşdırma prosesinin vacibliyi aşağıda göstərilən suallara cavab tapmaqdır:

- Təhsil müəssisəsinin hazırkı vəziyyəti necədir?
- Onun yerləşdiyi strateji vəziyyət necədir?
- Təhsil müəssisəsinin rəhbərliyi onu gələcəkdə hansı vəziyyətdə görmək istəyir?
- Məqsədə gedən yolda hansı problemlərlə qarşılaşa bilərik?
- Təşkilatın məqsədlərinə çatmaq üçün nə və necə edilməlidir? (2,s.54)

Növbəti problem ondan ibarətdir ki, təhsil müəssisələri adətən özləri və effektiv strateji planlaşdırma üçün zəruri olan xarici mühit haqqında məlumatlara malik deyillər və mövcud statistik məlumatlar kifayət deyil.

Senari, əlaqələndirilmiş, məntiqi bir-biri ilə əlaqəli hadisələrdən və müəyyən bir ehtimalla proqnozlaşdırıla bilən son vəziyyətə (gələcəkdə

təşkilatın görüntüsü) aparan addımlar ardıcıllığından ibarət gələcəyin mənzərəsinin təsviridir.

Bu üsul təhsil müəssisəsinin missiya və məqsədlərini seçərkən, inkişaf strategiyasını müəyyənləşdirərkən, 10-20 il üçün proqnozlaşdırarkən, bugünkü nailiyyətlərin əhəmiyyətini itirdikdə, yeni imkanların dairəsi genişləndikdə çox faydalıdır. Senarilər hazırkı vəziyyətdən gələcək təhsil müəssisəsinin şəkillərini hazırlamalıdır. Bu iş sistemli şəkildə və strateji idarəetmənin fundamental prinsipi - alternativ seçim nəzərə alınmaqla həyata keçirilir. Bunun üçün də bir ssenari deyil, bir çox variant üzərində işlənir ki, bu da təşkilatın rəhbərlərinə seçimin mümkün nəticələrini görməyə imkan verir (4, s. 34)

Strategiyanı başa düşmək üçün iki əks yanaşma var. Birinci yanaşma ilk olaraq uzun müddətdən sonra əldə ediləcək son vəziyyəti və bu vəziyyətə çatmaq üçün lazımi hərəkətləri təyin edir. Sonra vaxt intervallarına (beşillik dövrlər, illər və rüblər) bölünən fəaliyyət planı tərtib edilib, onun həyata keçirilməsi son məqsədə nail olmağa səbəb olmalıdır. Əsasən, bu strategiyaya yanaşma mərkəzləşdirilmiş planlı iqtisadiyyata malik sistemlərdə mövcud idi (2, s.99).

Strategiya konkret uzunmüddətli plan və ya konkret uzunmüddətli məqsədə nail olmaq, strategiyanın işlənib hazırlanması – hədəfin tapılması və uzunmüddətli planın tərtibi kimi baxılırdı. Hesab olunurdu ki, əməliyyat mühitində baş verən bütün dəyişikliklər tam nəzarət və idarəetməyə tabedir. Buna görə də bazar iqtisadiyyatı şəraitində firmanın strategiyası ilk növbədə dəyişikliklərdən fayda əldə etmək imkanlarına diqqət yetirməlidir (1, s. 880).

Strategiyanı başa düşmək üçün ikinci yanaşma, onun fəaliyyət sahəsinə, vasitələrinə və formasına, onun daxilindəki əlaqələr sisteminə, şirkətin inkişafının uzunmüddətli, keyfiyyətcə müəyyən edilmiş bir istiqaməti kimi baxılması ilə xarakterizə olunur. Bu yanaşma ilə şirkətin davranışında determinizm istisna edilir, çünki son vəziyyətə istiqaməti müəyyən edən strategiya dəyişən vəziyyəti nəzərə alaraq seçim azadlığını tərk edir. Bu vəziyyətdə strategiya ümumi mənada ətraf mühitdə gələcək davranış yolunun seçilmiş istiqaməti kimi təsvir edilə bilər.

Birinci növ strategiyaya misal olaraq, hər bir konkret zaman dövründə nəyi və nə qədər istehsal olunacağını, həmçinin son dövrdə nə və nə qədər istehsal olunacağını müəyyən edən müəyyən məhsulların istehsalı üzrə uzunmüddətli planı göstərmək olar (4, s. 23).

## NƏTİCƏ

Təhsil səviyyəsində strategiyanın planlaşdırılması prosesi onun mənimsənilməsində bir sıra çətinlikləri ehtiva edir. Yeni strategiya, bir qayda olaraq, təhsil müəssisəsində formalaşmış və rəhbərliyin siyasəti ilə ziddiyyət təşkil edə bilən münasibətlər tipini məhv edir. Buna təbii cavab ənənəvi

münasibətləri və səlahiyyət strukturlarını yox edən hər hansı bir yenilik ilə mübarizə aparmaqdır. Başqa mühüm problem odur ki, bu planlaşdırmanın təxmini mənfəəti qarşılayan köhnə fəaliyyətlərlə (operativ idarəetmə) yeniləri arasında ziddiyyətə gətirib çıxarır.

***Ədəbiyyat***

1. *Axundov M.Ə. "Strateji idarəetmə". "Ağrıdağ", Bakı, 2001.*
2. *K.A.Şahbazov, M.H.Məmmədov, H.S.Həsənov, Menecment Nəşriyyat —AMAKA— Bakı – 2005*
3. *Mütercimler Erol, Yüksek Stratejiden Etki Odaklı Harekata Geleceği Yöneltmek, Alfa Yayınları, İstanbul 2006*
4. *Hakan Bütüner "Systematic Strateji Planlama" İstanbul, 2014.*
5. *İqtisadi Nəzəriyyə. Dərslik. Vəliyev T.S., Qafarov Ş.S. Bakı, 2002.*
6. *Alferova L.V. Ali təhsilin strateji planlaşdırması və keyfiyyətinin idarə edilməsi: beynəlxalq standartlar və milli xüsusiyyətlər / L.V.Alferova, L.A.Koroleva, O.S.Nagornaya // İqtisadiyyat, texnologiya, təbiət və cəmiyyətdə modellər, sistemlər, şəbəkələr. - 2018. - No 1 (25).*
7. *Ansoff I. Strateji idarəetmə. Klassik nəşr / I. Ansoff. - Sankt-Peterburq: Piter, 2009.*
8. *Bannikova N.V. Strateji planlaşdırma: müasir yanaşmalar / N.V.Bannikova, T.N.Kostyuchenko, A.N.Steklov [və başqaları]. - Stavropol: AGRUS, 2007.*

**X.S.Seyidli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***khadija.seyidli@inbox.ru***

# OXU DƏRSLƏRİNDƏ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN RABİTƏLİ NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİ

***Xülasə***

*Məqalədə ibtidai sinif şagirdlərinin rabitəli nitqinin inkişaf etdirilməsi yollarından bəhs olunur. Nitq inkişafının bütün istiqamətləri üzrə aparılan işlərin son nəticəsi olan rabitəli nitqə verilən tələblər təhlilə cəlb edilir. Məqalədə oxu dərslərində şagirdlərin rabitəli nitqinin inkişafına kömək edəcək tapşırıq növləri təklif edilir. Şagirdlərin oxu mətni və həmin mətnlərə çəkilmiş illüstrasiyalar əsasında müstəqil hekayə qurmağa, seçmə və yaradıcı nəqletməyə sövq edilməsi rabitəli nitqin inkişafında səmərəli iş növləri kimi vurğulanır.*

# РАЗВИТИЕ КОММУНИКАТИВНОЙ РЕЧИ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ НА ЗАНЯТИЯХ ПО ЧТЕНИЮ

***Резюме***

*В статье говорится о способах развития коммуникативной речи учащихся начальной школы. В анализ включаются требования к коммуникативной речи, которые являются конечным результатом работы, проводимой по всем направлениям развития речи. В статье предложены виды заданий, которые помогут развитию коммуникативной речи учеников на занятиях по чтению. Побуждение учеников к построению самостоятельного рассказа на основе прочитанного текста и иллюстраций к этим текстам, выборочное и творческое повествование подчеркивается как эффективные виды работы в развитии коммуникативной речи.*

# DEVELOPMENT OF COMMUNİCATİVE SPEECH OF ELEMENTARY SCHOOL STUDENTS İN READİNG LESSONS

***Summary***

*The article talks about the ways of developing the communicative speech of elementary school students. The requirements for communicative speech which are the final result of the work carried out in all areas of speech development, are included in the analysis. In the article, the types of tasks that will help the development of students communicative speech reading classes are proposed. Encouraging students to build an independent story based on the reading text and the illustrations drawn on those texts, selective and creative narration is emphasized as effective types of work in the development of communicative speech.*

***Açar sözlər:*** *ibtidai sinif şagirdləri, rabitəli nitq, hekayə qurmaq, seçmə yaradıcı nəqletmə, illüstrasiya əsasında nəqletmə, plan tutmaq*
***Ключевые слова:*** *ученики начальной школы, коммуникативная речь, построение рассказа, выборочное творческое повествование, иллюстративное повествование, планирование*
***Key words:*** *elementary school students, communicative speech, story building, selective and creative narration, illustration-based narration, planning*

Rabitəli nitq məntiqi və qrammatik cəhətdən düzgün qurulmaqla, hadisələrin zaman ardıcıllığı ilə nəqlini, mühakimələrdə səbəb-nəticə əlaqələrinin gözlənilməsini ehtiva edən nitq növüdür. İbtidai sinif şagirdlərinin rabitəli nitqinin inkişaf etdirilməsi müasir dövrdə məktəbin qarşısına qoyulan əsas vəzifələrdən biridir. Belə ki, "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" sənədində ibtidai təhsil səviyyəsinin sonunda şagirdlərdə "oxuduqlarına və dinlədiklərinə münasibət bildirir; kiçikhəcmli sadə mətnlər qurur; fikirlərini şifahi və yazılı ifadə edir" standartlarının reallaşdırılması tələbi qoyulur (1). İbtidai təhsil boyunca şagirdlərin qazandıqları nitq vərdişləri onların mükəmməl dil bacarıqlarına sahib şəxsiyyət kimi yetişməsində bünövrə rolu oynayır. Çünki inkişafın məhz bu mərhələsində şagirdlər ədəbi dilin yazılı növü ilə, bütün təlim fənlərində müvəffəqiyyət qazanmaq üçün nitqini təkmilləşdirmək ehtiyacı ilə qarşılaşırlar.

Rabitəli nitq – "nitq" məfhumunun bütün vacib cəhətlərini özündə əks etdirir, nitq inkişafının bütün istiqamətləri üzrə aparılan işlərin son nəticəsi kimi təzahür edir. Bundan əlavə, o, tərkibindəki komponentlərin semantik, struktur, dil baxımından əlaqəliliyi ilə xarakterizə olunur. Rabitəli nitqin əsas vahidi görülənlərin, dinlənilənlərin və düşünülənlərin ifadə forması olan – mətndir.

Rabitəli nitq təlim və tərbiyənin vacib komponenti olan nitq fəaliyyətinin ən ali formasıdır. Lakin, əfsuslar olsun ki, dövrümüzün bir çox tədqiqatçıları (dilçilər, filosoflar, psixoloqlar, sosioloqlar, müəllimlər) ibtidai məktəbdə şagirdlərin ümumi nitq mədəniyyəti səviyyəsinin kifayət qədər qənaətbəxş olmadığını qeyd edirlər. Nitq iki səbəbdən rabitəsiz ola bilər: ya şagird haqqında danışdığı hadisədəki əlaqə münasibətlərini, rabitəni dərk etməyib və təsəvvüründə canlandıra bilmir; ya da həmin rabitəni nitqində lazımi şəkildə ifadə etməkdə çətinlik çəkir.

Dili, uşaqlar adətən kortəbii şəkildə, ünsiyyət prosesində öyrənirlər. Lakin, dilə bu cür yiyələnmə nitq inkişafı baxımından lazımi səviyyəni təmin edə bilməz. Çünki, yalnız bu yolla öyrənilən nitq əksər hallarda primitiv olur və düzgünlüyü ilə seçilmir. Dilin bəzi çox vacib tərəfləri kortəbii şəkildə mənimsənilə bilməz. Vacibdir ki, şagirdin öyrəndiyi yeni dil vahidlərinin əsasında real, canlı təsəvvürləri dursun. Şagirdlərin nitqinin "zənginləşdirilməsi yolu aydın təsəvvürlərin inkişafından keçir" (2, 463).

Rabitəli nitq bir neçə tələbə cavab verməlidir:

Düzgünlük – rabitəli nitqin əsas keyfiyyəti olub, onun qrammatik, orfoqrafik və punktuativ cəhətdən ədəbi dil normalarına uyğunluğunda təzahür edir.

Aydınlıq – onun başqaları tərəfindən başa düşülməsi üçün əlçatanlığıdır. Nitqə bəzək vermək üçün hər hansı bədii əsərdən götürülmüş və ya uydurulmuş ifadələr, əslində nitqin aydınlığına zərər verir.

Təmizlik – nitqin ədəbi dilə yad olan ünsürlərdən (jargonlar, dialektizmlər, parazit sözlər) azad olmasıdır.

Dəqiqlik – söz və ifadələrin yerli-yerində istifadəsində təzahür edir.

İfadəlilik – fikir və duyğuları parlaq, inandırıcı, bununla bərabər mümkün olduqca lakonik ifadə etmək bacarığı; intonasiya, sərraf söz seçimi, cümlə qurmaq bacarığı ilə müsahibə təsir etmək yetənəyidir.

Zənginlik – eyni bir fikri ifadə etmək üçün rəngarəng dil vahidləri seçə bilmək; monotonluqdan, eyni söz və konstruksiyaların istifadəsindən qaçmaq bacarığıdır.

İnsan həyatı boyu nitqini cilalayır, lüğət ehtiyatını zənginləşdirir. Rabitəli nitq insanın ünsiyyət, daxilindəkiləri ifadə etmək tələbatından doğur və müəyyən motivlərdən qaynaqlanır. Buna nitq motivasiyası deyilir. Rabitəli nitq vacib sosial funksiyaları yerinə yetirir: uşağın ətrafdakı insanlarla əlaqə qurmasına kömək edir, onun cəmiyyətdəki davranış normalarını müəyyənləşdirir və tənzimləyir ki, bu da şagirdin bir şəxsiyyət kimi inkişafı üçün həlledici şərtlərdəndir.

İbtidai məktəbdə oxu dərsləri şagirdlərdə yalnız oxu vərdişlərinin təkmilləşdirilməsi məqsədlərinin deyil, həmçinin oxunan əsərin yenidən canlandırılması (nəql edilməsi, səhnələşdirilməsi və s.), oxu mətninə əsasən öz hekayələrinin (esse, inşa) qurulması ilə bağlı olan rabitəli nitq vərdişlərinin inkişafı məsələlərinin də həllinə imkan yaradır. İbtidai sinif şagirdlərinin oxusu və nitq inkişafı arasındakı üzvü əlaqə nitq fəaliyyətinin bir növü kimi oxunun psixoloji təbiəti ilə şərtlənir. Belə ki, oxu – şagirdlərin dil duyumuna, mənanın qavranılmasına, müəllifin niyyətinin başa düşülməsinə, oxunan mətnə münasibətin dərk edilməsinə yönəlmiş bir prosesdir.

Oxu dərslərində rabitəli nitqin inkişafına kömək edən aşağıdakı tapşırıq növlərindən istifadə edilə bilər:

1. Əyani material kimi illüstrasiyalardan istifadə etməklə oxu mətninin nəql edilməsi. Nəqletmənin illüstrasiyalarla müşayiət edilməsi şagirdlərə həm məzmun, həm də struktur baxımından tapşırığı yerinə yetirməkdə kömək olur. Belə ki, uşaqlar nəqletmə zamanı illüstrasiyalarda aydın şəkildə təsvir olunan bütün məqamları incə detallarına kimi ifadə edirlər. Oxu nümunələri və rəsmlərin eyni vaxtda istifadəsi nəqletmənin məzmununa və ardıcıllığına, dəqiqliyinə və səlisliyinə müsbət təsir göstərir; şagirdlərin danışmaq

motivasiyasını yüksəldir, azad şəkildə fikir söyləmək arzusunu artırır. Oxu mətninin təkrar söylənilməsi müəllimin sualları ilə müşayiət edilməlidir. Bununla yanaşı, oxu mətninin nəqli üzrə işin təşkili zamanı plan tərtibinə də yer verilməlidir. Belə ki, şagird mətnin hissələrini ayırd etməyi, bu hissələrdəki məntiqi dərk edərək və ardıcıllığı nəzərə alaraq plan tərtib etməyi bacarmalıdır.

2. Müəllimin istifadə edə biləcəyi digər çalışma növü seçmə nəqletmədir. Seçmə nəqletmə – rabitəli nitqin inkişaf etdirilməsi priyomu kimi şifahi nəqletmənin bir növüdür. Seçmə nəqletmədə öyrənilən mətnin müəyyən bir parçası canlandırılır. Bu zaman nəqletmə üçün mətnin müxtəlif hissələri seçilə bilər. Məsələn, hekayədəki qəhrəmanın xarakterini açmağa kömək edən hissələrin nəql edilməsi və yaxud mətndə təbiət təsviri ilə bağlı olan hissələrin danışılması və s. Seçmə nəqletmə mətnə çəkilmiş müəyyən illüsrtasiyanın məzmunu və ya müəllimin sual və tapşırığı ilə əlaqəli də təşkil edilə bilər. Seçmə nəqletmə, bir qayda olaraq, ikinci sinifdən əvvəl aparılmır. Onların aparılması ədəbi əsərin qəhrəmanlarının xarakteristikasının təsviri ilə bağlı inşalara hazırlıqda böyük əhəmiyyət kəsb edir. İnformativ mətnlərlə bağlı aparılan bu cür iş isə şagirdlərdə konspektləşdirmə bacarıqlarını inkişaf etdirir. Çünki bu iş növü şagirdlərdən mətndəki fikri ümumiləşdirmək və oradan ən vacib məlumatı ayıra bilmək bacarığını tələb edir.

3. Daha sonra uşağa yaradıcı nəqletmə öyrədilməlidir. Yaradıcı nəqletmə, uşağın müəyyən hadisə ilə bağlı şəxsi müşahidə və təəssüratlarından istifadə edərək oxu mətnləri, müxtəlif süjetli şəkillər üzrə müstəqil hekayələr qurmasıdır. Yaradıcı nəqletmə – mətndə müəyyən dəyişikliklər və əlavələrlə xarakterizə olunan şifahi və yaxud yazılı ifadə növüdür. Bu zaman əsərə edilə biləcək mümkün əlavə və dəyişikliklər aşağıdakı kimi ola bilər:

- nəql edənin dəyişdirilməsi (məsələn, birinci şəxsin dilindən verilən mətnin üçüncü şəxsin və ya bədii əsərdəki hər hansı bir qəhrəmanın dilindən nəql edilməsi və s.);
- süjetin xəttinin, əsərdəki qəhrəmanın taleyinin davam etdirilməsi;
- əsərə yeni epizodların, mənzərə eskizlərinin əlavə edilməsi;
- oxunan əsərin süjetinə uyğun yeni bir hekayə qurulması;
- əsərin süjetində dəyişikliklərin edilməsi (yeni qəhrəmanın (hadisənin) əlavə edilməsi, hadisənin cərəyan etdiyi məkanın (zamanın) dəyişdirilməsi və s.);
- qurulmuş yeni süjet əsasında teatr (kino) senarisinin hazırlanması, diafilmin çəkilməsi və s.

III-IV siniflərdə uşaqlara bədii əsərdəki qəhrəmanların xarakterinin müqayisə edilməsi üzərində qurulmuş yaradıcı nəqletmə növü də təklif etmək olar.

4. Çalışmaların digər bir növü – şagirdlərin müstəqil hekayə qurmağa sövq edilməsidir. Şagirdlərə müstəqil olaraq hekayə qurmaq və onu şifahi

şəkildə nəql etməyi öyrətmək çox vacibdir. Öyrətmənin ilk mərhələlərində bu hekayələr müəllimin tələbinə uyğun olaraq kollektiv şəkildə bütün siniflə, daha sonra müəllimin verdiyi plan əsasında, sonda isə şagird tərəfindən müstəqil olaraq qurulur. Bu hekayələr üçün uşaqların həyat təcrübəsinə uyğun, şəxsi təəssürat və müşahidələrinə əsaslanaraq qura biləcəkləri mövzuların seçilməsi məqsədəmüvafiqdir.

Bununla bağlı sinifdə işi aşağıdakı arıcıllıqla qurmaq olar:

- mövzu və məqsədin elan olunması;
- müəllim tərəfindən verilən planın ucadan oxunması və yaxud kollektiv şəkildə planın tərtibi;
- şagirdlər tərəfindən hekayənin məzmununun düşünülməsi;
- plandan istifadə edərək hekayənin qurulması.

Şagirdlərdə hekayə qurmaq bacarıqlarını inkişaf etdirmək üçün dərslikdəki mətnlərin oxusu, dinlənilib anlanılması, ideya məzmunu və strukturunun təhlili üzrə ciddi iş aparılmalıdır. İşin bu cür təşkili şagirdlərə dərslikdəki istənilən bədii ədəbiyyat nümunəsini sərbəst şəkildə anlayıb təhlil etməyə və mətn tərtibi zamanı onlardan bəhrələnməyə imkan verir. Qabaqcıl müəllimlər bu yolla "şagirdlərə hekayə yazmağın əlifbasını öyrədə bilirlər" (3, 105).

Şagirdlərin rabitəli nitqinin inkişaf etdirilməsi – ibtidai sinif müəlliminin sistemli və məqsədəuyğun müdaxiləsini tələb edən mürəkkəb və uzunmüddətli prosesdir. Özünün və başqalarının fikrini düşünülmüş şəkildə, qrammatik və üslubi cəhətdən düzgün ifadə etmək bacarığı ilə şagirdləri silahlandırmaq üçün müəllim oxu mətnləri üzərində işi xüsusi strategiya üzərində qurmalı, fərqli iş növlərindən istifadə etməlidir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. Bakı, "Kurikulum" jurnalı, 2010, №3, səh. 115-130.*
2. *Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası, Bakı, "Səda" nəş., 2013, 551 s.*
3. *Qurbanov V. Oxu və nitq inkişafı təlimi. Bakı: "Müəllim" nəş., 2021, 107*
4. *Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurrikulumları. Bakı: Təhsil, 2008, 480 s.*
5. *Жесткова Е. А., Стрижева К. Н. Формирование речевых умений младших школьников при создании сочинения-описания // Молодой ученый, 2014, №21.1., 297с.*

**H.S.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***hemideliyeva@mail.ru***

# AİLƏDAXİLİ KONFLİKTLƏRİN SOSİAL–PSİXOLOJİ SƏCİYYƏSİ

***Xülasə***

*Məqalədə ailədaxili konfliktlərdən, onların növləri, səbəbləri, şəxsiyyətə təsirindən, psixoloji və sosial səciyyəsindən bəhs olunur. Müəllif qeyd edir ki, bir çox adamlar öz şəxsi həyatlarında konfliktlərlə rastlaşırlar. Bu cür konfliktlərdən bəhs etmək mənəviyyatın, ideologiyanın və davranış mədəniyyətinin mürəkkəb mövzularına toxunmaq deməkdir. Məqalədə konfliktlərin hansı dövrlərdə daha çox baş verməsi, ona təsir edən qüvvələr haqqında danışılır. Həmçinin ailədaxili konfliktlərin ətraf mühitə, ailə üzvlərinə necə təsir etdiyi də bildirilir. Məqalədə konfliktlərin necə nəticə verə biləcəyinə də toxunulub.*

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ВНУТРИСЕМЕЙНЫХ КОНФЛИКТОВ

***Резюме***

*В статье говорится о внутрисемейных конфликтах, их видах, причинах, характеристике личности, психологических и социальных особенностях. Автор отмечает, что многие люди сталкиваются с конфликтами в личной жизни. Говорить о таких конфликтах — значит касаться сложных тем духовности, мировоззрения и культуры поведения. В данной статье рассматриваются различные виды конфликтов внутри семьи. Обсуждается период, в который чаще возникают конфликты, и силы, влияющие на это. Также сообщается, как внутрисемейные конфликты влияют на окружение и членов семьи. В статье также говорилось о том, к каким последствиям могут привести конфликты.*

# SOCİAL-PSYCHOLOGİCAL CHARACTERİSTİCS OF İNTRA-FAMİLY CONFLİCTS

***Summary***

*The article talks about intra-family conflicts, their types, causes, personality influence, psychological and social characteristics. The author notes that many people encounter conflicts in their personal lives. Talking about such conflicts means touching the complex topics of spirituality, ideology and behavioral culture. This article discusses the different types of conflicts within the family. It is discussed about the periods in which conflicts occur more often, and the forces influencing it. It is also reported how intra-family conflicts affect the environment and family members. The article also touched on how conflicts can result.*

***Açar sözlər:*** *ailə, ailədaxili münaqişələr, konflikt, sosial, psixoloji, səviyyə, səciyyə, valideyn, övlad, ailəiçi, münaqişə, mübahisə, boşanma, təhsil, uşaq, inkişaf, münasibət, aradan qaldırılması yolları, şəxsiyyət, səbəb, əlaqə, sevgi, hörmət, diqqət, ünsiyyət*

***Ключевые слова:*** *семья, семейные конфликты, конфликт, социальный, психологический, уровень, персонаж, родитель, ребенок, член семьи, конфликт, спор, разводвоспитание, ребенок, развитие, отношение, пути преодоления, личность, причина, связь, любовь, уважение, внимание, общение*

***Key words:*** *family, family conflicts, conflict, social, psychological, level, character, parent, child, family member, conflict, dispute, divorce, education, children, development, attitudes, ways of overcoming, personality, reason, connection, love, respect, attention, communication*

Cəmiyyətin böyük hissəsini təşkil edən ailə insanlar arasındakı qarşılıqlı münasibətləri əks etdirən mənəvi-psixoloji və sosial birliyin əsas formalarındandır. Ailənin üzvləri bir-birinə məişət birliyi, mənəvi cavabdehlik, qarşılıqlı hörmət, qarşılıqlı köməklə bağlı olmalı və cəmiyyətin bir hissəsi kimi inkişafına təkan yaratmalıdırlar. Nikah və ailədə cinslər və cinsi tələbatdakı fərqdən asılı olaraq münasibətlər əxlaqi-psixoloji münasibətlər şəklində özünü göstərir. Bunlara əsasən də ailə şərti olaraq qan qohumluğu ailəsi, qrup nikah endoqamiya, ekzoqamiya, qoşa nikah formalarına bu və digər kimi qruplara ayrılır. (6, s. 181)

Sosial-psixoloji tədqiqatlar ər-arvad münasibətlərinin dinamikasını, valideynlərlə uşaqlar arasında münasibətlərin xarakterini, boşanmanın səbəbləri və motivlərini müəyyənləşdirməyə yönəlir. Ailədə şəxsiyyətlərarası qarşılıqlı təsir probleminin öyrənilməsində həmin ailənin mövcud olduğu konkret cəmiyyətdə üstün qəbul edilən normaları, dəyərləri və davranış nümunələri etalon olaraq qəbul etməliyik. Hər bir ailə üzvlərinin inkişafı, formalaşması, uyğunlaşması mürəkkəb proses olub, əsası məhz ailədə qoyulur. Həmçinin ailədə baş verən münaqişələr şəxsiyyət inkişafına birbaşa təsir göstərir.

ABŞ psixoloqu Doyr ailə konfliktlərinin aşağıdakı əsas tiplərini fərqləndirir:

• davranış konfliktləri;
• əsil konflikt ;
• şərti konflikt;
• qarışıq konflikt;
• gizli konflikt;
• yalançı konflikt.

Konflikt (lat. Conflictus) – sosial əlaqələrdə yaranmış problemlərin həlli və ya aydınlaşdırılması məqsədilə yaranan, adətən neqativ emosional hallarla müşahidə olunan qarşıdurmadır. Konfliktlər adətən tərəflərin hər hansı

razılığa gələ bilmədikləri zaman yaranır və konstruktiv, destruktiv funksiyalara malik olur. Konfliktlər zamanı hər iki tərəf psixoloji gərginlik yaşayır, lakin şəxsi konfliktlərin psixoloji fəsadları adətən rəsmi konfliktlərin fəsadlarına nisbətən daha ağır olur. Şəxsi konfliktlərin əsasını ailə konfliktləri təşkil edir. Ailə konfliktləri içərisində ən populyar olanlarını aşağıdakı şəkildə qruplaşdırmaq olar:

Ər-arvad konfliktləri – ailənin möhkəmliyini şərtləndirən tələblərdən biri ondan ibarətdir ki, ər və arvadın şəxsi keyfiyyətləri bir-birini tamamlamalıdır. Bu qanunauyğunluğun pozulması ər-arvad konfliktlərinə səbəb olur. Ailədə həm qadın, həm də kişi öz rolunu düzgün dərk etməlidir. Hər bir halda bir tərəf digərinin fəaliyyətinə yardım etməlidir. Əgər bir tərəf digərindən asılı olarsa, gec-tez asılı tərəf digərinin "hökm"lərinə tabe olmaq zərurəti ilə qarşılaşacaq və buna edilən etiraz nəticəsində konfliktlər, qalmaqallar, boşanma və s. neqativ hallar baş verəcək.

Ailədə, tərəf müqabilləri arasında münaqişə bütün ölkələr, mədəniyyətlərdə və cəmiyyətin təbəqələrində mövcuddur. Fiziki təcavüzkarlıq olaraq, tərəf müqabilinə münasibətdə aqressiya zorakı cinsi əlaqədə və seksual əlaqəyə məcbur etmənin digər formalarında partnyora şərt psixoloji təsirdə özünü göstərir.

Tərəf müqabilinin dözülməz xasiyyəti, birinin digərini fiziki və psixoloji zorakılığa məruz qoyması şəraitində yaşayan insanlar psixoloqlar tərəfindən qınaq edilir. Psixoloji araşdırmalar sayəsində sübut olunub ki, belə ailələr cəmiyyətə heç bir fayda vermir. Bu tip ailələrdə yetişən uşaqlar "risk qrupu"na aid edilir. Təbii müşahidələrdən bəllidir ki, zorakılıq halları ilə adətən qadınlar üzləşir. Təəssüflər olsun ki, fiziki zəifliyin mənəvi cəhətdən kompensasiya olunmaması ailədə qadın hüquqlarının pozulmasına, şiddətlərin artmasına, ailələrin dağılmasına və digər fəsadlara səbəb olur. Ailədə yaranan maddi problemlər, işsizlik də ailədaxili konfliktlərə səbəb ola bilir.

Ailəiçində baş verən münaqişələrdən biri də qayınana-gəlin arasında baş verən konfliktlərdir. Qayınana-gəlin nə qədər bir birini bəyənsələr də, onların şüuraltısında neqativ məlumatlar yüklənib qalmış olur və buna görə də onlar istər-istəməz bir-birilərində səhv axtarmağa çalışırlar.

Ailədaxili konfliktləri doğuran səbəblər kifayət qədər mürəkkəb və rəngarəngdir. Lakin ümumilikdə bu səbəbləri iki qrupa: ailə quranadək mövcud olan səbəblərə; ailə qurduqdan sonra mövcud olan səbəblərə ayırmaq mümkündür. Birinci səbəbləri çox zaman risk amilləri qrupu adlandırırlar. Risk amilləri insanın tərbiyəsi, şəxsiyyəti, milli, irqi, dini, mənsubiyyəti, sosial statusu eyni zamanda nikahın şərtləri ilə bilavasitə bağlıdır. (5, s.35)

Aparılan araşdırmalarda qeyd olunur ki, təxminən ailələrin 80-85%-də konfliktlər baş verir, qalan 15-20%-də isə narazılıqlar özünü göstərir.

Konfliktlərin tez-tez baş verməsi dərinliyi və onların istiqamətindən asılı olaraq böhranlı, konfliktli, problemli və nevrotik xarakterli ailələrdə özünü göstərir.

Tədqiqatlara əsasən, ailədaxili münaqişələr ailə həyatının iki dövrünü əhatə edir. Birincisi ailə həyatının 3–7- ci illəri əhatə edir ki, bunun da 4–6-cı illərində münaqişələrin daha kəskinləşir. İkinci mərhələ isə 17–25-ci illəri əhatə edir. Birinci mərhələdəki əsas problemlər emosional münasibətlərin zəifliyi, yaranan maddi və ya şərait çətinliyi, bir sıra məişət problemləridir. İkinci mərhələdə isə artıq uşaqların ailədən ayrılması, bununla əlaqədar yaranan maddi çətinliklər, boşluq hissinin yaranması və s. aiddir. (1, s. 203) Aparılan araşdırmalar göstərir ki, ailədaxili konfliktlərinə tərəfdaşların dünya görüşündəki fərqlilik, həyata baxış, təhsil səviyyəsi, peşə və s. kimi amillər də təsir edir. (2, s. 278) Tədqiqatçılar aşağıdakı səbəbləri əsas risk amilləri qrupuna aid edirlər:

- Ailədə tərəf müqabillərinin təhsilində və yaşında böyük fərqin mövcudluğu;
- Tərəf müqabillərindən birinin spirtli içkilərə, narkomaniyaya meyilliyi və ya aludəçiliyi;
- Çox erkən yaşda nikaha daxil olma;
- Nikaha və ailəyə qeyri-ciddi münasibət;
- Ilkin tanışlıq müddətinin çox qısa olması;
- Ailə qurduqdan sonra uşağın dünyaya gəlməsi ehtimalı və tərəf müqabillərindən birinin bunu arzulamaması;
- Valideynlərin nikahın bağlanılmasına kəskin etiraz etməsi;
- Qarşılıqlı razılıq olmadan məcburiyyət qarşısında bağlanılan nikah.

Ər-arvad üçün münaqişənin həll edilməsinin xüsusi forması boşanmadır. Bir çoxları üçün boşanma problemlərdən, fikir ayrılığı və tərəflərin bir-birini başa düşməməsindən azad olmaq üçündür. Lakin boşanma çox vaxt tərəflərin yalnız birinin maraqlarını yerinə yetirir və digər tərəfdə ağır sinir-psixi təəssüratı yaradır. Bundan əlavə, boşanma nəticəsində cəmiyyətdə natamam ailə yaranır, bu isə öz növbəsində uşaqların inkişafına birbaşa təsir göstərir. Bunun nəticəsində cinayətkarlıq, narkomaniya və deviant davranış formalaşır.

Dünyada baş verən qloballaşma prosesləri ənənəvi Azərbaycan ailələrinə də güclü təsir göstərir, müasirliklə ənənəviliyin konfliktinə gətirib çıxarır. Konfliktlər birgəyaşayışın qaçılmaz bir hissəsidir və daha çox fərqli nəsillərin, fikirlərin və hətta dəyərlərin birləşdiyi bir ailə mühitindən danışarkən başa verə bilir.

Konfliktlərin müəyyən bir şəkildə müsbət olduğunu təsdiqləyən mütəxəssislər var, çünki bunun sayəsində düzgün bir şəkildə idarə edə bilsək, sosial bacarıqlarımızı inkişaf etdirə bilərik. Sağlam mübahisə edə bilmək, fikir mübadiləsi apara bilmək, problemlərin həllinə yönəlmək və s. kimi

problemlərin həlli üçün ailədaxili konfliktlərin müsbət tərəfi də tədqiqatlarda özünü göstərir.

Ailədə münasibətləri tənzim etmək üçün ilk növbədə özünün xasiyyəti və temperamenti idarə etməyi, güzəştə getməyi, ailənin hər üzvünün azadlığını, hüququnu pozmamağı bacarmaq önəmlidir. Ailədaxili konfliktləri yaradan səbəblərdən biri də tərəflər arasında qısqanclıqdır. Bir-birini sevən cütlüklər arasında qısqanclığın olması normal haldır, lakin bəzən bu patoloji hal alır ki, sonda xoşagəlməz nəticələr də törədə bilir. Qısqanclıq halları ən çox ailənin ilk dövrlərində - gənclik dövründə baş verir. Qısqanclıq mühitin və davranışın təsirinə görə dəyişir. Hər iki tərəfdə - qadın və kişidə qısqanclıq halları olsa belə, kişilərdə bu hallar daha çox üstünlük təşkil edir. Qeyd edək ki, hər iki cinsdə bu fərqli şəkildə özünü büruzə verir. Kişilərdə qısqanclıq daha şiddətli, yüksək şəkildə özünü göstərə bilir və bu bəzən bədbəxt sonluqla da nəticələnə bilir. Qadınlar isə kişilərə nisbətən daha asan hisslərini idarə edə bilirlər.
(2, s. 289, 290) Çox hallarda hər iki tərəfdə baş verən xəyanət halları boşanma ilə nəticələnir. Bəzən isə xəyanət bağışlanır, uşaqların gələcəyi naminə, travma almaması məqsəd güdərək boşanmaya addım atılmır. (3, s. 395)

Konflikt şəraiti insanda emosional böhran halətləri yaratmaqla yanaşı rəftar və davranışın tənziminə, idrak fəaliyyətinin intensivliyi və məhsuldarlığına mənfi təsir göstərir. Burada söhbət hansı tərəfin çox əzab çəkməsindən, yaxud özünü itirməsindən, rəftar və davranış səviyyəsindən, hadisələri adekvat qiymətləndirə bilməməsindən gedə bilər. Əslində münaqişə iştirakçılarının hamısı bu və ya digər mənəvi və psixoloji əzaba düçar ola bilirlər.

Ailədaxili konfliktlər bütün ailə üzvlərinə təsir etməklə yanaşı, yaxın qohum və dostlara, son nəticədə isə ümumən cəmiyyətə mənfi təsir göstərir. Ona görə də həmin təsirləri və mənfi nəticələri təfsilatı ilə şərh etmədən əsas məsələnin həmin münaqişələrin vaxtında düzgün təhlil edilməsi, onları doğuran səbəb və nəticələrin dəqiq müəyyənləşdirilməsi və aradan qaldırılması üçün adekvat yol və vasitələrin tapılmasındadır.

***Ədəbiyyat***

*1. Cavadov R.Ə, Tağıyev G. B – Ekstremal şəraitlərdə psixoloji xidmət – s. 203*
*2. Çələbiyev N.Z. Ailə psixologiyası. Dərs vəsaiti. B., 2015, səh. 278*
*3. Çələbiyev N.Z. Əfəndiyeva Ü. Ailə və gender psixologiyası. Dərs vəsaiti. 2020 səh. 395*
*4. Qurbanova L.M. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı: «Bilik», 2013.*
*5. Mirzəyev İ.Ə – Ailənin praktik psixologiyası – Bakı – Adiloğlu – 2005*
*6. Yusifov E, Ramazanov. M – Konfliktologiya – Bakı 2018 – s. 181*
*7. Otomar J. Bartos, Paul Wehr. – Usıng conflıct theory. Cambrıdge unıversıty press 2002. Pg. 1-12*

**V.V.Kərimova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***vusale84deniz@gmail.com***

# KEYFİYYƏTLİ TƏHSİL CƏMİYYƏTİN ƏSAS TƏLƏBİ KİMİ

***Xülasə***

*Təhsildə keyfiyyətə nail olmaq, o cəmiyyətin tələbatlarını ödəmiş olmaq deməkdir. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün təhsil almaq imkanları genişləndirilməli, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalı, beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalıdır.*

# КАЧЕСТВЕННОЕ ОБРАЗОВАНИЕ КАК ОСНОВНОЕ ТРЕБОВАНИЕ ОБЩЕСТВА

***Резюме***

*Достижение качества в образовании означает удовлетворение запросов этого общества. Для повышения качества образования необходимо расширить возможности обучения, адаптировать подготовку кадров к требованиям рынка труда, подготовить специалистов в соответствии с международными стандартами сертификаты.*

# QUALİTY EDUCATİON AS A BASİC REQUİREMENT OF SOCİETY

***Summary***

*Achieving quality in education means meeting the demands of that society. In order to improve the quality of education, the opportunities to study should be expanded, personnel training should be adapted to the requirements of the labor market and experts should be prepared according to international certificates.*

***Açar sözlər:*** *təhsil, cəmiyyət, qiymətləndirmə, keyfiyyət, monitorinq*
***Ключевые слова:*** *образование, общество, оценка, качество, мониторинг*
***Key words:*** *education, society, evaluation, quality, monitorinq*

Azərbaycan III minilliyə cəmiyyətin siyasi, sosial-iqtisadi və mənəvi-mədəni sahələrində, o cümlədən davamlı təhsil və təlim sistemində köklü islahat şəraitində qədəm qoyub. Təhsil hər bir cəmiyyətin ayrılmaz hissəsi, onun mədəniyyət göstəricisi və tərəqqinin əsasıdır. Təhsildə keyfiyyətə nail olmaq, idarəetmə və nəzarət sisteminin formalaşması, bütövlükdə fasiləsiz təhsil sisteminin idarə edilməsi və onun həyata keçirilməsi dövlət təhsil siyasətinin, kadr hazırlığı proqramının prioritet sahələrindən biridir.

Bu gün dünyanın əksər yerlərində şagirdlərin qiymətləndirilməsində iki tendensiya mövcuddur. Birincisi, milli və beynəlxalq standartlara doğru hərəkətdir. İkincisi ümumilikdə təhsilə, xüsusilə də qiymətləndirməyə daha çox şagirdyönümlü səlahiyyətləndirməyə əsaslanan yanaşmaya dogru irəliləyişdir.

"Təhsil" termini şəraitdən asılı olaraq müxtəlif mənalara malik ola bilər. Təhsil aşağıdakıları ifadə edə bilər: sosial hadisə, proses, nəticə, sistem. Təhsil sisteminin işçiləri: pedaqoqlar, müəllimlər - təhsili bir proses və bu prosesin nəticəsi hesab edirlər.

Müasir pedaqoji elmdə təhsilə bir sistem kimi baxılır. Bir sistem kimi təhsil bütövlük, daxili qarşılıqlı əlaqə, təşkilatçılıq, açıqlıq və dinamizm ilə xarakterizə olunur. Təhsil müstəqil bir sistemdir, funksiyası cəmiyyət üzvlərini öyrətmək və tərbiyə etməkdən ibarətdir, müəyyən biliklərə (ilk növbədə elmi), ideoloji və mənəvi dəyərlərə, bacarıqlara, vərdişlərə, davranış normalarına yiyələnməyə yönəldilir.

Aristotel "keyfiyyəti" sabit və keçici xüsusiyyət kimi başa düşürdü. Demokrit, sonra Qalileo keyfiyyəti subyektiv və obyektiv olaraq ayırdı. İngilis filosofu C.Lokk obyektiv keyfiyyətləri ilkin, subyektiv keyfiyyətləri ikinci dərəcəli adlandırmışdır.

"Təhsil" və "keyfiyyət" anlayışlarına əsaslanaraq başa düşmək olar ki, təhsilin keyfiyyəti sosial, iqtisadi, pedaqoji kateqoriya kimi qəbul edilir. Metodoloji aspektdə "təhsilin keyfiyyət"nin tərifinə təkcə təhsil sistemində deyil, bütövlükdə cəmiyyətin inkişafında mühüm əhəmiyyət kəsb edən tədris prosesi və nəticəsinin xarakterik xüsusiyyəti kimi yanaşmaq lazımdır. Bu baxımdan "təhsilin keyfiyyəti" anlayışını bütün obyektiv və subyektiv xüsusiyyətləri nəzərə alan kompleks təhsil kimi müəyyən etmək olar.

Keyfiyyət təhsilin inkişafının əsas məqsədlərindən birinə çevrilir. Təhsildə istənilən islahat təhsilin keyfiyyətini yüksəltmək məqsədi daşıyır. Müasir pedaqogikanın və bütövlükdə cəmiyyətin əsas məsələlərindən biridir. Bu baxımdan müasir pedaqoji ədəbiyyatda "təhsilin keyfiyyəti" anlayışı geniş şərh olunur, bir çox anlayışlar kontekstində nəzərdən keçirilir. Bu konsepsiya bir çox alim və metodistlərin, o cümlədən müəllimlərin müzakirə obyektinə çevrilir.

Təhsilin keyfiyyətinin dinamikliyi onunla bağlıdır ki, cəmiyyətin, əmək bazarının, istehlakçıların tələbləri, təhsilin məqsədləri dəyişir, yəni şərait dəyişir, bu şəraitlərdən asılı olaraq prosesin özü yenidən qurulur. Bu baxımdan təhsilin keyfiyyət sisteminin strukturu və bir-biri ilə əlaqəli olması səbəbindən onun fərqli sxem üzrə nəzərdən keçirilməsi daha məqbuldur.

Biz təhsilin keyfiyyətini üç əsas komponentin bir-biri ilə əlaqəli struktur hesab edirik: nəticənin keyfiyyəti, prosesin keyfiyyəti, şəraitin keyfiyyəti.

Nəticənin keyfiyyətinin qiymətləndirilməsi şərtlərin keyfiyyətinin və prosesin keyfiyyətinin dəyişməsinə səbəb olduğundan və ya prosesin keyfiyyətinin qiymətləndirilməsi şərtlərin keyfiyyətinin inkişafını müəyyən etdiyindən nəticələrin keyfiyyətinə təsir göstərir. Buna görə də bir komponentin keyfiyyəti digər komponentlərin keyfiyyətinə təsir göstərir. Beləliklə, bütün təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi üçün qarşılıqlı proses (spira inkişaf prosesi) mövcuddur.

Şərtlərin keyfiyyətinə aşağıdakı elementlər (xüsusiyyətlər) aid edilə bilər:

- Maddi-texniki bazanın səviyyəsi;
- Müəllimlərin fəaliyyətinin keyfiyyəti;
- İdarəetmə orqanlarının fəaliyyəti;
- Tələbələrin şəxsi keyfiyyətləri;
- Tədris və metodiki təminatın səviyyəsi;
- Daxili və xarici qiymətləndirmənin keyfiyyəti.

Prosesin keyfiyyətinin əsas komponentləri bunlardır:

- Təhsil proqramlarının, təhsil məzmununun keyfiyyəti;
- Tədris prosesinin idarə edilməsi;
- Tədris, metodiki və maddi-texniki təminatın keyfiyyəti;
- Tədris prosesinin texnologiyası;
- Müəllimlərin keyfiyyət tərkibi;
- Tələbələrin keyfiyyəti.

Nəticələrin keyfiyyətini aşağıdakı elementlərdən ibarət sistem hesab etmək olar:

- Tələbə biliyinin keyfiyyəti;
- Şagirdin tədris və idrak fəaliyyətinin keyfiyyəti;
- Şagird şəxsiyyətinin inkişafı;
- Məzunun hazırlıq səviyyəsi;
- Məzunun səriştəsi;
- Rəqabət qabiliyyətliliyi və məzunların məşğulluğu;
- Məzunların karyera yüksəlişinin nailiyyətləri və dinamikası;
- Şagird şəxsiyyətinin inkişafı.

Təhsil keyfiyyətinin tərkib hissələrini və elementlərini bu cür bölünməsini şərti hesab etmək olar, çünki onların hamısı bir-biri ilə bağlıdır.

Təhsil və keyfiyyət anlayışlarına əsaslanaraq başa düşmək olar ki, təhsilin keyfiyyəti sosial, iqtisadi, pedaqoji kateqoriya kimi qəbul edilir. Metodoloji aspektdə təhsilin keyfiyyətinin tərifinə təkcə təhsil sistemində deyil, bütövlükdə cəmiyyətin inkişafında mühüm əhəmiyyət kəsb edən tədris prosesi və nəticələrin xarakterik xüsusiyyəti kimi yanaşmaq lazımdır. Bu

baxımdan təhsilin keyfiyyəti anlayışını bütün obyektiv və subyektiv xüsusiyyətləri nəzərə alan kompleks təhsil kimi müəyyən etmək olar.

Keyfiyyət kateqoriyasının kəmiyyət kateqoriyası ilə bağlı inkişafını Hegel keyfiyyətin kəmiyyətdən üstünlüyünü təsdiq etmişdir. Məhz o, ölçü anlayışından istifadə edərək kəmiyyətin keyfiyyətə keçid qanununu tərtib etdi, burada ölçü kəmiyyət baxımından bir keyfiyyətlə digəri arasında sərhəd kimi görünür. Keyfiyyət Hegelə görə müəyyənlikdir ki, onun itirilməsi ilə bir şey öz keyfiyyətini itirdikdə olduğu kimi olmaqdan çıxır, yəni varlıqla eyniləşir.

Təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsini üç mərhələyə bölmək olar:

1. I mərhələ - şagirdlərin biliyinin monitorinqi;
2. II mərhələ - kompleks monitorinq;
3. III mərhələ - təhsil sisteminin monitorinqi.

Təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi obyektləri:

- təhsil müəssisələrində tədris prosesini təmin edən şəraitin keyfiyyəti,
- maliyyə-təsərrüfat,
- maddi-texniki,
- sanitariya-gigiyenik,
- kadrlar,
- təhsilalanların məişət şəraiti,
- təhsil prosesinin və məzmununun, o cümlədən tədris-metodiki təminatın,
- tədris və maddi təminatın, habelə pedaqoji və informasiya texnologiyalarının keyfiyyəti,
- şagirdlərin fərdi və ümumi naıliyyətlərini təmin edən nəticələrin keyfiyyəti. (2,s. 12-13)

"Təhsildə keyfiyyət" nə deməkdir? Keyfiyyət müxtəlif dövrlərdə müxtəlif tədqiqatçılar tərəfindən araşdırılan aktual problemlərdən olmuşdur. Keyfiyyət sosial faktordur. İnsanlar görülən işləri və əldə edilən nəticələri fərqləndirmək üçün əsaslı müqayisələr apara bilmişlər. Keyfiyyət həm də bir müqayisə vasitəsidir. "Keyfiyyət" bir göstəricidir. Təhsildə keyfiyyəti ölçən cihaz yoxdur lakin, vasitələr isə müxtəlifdir. Keyfiyyətin göstəricisi həmin işə verilən qiymətdir. Təhsilin keyfiyyəti hər zaman insanları düşündürmüş, onları məqsədyönlü fəaliyyətə cəlb etmişdir. "Təhsilin keyfiyyəti" anlayışı çoxşaxəli bir anlayışdır. Belə ki, biz "təhsilin keyfiyyəti" dedikdə, buraya eyni zamanda "təlimin keyfiyyəti", "müəllim və şagirdlər arasında keçirilən pedaqoji prosesin keyfiyyəti", həmçinin "öyrədilən biliyin keyfiyyəti" və s. kimi anlayışları aid edə bilərik. Lakin, qeyd etməliyik ki, bu anlayışlardan ən əsası elə "təhsilin keyfiyyəti" anlayışıdır. Çünki, "təhsilin keyfiyyəti" anlayışı daha ümumi bir anlayışdır, digər anlayışlar isə məhdud xarakterli olub, onlar ümumilikdə təhsilin ayrı-ayrı hissələrini əhatə edərək təhsilin keyfiyyətinə xidmət edən

törəmə anlayışlar sırasına daxildir. Onları birləşdirən ən ümdə vəzifə isə təhsilin keyfiyyət göstəricisidir. Təhsilin keyfiyyəti o zaman yüksəlir ki, sözün həqiqi mənasında o, cəmiyyətin təlabatlarını ödəmiş olsun. Təlabatların ödənilməsi prosesində yaranan ziddiyyətlər təhsilin keyfiyyətinin yüksəldilməsində birbaşa hərəkətverici qüvvə rolunda çıxış edir. Bu baxımdan təhsil sistemi müasir tələblərə cavab verməlidir. (1,s.95)

Prezident İlham Əliyev "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sənəddə qeyd olunur ki, müstəqil Azərbaycan iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi mərhələsini yaşamaqdadır. Bununla belə, gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir.

Cəmiyyətin inkişafının təminatçısı olan ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmə davam etdirilməli, məzmun islahatları dərinləşməli, inteqrativ tədris təcrübəsi inkişaf etdirilməlidir. Bu əsasda ölkənin beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olunmalıdır.

Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir. İnsanların yüksək keyfiyyətli təhsil almaq imkanları genişləndirilməli, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalı, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalıdır.

### *Ədəbiyyat*

1. *Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı, Müəllim nəşriyyatı, s. 67.142.144.*
2. *Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə, Çaşıoğlu, Bakı-2003. s 12-13*
3. *https://www.muallim.edu.az/news.php?id=14560*

**N.Z.Ağaverdiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***nice.nzrin@mail.ru***

# TƏHSİLDƏ MONİTORİNQİN KEÇİRİLMƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Müasir dövrdə məktəbdə monitorinqin keçirilməsinin diaqnostik və proqnostik təşkil olunması şagirdlərin fərdi xüsusiyyətlərinin inkişafının əsas şərtlərindən biridir.*

# ОСНОВНЫЕ ЧЕРТЫ МОНИТОРИНГА В ОБРАЗОВАНИИ

***Резюме***

*В современное время диагностическо-прогностическая организация наблюдения в школе является одним из основных условий развития индивидуальных особенностей учащихся.*

# THE MAİN FEATURES OF MONİTORİNG İN EDUCATİON

***Summary***

*İn modern times,the diaqnostic and prognostic organization of monitoring at school is one of the main conditions for the development of individual characteristics of students.*

***Açar sözlər:*** *monitorinq, cəmiyyət, diaqnostik, proqnostik, informasiya*
***Ключевые слова:*** *мониторинг, общество, диагностика, прогностический, информационный*
***Key words:*** *monitoring, society, diagnostics, prognostic, informational*

XXI əsr elmi-texniki tərəqqinin gündən-günə artması, dünya təhsil sisteminə inteqrasiya, qloballaşan dünyada insan inkişafının əsas göstəricilərindən olan təhsil sisteminin bütün pillə və səviyyələrində monitorinqin keçirilməsi günün əsas tələblərindən birinə çevrilmişdir. Monitorinq - ingilis dilindən izləmə, yoxlama deməkdir. Bu termin təhsil sisteminə XX əsrin axırlarında daxil olmuşdur. (2, s.401)

Monitorinq cəmiyyəti və təhsil sistemini etibarlı, kifayət qədər dolğun və istifadə səviyyəsinə görə fərqləndirilmiş informasiya ilə təmin etmək üçün təhsilin keyfiyyətinin ən mühüm xüsusiyyətlərinə dair məlumatların davamlı toplanması, onların işlənməsi, təhlili və şərhi sistemi kimi başa düşülməlidir. Proseslərin və təhsilin nəticələrinin normativ tələblərə, davam edən dəyişikliklərə və proqnozlaşdırılan tendensiyalara uyğunluğudur.

Başqa sözlə desək, monitorinq tədris prosesinin və onun nəticələrinin standartlaşdırılmış müşahidəsidir ki, bu da zamanla obyektin vəziyyətinin tarixini yaratmağa, təhsil subyektlərində və təhsil sistemində baş verən dəyişikliyi kəmiyyətcə qiymətləndirməyə imkan verir. Monitorinqin əsas məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsidir. Monitorinqin komponentlərinə aşağıdakılar daxildir: tədris prosesinin obyektləri və subyektləri, təhsilin keyfiyyət göstəricilərinin məcmusu, alətlər, məlumatların toplanması üçün verilənlərin bazası, məlumatların təhlili, emalı və şərhi üsulları, məlumatların işlənməsi üçün proqram təminatı və alətlər.

Təhsildə monitorinqin aparıcı funksiyaları bunlardır: informasiya, diaqnostik, müqayisəli və proqnostik. Monitorinqin praktiki tətbiqinin əsas sahəsi müxtəlif üsullarla, o cümlədən birbaşa inzibati müdaxilə ilə həyata keçirilən təhsilin keyfiyyətinin idarə eilməsinin informasiya təminatıdır. Monitorinq sistemində toplanmış məlumatlardan tədris metodlarında çatışmazlıqlar, kurikulumlar nisbətindəki təhriflər, məktəb dərsliklərinin müəllifləri tərəfindən səhv hesablamalar və s. ilə bağlı təlim problemlərini müəyyən etmək üçün istifadə oluna bilər. (1, s.16)

Monitorinq göstəriciləri toplusu həmişə ölkə höküməti və digər təhsil orqanları tərəfindən hazırlanmış təhsildə ən ümumi tendensiyalara uyğundur. Təhsil sisteminin vəziyyətini təsvir edən statistik məlumatlar təhsil islahatlarına ehtiyac olduğunu nümayiş etdirmək, əvvəlki təhsil idarəçiliyinin zəif fəaliyyətinin sübutu kimi xidmət etmək və ya dövlətdə həyata keçirilən islahatların faydalarını göstərmək üçün istifadə edilə bilər.

Monitorinq diaqnostik xarakterli bir çox gündəlik işləri həll etməyə imkan verir. Məktəb monitorinqində toplanmış məlumatlar fənlərin müəyyən bölmələrinin mənimsənilməsində sistematik çətinlikləri müəyyən etməyə, müəllimlərin innovativ iş metodlarının səmərəliliyini qiymətləndirməyə, ayrı-ayrı şagirdlərin uğursuzluqlarının səbəblərini diaqnostika etməyə, onları fənn, sosial-iqtisadi və ya digər amillərlə əsaslı şəkildə əlaqələndirməyə kömək edir.

Hər bir təhsil müəssisəsi təhsil prosesinin normal fəaliyyətini və inkişafını, təhsilin yüksək keyfiyyətinə nail olunmasını, habelə şagirdlərin motivasiyasının, sağlamlığının və inkişafını zəruri səviyyədə təmin etməyə çalışır.

Tədris prosesinin keyfiyyətinə sistemli nəzarət bu prosesin gedişatının idarə edilməsində əsas məsələlərdən biridir. Vahid metodikadan istifadə etməklə bu prosesin xüsusi monitorinqi olmadan, digər müəllimlərlə müqayisədə müəllimin hərəkətlərinin düzgünlüyünü və şagirdlərin fənni mənimsəməsində uğurunu təsəvvür etmək çətindir. (3, s.202)

Bu gün məktəbin dinamik özünütəbliğatının və onun innovativ transformasiyalarının vəziyyətinin və nəticələrinin davamlı qiymətləndirilməsi prosesi son dərəcə əhəmiyyətlidir. Müasir məktəb qarşısında qoyulan

problemləri səmərəli həll etmək üçün onun fəaliyyətini diaqnostik və proqnostik əsasda (pedaqoji monitorinqin tətbiqi əsasında) qurmaq lazımdır ki, bu da uşağın fərdi xüsusiyyətlərinə uyğun inkişafını təmin edir.

Pedaqoji monitorinq sisteminin yaradılması məktəbin ən mühüm vəzifələrindən biridir. Bu və ya digər şəkildə məktəb təhsili sistemində monitorinq həmişə mövcud olub. Bunlar şagirdlərin biliyinin nəzarət bölmələri, imtahanları və yoxlamalarıdır. Bununla belə, təcrübə göstərir ki, ənənəvi monitorinqin bütün bu formaları kifayət qədər effektiv deyil və bir sıra ciddi çatışmazlıqlara malikdir:

Öyrənmə vəziyyətinə nəzarət nizamsız epizodikdir. Metodlar daimi tətbiqə yönəldilmir, buna görə də təhsil prosesində müəyyən dəyişikliklər dinamikasını izləmək mümkün deyil, əsas diqqət təlim nəticələrinə verilir. Eyni zamanda təlim prosesinin özü, bilik, bacarıqların formalaşması müəllimlərin nəzərindən kənarda qalır.

Şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsi təhsil sisteminin əsas prinsiplərindən biridir. Bu işdə isə monitorinq köməyə çatan texnologiya kimi çıxış edir. Monitorinq məsələsinin aktuallığı təhsil xidmətlərinin keyfiyyətinin təsdiq edilmiş dövlət standartları əsasında qurulmasının zəruriliyi ilə bağlıdır. Keyfiyyətin monitorinqi istənilən təhsil sisteminin əsas tərkib hissəsidir. Təhsilin keyfiyyəti şagirdlərin təlim nəticələrinin səviyyəsindən çox asılıdır. Bu baxımdan müasir dövrdə şagirdlərin təlim nəticələrinin monitorinqi ən aktual mövzulardan biridir. Monitorinqin obyektinə və subyektinə görə iki növü müəyyən edilir.

Ümumi təhsil sahəsində həyata keçirilən yeni qiymətləndirmə sistemi ümumi təhsildə bütün fəaliyyətləri qiymətləndirən və onların müəyyən olunmuş müvafiq standartlar istiqamətində inkişaf etməsini təmin edən bir mexanizm kimi düşünülmüşdür. Burada bütün fəaliyyətlər dedikdə şagirdin, müəllimin, təhsil müəssisəsinin, təhsili idarəetmə strukturlarının və ölkənin ümumi təhsil sisteminin fəaliyyəti nəzərdə tutulur.

Bu iərarxiyada aparıcı həlqə şagirdin təlim fəaliyyətinin nəticələridir, qalan bütün fəaliyyətlər bu nəticələrin alınmasına xidmət edir və bu nəticələrdə əks olunur. Buna görə də yeni qiymətləndirmə sisteminin əsasını şagird təlim fəaliyyətlərinin ardıcıl və sistemli şəkildə qiymətləndirilməsi təşkil edir. Onun mahiyyəti, əsas xüsusiyyətləri və növləri, eləcə də hər bir növün mahiyyəti, məzmunu və aparılması qaydaları "Azərbaycan Respublikasının ümumi təhsil sahəsində qiymətləndirmə Konsepsiyası"nda və onun əsasında hazırlanan təlimatlarda öz əksini tapmışdır.

Yeni qiymətləndirmə sisteminin əsasında şagirdlərin təlim fəaliyyətlərinin ardıcıl və sistemli şəkildə qiymətləndirilməsi, nəticələrin təhlili və müvafiq qərarların qəbul edilməsi dayanır. Şagird nailiyyətinin qiymətləndirilməsi məktəbdaxili, milli və beynəlxalq olmaqla üç istiqamətdə

aparılır. Əslində bunlar yeni qiymətləndirmə sisteminə daxil olan və bir-birindən asılı olmadan fəaliyyət göstərən alt sistemlərdir. Onların arasında ən əhatəli və əhəmiyyətli olan məktəbdaxili qiymətləndirmədir.

Məktəbdaxili qiymətləndirmənin əsasını təşkil edən şagird irəliləyişlərinin monitorinqi sistemi dərs ili ərzində şagirdin təlim, müəllimin tədris fəaliyyətini fənn üzrə müəyyən olunmuş təlim nəticələrinin əldə olunmasına istiqamətləndirən və dərs ilinin sonunda hər iki tərəfin fəaliyyətini qiymətləndirməyə imkan verən texnologiya kimi düşünülmüşdür (4, s.5-7).

Təhsilin modernləşdirilməsinin hazırki mərhələsi, onun funksiyalarının mürəkkəbləşməsi təhsilin keyfiyyətinin izlənməsi və qiymətləndirilməsi vasitəsi kimi monitorinqin tətbiqinə ehtiyacı daha da artırıb. Yalnız zaman keçdikcə deyil, həm də təhsil müəssisəsinin növündən, tələbələrdən təhsil imkanlarından asılı olaraq təhsilin keyfiyyəti kimi mürəkkəb pedaqoji fenomenin davamlı monitorinqi və adekvat qiymətləndirilməsi monitorinq vasitəsi ilə həyata keçirilə bilər. Təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi özlüyündə məqsəd deyil, onlar pedaqoji proqnozlaşma və tədris prosesinin gedişi və nəticələri ilə bağlı adekvat idarəetmə qərarlarının qəbulu üçün zəruridir. Yalnız çoxfunksiyalı təşkil edilmiş monitorinq bu tələblərə cavab verə bilir. Pedaqoji ədəbiyyatda "monitorinq" anlayışının şərhinin təhlili əsasında bu anlayışın əlaqəli olanlarla –"öyrənmə", "müşahidə", "nəzarət" və s. ilə əlaqəsi anlayışının tərifinə aydınlıq gətirilmişdi. Monitorinq təhsildə və digər sahələrdə həyata keçirilməsini müqayisə edərək monitorinqin çoxfunksiyalı xarakter daşıdığını sübuta yetirilmiş, onun funksiya və prinsiplərinin optimal məcmusu müəyyən edilmişdi.

Pedaqoji monitorinq təhsilin yeni keyfiyyətinin təmin edilməsinə yönəlmiş ümumtəhsil müəssisəsinin səmərəli idarə olunmasının ən mühüm şərtidir. Monitorinq sistemi bir-biri ilə əlaqəli elementlərin məcmusudur:

- onun həyata keçirilməsinin məqsədi,
- monitorinqin obyekti,
- monitorinqin subyektləri,
- meyarlar və qiymətləndirmə göstəriciləri toplusu,
- məlumat toplamaq üsulları.

İdarəetmə alt sistemi kimi fəaliyyət göstərən açıq fəaliyyət sistemidir. Monitorinq sisteminin fəaliyyəti onun açıqlıq dərəcəsi, monitorinq sistemi ilə idarəetmə sistemi arasında məlumat mübadiləsinin səmərəlilik dərəcəsi ilə müəyyən edilir. Təhsilin keyfiyyəti təhsil sistemi üçün müasir sosial sifarişi əks etdirən əhəmiyyətli pedaqoji hadisə kimi onun tərkib hissələrinin vəhdəti və qarşılıqlı əlaqəsi kimi tərifə geniş yanaşma əsasında dərk edilə və pedaqoji cəhətdən şərh edilə bilər. Təhsil prosesinin təşkili və həyata keçirilməsi səviyyələri, onun üçün yaradılmış şərait və dövlətin, cəmiyyətin maraqlarına və fərdin təhsil ehtiyaclarına cavab verən təhsil nəticələridir.

Təhsilin keyfiyyətinin monitorinqinin təşkili, məzmunu və həyata keçirilməsi aşağıdakı prinsiplərdən irəli gələn tələblərin praktiki həyata keçirilməsinə tabe olmalıdır: məqsədəyönümlülü, davamlılıq, təhsilin bütövlüyü və çoxşaxəliliyi, monitorinq subyektlərinin fəaliyyətində ardıcıllıq, təhsilin məqsədyönümlüyü və aşkarlığı və s. köməyi ilə əldə edilən məlumatlardır.

Təhsilin keyfiyyətinin geniş şərhi qiymətləndirmənin parametrlərini və ona nəzarət üsulunu əhəmiyyətli dərəcədə dəyişir. Mürəkkəb sosial-pedaqoji hadisə kimi o, monitorinq məlumatlarının çoxşahəliliyini, təhlilinin dərinliyini və proqnozlaşdırıla bilənliyini təmin edərək bir sıra meyar və göstəricilərdən istifadə etməklə qiymətləndirilməlidir.

Təhsilin keyfiyyətinin monitorinqinin ən mühüm xüsusiyyəti onun çoxfunksiyalı olmasıdır, yəni vacib məlumatların toplanması, təhlili və adekvat qiymətləndirilməsi, onun bütün komponentlərinin qarşılıqlı təsirini nəzərə almaq, təhsilə stimullaşdırıcı və həvəsləndirici təsir göstərməkdir. Təhsil subyektləri, sosial sifarişin həyata keçirilməsinə nəzarəti təmin etmək, təhsilin gələcək inkişafının proqnozlaşdırılması və mümkün uğursuzluqlar, təhsil prosesinin və onu təmin edən şərtlərin korreksiyası üçün tövsiyyələr hazırlayır.

Monitorinq zamanı onun tam dövrü təmin edilməlidir (informasiyanın ardıcıl toplanması, onun işlənməsi, sistemləşdirilməsi, dərin təhlili, qiymətləndirilməsi, şərhi, gələcək inkişafının proqnozu və düzəliş tədbirlərinin inkişafı). Məktəbdə təhsilin keyfiyyətinin monitorinq qiymətləndirilməsinin uğurunun ən mühüm şərti meyarların adekvatlığı və meyar-qiymətləndirmə kompleksini təşkil edən diaqnostika üsullarının seçilməsinin optimallığı (zəruriliyi və kafiliyi) dir.

Pedaqoji monitorinq təhsil prosesinin keyfiyyətinin monitorinqi, onun məzmununun davamlı monitorinqini təmin etmək, onun inkişafının proqnozlaşdırılması və yeni təcrübənin əldə edilməsi – proses haqqında məlumatların təşkili, toplanması, emalı, saxlanması və yayılması formasıdır.

### *Ədəbiyyat*

1. *Cavadov İ.A. Təhsilin keyfiyyət təminatında manitorinq və qiymətləndirmənin rolu // Azərbaycan məktəbi, 2005, №5, s.15-21*
2. *Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində keyfiyyət təminatında monitorinq və qiymətləndirmənin rolu. ADPU, Humanitar elmlər seriyası, 2005, №3, s.507-517*
3. *Антинова В.М., Лаптева Т.С., Зетбицкий В.М. и др. Мониторинг образовательной системы современной школы. Ростов: Изд-во РОНПК и ПРО, 199, 230 с.*
4. *Hacıyeva T. Monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti // “Azərbaycan müəllimi” 18 mart 2011, s. 10*

**O.Ə.Həsənli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***orxanhesnli2000@gmail.com***

# "AZƏRBAYCAN DİLİ" FƏNN KURİKULUMUNUN FƏLSƏFİ-PSİXOLOJİ ƏSASLARI

***Xülasə***

*Məqalədə humanitar baza təhsilinin əsas hissəsinə daxil olan "Azərbaycan dili" fənn kurikulumu fəlsəfi nəzəriyyələr, müasir təhsilin fəlsəfi problemləri əsasında araşdırılır, fənn kurikulumunun məzmunu, strukturu, strategiyası, mənimsəmə nəticəsində formalaşan kompetensiyalar, qiymətləndirmə alətləri ümumtəhsil fəlsəfəsi müstəvisində təhlil edilir. Göstərilir ki, "Azərbaycan dili" fənn kurikulumunun təhsil fəlsəfəsi bütövlükdə təlim prosesində öz əksini tapmaqla yanaşı, dövlətin təhsil siyasətinə müsbət təsir edən milli ideyaları stimullaşdırır, şagirdlərin dünyagörüşünü formalaşdırır.*

# ФИЛОСОФСКО-ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ УЧЕБНОЙ ПРОГРАММЫ ПО ПРЕДМЕТУ "АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК"

***Резюме***

*В статье на основе философских теорий, философских проблем современного образования рассматривается предметная учебная программа «Азербайджанский язык», входящая в основную часть гуманитарного базового образования, содержание, структура, стратегия учебной программы, компетенции, сформированные в результате овладения, инструментами оценивания анализируются на уровне общеобразовательной философии. Показано, что педагогическая философия учебной программы предмета «Азербайджанский язык» находит свое отражение во всем образовательном процессе, стимулирует национальные идеи, положительно влияющие на государственную образовательную политику, формирует мировоззрение обучающихся.*

# PHİLOSOPHİCAL AND PSYCHOLOGİCAL FOUNDATİONS OF THE CURRİCULUM ON THE SUBJECT "AZERBAİJANİ LANGUAGE"

***Summary***

*Based on philosophical theories, philosophical problems of modern education, the article examines the subject curriculum "Azerbaijani language", which is part of the main part of humanitarian basic education, the content, structure, strategy of the curriculum, competencies formed as a result of mastering, assessment*

*tools are analyzed at the level of general educational philosophy . It is shown that the pedagogical philosophy of the curriculum of the subject "Azerbaijani language" is reflected in the entire educational process, stimulates national ideas that positively influence the state educational policy, and forms the worldview of students.*

***Açar sözlər:*** *təhsil fəlsəfəsi, təlim prosesi, fənnin məqsədi, məzmun xətləri, interaktiv təlim, təlim strategiyaları, təlimdə qiymətləndirmə*

***Ключевые слова:*** *философия образования, процесс обучения, цель предмета, линии содержания, интерактивное обучение, стратегии обучения, оценивание в обучении*

***Key words:*** *philosophy of education, learning process, purpose of the subject, lines of content, interactive learning, learning strategies, assessment in learning*

XXI əsrdə baş verən ideoloji, iqtisadi və sosial dəyişikliklər cəmiyyətin bütün qatlarında olduğu kimi təhsil strukturlarında da islahatları qaçılmaz etmiş, "müasir dünyanın inkişaf sürəti bir çox sahələrin, o cümlədən, təhsilin, onun fəlsəfəsinin dəyişməsi ilə nəticələnmişdir" (1,4). Yaddaş məktəbindən təfəkkür məktəbinə keçid onu göstərmişdir ki, təlim prosesini təlim materialı və onun şərhi üzərində qurmaq müasir təhsil yanaşmalarına uyğun gəlmir. Ona görə də ötən əsrin sonlarından başlayaraq təhsilin məzmununun standartlar formasında hazırlanmasına başlanılmış və peşəkar mütəxəssis müzakirələrinin yekunu olaraq "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)" yaradılmışdır. Sonralar həmin sənəd respublikamızda qəbul olunmuş "Təhsil haqqında Qanuna" əsasən 2010-cu ildə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (Kurikulumları)" adda yeniləşdirildi (4.4) və elmin digər sahələrində olduğu kimi dil sahəsində də yeni kompetensiyaları inkişaf etdirən proqramlara ehtiyac yarandı. Təhsil islahatının aparılmasında məsul şəxslər, təhsil mütəxəssisləri bu qənaətə gəldilər ki, informasiya axını ilə yüklənən gəncləri düzgün istiqamətə yönləndirmək üçün bir çox elmlərin dərindən öyrənilməsinə tələbat yaranmışdır və bu tələbatın keyfiyyətli yerinə yetirilməsi ana dili təliminin düzgün qurulmasından çox asılıdır.

Beynəlxalq qiymətləndirmələrdə ana dilinə ilk sırada yer verilməsi, öyrənmə prosesinin Avropa Birliyinin dil tədrisi standartlarına uyğunlaşdırılması tələbinin qoyulması bir şeyi dəqiqləşdirdi ki, ana dilini mükəmməl bilmədən informasiya, riyaziyyat, səhiyyə, sosiologiya və s. kimi sahələri "təfəkkür məktəbi"nin qaydalarına uyğun mənimsəmək çətin məsələdir. Yəni ana dilinin normalarını, onun leksik-qrammatik, üslubi xüsusiyyətlərini dərindən mənimsəmədən digər fənlərin dərindən öyrənilməsi elə də asan məsələ deyildir. Gündəlik həyat üçün zəruri olan əsas ünsiyyət bacarıqlarının mənimsənilməsi prosesini də bura əlavə etdikdə ana dili təliminin mahiyyəti daha da dolğun anlaşılır.

Əlbəttə ki, Azərbaycan dilinə aid fənn kurikulumu dil tədrisi ilə bağlı ən son metodoloji, texnoloji inkişaflara, qabaqcıl ölkələrdə istifadə olunan kurikulumlara istinad olunmaqla hazırlanmışdır və bu gün də onun təkmilləşdirilməsi üzrə işlər davam etməkdədir. Hələ də təhsil işçiləri, ekspertlər, xarici mütəxəssislər səviyyəsində müzakirələr aparılır, kurikulumun tam formalaşması üçün müəyyən prosedur qaydalar dəqiqləşdirilir.

İlk olaraq, onu bildirək ki, milli kurikulumun hazırlanması və yenilənməsi prosesi mütləq şəkildə çoxlu sayda maraqlı tərəflərin (müəllim, valideyn, peşə mütəxəssisləri, məktəb rəhbərləri, icra nümayəndələri, şagirdlərin özləri və s.) işbirliyi sayəsində baş tutmuşdur. Hazırlıq və yenilənmə prosesində sinif otaqlarında, auditoriyalarda olan müəllimlərin rəy və təkliflərinə ciddi diqqət yetirilmiş, müxtəlif təhsil ekspertlərinin fikirləri nəzərə alınmışdır. Ən başlıcası da odur ki, kurikulum hazırlanarkən şagirdlərin ehtiyacları, sosial-mədəni məsələlər bir an olsun belə diqqət mərkəzindən kənarda qalmamışdır. Yekunlaşmış formada desək, "Azərbaycan dili" fənn kurikulumu gənc öyrənənlərə qlobal vətəndaş, şəxsiyyət kimi formalaşmağın yolunu göstərən mayak, Azərbaycan dilinin xarakteristikasını işıqlandıran dinamik çərçivə halına salınmışdır. Bu çərçivə sənədində həm öyrənən, həm də öyrədən tərəfin funksiyaları öz əksini tapmış, tam olaraq təhsilin məzmunu, təşkili, qiymətləndirilməsi ilə əlaqəli bütün məsələləri özündə cəmləşdirən konseptual sənədə çevirilmişdir. "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər)" adlı vəsaitdə olduğu kimi dəqiqləşdirsək "Azərbaycan dili kurikulumu bu fənn üzrə məqsəd və vəzifələri müəyyənləşdirən və ona doğru istiqamətlənmiş standartların reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəddir" (1, 6).

Biz yuxarıda da qeyd etdik ki, dəyişən tələb və dəyərlər təhsili, o cümlədən, "Azərbaycan dili" fənn kurikulumunun fəlsəfi əsaslarını da dəyişmə və təkmilləşmələrə məruz qoymuşdur. Əslində kurikulumun fəlsəfi əsasları çoxdur və hər bir fərdi oriyentasiya əhəmiyyətli bir müddət ərzində təhsilə, xüsusilə də kurikulum sahəsinə təsir göstərmək gücündədir. Şübhə yoxdur ki, məktəbin, onun məsul şəxslərinin fəlsəfəsi tədris proqramının məqsədləri, məzmunu və təşkili ilə birbaşa əlaqəlidir. Təhsil fəlsəfəsi cəmiyyətə, onun təhsil sisteminə bütün zamanlarda təsir göstərmiş, təlimə aid qərarların qəbul olunmasında bilavasitə iştirak etmiş, hətta onları müəyyənləşdirmişdir. Cəhd edilmişdir ki, "Mən kiməm?", "Bu uşaqlar kimdir?", "Mən onları hara aparmalıyam?" suallarına cavab axtaran öyrədənin fəlsəfəsi ilə, öyrənənin, bu öyrənmədə onlara yardım edən fənn kurikulumlarının fəlsəfəsi üst-üstə düşsün, prosesin gedişi ümumi vəhdət təşkil etsin. Bu fikrin ardıcıl tərəfdarı olan Con Dyuinin fikrincə, fəlsəfə təhsil prosesinin əhatəli aspektidir.

Təbii ki, təhsilin fəlsəfi nəzəriyyə və problemlərini bilmədən hər hansı bir fənn kurikulumunun fəlsəfi əsaslarından danışmaq, onların təlim prosesindəki mövqeyini aydınlaşdırmaq mümkün deyildir. Fəlsəfənin idealizm, realizm, praqmatizm, ekzistensializm kimi bağları özlüyündə təhsil nəzəriyyələrinin formalaşmasına böyük xidmətlər göstərmiş, onun təkmilləşməsini təmin etmişdir. Məsələn, perenializm və eksiztensializmdə ənənəvi, mühafizəkar, proqessivizm və rekonstruksionizmdə müasir və liberal baxışların üstünlük təşkil etdiyini isbat etməyə ehtiyac belə yoxdur. Hamıya aydındır ki, müasir kurikulumlar şagird maraqlarına, insani münasibətlərə, elmi tendensiyalara, milli və bəşəri problemlərə, fənlərarası mövzu və layihələrə, mənəvi və etik dəyərlər səviyyəsində olan bütün fəlsəfi nəzəriyyələrə diqqət yetirir, bütün bu məsələlərin bir-biri ilə əlaqəli olmasına, bütövlükdə cəmiyyətin ehtiyaclarının ödənilməsinə çalışır.

Azərbaycan dili fənn kurikulumunun fəlsəfi əsaslarından danışdıqda, ilk növbədə, dil və təfəkkür məsələlərini, şagirdlərin idraki-kommunikativ, qeyri-iradi fəaliyyətlərini, dinləyib anlama, düşünmə, yaradıcı yanaşma ilə bağlı mövqelərini, fənnin özünün əhəmiyyətini, məqsəd və vəzifələrini, obyekt-subyekt münasibətlərini, Azərbaycan dili təliminin məzmununu, təlim strategiyalarını, şagird nailiyyətlərinin qiymətləndirilməsi məsələlərini diqqətdə saxlamaq lazımdır. Buraya aşağıda qismən toxunacağımız psixoloji əsasları da əlavə etsək, böyük bir araşdırma, təhliletmə, sistemləşdirmə meydanı yaranır.

Azərbaycan dili fənni humanitar baza təhsilinin əsas hissəsinə daxildir. Azərbaycan dili fənnini öyrənmək üçün zəruri olan ilkin tələblərə orta məktəbdə Azərbaycan dilinin öyrənilməsi prosesində formalaşan bilik, bacarıq və fəaliyyətlər daxildir. Azərbaycan dili Azərbaycan xalqının milli dili, Azərbaycan Respublikasının dövlət dili və millətlərarası ünsiyyət vasitəsidir. Bu dil şagird şəxsiyyətinin inkişafını təmin etməklə vahid təhsil məkanının, vahid mədəni aləmin yaradılmasında rol oynayır və milli kimliyin formalaşmasında birbaşa iştirak edir.

Ana dilinin öyrənilməsi bədii ədəbiyyatın qavranılıb dərk edilməsinə, təxəyyül və gerçəkliklər aləminin yaradılmasına, xarici dillərin inkişafına, ünsiyyət prosesində uğurlar qazanmağa, məzun olaraq sosial uğura imza atmağa kömək edir. Doğma dili öyrənmə sayəsində şagirdlərin kommunikativ, mədəni səriştələri təkmilləşir, formalaşır.

Məktəbin missiyası fərdi, sosial və qlobal ehtiyaclara uyğun hazırlanmış kurikulum əsasında təlim prosesini təşkil etməkdən ibarətdir.

Təlim prosesini təkmilləşdirmək üçün yalnız təhsilin fəlsəfi əsaslarına istinad etmək kifayət deyildir. Öyrənmənin psixoloji nəzəriyyələrinə əsaslanmadan təkmil fənn proqramının (kurikulumun) hazırlanması qeyri-mümkündür. Şagird davranış və vərdişlərini şərtləndirən, dəyişdirən,

formalaşdıran nəzəriyyəni bilmədən, koqnitiv bacarıqlarn formalaşmasına ətraf mühitin təsirini araşdırmadan, nəhayət, təlim subyekti olan uşağa psixoloji fenomen kimi yanaşmadan hər hansı bir fənn kurikulumunun mükəmməl hazırlanmasından söhbət belə gedə bilməz. Öyrənmənin bir psixoloji problem olduğuna inanan məşhur psixoloq Edvard Torndayk yeni vərdişin köhnə vərdiş üzərində yarandığına əsaslanmaqla yeni biliyin də mənimsənilmiş bilik üzərində mənimsədilməsini ustalıqla öyrənmə kimi dəyərləndirir. Bununla yanaşı o, öyrənmənin ierarxik, fərdi, birbaşa və s. kimi növlərinin də psixoloji spektrlərini araşdırır.

Onu da qeyd edək ki, hər bir şagirdin özünəməxsus xüsusiyyəti, fərqli təbiəti olduğu üçün kurikulumun hazırlanmasında bu fərqli psixoloji təməllər də nəzərə alınmış, bütün şagirdlərə eyni səviyyədə yanaşılmamışdır. Təbii ki, uşaqlardan bəziləri daha çevik və sürətli, bəziləri isə daha ləng və yavaş mənimsəyə bilər. Kurikulumun hazırlanmasında bu cür psixioloji amillər nəzərə alınmış, tələblər də müxtəlif potensial və imkanlara nəzərən qoyulmuşdur. Təlim, tərbiyə və inkişafla bağlı bütün məsələlərdə psixologiyanın yeri və rolu nəzərə alınmışdır. Bu gün uşağın zehni inkişafı, tədris metodları, təlim nəzəriyyələri, təhsil sisteminin idarə edilməsi və planlaşdırılması, şagirdlərin xarakterinin formalaşması, şagird-müəllim münasibətləri, cəmiyyətlə, müxtəlif texnologiyalarla bağlı bütün sahələrdə psixoloji meyllər nəzərə alınmış, psixologiya təlim prosesinin əsas elementinə çevrilmişdir. Bu gün psixologiya təhsilin bütün sahələrinə kömək edir. O, yalnız biliyə əlavə olunmur, praktik dərs situasiyalarında, tədris metodlarının hazırlanmasında iştirak edir. Bir sözlə, kurikulumun işlənib hazırlanmasında, məzmun standartlarının reallaşdırılmasında psixologiyanın rolu böyükdür və hər keçən gün bu prosesdə daha dərin formada iştirak edir.

Yekun olaraq onu bildirmək istəyirik ki, hər bir inkişaf etmiş dövlət üçün ümumbəşəri təhsilə, sosial yardımlaşmaya, vətəndaşa inteqrasiya olunmuş, balanslaşdırılmış kurikulum siyasəti zəruridir. Hesab edirik ki, istər ümumi, istərsə də fənn kurikulumlarının hazırlanmasında təhsilin fəlsəfi-psixoloji əsasları, cəmiyyətin, bilik dünyasının, öyrənənlərin təbiəti, biri-birlərinə qarşılıqlı təsiri nəzərə alınmalıdır. Əminliklə deyə bilərik ki, bu gün də təhsilin və kurikulumun müasirləşdirilməsinə, təkmilləşdirilməsinə dərin ehtiyac vardır.

Kurikulum ölkə cəmiyyətinin mədəniyyətini əks etdirir və cəmiyyətin hər bir üzvünün arzusudur ki, onun övladı intellektual cəmiyyətin vərdiş, ideya, münasibət və bacarıqlarını öyrənsin.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı, ARTPİ, 2015, 212 s.*
2. *Standart və kurikulumlar: nəzəri və praktik məsələlər. Elmi red.: Ə.M.Abbasov, Bakı, ARTPİ, 2016, 500 s.*
3. *Abbasov Ə.M., Cavadov İ.A., İbadova B.O. və b. Kurikulum bələdçisi (İzahlar və tətbiqlər), Bakı, "Elm və təhsil", 2019, 320 s.*
4. *Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Elmi red.: Ə.M.Abbasov, Bakı, Mütərcim, 2012, 400 s.*

**R.İ.Şirəliyev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***shiralievramin@gmail.com***

# MONİTORİNQ TƏHSİL SİSTEMİNİN TƏRKİB HİSSƏSİ KİMİ

***Xülasə***

*Təhsildə sistemində monitorinqin aparılması "öyrənmə", "ekspert", "müşahidə", "nəzarət", "diaqnostika", "idarəetmə üçün informasiya təminatı" və s. kimi anlayışlarla bağlıdır. Bu anlayışların monitorinqlə oxşar və fərqli cəhətlərinin araşdırılması vacibdir.*

# МОНИТОРИНГ КАК СОСТАВ ОБРАЗОВАТЕЛЬНОЙ СИСТЕМЫ

***Резюме***

*Мониторинг в системе образования - это "обучение", "эксперт", "наблюдение", "надзор", "диагностика", "информационное обеспечение руководства". Важно изучить сходства и различия между этими концепциями и мониторингом.*

# MONITORING AS A COMPONENT OF THE EDUCATIONAL SYSTEM

***Summary***

*Monitoring in the education system is "training", "expert", "observation", "supervision", "diagnostics", "information", support for management etc. It is importtant to explore the similarities and differences between these concepts and monitoring.*

***Açar sözlər:*** *monitorinq, öyrənmə, ekspert, müşahidə, nəzarət, diaqnostika, idarəetmə*

***Ключевые слова:*** *мониторинг, обучение, эксперт, наблюдение, контроль, диагностика, управление*

***Key words:*** *monitoring, traning, expert, observation, control, diaqnostics, management*

XX əsrin əvvəllərindən formalaşması üçün ilkin şərtlər yaranan monitorinq probleminin dərindən araşdırılması təhsildə keçən əsrin sonu - XXI əsrin əvvəllərindən meydana çıxmışdır. Son bir neçə ildə alimlər təhsilin keyfiyyəti ilə birbaşa əlaqəli məsələləri fəal şəkildə araşdırır, o cümlədən monitorinq və qiymətləndirmə texnologiyaları və idarəetmə mexanizmlərini inkişaf etdirirlər.

Monitorinq həm sistem, həm də proses kimi səciyyələndirilə bilən mürəkkəb pedaqoji hadisədir. Bir sistem olaraq monitorinq bir-biri ilə əlaqəli elementlərin məcmusudur: onun həyata keçilməsinin məqsədi, monitorinqin obyekti, monitorinqin təşkili və həyata keçilməsinin subyektləri, qiymətləndirmə meyarları və göstəricilərinin məcmusu, məlumat toplama metodları, eyni zamanda təhsilin idarə edilməsinin alt sistemidir. Məqsəd, hər hansı bir fəaliyyət sistemi kimi monitorinqin sistemi formalaşdıran elementidir: sistemin işlənməsi üçün onu müəyyən etmək lazımdır.

Monitorinqin mərkəzi xətti kimi məqsəd sisteminin bütün digər elementlərini əhatə edir. Məqsədə əsasən təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün bir sıra meyarlar və göstəricilər müəyyən edilir, öyrənmə metodları seçilir və monitorinq proseduru qurulur.

Monitorinq sistemi kimi bütün sistemlər təşkilatlanma xüsusiyyətinə malikdir. Sistemin təşkili sistemin elementləri və sistemin ətraf mühitlə əlaqələri arasındakı əlaqələrin idarəolunma səviyyəsi ilə müəyyən edilir. Sistemin təşkili xüsusiyyəti onun elementlərinin təsadüfi cəmini deyil, onların qarşılıqlı əlaqəsinin xüsusi təşkilini ifadə edir.

Monitorinq həm də təhsilin keyfiyyəti, onun emalı, sistemləşdirilməsi, dərin təhlili, qiymətləndirilməsi, şərhi, gələcək inkişafının proqnozu və təhsil prosesinin korreksiyası üçün tədbirlərin işlənib hazırlanması haqqında zəruri və çoxşaxəli məlumatların ardıcıl toplusunu təşkil edən prosesdir.

Sosial idarəetmə nəzəriyyəsində keyfiyyətin tərifinə dar və geniş yanaşma ilə yanaşı istifadə olunur: keyfiyyət dedikdə istehsal prosesinin işləmə keyfiyyəti, onun üçün yaradılmış şəraitin keyfiyyəti və istehsal nəticələrinin keyfiyyəti başa düşülür. Ona görə də ümumilikdə keyfiyyətin, xüsusən də təhsilin keyfiyyətinin pedaqoji şərhi daha geniş mənalı şərhə malik olmalı, təkcə nəticələrlə əlaqələndirilməməlidir.

Bundan əlavə, kvalitologiyada keyfiyyət strukturu obyekt və ya prosesin xarici və daxili xassələrinin iyerarxik sistemi kimi müəyyən edilir (A.İ.Subetto), bu da təhsil keyfiyyətinin mahiyyətini dərk etmək üçün çox vacibdir. Həqiqətən də, təhsilin əldə edilmiş nəticələrini təhsil prosesindən və onun üçün yaradılan şəraitdən asılı olmayaraq hesab etmək olmaz: anlar arasında güclü birbaşa və əks əlaqə mövcüddur - nəticələrin keyfiyyəti, prosesin keyfiyyəti və təhsilin keyfiyyəti ilə müəyyən edilir. Onun həyata keçirilməsi və eyni zamanda sonuncunun keyfiyyəti haqqında məlumat daşıyır.

Həqiqətən də, təhsilin əldə edilmiş nəticələrini təhsil prosesindən və onun üçün yaradılan şəraitdən asılı olmayaraq hesab etmək olmaz: onlar arasında güclü birbaşa və əks əlaqə mövcuddur - nəticələrin keyfiyyəti prosesin keyfiyyəti və təhsilin keyfiyyəti ilə müəyyən edilir. Onun həyata keçirilməsi şərtləri və eyni zamanda sonuncunun keyfiyyəti haqqında məlumat daşıyır. Bu müddəa təhsilin keyfiyyətinin tərkib hissələri arasında əlaqənin özünəməxsus

iyerarxik strukturunu müəyyən edir: onun zirvəsi təhsil prosesinin keyfiyyəti və onun həyata keçirilməsi üçün yaradılmış şəraitin keyfiyyəti ilə müəyyən edilən təhsil nəticələrinin keyfiyyətidir.

Pedaqoji monitorinq təhsilin yeni keyfiyyətinin təmin edilməsinə yönəlmiş ümumtəhsil müəssisəsinin səmərəli idarə olunmasının ən mühüm şərtidir. Təhsilin keyfiyyəti müasir sosial sifarişi təhsil sisteminə əks etdirən mühüm pedaqoji hadisə kimi onun səviyyələrini əks etdirən onun tərkib hissələrinin vəhdəti və qarşılıqlı əlaqəsi kimi tərifə geniş yanaşma əsasında dərk edilə və pedaqoji cəhətdən şərh edilə bilər. Təhsil prosesinin təşkili və həyata keçirilməsi, onun üçün yaradılmış şərait və dövlətin, cəmiyyətin maraqlarına və fərdin təhsil ehtiyaclarına cavab verən təhsil nəticələridir.

Təhsil sistemində monitorinq anlayışı aşağıdakıları özündə ehtiva edir:
- nəzarət, qiymətləndirmə və proqnoz məqsədi ilə müşahidə;
- qərar qəbul etmək üçün məlumat əldə etmək sistemi;
- tədris prosesinin vəziyyətinin müstəqil yoxlanılması;
- əks əlaqəni təmin edən nəzarət funksiyası;
- idarəetmənin informasiya bazası;
- təhsilin keyfiyyətinin monitorinqi.

Monitorinq “öyrənmə”, “ekspert”, “müşahidə”, “nəzarət”, “diaqnostika”, “idarəetmə üçün informasiya təminatı” və s. kimi anlayışlarla bağlıdır; bununla əlaqədar olaraq çox vaxt müşahidə (G.V.Qutnik, G.M.Kodjaspirova, A.Talix və başqaları), nəzarət (V.A.Mijerikov və başqaları), diaqnostika (V.İ.Andreyev və başqaları), ekspertiza (M.V.Zanin və başqaları) ilə müəyyən edilir. Təcrübəçilər monitorinqi tədqiqat, rəhbərliyin informasiya dəstəyi ilə müəyyən etməyə çalışırlar.

“Öyrənmə” və “monitorinq” anlayışlarını müqayisə edərək demək olar ki, monitorinq bir araşdırmadır, lakin heç bir araşdırma monitorinq deyil.

Tədqiqat epizodik, birdəfəlik ola bilər və yalnız tədqiqat davamlı olarsa, əvvəlcədən müəyyən edilmiş meyarlara uyğun qurularsa, monitorinq əlamətləri əldə edəcəkdir. Bu anlayışların həcmlərini əlaqələndirərək qeyd edə bilərik ki, “öyrənmə” anlayışı “monitorinq” anlayışından daha genişdir. (2,s.25) Lakin bu anlayışların əhatə dairəsini deyil, mövzu məzmununu nəzərə alaraq qeyd etmək lazımdır ki, tədqiqat və monitorinq bir-birinin tərkib hissəsi ola bilər. Monitorinq prosesində hər hansı bir aspekt öyrənildikdə, tədqiqat monitorinqin tərkib hissəsidir. Məsələn, təhsilin keyfiyyətinin monitorinqində şagirdlərin dərsdən yayınma səbəbləri kimi mühüm cəhəti ayrıca öyrənmək olar.

Monitorinqlə bağlı başqa bir anlayış ekspertizadı. Ekspertiza reallığın öyrənilməsinin səriştəli və müstəqil mütəxəssislər (ekspertlər) tərəfindən həyata keçirilən və ekspertlərin rəyi və məsuliyyətli qərarın həlledici

əhəmiyyət kəsb etdiyi xüsusi üsuldur. Monitorinqlə müqayisədə ekspertiza norma və standartlara daha az, dəyərlər və mənalara daha çox diqqət yetirir.

Ekspertin işi obyektiv işlənmiş standartı olmayan ekspertiza obyektinin keyfiyyətini müəyyən etməkdir. Ekspertiza bir dəfəlik qiymətləndirmə, fəaliyyətin təkrarlanmaması ilə xarakterizə olunur, monitorinqin fərqləndirici xüsusiyyətləri isə müddət, fasiləsizlik, çoxsaylı ölçmələr, müxtəlif zaman dövrlərində monitorinq predmetinə çıxışın təkrarlanması, monitorinq nəticələrinin əvvəlcədən müəyyən edilmiş standartlarla müqayisəsidir. Beləliklə, "ekspertiza" və "monitorinq" anlayışları kifayət qədər müstəqildir.

Çox vaxt monitorinq müşahidə ilə müəyyən edilir. Müşahidə, fəaliyyətin vəzifəsinə görə düşünülmüş və məqsədyönlü qavrayışdır. Monitorinqlə müşahidəni eyniləşdirmək düzgün deyil. Özlüyündə müşahidə bir dəfəlik ola bilər və monitorinq nəticələrin dinamikasını təyin etməklə uzunmüddətli, sistemli, müntəzəm monitorinqi əhatə edir. Müşahidə belə xarakter daşıyırsa, lazımi məlumat aşkar edildikdə monitorinqin yeganə üsulu ola bilər. Amma bu halda da müşahidə monitorinqin bir hissəsidir, onun üsullarından biridir.

Monitorinq və nəzarətin xüsusiyyətlərini müəyyən edək. Nəzarət pedaqoji prosesin fəaliyyətinin qəbul edilmiş idarəetmə qərarlarına uyğunluğunu aşkar edir, monitorinq isə bu idarəetmə qərarlarının həyata keçirilməsinin pedaqoji prosesə necə təsir etdiyini müəyyən edir. Monitorinq nəzarətdən daha çox kəşfiyyat xarakteri daşıyır. Nəzarət anlayışı geniş və dar mənada müəyyən edilə bilər. Dar mənada nəzarət (franşcontrdle - "yoxlama məqsədi ilə nəzarət") yoxlamadır. Onda nəzarət monitorinqin tərkib hissəsidir, onun funksiyalarından biridir. Son zamanlar pedaqoji idarəetmənin inkişafı ilə nəzarət daha geniş başa düşülməyə başladı. Nəzarət zəngin, sistemləşdirilmiş məlumat verir, məqsədlə əldə edilmiş nəticə arasındakı uyğunsuzluğu göstərir; nəzarət zamanı əldə edilən məlumatlar pedaqoji təhlilin predmetinə çevrilir. Nəzarətin məqsədi və vəzifələri: əldə edilmiş nəticələrin səriştəsi və ekspert analitik qiymətləndirilməsi və təhsil fəaliyyəti prosesinin tənzimlənməsi üzrə işlərin aparılması üçün müvafiq nəticələrin formalaşdırılması, təhsil prosesinin bütün iştirakçılarının qiymətləndirilməsi, onların konkret nəticələri və komandanın fəaliyyətinin korreksiyası üçün tövsiyələrin, təhsil prosesində iştirakçıları məlumatlandırmaq və stimullaşdırmaq üçün birbaşa və əks əlaqə kanallarının formalaşdırılması. Monitorinq konsepsiyasında nəzarətin bütün bu komponentləri sadəcə olaraq müəyyən edilmir, onların qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı müəyyən edilir. (1, s.18)

Monitorinq və "pedaqoji diaqnostika" anlayışları bir-biri ilə sıx bağlıdır. Fakt budur ki, diaqnostika proqnozlaşdırma xüsusiyyətinə görə hər hansı bir sistemin vəziyyətini xarakterizə edən əlamətlərin yaradılması və öyrənilməsi fəaliyyətini əhatə edir. Bundan əlavə, pedaqoji diaqnostika

proqnoz xarakterlidir və məlumatların toplanması onun sistemləşdirilməsi, diaqnostik səviyyənin müəyyən edilməsi, şərhi, gələcək inkişaf meyllərinin proqnozlaşdırılması, diaqnoz və proqnozun dəqiqləşdirilməsi daxildir. Diaqnostika monitorinqin bir hissəsidir, mütəmadi olaraq əvvəlcədən formalaşmış dəqiq işlənmiş meyarlar, göstəricilər və qiymətləndirmə metodları sisteminin köməyi ilə aparılarsa, bu, dinamikanı görməyə imkan verir. Əgər onun nəticələrinə əsasən gələcək inkişaf proqnozlaşdırılsa və konkret düzəldici tədbirlər hazırlanırsa, sonra monitorinq olur.

İdarəetmə üçün "informasiya dəstəyi" anlayışı həm də idarəetmə qərarlarının işlənib hazırlanması və həyata keçirilməsi daxil olmaqla, bütün idarəetmə prosesinin səmərəli həyata keçirilməsinə kömək edən informasiya resusrları, alətlər, metodlar və texnologiyalar məcmusu kimi şərh edilən monitorinqlə də əlaqələndirilir. Monitorinqin informasiya kimi funksiyasına əsaslanaraq, güman etmək olar ki, monitorinq bir növ informasiya dəstəyi sistemidir. (3 ,s.45)

Lakin monitorinq digər funksiyaları da yerinə yetirir, (analitik-qiymətləndirici, motivasion, proqnostik və s.) yəni məlumatların toplanması monitorinqin özlüyündə son deyil, daha çox müəyyən edilmiş pedaqoji məqsədlərə çatmaq üçün ilk addımdır. İnformasiya dəstəyi sistemi tədqiq olunan obyekt haqqında lazımi məlumatları təmin edərək monitorinq üçün işləyir. Beləliklə, monitorinqin informasiya təminatı sistemindən danışmaq olar. Lakin monitorinq məlumatı, öz növbəsində, məktəbdaxili idarəetmənin (və ya digər təhsil müəssisəsinin) bütün informasiya sisteminin bir hissəsidir. Monitorinq idarəetmə informasiya sistemini əvəz edə bilməz, lakin onu öz məlumatı ilə tamamlaya bilər. Lakin monitorinq məlumatı, öz növbəsində, məktəbdaxili idarəetmənin (və ya digər təhsil müəssisəsinin) bütün informasiya sisteminin bir hissəsidir. Göründüyü kimi, monitorinqin əlaqəli anlayışlarla eyniləşdirilməsində bu anlayışların məzmununun bəzi komponentlərinin olması ilə əlaqədar baş verir, buna görə də məqsəd və imkanları müxtəlifdir. Monitorinq əksər hallarda qeyd olunan proseslərin xüsusi forması ola bilər. (müşahidə, nəzarət, informasiya dəstəyi və s.) və ya onları daxili prosedur kimi ehtiva edə bilər.

***Ədəbiyyat***

*1. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monotorinq və qiymətləndirmə. Bakı: Çaşıoğlu, 2003, 416 s.*
*2. Mehrabov A.O. Təhsil sisteminin idarə olunmasının müasir problemləri // Təhsil, mədəniyyət, incəsənət, 2002, №1, s.4-9*
*3. Покасов В.Ф. Управление качеством образования современной школы. Ставрополь, 2012, 145 с.*

**K.S.Qocayev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***kanki05@mail.ru***

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ DƏRS PLANININ ROLU

***Xülasə***

*Dərs planı təhsil prosesinin yazılı təsviri olub, təhsilalanların nəyi, nə vaxt və hansı üsulla öyrənməli olduğunu, həmçinin onların necə qiymətləndiriləcəyini özündə əks etdirir. Araşdırmalar deməyə əsas verir ki, Azərbaycanda bu məsələ ilə bağlı elə də çox tədqiqat aparılmamışdır. Buna görə də, müəllimlər arasında dərsin planlaşdırılmasına olan münasibət tədris prosesinin təkmilləşdirilməsinə müəyyən dərəcədə az təsir edib. Bu günə qədər edilmiş tədqiqatlar zamanı öyrənilmişdir ki, ingilis dili müəllimləri tədris ediləcək dərslərin əvvəlcədən planlaşdırılmasının təhsilə çox faydalı olduğunu düşünür.*

# РОЛЬ ПЛАНА УРОКА В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

***Резюме***

*План урока - это письменное описание образовательного процесса, которое включает в себя то, что, когда и как должны изучать студенты, а также то, как они будут оцениваться. Исследования показывают, что в Азербайджане по этому вопросу проводилось не так много исследований. Поэтому отношение учителей к планированию уроков мало повлияло на совершенствование учебного процесса. Исследования, проведенные на сегодняшний день, показали, что учителя английского языка считают, что предварительное планирование уроков очень полезно для образования.*

# THE ROLE OF THE LESSON PLAN IN ENGLISH TEACHING

***Summary***

*A lesson plan is a written description of the educational process, which includes what, when and how students should learn, as well as how they will be assessed. Research suggests that not much research has been conducted on this issue in Azerbaijan. Therefore, the attitude of teachers towards lesson planning has had little effect on the improvement of the teaching process. Research conducted to date has found that English language teachers believe that pre-planning lessons to be taught is very beneficial to education.*

***Açar sözlər:*** *ingilis dili, dərs planı, ingilis dilinin tədrisi, planın mühüm rolu*
***Ключевые слова:*** *английский язык, план урока, преподавание английского языка, важная роль плана*

***Key words:*** *english language, lesson plan, teaching english, the important role of the plan*

Plan tədrisi nəzərdə tutulan dərsin yazılı təsviridir. Dərs planında tədris materialları, metodu, vaxtı və yeri, eləcə də təhsilalanların qiymətləndirilməsi üsulları ətraflı təsvir olunur. Dərs planı müəllimlərə nəyi və necə öyrədəcəyinin yollarını düşünməyə kömək edən, həmçinin, təhsilalanların öyrənmə üslubları, əvvəlki bilikləri, intellekt səviyyələri, maraqları kimi bir çox elementləri və digər əlaqəli məsələləri nəzərə alan qeydlər toplusudur.

Dərs planı təhsilalanların materialı yaxşı mənimsəməsi üçün müəllimin tərtib etməli olduğu əhəmiyyətli bir sənəddir. Plan dərs zamanı tədris ediləcək materialların seçilməsində və tədris olunma formasının müəyyənləşdirilməsində müəllimlərə bələdçilik edir.

Planlaşdırma tədrisin əsas aspekti kimi qəbul edilir. Planlaşdırma zamanı dərsin məqsədləri, fəaliyyətləri, resursları, vaxtı, məlumatların qruplaşdırılması və digər aspektləri müəllimin fəaliyyətində öz əksini tapmalıdır. Dərslərin planlaşdırılması və həyata keçirilməsi pedaqoqlar üçün bir qədər mürəkkəb və intellektual tələbdir. Bir çox müəllimlər dərsi planlaşdırarkən və həyata keçirərkən məqsəd, praktik addımlar və qiymətlənmə arasında uyğunluq yaratmaqda çətinlik çəkirlər.

Dünyada ingilis dilinin qloballaşması müəllimlərdən tədris metodlarını və materiallarını təhsilalanların müxtəlif ehtiyaclarına uyğunlaşdırmağı tələb edir. Məxsusən də ingilis dilini ikinci dil kimi öyrənənlər xüsusi öyrənmə strategiyalarına ehtiyac duyurlar. Bu strategiyalar təkcə tədris dilinin linqvistik strukturunu anlamağa kömək etmək məqsədi daşımamalı, həm də onlara ingilis dilində çoxlu müxtəlif sözləri və qrammatik strukturları yadda saxlamağa və dərk etməyə imkan yaratmalıdır. İngilis dilini öyrənənlər üçün ünsiyyət bacarıqlarını inkişaf etdirmək və təkmilləşdirmək təhsilalanların ana dilindən asılı olmayaraq bir-biri ilə vəhdətdə olmalıdır.

Xarici dillərin, xüsusən də ingilis dilinin, tədrisi və öyrənilməsi bu gün dünyada çox aktual olan bir məsələdir. Buna görə də ingilis dilinin xarici dil kimi tədrisinin planlaşdırılması zamanı bəzi mühüm suallar yaranır:

**1) Dərsin planlaşdırılması təhsilalanlara ingilis dilini effektiv şəkildə öyrənməyə kömək edirmi?**

**2) Dərsin planlaşdırılması müəllimlərə ingilis dilində tədrisin zəif tərəflərini və müsbət cəhətlərini müəyyən etməyə kömək edirmi?**

Əksər tədqiqatçılar dərs planlaşdırılmasının tədris prosesinə təsiri ilə bağlı fikirlərini müxtəlif üsullarla ifadə etmişlər. Onlar əsasən dərsin tədrisindən əvvəl planlaşdırma mərhələsində xarici dildə kommunikativ səriştənin inkişaf etdirilməsini asanlaşdırmaq üçün vacib elementləri

(məqsədlər, müxtəlif fəaliyyət növləri, öyrənmə tərzi, intellekt səviyyəsi, qiymətləndirmə və vaxtın idarə edilməsi) qeyd etmişlər.

Dərs planlaşdırarkən müəllimlər təhsilalanların öyrənmə üsulları, əvvəlki bilikləri, intellekt növləri, maraqları və digər bacarıqları ilə bağlı məsələlər kimi bir çox elementləri nəzərə almalıdırlar. Məhz bu yanaşma ilə pedaqoqlar təhsilalanların mənimsəmə problemlərini azalda, həmçinin onların zəif tərəflərini aşkar edə və tədrisi gücləndirə bilərlər. Bir çox müəllimlər dərsi planlaşdırarkən, o cümlədən həyata keçirərkən məqsədlər, praktik addımlar və qiymətləndirmə arasında əlaqə yaratmaqda çətinlik çəkirlər. Lakin mütəmadi olaraq dərsləri planlaşdırmaq müəllimlərə bu çətinliklərin öhdəsindən gəlməyə kömək edəcək. Dərsləri planlaşdıran müəllim zamanla bu işin öhdəsindən məharətlə gəlir.

Kolumbiyada yerləşən Gutierrez ibtidai məktəb pedaqoqlarının fikrinə görə "Tədris prosesində təhsilalanların xarici dil səriştəsinin formalaşması problemi iki aspektdə - **"texnoloji və optimallaşdırma"** baxımından nəzərdən keçirilə bilər. Texnoloji aspekt deyərkən, təhsilalanların bilik, bacarıq və vərdişlərə yiyələnməsində ən yaxşı nəticələrə nail olmaq üçün lazım olan tədris vasitələrinin, yəni planlaşdırmanın, metod və texnologiyaların müəyyən edilməsi nəzərdə tutulur. Optimallaşdırma aspekti dedikdə isə, tədris prosesinin və planlaşdırma mərhələsinin spesifik xüsusiyyətlərindən asılı olan mövcud texnologiyaların həm daha səmərəli, həm də ardıcıl tətbiqi nəzərdə tutulur. (2, səh.186)

Dərs planı müxtəlif məqsədlərə xidmət etməlidir. Dərsin planlaşdırılması mərhələsində beş məqsəd nəzərə alınmalıdır. Ən mühüm olanı, müəllimlərə dərsin məzmununu seçmək, strukturlaşdırmaq və təşkil etmək bacarıqlarını inkişaf etdirməyə kömək etməkdir. Hər dərsin planlaşdırılması prosesi hər bir müəllimi sinifdə nəyə nail olmaq istədiklərini və bunu ən yaxşı şəkildə necə edəcəklərini düşünməyə vadar edir.

1. **Dərs planı müəllimlərə dərs vaxtının necə istifadə olunduğuna nəzarət etməyə kömək edir və dərs üçün çərçivə təmin edir;**
2. **Dərs planı tədris prosesini düşünməyə və yenidən nəzərdən keçirməyə kömək edir;**
3. **Dərs planı müəllimlər üçün arxayınlıq hissi təmin edir;**
4. **Dərs planı fəaliyyətlərin ardıcıllığını və vaxtını müəyyən edir;**
5. **Dərs planı öyrədiləcək materialların qeydini təqdim edir.**

Müəllimlər dərsliyi tədris kontekstinə uyğunlaşdırmalı və onu təhsilalanların keçmişinə, marağına, öyrənmə tərzinə həmçinin, bacarıqlarına əsaslanaraq planlaşdırmalıdır. Müəllimlər adətən dərsdə nəzərdə tutulan dil bacarıqlarına cavab verən tapşırıq və fəaliyyətləri seçməyə çalışırlar. Dərs planlarına həmçinin təhsilalanların öyrənmə və başa düşməsinə necə nəzarət edəcəkləri ilə bağlı fikirlər də əlavə edilə bilər.

İkinci və xarici dillərin tədrisi üzrə beynəlxalq səviyyədə tanınmış mütəxəssis, tətbiqi dilçi və pedaqoq, ingilis dili müəllimləri üçün çoxsaylı peşəkar kitabların müəllifi və ingilis dili tələbələri üçün geniş istifadə olunan bir çox dərsliklərin müəllifi Dr.J.C.Richards-a görə "Dərs planı müəllimin tədris zamanı hansı fəaliyyətlərin yerinə yetirilməsi ilə bağlı fikirlərinin sistematik qeydləridir" (3, səh 35).

Kanadanın Müqəddəs Katarin şəhərindəki Brok Dövlət Universitetinin Tətbiqi Dilçilik şöbəsinin professoru, Thomas S.C.Farrell dərs planını "Müəyyən mövzularla əlaqəli dərslərin ardıcıllığı və ya tədris olunacaq mövzular haqqında müəllimin fikirlərinin sistematik qeydi kimi təyin olunan vahid" adlandırır. O, daha sonra əlavə edir ki, "Gündəlik dərs planı təhsilalanların konkret məqsədlərə nail olması üçün müəllimin necə hərəkət edəcəyinin yazılı təsviridir". Dərs planı təhsilalanların öyrənməsi ilə nəticələnəcək tədris prosesini təsvir edir (5, səh.30).

İELTS və FCE-nin (First Certificate in English) təftişi üzrə mütəxəssis, müəllimin inkişafı və qiymətləndirilməsi sahəsində böyük təcrübəyə malik olan Kipr, Əlcəzair, İtaliya, Portuqaliya, Belçika və s. kimi ölkələrdə ingilis dili tədris etmiş Mary Spratt qeyd edir ki, "Dərs planı müəllimə dərs materiallarının seçilməsi və onların necə öyrədilməsi barədə göstəriş verən bir sıra kurs planıdır" (4, səh.87).

Tədris prosesi adətən təhsilalanların əksəriyyəti üçün sıxıcı olur və dil müəllimləri bu problemin həlli barədə düşünməlidirlər. Bu problemdən çıxış yolu müəllimlərdən asılıdır. Müəllimin düzgün qərar verməsi - yəni, dərsi düzgün planlaşdırması, tədris materialları zamanı təhsilalanlara daha çox motivasiya verər. Dərs planını müəllimlərin sinfi düzgün idarə etməsi üçün "Nizamnamə" adlandıra bilərik. Dərs planı müəllim tərəfindən təhsilalanların ehtiyaclarından asılı olaraq hazırlanmalıdır, yəni tədris üslubları və öyrənmə üslubları bir-birini tamamlamalıdır. Belə bir deyim var ki, "yaxşı planlaşdırılan dərsin yarısı bitmişdir". Beləliklə aydın olur ki, dərsi tədris edəcək müəllimlər tərəfindən planın hazırlanması təhsilin keyfiyyətinin yüksəldilməsi üçün uyğun yollardan biridir. Dərs planı təhsil strukturunun əsas təməlidir və təhsilin özəyidir. Müəllimlər dərs planı olmadan sinifdə iştirak etməməlidirlər, çünki bu, uğursuz tədrisə səbəb ola bilər.

Florida Dövlər Universitetinin professorları Debby Houston və Martin Beech hesab edirlər ki, "Bir sinifdə fərqli xüsusiyyətlərə və bir sıra qabiliyyətlərə malik olan təhsilalanlar olduğundan, onların müxtəlif öyrənmə ehtiyaclarının ödənilməsi müəllimlər üçün bir sıra problemlər yarada bilər. Bu problemi həll etmək üçün ən yaxşı fəaliyyət mənbəyi effektiv dərs planları hazırlamaqdır" (1, səh 4).

Dərsin planlaşdırılması müəllimlərin təcrübə qazanmasında mühüm prosesdir. Çünki dərsi planlaşdırmaq müəllimləri nəyi öyrətmək, necə

öyrətmək və necə qiymətləndirmək barədə düşünməyə məcbur edir. Təəssüf ki, ölkəmizdə müəllimlərin dərs planlaşdırma təcrübələri ilə bağlı az araşdırma aparılmışdır.

Dərs planı konkret dərs üçün tədris/təlim fəaliyyətlərinin ətraflı təsviridir. Gündəlik dərs planı müəllim tərəfindən tədris/öyrənmə ilə bağlı təlimatlara əməl etmək üçün tərtib edilir. Planın təfərrüatı mövzudan mövzuya dəyişə bilər, məsələn: vahiddən bölməyə və dərsdən dərsə. Müəllim material, hədəf, təlim resursları və s. kimi müxtəlif aspektləri nəzərə almalıdır. Dərsin planlaşdırılması ümumi kursu planlaşdırmaq qədər vacibdir. Müəllim günün dərsini planlaşdırmağı tam koordinasiya və inteqrasiyanı tələb edən daha böyük tədris planlaşdırılması probleminin bir mərhələsi kimi düşünməlidir. Diqqət yetirildikdə dərsin planlaşdırılmasının bir çox vacib aspektləri gözlənilməlidir. Məqsədlərin, məzmunun və ardıcıllığın əsas aspektləri geniş şəkildə müəyyən edilməlidir. Dərs planlaması yaxşı və effektiv tədris üçün planlaşdırmadan başqa bir şey deyil. Dərs planının formalaşmasında demək olar ki, hər bir addımda müəllim mümkün olan ən yaxşı nəticələri vermək niyyətindədirsə, vizuallaşdırılan və gözlənilən ümumi təlim nəticələrini aydın şəkildə nəzərə almalıdır. Dərsin planlaşdırılması mahiyyətcə bir təcrübədir, ona görə də müəllim həm də sinif məsələləri, öyrənmə nəzəriyyələri, öyrətmə ilə bağlı amillər, ümumi və xüsusi öyrənmə ehtiyaclarını yerinə yetirmək üçün ən təsdiqlənmiş tədris metodları, yanaşmalar və strategiyalar haqqında bilməlidir. Müəllim işini əsaslandırmaq üçün dərin və aydın biliyə sahib olmalıdır. Dərs planlarının müxtəlif formatları var. Lakin, adətən, aşağıda qeyd olunanlar əksər dərs planlarında öz əksini tapır:

- **Dərsin adı və alt başlıqları,**
- **Dərs üçün verilən vaxt,**
- **Öyrənmə resurslarının siyahısı,**
- **Xüsusi məqsədlərin siyahısı,**
- **Metodologiya (tədris/öyrənmə fəaliyyəti),**
- **Tətbiq olunan strategiyalar,**
- **Öyrənmə məşqləri və s.**

Beləliklə, ingilis dilinin öyrədilməsində dərsin planlaşdırılması haqqında ciddi düşünmək vacibdir. Müəllimlər diaqnostik tədqiqat aparmaqla və problemləri onların həlli üçün planda lazımı qeydlər etsələr, tədris-təlim fəaliyyəti həm təhsilalanlar, həm də müəllimlər üçün bir qədər asanlaşar. Müəllimlər çətinliklərin səviyyəsinə uyğun olaraq dərs planında qeydlər aparарsa, məqsədə nail olmaq üçün prosesi asanlaşdıra bilər. Qeyd etmək lazımdır ki, təhsilalanların necə qruplaşdırılmasından asılı olmayaraq, müəllimlər müxtəlif təlim üslublarını gündəlik dərs planına daxil etməlidirlər. Unutmamalıyıq ki, müəllim tədris prosesinin təşkilinə, səmərəliliyinə və keyfiyyətinə cavabdeh olan əsas elementdir.

***Ədəbiyyat***

1. *C.P.Gutierrez - Beliefs, attitudes, and reflections of EFL pre-service teachers when exploring critical literacy theories to prepare and implement critical lesson plans – 2015. Colombian Applied Linguistics Journal, 17(2), 179-192.*
2. *D.Houston & M.Beech - Designing Lessons for the Diverse Classroom a Handbook for Teachers - 2002. Florida Department of Education*
3. *J.C.Richards & W.A.Renandya - Methodology in Language Teaching, an Analogy of Current Practice - 2002. New York: Cambridge University Press.*
4. *M.Spratt, A.Pulverness & M.Williams. The TKT course - 2005. Cambridge University Press.*
5. *T.S.C.Farrell - Lesson planning. In J.C.Richards & W.A.Renandya - Methodology in language teaching: An anthology of current practice - 2002 (p 30-39). New York: Cambridge University Press.*

**G.M.Aydın**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gulderenaydin48@gmail.com***

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İDRAKININ İNKİŞAFI VƏ TƏLİMİ HAQQINDA NƏZƏRİYYƏLƏR

***Xülasə***

*Uşaqların idraki inkişafin parametrlərini nəzərə almaq, onun inkişafina imkan və şərait yaratmaq əsas amil hesab olunur. Buna görədə uşaqların idrakının inkişafını araşdıran bir sıra pedaqoq və psixoloqların yaratdığı nəzəriyyələri bilmək tərbiyəçi müəllimlərə təlim prosesini düzgün qurmasına kömək edir. Bu görkəmli pedaqoqlardan biri də koqnitiv nəzəriyyəsi ilə gələcək tərbiyəçi-müəllimlərə öz tövhələrini verən İsveç pedaqoqu Jean Piajedir. Piaje, insanların öyrənməyi sxemlər vasitəsilə həyata keçirdiyini və sxemlərin insanın əldə etdiyi hər məlumatı zehnində yerləşdirdiyi çərçivə olduğunu qeyd edirdi. Piajenin koqnitiv inkişaf nəzəriyyəsində uşaqların öyrənməsi, tarazlığın pozulması və yenidən bərpası ilə bağlıdır. Məktəbəqədər yaşlı uşaqların idrakının inkişafını tədqiq edən pedaqoqlardan biri də görkəmli rus pedaqoqu L.S.Vıqotskidir. Vıqotskinin nəzəriyyəsinin əsas fikri, uşaqların koqnitiv inkişafının digər insanlarla, xüsusən daha bacarıqlı insanlarla sosial qarşılıqlı təsir yolu ilə inkişaf etdirilməsidir.*

# ТЕОРИИ ПОЗНАВАТЕЛЬНОГО РАЗВИТИЯ И ОБУЧЕНИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Резюме***

*Главным фактором считается учет параметров познавательного развития детей, создание возможностей и условий для его развития. Поэтому знание теорий, созданных рядом педагогов и психологов, изучающих развитие детского познания, помогает воспитателям правильно строить процесс обучения. Одним из таких выдающихся педагогов является Жан Пиаже, шведский педагог, который своей когнитивной теорией внес вклад в будущих педагогов. Пиаже отмечал, что люди учатся с помощью схем, а схемы — это структура, в которую человек помещает каждую часть информации, которую он или она получает в своем уме. В теории когнитивного развития Пиаже обучение детей связано с нарушением и восстановлением равновесия. Основная идея теории Выготского состоит в том, что когнитивное развитие детей усиливается благодаря социальному взаимодействию с другими людьми, особенно с более способными людьми.*

# THEORİES ABOUT COGNİTİVE DEVELOPMENT AND TRAİNİNG OF PRESCHOOL CHİLDREN

***Summary***

*Taking into account the parameters of children's cognitive development, creating opportunities and conditions for its development is considered the main factor. Therefore, knowing the theories created by a number of pedagogues and psychologists who study the development of children's cognition helps educators to set up the training process correctly. One of these prominent educators is Jean Piaget, a Swedish educator who contributed to future educators with his cognitive theory. Piaget noted that people learn through schemas, and schemas are the framework in which a person places every piece of information he or she acquires in his mind. In Piaget's theory of cognitive development, children's learning is about the disruption and restoration of balance. One of the pedagogues studying the cognitive development of preschool children is the outstanding Russian pedagogue L.S. It is Vygotsky. The main idea of Vygotsky's theory is that children's cognitive development is enhanced through social interaction with other people, especially more capable people.*

***Açar sözlər:*** *idrak, nəzəriyyə, inkişaf, təlim, təhsil, məktəbəqədər yaş, mərhələ*

***Ключевые слова:*** *познание, теория, развитие, обучение, воспитание, дошкольный возраст, этап*

***Key words:*** *cognition, theory, development, training, education, preschool age, stage*

İdrak vasitələrinin təkmilləşdirilməsi insanın fəaliyyət tarixinin ayrılmaz bir hissəsidir. Keçmiş dövrlərin filosofları çoxsaylı idrak məsələlərinin həllinə diqqət yetirmişlər. Təsadüfi deyildir ki, sonralardan bu problem həm psixoloqların, həm də pedaqoqların daim tədqiq etdiyi əsas mövzulardan biri olmuşdur.

Uşaqların idraki inkişafın parametrlərini nəzərə almaq, onun inkişafına imkan və şərait yaratmaq əsas amil hesab olunur. Buna görə də uşaqların idrakının inkişafını araşdıran bir sıra pedaqoq və psixoloqların yaratdığı nəzəriyyələri bilmək tərbiyəçi müəllimlərə təlim prosesini düzgün qurmasına kömək edir.

Bir neçə pedaqoq və psixoloq idrak inkişafı ilə bağlı nəzəriyyələr yaratmışdır. Bu görkəmli pedaqoqlardan biri də uşaqların idrak məsələri üzərində geniş tədqiqatlar aparan və koqnitiv nəzəriyyəsi ilə gələcək tərbiyəçimüəllimlərə öz tövhələrini verən İsveç psixoloqu və pedaqoqu Jean Piajedir.

Jean Piaje, uşaqların doğulduğu andan, gənc yetkin olana qədər onlarda təfəkkürün inkişafı ilə xüsusilə olaraq maraqlanırdı. Bu inkişafın mahiyyətini anlamaq üçün Piaje özünün üç uşağının davranışını diqqətlə müşahidə edərək

onlara bir sıra suallar təqdim etmiş, situasiyalardan sonra onların cavablarını müşahidə etmişdir. Piaje uşaqlara verdiyi bu sualların həmişə düzgün cavablar olmayacağına diqqət yetirməkdənsə, uşağın necə düşündüyünü anlamağa çalışırdı. Piaje istifadə etdiyi bu üsulu "klinik üsul" olaraq adlandırmışdır. Piajenin bu metoduna ABŞ-da bir çox tədqiqatçılar tənqidi yanaşmışdılar, çünki Piaje hər uşağa eyni sualları vermirdi. Bununla belə, nəticələr o qədər heyrətləndirici və çox vaxt gözlənilməz idi ki, onlara göz yummaq olmazdı. Daha dəqiq eksperimental üsullar kəşf olunduqca, tədqiqatçılar tez-tez Piajenin müşahidələrinin dəqiq olduğu qənaətinə gəlirdilər.

Piajenin fikrincə, insanlar yaşadıqları fiziki və sosial mühitə uyğunlaşırlar. Uyğunlaşma prosesi doğuşdan başlayır. Piaje bu uyğunlaşmanı iki əsas prosese ayırmışdır: Assimilyasiya və Yerləşdirmə. (2. səh 31-32)

Assimilyasiya yeni obyektlərin və hadisələrin qavranılması və ya mövcud sxem və ya strukturların əhatə dairəsinə daxil edilməsi prosesinə aiddir. Bu o deməkdir ki, uşaq yeni məlumatla qarşılaşdığı zaman artıq malik olduğu məlumatlara (əvvəllər işlənmiş və öyrənilmiş məlumatlara) istinad edərək bu məlumatı mənalandırır və yeni məlumatlara uyğunlaşdırmağa çalışır. Yerləşdirmə mərhələsi isə tamamlayıcı proses hesab olunur. Assimilyasiya yolu ilə əldə edilən yeni məlumat nəticəsində yaranan sxem dəyişikliyini ehtiva edən yerləşdirmədir.

Piaje, insanların öyrənməyi sxemlər vasitəsilə həyata keçirdiyini və sxemlərin insanın əldə etdiyi hər məlumatı zehnində yerləşdirdiyi çərçivə olduğunu qeyd edirdi. (2. səh.33)

Piajenin fikrincə, uşaqlarda idrakın inkişafı dörd ardıcıl dövrdə baş verir. Mərhələlər irəlilədikcə uşaqların başa düşməsi və problem həlli qabiliyyətlərində keyfiyyətcə dəyişmələr müşahidə olunur (1. səh.104). Bu mərhələlər aşağıdaki kimidir:

1. Sensomotor mərhələ (anadan olandan 2 yaşa qədərki olan dövrü əhatə edir)
2. Əməliyyatdan əvvəlki mərhələ (2 yaşdan 7 yaşa qədər olan dövrdür.)
3. Beton əməliyyatlar - Xüsusi əməliyyatlar mərhələsi – (7 yaşdan 11 yaşa qədər olan dövr)
4. Formal və ya Rəsmi əməliyyatlar mərhələsi – (11 yaşdan 15 yaşa qədər olan dövr)

Bu mərhələlərdən əsas məktəbəqədər yaşlı uşaqlar üçün xarakterik olan birinci və ikinci mərhələyə nəzər yetirəcəyik.

Piajenin sensomotor mərhələsi: Piajenin fikrincə, bu mərhələdə uşaq, obyektlərlə birbaşa əlaqə qura bilir, amma hələ simvollar və ya daxili təsvirlərlə işləyə bilmir. Piaje hesab edirdi ki, bu mərhələ idrak inkişafının bütün prosesləri üçün başlanğıc nöqtəsi kimi hesab olunur və düşüncənin ən primitiv formasını sensomotor zəka adlandırırdı. Uşaq bu mərhələdə, gördüyü

obyektə uzun-uzadı baxır və onu yoxlayır. Özünə uzadılmış cismi götürür və bir əlindən digərinə ötürür, onu tərsinə çevirir, onunla diqqətlə məşğul olur. Şəhadət barmağı ilə kiçik əşyaları itələyir və ya göstərir. Baş və şəhadət barmağı ilə kiçik əşyaları götürə bilir. Təsadüfən yerə düşən bir cismin düşdüyü istiqamətə baxır və onu axtarır.

Əməliyyatdan əvvəlki mərhələ: Bu mərhələ, sensor-motor funksiyalarından təmsillərlə işləməyə keçid mərhələsidir. Bu yaşda uşaqlarda eqosentrizm inkişaf edir. Onlar öz nöqteyi-nəzərinə kənardan baxa bilmir, mühakimələrini əsaslandırmağa, ziddiyyətlər axtarıb aradan qaldırmağa can atmırlar. Bu yaşda olan uşaqlar öz düşüncələrinə meyilli deyillər və düşünmürlər. Həmçinin, bu yaşda olan uşaqlar mərkəzləşmə ilə xarakterizə olunur, yəni bir obyektin ən nəzərə çarpan əlamətinə diqqət yetirir və qalanlarına məhəl qoymurlar. (3. səh.39)

Bu yaş mərhələsində uşaqların əsas xüsusiyyətləri bunlardır:

- Uşaq bu dövrdə hər şeyə "Mən" mövqeyindən yanaşır. Oyun prosesində oyuncaqlarının hamısı istədiyi zaman əlində olmasını, istədiyi zaman verilməsini istəyir.
- Bu dövrdə uşaqlarda, nitq sürətlə inkişaf etməyə davam etsə də, onlarda düşüncələrini ifadə etmək üçün idraki proseslər hələ də tam inkişaf etməmişdir.
- Bu dövrün ilkin mərhələsində, uşaqlar bir neçə ölçüyə malik olan münasibətləri adlandıra bilmir. Məsələn: Tərbiyəçi-müəllim uşağa sözlü şəkildə: Sevda, Dilşaddan daha hündür, həmçinin Sevda, Könüldən də hündürdür dedikdə, "Kim ən hündürdür?" sualına uşaqlar cavab verə bilmir. Amma tərbiyəçi-müəllim bu əlaqəni simvollaşdırıb kağıza və ya löhvəyə çəkdiyi zaman uşaq, bu əlaqəni düzgün qura bilir və düzgün cavablandıra bilir.
- Bu dövrdə, uşaqlar obyektləri sadəcə tək tərəfli qruplaşdıra bilər. Əşyaların bir neçə xüsusiyyətinə baxaraq qruplaşdırma etmək onlar üçün çətin olur. Məsələn, tərbiyəçi müəllimin əlində üçbucaq, kvadrat, dairə var. Bunlar da müxtəlif rəngdədirlər. Uşaq bunu ya formasına görə, ya da rənginə görə qruplaşdıra bilər.
- 2-4 yaşlarında uşaqlar əşyalardan, başqa bir əşya kimi istifadə edə bilər. Misal üçün; çubuqdan silah kimi istifadə edə bilər. Bu uşağın simvolik oyunudur. Simvolik oyunlar vasitəsilə uşaqlar öz konfliktlərini tarazlaşdıra bilirlər. Hemçinin simvolik oyunlarda uşaqlar, böyüklər və ya onların ətrafındakı insanları təqlid etdikləri üçün oyunu tamamilə unikal simvollarla oynayırlar.

Piajenin koqnitiv inkişaf nəzəriyyəsində uşaqların öyrənməsi, tarazlığın pozulması və yenidən bərbası ilə bağlıdır. Uşaq, ona tanış olmayan bir əşya və ya hadisə gördükdə onda öyrənmə prosesinin tarazlığı qısa müddətli pozulur. Sonra həmin anlayış üçün beynində bir sxem formalaşdırır və tarazlıq təzdən

bərpa olunur. Misal olaraq, anası ilə birlikdə zooparka gedən uşaq zebranı gördükdə "Ana bax, at!" deyə bilər. Bunun səbəbi uşağın beynində hələ ki, zebra sxeminin olmaması ilə əlaqəlidir. Anası uşağa: "O, at deyil, zebradır" dedikdə uşaqda öyrənmə tarazlığı pozulur. Uşaq sonra beynində "zebra" sxemini formalaşdırır və yenidən zebranı gördükdə onu at ilə səhv salmır. Beləliklə, uşaqda öyrənmə tarazlığı bərpa olunur.

Məktəbəqədər yaşlı uşaqların idrakının inkişafını tədqiq edən pedaqoqlardan biri də görkəmli rus pedaqoqu L.S.Vıqotskidir. L.S.Vıqotski özündən əvvəlki pedaqoqlardan fərqli olaraq qeyd etdi ki, uşaqlar insanlarla qarşılıqlı ünsiyyətdə olurlar. O, göstərir ki, sosial və koqnitiv inkişaf bir-biri ilə çox sıx əlaqədədir. (5. səh.181)

Rus pedaqoq və psixoloqu Lev Vıqotski XX əsrin əvvəllərində "Koqnitiv İnkişafın Sosial mədəni nəzəriyyəsi" olaraq bilinən idrakın inkişaf nəzəriyyəsini irəli sürdü. Vıqotskinin nəzəriyyəsinin əsas fikri, uşaqların koqnitiv inkişafının digər insanlarla, xüsusən daha bacarıqlı insanlarla sosial qarşılıqlı təsir yolu ilə inkişaf etdirilməsidir. Başqa sözlə, Vıqotski, sosial öyrənmənin koqnitiv inkişafdan əvvəl meydana gəldiyinə və uşaqların aktiv şəkildə bilik əldə etməsinə inanırdı. Vıqotskiyə görə, xüsusilə bu inkişafda sosial və dilin təsiri daha böyükdür. Sosial təsir dedikdə, uşağın ətraf mühitlə əlaqəsi nəzərdə tutulur. Bu təsir zamanı valideynlər, müəllimlər- tərbiyəçilər və uşaq mühitindəki digər yetkinlər - hamısı bu prosesə öz töhfələrini izah edir, modelləşdirir, kömək edir və istiqamət verirlər. Digər tərəfdən uşaqlar həmyaşıdları ilə əməkdaşlıq edir və öyrənmə təcrübəsini zənginləşdirirlər. Dilin təsiri isə uşaqların, başqalarının sahib olduğu bilikləri əldə etmələri üçün qapını açar.

Bu nəzəriyyənin 3 komponenti vardır. Bunlar: Proksimol (yaxın) inkişaf zonası, scaffolding və daxili (şəxsi) nitq (4. səh.12)

Proksimol (Yaxın) inkişaf zonası: Vıqotski, uşaqların təlim prosesinə aid olan proksimal inkişaf zonası anlayışı ilə məşhurlaımışdır. Vıqotskinin bu nəzəriyyəsinə görə, müəyyən bir vəzifə üçün proksimal inkişaf zonasında olan uşaqlar, demək olar ki, məşğələ prosesində verilən tapşırığı müstəqil şəkildə yerinə yetirə bilərlər, lakin hələdə kifayət qədər öhdəsindən gələ bilmirlər. Tapşırığı müvəffəqiyyətlə yerinə yetirmək üçün onlara biraz kömək lazım olur. Məsələn, üç yaşlı uşaq üç təkərli bir velosipedi atası olmadan sürə bilməz. Atasının köməyi ilə bu kiçik qız velosipedini tarazlamağı öyrənir. Daha çox təcrübə ilə velosipedi özbaşına sürə bilər. Bu senaridə uşaq velosiped sürmək üçün proksimal inkişaf zonasındadır.

Proksimal inkişaf zonası anlayışında Vıqotski, sosial təsirlərin, xüsusən də uşaqların kimdənsə göstəriş almasının onların idrakının inkişafına böyük təsir göstərdiyini vurğulayır. Uşaqlara təlimatlar verildikdə və ya müəyyən tapşırıqların necə yerinə yetirildiyi göstərildikdə, mövcud zehni sxemlərdə

alınan yeni məlumatlar sistemləşdirilir. Bu məlumatları, bu vəzifələri necə yerinə yetirmək üçün istiqamətləndirilir və nəticədə müstəqil olaraq yerinə yetirməyi öyrənirlər.

Scaffolding (Skelet, karkas, özək): Vıqotskinin Scaffolding konsepsiyası Proksimal inkişaf zonası anlayışı ilə sıx bağlıdır. Bu uşağın bu vəzifəni müstəqil olaraq yerinə yetirəbiləcəyi müddətə qədər bir tapşırığı yerinə yetirməsini təmin edən daha məlumatlı bir digərinin uşağa verdiyi müvəqqəti dəstəyə aiddir. Uşağın həqiqi zonadan Proksimol zonaya keçə bilməsi üçün böyüklər və ya həmyaşıdları tərəfindən verilən köməyi əhatə edir. Məsələn, yuxarıdakı misalda uşağın atasının velosipeddən tutması scaffoldinqə misal ola bilər.

Daxili (Şəxsi) nitq: Vıqotski daxili nitqin əhəmiyyətini sənədləşdirən ilk pedaqoqdur. Vıqotski, daxili nitqi uşaqların fəaliyyət və strategiyaları planlaşdırması və buna görə də onların inkişafına kömək etmək üçün bir vasitə olaraq görür.

Daxili nitq davranışın özünü tənzimləməsi üçün dilin istifadəsidir. Buna görə dil düşüncə, anlama üçün sürətləndiricidir. Vıqotski, daha çox daxili nitqlə məşğul olan uşaqların, ondan geniş istifadə etməyən uşaqlara nisbətən daha çox sosial bacarıqlı olduğuna inanırdı.

Məktəbəqədər təhsil müəssisələrində işləyən mütəxəssislər illərlə J.Piajenin nəzəriyyəsindən istifadə edərək elə hesab etmişlər ki, uşaqlar öz şəxsi təcrübələrinə istinadən biliklər əldə edirlər. Vıqotskinin nəzəriyyəsi isə uşaqların öyrənmə, bilik əldə etmə prosesi təlim və böyüklərin rəhbərliyi altında həyata keçirildiyini müdafiə edir.

Uşaqların şəxsiyyəti öz ailələrinin, cəmiyyətin, sosial-iqtisadi vəziyyətin, təlimin və mədəniyyətin təsiri altında formalaşır. Onların qavrama aləmi, əsasən, böyüklərin və ətrafındakı uşaqların inam və biliklərindən genişlənir.

Uşaqlar bir-birindən hər gün nəsə öyrənirlər. Onlar danışır, yeni anlayışları qavrayır, bir-birini dinləyirlər. L.S.Vıqotski əmin idi ki, uşaqlar daha çox oyun prosesində öyrənirlər. O, hesab edirdi ki, nitq və təfəkkür sıx əlaqədədir və bir-birinə təsir edir. Uşaqlar oynayarkən ünsiyyət edirlər. Onlar oyuna bir sıra anlayışlar da daxil edirlər, rolları, obyektləri və qaydaları müzakirə edirlər. Bir-birinin davranışını korreksiya edir, əvvəlcədən onlara tanış olmayan situasiya və ideyalardan məlumatlı olurlar. L.S.Vıqotski hesab edirdi ki, bu cür qarşılıqlı təsir bilik əldə etməyin əsas mənbəyidir. Onun fikrinə görə idrak xaricdən daxilə keçir. (2. səh 34)

Uşaqların idrakının inkişafı haqqında tədqiqat apardığım Vıqotskinin bu nəzəriyyəsinə əsasən belə bir nəticə çıxarmaq olar ki, L.S.Vıqotskinin mədəni-tarixi nəzəriyyəsi sosial varlığın - bioloji və sosial prinsiplərin qarşılıqlı təsiri nəticəsində hərtərəfli inkişaf edən şəxsin psixi inkişafının spesifik

xüsusiyyətlərini ortaya qoyur. L.S.Vıqotskinin elmi töhfəsi sayəsində məktəbəqədər təhsil müəssisələrində təlim prosesində sosial yanaşma yarandı.

***Ədəbiyyat***

1. *Erden Mehmet - Gelişim ve öğrenme, Ankara: Arkadaş Yayıncılık - 2005 səh. 150*
2. *Həsənova Pərişan - Məktəbəqədər təhsil müəssisələrində öyrənmə idrak fəaliyyəti - Dərs vəsaiti Bakı-2019 səh.179*
3. *Santrock John W - Educational Psychology universty of Texas at Dallas-2018 səh.510*
4. *Suat Kol - Erken çocuklukta bilişsel gelişim ve dil gelişimi makalesi Sakarya Üniversitesi Eğitim Fakültesi Dergisi, 21 (Mayıs 2011), səh. 21*
5. *Quliyev Edison - Uşaq psixologiyası səh.305*

**T.Y.İbrahimova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ibrahimova.tutu.1999@gmail.com***

***Təhsil həyata hazırlıq deyil, həyatın özüdür. (C.Dyui)***

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏDRİSİN TƏŞKİLİNDƏ KEYFİYYƏT ANLAYIŞI

***Xülasə***

*Bu məqalədə ümumtəhsil məktəblərində tədris prosesində təhsilin keyfiyyəti, ona təsir edən amillər, bu sahədə mövcud olan problemlər, onların həlli yollarından bəhs olunur. İlk növbədə təhsilin keyfiyyəti anlayışı haqqında yanaşmalar, daha sonra isə ona təsir edən amillər qeyd olunur. Bu gün keyfiyyətli təhsilin əldə olunmasında hələ də ciddi problemlər var. Bunun üçün də müəyyən islahatlar həyata keçirilməli, müəllimlər müxtəlif təlimlərə cəlb olunmalı, müəllim-valideyn-psixoloq əlaqələri daha da gücləndirilməli, qiymətləndirmə sahəsində olan nöqsanlar aradan qaldırılmalı, ümumtəhsil məktəbləri maddi-texniki təchizatla təmin olunmalıdır.*

# ПОНЯТИЕ КАЧЕСТВА В ОРГАНИЗАЦИИ ОБУЧЕНИЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Резюме***

*В данной статье говорится о качестве образования в учебном процессе в общеобразовательных школах, факторах, влияющих на него, существующих проблемах в этой сфере и путях их решения. В первую очередь отличаются подходы к понятию качества образования, а затем отличаются факторы, влияющие на него. На сегодняшний день по-прежнему существуют серьезны проблемы в получении качественного образования. Для этого следует провести определенные реформы, привлечь учителей к различным тренингам, еще больше укрепить отношения педагог-родитель-психолог, устранить недостатки в области оценивания обеспечить общеобразовательные школы материально-техническим оснащением.*

# THE CONCEPT OF QUALITY IN THE ORGANIZATION OF TEACHING IN SECONDARY SCHOOLS

***Summary***

*This article talks about the quality of education in the teaching process in secondary schools, the factors affecting it, the problems that exist in this field and their solutions. First of all, the approaches to the concept of the quality of education are noted, and then the factors affecting it are noted. Today, there are still serious*

*problems in obtaining quality education. For this, certain reforms should be implemented, teachers should be involved in various trainings, teacher-parent-psychologist relations should be further strengthened, shortcomings in the field of assessment should be eliminated, secondary schools should be provided with material and technical equipment.*

***Açar sözlər:*** *təhsil, təhsilin keyfiyyəti, tədris prosesi, qiymətləndirmə, kompetensiya*
***Ключевые слова:*** *образование, качество образования, учебный процесс, оценка, компетентность*
***Key words:*** *education, quality of education, teaching process, assessment, competence*

Elm-texnika inkişaf etdikcə, təhsil anlayışı daha geniş məna kəsb edir. Təhsilin qarşısında bir sıra məqsədlər durur. Hazırda bu məqsədlərdən ən əsası təhsildə keyfiyyətin yüksəldilməsidir. İlk dəfə təhsilin keyfiyyəti anlayışı 1998-ci ildə Fransanın Paris şəhərində təhsilin problemlərinə həsr olunmuş ümumdünya konfransında ön plana çəkilmişdir. Bu konfransda təhsildə keyfiyyətin gələcək inkişafda uzunmüddətli məsələ kimi gündəmə gətirilməsi qərara alınmışdır. Respublikamızda isə 2013-cü il 24 oktyabrda "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin keyfiyyəti əsas strateji prioritet kimi qəbul olunub.

Ümumiyyətlə təhsilin keyfiyyəti anlayışı ilə bağlı bir çox yanaşmalar var. Pedaqoji lüğətlərdə isə bu anlayışla bağlı 2 cür yanaşma mövcuddur:

1. fəlsəfi,
2. idarəetmə.

1. Fəlsəfi nöqteyi-nəzərdən təhsilin keyfiyyəti dedikdə onun məzmunu, şagirdin tərbiyəsi və onun bir şəxsiyyət kimi formalaşması məsələləri nəzərdə tutulur.

2. İdarəetmə baxımından təhsilin keyfiyyəti dedikdə isə məqsədlərin nəticələrlə üst-üstə düşməsi, gözləntilərin təmin olunması, nəticələrin standartlara uyğunluğu nəzərdə tutulur.

Təhsilin keyfiyyəti anlayışından danışarkən ilk növbədə təhsilin keyfiyyətinə təsir göstərən amilləri bilmək lazımdır. Məhz bu amilləri öyrənmək üçün 15 mart 2021-ci ildə sorğu keçirilmişdir. Sorğuya əsasən təhsilin keyfiyyətinə 33,3% müəllimlərin peşəkarlıq səviyyəsi, 17,3 % məktəbin maddi-texniki təchizatı, 15,2% valideyn amili, 10% məktəb rəhbərlərinin fəaliyyəti, 8,2% məktəbdə psixoloji mühit və 5,5% dərsliklərin təsir etdiyi aşkarlanmışdır.




Təhsildə keyfiyyətin yüksəldilməsi üçün aşağıdakılar vacibdir:

1. Yüksək ixtisaslı, təcrübəli müəllimlərin olması;
2. Təhsil müəssisələrinin zəruri təlimat materialları ilə təmin olunması;
3. Motivasiyanın düzgün tətbiqi və düzgün planlaşdırmanın aparılması;
4. Qiymətləndirmənin düzgün həyata keçirilməsi;
5. Pedaqoji təhlilin aparılması;
6. Tələbə və müəllim əməyinin stimullaşdırılması;
7. Məktəbdə valideyn amilinin mühüm rol oynaması;
8. Ümumtəhsil məktəblərində sağlam-psixoloji mühitin yaradılması;
9. Məktəb rəhbərlərinin fəaliyyətinin əsas rol oynaması.




Təhsildə keyfiyyətin yüksəldilməsi üçün əsas amil yüksək ixtisaslı, təcrübəli müəllimlərin olmasıdır. Müəllimlər məktəbdə müxtəlif bilik, bacarıq, maraq və öyrənməyə sahib uşaqlarla qarşılaşırlar. Buna görə də müəllimlər hər şagirdə necə yanaşmaq lazım olduğunu daha yaxşı bilirlər. Müəllimlər öz dərsinin daha keyfiyyyətli olması üçün fənn kurikulumlarını tədris edərkən, onu həyatla əlaqələndirsələr, bu, şagirdlər üçün daha maraqlı və daha yadda qalan olar.

"Çoxsaylı intellekt" anlayışının banisi Hovard Qardner intellektin növlərini araşdıraraq qeyd edirdi ki, bütün uşaqlar müxtəlif yollarla öyrənir və müxtəlif vaxtlarda dərk edirlər.

Müəllim hər zaman yenilikçi olmalıdır. Çünki elm durmadan daima inkişaf edir. Müəllim də hər zaman özünü yeni biliklərlə zənginləşdirməli və eyni zamanda bu bilikləri şagirdlərə aşılamaq üçün müxtəlif yollar tapmalı, dərsləri hər yaşa uyğun müxtəlif oyunlar, vizual vasitələr və s. ilə keçməyi bacarmalıdır. Ənənəvi təhsildən fərqli olaraq müasir təhsildə əsas bilik əldə etmək deyil, həmçinin onu bacarığa çevirmək də vacibdir. Buna görə də bu gün müəllimlər çalışmalıdır ki, şagirdlər əldə etdikləri bilikləri həyatda tətbiq etməyi bacarsınlar. Bunun üçün isə ən effektiv vasitələrdən biri əyani vasitələrdir. Bu vasitələrlə isə məktəblərin çoxu təmin olunmayıb. Ona görə də məktəbin maddi-texniki təchizatı da təhsilin keyfiyyətində əsas amillərdəndir.

Müəllim hər bir şagirdə fərdi yanaşmalıdır. Bu yanaşmada valideyn amili xüsusi rol oynayır. Müəllim mütəmadi olaraq şagirdlərin valideynləri ilə əlaqə saxlamalıdır. Müəllim-şagird-valideyn əlaqəsini bir üçbucağa bənzədirlər. Onlar təhsildə əsas maraqlı tərəflər kimi qəbul olunur. Ümumiyyətlə müəllim-valideyn əlaqəsi təhsildə keyfiyyətə nail olunmasında əhəmiyyətli rol oynayan amillərdəndir.

Müəllimlər bir sıra kompetensiyalara malik olmalıdırlar. Hansı ki, bu kompetensiyalar onlarda ali məktəbdə tədris prosesində, məktəbdə iş prosesində formalaşdırılır və həyata keçirilir. Həmin kompetensiyalar aşağıdakılardır:

1. Planlaşdırma, dərsin hazırlanması, keçirilməsi, təhlili;
2. Məktəbdə tətbiq edilən eksperimentlərdən tədris məqsədləri üçün istifadə etmək;
3. Şagirdləri həyati bacarıqlara yiyələndirmək, çətin məsələlərin həllinə yönəltmək;
4. Fənn kabinetini yaratmaq və onun işini təşkil etmək;
5. Uşaqları layihələşdirmə fəaliyyətinə cəlb etmək;
6. Ekskursiyaları planlaşdırmaq və həyata keçirmək;
7. Sinifdənxaric və məktəbdənkənar işləri planlaşdırmaq və həyata keçirmək;
8. Tədris prosesində təlimin texniki vasitələrindən, xüsusən də informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək;
9. Qiymətləndirmənin növlərini, məqsədini və qiymətləndirmə vasitələrini bilməli, tətbiq etməli, monitorinqdən istifadə etməli;
10. Məktəbdə tədris olunan fənlərin təliminin təşkili müxanizminə yiyələnməli. (4, 93)

Təhsilin keyfiyyətinin yüksəldilməsində digər amillərlə yanaşı motivasiyanın rolu da danılmazdır. Təlim prosesində motivasiyanın düzgün planlaşdırılması və tətbiqi zəruridir.

Təhsilin keyfiyyətinə təsir edən əsas faktor kimi qiymətləndirməni də vurğulamaq lazımdır. Yeni qiymətləndirmə sistemi yaransa da, bu sistemdə olan problemlər, müəllimlərin çoxunun bu sistemlə işləyə bilməməsi təhsildə keyfiyyətin təmin olunmasında ciddi problemlər yaradır. Ona görə də fikrimizi sonda yekunlaşdıraraq deyə bilərik ki, bu gün təhsildə keyfiyyətə nail olmaq, onu daha da yüksəltmək üçün:

1. Təhsil sahəsində yeni islahatlar həyata keçirilməli;
2. Ümumtəhsil müəssisələri tam maddi- texniki təchizatla təmin olunmalı;
3. Müəllimlər davamlı olaraq yeni təlimlərə cəlb olunmalı;
4. Qiymətləndirmə sahəsində olan problemlər aradan qaldırılmalıdır və s.

***Ədəbiyyat***

1. *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". "Azərbaycan müəllimi" qəzeti, 25.10.2013-cü il, №41*
2. *Bayramova N."Müəllim hazırlığında multikultural dəyərlərin rolu". Humanitar və ictimai elmlər üzrə II Beynəlxalq Elmi konfransın materialları. Bakı 2020. 150 s.*
3. *Ələkbərova Ş. "Təhsilin keyfiyyəti cəmiyyətin inkişafının göstəricisidir". "Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri". Cild 84. №6, 2017*
4. *Məmmədzadə R. "Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi". Bakı: "Müəllim", 2010. - 170 s.*
5. *Sadıqova S. "Təhsildə əsas keyfiyyət faktorları". "Azərbaycan məktəbi" №2 73-80 s*

**T.S.Allahyarova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***shems91@inbox.ru***

# İNKLÜZİV TƏHSİLİN METODOLOJİ MƏSƏLƏLƏRİ

***Xülasə***

*İnklüziv təhsilin mahiyyəti, məqsədi və vəzifələri, təcrübəsindən istifadə, ibtidai siniflərdə inklüziv təhsilin tətbiqi problemləri və inklüziv sinif üçün dərsin planlaşdırılmasının əhəmiyyəti mühümdür.*

*Tədqiqat işində inklüziv təhsilin təşkilində müasir texnologiyaların tətbiqinin əhəmiyyəti, rolu, mövqeyi, gələcək nəsillər üçün mahiyyəti üzrə təsnifi tədqiq olunmuşdur. Həmçinin mövzunun təhlili aparılaraq vacib nəticələr əldə olunmuşdur.*

# МЕТОДИЧЕСКИЕ ВОПРОСЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

***Резюме***

*Важны сущность, цель и задачи инклюзивного образования, использование опыта, проблемы реализации инклюзивного образования в начальных классах и значение планирования урока для инклюзивного класса.*

*В исследовательской работе изучены значение, роль и классификация применения современных технологий в организации инклюзивного образования для будущих поколений. Также была проанализирована тема и получены важные результаты.*

# METHODOLOGICAL İSSUES OF İNCLUSİVE EDUCATİON

***Summary***

*The essence, purpose and tasks of inclusive education, use of experience, problems of implementation of inclusive education in primary classes and the importance of lesson planning for an inclusive class are important.*

*İn the research work, the importance role of the application of modern technologies in the organization of inclusive education, its position, and its classification for future generations were studied. Important results were also obtained by analyzing the topic.*

***Açar sözlər:*** *təhsil, inklüziv təhsil, dərsin planlaşdırılması, tərbiyəvi fəaliyyət, texnologiyalar, sağlamlıq, inklüziv təhsil, sağlamlıq imkanları məhdud uşaqlar*

***Ключевые слова:*** *образование, инклюзивное образование, планирование урока, образовательная деятельность, технологии, инклюзивное образование, дети с ограниченными возможностям*

***Key words:*** *education, inclusive education, lesson planning, educational activity, technologies, inclusive education, health opportunities, disabled children*

Azərbaycanda inklüziv təhsildə təlimin təşkili prosesi, bu sahədə qəbul olunan qanunların reallaşdırılması, həyata keçirilən dövlət proqramlarının nəticələri, eləcə də rast gəlinən çətinliklərin aradan qaldırılması yolları araşdırılır. Ölkəmizdə inklüziv təhsilin tətbiq olunduğu məktəbəqədər müəssisələr və ümumtəhsil məktəblərinin sağlamlıq imkanları məhdud uşaqların sayına nisbətdə azlıq təşkil etməsi, xüsusilə regionlarda bu kateqoriyadan olan uşaqların belə müəssisələrə cəlb olunmasındakı ciddi problemlər, valideynlərin evdə təhsili üstün tutmasının səbəbləri təhlil olunur.

Hazırda inklüziv təhsillə bağlı digər problemlərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi proqram, dərslik və qiymətləndirmə metodları ilə bağlı çatışmazlıq, dərsdənkənar fəaliyyət növlərini əhatə edən dövlət hesablı mərkəzlərin sayının, habelə bu sahədə layihələrin, proqramların az olması kimi məsələlərə də diqqət yetirilir. İnklüziv təhsildə təlimin təşkili zamanı yaranacaq maneələrin ləğvi üçün xüsusi pedaqoji kollektivin fəaliyyət planları hazırlaması və ali təhsil müəssisələrinin də bu prosesə cəlb olunması tövsiyə olunur. (4,s.120)

İnklüziv təhsil ümumi təhsilin hər kəs üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların ehtiyaclarına uyğun həyata keçirilən təhsil prosesidir. Bu proses sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını təmin edən ən etibarlı vasitə və üsuldur.

İnklüziv təhsildə təlimin təşkili prinsiplərinin əsas məqsədi xüsusi pedaqoji-psixoloji üsullarla sağlamlıq imkanları məhdud şəxslərdə kommunikativ bacarıq və vərdişləri inkişaf etdirməklə, müvafiq biliklərə yiyələnməsinə nail olmaq və onları müstəqil həyata hazırlamaqla cəmiyyətin bərabər hüquqlu vətəndaşına çevirməkdir.

Təlim prosesinin uğurla həyata keçirilməsində əsas problem isə bu cür uşaqların sağlam düşüncəli vətəndaş kimi cəmiyyətə uyğunlaşmasıdır. Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədinə əsasən bu problemin tədricən aradan qaldırılması, həssas qrupa daxil olan uşaqların erkən yaşlardan aşkar edilməsi və təlim-təhsil prosesinə cəlb olunması qarşıya qoyulan əsas hədəflərdəndir.

İnklüziv təhsil hər bir uşağın təhsil zamanı ortaya çıxan bütün ehtiyaclarının ödənilməsini təmin edən metodologiyaları inkişaf etdirməyə yönəltmişdir. Onun başlıca məqsədi tədris zamanı uşaqların təhsil və təlim ehtiyaclarının ödənilməsini reallaşdırmaqdır. Onu ənənəvi təhsildən fərqləndirən başlıca cəhət isə istər sağlam, istərsə də sağlamlıq imkanları məhdud uşaqların bərabər təhsilalma hüquqlarını təmin etməklə cəmiyyətdə sosial bərabərliyin qorunması, bu uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə nail olunmasıdır.

Xüsusi pedaqoji rəhbərliyin vacibliyi prinsipi sağlamlıq imkanları məhdud olan şagirdlərin öyrənmə potensialını nəzərə alaraq təlim-təhsil

prosesinin planlaşdırılması, sadədən mürəkkəbə metodu əsasında dərsin mənimsənilməsi, illüstrasiyalar, şəkillər, sxemlər, rəmzlər əsasında prosesin təşkili işinin təminatıdır. (2,s.12)

Belə ki, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün mahiyyətcə eyni, lakin sadələşdirilmiş tapşırıqlar verilməsi, bu tapşırıqların fərdi şəkildə yerinə yetirilməsi təlim prosesinə müsbət təsir edir. Bu prosesdə həssas qrupdan olan uşaqlar üçün xüsusi ixtisaslaşmış müəllimlərin seçilməsi vacib məsələlərdəndir. Sağlamlıq imkanları məhdud uşaqlarla bağlı əsas problem qanunvericilik bazasının yetərsizliyidir. İnklüziv təhsillə bağlı bir sıra müddəaların müvafiq qanunlarda öz əksini tapmasına baxmayaraq, onların həyata keçirilməsi tam reallaşdırılmayıb. Bunun əsas səbəbləri kimi valideynlərlə müəllimlərin sıx əməkdaşlıq etməməsini, sağlamlıq imkanları məhdud uşaqların tədris prosesinə cəlb olunması üçün inklüziv təhsildə təlimin təşkili prinsiplərinə düzgün əməl olunmamasını göstərmək olar.

Təhsilə cəlb olunmuş və təhsildən kənarda qalan sağlamlıq imkanları məhdud uşaqları müəyyən edə bilmək üçün vahid məlumat bazası yaradılmalı, onların sağlamlıq və reabilitasiya, təhsil inkişafı müvafiq qaydada izlənilməli, zaman keçdikcə proqramın uşağa uyğun olmadığı müəyyən edilərsə, müdaxilə edilməlidir.

Ölkə ərazisində regionlar da daxil olmaqla ərazi vahidləri üzrə sağlamlıq imkanları məhdud uşaqların sayı nəzərə alınmaqla inklüziv məktəbəqədər tərbiyə müəssisələri və məktəblər müəyyən edilməli, həmin bağça və məktəblərdə sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi şərait yaradılmalıdır.

Cəmiyyətin inkişafında müəyyən hallar vardır ki, onlar hər zaman diqqət mərkəzində olmalıdır. İnklüziv təlim ənənəvi olaraq formal təlimdən kənarlaşdırılan və fərdi öyrənmə ehtiyacları hal-hazırda formal təhsildə qarşılanmayan qız və oğlan uşaqlarının öyrənməsini dəstəkləmək üçün daha çevik yanaşmalara ehtiyac olduğuna diqqət çəkən nisbətən yeni bir anlayışdır. Təlimatda əlilliyi və öyrənmə çətinliyi olan uşaqların müxtəlif təhsil ehtiyaclarına diqqət yetirilməsinə baxmayaraq, hər kəs üçün tədris və təlim keyfiyyətinin artırılması ilə daha geniş əlaqəli məsələlər qaldırılır.

İnklüziv təhsil sahəsində cəmiyyət əlilliyi olan uşaqların assimilyasiyasına neytral və ya passiv-mərhəmət mövqeyi nümayiş etdirir, belə uşaqların problemi ətrafdakılar tərəfindən mühitin öhdəliyi kimi deyil, uşaqların öz çətinlikləri kimi qəbul edilir.

Etibarlı və müqayisə edilə bilən məlumatların toplanmasında qarşılaşılan problemlərdən biri də aradan qaldırıla bilən uşaqlıq xəstəliklərinin davamlı əlillik təsirləri, silahlı qarşıdurmanın, fəlakətlərin və fövqəladə halların nəticələri və tibb elmindəki nailiyyətlər səbəbi ilə bu əhalinin dəyişən təbiətidir. Bu, sosial, mədəni və iqtisadi inkişafla birləşdirilir və təhsil

çətinliklərinin daha çox tanınmasına səbəb olur. Qidalanmayan uşaqlar yalnız fiziki böyüməl追lərində ləngimirlər, əksinə onların idrak çətinlikləri və öyrənmə gecikmələri ilə qarşılaşma ehtimalı yüksəkdir.

Əlilliyi olan uşaqların təhsili üçün ən uyğun yer barədə mübahisələrə mədəni olaraq müəyyən edilmiş və inkişaf edən anlayışlar və təhsil seçimlərinin mövcudluğu təsir göstərir.

Əlilliyi olan uşaqlar ayrılıqda təhsil almalıdırlar. Lakin tədqiqatlar göstərdi ki, bu cür uşaqların digər uşaqlarla birgə, eyni sinifdə həyata keçirilən dərs prosesində iştirakı bu prosesin bütün iştirakçılarına təhsil və sosial baxımdan fayda verir. İnklüziv təhsil bir seçim deyil, BMT-nin "Uşaq hüquqları haqqında" və "Əlillərin hüquqları haqqında" Konvensiyaları ilə müəyyən edilmiş və hal-hazırda Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsbit olunmuş uşaq hüququdur.

Müasir cəmiyyətdə sağlamlıq imkanları məhdud şəxsləri effektiv tədris-təlim prosesinə cəlb etmək üçün ictimai səviyyədə maarifləndirici, məlumatlandırıcı işlərin görülməsi, ictimai şüurun formalaşdırılması, əlilliyi olanlara münasibətdə birmənalı şəkildə müsbət yöndə ictimai fikir dəyişikliyi, həmçinin əlverişli və təhlükəsiz mühit yaradılması prioritet hədəflərdəndir. Bunun üçün, ilk növbədə cəmiyyətin ziyalı təbəqəsi əlilliyi olan şəxslərin assimilyasiyasına neytral və ya passiv mövqe nümayiş etdirməməlidir.

Sağlamlıq imkanları məhdud şəxslərin problemi ətrafdakılar tərəfindən cəmiyyətin öhdəliyi kimi qəbul edilməli, insanlar onlara qarşı passiv tolerantlıq göstərməməli və ayrı-seçkilik aradan qaldırılmalıdır.

Bu qeyd etdiyimiz prinsiplərə riayət olunarsa, sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və cəmiyyətə adaptasiyasına asanlıqla nail olmaq mümkündür. Müəllimlərin valideynlərlə birgə səyi və əməkdaşlığı sayəsində yaradılan təlim-tədris mühiti sağlamlıq imkanları məhdud şəxsləri kifayət qədər dəstəklə əhatə edə, bu istiqamətdə yeni tədris strategiyalarının təcrübədən keçirilməsi təhsilin səmərəliliyini artıra, öyrənmə prosesini daha da təkmilləşdirə, bununla da təhsilalanların təlim nəticələri yaxşılaşar.

Tədris müəssisələrində müəllimlərin təlim icmalarının yaradılması, qrup məşğələlərinin işinin nizamlı təşkili isə sağlamlıq imkanları məhdud şəxslərlə əməkdaşlıq və kommunikativ bacarıqların daha effektiv şəkildə təşkilinə şərait yaranır.

***Ədəbiyyat***

1. *Ağayev Ş., Məmmədova E., Əliyeva X. (2012).“İnklüziv təhsil günün tələbidir”. “Azərbaycan məktəbi” jurnalı, №4.*
2. *Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanunu. (2012).*
3. *BMT-nin “Əlillərin hüquqları haqqında” Konvensiyasının icrasına dair Azərbaycan Respublikasının ilk hesabatı. Yanvar, 2011-ci il.*
4. *Hüseynzadə R.L. (2013). Pedaqogika. Dərslik. Bakı, Mütərcim, 708 s.*
5. *İnklüziv siniflərdə təlimin təşkili. (2018). Bakı. Oxu materialı. http://www.tipii.edu.az.*
6. *Kathy, C. (2014). Inclusive Education in the EarlyYears: Right from the Start.*
7. *Qaraxanlı, R. (2018). “İnklüziv təhsilin Skandinaviya modeli”. Azərbaycan müəllimi, 20aprel.*

**Z.B.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*zuleykha89.99@mail.ru*

# ORTA MƏKTƏBLƏRDƏ HƏYATİ BACARIQLARIN FORMALAŞDIRILMASININ VACİBLİYİ VƏ HƏYATİ BACARIQLARIN FORMALAŞDIRILMASI ZAMANI YARANAN PROBLEMLƏRİN SƏBƏBİ

***Xülasə***

*Son illərdə təlim prosesində həyati bacarıqların öyrədilməsi aktual mövzulardan birinə çevrilmişdir. Bilik öyrənmənin əsasını təşkil etsə də, bacarığı əvəz edə bilmir. Əsas məsələ şagirdlərin öyrəndikləri biliyi bacarığa çevirərək ondan düzgün istifadə etməsidir. Bunun üçün şagirdlərə biliklərdən necə və harda, hansı problemin həllində istifadə etməyi öyrətmək lazımdır. Şagirdləri yalnız biliyi yadda saxlatdırmaqla onları yaradıcı prosesə cəlb edə bilmərik. Bunun üçün də öyrənmə prosesində şagirdə biliyi müstəqil olaraq mənimsəməsinə kömək etmək lazımdır. Nəticədə həyati bacarıqlara əsaslanan təhsil inkişafa daha çox xidmət göstərəcəkdir.*

# ВАЖНОСТЬ ФОРМИРОВАНИЯ ЖИЗНЕННЫХ НАВЫКОВ В ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЕ И ПРИЧИНЫ ПРОБЛЕМ, ВОЗНИКАЮЩИХ ПРИ ФОРМИРОВАНИИ ЖИЗНЕННЫХ НАВЫКОВ

***Резюме***

*В последние годы обучение жизненным навыкам стало одной из самых важных тем в образовательном процессе. Хотя знания являются основой обучения, они не могут заменить навыки. Главная проблема заключается в том, чтобы учащиеся превратили полученные знания в навыки. и использовать его правильно. Для этого научить учащихся как и где использовать знания для решения какой задачи. Это необходимо. Мы не можем вовлечь учащихся в творческий процесс только заучиванием знаний. Для этого необходимо помочь ученику самостоятельно осваивать знания в процессе обучения. В результате образование, основанное на жизненных навыках, лучше послужит развитию.*

# THE IMPORTANCE OF FORMING LIFE SKILLS IN SECONDARY SCHOOLS AND THE REASON FOR THE PROBLEMS THAT ARISE DURING THE FORMATION OF LIFE SKILLS

***Summary***

*In recent years, the teaching of life skills has become one of the most important topics in the educational process. Although knowledge is the basis of learning, it cannot replace skills. The main thing is that students turn the knowledge they have learned into skills and use it correctly. To do this, teach students how and where to use knowledge to solve which problem. It is important. We cannot engage students in the creative process by merely memorizing knowledge. For this, it is necessary to help the student acquire knowledge independently in the learning process. As a result, education based on life skills will serve development better.*

***Açar sözlər:*** *həyati bacarıq, praktiki fəaliyyət, formalaşdırmaq, tədqiqat, əməkdaşlıq, bilik, metod, tətbiq etmək*

***Ключевые слова:*** *жизнеспособность, практическая деятельность, форма, исследование, работа, знание, метод, применение*

***Key words:*** *life skill, practical activity, form, research, collaboration, knowledge, method, apply*

Hazırkı dövrümüzdə bilik sürətlə artır və dəyişir. İqlim dəyişməsi, təbii ehtiyatların azalması, sosial münasibətlərin dəyişməsi, cəmiyyətin həyatında sürətli və qlobal dəyişiklikləri və s. Bu da öz növbəsində tələblərin artmasına və dəyişməsinə səbəb olur.

Özünün güclü və zəif tərəflərini bilən, problem həll etmə bacarığı olan, ətrafındakı insanlar ilə əmakdaşlıq edə bilən, yaradıcı yanaşması olan şəxsiyyətlərin yetişməsi həm fərd üçün, həm də cəmiyyətin özü üçün çox vacib məsələdir. Yüksək bacarıqlara sahib şəxsiyyətlər böyütmək üçün bacarıq əsaslı təhsilin olması vacibdir. Bu cür bacarıqların isə təhsilverənlər tərəfindən təhsilalanlara verilməsi və qazandırılması əsas məsələdir.

Araşdırmalar göstərir ki, şagirdlərin idrak, akademik, sosial və emosional inkişafı bir-birilə çox sıx bağlıdır. Uğurlu və bacarıqlı şəxsiyyət yetişdirmək üçün bunların hamısını birlikdə inkişaf etdirmək əsasdır.

Təhsildə baş verən inkişafa və dəyişikliyə baxmayaraq təhsilin istiqamətləndirilməsində və təşkilində müəllim hələ də vacib obyektdir. Təhsil müəssisəsi olaraq məktəb şagirdə ümumi akademik biliklər verməyi hədəfləyir. Bundan başqa, məktəb onların müxtəlif sahələrdə bacarıqlarını inkişaf etdirməyə də köməklik etməlidir. Bilik və bacarıq təlimi fərddə bir bütündür və şəxsin həyatı boyunca istifadə edəcəyi həyati bacarıqlara çevrilir.

Bacarıq insanın biliklərini şüurlu şəkildə praktikaya tətbiq edə bilməsidir. Bacarıq əsas məlumat, tətbiq məlumatları və tətbiq komponentlətindən təşkil olunub. Bacarığı formalaşdırmaq üçün bilmək, cəhd etmək və tətbiq etmək lazımdır.

Bacarıq deyəndə şagirdlərin mövzu üzrə qazandıqları bilikləri digər fənlərlə inteqrasiya edə bilməsi, mövzu üzərində daha dərindən düşünməsi, qoyulmuş problemin həllində biliklərdən düzgün istifadə edə bilməsi başa düşülməlidir.

Şagirdlər biliyi passiv şəkildə qəbul edib yadda saxlamaq əvəzinə yaradıcı prosesə cəlb olunarlarsa, təhsil prosesi daha effektiv olar. Təhsil tədqiqatçısı olan Con Dyui qeyd edir: “Biz etməklə öyrənirik.”

Bilik öyrənmənin əsas hissəsini təşkil edir. Bacarıq biliyi əvəz etmir, ondan istifadəni müəyyən edir. Belə ki, şagirdlər qazandıqları bilikləri verilmiş problemin həllində düzgün tətbiq etməyi və ondan səmərəli istifadə etməyi öyrənməlidirlər.

Kurikulum proqramının tətbiq edilməsi ilə təhsil sahəsində müəyyən qədər uğurlar qazanılmışdır. Yeni tətbiq edilən təhsil proqramında həyati bacarıqları stimullaşdırmaq əsasdır. Coğrafiya fənninin tədrisində həyati bacarıqların formalaşdırılmasının məqsədi təkcə bilik vermək deyil, eyni zamanda özünün, xalqının inkişafına istiqamət verə biləcək bacarıqların, qabiliyyətlərin öyrədilməsi nəzərdə tutulur. Bacarıqlı müəllimlər tədris prosesi zamanı şagirdlərin yaradıcı təfəkkürlərini inkişaf etdirməyə çalışaraq onlarda biliyi müstəqil şəkildə öyrənmələrinə şərait yaratmalıdırlar. Beləliklə də, həyati bacarıqların formalaşdırılması mümkün olacaqdır. Coğrafiya fənn kurikulumun məzmununun formalaşdırılmasında təkcə biliklər deyil də, həmçinin həyati bacarıqların da vacibliyi ortaya çıxır. Bacarıq əldə edilmiş biliyin praktiki fəaliyyətdə düzgün tətbiq etmək qabiliyyətidir.

Kurikulum proqramı hazırlanarkən şagirdin, ailənin, cəmiyyətin və dövlətin ehtiyac, tələb və maraqları əsas götürülmüşdür. Yeni fənn kurikulumunda fənnin məzmunu nəticəyönümlü yanaşma əsasında müəyyən olunmuşdur. Burada əsas diqqət nəticəyönümlülüyə - təkcə biliklərin qazanılmasına deyil, daha çox biliklər əsasında bacarıq və vərdişlərin öyrədilməsinə istiqamətlənmişdir. Buna nail olunması isə bacarıqlar coğrafiya fənn kurikulumunda fənnin məzmunu nəticəyönümlü yanaşma əsasında müəyyən olunmuşdur. Məzmunun bu cür müəyyən edilməsi şagird fəaliyyətinin ardıcıl olaraq izlənilməsinə, onların nailiyyətlərinin sistemli qiymətləndirilməsinə imkan yaradır. Gözlənilən nəticə ilə təlim prosesi arasında əks-əlaqə mexanizminin yaradılması təmin olunur.

Dünya təhsil təcrübəsi göstərir ki, adi ünsiyyət qurmaqdan tutmuş, ən kiçik iqtisadi layihələr qurub həyata keçirməyə qədər ən müxtəlif qabiliyyətləri özündə birləşdirən həyati bacarıqlar mükəmməl bir sistemin tərkib hissələri

olmalıdır. Belə sistemləri isə şagirdi sinifdə təlimin obyekti kimi yox, subyekti kimi qəbul edən şagirdyönümlü təlim üsulları və fənlərin inteqrasiyasının köməyi ilə yaratmaq mümkündür. Ona görə də yerli və beynəlxalq təcrübələr öyrənilməli və həyati bacarıqlar coğrafiya fənninin tədrisində istifadə edilməlidir.

Həyati bacarıqlara əsaslanan təhsil sistemi inkişafa daha effektli xidmət göstərəcəkdir. Buna görə də müəllim-şagird əməkdaşlığını gözdən keçirmək və öyrətmə-öyrənmə prosesinin ağırlıq mərkəzi şagirdin üzərinə köçürülərək bilik müstəqil qazanılmalıdır.

Digər fənlərdəki kimi, coğrafiya fənninin də həm məzmununda, həm də tədrisində ciddi islahatlar aparılır. Ənənəvi təlim prosesində kurikulumdan fərqli olaraq izahlı-illüstrativ xarakter olduğu üçün bilik şagirdlərə hazır şəkildə verilirdi. Ancaq yeni fənn kurikulumunda məzmun dəyişərək şagirdin tələbat və maraqlarına uyğun olaraq onlarda həyati bacarıqların inkişaf etdirilməsinə xidmət edir.

Coğrafiya fənni orta və tam orta təhsil pillələrində tədris edilir. Ümumi orta təhsildə müxtəlif şəraitlərdə və vəziyyətlərdə ətraf mühitin tədqiq edilməsində coğrafi cihazlardan istifadə etməyi, müəyyən ərazinin kartoqrafik təsvirini verməyi, xəritə və plan üzrə təhlillər aparmağı, xəritədən, coğrafi məlumatlardan, statistikadan istifadə edərək müvafiq hesablamalar aparmağı və alınan nəticələrə dair qrafik, diaqramlar, cədvəllər qurmağı öyrənməklə bacarıqlara yiyələndirir. Tam orta təhsil pilləsində isə təbii komplekslərin müqayisəli təhlilini aparmağı, onlarda baş verən dəyişikliklərin səbəblərini nümunələr əsasında şərh etməyi, ətraf mühitin dəyişilməsi prosesini müşahidə etmək üçün təcrübələr aparmağı, sınaqlar keçirməyi, onların nəticələrini ümumiləşdirib təqdim etməyi, müvafiq nəzəri biliklər əsasında iqtisadi səmərəliliyin təmin olunması ilə bağlı fərdi qaydada, habelə qrup daxilində kiçik layihələr hazırlamağı, hesablamalar aparmağı, nəticələrin tətbiqi üzrə mülahizələr irəli sürməyi, müxtəlif məzmunlu plan və xəritələr hazırlamağı, öz biliyini və məlumat dairəsini genişləndirmək üçün əlavə materiallar toplayıb, onları sistemləşdirib şifahi və yazılı təqdim etməyi dərk etmiş olur.

Coğrafiya fənninin tədrisində şagirdlərin həyati bacarıqlarının inkişaf etdirilməsində məzmun yetəri qədər deyildir. Təlim yükünün ağır olması şagirdlərin məlumat ilə yüklənməsinə səbəb olur. Fənnin tədrisi zamanı şagirdlərin sərbəst tədqiqat və təcrübə aparılmasına, fikir mübadiləsi etməsinə, fərqli düşünülməsinə şərait yaradılmırdı. Orta məktəb məzunlarının real həyata hazırlanmasının vacibliyi kifayət qədər nəzərə alınmırdı.

Yeni coğrafiya fənn kurikulumu isə insan üçün həyati əhəmiyyəti olan lazımi bilik və bacarıqlarla əhatə olunur. Tədris prosesində şagirdlər təbiətdə baş verən coğrafi hadisələrin və təbii proseslərin başvermə səbəblərini izah

edərək səbəb-nəticə əlaqələrini başa düşür və real həyatda bu bilik və bacarıqlardan istifadə etmək imkanı əldə etmiş olur.



Şagirdlərdə həyati bacarıqların formalaşdırılması zamanı qüsurların yaranmasının səbəbini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Təlimin tədrisi zamanı müşahidə, çöl tədqiqatı və praktik işlərə yerin çox az verilməsi;
2. Təlim tədrisi zamanı müəyyən əyani vəsaitlərdən, cihazlardan az istifadə edilməsi;
3. Təlim tədrisi zamanı daha çox bilik yönümlü mərkəzləşməsi;
4. Müəllimlərin yeni təlim üsullarından və İKT-dən istifadə bacarıqlarının az olması;
5. Müəllimlərin praktik və laboratoriya işlərinin aparılması ilə əlaqədar bacarıqlarının az olması;
6. Məktəblərdə şagirdlərə praktik bilik və bacarıqlar vermək üçün texniki vasitələrin az olması və s.

Coğrafiya fənninin tədrisi zamanı həyati bacarıqları şagirdlərə daha yaxşı öyrətmək üçün təlim üsullarından birlikdə istifadə etmək işin təşkilini daha əlverişli edəcəkdir. Həmçinin həyati bacarıqları əhatəli öyrətmək üçün məktəblərdə fərdi işin təşkilinə və aparılmasına daha çox ehtiyac vardır. Eyni zamanda şagirdlərə müşahidə tipli tapşırıqlar verməklə də onları gələcəyə hazırlamaq lazımdır. Müşahidəçilik qabiliyyəti həyati bacarıqlar içərisində çox əhəmiyyətli yer tutur. Nəinki coğrafiya fənninin tədrisində, başqa fənlərin də tədrisi prosesində bu bacarığın inkişaf etdirilməsi göz önündə olmalıdır.

Ənənəvi təlim prosesində ən çox buraxılan qüsur təlimin həyati bacarıqların verilməsindən daha çox faktlardan istifadə olunması, məlumatın yadda saxlanılmasına üstünlüyün verilməsi, həyati bacarıqların kifayət qədər inkişaf etdirilməsinə imkan verən məzmunun olmaması idi. Ancaq kurikulum bundan çox fərqlənərək həyati bacarıqların inkişaf etdirilməsinə yönəlmişdir. Bunun üçün də müəllimlərin üzərinə böyük yük düşür. Həyati bacarıqları şagirdlərə daha yaxşı öyrətmək üçün təlim metodlarından birgə istifadə etməli, praktik bacarıqları şagirdlərə hərtərəfli öyrətmək üçün məktəblərdə fərdi işin

təşkili və aparılmasına ciddi yanaşmalı, elektron dərs vəsaitlərindən həmişə istifadə etməli, İKT-dən istifadə etməyi bacarmalıdır.

Məlumdur ki, yeni kurikulumların tətbiq edilməsi bu gün təlimin nəticələr üzərində qurulmasını və interaktiv formada təşkilini tələb edir. Bu da şagirdlərin həyati bacarıqlar qazanmasına, müasir təfəkkürə sahib şəxsiyyət kimi formalaşmasına zəmin yaradır. Bu gün ümumi təhsil məktəblərində təhsilə olan baxış dəyişmişdir. Belə ki, artıq təhsil şagirdlərə təkcə bilik verməyi deyil, onlarda müəyyən bacarıqlar və vərdişlərin inkişaf etdirilməsini də tələb edir. Yəni, şagirdi müstəqil həyata hazırlamaq şəxsiyyətyönümlü təhsilin əsas məqsədinə çevrilib.

***Ədəbiyyat***

1. *Həyati Bacarıqlara Əsaslanan təhsil. Müəllimlər üçün metodik vəsait (V-IX siniflər). Bakı: Mütərcim, 2006, 606 s*
2. *Həyati Bacarıqlara Əsaslanan təhsil proqram (V-IX siniflər). Bakı: Mütərcim, 2006, 53 s*
3. *Yeni təhsil sistemində bilik və bacarıqların yeri // Pedaqoji Universitet Xəbərləri, 2009, №1, s.300-305*
4. *İnsan kursunun tədrisində "Emosiyaların idarə olunması"nın həyati bacarıqlara əsaslanan təhsil kursu ilə əlaqəsi // Pedaqoji Universitet Xəbərləri, 2010, №1, s.243-248*
5. *Müəllim kadrlarının hazırlanması məsələsinə müasir baxış // Uluslararası Öğretmen Yetişdirmə politikaları və Sorunları Sempozyumu II, Bildirilər kitabı. Ankara, 2010, s.558-565*

**N.Ə.Şərayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***nazilesharayeva@gmail.com***

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ TƏHLİLETMƏ QABİLİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

***Xülasə***

*Məqalə ibtidai siniflərdə riyaziyyatın tədrisi prosesində şagirdlərin intellektual qabiliyyətinin inkişaf etdirilməsi yollarının araşdırılması ilə bağlıdır. Tədqiqat işində riyaziyyat təlimi prosesində ibtidai sinif şagirdlərinin intellekt qabiliyyətinin inkişaf etdirilməsi, bu işdə istifadə olunan qeyri-standart və standart məsələlərin rolu, şagirdlərin təhliletmə qabiliyyətinin inkişaf etdirilməsi işində müəllim-şagird münasibətləri öz əksini tapmışdır. Məqalədə əsas məqsəd şagirdlərin intellekt qabiliyyətinin inkişaf etdirilməsi üçün müxtəlif yolların araşdırılıb tapılmasından ibarətdir. İstifadə olunan məsələlərin verilənləri, verilənlər arasındakı asılılıqların şagirdlər tərəfindən dərk olunması, bu zaman təhliletmə qabiliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi tədqiqat işinin mərkəzi məsələlərindən biridir.*

# ПУТИ РАЗВИТИЯ СПОСОБНОСТИ К АНАЛИЗУ У УЧАЩИХСЯ НАЧАЛЬНОЙ ШКОЛЫ

***Резюме***

*Статья связана с исследованием путей развития интеллектуальных способностей учащихся в процессе обучения математике в начальных классах. В исследовательской работе отражено развитие интеллектуальных способностей учащихся начальных классов в процессе обучения математике, роль нестандартных и типовых задач, используемых в данной работе, развитие аналитических способностей учащихся. Основной целью статьи является исследование и поиск различных способов развития интеллектуальных способностей учащихся. Понимание учащимися данных используемых задач, зависимостей между данными, а также формирование и развитие способности к анализу в это время является одним из центральных вопросов исследовательской работы.*

# WAYS OF DEVELOPİNG THE ABİLİTY TO ANALYZE İN ELEMENTARY SCHOOL STUDENTS

***Summary***

*The article is related to the investigation of the ways of developing the intellectual ability of students in the process of teaching mathematics in primary classes. In the research work, the development of the intellectual ability of elementary school students in the process of mathematics education, the role of standard and non-standard problems used in this work, and the teacher-student relationship in the*

*development of student's analytical ability have been reflected. The main goal of the dissertation work is to research and find different ways to develop students' intellectual abilities. Students' understanding of the data and the dependencies between the data used, and the formation and development of the ability to analyze it is one of the central issues of the research work.*

***Açar sözlər:*** *təhliletmə qabiliyyəti, standart tapşırıqlar, qeyri-standart tapşırıqlar, intellekt qabiliyyəti*

***Ключевые слова:*** *аналитические способности, стандартные задачи, нестандартные задачи, интеллектуальные способности*

***Key words:*** *analytical ability, standard tasks, non-standard tasks, intellectual ability*

Müasir dövrdə yeni təhsil qanununun qəbulu, təhsil sisteminin beynəlxalq təhsil sisteminə inteqrasiyasının sürətli inkişafı təhsil sahəsində əsaslı dəyişikliklərin və islahatların aparılmasını zəruri edir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, XXI əsrdə ən vacib məsələ insanların və cəmiyyətin inkişaf etməsi üçün yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşdırmaqdır.

Orta məktəbin qarşısında duran əsas vəzifələrdən biri və ən önəmlisi şagird şəxsiyyətini ibtidai sinifdəki dövrdə daha da inkişaf etdirməyin təmin edilməsidir. İbtidai sinif şagirdlərinin mükəmməl inkişafının əsasını təşkil edən iki fəaliyyət növü vardır. Onlardan biri odur ki, hər bir şagird bəşəriyyətin əldə etdiyi təcrübəni qazanmaqla inkişaf edir. Bu prosesin bünövrəsi isə cəmiyyətdə yaşamaq üçün şagirdə lazım olan bilik və bacarıqların öyrədilməsinə yönəldilmiş tədris fəaliyyətidir.

İkinci fəaliyyət növü isə hər bir şagirdin inkişaf prosesində yaradıcılıq fəaliyyəti sayəsində öz imkanlarını müstəqil gerçəkləşdirməsidir. Yaradıcılıq fəaliyyəti tədris fəaliyyətindən fərqli olaraq məlum olan biliklərin mənimsədilməsi məqsədi daşımır, əksinə, yeniliklər yaratmağa yönəlmiş şəxsi ideyaları həyata keçirmək imkanlarını aşkar edir.

Təhlil etmə qabiliyyəti özünü hadisədə müxtəlif cəhətləri, əşyadan müxtəlif xüsusiyyətləri ayırmaqda göstərir. Məsələn, müəyyən formada təsvir olunmuş şəklin xüsusiyyətləri şagirddən soruşulduqda, şagird şəklə diqqətlə baxıb, onun hansı xüsusiyyətləri olduğunu, necə təşkil edildiyini, təsvirin əsas elementlərini və formasını, hansısa əlamətinə görə elementlərin sayını ayırd edə bilməlidir. Uşağın təhlil etmə qabiliyyəti verilən məsələlərin şərt və tələblərini araşdıra bilməyi, şərtdən nəzərdə tutulanların arasındakı əlaqələri ayıra bilməyi nəzərdə tutur (4). Verilmiş məsələnin verilənlərin, həmçinin, bu verilənlər arasındakı asılılıqları şagird başa düşmədikdə, məsələ həllini düzgün yerinə yetirə bilmir. Bu o demək deyil ki, şagirdlərə problem xarakterli məsələlər verilsin və bunların mümkün həll yolları soruşulsun. Şagirdlərə elə

misal və məsələlər verilməlidir ki, ibtidai sinif şagirdi bu məsələ və misalları təhlil edə bilsinlər (2). Fikri əsaslandırmaq üçün bir neçə məsələyə nəzər salaq. Şagirdlərə belə bir məsələni həll etmək təklif edilir:

**Məsələ 1:** 3 eyni boyda çəki balığı 6 eyni boyda xanı balığından ağır gəlir. 5 belə çəki balığı ağırdır, yoxsa 7 ədəd xanı balığı?

Bu məsələni həll etmək üçün heç bir hesab əməlinə ehtiyac yoxdur. Sadəcə, şagirdlərdən məsələdə verilənlərin təhlil edilməsi tələb edilir. Məsələnin ilk hissəsində verilən şərtə görə, şagirdlər belə nəticəyə gəlir ki, 1 çəki balığı 1 xanı balığından ağırdır. Bu təhlil düzgündür. Buna görə də şagirdlər belə düşünə bilər: 3 çəki balığı 6 xanı balığından ağırdırsa və 1 çəki balığı 1 xanı balığından ağırdırsa, deməli 5 çəki balığı 7 xanı balığından ağır olacaqdır.

Təhlil etmə qabiliyyətinin inkişafı 2 cəhətdən xarakterizə olunur: **kəmiyyət** və **keyfiyyət** baxımından. Kəmiyyət cəhətdən xarakterizə olunduqda bu nəzərdə tutulur: Uşaqda təhlil etmə qabiliyyəti nə qədər yaxşı inkişaf edirsə, o, rəqəmlərin çox verildiyi məsələlərdə bir o qədər fəallıq göstərə bilər. Həmçinin, məsələdə verilənlər və onlar arasındakı münasibətlər daha asan qavranılar. Kəmiyyətləri çox olan hesab məsələlərinin necə həll edilməsi, təhlil etmə qabiliyyətinin inkişaf səviyyəsini göstərir. Təhlil etmə qabiliyyəti zəif olan uşaqlar belə məsələlərlə qarşılaşdıqda çaşıb qalırlar (2).

Keyfiyyət cəhətdən təhlil etmə qabiliyyətinin necə inkişaf etdiyi öyrənilərkən, əsasən, bu nəzərdə tutulur: Uşaqlarda təhlil etmə qabiliyyəti nə qədər yaxşı inkişaf etsə, o məsələlərin şərtində verilənlərin zəruri nisbətini daha aydın dərk edər və əhəmiyyətli rəqəmləri gərəksiz rəqəmlərdən fərqləndirə bilər. Bununla əlaqədar bir neçə məsələyə nəzərə salaq:

**Məsələ 2:** Vüsal dostuna deyir: fikrimdə tutduğum ədədin onluqlarının sayı ilə təkliklərinin sayını toplasan ən böyük bir rəqəmli ədəd alınır. Vüsal fikrində hansı ədədi tutmuşdur? Məsələnin neçə həlli vardır?

Şagirdlər məsələnin şərtini aydınlaşdırdıqdan sonra belə nəticəyə gəlirlər ki, Vüsalın fikrində tutduğu ədəd iki rəqəmli ədəddir. Belə ən kiçik ədəd 10, ən böyük ədəd isə 99-dur. Bu ədədlərin sayının həddən artıq olduğunu müəyyən edən şagird mühakimə yolu ilə axtarılan ədədin seçim dairəsini kiçildir. Bu işdə şagirdə məsələnin şərtinin təhlili kömək edir. Məsələnin şərtində qeyd olunduğu kimi fikirdə tutulmuş iki rəqəmli ədədin onluq və təkliklərinin sayı ən böyük bir rəqəmli ədəddir. Ən böyük bir rəqəmli ədədin 9 olduğunu bilən şagird, fikirdə tutulan ədədin 72; 27; 63; 36; 54; 45; 81; 18 ədədlərindən biri olduğunu müəyyənləşdirir. Belə nəticəyə gəlmək mümkündür ki, yaxşı təhlil etmə qabiliyyətinə sahib olan şagirdlər məsələnin mümkün həllərini çox tez tapa bilərlər.

Təhlil etmə qabiliyyəti müxtəlif xarakterli hesabı məsələlərin həll edilməsi nəticəsində tələb olunan səviyyəyə çata bilər. Mətn məsələlərinin

təhlili şagirdlərin söz ehtiyatlarını artırmaqla yanaşı, miqdarı göstəricilərlə fikri əməliyyatların aparılmasını, yəni, riyazi məntiqi inkişaf etdirir (1).

**Məsələ 3:** Birinci rəfdə 6844 kitab var. Bu, ikinci rəfdə olandan 959 kitab azdır. Üçüncü rəfdə isə birinci və ikinci rəflərdə birlikdə olandan 2348 kitab azdır. Üç rəfdə ümumilikdə necə kitab var?

Məsələni həll etmək üçün ilk növbədə, məsələ təhlil olunmalıdır. Məsələdə verilənlər və soruşulanlar tapılmalıdır. Müəllim xatırlatmalıdır ki, məsələdə verilənlərin müəyyən edilməsi, hələ məsələnin həll edilməsi demək deyil. Daha sonra isə, şagirdlərin diqqətini digər elementlərə yönəldir. Başqa sözlə, məsələdə verilənlərin bir-biri ilə hansı şərtlərə görə bağlandığını tapmağa yönəldir. Çox zaman şagirdlər verilənlər arasındakı asılılığa uyğun olan hesab əməllərini düzgün seçə bilmirlər. Misal üçün, məsələnin şərtində verilən "bu ikinci rəfdə olandan 959 kitab çoxdur" ifadəsi şagirdləri ikinci rəfdəki kitabların sayının tapılması üçün toplama əməlinin yerinə yetirilməsinə çalışırlar. Lakin məsələnin hərtərəfli təhlili şagirdləri düzgün mühakiməyə yönəltməlidir (3).

**Misal:** Verilmiş ədədlər ardıcıllığındakı ədədlərin hansının eyni bir əlamətə görə oxşar olduqlarını tapın:

1) 1; 3; 5; 8; 9
2) 12; 13; 15; 18; 25

Verilmiş ədədlərin bir-biri ilə oxşarlığını müəyyən etməyə çalışan şagird bu ədədlərin hansı dairədə (on, yüz, min dairəsində) olduğunu, onların tək və ya cüt olduğunu, rəqəmlərin sayını aşkar etməyə çalışır. Hər bir sıradakı ədədlərdəki oxşarlığın təyin olunması şagirdləri belə bir fikrə yönəldir ki, 1-ci sıradakı ədədlər bir-birləri ilə iki rəqəmli olmalarına görə oxşardırlar. Bu sıradakı ədədlərin həm tək, həm də cüt olduğunu aşkarlayan şagird onları bu əlamətə görə qruplaşdırmaqdan imtina edir. Bu əlamət üzrə qruplaşma yetərli hesab edilməli və qəbul olunmalıdır. Eyni qayda ilə şagirdlər 2-ci sıradakı ədədlərin də bir-biriləri ilə məhz bir rəqəmli olmalarına görə oxşar olduqları fikrinə gəlirlər.

**Tapşırıq:** Aşağıda verilmiş fiqurlardan artıq olanı göstər:



Şəkildə verilmiş fiqurlardan hansının artıq olduğunu müəyyən etməzdən əvvəl şagirdlər bu fiqurların hansı əlamətlərə görə bir-birinə oxşadığını müəyyənləşdirməlidirlər. Bunun üçün onlar verilmiş fiqurları diqqətlə təhlil etməlidirlər. Fiqurları cüt-cüt təhlil edən şagird onların hər

birində dairə və düzbucaqlı fiqurunun olduğunu müəyyən edir. Lakin axırıncı fiqurun o birilərilə oxşarlığını təhlil edən şagird müəyyənləşdirir ki, axırıncı fiqur digər üç fiqurda olmayan bir fiqurdan, yəni üçbucaq fiqurundan ibarətdir. Şagirdlərin məhz belə bir düzgün qənaətə gəlib çıxmaları verilmiş tapşırığın dərin təhlili nəticəsində mümkün ola bilir.

Bildiyimiz kimi, ibtidai məktəb riyaziyyat dərsliklərində məlum komponentli misallar mühüm yer tutur. Komponentlərdən birinin tapılmasına yönələn belə misallar psixoloji planda həll edilməli, aralıq nəticələrin axtarılan cavabla çoxsaylı müqayisəsinə əsaslanmalıdır. Bu cür misalların həlli prosesində şagird əqli-zehni gərginlik tələb edən müxtəlif məntiqi əməliyyatlar aparır, məntiqi nəticə çıxarma öyrənir. Məsələn, $5+\Delta=8$ formasında olan misallar müxtəlif əlaqələrin istifadəsinə əsaslanır. Belə misalların həlli gedişi toplanandan cəmə doğru deyil, cəmdən toplanana doğru aparılır. Bu cür tapşırıqların həlli aralıq nəticələrin çoxsaylı müqayisəsi hesabına həll edilir. Beləliklə, buraxılmış komponentli misalların həlli nəticəsində şagirdlərin diqqəti aktivləşir və təfəkkürləri inkişaf edir (1).

Qeyd olunanlardan aşağıdakı nəticələr əldə edilir:

1. Şagirdlərin intellektual bacarıqlarının formalaşması üçün müxtəlif növ məsələ və misallardan istifadə edilməlidir;
2. Şagirdlərin təhliletmə qabiliyyətinin inkişaf etdirilməsi üçün standart tapşırıqlarla yanaşı, standart olmayan tapşırıqlardan da istifadə olunmalıdır;
3. Müxtəlif növ tapşırıqlardan istifadə etməklə yanaşı, müəllim-şagird münasibətləri də şagirdlərin fəallığında əhəmiyyətli rol oynayır.

***Ədəbiyyat***

*1. B.İ.Rzayev "Məktəblilərdə idrak prosesinin fəallaşdırılması" Bakı-2001;*
*2. Ə.S Bayramov, Ə.Əlizadə "Psixologiya" Bakı-2003;*
*3. F.A.Fevziyev, R.Y.Şükürov "Riyaziyyatın ibtidai kursunun nəzəri əsasları" Bakı-2018;*
*4. S.S.Həmidov "I-IV siniflərdə riyaziyyatın tədrisi metodikası" Bakı-2004;*
*5. Z.F.Kazımov "Hesab məsələləri və onların həlli metodikası" Bakı-2014.*

**N.İ.Ağayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***narminaghaeva22@gmail.com***

# PEDAQOJİ MONİTORİNQİN TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ ƏHƏMİYYƏTİ

***Xülasə***

*Pedaqoji monitorinq bir texnologiya olaraq yalnız təhsil müəssisəsinin fəaliyyəti haqqında məlumatların toplanması, saxlanması və emalı deyil, həm də məlumatların yayılması (informasiyanın təşkili) məsələsi kompleksində qərar qəbulunu əhatə edir.*

# ЗНАЧЕНИЕ ПЕДАГОГИЧЕСКОГО МОНИТОРИНГА В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

***Резюме***

*Педагогический мониторинг представляет собой тенологию Ювключающую не только сбор, хранение и обработку информации о деятельности образовательного учреждения, но и принятие решений в сложном вопросе рапространения информации (организации информации).*

# THE İMPORTANCE OF PEDAGOGİCAL MONİTORİNG İN İMPROVİNG THE QUALİTY OF EDUCATİON

***Summary***

*Pedagogical monitoring is a technology that includes not only the collection, storage and processing of information about the activity of an educational institution, but also decision-making in the complex issue of information dissemination (information organization).*

***Açar sözlər:*** *təhsil, pedaqoji monitorinq, qiymətləndirmə, keyfiyyət, monitorinq, texnologiya*

***Ключевые слова:*** *образование, оценка, качество, педагогический мониторинг, технология*

***Key words:*** *education, pedagogical monitoring, evaluation, quality, technology*

Dünyanın əşrəfi olan insan yarandığı gündən özünü inkişaf etdirmək barədə düşünməyə başladı. Bilikli, dünyagörüşlü olmaq onun amalına çevrildi. Bu yolda ona qabaqlayıcı, inkişafetdirici, tərbiyəedici funksiyalara malik olan təhsil yardımçı ola bilər. Təhsil mahiyyət və məzmununa görə dünyanın hər yerində cəmiyyətin mühüm inkişaf parametri kimi qiymətləndirilir. Bütövlükdə cəmiyyətin formalaşmasında onun həlledici rolu artır və təhsilsiz cəmiyyətin

inkişafının qeyri-mümkünlüyü aksiom kimi aydın dərk edilir. O cümlədən təhsil bütövlükdə sosial bağlılıqların yeniləşdirilməsini, bugünkü tələblərə uyğun yenilərinin yaradılmasını vacib bir məsələ kimi meydana çıxarır.

XXI əsrdə insan həyatının demək olar ki, bütün sahələrinə toxunan rəqəmsal transformasiyanın nəticəsi müəllim və təhsil təşkilatlarının müəllimlərinin rifahı üçün yüksək keyfiyyətli təhsil infrastrukturunu təmin etməyə qadir olan rəqəmsal təhsil oldu. İnformasiyalaşdırma prosesi insanın sosial fəaliyyətinin bütün sahələrində və təbii ki, elm və təhsil sahəsində əsaslı dəyişikliklərə səbəb olur. Təhsil əlaqələrinin iştirakçıları üçün operativ qarşılıqlı fəaliyyət imkanları açılır, təhsil təşkilatlarının internet saytları, elektron gündəliklər, video konfranslar (görüşlər), İnternet tələbələr, valideynlər, müəllimlər, təhsil fəaliyyəti ilə məşğul olan təşkilatlar arasında məlumat mübadiləsi üçün platformadır. Cəmiyyətdə rəqəmsal texnologiyalara sahib olan və rəqəmsal savadlılığı yüksək olan pedaqoji universitet məzununa müraciət var.

Bu gün məktəbin təhsil mühiti təkcə şagirdlərin bilik, bacarıq və vərdişlərinin deyil, eləcə də onların şəxsiyyətinin hərtərəfli inkişafına yönəlmişdir ki, bu da müstəqil bilik əldə etmək və mənimsəmək, özünü inkişaf etdirmək bacarığını formalaşdırmağı nəzərdə tutur. Bununla belə məktəbin özünün təhsil mühiti, qarşısında duran şəxsiyyətin inkişafı vəzifələrinə baxmayaraq, çox vaxt şagirdlərin bu çür inkişafı üçün lazımi şəraitin olmaması ilə xarakterizə olunur. Bu problem məktəbi bitirərkən mövcud məzun modelinə uyğun olaraq aktivlik, şüurluluq, məsuliyyətlilik, müstəqil qərarlar qəbul etmək bacarığı kimi keyfiyyətlərə malik olmalı olan orta məktəb şagirdləri üçün xüsusi ilə çox aktualdır.

Müasir dövrdə pedaqoji elm təhsil sisteminin uzunmüddətli izlənilməsi pedaqoji monitorinqə keçid mərhələsi ilə qarşılaşır.

XX əsrin sonları XXI əsrin əvvələrində formalaşmağa başlayan pedaqoji monitorinq təhsil sisteminin əsas tərkib hissələrindən birinə çevrilmişdir. Bu sahədə bir çox xarici (A.S.Belkin, O.B.Климентьева) və yerli alimlər (A.Mehrabov, R.Məmmədzadə, İ.Cavadov) və başqaları tədqiqatlar aparmış monoqrafiya, dissertasiya işləri, kitab, məqalə çap etdirmişlər. (2, s.300)

Son bir neçə ildə alimlər təhsilin keyfiyyəti ilə birbaşa əlaqəli məsələləri fəal şəkildə araşdırır, o cümlədən monitorinq və qiymətləndirmə texnologiyaları və idarəetmə mexanizmlərini inkişaf etdirirlər.

Pedaqoji texnologiya kimi monitorinq təkcə məlumatı sistemləşdirməyə imkan vermir, həm də səmərəli işləyən müəllimləri maddi həvəsləndirmənin təsirli mexanizmi ola bilər və onların bacarıqlarının artırılması üçün əsas ola bilər. Hazırda tədris prosesinin konkret subyektinin fəaliyyətinin qiymətləndirilməsi baxımından müəyyən qeyri-müəyyənlik mövcuddur ki, bu

da ümumiləşdirmə və innovasiya üçün daha geniş imkanlar açır. Təhsil anlayışı çoxşaxəli olduğundan, kəmiyyətlə ifadə etmək çətin olduğundan, təhsil nəzəriyyəsi daha çox imkanlar təqdim edir.

Pedaqoji monitorinq, şagirdin inkişafının proqnozlaşdırılmasını və korreksiyasını təmin edən pedaqoji prosesin vəziyyətinin izlənməsi (toplanması, saxlanması, işlənməsi) deməkdir.

Pedaqoji monitorinqin aşağıdakı növləri vardır:

- təhsil monitorinqi;
- idarəetmə monitorinqi;
- sosial-psixoloji monitorinq.

Pedaqoji monitorinq konsepsiyasının geniş şərhi, bu konsepsiyada yalnız təhsil müəssisəsinin fəaliyyəti haqqında məlumatların toplanması, saxlanması və emalı deyil, həm də məlumatların yayılması (informasiyanın təşkili) məsələsi kompleksində qərar qəbulunu əhatə edir) və bunun monitorinq sisteminin işləməsi üçün zəruri şərt olmasının təsdiqi də prosesin və ya hadisənin öyrənilməsi, qiymətləndirilməsi, tənzimlənməsi və korreksiyası kimi pedaqoji diaqnostikanın nəzərdən keçirilən konsepsiyasına daxildir. (3,s.101)

Pedaqogikada monitorinq pedaqoji sistemin fəaliyyəti haqqında məlumatların toplanması, saxlanması, emalı və yayılmasının təşkili forması kimi başa düşmək, onun vəziyyətinin davamlı tədqiqat monitorinqini təmin etmək və pedaqoji sistemlərin inkişafının proqnozlaşdırılması vəzifələrindən biri təhsil müəssisəsini və prosesi səciyyələndirə bilən göstəriciləri müəyyən etmək və görmək, monitorinqin onun metodoloji kökləri olan pedaqoji nəzarət və pedaqoji təhlil funksiyaları ilə əlaqəsini görmək olar. Monitorinq dedikdə biz elə bir tədqiqat metodunu nəzərdə tuturuq ki, onun həyata keçirilməsində bir qrup tədqiqatçı onun vasitələrinin təkmilləşdirilməsinə, habelə onun əsasını –pedaqoji diaqnostikaya əsaslanaraq normativ nəzarət və analitik fəaliyyət göstərir.

Müasir məktəb müasirləşmə mərhələsindədir. İstənilən, hətta səmərəli fəaliyyət göstərən təşkilat onu rəqabətə davamlı, yeni şəraitə uyğunlaşdıran daimi yeniləşmə, təşkilati dəyişikliklər tələb edir. Müasir pedaqoji nəzəriyyə və təcrübədə ümumtəhsil müəssisəsini səmərəli idarə etməyin yollarını tapmaq prioritet vəzifələrdən biridir.

Bu baxımdan dinamik pedaqoji proseslərdə idarəetməyə yanaşmaların dəyişməsi nəticəsində yaranan mürəkkəb təhsil sistemlərinin idarəedilməsinin obyektiv informasiya təminatı problemi və bunun nəticəsində idarəetmədə pedaqoji monitorinqin geniş tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

Digər eyni dərəcədə vacib problem, onun fundamental mahiyyətinin saxlanılması və fərdin, cəmiyyətin, dövlətin cari, gələcək ehtiyaclarına uyğunluğu əsasında müasir keyfiyyətin təmin edilməsi problemidir. Təhsilin keyfiyyətinin yüksəldilməsi təhsilin müasirləşdirilməsinin ən mühüm

vəzifələrindən biridir ki, onun həyata keçirilməsi həm ümumi təhsil müəssisəsinin, həm də bütün təhsil sisteminin səmərəli fəaliyyət göstərməsinə imkan verəcəkdir.

Artıq bu problemin həlli istiqamətində ilk addımlar atılıb: Dövlət təhsil standartları sosial zəruri standart kimi təkmilləşdirilir, təhsilin müxtəlif səviyyələrinin keyfiyyət meyarları və göstəriciləri hazırlanır, təhsildə pedaqoji monitorinqin təşkilində empirik təcrübə toplanır.

Bu iş növünün aktuallığı onunla əlaqədardır ki, məktəbi şüurlu idarə etmək yalnız təhsil prosesinin bütün subyektlərinin fəaliyyətinin nəticələri, onun təsirinin dərəcəsi və xarakteri haqqında tam, operativ və etibarlı məlumat olduqda mümkündür. Məhz təhsil məkanının bütün sahələrində monitorinq sisteminin tətbiqi tədris prosesinin mövcud vəziyyəti haqqında belə məlumat əldə etməyə imkan verir.

Monitorinq çərçivəsində pedaqoji sistemin faktiki nəticələrinin son məqsədlərinə uyğunluğunu üzə çıxaran əks əlaqə təmin edilməklə, həyata keçirilən pedaqoji tədbirlərin müəyyən edilməsi və qiymətləndirilməsi həyata keçirilir.

Monitorinqin məqsədi müəllimləri və rəhbərliyi idarəetmə qərarlarının qəbulu üçün zəruri olan yüksək keyfiyyətli və vaxtında məlumatla təmin etməkdir, təlim-tərbiyə prosesində istifadə olunan pedaqoji vasitələrin nə dərəcədə rasional olduğunu, didaktik vasitələrin (formaların, tədris metodlarının, tədris rejiminin və s.)

- məktəblilərin yaş xüsusiyyətlərinə nə dərəcədə adekvat olduğunu müəyyən emək,
- təhsilin yeni keyfiyyətini təmin etmək üçün sosial ehtiyacı müəyyən etmək,
- təhsilin yeni keyfiyyətini təmin etmək üçün sosial ehtiyac və onun kifayət qədər aydın olmayan pedaqoji şərhi,
- keyfiyyətli təhsil üçün sosial sifarişin icrasında daim nəzarət et mək zərurəti ilə onun adekvat qiymətləndirilməsi meyarlarının və mexanizmlərinin işlənib hazırlanması,
- təhsilin keyfiyyətinə nəzarətin ənənəvi sistemi və onun yeni meyarlar, yanaşmalar əsasında yeniləşməsi zərurəti,
- tələbələrin bilik, bacarıq və vərdişlərinin keyfiyyətinin ölçülməsi prinsipləri,
- onların idrak və sosial fəaliyyətini stimullaşdırmaq.

Məktəb təhsilinin keyfiyyətinin mahiyyətinin nəzəri əsaslandırılması problemini və onun monitorinqini təhsil müəssisələrinin səmərəli idarəedilməsini təmin edən mexanizm kimi formalaşmağa imkan verdi. Qeyd olunan hallar “Monitorinq təhsilin keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi” mövzusunun aktuallığını göstərir.

Geniş mənada təhsilin keyfiyyət göstəriciləri bütün təhsil müəssisələri üçün universaldır. Dar mənada təhsilin keyfiyyəti:

- təhsilin idarəedilməsinin keyfiyyəti (məqsədlər, vəzifələr, məzmun, kadr, elmi və metodiki təminat);
- təhsil şəraiti (sanitariya–gigiyenik, iqtisadi, maddi-texniki, informasiya, psixoloji, hüquqi, sosial, məişət, estetik, məkan);
- tədris prosesinin həyata keçirilməsinin keyfiyyəti;
- dövlət təhsil standartlarına uyğunluğunun keyfiyyəti;
- tələbələrin və onların valideynlərinin ehtiyaclarının ödənilməsinin keyfiyyəti;
- dövlət qurumlarının ehtiyaclarına uyğunluq keyfiyyəti;
- təhsilin yüksək keyfiyyətinə zəmanət verən təhsil müəssisəsinin imici.

Müəyyən dərəcədə sadələşdirmə ilə deyə bilərik ki, keyfiyyət müəyyən edilmiş standartlara uyğunluqdur və keyfiyyətin idarə edilməsi sistemi müəyyən bir standarta çatdırmaq prosesidir. “İdarə etmək qabaqcadan görmək, təşkil etmək, sərəncam vermək, əlaqələndirmək və nəzarət etmək deməkdir”. (A.Fayol)

Təhsilin keyfiyyətini idarə etmək həm dar, həm də geniş mənada müəyyən edilmiş göstəricilərə nail olmaq, təminatlı nəticə əldə etmək üçün bütün idarəetmə funksiyalarını yerinə yetirmək deməkdir.

***Ədəbiyyat***

1. *Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə // “Azərbaycan müəllimi” 30 may 2014, s. 8*
2. *Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, 2007, 385 s.*
3. *Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı, Müəllim, 2010, 170 s.*
4. *Климентьева О.В. Система оценки качества образования обучающихся начальной школы // https://urok.1sept.ru/articles/574819*

**H.A.Atakişiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*atakisiyeva00@internet.ru*

# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLİM-TƏRBİYƏ FƏALİYYƏTİNİN PLANLAŞDIRILMASI

***Xülasə***

*Müasir ali təhsil Azərbaycan təhsil sisteminin ən inkişaf edən mərhələlərindən biridir. Ali təhsilin ümumi təhsil proqramlarının həyata keçirilməsi şərtləri, strukturun yaradılması üçün ən son normativ tələblər dəyişən mühitdə təhsil prosesini həyata keçirməyə çağırılan müəllimlərin fəaliyyətinə birbaşa təsir göstərir.*

*Ölkənin müxtəlif regionlarında ali təhsil alan tələbələrin tərbiyəsini və təhsilini təmin edən təhsil müəssisələrində müəyyən problemlər yaşanır.*

# ПЛАНИРОВАНИЕ ВОСПИТАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ В ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Резюме***

*Современное высшее образование является одним из самых развивающихся этапов образовательной системы Азербайджана.*

*Условия реализации общеобразовательных программ высшей школы, новейшие нормативные требования к созданию структуры напрямую влияют на деятельность преподавателей, призванных осуществлять образовательный процесс в изменяющихся условиях.*

*В различных регионах страны существуют определенные проблемы в образовательных учреждениях, обеспечивающих обучение и подготовку студентов, получающих высшее образование.*

# PLANNİNG OF EDUCATİONAL ACTİVİTİES İN EDUCATİONAL İNSTİTUTİONS

***Abstract***

*Modern higher education is one of the most developing stages of the educational system of Azerbaijan. The conditions for the implementation of the general educational programs of higher education, the latest normative requirements for the creation of the structure directly affect the activity of teachers who are called to implement the educational process in a changing environment.*

*In various regions of the country, there are certain problems in educational institutions that provide education and training of students receiving higher education.*

***Açar sözlər:*** *təhsil, təlim-tərbiyə, ali təhsil müəssisələri, inkişaf*
***Ключевые слова:*** *образование, обучение, высшие учебные заведения, развитие*
***Key words:*** *education, training, higher education institutions, development*

## GİRİŞ

Bu gün bir təhsil müəssisəsinin həyatını pedaqoji prosesə uyğun müxtəlif sənədlər və planlar olmadan təsəvvür etmək çətindir. Gələcəyin vəziyyətini görmədən, ümumiyyətlə, hər hansı bir prosesi, xüsusən də təhsil prosesini məqsədyönlü və səmərəli idarə etmək çətindir, çünki bu, mürəkkəb, dinamik və daim inkişaf edən bir sistemdir.

Konkret sosial-pedaqoji şəraitdə tədris işinin qurulmasının rasional variantının seçilməsi məsələləri ilə alimlər, metodistlər və praktiklər məşğul olurlar.

Bu gün Azərbaycanda tələbələrin təhsili üçün bir çox müasir yanaşma və konsepsiyalar mövcuddur. Onların hamısı uşaqlarla tərbiyə işinin planlaşdırılmasında və təşkilində, tərbiyənin mürəkkəb məsələlərinin həllində, müəllimin pedaqoji mədəniyyətinin genişləndirilməsi və zənginləşdirilməsində müəllimə kömək edir. Axı təhsilin mürəkkəb və məsuliyyətli vəzifələrinin uğurla həlli daha çox təhsil işçilərinin hazırlıq səviyyəsindən, onların pedaqoji mədəniyyətindən, təhsilin qanunauyğunluqlarını, prinsiplərini və üsullarını bilməsindən asılıdır.

Planlaşdırma, onun nəzəri, metodoloji və praktiki aspektləri pedaqoji prosesin məqsədyönlü və səmərəli idarə edilməsinin ən mühüm elementləridir. Hazırda hər bir məktəbdə məktəb tədbirlərinin keçirilməsi üçün perspektiv və təqvim planı, məktəb direktoru və onun müavininin iş planları, ixtisasartırma planı, sinifdə tərbiyə işinin planı və s.

İndiki mərhələdə ali məktəblilərin təlim-tərbiyə fəaliyyətinin təşkilindən daha çox müəllimin tərbiyə işində çətinliklər var.

Beləliklə, pedaqoji fəaliyyətdə pedaqoji vəzifələrin qoyulması və həlli zamanı aşağıdakılarla ifadə olunan çətinliklər ümumi olur: müəllim tədris vəzifələrini inkişaf etdirən və tərbiyə edənlərlə necə tarazlaşdırmağı bilmir, təhsil tapşırıqlarının buraxılmasına yol verir; müəllim hər bir pedaqoji tapşırığı başqaları ilə bağlı olmadığı üçün ayrıca görür; pedaqoji problemlərin həllinin gecikmiş nəticəsini görmür, bunun nəticəsində tədris prosesi zəif planlaşdırılmışdır.

**Məktəbdə tərbiyə işinin planlaşdırılması kateqoriyalarının və formalarının öyrənilməsi:**

Planlaşdırma təkcə pedaqoji vəziyyətin inkişafında qeyri-müəyyənliyin payını əhəmiyyətli dərəcədə azaltmağa deyil, həm də bugünkü və sabahkı

hərəkətlərin davamlılığını təmin etməyə, habelə məktəblilərin tədris və tərbiyə proseslərini tənzimləməyə imkan verir:

- planlaşdırma prosesində pedaqoji fəaliyyətin həcminin, məqsədinin və məzmununun, onun predmetinin, konkret sahələrinin və növlərinin müəyyən edilməsi ilə əlaqəli bələdçi;
- planın hazırlanması zamanı pedaqoji planın formalaşdırılmasından, pedaqoji sistemin gələcək vəziyyətinin proqnozlaşdırılmasından, onun fəaliyyətinin və inkişafının nəticələrinin proqnozlaşdırılmasından ibarətdir;
- əlaqələndirici və ya təşkilati, müəllimlərə planlaşdırarkən ağlabatan və rasional hərəkətlərin köməyi ilə suallara aydın cavab almağa imkan verən kim, nə vaxt və nə etməli;
- pedaqoji kollektivə və ya ayrı-ayrı müəllimə tərtib edilmiş planın köməyi ilə nəzərdə tutulan məqsədə çatmaq üçün öz yolunun trayektoriyasına nəzarət etmək və tənzimləmək imkanı verən nəzarət;
- plana uyğun olaraq qısa müddətdən sonra yerinə yetirilən işlərin məzmununu və həcmini bərpa etməyin mümkün olduğunu nəzərə alaraq reproduktiv (1, s. 23).

Planlaşdırmanın bu formasının mənfi cəhəti ondan ibarətdir ki, bütün təhsil fəaliyyətləri təqvimə endirilir və plan xronoloji ardıcıllıqla düzülmüş elmi rəhbərlər tərəfindən fəaliyyətlərinin siyahısına bənzəyir. Eyni zamanda, tələbələrə təsir sistemini və texnologiyasını təhlil etmək çətindir, sinif komandasının rolu zəif izlənilir.

Planlaşdırmanın əməliyyat forması bir növ təqvim planıdır. Bu forma tələbələrin fəaliyyətini və hər həftə üçün elmi rəhbərlərin texnoloji funksiyalarını müəyyən etməyə imkan verir (3, s. 98).

Elmi rəhbərlərin və planlaşdırmanın digər iştirakçılarının fəaliyyətinin daha məqsədyönlü, nizamlı və səmərəli olması üçün təlim-tərbiyə işinin uzunmüddətli planının işlənib hazırlanması üzrə birgə fəaliyyəti planlaşdırmaq lazımdır. Təbii ki, hərəkətlərin ardıcıllığını təyin edərkən sinif rəhbəri planlaşdırma alqoritmi ilə bağlı biliklərindən istifadə edir (4, s. 76).

Lakin bunlarla yanaşı, müəllimdə təhsil işinin planlaşdırılmasının ümumməktəb miqyasında necə həyata keçiriləcəyi barədə məlumat olmalıdır. Təhsil müəssisəsində və onun struktur bölmələrində planlaşdırma prosesləri eyni vaxtda aparılmalıdır. (5, s. 8)

Ali təhsil müəssisələrində təlim-tərbiyə prosesinin planlaşdırılmasının ikinci mərhələsi ötən tədris ilində aparılan təlim-tərbiyə işinin təhlilindən ibarətdir. Pedaqoji təhlil çox vaxt zəhmət tələb edən və heç bir halda elmi rəhbərin peşə fəaliyyətinin ən zəruri hissəsi kimi qəbul edilir və bu, üstəlik, əhəmiyyətli intellektual və fiziki xərclər tələb edir. Tədris prosesinin təhlili elmi rəhbərin növbəti dövr üçün tərbiyə işini planlaşdırması üçün əsas ola bilər və olmalıdır. Bu, aşağıdakı şərtlərdə mümkündür:

- təhlil qeyri-rəsmi aparılmışdır;
- pedaqoji təhlil müxtəlif faktların və dəyər mühakimələrinin eklektik (müxtəlif və həmişə bir-biri ilə əlaqəli olmayan) birləşməsi deyil, aydın struktura malikdir və müəyyən elmi-metodoloji prinsiplər əsasında aparılır;
- analitik fəaliyyət işlənib hazırlanmış meyarlara-analitik aparata uyğun qurulur;
- təhlil kifayət qədər informativ və mənalıdır;
- elmi rəhbəri pedaqoji prosesin əksər subyektlərinin: müəllimlərin, tələbələrin, onların valideynlərinin, ali təhsil müəssisələrinin rəhbərliyinin, qrup kollektivinin bilavasitə qarşılıqlı əlaqədə olduğu pedaqoji ictimaiyyətin nümayəndələrinin fikirlərini nəzərə alır (4, s. 33).

**Kollektiv planlaşdırma texnologiyasının əsas istiqamətləri.**

Təcrübəli praktik müəllimlər və metodistlər iddia edirlər ki, ilkin iş olmadan tələbələrdən qarşıdan gələn tədris ili üçün sinif iş planına öz istəklərini əlavə etmək istənilirsə, istənilən nəticəni əldə etmək çətin ki, mümkün olsun.

Bu halda, kifayət qədər əsaslandırılmamış və primitiv təkliflər artıq sinifdə baş verənlərdən daha tez-tez alınacaq. Çox nadir hallarda orijinal və maraqlı ideyalar təklif olunur.

İstənilən texnologiya ardıcıl olaraq yerinə yetirilən hərəkətlərdən ibarətdir. Ali təhsil müəssisələrində tərbiyə işinin planlaşdırılmasının bu mərhələsində aşağıdakı tədbirlər həyata keçirilə bilər:

- tələbələr aktivləri ilə yeni dövr üçün qrup icmasının həyatının ilkin planlaşdırılması;
- kollektiv planlaşdırmaya pedaqoji dəstəyin təşkili;
- sinif icması tərəfindən sinifdə həyatın uzunmüddətli planlaşdırılmasının həyata keçirilməsi (6, s. 65).

Birgə planlaşdırma fəaliyyətində son addım pedaqoji planın dəqiqləşdirilməsi və düzəldilməsi tərbiyə işləri planının icrasıdır. Elmi rəhbəri kollektiv planlaşdırmanın texnika və üsullarından istifadə etdikdən sonra, bir qayda olaraq, yeni tədris ilində qrup icmasında həyat və tərbiyə prosesinin qurulması ilə bağlı özünün ilkin planını dəqiqləşdirir və korrektə edir.

Ali təhsil müəssisələrinin tədris fəaliyyətinin prosesi və nəticələrinin təhlili ali təşkilatlara hər bir məktəbdə təhsildə ən yaxşı nəticələrin əldə edilməsinin perspektivlərini, əsas istiqamətlərini və formalarını müəyyən etməyə imkan verir.

Elmi rəhbəri məktəbin, paralel siniflərin məqsədyönlü şəraitini, tələbələrin və onların valideynlərinin fikirlərini nəzərə almaqla, sinfin xüsusiyyətlərindən, onun həyatının xüsusiyyətlərindən asılı olaraq məqsəd və vəzifələri müəyyən edir.

Elmi rəhbəri öz fəaliyyətində tədris ili üçün tədris işinin təşkilinə dair Təhsil Nazirliyinin metodiki tövsiyələrini rəhbər tutmalıdır (5, s. 99).

**Tədris işinin planlaşdırılması təcrübəsinin vəziyyəti.**

Tədris fəaliyyətini planlaşdırarkən elmi rəhbərləri tələbələrin təhsilinin məqsədlərini, formalarını və üsullarını müəyyən etməklə yanaşı, yaradılmış sənədin məzmunu, forması və strukturu üçün ən yaxşı variantı tədris ili və ya altı ay üçün iş planını tapmağa çalışırlar. Planın bu və ya digər variantının seçilməsi çox dərəcədə müəllimin tələbənin şəxsiyyətinin inkişafında təhsilin mahiyyəti, qanunauyğunluqları və rolu haqqında nəzəri fikirlərindən, pedaqoji kollektivdə formalaşmış təhsil fəaliyyətinin planlaşdırılması və təşkili ənənələrindən asılıdır.

**Ali təhsil müəssisələrinin və elmi rəhbərinin şəxsi pedaqoji təcrübəsi haqqında.**

Müəllimlər hər il təlim-tərbiyə işlərini planlaşdırır və hər il öz planının məzmununun, formasının və strukturunun düzgün seçilməsi üzərində düşünürlər (2, s. 111).

Planın birinci bölməsi ənənəvi olaraq "Ötən tədris ilində tədris işinin təhlili" adlanır. Birgə fəaliyyət və ünsiyyət təcrübəsini təhlil etmədən, nailiyyətləri müəyyən etmədən və məktəbdə tədris prosesinin zəif tərəflərini müəyyən etmədən, qrup icmasında baş verən sosial prosesləri dərk etmədən, tələbələrin fərdi inkişaf meyllərini müəyyən etmədən mümkün deyil. Hədəfləri düzgün müəyyən etmək, gələcək üçün tədris fəaliyyətinin istiqamətlərini müəyyən etmək, tədris ili, təlim-tərbiyə işinin qurulması üçün optimal formaları, metodları, texnikaları seçmək (3, s. 44).

## NƏTİCƏ

Beləliklə, planlaşdırma təkcə pedaqoji vəziyyətin inkişafında qeyri-müəyyənliyin payını əhəmiyyətli dərəcədə azaltmağa deyil, həm də bugünkü və sabahkı hərəkətlərin davamlılığını təmin etməyə, habelə məktəblilərin təlim və tərbiyəsi proseslərini tənzimləməyə imkan verir.

Planlaşdırma texnologiyası nəzərə almalıdır ki, sinif uşaqların və böyüklərin maraqlarının, ehtiyaclarının, dəyərlərinin dəyişdiyi, şəxsiyyətlərarası emosional-psixoloji və işgüzar münasibətlərin tənzimləndiyi, ətrafdakı sosial və təbii mühitlə yeni əlaqələrin qurulduğu "canlı" bir orqanizmdir.

Buna görə də plan tərtib etməyin əsas şərti onun müəyyən bir sinif şagirdlərinin yaş və psixi xüsusiyyətlərinə, habelə uşaqların istək və imkanlarına yönəldilməsidir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyası haqqında Azərbaycan Respublikası prezidentinin sərəncamı, Bakı*
2. Abdullayev A., *Məktəbin idarə edilməsinin demokratikləşdirilməsi, Bakı*
3. *Cabbarov R.H., Təhsil müəssisələrində təlim-tərbiyə işlərinin planlaşdırılması sistemi, Bakı*
4. *Cabbarov R.H., Təhsil müəssisələrinin idarəetmə məsələləri, Bakı*
5. Cabbarov R.H., *Təhsil müəssisələrinin idarə edilməsində metodik xidmətin təşkili və planlaşdırılması, Bakı*
6. Eminov A., *XX əsrin ən böyük Azərbaycan pedaqogikası, Bakı*

**"Magistrant" dövri elmi jurnalında nəşr olunmaq məqsədi ilə təqdim edilən məqalələr üçün**

# TƏLƏBLƏR

- "MAGİSTRANT" dövri elmi jurnalında magistraturada təhsil alan magistrantların nəşr olunmamış elmi məqalələri qəbul edilir. Məqalə **Azərbaycan, ingilis, türk və ya rus** dilində jurnalın elektron ünvanına – **j.magistrant@adpu.edu.az**, **a_zamanov@mail.ru (müvafiq kafedra iclasının qərarı və elmi rəhbərin müsbət rəyi ilə)** göndərilir.
- Məqalə **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (70-100 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalədə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- Məqalənin həcmi **4-7 səhifə (15000-18000 işarə)** həcmində qəbul edilir.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba sırası ilə nömrələnməlidir. Məsələn: [5, s.152].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə verilən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalə geri qaytarılmır.

*Çapa imzalanmış 21.02.2023*
*Kağız formatı 60x84  1/16, çap vərəqi 33*
*Sifariş 62, sayı 100*

*ADPU-nun mətbəəsi*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912)493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*